**"NƏHCÜL –BƏLAĞƏ"**
**İmam Əli əleyhis-salamın xütbə, məktub və hikmətli kəlamları**

***(****tərcümə və şərh, 2 cilddə****)***

II CİLD

**Toplayan:**
Seyyid Rəzi

# NƏHCÜL-BƏLAĞƏ

## İmam Əli əleyhis-salamın xütbə, məktub və hikmətli kəlamları

***(****tərcümə və şərh, 2 cilddə****)***

## II CİLD

**Ədəbi redaktor:**
Akademik Hacı Bəkir Nəbiyev

**Texniki redaktor:**
Rauf Kərimov

# Feyzul-İslamın IV hissəyə yazdığı müqəddimə:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

أَلْحَمْدُ لِلّٰهِ عَلى ما عَرَّفَنا مِنْ نَفْسِهِ وَ أَلْهَمَنا مِنْ شُكْرِهِ وَ فَتَحَ لَنا مِنْ أَبْوابِ الْعِلْمِ بِرُبُوبِيَّتِهِ وَ دَلَّنا عَلَيْهِ مِنَ الْإِخْلاصِ لَهُ فِى تَوْحِيدِهِ وَ جَنَّبَنا مِنَ الْإِلْحادِ وَ الشَّكِّ فِى أَمْرِهِ وَ الصَّلوةُ عَلى عَبْدِهِ وَ رَسُولِهِ الْبَشِيرِ النَّذِيرِ السِّراجِ الْمُنِيرِ سَيِّدِ الْأَنْبِياءِ وَ الْمُرْسَلِينَ مُحَمَّدٍ وَ الِهِ الْأَئِمَّةِ الطَّيِّبِينَ.

اللّٰهُمَّ عَجِّلْ فَرَجَهُمْ وَ انْصُرْ شِيعَتَهُمْ وَ أَهْلِكْ أَعْدائَهُمْ مِنَ الْأَوَّلِينَ وَ الْاخِرِينَ امِينَ رَبَّ الْعالَمِينَ

Kim diqqət və düşüncə ilə «Nəhcül-Bəlağə»ni mütaliə etsə, əbədi səadətə yol tapar. Kim ona əməl etsə, Allah və Peyğəmbərin razılığını əldə edər və onun nəticəsində dünya həyatında başı uca və qəlbi diri, qəbr və qiyamətdə rahat, Cənnətdə isə kam alan olar. Bu müqəddəs kitab, bəşəriyyətin hidayətçi və bələdçisi olan İslam elm və hikmətlərinin xülasəsidir və o, səadət və xoşbəxtliyə çatmaq üçün cahilcəsinə təəssübdən əl çəkən və bu kitabı özünə örnək edən kəsi məqsədinə çatdırır. Çünki onda nadanlıqlar üzərindən pərdə götürülüb, həqiqətlər aşkar edilib və oxucu bu əsərdə hər bir hadisədən xəbərdar olur. Buna görə də onunla tanış olan və ona əməl edən kəs

azğınlıq yoluna qədəm qoymaz və avara və sərgərdan qalmaz. Onun bir fəslini diqqətlə mütaliə edən insaflı kəs bizim sözümüzün düzgünlüyünə və doğruluğuna inanar. Allaha şükr edirəm ki, uzun illərdən bəri onun məziyyət və xüsusiyyətləri ilə tanış olub bütün məclis və yığıncaqlarda hamını Əmirəl-möminin əleyhis-salamın kəlam və əməllərini araşdırıb onlara tabe olmağı tövsiyə edən məni ərəb dilini bilməyənlər üçün tərcümə və şərh etməyə müvəffəq edib. İndi dördüncü hissənin tərcümə və şərhinə başlayır və qadir Allahdan istəyirəm ki, bu və sonrakı iki hissəni başa çatdırmağa məni müvəffəq etsin.

**اللّهمَّ أَغْنِنِى بِمَسئَلَتِكَ عَنْ مَسْئَلةِ خَلْقِكَ وَارْحَمْنِى بِرَحْمَتِكَ يا أَرْحَمَ الرّاحِمِينَ**

**Fani bəndə: Əliyyənnəqi Feyzul-İslam İsfahani**
**Ali-Məhəmməd əd-Dibac.**

# 186- cı xütbə

İmam Əli əleyhis-salamın *(Allah-təalanın vəsfi, Həzrət Peyğəmbərin mədhi, nəsihət, təqva və pərhizkarlıq barəsindəki)* xütbələrindəndir.

Həmd o Allaha layiqdir ki, səltənətinin nişanələrindən və böyüklüyünün əzəmətindən qüdrət və bacarığının heyranlıqlarını aşkar etdi, gözləri mat və heyran qoydu və insanların zehnlərindən keçən fikirləri Öz sifətinin həqiqətlərinin dərkindən saxladı. *(Ağıl sahibləri Onun yaratdıqlarının müqabilində mat-məəttəl qalıblar və onların ağılları Onun həqiqətlərini dərk etməkdən acizdirlər.)* Şəhadət - iman, inam, niyyət saflığı və itaət üzündən olan bir şəhadət - verirəm ki, Allahdan başqa bir tanrı yoxdur. *(Bu şəhadətdə qəlbimlə dilim birdir və onda təqlid və riya yoxdur.)* Şəhadət verirəm ki, Məhəmməd Onun bəndəsi və elçisidir. Onu o vaxt göndərdi ki, qurtuluş nişanələri və dinin aşkar yolları aradan getmiş, viran olmuşdu *(insanlar zəlalət və azğınlıqda addımlayır, nəfsi istəklərin arxasınca gedirdilər)*. Belə olan halda, o, haqqı aşkar etdi, xalqa nəsihət verdi, *(danışıq və davranışda)* düzlük və doğruluğa hidayət etdi və mötədil yolu tutmağı əmr etdi. Allah ona və onun Əhli-Beytinə salam göndərsin.

Ey Allahın bəndələri! Bilin ki, Allah sizi boş yerə yaratmayıb, *(heyvanlar kimi)* özbaşına buraxmayıb *(bəlkə sizin üçün vəzifə və hökmlər müəyyənləşdirib ki, hər birini öz vaxtında yerinə yetirəsiniz)*, sizə verdiyi nemət və bəxşişlərin miqdarını bilir və mərhəmət və lütfünü sayıb *(ki, sizin şükr etməyinizi və naşükürlüyünüzü sınasın)*. Belə isə zəfər və qələbəni *(düşmənə qalib gəlməyi)* və hacətin rəva olmasını Ondan diləyin, öz istəyinizi Ondan istəyin və əta və bəxşişi Onda axtarın ki, sizinlə Onun arasında asılı pərdə və bağlı qapı yoxdur. O, hər yerdə və hər bir vaxt və zamanda hazırdır və hər bir insan və cinlə birlikdədir. Əta və bəxşiş Onu *(onun nemətlərini)* azaltmır və *(onlarda)* nöqsan yaratmır; Ondan istəyən Onun nemətini sona çatdırmır; arzulayan Onun xəzinələrinin sonuna çatmır;

heç kəs Onu digərindən saxlamır; bir səs Onu özünə məşğul edərək Onun digər səsi eşitməsinə mane olmur; (Qeyd)[1] *(nemət)* bağışlamaq Ona *(eyni zamanda digər neməti)* almağa mane olmur; qəzəb etmək Ona rəhm etməyə mane olmur; mehribanlıq Onu əzab etməkdən saxlamır; gözə görünməzlik Onun aşkar olmasına mane deyil və aşkar olmaq Onu gözə görünməzlikdən ayırmır. (Qeyd)[2] Həm yaxındır, həm uzaq, həm yuxarıdadır, həm də aşağıda, həm aşkardır, həm gizli və həm gizlindir, həm də aşkar. Cəzalandırıb, amma cəzalanmayıb. *(Hamının hesabını O edir. Amma heç kəsin Onun hesabını aparmaq dərki və qüdrəti yoxdur.)* Yaradılmışları fikirlə yaratmadı və heç bir işdə onlardan yardım istəməyə möhtac deyil. *(Çünki vücudu vacib olan varlıq acizlikdən uzaq və pakdır.)*

Ey Allah bəndələri! Sizə təqvalı və Allaha itaətkar olmağı tövsiyə edirəm. Çünki təqva *(sahibini səadətə çəkən)* cilovdur və *(işlərin nizam-intizamını saxlayan)* sütuna bənzəyir. Belə isə onun möhkəm bağlarına sarılın və həqiqətlərindən yapışın ki, gözlərin *(qorxu və vahimədən)* bərəli qalaraq qırpılmadığı və ətrafına nəzər sala bilmədiyi, qaranlığın hər yeri bürüdüyü və doğmaqları yaxın olan on aylıq hamilə dəvə sürüsünün sahibsiz qaldığı gündə(Qeyd)[3] sizi rahatlıq və əmin-amanlıq məkanları, geniş yerlər, qorunan hasarlar və hörmət bəslənilən mənzillərə çatdırsın *(heç bir çətinliyi və giriftarçılığı olmayan əbədi Cənnətə aparsın)*. Və Sur *(İsrafilin suru)* çalınacaqdır. Həmin vaxt bütün canlar bədənlərdən çıxacaq və bütün dillər lal olacaqdır *(ölüm hamını bürüyəcək)*; uca dağlar və möhkəm daşlar parçalanaraq dağılacaq, onların sərt daşı parlaq ilğım kimi görünəcək və onların durduqları və sakin olduqları yerlər hamar *(alçaq-hündürsüz)* olacaq

---

[1] *Çünki bir işə məşğul olaraq digər işdən qalmaq qəflətdən doğur və bu, cismin xüsusiyyətlərindəndir.*

[2] *Çünki O, həm aşkardır, həm gizli; nişanələri ilə aşkar, həqiqəti isə gözlərdən gizlindir.*

[3] *Hamının çətinlik və giriftarçılığın çoxluğundan öz nicat və qurtuluşu ilə məşğul olduğu və ən nəfis mallarına göz yumduqları (gün).*

*(abadlıq və heç bir nişanə qalmayacaq).* Beləliklə, *(həmin gün)* nə şəfaət edəcək *(günahın əvf edilərək bağışlanmasını istəyən)* şəfaətçi, nə çətinliyi dəf edəcək qohum, nə də xeyir verəcək üzr və bəhanə olacaq. *(Xülasə, təqva və pərhizkarlıqdan başqa bir sığınacaq yoxdur.)*

# 187- ci xütbə

İmam Əli əleyhis-salamın *(Həzrət Peyğəmbərin Allah tərəfindən göndərilmə zamanına toxunaraq təqva və pərhizkarlığa tövsiyə etdiyi, dünyanın çirkinliklərini açıqladığı və ölüm çatmamışdan yaxşı işlər görməyə təşviq etdiyi)* xütbələrindəndir.

Allah, Həzrət Peyğəmbəri o vaxt göndərdi ki, nə bir nişanə qalmışdı *(axırıncı peyğəmbərlə o Həzrət arasındakı zaman fasiləsi insanları haqq yoldan uzaqlaşdırmışdı),* nə parıldayan bir işıq *(haqq şəriət gizlin qalmışdı və heç kəs Allaha itaət etmirdi),* nə də aydın bir yol var idi. *(Hamı azğınlıqda və nadanlıqda sərgərdan idi. Belə bir vəziyyətdə o Həzrət bəşəriyyəti hidayət edərək bədbəxtlikdən nicat verdi.)* Ey Allahın bəndələri! Sizə təqvalı olmağı və Allaha itaət etməyi tövsiyə edirəm və dünyadan çəkindirirəm. Çünki dünya köç etmək diyarı və qəm-qüssə və dərd yeridir. Onun sakini gedən, məskunlaşanı ayrılandır. O öz əhlini bərk küləklər gəmiləri dənizlərdə hərəkətə gətirib titrətdiyi kimi titrədərək çəkişməyə salar. Beləliklə, sərnişinlərin bəziləri boğularaq həlak olarlar. Bəziləri isə nicat taparaq dalğaların üzərində çabalayarlar və küləklər onları bir tərəfdən digər tərəfə apararaq qorxu və nigarançılıqlara düçar edər. Boğulanı bir daha tapmaq mümkün deyil. Nicat tapan isə həlak olmağa tərəf gedir.(Qeyd)[1]

Ey Allahın bəndələri! İndi ki, dillər açıq, cisimlər sağlam, bədən itaətkar, get-gəl yeri genişdir və fürsət

---

[1] *Xülasə, insanlar dünyada dənizdə gəmisi xarab olmuş kəslər kimidirlər ki, bəziləri məhv olaraq aradan gediblər və onlardan heç bir xəbər və əlamət yoxdur. Bəziləri isə nəfsi istəklərə düçar olublar və həlakət yolunda hərəkət edirlər.*

qalmaqdadır, yoxluğun tələsməsindən və ölümün gəlib çatmasından qabaq iş görün *(Allaha ibadət və xalqa xidmət edin)*. Onun sizin yanınıza gəlməsini gerçəkləşmiş bilin və intizarını çəkməyin. (Qeyd)[1]

# 188- ci xütbə

İmam Əli əleyhis-salamın *(özünün Peyğəmbərə yaxınlıqda tək olması, xilafətə daha layiq olması və başqasının bu məqama layiq olmaması barəsindəki)* xütbələrindəndir.

Məhəmmədin *(səlləllahu əleyhi və alih)* qoruyucu olan *(Quran və onun sünnəsini qoruyan və onun sirlərindən xəbərdar)* səhabələrinin böyükləri bilirlər ki, mən heç vaxt bir saat belə Allah və Peyğəmbərin əmrindən kənarda olmamışam və igidlərin qaçdıqları və addımların qayıtdıqları *(heç kəsdə düşmənin qarşısını almaq cürəti olmayan)* yerlərdə *(çətinlik və müharibələrdə)* Allahın məni əziz tutduğu şücaət və igidliklə öz canımı Həzrət Peyğəmbərdən əsirgəməmişəm. Allahın Peyğəmbəri - səlləllahu əleyhi və alih - başı mənim sinəmdə olan halda canını tapşırdı və onun ruhu o mənim əllərim üzərində olanda bədənindən ayrıldı və mən *(təbərrük və türbət kimi)* əlimi üzümə çəkdim. O Həzrətin *(səlləllahu əleyhi və alih)* qüslünü öz öhdəmə götürdüm və mələklər mənə kömək etdilər. Sonra ev və onun ətrafı *(orada olanlar və get-gəl edən mələklər)* ağlayaraq nalə qopardılar. Mələklərin bir dəstəsi enir, digər bir dəstəsi isə yuxarı qalxırdılar. Onların o Həzrətə qıldıqları namazın səsi, onu qəbrinə qoyana kimi qulağımdan getmirdi. Belə olan halda, kim o Həzrətə həyat və ölümündə məndən daha yaxın və layiqdir?! *(Kim layiq və yaxın olmaq iddiası etsə yalan deyib və özünü nahaq yerə onun xəlifə və canişini hesab edib.)* Gözüaçıqlıq

---

[1] *Ölümün sizi haqlayacağı qəti olduğu üçün onu gəlmiş bilin. Amma intizar çəkən adam kimi gözü yolda olub bekar oturmayın.*

və bəsirətlə *(şəkk və tərəddüd etmədən)* tələsin. Gərək düşmənlə müharibədə sizin niyyətləriniz düz olsun *(nifaq və ikiüzlülük olmadan öz haqq imamınıza tabe olasınız)*. Ondan başqa bir tanrı olmayan Allaha and olsun ki, mən haqq yoldayam *(söz və əməllərim eyni ilə Allah və Peyğəmbərin buyurduqlarıdır)*. Bizim düşmənlərimiz isə batil sürüşkənliklərdədirlər *(pis işlərə əmr edən nəfsə və şeytana tabedirlər)*. Eşitdiklərinizi deyirəm (*ki, haqqı batildən seçəsiniz*) və Allahdan *(sizə giriftar olmuş)* özüm üçün və sizə *(keçmiş əməlləriniz üçün)* bağışlanma istəyirəm *(ki, bir də azğınlıq yoluna qədəm basmayasınız və haqq imama tabe olasınız)*.

# 189-cu xütbə

İmam Əli əleyhis-salamın *(Allahın elminin varlıqları əhatə etməsi, təqva və pərhizkarlığa təşviq, müqəddəs İslam dininin vəsfi, Həzrət Peyğəmbərin Allah tərəfindən göndərildiyi zaman və Qurani-Kərimin mədhi barəsindəki)* xütbələrindəndir.

Allah, otlayan heyvanların çöllərdəki səs və naləsindən, bəndələrin gizlindəki günahlarından, balıqların böyük dənizlərdəki get-gəllərindən və suyun bərk küləklər vasitəsi ilə dalğalanaraq bir-birinə dəyməsindən xəbərdardır. Şəhadət verirəm ki, Məhəmməd Allahın seçilmişi, vəhy *(hökmü)* gətirəni və Onun rəhmət və mehribanlıq elçisidir.

Allah-təalaya həmddən və Həzrət Mustafanın mədhindən sonra, sizi pərhizkarlığa və yaradılışınızın başlanğıcı Ondan olan, qayıdış və dönüş yeriniz Ona tərəf olacaq, ehtiyac və istəklərinizin həyata keçməsi Ondan asılı olan, arzu və diləyinizin sonu olan, doğru yolunuz Ona tərəf olan və pənah və sığınacağınız O olan Allahdan qorxmağa tövsiyə edirəm. Çünki təqva və Allahdan qorxmaq ürəklərinizin dərdlərinin dərmanı, qəlblərinizin korluğunun görməsi, cisimlərinizin xəstəliyinin şəfası, sinələrinizin fəsadının düzəlməsi, nəfslərinizin çirkinin təmizlənməsi, gözlərinizin örtüklərinin aydınlığı, qəlblərinizin qorxusunun əmin-amanlığı və *(nadanlıq)* zülmətlərinizin qaranlıqlarının

nurudur. Buna görə də Allaha itaət və tabeçiliyi *(bədənə yapışmayan)* üst paltarı deyil, alt köynəyi kimi öz adətiniz edin. Və *(hətta onu)* köynəyin altında bədəninizin daxili bir hissəsi edin, əndamınızda gizlədin onu. *(Xülasə, elə bir iş görün ki, sizin bütün bədən üzvləriniz Allaha itaətkar və tabe olsun.)* İşlərinizdə Onu hakim bilin *(bütün işlərdə Allahın əmr və qadağalarına tabe olun)* və *(onu qiyamətə)* daxil olacağınız zaman üçün çeşmə, istəyinizi almaq vasitəsi, *(çətin hadisələrdən)* qorxu gününüz üçün qalxan, qəbirləriniz arasındakı çıraqlar, qorxu və vahimənizin uzunluğunda ünsiyyət yoldaşı və kədərli yerlərinizin yüngüllüyü təyin edin. Çünki Allaha itaət və tabeçilik üz tutan təhlükəli *(və məhvə səbəb olan)* yerlərdən, qarşıya çıxması gözlənilən qorxulardan və *(günahkarlar üçün)* yandırılmış odun istiliyindən qoruyucudur. Buna görə də kim təqva və pərhizkarlığı öz peşəsi etsə, çətinliklər ona yaxınlaşandan və üz tutandan sonra ondan uzaqlaşar; işlər acılıqdan sonra onun üçün şirinləşər; dalğalar *(fitnə-fəsad)* ardıcıl gəldikdən sonra ondan uzaqlaşar, çətinliklər incidərək əziyyətə saldıqdan sonra ona asanlaşar; lütf və ehsan *(Allahın lütf və mərhəməti)* qəhətlikdən sonra ona çoxalar; rəhmət və mərhəmət uzaqlaşdıqdan sonra ona üz tutar; nemətlər azalandan sonra ona artar və bərəkət az yağışdan sonra yağan dolu yağış kimi ona çatar. Belə isə Özünün *(Qurani-Kərimdəki)* öyüdləri ilə sizi bəhrələndirmiş, *(peyğəmbərlər vasitəsi ilə)* sizə Öz hökmləri ilə nəsihət vermiş və nemət verməsi ilə sizə minnət qoymuş Allahdan qorxun. Buna görə də Ona ibadət və bəndəlik üçün öz nəfslərinizi ram edin və Ona itaət haqqını yerinə yetirin *(əmr etdiklərini yerinə yetirərək qadağan etdiklərindən çəkinib uzaq olun)*.

*(Təqva və itaətin vəsfindən)* sonra *(bilin)*, bu İslam Allahın dinidir ki, (O ondan başqasını bəyənmir və) onu Özü (Özünü tanıtdırmaq) üçün seçib, Öz qayğısı ilə bəsləyib, onun təbliği üçün yaratdıqlarının ən yaxşısını *(Həzrət Peyğəmbəri-səlləllahu əleyhi və alih-)* seçib və onun sütunlarını *(qanun və hökmlərini)* Öz məhəbbəti üzərində qurub. *(Buna görə də Allahı sevən kəs*

*İslamın hökmlərinə tabedir.)* Onun izzəti ilə *(başqa)* dinləri xar və həqir *(nəsx)* edib; onun böyüklüyü ilə millətləri cılızlaşdırıb; onun qələbəsi ilə düşmənləri qədir-qiymətsiz və kiçik edib; onun köməyi ilə müxalifləri məğlub edib; onun sütunu *(əsas kök və qanunları)* ilə azğınlıq *(nadürüst əqidələr)* dirəklərini viran edib; teşnələri *(elm və maarif susuzlarını)* onun hovuzlarından doydurub; onun su daşıyanları *(imamlar əleyhimus-salam)* vasitəsi ilə hovuzları doldurub *(Qurani-Kərimin ayələrinin təfsir, yozum və hökmlərinin yerlərini bəyan edib)*. Sonra onu elə *(möhkəm və qüvvətli)* edib ki, dəstəyi ayrılan və zəncirləri açılan deyil. Təməli viran, sütunları xarab olmaz. Onun ağacı yerindən çıxarılmayacaqdır. Onun müddətinin sonu yoxdur *(qiyamətə kimi bərqərar olacaq və onu nəsx etmək üçün peyğəmbər göndərilməyəcəkdir)*. Hökmləri köhnəlməyəcək və budaqları sındırılmayacaq. *(Heç vaxt hansısa bir alim, elmi əsaslarla onun hökmlərindən hansı birininsə düzlüyünü inkar edə bilməz.)* Yolları daralmayacaq, asanlıqları çətinləşməyəcək, ağlığı qara, düzlüyü əyri, çubuğu əyilmiş, geniş yolu qumluq, çıraqları söndürülmüş və şirinliyi acılıq olmayacaq. Buna görə də İslam, Allahın onun təməlini haqda yerləşdirdiyi *(batil və əyriliyin işləmədiyi)* və özülünü möhkəm etdiyi sütunlardır. O, arxları su ilə dolu olan çeşmələr, işıqları parlaq olan çıraqlar, gedənlərin, vasitəsi ilə yol axtardıqları nişanələr, (Qeyd)[1] vasitələri ilə yollar tapılan əlamətlər və daxil olanların onlarla doyduqları *(tabe olanların dünya və axirətdə xoşbəxt olduqları)* bulaqdır. Allah razılığının sonunu, hökmlərinin ən üstününü, itaət və bəndəçiliyinin ən yüksəyini onda qoyub. Buna görə də Allah yanında bu dinin təməli möhkəm, binası uca, dəlili aşkar, işığı parlaq, səltənəti əziz və nişanələri ucadır. Onu yox etmək mümkün deyil. *(Heç kəsdə onu məhv etmək və ya ona tənə vurmaq qüdrəti yoxdur.)* Belə isə onu möhtərəm və böyük tutaraq ona tabe

---

[1] *Yol gedən səfər adamı çöllükdə yolu nişanələrlə tapdığı kimi onun da dəlil və sübutları vardır ki, alimlər onlara əsaslanaraq dəlil gətirir, fikirlərini əsaslandırırlar.*

olun. Onun haqqını əda edin *(əmrlərini yerinə yetirərək qadağan etdiklərinin ətrafına belə fırlanmayın)*. Onu öz yerinə qoyun *(hökmlərindən heç birini dəyişdirməyin ki, dünyada ziyan görər, axirətdə isə əzaba düçar olarsınız)*.

*(İslam dininin şərafət və böyüklüyünün bəyanıdan)* sonra *(bil ki,)* eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah *(onun təbliği üçün)* Məhəmmədi *(səlləllahu əleyhi və alih)* haqq olaraq göndərdi, o zaman ki, *(çaxnaşma, giriftarçılıq və nahaq qan tökülməsinin çoxluğundan)* dünyanın bitməsi *(hər bir millətin dünyasının sonu, fəsad nəticəsində)* yaxınlaşmışdı, *(onların, ölümləri vasitəsi ilə)* axirət işindən xəbərdar olmaları *(onlara)* üz tutmuşdu, onun şadlıq və sevinci parladıqdan sonra qaranlıqlaşmışdı, öz əhlini *(çətinliklərə düçar etmişdi və çıxış yolu tapa bilmirdilər)*, onun yatağı narahatlaşmışdı və cilovu qatilin əlinə verilmişdi. Bu, müddətin sona çatdığı, *(viranlıq)* əlamətlərin*(in)* yaxınlaşdığı, əhalinin əldən getdiyi, halqanın sındığı, kəndirin qırıldığı, nişanələrin köhnəldiyi və məhv olduğu, eyblərin aşkar olduğu və onun uzun müddətinin qısaldığı zamanda idi. (Qeyd)[1] Eyb və nöqsan sifətlərdən uzaq və pak olan Allah o Həzrəti Öz peyğəmbərliyinin təbliğatçısı, ümmətin kəramətlilik amili, zəmanə əhlinin baharı *(sevinci)*, köməkçilərin baş ucalığı və yardımçılarının izzəti etdi. Sonra ona Quranı nazil etdi. Quran, nuru azalmayan çıraq, işığı sönməyən məşəl, dibi bilinməyən dəniz, gedərkən azğınlığa aparmayan yol, nuru tükənməyən parlaq şüa, dəlili azalmayan ayıran *(haqqı batildən ayıran)*, təməli viran olmayan bina, *(əhlinin)* xəstəliklərində qorxu olmayan şəfa *(çünki o, cismi və ruhi olmasından asılı olmayaraq qarşıya çıxa biləcək bütün xəstəliklərə şəfadır)*, yardımçıları məğlub olmayan şərəf və izzət, köməkçiləri basılmayan haqdır. Buna görə də Quran imanın mədəni və onun

---

[1] *Xülasə, Allah Həzrət Peyğəmbəri dünyanın hər yerini nadanlıq və azğınlıq bürüdüyü bir zamanda göndərdi və o Həzrət az bir müddətdə insanları hidayət və qurtuluşun əsas yolu ilə, eləcə də ilahi elm və maariflə tanış etdi.*

mərkəzidir; ədalət bağları və onun hovuzlarıdır; elmin çeşmələri və onun dənizləridir; İslamın binasının daşları və onun sütunlarıdır; haqqın səhraları və onun hamar çölləridir. O, elə bir dənizdir ki, su daşıyanlar onu boşaltmazlar; elə bir bulaqdır ki, su çəkənlər onun suyunu azaltmazlar; elə bir çeşmədir ki, daxil olanlar onu əskiltməzlər *(alimlər onun bütün sirrini dərk edə bilməyəcəklər)*, elə mənzillərdir ki, müsafirlər onların yolunu itirməzlər; elə nişanələrdir ki, yol gedənlər onları nəzərdən qaçırmazlar; elə təpələrdir ki, üz tutanlar onlardan aşa bilməzlər. Allah onu alimlərin susuzluqlarının yatırıcısı, müctəhidlərin qəlblərinin baharı, yaxşıların yollarının məqsəd və sonu, sonrasında ağrı qalmayan dərman, onunla zülmət olmayan nur, tutacaq yeri möhkəm olan ip, hündür qalası möhkəm olan sığınacaq, onu sevənin izzət və baş ucalığı, ona daxil olanın sülh və əmin-amanlığı, tabe olanın hidayət və qurtuluşu, onu özünə nisbət verənin üzrü, ona əsaslanaraq danışanın dəlili, onun vasitəsi ilə düşmənlə mübahisə edənin şahidi, onu dəlil gətirənin qələbəsi, ona əməl edənin qoruyucusu, onu işlədənin iti miniyi, nişanə axtaranın nişanəsi, başa tutanın qalxanı, yadında saxlayanın elmi, nəql edənin xəbəri, *(xalq arasında)* hökm verənin hökmü edib *(çünki Quran hər bir iş barəsində haqq olan hakimdir və ondan başqa bir şeyin hökm vermək haqqı yoxdur. Buna görə də Qurandan başqasından olan hökm nadürüstdür)*.

# 190- cı xütbə

İmam Əli əleyhis-salamın *(namaz, zəkat və əmanəti əda etmək barəsində)* öz səhabələrinə tövsiyə etdiyi kəlamlarındandır.

Namaz işinə riayət edin *(ki, o, möminin meracı, dinin sütunu və qiyamətdə bəndədən soruşulacaq ilk şeydir. Əgər qəbul olmuş olsa, digər əməllər də qəbul olar. Qəbul edilməyib hesaba alınmadıqda isə əməllərin heç biri insana bir fayda verməz)*. Onu qoruyun *(onun qılınmasının fəzilətli vaxtından qafil olmayın)* və onu çox yerinə

yetirin. Onun vasitəsi ilə (Allaha) yaxınlaşın. Çünki *(Qurani-Kərimin Nisa surəsinin 103-cü ayəsində buyurulduğu kimi «* **كَانَتْ عَلَى الْمُؤْمِنِينَ كِتَابًا مَّوْقُوتًا** *»)* namaz möminlərə yazılmış və vaxtı müəyyən edilmiş bir vacibdir. Məgər Cəhənnəm əhlinin *(Qurani-Kərimin Muddəssir surəsinin 42-43-cü ayələrində olduğu kimi «* **مَا سَلَكَكُمْ فِي سَقَرَ قَالُوا لَمْ نَكُ مِنَ الْمُصَلِّينَ** *»)* onlardan «sizi Cəhənnəmə salan nədir?» soruşularkən verdikləri bu cavaba ki, «onlar deyəcəklər: Biz namaz qılanlardan deyildik» *(cani-dildən)* qulaq asmırsınız? Namaz günahları yarpağın *(ağacdan)* tökülməsi kimi tökür və ilmələrin *(heyvanların boyunlarından)* açılması kimi açıb boşaldır. Allahın Peyğəmbəri *(səlləllahu əleyhi və alih)* namazı insanın qapısının ağzında olan və insanın gün ərzində beş dəfə içində çimdiyi su çeşməsinə bənzədib. Belə olan halda, *(məlumdur ki,)* həmin şəxsdə heç bir çirk qalmayacaqdır. Onun haqqını möminlərdən o şəxslər tanıyıblar ki, malın *(dünya malının)* zinəti, övlad və var-dövlət kimi göz aydınlığı olan şeylər onları ondan saxlamır. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah *(Qurani-Kərimin Nur surəsinin 37-ci ayəsində)* buyurur: « **رِجَالٌ لَّا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَن ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلَاةِ وَإِيتَاءِ الزَّكَاةِ** » «O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz.» Allahın Peyğəmbəri *(səlləllahu əleyhi və alih)* Cənnətlə müjdələnməsinə baxmayaraq, özünü namaz üçün çətinliyə salırdı *(çox namaz qılırdı)*. Səbəb eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın *(Ta-ha surəsinin 132-ci ayəsindəki)* bu buyuruğu idi ki: «**وَأْمُرْ أَهْلَكَ بِالصَّلَاةِ وَاصْطَبِرْ عَلَيْهَا**» «Əhlinə (əhli-beyt və ümmətinə) namaz qılmağı əmr et və özün də onun yerinə yetirilməsində səbrli ol.» Buna görə də o Həzrət həm öz əhlinə namazı əmr edirdi, həm də özünü onun çətinliklərinə səbrli olmağa məcbur edirdi.

Sonra, zəkat müsəlmanlar üçün namazla birlikdə tanışlıq vasitəsi edilib *(onun əda edilməsi namaz kimi Allaha yaxınlaşma vasitəsidir)*. Zəkat, onu öz istəyi, rəğbət və sevinclə əda edən kəs üçün kəffarə *(və günahların örtüyü)*, eləcə də oddan

*(Cəhənnəm odundan)* saxlayan və qoruyandır. *(Onu ödəyən)* heç bir kəs onun fikrində olmamalı və ona görə çox kədərlənməməlidir. Çünki *(malın fikrində olmaq və kədərlənmək var-dövlətə bağlılıq səbəbindəndir və ona bağlı olmaq Allaha yaxınlaşmağa ziddir və)* onu könülsüz verib *(əvəzində)* ondan üstün olan şeyə (*əbədi Cənnətə)* ümidvar olan kəs *(Allahı sevmək iddiasında yalançı və)* Həzrət Peyğəmbərin sünnəsinə nadandır. (Qeyd)[1] O, *(yəni, zəkatı ürəksiz verən şəxs)* savab və mükafat əldə etməkdə ziyana uğrayıb *(çünki savab və mükafatı əməl müqabilində verirlər, bu əməl isə Allahın razılığının əksinədir)* və əməldə azğındır *(çünki göstərişlərə zidd davaranıb)*. Onun peşmançılığı çoxdur *(çünki vəzifəsini yerinə yetirməsinə baxmayaraq, onun nəticəsindən məhrumdur)*.

*(Namaz və zəkatı yerinə yetirdikdən)* sonra əmanəti əda edin. Çünki onun əhli olmayan *(ona xəyanət edən)* kəs naümid edilər. Həqiqətən əmanət ucaldılmış göylərə, sərilmiş yerlərə və yüksəldilmiş möhkəm dağlara təqdim və təklif edildi. Onlardan hündür, geniş, uca və böyük bir şey yoxdur. Əgər bir şey yüksəklik, ya genişlik və ya qüvvətlilik, yaxud da qüdrətlilik səbəbindən *(o əmanəti qəbul etməkdən)* imtina etsəydi, mütləq göylər, yerlər və dağlar imtina edər, təslim olmazdı. Lakin *(onların əmanəti qəbul etməkdən çəkinmələrinin səbəbi əmrdən boyun qaçırmaq və itaətsizlik deyil, üzrxahlıq cəhətindən idi və)* onlar cəzadan *(ona xəyanət etməkdən)* qorxdular və onlardan daha zəif olan insanın bilmədiyi şeyi bildilər. «O, çox zalım və nadandır.»

---

[1] *Çünki onun verilməsinin sünnəsi budur ki, o ikrah və narahatçılıqla deyil, könül xoşluğu və sevinclə verilməlidir. Necə ki, Qurani-Kərimin İnsan surəsinin 8-9-cu ayələrində buyurur:* « **وَيُطْعِمُونَ الطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا إِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ اللَّهِ لَا نُرِيدُ مِنكُمْ جَزَاء وَلَا شُكُورًا** » *«Onlar Allahı sevdikləri üçün (müsəlman) yoxsul və atasız uşağa və (müşrik) əsirə yemək verərlər, (bu niyyətlə ki,) sizi ancaq Allah sevgisinə görə yedirdirik və sizdən heç bir mükafat və təşəkkür istəmirik.»*

(Qeyd)[1] *(İmam əleyhis-salam burada namaz, zəkat və əmanətin əda edilməsinin əksinə çıxmaq barəsində belə buyurur:)*

Bəndələrin gecə və gündüz ərzində etdikləri, eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allaha gizlin deyil. O, onların ən kiçik işlərindən agah, əməllərindən xəbərdardır. Sizin bədən üzvləriniz Onun şahidləri, bədənləriniz qoşun və əmrinə tabe olanlar, düşüncələriniz gözətçiləridir və sizin gizliləriniz Onun yanında aşkardır.[2]

# 191- ci xütbə

İmam Əli əleyhis-salamın *(Müaviyənin fikirlərinin daha dolğun və tökdüyü tədbirlərin o Həzrətin tədbirlərindən daha yaxşı olmasını güman edən kəsin zənninin səhv olması barəsindəki)* kəlamlarındandır.

---

[1] *Qurani-Kərimin Əhzab surəsinin 72-ci ayəsində buyurur: «* **إِنَّا عَرَضْنَا الْأَمَانَةَ عَلَى السَّمَاوَاتِ وَالْأَرْضِ وَالْجِبَالِ فَأَبَيْنَ أَن يَحْمِلْنَهَا وَأَشْفَقْنَ مِنْهَا وَحَمَلَهَا الْإِنسَانُ إِنَّهُ كَانَ ظَلُومًا جَهُولًا** *» «Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik. Onlar onu götürməkdən qorxub çəkindilər. Çox zalım və cahil olan insan isə onu götürdü.» Bu mübarək ayənin təfsir və izahında deyiblər ki: Əmanətdən məqsəd bəndələrin hər birinin istedadı miqdarında eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allaha itaət və bəndəlik etmək vəzifəsidir. İtaət və bəndəliyin ən mühümü isə onun əhli üçün ilahi xilafəti qəbul etmək və həmin məqamı özü üçün iddia etməməkdir. Onun göylər, yer və dağlara təklif edilməsi və onların qəbul etməmələrindən məqsəd isə onların ləyaqətlərinin olmamasını başa salmaqdır. İnsanın təslim olaraq onu qəbul etməsindən məqsəd ona layiq olana təkəbbür göstərib ləyaqəti olmadan onu özünə nisbət verən kəsdir. Zalım və nadan olmaqdan məqsəd isə qəzəb və şəhvət qüvvələrinin ona hakim olmasıdır. Əmanətin mənası barəsində digər sözlər də deyilib və çoxlu rəvayətlər nəql edilib ki, onların barəsində dərindən fikirləşərək düşünmək lazımdır. Deməl olar ki, əmanətin təqdim və təklif olunması ayəsi Qurani-Kərimin «mütəşabih» ayələrinə bənzəyir.*

[2] *Buna görə də elə güman etməyin ki, yoxlanış günü sizin düşüncə, söz və əməllərinizdən nəsə yaddan çıxacaq və barəsində sorğu-sual edilməyəcəkdir. Bu güman səhvdir və onun nəticəsi əbədi peşmançılıq və bədbəxtçilikdir.*

Allaha and olsun ki, Müaviyə məndən zirək deyil, əksinə, o, vəfasızlıq və xəyanət edib, günah və itaətsizliklə məşğuldur. (Qeyd)[1] Əgər hiyləgərlik və vəfasızlıq xoşagəlməz olmasaydı *(Allah ona əzab müəyyənləşdirməsəydi)*, mən insanların ən zirəngi olardım. Amma *(bilin ki,)* bütün hiylə və vəfasızlıqlar günahdır və hər bir günah itaətsizlikdir. Qiyamət günü əhd-peymanını pozmuş hər bir kəs üçün bir bayraq və nişanə olar və o, onunla tanınar *(günahı üzə çıxaraq onu oda aparar)*. Allaha and olsun ki, mən *(həmişə onların məkr və hiylələrindən xəbərdar olduğum üçün)* qəflətə düşüb qəfillənmirəm ki, barəmdə kələk və hiylə işlətsinlər və çətinlik və giriftarlıqlarda aciz qalmır və zəif düşmürəm. (Qeyd)[2]

# 192- ci xütbə

İmam Əli əleyhis-salamın *(nicat yoluna təşviq etdiyi, haqqa tabe olanların azlığından nigaran olmamaq barəsindəki və pis işlərdən çəkindirməyi tapşırdığı)* kəlamlarındandır.

Ey insanlar! Hidayət və nicat yolunda ona tabe olanların azlığından *(və müxaliflərin çoxluğundan)* qorxub vahiməyə düşməyin. Çünki insanlar toxluğu az, aclığı isə çox olan bir süfrənin başına toplaşıblar. (Qeyd)[3] Ey insanlar! *(Günah və itaətsizliyə)* razı olmaq və *(itaət və bəndəlikdən)* qəzəbə gəlmək insanları bir yerə toplayır *(əzaba hazırlayır, hətta həmin əməli yerinə yetirən bir nəfər olmuş olsa belə! Çünki o, razı olmaq və ya qəzəblənməklə həmin işi görmüş kəs kimidir.)* Səmudun *(bu qəbilənin*

---

[1] *Bütün işlərdə hiylə və kələk işlədir və əhd-peymanına vəfa etmir. Buna görə də nadanlar elə bilirlər ki, bu, onun zirəklik və alimliyindən irəli gəlir.*

[2] *Çünki hamıdan daha güclüyəm. Lakin Allah və Peyğəmbərin göstərişlərinə tabe olmaq üçün Onların razılıqları olmayan şeydən üz döndərirəm. Bu, başqasının nəzər və düşüncəsinin məndən üstün və güclü olmasına dəlil deyil. Çünki o, şeytana və nəfsi istəklərinə tabedir. Mən isə hər bir işdə Allahı nəzərdə tuturam.*

[3] *Dünyanın tezliklə fani olacaq zinət və bəzəyinə ürək bağlayıblar və bu bağlılığa və haqqa tabe olmamağa görə qiyamətdə sonsuz əzab və çətinliyə düçar olacaqlar.*

*peyğəmbəri olmuş Həzrət Salehin)* dəvəsini bir nəfər kəsib öldürdü. Allah isə onların hamısını əzaba düçar etdi. Ona görə ki, onlar dəvəni öldürməyə razı olmuşdular. Bu səbəbdən eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah *(Qurani-Kərimin Şüəra surəsinin 157-ci ayəsində)* buyurur: «**فَعَقَرُوهَا فَأَصْبَحُوا نَادِمِينَ**» «Səmud tayfası dəvəni kəsib öldürdülər və sonrakı səhərdə *(Həzrət Salehin onlara xəbər verdiyi əzabın nişanələrini müşahidə edən kimi)* peşman oldular.» Beləliklə, *(dəvənin öldürülməsini onların hamısına nisbət verib. Çünki imkanlarının olmasına baxmayaraq, dəvəni öldürənə mane olub qarşısını almadılar. Hətta onun əməlinə razı da oldular və)* əzabları belə oldu ki, onların yerləri, *(zəlzələ və imarətlərinin)* batması nəticəsində qızmış kotan düz yerdə səs edən kimi səs etdi.

Ey insanlar! Kim düz yol ilə hərəkət etsə, abadlığa çatar *(və susuzluqdan qurtular)*. Kim səhv və əyri yol ilə getsə *(ayağını düz yoldan kənara qoysa)*, otsuz-susuz çöllüyə düşər *(susuzluqdan ölər. Xülasə, kim Allah və Peğəmbərin göstərişlərinə uyğun davransa, xoşbəxt olar. Şeytana və pis işlərə əmr edən nəfsə tabe olan kəs isə əzaba düçar olacaq).*

# 193- cü xütbə

İmam Əli əleyhis-salamın, xanımlar xanımı Fatimə əleyhas-salamı torpağa tapşırarkən buyurduğu nəql edilmiş kəlamlarındandır. O, sanki Allahın Peyğəmbəri *(səlləllahu əleyhi və alih)* ilə, o Həzrətin məzarı müqabilində dayanıb sir danışırdı:

Salam olsun sənə, ey Allahın Peyğəmbəri, məndən və sənin kənarına enmiş *(Bəqi qəbristanlığında, ya evində, ya da Həzrət Peyğəmbərin hərəmində dəfn edilmiş)* və sənə tez qovuşmuş qızından! *(Alimlərin məşhur nəzərinə əsasən, Həzrət Fatimə atasından sonra dünyada yetmiş beş gün yaşayıb.)* Ey Allahın Peyğəmbəri! Mənim sənin seçilmişinə *(onun ayrılığına)* səbrim azaldı və ona *(onun getməsinə)* görə taqət və gücüm əldən çıxdı. Amma mənim üçün, səndən ayrılmağı və sənin

müsibət və qəminin çətinliyini gördükdən sonra səbrliliyin yeri var. (Qeyd)[1] Halbuki sənin başını qəbirinin ləhədinə *(çuxuruna)* mən qoydum və ruhun bədənindən mənim boynumla sinəm arasında çıxdı. *(Bu qədər məhəbbət və bağlılıqla nələr çəkdiyim məlumdur. Amma yenə səbr və dözümlülüyə yer var. Çünki)* «Biz Allahınıq və Ona tərəf qayıdacağıq.» (Qeyd)[2] Həqiqətən əmanət *(Fatimə əleyhas-salam)* geri qaytarıldı və girov təhvil alındı. Amma *(bu müsibətdə)* bundan sonra həmişə qəm-qüssədə olacaq və Allah mənim üçün sənin məskunlaşdığın diyarı seçənə *(məni sənə birləşdirənə)* kimi gecəm oyaqlıqla keçəcək. Çox tezliklə qızın sənə, ümmətinin o məzluma zülm etməkdə birləşmələrindən *(onun haqqını tanımamalarından, qabırğasını sındırmalarından, bətnindəki uşağı salmalarından və Fədəyini qəsb etmələrindən)* xəbər verəcək. Buna görə də ondan baş verənlərin hamısını soruş və bizimlə necə rəftar etmələrini xəbər al. Onlar bizə bu qədər zülm etdilər, halbuki sənin getməyindən bir *(o qədər də çox)* müddət keçməmişdi və sənin xatirələrin unudulmamış, itməmişdi. Sizin hər ikinizə salam olsun, qəzəblənmiş, incimiş və qəlbi sıxılmış şəxsin deyil, *(məhəbbət və sevgi ilə)* vidalaşanın salamı! Buna görə də getsəm, bu, məhəbbətin olmamasından deyil. Həmçinin əgər qalsam, bu, Allahın səbrlilərə vəd etdiklərinə qarşı pis gümanda olmaqdan deyil. *(Sizin yanınızdan gedirəm. Amma hər yerdə sizi xatırlayacağam.)*

# 194- cü xütbə

---

[1] *Fatimə əleyhas-salamdan ayrılmaq müsibətinin ağır və böyük olmasına baxmayaraq, bu, səndən ayrılmaq müsibətindən çətin deyil. Həmin müsibətə səbr etdiyim üçün bu müsibətə də səbr edəcəyəm.*

[2] *Bizim canlarımız Onun ixtiyarındadır və bu dünya qalmaq yeri deyil. Buna görə də hamımız sənin yanına gələcəyik və əməl yükünü orada açacağıq.*

İmam Əli əleyhis-salamın *(dünyaya ürək bağlamamaq və itaət və bəndəliyə həvəsləndirmək barəsindəki)* kəlamlarındandır.

Ey insanlar! Həqiqətən dünya keçid evi, axirət isə qalmaq yeridir. Buna görə də keçid yerindən qərar tutulacaq yeriniz üçün (azuqə) götürün. *(Nə qədər ki, dünyadasınız, axirətdə xoşbəxt olmağınız üçün Allaha ibadət və xalqa xidmət edin.)* Sizin sirlərinizi bilənin yanında pərdələrinizi tam götürməyin *(Allaha itaətsizlik etməyin)*. Bədənləriniz dünyadan çıxarılmamışdan, qəlblərinizi ondan çıxardın. *(Ölümü asanlıqla qarşılamaq üçün dünyaya ürək bağlayaraq vurğun olmayın. Çünki)* siz dünyada sınaq qarşısındasınız və ondan başqası *(axirət)* üçün yaradılmısınız. Biri ölən zaman *(dünyapərəst)* insanlar deyirlər: *(Mal-dövlətdən)* yerdə nə qoydu? Mələklər isə deyirlər ki: Qarşıya *(ibadət və bəndəlikdən)* nə göndərdi? Allah atalarınızı bağışlasın! Bir hissəni *(mallarınızın bir hissəsini)* qarşıya göndərin *(Allahın göstərişi əsasında paylayın)* ki, sizin xeyriniz ondadır. Hamısını yerdə qoymayın ki, sizin ziyanınızadır *(bunun çoxlu çətinlikləri vardır)*.

# 195- ci xütbə

İmam Əli əleyhis-salamın *(axirət səfəri üçün azuqə tədarükü görməyə həvəsləndirdiyi)* kəlamlarındandır ki, öz səhabələrinə *(işa namazından sonra)* onunla öyüd-nəsihət verərdi:

Allah sizi bağışlasın! Səfər *(axirət səfərinin)* təchizatlarını hazır edin. Çünki aranızda köç etmək çağırışı ucalıb. (Qeyd)[1] Dünyada qalmağı az sanın *(ona ürək bağlamayın)* və əliniz çatan layiqli azuqə *(itaət və bəndəlik)* ilə *(Allaha tərəf)* qayıdın. Çünki sizin qarşınızda kələ-kötür keçid və döngələr, qorxunc və dəhşətli mənzillər vardır *(ölümün çətinlikləri, qəbr və Bərzəx aləminin giriftarçılıqları və qiyamət*

---

[1] *Allah Qurani-Kərimin Nisa surəsinin 78-ci ayəsində buyurur: «* **أَيْنَمَا تَكُونُواْ يُدْرِككُّمُ الْمَوْتُ وَلَوْ كُنتُمْ فِي بُرُوجٍ مُّشَيَّدَةٍ** *» «Harada olursunuz olun, hətta uca və möhkəm qalalar içərisində olsanız belə, ölüm sizi haqlayacaq.»*

*gününün sorğu-sual məntəqələri qarşınızdadır)* ki, onlara daxil olmaq və onlarda dayanmaq məcburiyyətindəsiniz. Bilin ki, ölümün gözucu baxışları sizə tərəfdir və sanki onun sizə batırdığı caynaqlarında əsirsiniz *(ondan qurtula bilməzsiniz)*. Çirkin, çox çətin və ağır işlər sizi ondan gizlədib. Buna görə də dünyaya bağlılıqları *(özünüzdən)* uzaqlaşdırın və özünüzü pərhizkarlıq azuqəsi ilə gücləndirin. (Qeyd)[1] *(Seyyid Rəzi deyir:)*

Bundan qabaq *(84-cü xütbədə)* bu kəlamın bəziləri bu rəvayətdən fərqli bir rəvayətdə keçdi.

# 196- cı xütbə

İmam Əli əleyhis-salamın Təlhə ilə Zübeyr onunla xilafətdə beyət edib onlarla məsləhətləşməyi tərk etməsi və işlərdə onlardan kömək istəməməsindən şikayətləndikdən sonra, onlara buyurduğu kəlamlarındandır.

Həqiqətən siz azdan *(məsləhətləşməməkdən və sizə böyük görünən meyl və istəklərinizə uyğun davranmamaqdan)* narazı idiniz və çoxu arxaya atdınız. (Qeyd)[2] Mənə deyin görüm, sizin nədə haqqınız olub və mən onu sizdən əsirgəmişəm? Yaxud *(müsəlmanların beytülmalından)* hansı payı özüm götürüb sizə verməmişəm? Yaxud hansı haqq və ixtilaflı məsələ olub ki, müsəlmanlardan biri onu mənim yanıma gətirib və mən onda *(onun hökmünü bəyan etməkdə)* aciz qalmışam və ya onu bilməyib hökmündə səhv etmişəm? *(O adam məsləhətləşər ki, işin yolunu bilmir; köməyi o adam istəyər ki, aciz qalır.)*

Allaha and olsun ki, mən xilafəti istəmirdim, hakimiyyətə meylim yox idi. Amma siz məni dəvət edərək ona məcbur etdiniz. Xilafət mənə çatandan sonra isə mən

---

[1] *Var-dövlət, övlad və dünya malının məhəbbətini qəlbinizdən qovub çıxarın, zahidlik və pərhizkarlığı öz peşəniz edin.*

[2] *Allahın vacibi haqlara riayət etmək və mənə tabe olmaqla əldə etməli olduğunuz razılıq və şadlığına göz yumdunuz.*

Allahın kitabına *(Qurani-Kərimə)* və bizim üçün *(onda)* müəyyənləşdirdiyi və onun əsasında hökm çıxarmağımızı əmr etdiyi göstərişlərə nəzər salaraq tabe oldum. Həmçinin Peyğəmbərin *(səlləllahu əleyhi və alih)* qoyduğu sünnəyə baxıb *(onun)* arxasınca getdim. Bu barədə sizin və sizdən başqasının nəzər və fikirlərinə möhtac deyildim və elə bir hökm qarşıya çıxmayıb ki, onu bilməyib sizinlə və digər müsəlman qardaşlarla məsləhətləşmə aparım. Əgər belə olsaydı *(hökmlərdən hansısa birini bilməsəydim)* sizdən və başqalarından üz çevirməzdim *(məsləhətləşmə aparardım)*. Beytülmalın bölüşdürülməsində bərabər və yeksan davranmağımın *(sizi digər müsəlmanlarla bərabər bilib heç kəsi digərindən üstün tutmamağımın)* səbəbi barəsində dediklərinizə gəldikdə isə *(bilin ki)*: Mən bu məsələdə də öz nəzərim və nəfsi istəklərlə hökm çıxarmamışam. Allahın Peyğəmbərinin *(səlləllahu əleyhi və alih)* gətirərək bərqərar etdiyi hökmlər həm mənim, həm də sizin əlinizdədir *(onları dəyişdirmək, əvəz etmək olmaz)*. Allahın, bölüşdürülməsi və müəyyənləşdirilməsi barəsində göstəriş verdiyi və barəsində hökm imzaladığı şeydə də sizə ehtiyacım yox idi. Buna görə də Allaha and olsun ki, mənim yanımda sizin və sizdən qeyrisinin məndən şikayətlənərək məzəmmət etməyiniz üçün heç bir haqqınız yoxdur. Allah bizim və sizin qəlblərinizi haqqa yönəltsin *(ki, söz və əməldə Onun razılığını əldə edək)* və həm bizə, həm də sizə səbr əta etsin *(ki, dünya və onun malına görə Onun göstərişlərinə zidd davranmayaq)*.

## İmam əleyhis-salam sonra belə buyurdu:

Allah haqqı görüb ona kömək edəni *(ona qarşı bir söz danışmayıb bir addım atmayanı)* və ya gördüyü zülmün qarşısını alıb zalıma qarşı məzluma yardımçı olanı bağışlasın!

# 197- ci xütbə

İmam Əli əleyhis-salamın Siffeyn müharibəsi günlərində səhabələrindən bir dəstənin Şam qoşununu söyməsini eşidərkən buyurduğu kəlamlarındandır.

Mən sizin *(Şam əhalisinə qarşı)* söyüş söyməyinizi bəyənmirəm. (Qeyd)[1] *(Sonra İmam əleyhis-salam buyurur:)* Amma əgər onların əməllərini açıqlasanız və vəziyyətlərini *(zülm və sitəmlərini, şəhvət və nəfsi istəklərə tabe olmalarını, haqq yoldan çıxmalarını və bu kimi sözləri)* xatırlatsanız, bu, danışarkən *(söyməkdən)* daha yaxşı və *(etiraz edərək «onlarla nə üçün müharibə edir, vuruşursunuz?» deyən kəsə)* dəlil gətirmək məqamında daha tutarlı və yetərli olar. Yaxşı olar ki, onları söyməyin əvəzinə belə deyəsiniz: Allahım! Bizim və onların qanlarını tökülməkdən qoru; bizimlə onların

---

[1] *Bu cümlə onları söyməyin haram olmasına dəlalət etmir. Çünki mömindən başqasını, yəni, kafir və fasiqləri, Məhəmməd Əhli-Beytinin (əleyhimus-salam) düşmənlərini söyməyin mümkün və icazəli olmasında heç bir şəkk-şübhə yoxdur və onlardan uzaq olaraq onlara nifrət bildirmək vacibdir. O Həzrətin bu müharibə və vuruşmadan məqsədi hakimiyyət və səltənəti ələ almaq deyil, insanların hidayəti, onları düz yola istiqamətləndirmək və İslam kəlməsini ucaltmaq olduğu üçün İmam əleyhis-salam həmin kəlamı ilə söyüşün düşmənçilik və kin-küdurətin artmasına səbəb olmasını nəzərdə tutur. Çünki belə olan halda, onlar da nadanlıq üzündən o Həzrəti və onun qoşununu söyərlər. Allahın dostunu söymək də Peyğəmbəri söymək deməkdir. Peyğəmbəri söymək isə Allahı söyməkdir və oda girməyə səbəb olur. Xülasə, Allahın, Peyğəmbərin və o Həzrətin haqq canişinlərinin düşmənlərinə tənə vurmaq və onları söymək şəriət baxımından icazə verilmiş və müstəhəbbi bir işdir və onlardan uzaq olaraq onlara nifrət bəsləmək vacibdir, necə ki, on doqquzuncu kəlamda İmam əleyhis-salam öz qoşunu arasındakı münafiqlərdən olmuş Əşəs ibn Qeysi lənətləyib. Amma can və mala zərər dəyməsi qorxusu olanda və özünü müdafiə etməyə qadir olmayanda onlardan çəkinərək uzaq olmaq da vacibdir. Buna görə də Qurani-Kərimin Ənam surəsinin 108-ci ayəsində buyurur:* «وَلاَ تَسُبُّواْ الَّذِينَ يَدْعُونَ مِن دُونِ اللّهِ فَيَسُبُّواْ اللّهَ عَدْوًا بِغَيْرِ عِلْمٍ» *«Allahdan başqalarına tapınanları söyməyin. Yoxsa onlar da bilmədikləri üzündən Allahı düşməncəsinə söyərlər.»*

aralarını düzəlt; onlara azğınlıqlarından nicat ver ki, haqdan xəbərsiz olan onu tanıya bilsin və azğınlıq və düşmənçilik hərisi və vurğunu olan kəs ondan əl çəksin.

# 198- ci xütbə

İmam Əli əleyhis-salamın Siffeyn müharibəsi günlərinin birində oğlu Həsən əleyhis-salamın döyüş meydanına tələsdiyini görərkən buyurduğu kəlamlarındandır.

Mənim yerimə bu gəncə sahib durub onu saxlayın *(onun döyüşməsinin qarşısını alın)*. Məbadə məni kədərləndirsin. Çünki mən bu iki gəncin yəni, Həsənlə Hüseyn əleyhimas-salamın ölümünə xəsislik edirəm *(razı deyiləm)* ki, onların ölümü ilə Allahın Peyğəmbərinin *(səlləllahu əleyhi və alih)* nəsli kəsilməsin. *(Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

O Həzrət əleyhis-salamın «إمْلِكُوا عَنِّى هذَ الْغُلاَمَ» «mənim yerimə bu gəncə sahib durun» kəlamı ən gözəl və fəsih kəlamlardandır.

# 199- cu xütbə

İmam Əli əleyhis-salamın *(Siffeyn müharibəsində)*, səhabələri onunla «həkəmiyyət» *(döyüşən tərəflər arasında hakim təyin etmək)* məsələsi barəsində müxalifət edərkən buyurduğu kəlamlarındandır.[1] (Qeyd)

---

[1] *Şam qoşunu İraq qoşunu ilə döyüşməkdə aciz qalaraq məğlub olan zaman Əmr ibn Asın hiyləgərliyi ilə Quranları nizələrin başına keçirib onları Quranın hökmünə dəvət etdi və sülh və barışıq edilməsini istədi. Buna görə də İraq qoşununun bəziləri Şam qoşununun düz deməsinə inandığı üçün, bəziləri müharibədən yorulduğuna görə, bəziləri isə özünü zahirdə itaətkar göstərməsinə baxmayaraq, batində İmam əleyhis-salamla düşmənçiliyinin olması səbəbindən onların Qurana dəvətlərini bəhanə edərək birlikdə o Həzrətin yanına gəlib dedilər: Gərək müharibədən əl çəkərək Malik Əştər və digər döyüşçüləri vuruşmadan geri qaytarasan. Belə olmasa, səni də Osman kimi öldürəcəyik. İmam əleyhis-salam Malik və digərlərinin döyüş meydanlarından qayıtmaları*

Camaat! Mənim əmr və fərmanım həmişə - indi müharibə sizi zəif və aciz salana kimi - özüm istəyən şəkildə olub. Allaha and olsun ki, siz müharibəyə könüllü gəlmisiniz, *(onu)* tərk edən də sizsiniz, halbuki o, düşmənlərinizi daha zəif və aciz salıb. *(Buna görə də əgər müxalifət etməsəydiniz Müaviyəyə və Şam qoşununa qalib gələrdiniz və zəfər sizinlə olardı. Amma nə edim?!)* Dünən əmr verən idim, bu gün isə əmr edilən; dünən çəkindirən və qadağan edən idim, bu gun isə çəkindirilərək saxlanılan. Siz sağ qalmağı sevdiniz. Mən sizi xoşlamadığınız bir şeyə məcbur etmək istəmirəm. *(Sizi müharibə aparmağa məcbur etməyə gücüm çatmır və ya məcbur etməyim məsləhət deyil.)*

# 200- cü xütbə

İmam Əli əleyhis-salamın Bəsrədə səhabələrindən olmuş Əla ibn Ziyad Harisi xəstə ikən Əlanın yanına gedəndə, onun evinin genişliyini görüb buyurduğu kəlamlarındandır.

Dünyada bu evin genişliyi ilə nə etmisən? Halbuki sən onun genişliyinə axirətdə daha möhtacsan. *(Çünki bu evdə bir neçə gündən artıq qalmayacaqsan. O birində isə həmişəlik qalacaqsan.)* Bəli, əgər bu evin genişliyi ilə axirət evinin genişliyini də əldə etmək istəyirsənsə, onda qonaq qəbul edərək qohum-əqrabanla əlaqədə ol, ondan şəriətin *(xums, zəkat, sədəqə və digər vacibi və müstəhəbbi)* haqlarını ver ki, belə olan halda, bu evin genişliyi vasitəsi ilə axirət evinin genişliyini də qazanmı*(ş olar)*san.

Sonra Əla o Həzrətə dedi: Ey Əmirəl-möminin, qardaşım Asim ibn Ziyaddan sənə şikayət edirəm. O Həzrət buyurdu: Nə üçün? Dedi: O, *(tərkidünya rahiblər kimi)* cod paltar geyinərək dünyadan uzaqlaşıb. Həzrət buyurdu: Onu mənim yanıma gətirin. O gələndə *(Həzrət ona belə)* buyurdu: Ey

---

*göstərişini verdi və onlar da qayıtdılar. Ondan sonra bunları buyurmuşdur.*

özünün düşmənciyəzi! Murdar və xəbis *(şeytan)* səni avara edib *(və səni bu yola sövq edərək onu sənin gözündə gözəlləşdirib)*. *(Təklik və dərvişliyi öz peşən etməklə)* arvad-uşağına rəhm etmirsən? Belə güman edirsən ki, Allah pak şeyləri sənə halal edib, amma sənin onlardan bəhrələnməyini xoşlamır? (Qeyd)[1] Sən, Allahın bir neməti sənə halal edərək sənin ondan bəhrələnməyini istəməməsindən aşağısan! *(Çünki bu, peyğəmbərlərin və onların canişinlərinin məqamıdır.)*

Asim dedi: Ey Əmirəl-möminin, mənim işim səninki kimidir ki, paltarın cod, yeməyin isə bərk və dadsızdır! Həzrət buyurdu:

Vay olsun sənə! Mən sənin kimi deyiləm. Çünki Allah-təala haqq rəhbər və imamlara özlərini yoxsullarla bir tutmağı vacib edib ki, yoxsul və kasıbın qəm-qüssəsi onu sıxıb narahat etməsin.

# 201- ci xütbə

İmam Əli əleyhis-salamın, bir şəxs xalqın əlində olan və onların arasında yayılmış *(bir-birinə zidd)* uydurma hədislər və müxtəlif rəvayətlər barəsində sual edərkən buyurduğu kəlamlarındandır. İmam əleyhis-salam *(onun cavabında)* buyurdu:

Həqiqətən xalqın əlində olan hədislər haqq və batil, doğru və yalan, nəsx *(ləğv)* edən və nəsx edilən, ümumi *(hamıya şamil olan)* və xüsusi *(bəzilərinə şamil olan)*, möhkəm *(mənası aşkar olan)* və mütəşabih *(mənası aydın olmayan)*, *(səhv və yanlışlıqdan)* qorunmuş və mövhumdurlar *(güman və xəyala əsaslanırlar)*. Doğrudan da Allahın Peyğəmbərinin (səlləllahu əleyhi və alih) öz zamanında o Həzrətə yalanlar

---

[1] *Halbuki Qurani-Kərimin Əraf surəsinin 32-ci ayəsində buyurur: «* قُلْ مَنْ حَرَّمَ زِينَةَ اللهِ الَّتِيَ أَخْرَجَ لِعِبَادِهِ وَالْطَّيِّبَاتِ مِنَ الرِّزْقِ*» «De ki: Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz ruziləri kim haram buyurmuşdur?»*

quraşdırdılar və nəhayət, o qalxıb xütbə oxuyaraq buyurdu: «Kim qəsdən və bilərəkdən mənə yalan nisbət versə, yanını mütləq oda *(Cəhənnəm oduna)* qoyacaqdır.»

Həqiqətən sənə hədisi *(Həzrət Peyğəmbərdən)* dörd nəfər *(dörd dəstədən biri)* nəql edəcək ki, beşincisi yoxdur:

*(Birincisi:)* İkiüzlü şəxs ki, zahirdə iman gətirərək özünü İslamın qaydaları ilə nümayiş etdirir, *(halbuki)* günahdan çəkinmir və qəsdən Həzrət Peyğəmbərə *(səlləllahu əleyhi və alih)* yalan nisbət verir. Əgər camaat onu münafiq və yalançı hesab etsəydi hədisini qəbul etməz və dediklərinə inanmazdılar. Lakin *(onun batinindən xəbərdar olmadıqları üçün barəsində belə)* deyirlər: O, Həzrət Peyğəmbərin-səlləllahu əleyhi və alih - səhabələrindəndir ki, onu görüb və hədisi ondan öyrənib. Beləliklə *(bu səbəbdən),* onun dediklərini qəbul edirlər. Həqiqətən Allah sənə münafiq və ikiüzlü adamlar barəsində xəbər verib, onları vəsf edib və səni ondan agah edib. (Qeyd)[1] Həzrət Peyğəmbərdən sonra qalmış münafiqlər azğınlıq başçılarına və *(insanları)* yalan və böhtanla oda *(Cəhənnəmə)* çağıran kimsələrə *(Müaviyə və başqaları kimilərinə)* yaxınlaşdılar. Sonra *(hədis uydurmaqla)* onları işlərin ixtiyar sahibi və xalqın mal və canına hakim etdilər. Və onların vasitəsi ilə dünyanı yedilər *(onun malını zülm ilə əldə etdilər). (Şeytanın şərindən və pisliklərə əmr edən nəfsdən)* Allahın qoruduqlarından başqa insanlar həmişə şahlar və dünya ilə yoldaşdılar. *(Buna görə də Allahın və Peyğəmbərin razılığının əksinə olan heç bir işdən çəkinmirlər.)* Beləliklə, bu münafiq dörd nəfərdən biridir.

---

[1] *Qurani-Kərimdə bu barədə çoxlu ayələr vardır, o cümlədən Tövbə surəsinin 102-ci ayəsində buyurur:* « وَمِمَّنْ حَوْلَكُم مِّنَ الْأَعْرَابِ مُنَافِقُونَ وَمِنْ أَهْلِ الْمَدِينَةِ مَرَدُوا عَلَى النِّفَاقِ لَا تَعْلَمُهُمْ نَحْنُ نَعْلَمُهُمْ سَنُعَذِّبُهُم مَّرَّتَيْنِ ثُمَّ يُرَدُّونَ إِلَى عَذَابٍ عَظِيمٍ» *«Ətrafınızdakı bədəvilər və Mədinə əhalisi içərisində ikiüzlülüyü özlərinə adət etmiş münafiqlər vardır. Sən onları tanımazsan, Biz isə onları tanıyırıq. Onlara iki dəfə (dünyada və qəbr evində) əzab verəcəyik. Sonra qiyamətdə böyük əzaba uğrayacaqlar».*

*(İkincisi:)* O şəxsdir ki, Allahın Peyğəmbərindən bir şey eşidib və onu düzgün əzbərləməyib; onda səhvə düçar olub, amma bilərəkdən yalan deməyib. Beləliklə, o, əlində olanı nəql edir, ona əməl edir və belə deyir: Mən onu Həzrət Peyğəmbərdən *(səlləllahu əleyhi və alih)* eşitmişəm. Buna görə də əgər müsəlmanlar bilsəydilər ki, o, hədisi səhv başa düşüb, *(həmin hədisi)* ondan qəbul etməzdilər. Əgər o özü də səhv etməsini bilsəydi, onu tərk edər, nəql etməzdi.

*(Üçüncüsü)* O şəxs ki, Allahın Peyğəmbərindən *(səlləllahu əleyhi və alih)* bir şey əmr etməsini eşidib. *(O Həzrət)* sonra həmin şeyi qadağan edib, o isə həmin qadağadan xəbərsizdir. Yaxud qadağan etdiyi bir şeyi eşidib. *(Peyğəmbər)* sonra həmin şeyi əmr edib və o, bunu bilmir. Beləliklə, o, nəsx edilmişi yadında saxlayıb, nəsx edəni isə əldə etməyib. Amma əgər həmin hədisin nəsx edilmiş olmasını bilsəydi, onu nəql etməzdi. Həmçinin müsəlmanlar da onu ondan eşidən zaman hədisin nəsx edilmiş olduğunu bilsəydilər, ona əməl etməzdilər.

*(Dördüncüsü)* Digər şəxs isə Allaha və Peyğəmbərə yalan nisbət verməyib, Allahın qorxusundan və Həzrət Peyğəmbərə *(səlləllahu əleyhi və alih)* ehtirama görə yalana nifrət edib, səhv və xəta da etməyib, əksinə, eşitdiyini olduğu kimi əzbərləyib; ona bir şey artırmayıb və ondan bir şey azaltmayıb; nəsx edəni əzbərləyərək ona əməl edib və nəsx edilmişi nəzərdə saxlayaraq ondan çəkinib, ümumi və xüsusini tanıyaraq hər birini öz yerinə qoyub *(ümumini xüsusinin, xüsusini ümuminin yerində işlətməyib);* onun mütəşabih və möhkəmini bilib *(mütəşabihdə diqqətli və ehtiyatlı olub və möhkəmə və mənası aşkar olan hədisə əməl edib). (Bəzən zamanın tələbinə uyğun olaraq)* Həzrət Peyğəmbər *(səlləllahu əleyhi və alih)* iki mənası olan bir söz deyirdi. Biri müəyyən şey və zamana məxsus olan, digər biri isə hər şey və bütün zamanlara şamil olan söz. *(O sözlərin hər ikisi bir şəkildə görünürdü. Amma deyilmə yerindən və digər cəhətlərdən məqsəd məlum olurdu və səhv aradan qalxırdı.)* Buna görə də Allah və

Onun Peyğəmbərinin *(səlləllahu əleyhi və alih)* həmin sözdən məqsədinin nə olmasını bilməyən kəs onu eşidirdi və başa düşmədiyi üçün onu olduğunun əksinə, nəzərdə tutulanın ziddinə və deyiləndən başqa cür izah edirdi. Allahın Peyğəmbərinin *(səlləllahu əleyhi və alih)* səhabələrinin *(heç də)* hamısı o Həzrətdən *(bir şey)* soruşub onu başa düşmək üçün səy göstərmirdi. *(O Həzrətdən bir şey soruşmamaları və çalışqanlıq göstərməmələri o həddə idi ki,)* hətta bədəvi ərəb və bir qəribin gəlib o Həzrət əleyhis-salamdan onların eşitmələri üçün bir şey soruşmasını istəyirdilər. Amma mən bu barədə qarşıma çıxanların hamısını o Həzrətdən soruşaraq əzbərlədim. Deməli, insanların ixtilafları və onların rəvayət və hədislərdə çaşbaş qalmalarına bu amillər səbəb olur.

# 202- ci xütbə

İmam Əli əleyhis-salamın *(eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın göylər, yer və dağların yaradılışının heyranediciliyində qüdrət nümayiş etdirməsi və bacarığı barəsində)* xütbələrindəndir.

Allah-təalanın qüdrət və səltənətinin *(nişanələrindən)* və Onun gözəl yaradılışının heyranediciliyindən biri, çox ləpələnən qarmaqarışıq dərin dənizin suyundan quru və hərəkətsiz yeri yaratmasıdır. Ondan sonra *(onun buxarından)* göylərin bir-birinin üstündə yerləşmiş qatlarını yaratdı və onları, birgə olmalarından sonra bir-birindən ayıraraq yeddi səma etdi. Sonra onlar Rəbblərinin əmri ilə özlərini saxladılar və onlar üçün müəyyənləşdirdiyi yerdə qərar tutdular *(dağılaraq bir-birlərindən ayrılmadılar)*. Qədərsiz mavi su və *(Allah-təalanın əmrinə)* mütləq şəkildə tabe olan dənizin öz qoynuna aldığı yeri möhkəmləndirdi. Və həmin dəniz, Allahın əmr və fərmanı müqabilində ram, əzəməti qarşısında itaətkardır və Onun qorxusundan onun axması və hərəkət etməsi dayanmışdır. Həmçinin onun *(yerin)* böyük və sərt daş parçalarını, hündür təpələrini və dağlarını yaratdı

və onları öz yerlərində möhkəmləndirərək qərar tutmalı olduqları yerdə saxladı. Beləliklə, onların başları havaya ucaldı, kökləri suda batdı. Və həmin dağları hamar və alçaq yerlərdən qaldırıb dikəltdi, onların köklərini ətraflarındakı yerlərdə və möhkəm məkanlarda basdırdı. Beləliklə, həmin dağların başlarını çox ucaltdı, onların ucalıqlarını ətrafa çəkdi. Onları yerin sütun və dirəyi etdi və yerin mıxları kimi onları ona batırdı. Beləliklə, hərəkətdə olan yer öz əhlini silkələməkdən, yaxud yükü ilə *(suda)* batmaqdan və ya bir yerdən digər bir yerə getməkdən durdu. Yeri, suları dalğalandıqdan sonra saxlayan, ətrafı rütubətlənib islandıqdan sonra qurudaraq yaratdıqları üçün rahatlıq yeri edən və onu onlar üçün dərin, sakit, axarsız və hərəkətsiz dayanmış *(qoynundakı yeri silkələməmək üçün hamısı birdən öz yerindən hərəkət etməyən)* dənizin üzərinə sərmiş Allah hər bir eyb və nöqsan sifətlərdən pak və uzaqdır. Möhkəm küləklər həmin dənizi alt-üst və o tərəf-bu tərəf edir və yağış dolu buludlar *(yağmaları nəticəsində)* onu hərəkətə gətirir. «Bu nişanələrdə Allah-təaladan qorxan kəs üçün ibrət və öyüd vardır.» *(Çünki Allahdan qorxmayanlar onlara diqqət etmirlər.)*

# 203- cü xütbə

İmam Əli əleyhis-salamın *(səhabələri Şam əhli ilə müharibədə süstlük edib bəhanə gətirərək onun əmrlərini yerinə yetirməkdən boyun qaçırarkən onlardan şikayətləndiyi)* xütbələrindəndir.

Allahım, Sənin bəndələrindən kim bizim zülm və sitəm deyil, ədalət və düzlük, fitnə-fəsad deyil, din və dünyanın islahı üçün dediyimiz sözləri eşidəndən sonra onu qəbul etmirsə, onun müxalifət etməsinin səbəbi Sənə yardımdan boyun qaçırmaq və Sənin dinini izzətli etməkdə tənbəllik göstərməkdən başqa bir şey deyil. Buna görə də ey bütün şahidlərin ən böyüyü, Səni və yer və göylərində sakin etdiyin şeylərin hamısını *(cin, insan və mələkləri)* ona qarşı *(onun, Sənin dininə etinasızlıq mənasında olan mənə qarşı müxalifət*

*etməsinə)* şahid tuturam *(ki, mən Sənin əmrlərinin təbliğində səhlənkarlıq etməmişəm).* Belə olan halda, bu şahid tutmaqdan sonra Sən *(bizi)* onun yardımına ehtiyacsız edən və onu günahına *(bizimlə müxalifətinə)* görə cəzalandıransan.

# 204- cü xütbə

İmam Əli əleyhis-salamın *(Allah-təalanın bəzi sifətləri barəsindəki)* xütbələrindəndir.

Həmd o Allaha məxsusdur ki, *(zat və sifətlərində)* yaratdıqlarına bənzər olmaqdan uca, vəsf edənlərin sözlərindən yüksək və *(onları)* aciz edəndir. *(Heç kəsin Onun həqiqətini vəsf etmək qüdrəti yoxdur.)* Yaradılışının *(yaratdıqlarında olan)* qəribəlik və heyranediciliyi ilə görənlər üçün aşkar, izzətinin böyüklüyü ilə xəyal və güman sahiblərinin düşüncələrindən gizlindir. Başqasından öyrənmədən, *(elmini)* artırmağa ehtiyac olmadan və *(başqasının elmindən)* bəhrələnmədən *(hər şeyi)* biləndir. (Qeyd)[1] Fikrə dalıb düşünmədən bütün yaranmışların yaradanıdır. O, elə bir Allahdır ki, qaranlıq və zülmətlər Onu əhatə etmir, aydınlıqlardan işıq istəmir, gecə Onu bürümür və gündüz Ona şamil olmur. (Qeyd)[2] Onun *(əşyaları)* dərk etməsi görmə vasitəsi ilə deyildir. (Qeyd)[3] Həmçinin Onun elmi başqasından xəbər almaq nəticəsində deyil. (Qeyd)[4]

---

[1] *Çünki öyrənmək, artırmaq və bəhrələnmək nadanlıq və naqisliyin tələblərindəndir və vücudu vacib olan deyil, mümkün olan varlığın xüsusiyyətlərindəndir.*
[2] *Çünki O, cisim olmaqdan, zamandan və hərəkətdən pak və uzaqdır.*
[3] *Çünki Onun zatı eyni ilə görməsidir və eləcə də görməsi zatının özüdür.*
[4] *Çünki belə deyil ki, O, nədənsə xəbərsiz olsun və sonra xəbər alsın. Bundan əlavə bir şeydən xəbər almaq nadanlığın tələblərindəndir ki, vacib varlıqda belə bir şey ola bilməz.*

## Bu da həmin xütbənin Peyğəmbər (səlləllahu əleyhi və alih) barəsindəki bir hissəsidir

Allah Həzrət Peyğəmbəri nur *(elm və peyğəmbərlik nuru)* ilə göndərdi və onu *(peyğəmbərliyə)* seçməkdə *(bütün yaranmışlardan)* üstün etdi. Onun vasitəsi ilə bütün dağınıqlıqları bir birinə bağladı *(aləmdə olan nizamsızlıq və fitnə-fəsadları islah etdi)* və onunla *(onun qüdrəti ilə)* həmişə qalib olanları məğlub etdi. *(O Həzrəti kafir, müşrik və münafiqlərə hakim etdi.)* Onun vasitəsi ilə çətini asan və kələ-kötürü hamar etdi və nəhayət, azğınlığı sağ və soldan *(şərq və qərbdən)* uzaqlaşdırdı.

# 205- ci xütbə

İmam Əli əleyhis-salamın *(eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın bəzi sifətlərinə işarə etdiyi, Həzrət Peyğəmbərin mədhi, yaxşıların və Allah-təalanın dostlarının vəsfi barəsindəki və öyüd-nəsihət verdiyi)* xütbələrindəndir.

Şəhadət verirəm ki, Allah-təala *(heç bir işdə zülm və sitəmlə deyil, bütün işlərdə)* ədalətlə *(ümumi quruluşa, hikmət və mənfəətə uyğun)* davranan adil və *(Qurani-Kərimdə haqq ilə batili bir-birindən)* ayıran hakimdir. Və şəhadət verirəm ki, Məhəmməd Onun bəndəsi, elçisi və bəndələrinin başçısıdır. Allah məxluqatı *(bellərdən bətnlərə)* gətirən zaman onları iki cərgə *(xeyir və şər)* etdi və o Həzrəti xeyir dəstəsinə saldı. O Həzrətin nəsəbində zinakarın payı yox idi və günahkar şərik olmadı. (Qeyd)[1]

Bilin ki, Allah xeyir və yaxşı *(işlər)* üçün onun əhli olan adamlar *(mömin və pərhizkarlar)*, haqq *(din)* üçün sütunlar *(peyğəmbərlər)*, itaət və bəndəlik üçün qoruyucular *(hidayət*

---

[1] *Həzrət Peyğəmbərin Həzrət Adəm əleyhis-salama kimi bütün ata-anaları təkallahlı olublar və İmam əleyhis-salamın tam aşkar şəkildə buyurduğu kimi onlar şirk, küfr və günah çirkinliklərinə bulaşmayıblar.*

*imamları əleyhimus-salam)* müəyyənləşdirib. (Qeyd)[1] Hər bir itaətdə *(yaxşı işdə)* sizin üçün Allah tərəfindən bir kömək vardır *(Allahın lütf və yardımı sizin halınıza şamildir)* ki, dilləri iti və qəlbləri *(haqqa)* arxayın edir. (Qeyd)[2] Həmin köməkdə ehtiyacsızlıq istəyən üçün ehtiyacsızlıq və *(xəstəliklərə boyun əyərək az şeyə görə Allah və Peyğəmbərin itaətindən əl götürüb özlərini dünya və axirətdə bədbəxt edənlər üçün deyil, mənəvi xəstəliklərdən)* şəfa istəyənlər üçün şəfa vardır.

Həmçinin bilin ki, Allahın elminin qoruyucuları olan bəndələri *(elmin qorunması onlara tapşırılmış hidayət imamları əleyhimus-salam və din başçıları)* qorunmalı şeyi *(istedad və dərketmə qabiliyyəti olmayan kəsdən)* qoruyurlar *(yaxud onu hadisələrin zay edib aradan aparmaması üçün öyrədilməsi münasib olmayan kəsdən gizli saxlayırlar)*; onun çeşmələrini cari edirlər *(istedadı olan kəsə öyrədirlər)*; bir-birlərinə *(elm və hikmət)* dolu piyalələr içirdir və sudan doymuş halda qayıdırlar. Onlar şəkk, töhmət və pis gümanlara düşmürlər, qeybət və başqasının pisliyinə danışmaq onların yanına tələsmir. *(Xülasə, onların məclisləri şəkk, töhmət, pis gümanlar, qeybət və pis danışıqlardan boş olur.)* Allah onların fitrət və xasiyyətlərini bu gözəl sifətlərlə yaradıb *(bu sifətlərlə elə tərbiyə ediliblər ki, sanki bu, onların fitrət və təbiətləridir)* və bir-birləri ilə bu cür dostluq edir və ünsiyyətdə olurlar. Beləliklə, onlar *(xalqın içində, yaxşısı)* götürülən və *(işə yaramayanı)* çölə tökülən təmizlənmiş toxum və dənin üstün olması kimidirlər. Həmin toxumu digərlərindən təmizləmək seçib fərqləndirib və imtahan xalisləşdirib. *(Xülasə, onlar seçilmiş insanlardırlar.)* Buna görə də gərək insan, şərəf və böyüklüyü bu sifətləri qəbul etməklə

---

[1] *Buna görə də Allahın itaəti yer üzündən birdəfəlik yığışdırılmaz. Əgər bir dəstə onu tərk etsə, digər bir qrup ondan yapışar; əgər bəziləri müxalifət etsələr, digərləri onu himayə edərək onun tələblərinə riayət edərlər.*

[2] *Buna görə də əgər Allahın lütfü olmasaydı, batilin hücumu və qalib gəldiyi vaxt və haqqın zəiflik və süstlüyü zamanı insanlar Allaha itaətdən, peyğəmbərlərə və onların canişinlərinə tabe olmaqdan əl götürərdilər və ona ürək bağlamazdılar.*

qəbul etsin, qiyamətin çətinliyindən, o gəlib çatmamış çəkinsin *(əzaba düçar olmasına səbəb olan bir iş görməsin).* Həmçinin insan gərək günlərin qısalığına və bu mənzildə *(dünyada)* dayanmağının azlığına nəzər salıb düşünsün *(qəflət yuxusuna getməsin)* ki, bu mənzili digər mənzil *(axirət)* ilə əvəz edə bilsin. Gərək digər mənzil üçün, eləcə də həmin evdə lazım olmasını bildiyi şey üçün gözəl əməl yerinə yetirsin. Buna görə də *(rəzil sifətlərdən uzaq qalmış)* o sağlam qəlb sahibinin xoş halına ki, onu *(haqq yola)* hidayət edənə tabe olur, məhvə sürükləyəndən uzaqlaşır; onu gözüaçıq edənin gözüaçıqlığı və ona göstəriş verənə tabe olmaqla *(çətinlik və giriftarçılıqlardan)* salamatlıq yoluna çatıb və qapıları bağlanmamış və vasitələri əldən çıxmamış *(ölməmiş)* nicat *(əzabdan qurtuluş)* yoluna tələsib, tövbə və *(Allaha)* qayıdış qapısının açılmasını istəyir və *(tövbə ilə)* günahı *(özündən)* uzaqlaşdırır. Həqiqətən onlar yol üstündə dayanıblar və aydın yol aşkar olub. (Qeyd)[1]

# 206- cı xütbə

İmam Əli əleyhis-salamın *(eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın nemətlərinə şükr barəsində)* çox oxuduğu dualarındandır.

Həmd o Allaha layiqdir ki, ölmədiyim, xəstələnmədiyim, bədənimin narahat olmadığı, özümün ən pis əməlimə *(onun cəzasına)* düçar olmadığım, övladsız qalmadığım, dinimdən qayıtmadığım, Rəbbimi inkar etmədiyim, imanımdan nigaran olmadığım, dəli olmadığım və məndən qabaqkı ümmətlərin əzabına düçar olmadığım bir halda gecəmi səhər etdi. İxtiyarsız və *(itaətdə səhlənkarlıq baxımından)* öz

---

[1] *Haqq yol hamı üçün aşkardır, sanki iki yol ayrıcında yol gedəni istiqamətləndirmək üçün bələdçi dayanıb. Yaxud yolu göstərən bir nişanə mövcuddur. Buna görə də yolu itirənin üzr və bəhanəsi qəbul olmaz.*

nəfsinə zülm edən bir bəndə olduğum halda səhəri açmışam. Allahım, mənə etiraz etmək haqqı Sənə məxsusdur və mənim bir üzr və bəhanəm yoxdur; Sən mənə verdiyindən başqa bir mənfəət əldə etmək qüdrətim yoxdur; Sən məni qoruduğundan başqa bir pislikdən çəkinə bilmirəm.

Allahım, Sənin zənginliyində əliboş və kədərli, Sənin hidayət və nicatında azğın, Sənin səltənət və qüdrətində məzlum, ixtiyar Sənin əlində ola-ola *(Sənin, istədiyini etməyinə baxmayaraq,)* məğlub və xar olmağımdan Sənə pənah aparıram.

Allahım, mənim canımı *(göz, qulaq, əl, ayaq və digər bədən üzvləri kimi)* əziz üzvlərimdən aldığın ilk əziz şey və mənim yanımda qoyduğun əmanət nemətlərin qaytarılanlarının birincisi et. (Qeyd)[1] Allahım, Sənin sözlərindən çıxmağımızdan *(göstərişlərinə əməl etməməyimizdən), yaxud Sənin dinindən (çıxıb)* fitnə və azğınlığa düşməyimizdən və ya Sənin tərəfindən gəlmiş hidayət və nicatdan qabaq nəfsi istəklərimizin bizə hakim olmasından Sənə pənah aparırıq.

# 207- ci xütbə

İmam Əli əleyhis-salamın Siffeyndə *(eşidənlərə öyüd-nəsihət verdiyi və onların dünya və axirət xeyirlərinin açıqlanması barəsində)* buyurduğu xütbələrindəndir.

Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Allah-təala məni sizə hakim etməklə sizin boynunuzda mənim üçün bəzi

[1] *Çünki insanın bədən üzvlərindən hər hansı biri onun ölümündən qabaq sıradan çıxsa, o, çətinlik və aziyyətə düşər. Buna görə də Allahın bəndəyə lütfü onun bədən üzvlərini almamışdan canını almasıdır ki, o, yarı ölü-yarı diri qalmasın.*

haqlar təyin edib.[1] (Qeyd) Mənim sizin boynunuzda haqqım olduğu kimi, sizin də mənim boynumda haqqınız vardır. (Qeyd)[2] Haqq, vəsf edilərək barəsində danışılan zaman hər şeydən geniş, əməl etmək zamanı isə ən dar şeydir. (Qeyd)[3] Kimin başqasının boynunda haqqı varsa, başqasının da onun boynunda haqqı var. Həmçinin başqasının onun boynunda haqqı varsa, onun da *(həmin başqasının boynunda)* haqqı var. (Qeyd)[4] Əgər birinin, boynunda başqalarının haqqı olmadan başqalarının boynunda haqqı olsa, belə bir haqq ancaq eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allaha məxsusdur. Onun yaratdıqlarının *(hətta peyğəmbərlər və övliyaların Onun boynunda heç bir)* belə bir haqları yoxdur. Çünki Onun qüdrət və qüvvəsi vardır. (Qeyd)[5] Onun müxtəlif qəza-qədəri hər

---

[1] *Fitnə-fəsadın baş verməməsi və qarmaqarışıqlıq və süstlüyün yaranmaması üçün sizə, mənə itaət etməyi vacib edib.*

[2] *Din və dünyada zərər-ziyana səbəb olan şeyi sizə göstərib ədalət və düzlüklə davranmağım vacibdir. Otuz dördüncü xütbədə bu nöqtəyə toxunuldu.*

[3] *İnsanların çoxu zülm və sitəm yolu ilə gedib onu ədalət sandığı kimi, danışıq zamanı da haqqı dilə çox gətirirlər. Amma əməl zamanı onu həyata keçirmirlər.*

[4] *Kimin başqasının boynunda haqqı olsa, başqasının da onun boynunda haqqı olar. Məsələn, rəiyyətin valinin boynunda olan haqqı budur ki, o, gərək rəiyyətin işlərinin sahmana salınması istiqamətində çalışsın və ölkənin işlərini nizam-intizama salsın. Valinin rəiyyətin boynunda olan haqqı isə budur ki, onlar haqq və düzgün yerlərdə valinin göstərişlərinə tabe olsunlar. Arvadın ər boynundakı haqqı, ərin onun dolanışığını təmin etməsidir. Ərin arvadın boynunda olan haqqı isə onun ərə tabe olmasıdır.*

[5] *Buna görə də əgər yaratdıqları Ona itaət etməsələr, O, yaratdıqlarını itaətə məcbur etmək qüdrətinə malikdir. Necə ki, Qurani-Kərimin Yunus surəsinin 99-cu ayəsində buyurur:* « **وَلَوْ شَاء رَبُّكَ لآمَنَ مَن فِي الأَرْضِ كُلُّهُمْ جَمِيعًا أَفَأَنتَ تُكْرِهُ النَّاسَ حَتَّى يَكُونُواْ مُؤْمِنِينَ**» *«Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?!» Yəni, sənin kimisə məcburi şəkildə mömin etmək qüdrətin yoxdur.*

nə barəsində cari olsa, o, ədalətlidir. (Qeyd)[1] Amma eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah, lütf və kəráminə görə və çox səxavətli, bəxşiş sahibi olduğu üçün itaət etməyi bəndələrin boynundakı Öz haqqı edib və Özünün onların etdiklərinə verdiyi mükafatı bir neçə qat artırıb. (Qeyd)[2] Sonra eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah Öz haqlarının bəzilərini, insanların bəzilərinin müqabilində digərlərinə vacib edib və haqları müxtəlif vəziyyətlərdə bərabər müəyyənləşdirib. Onların bəzilərini digər bəziləri müqabilində vacib edib və həmin haqların bəziləri ancaq digər bəziləri müqabilində gerçəkləşir. (Qeyd)[3] Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın vacib etdiyi haqların ən böyüyü valinin rəiyyətin və rəiyyətin valinin boynunda olan haqqıdır. (Qeyd)[4] Eyb və nöqsan sifətlərdən uzaq və pak olan Allah bu hökmü vali ilə rəiyyətin hər birinə vacib edib və onu, onların bir-birlərini sevmələri üçün nizam-intizam və rahatlıq vasitəsi və dinlərinin izzəti edib. Buna görə də rəiyyətin halı, hökmdarların gözəl rəftarlarından başqa bir

[1] *Buna görə də əgər bəndələrin əməllərinə mükafat verməsə, yenə də adildir. Çünki bütün həyatı boyu Ona pərəstiş edən bəndə, Onun nemətlərinin ən kiçiyinin belə haqqını əda etməyib.*

[2] *Necə ki, Qurani-Kərimin Nisa surəsinin 173-cü ayəsində buyurur:* **« فَأَمَّا الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ فَيُوَفِّيهِمْ أُجُورَهُمْ وَيَزيدُهُم مِّن فَضْلِهِ وَأَمَّا الَّذِينَ اسْتَنكَفُواْ وَاسْتَكْبَرُواْ فَيُعَذِّبُهُمْ عَذَابًا أَلِيمًا وَلاَ يَجِدُونَ لَهُم مِّن دُونِ اللّهِ وَلِيًّا وَلاَ نَصِيرًا»** *«Allah iman gətirənlərin və yaxşı işlər görənlərin mükafatlarını büsbütün verəcək, üstəlik Öz fəzl və kəramindən onlar üçün artıracaqdır. Amma iman gətirməyi özlərinə sığışdırmayanları və yaxşı əməldən uzaqlaşıb lovğalıq edənləri acı bir əzaba düçar edəcəkdir. Onlar özlərinə Allahdan başqa nə bir dost, nə də bir yardım edən tapacaqlar!»*

[3] *Məsələn, arvad əri müqabilində ancaq ərinə tabe olduğu zaman dolanışıq xərci haqqına malik olur. Atanın övladın boynunda olan haqqı, ağanın nökər, qonşunun qonşu, qohumun qohum və bu kimi digər haqlarda da məsələ belədir.*

[4] *Çünki onda fitnə-fəsad ümumi və kütləvidir. Digər haqlarda isə cüzidir.*

şeylə yaxşılaşmır. Həmçinin hökmdarların halları rəiyyətin onların göstərişlərini yerinə yetirməkdə əzmkarlıq göstərmələrindən başqa bir şeylə yaxşılaşmır. Buna görə də rəiyyət valinin və vali rəiyyətin haqqını əda etsə, aralarındakı haqq möhtərəm, dinlərinin qayda-qanunları bərqərar, ədalət və düzlüyün nişanələri bərpa və sünnələr *(Həzrət Peyğəmbərin hökmləri)* öz yerində icra olar və onun nəticəsində dövran düzələr, dövlət və hökumətin daimiliyinə ümid bəslənilər və düşmənlərin tamahları yoxa çıxar *(yadlar onlara hakim ola bilməzlər)*. Əgər rəiyyət valiyə qalib gəlsə *(onun əmr və çəkindirmələrini yerinə yetirməsə)*, yaxud vali rəiyyətə qarşı həddi aşaraq zülm etsə, onda söz ayrılığı baş verər *(sözləri bir olmaz və onlar bir-birləri ilə yekdil olmazlar)*, zülm nişanələri üzə çıxar, dində fitnə-fəsadlar çoxalar və sünnəyə əməl etmək tərk edilər. Beləliklə, nəfsi istəklərə əməl edilər və şəriətin hökmləri icra edilməz. İnsanların dərdləri *(oğurluq, qan tökülməsi, təhlükə, bahalıq və çətinlik)* çoxalar və böyük haqqın əda edilməməsi və batil və nahaqqın həyata keçməsi üçün heç kəs kədərlənməz. Nəticədə həmin zamanda yaxşı əməl sahibləri xar, pis əməl sahibləri isə möhtərəm olarlar və *(günahların saysız-hesabsız olmasına görə)* Allahın, bəndələri məsuliyyətə alması çoxalar. Buna görə də həmin haqqın əda edilməsində sizlər bir-birlərinizə öyüd-nəsihət verin və kömək edin *(ki, nəticədə dünya və axirət səadət və xoşbəxtliyini əldə edəsiniz)*. Çünki heç kəs Allaha layiq itaət və tabeçiliyin həqiqətinə çatmır, hətta Onun razılığını qazanmağa həris olub əməl və bəndəlikdə çox çalışsa belə! (Qeyd)[1] Amma Allahın bəndələrə vacib etdiyi haqlardan biri də onların öz aralarında imkan olan və gücləri çatan qədər haqqı icra etmək üçün bir-birlərinə öyüd-nəsihət vermələri və kömək etmələridir. Heç kəs -

[1] *Buna görə də heç kəs güman etməməlidir ki, başqasına öyüd-nəsihət vermək və yardım göstərməkdə Allaha layiq olan şeyin haqqını yerinə yetirib.*

hətta məqam və dərəcəsi hər nə qədər böyük olsa və dində üstünlüyə malik olsa belə, Allahın Öz haqqından ona kömək edilməsini vacib etdiyi yardımdan ehtiyacsız deyil. *(Buna görə də haqq yolda və ona vacib olan şeydə başqasının yardımına ehtiyacı olmayan bir kimsə yoxdur.)* Həmçinin heç kəs, hətta xalqın kiçik saydığı və gözlərdə balaca görünən şəxs, haqqın əda edilməsində başqasına yardım göstərməkdə və ya onun özünə yardım göstərilməsində əhəmiyyətsiz deyil. (Qeyd)[1] Sonra *(həmin vaxt)* o Həzrət əleyhis-salamın səhabələrindən biri uzun bir söhbətdə o Həzrətə cavab verib onu çox təriflədi və İmama, eşitdiklərinə tabe olduğunu bildirdi. Sonra İmam əleyhis-salam buyurdu:

Yanında Allahın cəlalı böyük olan və qəlbində Onun məqamı uca olan kəsin gözündə Allahın böyüklüyü və yüksək məqamlılığına görə Ondan başqa hər bir şey kiçik görünməyə layiqdir. Belə olmağa daha layiqli *(Allahın böyüklüyü müqabilində heç bir böyüklük görməməli)* kəs, barəsində Allahın neməti çox olan və Allahın gözəl ehsanlar etdiyi kimsədir. Çünki Allah kimə çox nemət veribsə, Allahın onun boynunda olan haqqının böyüklüyü də artıb. Saleh insanların gözündə hökmdarların ən pis vəziyyətləri onların öyünməyi və özlərini tərifləməyi sevmələrinin güman edilməsi, həmçinin onların əməllərinin lovğalıq və özündən razılıq kimi başa düşülməsidir. Mən sizin mənim, tərifləməyi və (*sizdən)* tərif eşitməyi sevməyimi güman etməyinizi xoşlamıram. Allaha şükr olsun ki, mən belə deyiləm. Əgər özümün mədh edilərək təriflənməyimi sevsəydim də, bu istəyimi əzəmət və böyüklüyə daha layiq olan, eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allaha təvazökarlığa görə tərk edər, özümdən uzaqlaşdırardım. İnsanların çoxları bir işdə

---

*[1] Buna görə də haqqın əda edilməsində qədir-qiymətsiz insanlardan kömək istənilməsinə ehtiyacın olmamasını və ya onlara kömək etməyin gərəksizliyini güman etmək olmaz. Çünki hökumət və xalqın tərəqqisi böyük və kiçiyin, eləcə də zəif və güclünün köməyi nəticəsindədir.*

çalışıb səy göstərdikdən sonra mədh və tərifi şirin hesab edirlər. (Qeyd)[1] Amma hələ qalmış və yerinə yetirmədiyim haqlar və icrasında naçar olduğum vacibi əməllərin müqabilində Allaha itaətimə və sizinlə xoş rəftarıma görə mənə gözəl tariflər deməyin. Mənə zülmkarlara *(xoş gəlmək üçün)* deyilən sözləri deməyin. Qəzəbli insanlardan *(qəzəblənmələrinə görə)* çəkinərək gizlədilən şeyləri məndən gizlətməyin. Zahirdə dostluq göstərmək, yaltaqlıq və *(dil ilə)* rüşvət verməklə mənimlə ünsiyyətdə olmayın. Mənim barəmdə belə güman etməyin ki, əgər haqq deyilsə, o mənə ağır gələcək və mən özümü böyük tutmaq istəyirəm. *(Mənimlə haqq söz deyilməyən itaətsiz hakimlər kimi davranmağınızı istəmirəm.)* Çünki deyilən haqq sözü və ya təklif edilən ədalətlilik və düzlüyü ağır sanan kəsə haqq və ədalətə əməl etmək daha ağırdır. Buna görə də haqqı deməkdən və ya ədalətli məsləhətlərdən çəkinməyin. *(Qorxub çəkinmədən mənimlə haqq söz danışın, düzlük və ədalət hesab etdiyiniz şeyi bəyan edin.)* Çünki mən, Allahın mənim nəfsimə daha malik və güclü olduğu yerlərdə kifayət etməsi istisna olmaqla, nə səhv etməkdən yüksəkdəyəm, nə də öz işimdə ondan amandayam. (Qeyd)[2] *(Buna görə də buyurur:)* Həm mən, həm də siz Ondan başqa tərbiyə edən və yetişdirən olmayan Rəbbin ixtiyarındakı bəndə və quluq. O, bizim özümüzün ixtiyarımız olmayan şeylərimizin maliki və ixtiyar sahibidir. *(Buna görə də böyüklük Ona layiqdir və Ondan başqalarının vəzifəsi bəndəlik və itaətkarlıq etməkdir.)* O bizi *(içində)* olduğumuz nadanlıqdan çıxardaraq xeyrimizə olan elmə sövq etdi; bizim

---

[1] *Çünki böyük bir iş görmüş və ya Allahın nailiyyət qazandırdığı bir şəxsin təriflənməyi sevməsi, fitri bir şeydir.*

[2] *İmam əleyhis-salamın burada imamın məsum və pak olmasına baxmayaraq, özü üçün səhv etməyi mümkün hesab etməsindən məqsəd, o Həzrətin məsumluğunun Allah-təalanın nemətlərindən biri olmasını etiraf etməsidir.*

azğınlığımızı hidayət və doğru yola çevirdi və bizə korluqdan sonra görmə bəxş etdi. (Qeyd)[1]

# 208- ci xütbə

İmam Əli əleyhis-salamın *(Allah ilə münacatında Qüreyşdən və o Həzrətin haqqını qəsb edənlərdən şikayət kimi buyurduğu)* kəlamlarındandır.

İlahi, Qüreyşə və onlara kömək edənlərə qarşı *(onlardan intiqam almağa)* Səndən kömək istəyirəm. Çünki onlar mənim *(Həzrət Peyğəmbərlə)* qohumluq əlaqələrimi qırdılar *(və məni təyin etdiyi xilafəti qəsb etdilər)*, mənim qabımı *(məqam, dərəcə və abır hörmətimi)* dağıtdılar və başqasından daha layiq olduğum haqqa görə mənimlə vuruşmaq üçün bir yerə toplaşdılar. Və dedilər: Bil ki, sənin onu əldə etməyin də haqdır, onun səndən alınması da! (Qeyd)[2] İndi istəyirsən qəm-qüssə ilə səbr et, istəyirsənsə də təəssüf və kədərlə öl. *(Yəni, xilafətin qəsb edilməsinə razı olmasan səbr etmək və ya ölməkdən başqa bir çarən yoxdur.)* Beləliklə, həmin zamanda əhli-beytimdən başqa bir dost, müdafiə edən və köməkçinin olmamasını gördüm və ölümün onları haqlamasına heyfim gəldi. *(Əhli-Beytimin məhv olmaması üçün dava-dalaşa razı olmadım.)* Buna görə də tikan batmış gözlərimi yumdum və boğazımda sümük qalmasına baxmayaraq, ağzımın suyunu uddum; qəzəbi yatırmaq üçün *(çox acı bir bitki olan)* əbucəhl qarpızından da acı olan və ürəyə böyük bıçaqlardan da çox ağrı verən şeyə səbr etdim. *(Seyyid Rəzi deyir:)*

Bu kəlam *(və Cəməl əhli barəsindəki aşağıdakı hissə)* bundan qabaq bəyan edilmiş *(yüz yetmiş birinici)* xütbədə keçdi.

---

[1] *Din, dünya və axirət işlərində nadanlıqdan sonra Allah Həzrət Peyğəmbəri (səlləllahu əleyhi və alih) göndərərək bizi hər şey ilə tanış etdi.*

[2] *Sənin haqqı əldə etməyin və ya əldən çıxarmağın eynidir. Buna görə də əgər vali olsan sənin hakimiyyətin haqdır. Həmçinin əgər səndən başqası vali olsa, o da haqdır.*

Amma mən bu iki rəvayətdə olan fərqlərə görə onu burada bir daha gətirdim.

## Bu da həmin kəlamın o Həzrət əleyhissalamla müharibə etmək qəsdi ilə Bəsrəyə gedənlər barəsindəki bir hissəsidir

*(Təlhə, Zübeyr və onların tərəfdarları)* mənim tərəfimdən təyin edilmiş hakimlərin *(Osman ibn Hüneyf və başqalarının)*, müsəlmanların mənim ixtiyarımda olan beytülmallarının xəzinədarlarının və əhalisinin hamısı mənə tabe olan və beyət etmiş şəhərin sakinlərinin yanına getdilər. Onların arasında təfriqə salaraq mənə münasibətdə olan birliklərini parçaladılar. (Qeyd)[1] Şiələrim və tərəfdarlarıma hücum edərək onların bir dəstəsini *(beytülmalın gözətçilərini)* hiylə və haqsızlıqla öldürdülər. Onların *(şiələrin)* bir hissəsi isə qılınc çalmaq üçün dişlərini sıxdılar, *(müxaliflərə qarşı)* həmin qılınclarla vuruşdular və nəhayət, sədaqətlə *(pak iman və etiqad ilə)* Allaha qovuşdular *(öldürüldülər)*.

---

[1] *Cəməl əhli Bəsrəyə daxil olduqdan sonra oranın əhalisinin bir hissəsi o Həzrətlə olan beyətlərini pozdu.*

# 209- cu xütbə

İmam Əli əleyhis-salamın Cəməl müharibəsində Təlhə ilə Əbdürrəhman ibn Əttab ibn Usəydin öldürülmüş cəsədlərinin yanından keçərkən buyurduğu kəlamlarındandır.

Hər halda Əbu Məhəmməd *(bu, Təlhənin künyəsidir)* burda öz diyarından uzaq və qərib düşüb. Bilin, Allaha and olsun ki, mən yer üzündə Qüreyş tayfasından birinin meyidinin sərilməsini istəmirdim. İntiqamı Əbdül Mənaf övladlarından (Qeyd) [1] aldım. *(Cəməl müharibəsində Aişə ilə birgə olan və onlardan Əbdürrəhman ibn Əttab və Abdullah ibn Rəbiədən başqa heç biri öldürülməyən)* Cuməh qəbiləsinin böyükləri isə əlimdən qaçdılar. Həqiqətən də onlar layiq olmadıqları işə boyun uzatdılar və ona çatmamış boyunları sındırıldı. *(Dünyapərəstlik üçün xilafət və əmirliyi ələ almaq istədilər, amma arzularına çatmadılar.)*

# 210- cu xütbə

İmam Əli əleyhis-salamın *(əsl arif və həqiqi mömin barəsində buyurduğu)* kəlamlarındandır.

Həqiqətən *(mömin)* öz ağlını (*pərhizkarlıqla, Allah və Peyğəmbərə tabeçiliklə)* elə dirildib və nəfsini *(zahidlik, bəndəlik və nəfsi istəklərə tabe olmamaqla)* elə öldürüb ki, onun eni *(bədəni)* nazikləşib, bərki *(ürəyi)* yumşalıb və çox nurlu *(bir)* parıltı işıq saçıb ona. *(O, yüksək tovhid və Allahı tanımaq məqamına çatıb.)* Beləliklə, onun nuru ona yolu *(hidayət və nicat yolunu)* göstərib. O, həmin nurla *(haqq)* yolda hərəkət edib. Və mərtəbələr *(zahidlik, pərhizkarlıq və ibadət)* onu *(yüksəldərək)* əmin-amanlıq qapısı və yaşayış yerinə sövq edib. *(Zahidlik və ibadətin mərtəbələrindən hər biri onu digər mərtəbəyə çatdırar və o, nəhayət, əbədi Cənnəti əldə edər.)* Həmçinin ayaqları bədəninin rahatlığı ilə, öz qəlbini məcbur etdiyi iş *(haqqın nişanələrində*

---

[1] *Şərhçilərin fərqli nəzərlərinə əsasən ana tərəfdən Əbdül Mənafa çatan Təlhə və Zübeyrdən və ya digərlərindən.*

*fikirləşərək düşünmək)* nəticəsində və Rəbbini razı saldığı şey *(itaət və bəndəlik)* vasitəsi ilə təhlükəsiz və rahat yerdə möhkəmlənib.

# 211- ci xütbə

İmam Əli əleyhis-salamın öz səhabələrini cihada *(Allah yolunda vuruşmağa)* həvəsləndirdiyi kəlamlarındandır.

Allah sizdən Onun *(nemətlərinin)* şükrünü yerinə yetirməyinizi istəyir və Öz hökmdarlıq və səltənətini sizin üçün saxlayıb *(yer üzünün başçı və rəhbəri olmağa ancaq Onun dostları layiqdirlər)*. Geniş müsabiqə meydanında *(dünyada)* sizə çovqanı *(başçılıq və ağalığı)* ələ almaq üçün bir-birinizlə yarışmaq möhləti verib. Buna görə də paltarlarınızın bağlarını möhkəm bağlayın (Qeyd)[1] və *(paltarlırınızın)* beldən aşağı düşən artığını böyrəklərə kimi qatlayın *(paltarlarınızın ayağın üstünə düşən ətəyini yığın, yaxud çox yeyib-içməkdən çəkinin, necə ki, buyurur:)* İş fikrində olmaqla qonaqlıq bir araya sığmaz. *(Buna görə də əgər bir iş görmək fikrindəsənsə, canına qulluq etməyi tərk et)*. Yuxu gündüzün qərarlarını necə də çox pozur və bir-birinə vurur. (Qeyd)[2] Qaranlıqlar necə də çox qərarların yada düşməsini zehnlərdən silir. (Qeyd)[3]

---

[1] *Döyüş meydanında cəld və çevik olun, yaxud günahdan çəkinərək uzaq olun.*

[2] *Səfərdə olan şəxs dostları ilə belə qərara gəlir ki, axşam tez yola düşsün və səhərisi gün istinin şiddəti artmamış evinə çatsın. Amma axşam düşən kimi şirin yuxu ona qalib gəlir və həmin qərarları yox edir.*

[3] *Süst iradəli insanlar gündüz hansısa bir işi axşam görmək qəsdinə düşərlər. Amma axşam, qaranlıq hər yeri bürüyəndə, öz fikirlərinə göz yumaraq qəflət yuxusuna gedərlər. Himmətli insanlar isə öz məqsədlərinə nail olmaq üçün səy və təlaş göstərərək yuxu və rahatlığı özlərinə haram edərlər.*

# 212- ci xütbə

İmam Əli əleyhis-salamın *(keçmişlərdən öyüd və ibrət götürmək barəsindəki)* kəlamlarındandır ki, onu *(Təkasur surəsinin 1 və 2-ci ayələrini yəni,)* «أَلْهَاكُمُ التَّكَاثُرُ حَتَّى زُرْتُمُ الْمَقَابِرَ» «bir-birinizə öyünməyiniz sizi *(Allahı və qiyamət gününü yada salmaqdan)* yayındırdı, o vaxta qədər ki, qəbrlərin ziyarətinə getdiniz» ayəsini oxuduqdan sonra buyurmuşdur. (Qeyd)[1] Qəribədir, bu, *(ölülərlə öyünən üçün ağıl və düşüncədən)* nə qədər də uzaq bir niyyət və məqsəddir! *(Allahın əzabından)* necə də çox qafil və xəbərsiz ziyarətçilərdirlər! Necə də hədsiz rüsvayçı bir iş! Həqiqətən diyar və şəhərləri gedənlərdən boş gördülər, halbuki yada salmaq və xatırlamaq yeri idi. Əsl yada salmaq və xatırlamaq yeri!! *(Fəxr etmək və öyünmək məqsədi ilə)* onları uzaq yerdən çağırdılar. (Qeyd)[2] Onlar atalarının torpağa gömüldükləri yerlərlə fəxr edirlər, yoxsa bir-birləri qarşısında məhv olanların sayı ilə öyünürlər?! *(Ölülərlə öyünənlər pis və qanmaz adamlardırlar ki,)* cansız düşmüş cəsədlərdən və onların ətalətdə olan hərəkətlərindən *(dünyaya)* qayıtmalarını istəyirlər *(halbuki bu, adi halda və Allah-taalanın istəyi olmadan qeyri-mümkündür).* Hər halda ölülər öyünməyə səbəb olmaqdansa, ibrət alınmağa daha

---

[1] *Bu surənin nazil olma səbəbi barəsində belə deyilib ki: Əbd Mənaf ibn Qusəyy qəbiləsi ilə Səhm ibn Əmr qəbiləsi öz qəbilə üzvlərinin saylarının çox olmasına görə bir-birilərinə öyünürdülər. Hər iki qəbilə öz adamlarını saydıqdan sonra Əbd Mənaf tayfasının adamlarının sayı çox gəldi. Bundan sonra Səhm ibn Əmr tayfası dedi: Bizim adamlarımızın çoxu cahiliyyət dövründə öldürüldüyü üçün biz həm ölüləri, həm də diriləri sayacağıq. Bu cür saydıqdan sonra onların qəbilə üzvlərinin sayı çox gəldi. Deyirlər ki, onlar qəbristanlığa gedib orada ölüləri sayıblar.*

[2] *Torpağın altında çürüyərək dağılmış, nalayiq əməllərinin girovunda olan ölüdən ibrət götürmək lazım olduğu halda, onlar qəflət və xəbərsizliyin çoxluğundan həmin ölülərlə öyündülər.*

layiqdirlər; onların görüşündə təvazökarlıq etmək onları şan-şöhrət vasitəsi etməkdən daha ağıllı addımdır!! Həqiqətən onlara qaranlıq baxışlarla baxdılar və onlar barəsində nadanlıq və cəhalət dəryasına daxil oldular *(və buna görə də onların qəbrləri ilə öyündülər)*. Əgər onları *(onların başlarına gələnləri)* viran olmuş geniş şəhərlər və boş qalmış evlərdən soruşsalar, *(bu şeylər vəziyyətləri ilə)* deyəcəklər ki: Onlar itkin və nişanəsiz halda yerin altına getdilər *(məhv oldular)* və siz nadanlıq və xəbərsizliklə onların arxasınca gedirsiniz; siz onların başlarını tapdalayır, cəsədlərinin üstündə dayanır, kənara atdıqlarında otlayır *(dünya malından yerdə qoyduqlarına ürək bağlayır)* və xarabalıqlarında *(köçdükləri evlərdə)* məskunlaşırsınız. Həqiqətən sizinlə onlar arasında olan günlər çox ağlayır və sizin üçün nalandırlar. (Qeyd)[1] Onlar sizin həyatınızın sonunun qabağa getmişləridir ki, çeşmələrinizə *(ölüm, qəbir və Bərzəx aləminə)* sizdən tez çatıblar. Onlar hörmətli məqama, iftixar və öyünmə vasitələrinə malik idilər, bəziləri padşah, bəziləri isə onların rəiyyəti idilər. Bərzəxin (Qeyd)[2] dərinliklərində elə yol ilə getdilər ki, həmin yolda yer onların ətlərini yeyib və qanlarını içib. Beləliklə, qəbirlərinin çuxurlarında inkişaf və hərəkəti olmayan cansız, aşkar olmayan gizlin və itkin halda səhəri açarlar. Qorxu onları qorxutmur və vəziyyətin pisliyi onları qəmləndirmir. Zəlzələlərdən iztirab keçirib narahat olmur və möhkəm göy gurultusunun səsinə qulaq vermirlər. Qaib və gizlidirlər ki, heç kəs onların qayıdışını gözləmir. Zahirdə hazırdırlar *(gordadırlar və uzağa getməyiblər)*, amma məclislərdə hazır olmurlar *(iştirak etmirlər)*. Bir yerə toplaşmışdılar, dağılışdılar; bir-birilərinə adət etmişdilər, ayrıldılar. Xəbərlərinin gəlib çatmaması və şəhərlərinin

---

[1] *Çünki gündüzlə gecə diriləri ölülərə çatdırır, sanki sizə ölüm xəbəri verib və sizin ayrılığınıza ağlayaraq nalə edir.*

[2] *Ölümdən qiyamət başlanana kimi dünya ilə axirət arasında keçid rolunu oynayan və nəzərimizdən gizlin olan aləmin.*

sükuta batması müddətin uzunluğu və mənzillərinin uzaqlığına görə deyil, bəlkə onlara elə bir piyalə içirdiblər ki, danışıqlarını lallığa, eşitmələrini karlığa və hərəkətlərini ətalətə çevirib. Buna görə də onlar, vəziyyətləri düşünülmədən vəsf edilsələr, torpağa düşüb yatmış şəxslər kimidirlər.

Qəbristanlıq əhli, bir-birləri ilə əlaqə saxlamayan qonşular və bir-birinin görüşünə getməyən dostlardırlar. Onların aralarındakı tanışlıq nisbətləri köhnəlib və qardaşlıq əlaqələri qırılıb. Beləliklə, onların hamısı bir yerə toplaşmalarına baxmayaraq, tək və kimsəsizdirlər, dost olmalarına baxmayaraq, bir-birlərindən uzaqdırlar. Gecələrinin gündüzü və gündüzlərinin gecəsi yoxdur. Gecə ilə gündüzün hansında köçüblərsə *(və qəbristanlıq yoluna düşüblərsə)*, o, onlar üçün həmişəlikdir. *(Əgər gecə olubsa, onun gündüzü olmaz və əgər gündüz olubsa, onun gecəsi gəlməz.)* Həmin evin çətinliklərini təsəvvür etdiklərindən daha ağır müşahidə etdilər və həmin dünyanın nişanələrini *(savab və cəzasını)* fikirləşdiklərindən daha böyük gördülər. Beləliklə, həyatın o iki sonluğu *(ölümdən sonrakı zamanın xoşbəxtlik və bədbəxtliyi)* onlar üçün qayıdış yerinə *(Cənnət və Cəhənnəmə)* kimi uzanır və həmin müddətdə *(Cəhənnəmliklər üçün)* qorxu və *(Cənnətliklər üçün)* ümidvarlığın son dərəcəsi və həddi mövcuddur. (Qeyd) [1] Buna görə də əgər ölümdən sonra dilə gəlsəydilər *(danışa bilsəydilər),* gözləri ilə görüb dərk etdiklərini bəyan edə bilməzdilər. Onların nişanələrinin gözdən itməsi və xəbərlərinin kəsilməsinə *(heç kəsin onları*

---

[1] *Necə ki, Quranı Kərimin Şura surəsinin 7-ci ayəsində buyurur:* « **وَكَذَلِكَ أَوْحَيْنَا إِلَيْكَ قُرْآنًا عَرَبِيًّا لِّتُنذِرَ أُمَّ الْقُرَى وَمَنْ حَوْلَهَا وَتُنذِرَ يَوْمَ الْجَمْعِ لَا رَيْبَ فِيهِ فَرِيقٌ فِي الْجَنَّةِ وَفَرِيقٌ فِي السَّعِيرِ** » *«Hər bir peyğəmbərə onun öz tayfasının dilində vəhy etdiyimiz kimi Quranı sənə ərəb dilində göndərdik ki, Məkkə əhlini və onun ətrafında olanları əzabdan qorxudasan və gəlməsində heç bir şəkk-şübhə olmayan və hamının (hesablarının araşdırılması üçün) bir yerə toplaşacağı qiyamət günündən çəkindirəsən; yaxşı əməl sahibləri Cənnətə, pis əməl sahibləri isə Cəhənnəmə gedəcəklər».*

*görməməsinə və sözlərini eşitməməsinə)* baxmayaraq, ibrət alan gözlər onları görür və ağıl qulaqları onları eşidir ki, onlar nitqdən ayrı digər bir yolla *(öz vəziyyətləri və ibrətlə belə)* deyirlər: O gülümsər və təravətli üzlər tutularaq çirkinləşdi; o incə və nazik bədənlər cansız qalıb; köhnə və cırıq paltarlar geyinmişik *(kəfənimiz çürüyüb və bədənlərimiz dağılıb)*; yatağımızın *(qəbrimizin)* darlığı bizi çox əziyyətə salıb; vahimə və qorxu bizə irs qalıb *(bizdən əvvəlkilərin çəkdikləri qəbr əzabı bizə də gəlib çatıb)*; sükuta dalmış mənzillər üstümüzə viran olub *(qəbirlərimiz dağılıb)*; gözəl bədənlərimiz məhv və göyçək üzlərimiz çirkin olub və qorxulu mənzillərdə qalmaq müddətimiz uzanıb. Qəm-qüssədən qurtula və sıxıntıdan genişliyə çıxa bilmədik!! İndi əgər ağıl və düşüncə ilə onların vəziyyətlərini təsəvvür etsən və ya pərdə arxasındakılar – *(yəni,)* onların qulaqlarında torpaq altındakı heyvanlar tərəfindən nöqsan yaranması və *(qulaqların)* kar olması, gözlərinə torpaqdan sürmə çəkilməsi və batması, dillərin itilikdən sonra ağızlarda parça-parça olması, qəlblərin oyaqlıqdan sonra sinələrdə ölərək hərəkətdən düşməsi, üzvlərinin hər birində onu çirkinləşdirən və məhv edən yeni çürüntülərin yaranması, ona ziyan dəyməsi yollarının asanlaşması, belə ki, bədənlərinin zərər-ziyanlar müqabilində təslim olması və onları dəf edəcək əllərin, nalə və fəryad qoparacaq qəlblərin olmaması - sənə aşkar olsa, qəlblərdəki kədəri və gözlərdəki tikanı görərsən ki, onlar üçün bu rüsvayçılıq və məşəqqətlərin hər birində dəyişməyən hal və aradan qalxmayan çətinlik vardır.

Yer, dünyada naz-nemət içində olan, kef çəkmək və ucalığın yetişdirməsi olan nə çox möhtərəm bədəni və heyranedici rəng sahibini yeyib! O, qəm-kədər zamanı şadlığa üz tutardı və həyatının gözəlliyinə xəsis, boş və əbəs işlərə həris olduğu üçün ona müsibət və kədər gələndə kef çəkməyə üz tutar və özünü qəm-qüssədən yayındırardı. Beləliklə, dünya ona və o, dünyaya güldüyü halda *(hər*

*birinin diqqəti digərində olanda)* çox qəflət içində olan həyatın şadlıqları əsnasında birdən fələk onu öz tikanı ilə sancdı və qüvvələrini darmadağın etdi *(müxtəlif bəla və dərdlərə düçar etdi)*. Ölüm alətləri ona yaxından tamaşa edirdilər. Beləliklə, o, tanış olmadığı kədərə düçar oldu və bundan qabaq üzləşmədiyi gizli əzab-əziyyətlərlə yoldaş oldu. Xəstəliklər nəticəsində onda çoxlu zəiflik və süstlük yarandı. Amma belə olan halda, yenə də öz sağlamlığına tam inamı var idi *(ölmək ehtimalı vermirdi)*. Qorxub tez təbiblərin istiliyin soyuqluqla müalicə edilməsi və soyuqluğun istiliklə aradan qaldırılması kimi ona adət etdirdikləri şeyə üz tutdu. Amma soyuq dərman istilik xəstəliyini söndürmür, əksinə, onu artırırdı. Həmçinin isti dərman soyuqluq xəstəliyinə onu oynadaraq ağırlaşdırmaqdan başqa bir şey etmir, sağaltmırdı. Münasib mürəkkəb və bəsit dərmanların bir-birinə qatışdırılması ilə onun təbiəti mötədilləşmədi və əksinə, həmin tərkiblər hər bir dərdə kömək edərək onu gücləndirirdi. Nəhayət, *(xəstəlik və dərdin çətinlik və uzunluğu nəticəsində)* onun təbibi süstləşərək aciz qaldı *(onun sağalması üçün hansı dərmandan istifadə edəcəyini bilmədi)*, xidmətçisi yaddan çıxardı (əlini ondan üzdü), arvad-uşağı və onun qəmini çəkənlər dərdini açıqlamaqdan yoruldular və onun vəziyyətini soruşanların cavabında lal oldular *(nəticəsi olan bir söz demədilər)*. Və onun yanında bir-birləri ilə gizlətdikləri qəmli xəbərdən danışdılar. Biri deyirdi: Onun vəziyyəti elə olduğu kimidir. Digəri onları onun yaxşılaşacağına ümidvar edirdi. Başqa biri onlara onun ölümünə görə təsəlli verirdi və həmin xəstədən qabaqkıların yolu ilə gedilməsini yadlarına salırdı. *(Deyirdi ki: Bizdən qabaqkılar bu dünyadan köçüb gediblər. Biz də onlara tabe olub bu dünyadan getməyə naçarıq.)* O, bu vəziyyətdə dünyadan ayrılıq və dostlardan uzaqlıq *(quşunun)* qanadlarına mindiyi əsnada, birdən qəm-qüssələrindən biri ona hücum edər. Beləliklə, onun zirəklik və düşüncələri sərgərdan qalaraq işdən düşər, dilinin rütubəti quruyar. Nə çox mühüm suallar ki, onların cavabını

bilər, amma bəyan etməkdə aciz qalar. Nə çox qəlbini ağrıdan səslər ki, onları (ata kimi) ehtiram göstərdiyi böyükdən və ya *(övlad kimi)* mehriban olduğu kiçikdən eşidər, amma *(cavab vermək qüdrəti olmadığı üçün)* özünü karlığa vurar. Həqiqətən ölümün, hamısının bəyan edilməsi və ya dünya əhlinin ağıllarının onları dərk və qəbul etməsi çox çətin olan müşkülləri vardır.

# 213- cü xütbə

İmam Əli əleyhis-salamın *(Allahı zikr etməyin fəziləti və Allahın zikrinə məşğul kimsələrin vəsfi barəsində olan)* kəlamlarındandır ki, onu *(Nur surəsinin 37-ci ayəsi)* « رِجَالٌ لَّا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَنْ ذِكْرِ اللَّهِ» «o kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən yayındırmaz» ayəsini oxuyarkən buyurmuşdur:

Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah Öz zikrini və Onu yada salmağı qəlblərin cilası və nuru edib ki, onun vasitəsi ilə *(Onun əmr və qadağalarını)* karlıqdan sonra eşidər, qaranlıqdan *(nadanlıqdan)* sonra görər, düşmənçilik və ədavətdən sonra itaətkar və ram olarlar *(Onun razılığını qazanarlar)*. Nemət və bəxşişləri əziz olan Allahın həmişə bəzi zaman mərhələlərində və şəriətlərin nişanələrinin itdiyi zamanlarda, düşüncələrində onlarla gizli danışdığı və ağıllarının dərinliklərində söhbət etdiyi bəndələri vardır. *(Onlar həmişə Allahı zikr edərək ağıl və düşüncələri ilə Onunla danışarlar.)* Onlar çırağı *(hidayət və nicat çırağını)* göz, qulaq və qəlblərindəki oyaqlıq və sayıqlıq nuru ilə işıqlandırıblar. (Qeyd)[1] (Xalqa) Allahın günlərini *(müsibət və itaətsizlik nəticəsində məhv olmuş keçmişlərin əhvalatlarını)* xatırladırlar

---

[1] *Allahın zikri çıraq kimi onların göz, qulaq və qəlblərini işıqlandırıb. Buna görə də Ondan başqa bir şey görmür, Onun əmr və qadağalarından başqa bir söz eşitmir və O istədiyindən başqa şeyə ürək bağlamırlar.*

*(bəyan edirlər ki, ibrət götürsünlər)* və *(onları)* Onun əzəmət və böyüklüyü ilə qorxudurlar *(deyirlər ki: Allahdan qorxun və günah etməyin. Çünki O, hər yerdə var və hər şeyi görür və sizi məhv etməyə qadirdir)*. Onlar çöldəki bələdçi kimidirlər ki, orta yol ilə gedən *(ədalət və sədaqətlə davranan)* kəsin yolunu mədh edirlər və *(onu azğınlıqdan)* nicat tapdığı üçün müjdələyirlər. Sağ və sol tərəfə gedən *(hər bir işdə ifrata varan və ya səhlənkarlıq edən)* kəs üçün isə yolunu pisləyərək onu məhv olmaqdan çəkindiririrlər. Onlar bu sifətlərlə həmin qaranlıqların *(nadanlıq zülmətlərinin)* çıraqları və şübhələrin *(azğınlıq şübhələrinin)* bələdçiləridirlər. Həqiqətən Allahı zikr etməyin öz adamları var ki, onlar onu dünyanın əvəzində götürüblər. Ticarət və alış-veriş onları Ondan yayındırmır. Onlar ömür günlərini Allahı zikr etməklə keçirirlər. Allahın haram və qadağan etdiklərindən çəkindirən sözlərlə xəbərsizlərin qulaqlarında fəryad qoparırlar. Başqalarını ədalət və düzlüyə buyurur və özləri onu yerinə yetirirlər. Bəyənilməyənlərdən *(çirkin söz və əməllərdən)* çəkindirir, özləri də çəkinirlər. *(Axirətə elə iman və yəqinləri var)* sanki dünyanı sona çatdırıb axirətə daxil olublar, oradadırlar və *(bu)* dünyadan sonra olanları *(başqalarının xəbərdar olmadıqları axirət işlərini)* gözləri ilə görüblər. Elə bil ki, Bərzəx əhlinin orada olduqları müddətdəki gizli hallarından xəbərdardırlar və qiyamət, vədlərini onlara sübut edib *(onun barəsində heç bir şəkk-şübhələri yoxdur)*. Beləliklə, dünya əhlinin gözləri qarşısından həmin səhnələr üzərindəki pərdələri elə götürüblər *(iman və yəqin nuru ilə gördüklərini elə faş ediblər)* ki, sanki onlar *(digər)* insanların görmədiklərini görür və başqalarının eşitmədiklərini eşidirlər. Əgər onları ağlın ilə, bəyənilən məqamları və layiqli məclislərində təsəvvür etsən *(onların ibadət və bəndəlik hallarını nəzərində canlandırsan)* - ki, əməllərinin hesab dəftərini açıblar və əmr edilib yerinə yetirmədikləri və ya çəkindirilib səhlənkarlıq etdikləri hər bir kiçik və böyük iş üçün nəfslərinin hesabını aparmağa hazırdırlar, öz ağır günahlarını arxalarına yükləyiblər və

onu götürməkdə aciz qalıblar, ağlamaqlarını boğazda boğublar, *(hesab aparan zaman)* ağlayaraq nalə edə-edə özlərindən sorğu-sual edirlər və təqsirlərindən peşman olub onları etiraf edərək özlərinin Rəbbinə ah-nalə edib fəryad qoparırlar *(bağışlanmalarını istəyirlər, xülasə, onları bu halda gözünün önünə gətirsən)* - hidayət və nicat nişanələri və gecə çıraqlarını görərsən ki, mələklər onların ətrafına toplaşıblar, onlara rahatlıq və *(əzabdan)* xatircəmlik nazil olub və göyün *(bərəkət)* qapıları onların üzünə açılıb. Və onlar üçün Allahın xəbərdar olduğu yerdə şərəfli məkanlar hazırlanıb. Beləliklə, Allah onların *(özləri ilə Allah arasındakı hesablarını araşdırılmasındakı)* səylərindən razı və məmnundur və onların *(günahlardan peşman olma)* üsullarını bəyənib. Allah ilə münacat etməklə *(günahlardan)* bağışlanma mehini hiss edirlər. Onlar Allahın fəzl və kəreminə möhtaclıq girovu və Onun əzəmət və böyüklüyü müqabilində təvazökarlıq əsirləridirlər. Qəm-qüssənin çoxluğu qəlbləri və ağlamağın çoxluğu gözləri yaralayıb. Onların Allaha meyl və rəğbət yolu olan hər bir qapını döyən əlləri var. *(Ona yolu olan hər bir qapını döyərək daxil olarlar.)* İstəklərini o kəsdən diləyirlər ki, genişliklər Onun yanında daralmır *(hər nə qədər bağışlasa və əta etsə səxavət və kərəm dəryasından bir şey əskilmir)* və istəyənlər ondan naümid olmurlar. Belə isə sən özün öz hesabını apar. Çünki başqalarının hesabını səndən başqa bir mühasib aparacaq. *(Başqalarının hesabını araşdırmağın sənə heç bir xeyri yoxdur. Gərək həmişə öz fikrində olasan və öz hesabını diqqətlə araşdırasan.)*

# 214- cü xütbə

İmam Əli əleyhis-salamın *(xalqa öyüd verdiyi)* kəlamlarındandır ki, onu *(İnfitar surəsinin 6-cı ayəsi)* « يَا أَيُّهَا الْإِنسَانُ مَا غَرَّكَ بِرَبِّكَ الْكَرِيمِ» «Ey insan! Səni Kərim olan Rəbbinə qarşı aldadan nədir *(ki, göstərişinə əməl etmir, itaətsizlik göstərirsən?)*» ayəsini oxuyarkən buyurmuşdur:

«Ey insan! Səni Kərim olan Rəbbinə qarşı aldadan nədir?» ayəsinin xitab etdiyi günahkarın dəlil və sübutu ən səhv dəlillərdəndir. (Qeyd)[1] Və o, bəhanəsi heç qəbul edilməyən aldanmış kimsədir. Həqiqətən o özünün nadan qalmasına israr edib. (Qeyd)[2]

Ey insan! Səni günah etməyə nə cürətləndirdi? Rəbbin müqabilində səni məğrur edən nə oldu? Səni, özünü məhv etməyə nə alışdırdı? Məgər dərdinin dərmanı yoxdur, yaxud yuxudan ayılmayacaqsan? Başqasına rəhm etdiyin şeydə öz canına yazığın gəlmir? Çox vaxt birini günün altında görür və onun üstünə kölgə salırsan və ya birini bir dərdə düçar olmuş görürsən ki, dərd onun bədənini yandırır və sən mehribançılıq səbəbindən ona ağlayırsan. Belə isə səni öz dərdinə *(günahlarına)* səbrli edən, müsibətlərinə dözümlü edən və səni, sənin üçün canların ən əziz və istəklisi olan öz canına ağlamaqdan saxlayan, təmkinli edən nədir? Allahın qəzəbinin gecə ikən haqlaması qorxusu səni necə qorxutmur, halbuki Ona qarşı itaətsizliklərlə Onun qəzəb yollarına düşmüsən? Buna görə də öz qəlbinin süstlük dərdini əzm və *(itaətdə)* çalışqanlıqla, gözünün qəflət yuxusunu oyaqlıqla dərman et. Allaha itaətkar ol və Onun zikri ilə ünsiyyətdə ol. Sən Ondan üz döndərərkən Onun sənə üz tutmasını təsəvvüründə canlandır *(və fikir yolu ilə bax)*

---

[1] *Çünki Onun «Sənin kərəmin məni məğrur etdi» deməsi düz deyil. Ona görə ki, kərəm günah və naşükürlük edilməsini deyil, itaət və şükr edilməsini tələb edir. Ayənin «Səni intiqam alan Rəbbinə qarşı aldadan, məğrur edən nədir?» buyurmamasının səbəbi, kərim olan Rəbbə qarşı itaətsizlik edilməməsinin zəruriliyini bildirmək üçündür. Əgər insan «məni şeytan aldatdı, məğrur etdi» desə ona cavab veriləcək ki: Məgər biz Qurani-Kərimdə «Şeytana tabe olmayın ki, o sizin aşkar düşməninizdir» deməmişdik? Əgər «nadanlıq məni məğrur etdi» desə cavabında deyiləcək ki: Məgər bizim hökmlərimizi sizə öyrətmək üçün peyğəmbərlər göndərməmişdik? Qısası üzr və bəhanə gətirmək yolu bağlıdır.*

[2] *Və buna görə də fani dünyanın ləzzət və sevincini əbədi səadət və Cənnətdən üstün tutub.*

ki, səni Öz əfv və bəxşişinə çağıraraq fəzl və kəraminə bürüyüb, amma sən Ondan üz döndərərək başqasına üz tutmusan. Bütün bunlarla yanaşı Allah uca, üstün və qüdrətli olmasına baxmayaraq, nə qədər də çox kərimdir və sən, alçaq və aciz olmağına baxmayaraq, çox itaətsizlik etməkdə nə qədər də cürətlisən, halbuki Onun *(əfv və bağışlama)* pərdəsinin pənahında yaşayır və lütf və ehsanının genişliyində gəzirsən! Amma O, nəinki bəxşiş və mərhəmətini səndən əsirgəməyib və Özünün *(bağışlama)* pərdəsini sənin *(günahların)* üzərindən götürməyib, bəlkə sənin üçün yaratdığı nemət və bəxşişdə və ya örtdüyü günahlarında, yaxud uzaqlaşdırdığı bəlalarında bir göz qırpımı Onun lütfündən uzaq olmamısan *(halbuki sən yenə də Ona itaətsizlik istiqamətində çalışırsan)*. İndi Ona *(Onun göstərişlərinə)* tabe olmaq barəsində nə düşünürsən? Allaha and olsun ki, əgər bu sifət *(Allahın sənə üz tutması və sənin Ondan üz çevirməyin)* qüvvələri bir və qüdrətləri bərabər olan iki şəxsdə olsaydı *(və onlardan üz tutandan uzaqlaşan sən olsaydın)* elə özün xoşagəlməz xislətlər və rəftarlarının pisliyinə görə öz ziyan və pisliyinə *(öz əleyhinə)* hökm verən ilk kəs olardın. *(Bəs sənin özün öz pisliyinə hökm verdiyin bir halda, eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah müqabilində özünü necə hiss edirsən?)* Haqq və düz deyirəm *(ki, həqiqətən)* dünya səni aldatmayıb, bəlkə sən ona aldanmısan. Dünya sənə öyüd-nəsihətləri aşkar edib və səni ədalət və bərabərliklə xəbərdar edib. Sənə cisminin dərdə düçar olacağı və gücünün azalacağı kimi verdiyi vədlərdə daha doğruçu və vəfalıdır və sənə yalan demir və aldatmır səni. Nə çox nəsihət verən ki, sən onu təqsirləndirirsən *(onun ibrətlərindən nəticə çıxarmırsan və sənin nəfsi istəklərinə zidd olduğu üçün ona əhəmiyyət vermirsən)*. Və nə çox doğru xəbər ki, sən onu yalan sanırsan. Əgər dünyanı xaraba şəhərlər və boş evlərlə tanımaq istəsən, onun gözəl nəsihətçi və öyüd verən olduğunu görərsən ki, mehriban yoldaş kimi səni məhvə

çəkməyə qıymır. (Qeyd)[1] *(Buna görə də buyurur:)* Dünya ona ürək bağlamayan üçün gözəl ev və onu vətən *(öz həmişəlik yaşayış yeri)* etməyən üçün gözəl yerdir. Dünya əhlinin sabahkı *(qiyamətdəki)* xoşbəxtləri bu gün dünyadan qaçan *(və onun malına ürək bağlamayan, vurulmayan)* kimsələrdir.

Yer möhkəm titrəyəndə və onun qorxu və çətinlikləri ilə qiyamət gerçəkləşəndə, hər bir din əhli öz dininə, bütün sitayiş edənlər öz məbudlarına və bütün tabe və davamçılar öz rəhbərlərinə qovuşanda *(söz və əməllərinin araşdırılması üçün bir yerə toplaşanda)* Allahın ədaləti müqabilində havaya salınan hər bir nəzər və yerdə atılan hər bir yavaş addıma düzlük və doğruluqla əvəz veriləcək. *(Həmin gün hər bir pis və yaxşı iş, hətta kiçik olsa belə, aşkar olacaq və onun barəsində sorğu-sual ediləcək.)* Beləliklə, həmin gün çox dəlil və sübutlar batil olacaq və insanın sığındığı çox üzr və bəhanələr qəbul edilməyəcək. Buna görə də öz əməlindən, vasitəsi ilə bəhanələrin qəbul ediləcək və dəlilin möhkəmlənəcək şeyi istə. Sənin onun üçün qalmayacağın şeydən *(dünyadan)* sənin üçün qalacaq şeyi *(Allaha itaət və xalqa xidməti)* götür. Öz səfərin üçün hazır ol. *(Çətinliklərindən)* nicat və qurtuluş işığına nəzər sal *(gör hardan saçır və hara gedir)* və yəhəri cəld və çevik dəvələrin belinə bağla *(axirət səfəri üçün azuqə və minik tədarükü gör ki, yolda qalmayasan və çətinliklərlə qarşılaşmayasan)*.

# 215- ci xütbə

İmam Əli əleyhis-salamın *(öz vəsfindəki)* kəlamlarındandır *(ki, onda zülm, sitəm və haqsızlıqdan uzaq olmasını bəyan edib)*.

And olsun Allaha ki, gecəni *(iti tikanları olan)* dəvətikanının üstündə oyaq keçirməyim və *(əl, ayaq və*

---

[1] *Buna görə də «dünya məni aldatdı» deməməlisən. Çünki əgər dünya səni aldatsaydı, ibrətlərini səndən gizlədərdi. Bu kəlam Allah-təalanın Qurani-Kərimin Casiyə surəsinin 35-ci ayəsindəki «وَغَرَّتْكُمُ الْحَيَاةُ الدُّنْيَا» «dünya həyatı sizi aldatdı» buyuruğu ilə ziddiyyət təşkil etmir. Çünki dünyanın aldatmasının mənası əslində ona aldanmaqdır.*

*boynumun)* zəncirlə bağlanaraq öldürülməyim, mənim üçün qiyamət günü Allah və Peyğəmbərə, bəndələrin bəzilərinə zülm edib dünya malından bir şey qəsb etmiş halda qovuşmaqdan daha xoşdur. Sürətlə köhnəlməyə və çürüməyə doğru gedən *(cavanlıq və güclülüyü çox tez qocalıq və zəifliklə əvəz olan)* və torpaq altında qalması uzun çəkəcək nəfsə görə kiməsə necə zülm edim?!

And olsun Allaha, *(qardaşım)* Əqili çox yoxsul və pərişan halda gördüm və məndən sizin buğdanızdan *(beytülmaldan)* bir batman istədi. Həmçinin onun uşaqlarını qəm-kədərdən tutqun rəngdə, toz-torpaqlı saçlarla gördüm, sanki üzləri mavi rənglə *(indiqo ilə)* qaraldılmışdı. Əqil öz istəyində təkid edərək sözünü təkrar edirdi və mən onun söhbətinə qulaq asırdım. Güman edirdi ki, mən öz dinimi ona sataraq öz yolumdan əl götürüb onun arxasınca gedəcəyəm *(hər nə desə yerinə yetirəcəyəm)*. Buna görə də onun üçün bir dəmir parçası qızdırıb bədəninə yaxınlaşdırdım ki, ibrət götürsün. O, qızarmış dəmir parçasının ağrısından xəstənin nalə etməsi kimi nalə edib fəryad qopardı və az qalmışdı ki, ondan yansın. Ona dedim: Ey Əqil, analar matəmində ağlasınlar! İnsanın oynamaq üçün qızdırdığı dəmir parçasından nalə qoparırsan, amma məni qüdrətli Allahın qəzəbindən yandırdığı oda tərəf çəkirsən?! Sən bu *(az)* əziyyətə görə nalə qoparırsan, amma mən Cəhənnəm odundan fəryad qoparmayım?! Əqilin əhvalatından daha təəccüblüsü bir şəxsin (Qeyd)[1] axşam, ağzıbağlı qabdakı hədiyyə ilə və nifrət edib barəsində bədbin olduğum, sanki ilanın tüpürcəyi və ya qusmağı ilə qatışdırılmış halva ilə yanımıza gəlməsidir. Ona dedim: Bu hədiyyədir, zəkatdır, yoxsa sədəqə? Zəkat ilə sədəqə biz əhli-beytə haramdır. Dedi: Sədəqə və zəkat deyil, hədiyyədir. *(Bu hədiyyəni gətirməkdən məqsədi batil olduğu və əslində onun hədiyyə adlandırdığı şey rüşvət*

---

[1] *Münafiq, ikiüzlü və İmam əleyhis-salamın düşmənlərindən olan və o Həzrətin də düşmən bildiyi Əşəs ibn Qeys (nəzərdə tutulur).*

*olduğu üçün)* dedim: Anan matəmində ağlasın. Məni Allahın dininin yolu ilə gəlib aldadırsan? *(Məni bu yolla aldatmaq istədiyini)* dərk edib anlamırsan, yoxsa dəlisən və yaxud boş-boş danışırsan? Allaha and olsun, əgər yeddi iqlimi onların göylərinin altında olan bütün şeylərlə birlikdə mənə versələr ki, bir qarışqanın ağzından arpanın qabığını çıxarmaqla Allaha itaətsizlk edim, etmərəm. Həqiqətən sizin dünyanız mənim yanımda çəyirtgənin ağzında çeynədiyi yarpaqdan da ucuz və dəyərsizdir. Əlinin əldən çıxan nemət və qalmayacaq ləzzətlə nə işi? Ağlın yuxuya getməsindən *(və onun dünyanın fitnə-fəsadlarını başa düşməkdən xəbərsiz qalmasından)* və sürüşmənin (və azğınlığın) çirkinliyindən Allaha pənah aparıram və (bütün hallarda) ancaq Ondan kömək diləyirəm.

# 216- cı xütbə

İmam Əli əleyhis-salamın *(var-dövlətli olmağı istəmək və yoxsulluğa düçar olmamağı diləmək üçün olan)* dualarındandır.

Allahım, mənim abrımı varlılıqla qoru və şəxsiyyətimi yoxsulluqla alçaltma ki, Sənin ruzi verdiklərindən ruzi istəməyim, yaratdıqlarının pis əməllərində mehribançılıq axtarmayım, mənə bir şey əta edən kəsi mədh etməyə məcbur olmayım və mənə bir şey verməyən kimsənin pisliyinə danışmağa düçar olmayım. (Qeyd)[1] Bütün bunlardan sonra Sən verib verməməkdə ixtiyar sahibisən. Çünki hər bir şeyin ixtiyar və qüdrəti Sənin əlindədir.

---

*[1] Bu iki sifət məzəmmət edilmiş sifətlərdəndir və böyük günahlardan sayılır. Çünki bir şey verəni mədh etmək Allahdan başqasına üz tutmaq və Ona şərik qoşmaqdır. Nə çox bəxşiş edən adamlar var ki, dövrün pislərindəndirlər. Bir şey verməyən kəsi pisləmək də rəva və düzgün deyil. Çünki ola bilər ki, o yaxşı insanlardan biridir və bir şey verməməsinin üzrlü səbəbi var.*

# 217- ci xütbə

İmam Əli əleyhis-salamın *(dünyanın məzəmməti və ölülərin hallarının bəyanı barəsindəki)* xütbələrindəndir.

Dünya, *(əhli)* qəm-qüssəyə bürünmüş, hiylə və xəbisliklə məşhurlaşmış *(vəfasızlığı gözüaçıq insanlara gizli olmayan)* bir evdir. O, həmişə bir halda qalmır. (Qeyd)[1] Ona gələnlər *(onun yanmaq, batmaq, uçmuş tavanlar altında qalmaq və müxtəlif xəstəliklərə düçar olmaq kimi dərd və əziyyətlərindən)* salamat qalmazlar. Onun halları müxtəlifdir və növbələri dəyişməkdədir *(bəzən nemət verər, bəzən də zəhmət)*. Onda kef çəkmək *(nəfsin istəklərinə tabe olmaq)* məzəmmət edilib və onda rahatlıq tapılmır. Onun əhli, onda bəla oxlarına hədəfdir ki, dünya öz oxlarını onlara tərəf atır *(hər birini bir dərdə düçar edir)* və ölümlə məhv edir.

Ey Allah bəndələri! Bilin ki, həm siz və həm də bu dünyada sizi əhatə edən şeylər *(onun mal, bina və bər-bəzəyi)* sizdən qabaq keçənlərin yolundasınız. Onların ömürləri sizinkindən daha uzun, şəhərləri daha abad və nişanələri daha mühüm idi. Onların səsləri kəsilib *(danışmırlar)*, küləkləri yatıb *(təkəbbür və məğrurluqları aradan gedib)*, bədənləri çürüyüb, şəhərləri boş qalıb və nişanələri yoxa çıxıb. Ucaldılmış qəsrlər, möhkəm tikililər və böyük balışları möhkəm daşlar və ləhədə *(qəbrin içində olan çuxura)* birləşmiş qəbirlərlə əvəz ediblər. O qəbirlər ki, onların astanası viran olub və binası torpaq ilə möhkəmlənib. Həmin qəbirlər bir-birlərinə yaxındırlar. Amma sakinləri qərib və tənhadırlar. *(Hər birinin qəbrinin digərinin qəbrinə yaxın olmasına baxmayaraq, onlar bir-birləri ilə görüşmürlər.)* Onlar elə bir məhəllə sakinləri arasında məskunlaşıblar ki, *(bir-birləri ilə qaynayıb-qarışmadıqları üçün)* qorxu içindədirlər; zahirdə rahat olan bir dəstənin içindədirlər, amma əzab-

---

[1] *Onun həyatı ölümə, varlılıq və zənginliyi yoxsulluğa, sevinci kədərə, sağlamlığı xəstəliyə, güclülüyü zəifliyə və hörmətliliyi xarlığa çevrilir.*

əziyyətdədirlər *(bir işləri yoxdur, amma əslində saysız zəhmət və məşəqqətlərə düçardırlar)*. Vətənlərə *(özlərinin həmişəlik yaşayış yerlərinə)* uyuşmurlar. Yaxın və qonşu olmalarına baxmayaraq, qonşular kimi bir-birləri ilə qaynayıb-qarışmırlar. Çürüntü onları öz sinəsi ilə yediyi və daş-kəsək onları udduğu *(məhv etdiyi)* halda onların arasında necə görüş ola bilər?! Özünüzün onların getdikləri yerə getmiş olduğunuzu, həmin yatağın *(qəbrin)* sizi girov götürməsini və həmin əmanət yerinin sizi qoynuna almasını təsəvvür edin. Belə isə *(ey dünyaya aldananlar)* əgər sizin işləriniz *(qəbir və Bərzəx aləmi)* sona çatsa və ölüləri qəbirlərdən *(hesabları araşdırmaq üçün)* çıxarsalar, sizin vəziyyətiniz necə olacaq? *(Qurani-Kərimin Yunus surəsinin 30-cu ayəsində deyilir ki:)* « **هُنَالِكَ تَبْلُو كُلُّ نَفْسٍ مَّا أَسْلَفَتْ وَرُدُّواْ إِلَى اللّهِ مَوْلاَهُمُ الْحَقِّ وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ**» «Həmin vaxt hər bir kəs əvvəlcədən qabağa göndərdiyi şey *(yerinə yetirdiyi əməl)* ilə imtahan ediləcək *(onun xeyir-ziyanını görəcək)* və həqiqi ixtiyar sahibi olan Allahın hüzuruna qaytarılacaqdır. Onların uydurduqları şey *(bütləri Allahın şəriki bilib onların şəfaətlərinə göz dikmələri)* işlərinə yaramayacaq».

# 218- ci xütbə

İmam Əli əleyhis-salamın *(Allahın mədhi və əfv edilərək bağışlanma istəmək barəsindəki)* dualarındandır.

Allahım, Sən öz dostlarınla bütün dostlardan çox dostsan və onların Sənə təvəkkül etdikləri işlərinin islah edilməsinə onların özlərindən də hazırsan *(hər bir şeyə qadir olduğun üçün istəyən kimi hər bir işi görürsən)*. Batinlərini görür, düşüncələrindən xəbərdarsan və gözüaçıqlıq və ağıllarının miqdarını bilirsən. Beləliklə, onların sirləri Sənin yanında aşkardır və qəlbləri Sənə doğru yönəlib. Tənhalıq onları vahiməyə salanda Sənin zikrin onlarla ünsiyyətdə olur, qəm-qüssə onlara qalib gələndə Sənə pənah aparmağa

sığınırlar. Çünki bilirlər ki, işlərin sükanı Sənin *(qüdrət və qüvvət)* əlindədir və onların mənşəyi Sənin qəzavü-qədərindir.

Allahım, əgər nə istəyəcəyimi bilməsəm və öz istəyimdə çaş-baş qalsam, məni xeyrim olan şeyə yönəlt və qəlbimi xeyir və yaxşılığım olan şeyə tərəf döndər ki, əgər məni istiqamətləndirsən, bu Sənin hidayət etmələrinin münasib olmayanı və istəkləri rəva etməklərinin qəribə və təəccüblüsü deyil. *(Çünki Sən hidayət edən və istəkləri rəva edənsən.)*

Allahım, mənimlə ədalətinlə deyil, əfv və bağışlamanla davran. *(Çünki ədalətlə rəftar etmək cəzalanmağıma və çətinliyə düşməyimə səbəb olar.)*

# 219- cu xütbə

İmam Əli əleyhis-salamın *(Ömər barəsində tövriyə yolu ilə buyurduğu, yəni, zahirdə onu təriflməsi kimi görünən, amma batində onu məzəmmət etdiyi və buna görə də üçüncü xütbədə buyurduqları ilə heç bir ziddiyyət təşkil etməyən)* kəlamlarındandır.

Allah filankəsin *(Ömər ibn Xəttabın)* şəhərlərinə bərəkət versin və qorusun ki, o, *(Bəzilərinin fikrincə)* əyriliyi düzəltdi *(azğınları yola gətirdi)*, xəstəliyi müalicə etdi *(bir sıra şəhərlərin əhalisini İslam dininə qovuşdurdu)*, sünnəni bərqərar etdi *(Peyğəmbərin hökmlərini icra etdi)* və fitnə-fəsadı arxaya atdı *(onun zamanında bir fitnə baş vermədi)*. Dünyadan pak paltar və az eyblə getdi *(Osman kimi özünü çirkinliklərə bulaşdırmadı)*. Xilafətin xeyrini əldə etdi və onun şərini qabaqladı *(nə qədər ki, var idi xilafət işi nizam-intizamda idi və onda heç bir pozğunluq yaranmadı)*. Allahın itaətini yerinə yetirərək itaətsizlikdən çəkinib Onun haqqını əda etdi. O *(dünyadan)* köçdü, *(lakin)* onları *(müsəlmanları)* elə haçalanmış yollarda qoyub getdi ki, o yollarda yolunu azan hidayət, hidayət edilmiş isə yəqinlik tapmaz.

# 220- ci xütbə

İmam Əli əleyhis-salamın xalqın onunla beyətinin necəliyi barəsindəki kəlamlarındandır və bundan qabaq *(əlli üçüncü və yüz otuz yeddinci kəlamda)* bunun bənzəri başqa kəlmələrlə keçdi.

*(Mənimlə beyət etmək üçün)* əlimi açdınız, mən yumdum, onu çəkdiniz, mən saxladım. Ondan sonra susuz dəvələr su nohurlarına daxil olanda basabas saldıqları kimi izdihamla üstümə töküldünüz. Nəhayət, ayaqqabının ipi *(ayaqlardan)* açıldı, əba *(çiyindən)* düşdü, zəif ayaq altında qaldı və xalqın mənimlə beyət səbəbindən sevinci o həddə çatdı ki, uşaqlar şad oldular və zəif qoca, çətinlik və məşəqqətdə olan xəstə və yeni yetişmiş qızlar rübəndsiz onun tamaşasına gəldilər. (Qeyd)[1]

# 221- ci xütbə

İmam Əli əleyhis-salamın *(pərhizkarlığa yiyələnmək və ölüm haqqında, eləcə də dünyaya aldanmamaq barəsində buyurduğu)* xütbələrindəndir.

Pərhizkar olmaq və Allahdan qorxmaq *(dünya və axirətdə)* hidayət və nicat açarı, qiyamət günü üçün azuqə, hər bir əsirlikdən *(şəhvətlər və nəfsi istəklərdən)* azadlıq vasitəsi və hər bir məhvdən qurtuluşdur. Təqva ilə hacət istəyənin diləyi rəva olur, *(əzab və çətinlikdən)* qaçan nicat tapır və *(Allah-təaladan)* çoxlu əta və bəxşişlər əldə edilir. Buna görə də indi ki, əməl yuxarı qalxır *(qəbul edilir)*, tövbə və *(günahdan)* qayıdış xeyir verir, dua eşidilir *(hacətləri qəbul edirlər)*, dinclik və rahatlıq vaxtıdır *(arada ölüm iztirabı və nigarançılıq yoxdur)* və

---

[1] *Buna görə də tam meyl və rəğbətlə edilmiş, sevincin çoxluğundan hamının özündən çıxdığı beyətlə müxalifət etməməli və onu pozmamalısınız.*

qələmlər *(yaxşı və pis əməlləri yazanların qələmləri)* işləyir *(öləndən sonra işdən düşən kimi deyil)* iş görün *(axirət səfəri üçün azuqə götürün). (Cavanlıqdan qocalığa, güclülükdən zəifliyə*) dəyişən ömrün, yaxud *(işdən)* saxlayan xəstəlik və dərdin və ya *(həyatı)* oğurlayan ölümün müqabilində ibadət və itaətə tələsin! Çünki ölüm sizin sevinc və ləzzətlərinizi məhv edərək istəklərinizi yox edəcək və düşüncələrinizi uzaqlaşdıracaq. O, sevilməyən görüşçü, *(hər nə qədər şücaətli və güclü olsan da)* məğlub olmayan mübariz və sorğu-suala tutulmayan intiqamçıdır. Onun tələləri sizi tutub, qəm-qüssə və həlakətləri sizi əhatə edib, *(oxlarının)* ucları sizi hədəf alıb, üstünlük və qüdrəti aranızda əhəmiyyətlidir və zülmü ardıcıl olaraq sizə çatır. Qılıncının zərbəsinin boşa çıxması çox az mümkündür. Buna görə də kölgələrinin qaranlığının, dərdlərinin şölələnməsinin, çətinliklərindən yaranan özündən getmələrin tutqunluqlarının, dərdlərin canı almalarının, qara geyindirmələrinin və pis dadı daddırmasının sizi haqlaması yaxındır. *(Ölüm istəyib-istəməməkdən asılı olmayaraq hamını tapacaq)* sanki qəflətən sizin yanınıza gəlib, sir danışanlarınızı susdurub, müşavirlərinizi dağıdıb, nişanələrinizi məhv edib, şəhərlərinizi sahibsiz qoyub və varislərinizi, irslərinizi *(həmin vaxt sənə)* xeyri olmayan məxsus qohumlar, *(sənin ölümünün)* qarşısını almayan qəmli qohumlar və *(sənin ölümündən)* kədərlənməyən xoşhallar arasında bölüşdürmək üçün göndərib. Belə isə *(itaət və bəndəlikdə)* səy və təlaş edin və azuqə götürülən yerdə *(axirət səfərinə)* hazır olaraq azuqə götürün. Dünya həyatı keçib gedənlərinizi aldatdığı kimi sizi aldatmasın. O kəslər ki, onun südünü sağdılar *(ondan çox bəhrələndilər)*, ona aldandılar *(ləzzət və şadlıq onları qiyamət gününün hesabından qafil etdi)*, onun sayını ləğv etdilər *(günlərini qəflət və xəbərsizliklə sona çatdırdılar)* və onun təzəsini köhnəltdilər *(cavanlığı qocalığa çatdırdılar)*. Evləri gorlar, var-dövlətləri isə başqalarının mirası oldu.Qəbrlərinin üstünə gələni tanımazlar, onlara ağlayana əhəmiyyət verməzlər və onları

çağırana cavab verməzlər. Buna görə də dünyadan çəkinin. Çünki o, çox hiyləgər, aldadan və ələ salandır. O, bağışladığını geri alan və geyindirdiyini soyundurandır. (Qeyd)[1] Onda olan rahatlıq həmişəlik deyil və onun çətinlikləri sona çatmır, dərd-bəlası sakitləşmir. *(Buna görə də ağıllı adam belə bir dünyaya ürək bağlamaz və mümkün olan qədər Allah və Peyğəmbərin razılığını əldə edər.)*

## Bu da həmin xütbənin zahidlər barəsindəki bir hissəsidir

Zahidlər *(zahirdə)* dünya əhlindən olan, amma *(batində)* onun əhli olmayan bir dəstədirlər. Buna görə də dünyada onun əhli olmayan kəs kimidirlər *(çünki ona ürək bağlamayır, onu müvəqqəti ev sanırlar)*. Onların dünyadakı əməlləri *(ölümdən sonra)* gördükləri şey üçündür. Qorxduqları əzabı dəf etməyə tələsirlər. *(Dünya əhli ilə oturmalarına baxmayaraq, əslində)* bədənləri axirət əhli arasında seyrdədir *(iş-gücləri onlarladır)*. Dünya əhlinin, bədənlərinin ölməsinə əhəmiyyət verməsini görərlər. Onlar isə öz diri qəlblərinin ölməsinə əhəmiyyət verərlər. *(İnsanların həmişə qalacaq qəlbi buraxıb fani bədənə yapışmalarını görərlər. Amma onların fikirləri bu olar ki, qəlbin ölməsinə nə səbəb olub və ona çarə qılmaq üçün nə etməlidirlər.)*

# 222- ci xütbə

İmam Əli əleyhis-salamın *(Həzrət Peyğəmbərin-səlləllahu əleyhi və alih-mədhi barəsindəki)* xütbələrindəndir ki, onu Bəsrəyə gedərkən *(Bəsrə yaxınlığındakı)* «Zi-qar»da buyurub. Vaqidi onu «Cəməl» kitabında nəql edib.

Həzrət Peyğəmbər məmur edildiyi şeyi bəyan edib və Rəbbinin sifarişlərini *(hökmlərini xalqa)* çatdırıb. Beləliklə,

---

[1] *Əgər bir neçə gün birinə üz tutub ona bir şey versə, tez arxa çevirər və verdiklərini geri alar.*

Allah onun vasitəsi ilə bir-birindən ayrılmış şeyi nizam-intizama saldı, dağınıqları bir yerə topladı və sinələrdə şölələnən düşmənçilikdən və qəlblərdə alovlanan kin-küdurətdən sonra qohumlar arasında birlik yaratdı.

# 223- cü xütbə

İmam Əli əleyhis-salamın, səhabələrindən olmuş Abdullah ibn Zəməəyə buyurduğu kəlamlarındandır. Abdullah o Həzrətin xilafəti zamanında onun yanına gələrək *(beytülmaldan)* bir mal istədi. İmam əleyhis-salam buyurdu.

Bu mal nə mənimdir, nə də sənin, bəlkə müsəlmanların *(müharibədə kafirlərə qalib gəlib əldə etdikləri)* qənimətləri və onların qılınclarının məhsuludur. Buna görə də əgər sən döyüşlərində onlarla şərik olmusansa, onda onlar kimi sənin də payın var. Əks təqdirdə *(sənin payın yoxdur, çünki)* onların əllərinin topladıqları başqalarının ağzı üçün deyil.

# 224- cü xütbə

İmam Əli əleyhis-salamın *(dilin natiq deyil nitq vasitəsi olması barəsindəki, eləcə də öz zəmanəsinin adamlarını və gələcək insanları vəsf etdiyi)* kəlamlarındandır. *(Əmirəl-möminin əleyhis-salam bir gün bacısı oğlu Cədə ibn Hübeyrə Məxzumiyə camaata xütbə oxuması göstərişini verdi. Cədə minbərə çıxanda danışa bilmədi. Sonra o Həzrət özü ayağa durub minbərə çıxdı və müfəssəl bir xütbə oxudu ki, onun bir hissəsi belədir.)*

Bilin, dil insanın bir parçasıdır ki, əgər şəxs aciz olsa, söz onunla yoldaşlıq etməz. (Qeyd) [1] Həmçinin əgər şəxs bacarıqlı olsa, söz dilə imkan verməz. Biz *(Peyğəmbər Əhli-Beyti)* söz şahlarıyıq *(söz bizim əmrimizə tabedir)* və onun kökləri

---

[1] *Natiqləşməz, yəni, əgər birinin danışıq bacarığı olmasa, danışıq və söz də onun dilinə gəlməz, necə ki, əgər birinin yerimək qüdrət və bacarığı olmasa, ayaq öz-özünə yol getməz.*

bizə batıb və budaqları bizim üstümüzə sərilib *(hər bir məsələni lazım olan zaman fəsahət, bəlağət və dolğunluğun son həddində bəyan edə bilirik).*

Allah sizi bağışlasın, bilin, siz elə bir zamanda yaşayırsınız ki, onda haqq danışan az, dil doğruçuluqda süst və haqqı axtaran xardır. İnsanlar *(Allah və Peyğəmbərə)* itaətsizliyə hazırlaşıblar və *(nəfsi istəklərə tabe olmaq üçün)* bir-birləri ilə uyuşmaqda yoldaşlıq edərək birləşiblər. Cavanları pis xasiyyətli, qocaları günahkar, alimləri ikiüzlü və danışanları yaltaqdır. Kiçikləri böyüklərinə hörmət qoymur və varlıları yoxsullarına əl tutmur.

# 225- ci xütbə

İmam Əli əleyhis-salamın kəlamlarındandır. Zeləb Yəmani, Əhməd ibn Qutəybədən, o, Abdullah ibn Yəziddən və o, Malik ibn Dihyədən nəql edib ki: Biz Əmirəl-mömininin yanında idik və insanlar arasındakı fərqlərdən *(bədənlərinin, əxlaqlarının və davranışlarının yaxşı və pisliyindən)* söz düşdü. O Həzrət buyurdu:

Maya və yaradılışlarının mənşə və başlanğıcı onlar arasında ayrılıq salıb. *(Onların fərqlərinin səbəbi vücuda gəldikləri və yaradıldıqları ünsürlərin müxtəlif olmasıdır.)* Bu, onların şor və şirin yerin və bərk və yumşaq torpağın bir parçası olmalarına görədir. *(Xülasə, onların müxtəlif olmalarının səbəbi müxtəlif yerlərdə yetişən qida məhsullarından təşkil olunmuş nütfələrdir.)* Buna görə də onlar *(nütfələri təşkil olunan qidaların yetişmə)* yerlərinin yaxın olması qədər bir-birlərinə yaxındırlar *(və xasiyyətləri birdir).* Eləcə də həmin yerin fərqliliyi miqdarında *(sifətlərində)* bir-birlərindən fərqlidirlər. Buna görə də *(bəzən)* gözəl üzlü ağlı az, uzun boylu az himmətli, gözəl əməlli çirkin üzlü, qısa boylu uzaqgörən, gözəl təbiətli pis xislətə bürünmüş, avara-sərgərdan və çaşqın qəlbli ağılı dağınıq və tutqun və xoş dilli qəlbi iti *(bilikli və gözüaçıq)* olur.

# 226- cı xütbə

İmam Əli əleyhis-salamın Allahın Peyğəmbərini *(səlləllahu əleyhi və alih)* qüsl verib kəfənləyərkən buyurduğu kəlamlarındandır.

Atam-anam sənə fəda olsun, ey Allahın Peyğəmbəri! Həqiqətən sənin ölümünlə başqalarının *(digər peyğəmbərlərin)* ölümü ilə kəsilməyən şey - nübüvvət, ilahi hökmlər və səma xəbərləri kəsildi. (Qeyd)[1] *(Sən öz müsibətində)* tək və yeganəsən. Belə ki, digər müsibətlərə təsəlli verənsən. *(Çünki sənin müsibətin bütün müsibətlərdən böyükdür.) (Öz vəfatınla dünyadan köçməyinlə isə)* ümumisən. Belə ki, insanlar səndə *(sənin matəmində)* yeksandırlar. *(Bu müsibətdə heç kəs kədərsiz deyil.)* Əgər səbrliliyə əmr edib nalə, fəryad və fəğan qoparmaqdan çəkindirməsəydin, *(sənin ayrılığına görə çox ağlamaqla)* həmişə göz yaşlarımın bulaqlarını qurudardım və dərd-qəm daimi və hüzn və kədər həmişə bərqərar olardı. Sənin müsibətində göz yaşının quruması, hüzn və kədərin daimi olması azdır. Amma ölüm elə şeydir ki, onu aradan qaldırmaq mümkün deyil və onu dəf etmək imkansızdır. Atam-anam sənə fəda olsun, bizi Rəbbinin yanında yada sal və öz yadında saxla *(bizi unutma və Allah-təaladan günahlarımızın bağışlanmasını istə)*.

# 227- ci xütbə

İmam Əli əleyhis-salamın *(Allah-təalanın bəzi sifətləri barəsində və Həzrət Peyğəmbərin-səlləllahu əleyhi və alih-mədhindəki)* xütbələrindəndir.

---

[1] *Çünki hər bir peyğəmbərdən sonra ondan sonrakı peyğəmbərə vəhy nazil olurdu. Amma sən peyğəmbərlərin sonuncusu olduğun üçün sənin vəfatından sonra heç kəsə vəhy nazil olmayacaq.*

Şükr o Allaha layiqdir ki, hiss və duyğular Onu *(Onun zat və həqiqətini)* dərk etməz, məkanlar Onu əhatə etməz, gözlər Onu görməz və pərdələr Onu örtməzlər. (Qeyd)[1] Və yaratdıqlarının yaranması və zahir olması ilə Öz vücudunun qədimlik, əbədilik və varlığına dəlildir. (Qeyd)[2] Həmçinin yaranmışların bir-birlərinə oxşamaları Onun bənzərinin olmamasına dəlildir. (Qeyd)[3] O, Öz vədinə əməl edən və bəndələrinə zülm etməkdən uzaq olan Allahdır. Yaratdıqları ilə ədalətlə davranır və Öz hökmünü onlara düzlük və doğruluqla icra edir. (Qeyd)[4] Əşyaların hadis *(sonradan yaradılmış)* olmaları ilə Öz əzəliliyinə, onların nişanələri etdiyi acizlikləri ilə Özünün qüdrətliliyinə və onların naçarlıq üzündən barəsində narahat olduqları fanilikləri ilə Öz əbədiliyinə *(ağıllardan)* şahidlik etmələrini istəyib *(ki, onlar hər bir hadis və yaradılmışın yaradanının olması və Allahın hadis olmaqdan və naqislikdən pak və uzaq olması qərarına gəlsinlər)*. O, bir və təkdir, amma ədəd və say əsasında olan birlik və təklik yox! (Qeyd)[5] Həmişə olub və var, amma müddət və zaman hesabı ilə yox! *(Çünki zamanın yaradıcısı Odur.)* Durub və bərqərardır, amma sütun və hamilərlə *(onu saxlayan şeylə)* yox! *(Çünki hər bir şey Ona söykənir və arxalanır.)* Zəkalar Onu dərk edər, amma *(hisslərlə)* dərk etmək yolu ilə yox. *(Çünki O, zehinlərdə sığışmaqdan pak və uzaqdır.)* Görünənlər

---

*[1] Çünki dərk edilmək, əhatə olunmaq, görünmək və örtülmək cismin xüsusiyyətlərindəndir.*

*[2] Çünki yaranmış məxluq onu yaradan qədim varlığa möhtacdır. Həmin yaradanın özünün yaranmış olması və ya qadir olmaması mümkün deyil. Çünki belə olan surətdə o, yaradan olmağa layiq olmaz.*

*[3] Çünki bənzəri olmaq mümkün varlıq olmağı tələb edir və bu xüsusiyyət vacib varlıqda yoxdur. Bu məsələnin bəyanı yüz əlli ikinci xütbənin şərhində keçdi.*

*[4] Onları hikmət əsasında yaradıb və onlara təyin etdiyi yaradılış və şəriət qanunlarını ədalətlə müəyyənləşdirib.*

*[5] O, ədəd «bir»i deyil ki, azlıq, başlanğıc və çox hissə sifətləri ilə vəsf edilsin, bəlkə çoxluğu olmayan və onun üçün ikinci fərz edilməyən həqiqi birdir.*

*(və ya gözlər)* Onun vücudunun varlığına şəhadət verirlər, amma birgə, bir yerdə olmasına görə yox. *(Çünki məhdud deyil ki, bir yerdə olsun, digər bir yerdə isə olmasın və ya göz Onun başını görsün.)* Düşüncələr Onu əhatə etməyib *(Onun zatının dərinliyini və həqiqətini dərk etməyiblər)*, bəlkə düşüncələr vasitəsi ilə düşüncələrə aşkar olub. *(Ağıl düşüncə yolu ilə Ona yol tapıb, amma Onun zatının həqiqətini dərk etməyib. Çünki cisim deyil və buna görə də düşüncələr Onu əhatə etmir.)* Həmçinin düşüncələrlə düşüncələrdən *(onların Onu əhatə etməsindən)* imtina edib. *(Çünki mümkün varlığın düşüncəsi vacibul-vücud varlığa yol tapa bilməz və buna görə də Onu əhatə edə bilməz.)* Eləcə də düşüncələri düşüncələrin yanında mühakiməyə gətirib. (Qeyd)[1] Onun böyüklüyü, nəhayətlərin Ona çatıb Onu cisim olaraq böyük göstərmələri şəklində deyil. Həmçinin Onun əzəməti sonluqların Onda sona çatmaları və Onu bədənə malik böyük kimi göstərmələri qismindən deyil. (Qeyd)[2] Bəlkə Onun şən, səltənət və padşahlığı böyükdür.

Və şəhadət verirəm ki, Məhəmməd Onun bəndəsi, seçilmiş elçisi və saleh əməlli sevimlisidir. Allah ona və onun əhli-beytinə *(xalqı hidayət etdikləri üçün)* salam çatdırsın. Allah onu *(insanların qəbul etmələri labüd olan və dəlil gətirmək məqamında kifayət edən)* vacib və lazımi dəlillər, aşkar qələbələr və açıq-aydın yol ilə göndərdi. Buna görə o Həzrət də Allahın hökm və sifarişini onun vasitəsi ilə haqqı batildən ayıraraq çatdırdı; insanları nümayəndəsi olduğu doğru yola apardı; doğru yol və aşkar nişanələrə dəlalət edən bayraqları sancdı *(ki, heç kəs batili haqq ilə və azğınlığı düzlüklə səhv salmasın)*. Həmçinin İslamın kəndirlərini möhkəmləndirdi, iman və yəqinin dəstəklərini bərkitdi *(ki,*

---

[1] *Düşüncədən, mümkün varlıqlar barəsində etdiyi əhatə etmək və fikrə gətirmək işini yaradan barəsində də edib-etməməsi hökmünü verməsini istəyib. Düşüncə də dilə gəlib deyər ki, Allah düşüncəyə gəlməkdən pak və uzaqdır.*

[2] *Xülasə, Allah-təalanın böyüklüyü cisimlərin böyüklüyü kimi deyil ki, O nəhayətə və kənara malik olsun və çox böyük, uzun və enli olsun.*

*həmin kəndir və dəstəklərdən yapışan hər bir kəs azğınlıq və bədbəxtlikdən nicat tapsın və başqası ona hakim olmasın).*

## Bu da həmin xütbənin *(qarışqa, çəyirtkə və bu kimi)* bir qism heyvanların yaradılışlarının qəribəlik və heyranediciliyinin vəsfinə dair bir hissəsidir

Əgər insanlar Allah-təalanın qüdrətinin əzəməti, nemət və bəxşişinin böyüklüyü barəsində fikirləşərək düşünsələr, *(azğınlıqdan doğru)* yola qayıdar və *(qiyamətdəki)* yandırıcı odun məşəqqət və çətinliklərindən qorxarlar *(Allah və Peyğəmbərin göstərişlərinə zidd davranmazlar)*. Amma qəlblər xəstə və gözlər kordur! (Qeyd)[1] Məgər yaratdığı kiçik heyvanın yaradılışını, eləcə də onun *(bədən üzvlərinin)* bir-birinə birləşmələrini necə möhkəm etməsinə, *(bütün kiçikliyinə baxmayaraq,)* onun üçün qulaq və göz yaratmasına və onu mütənasib sümük və dəri ilə bəzəməsinə baxmırlar?!

Göz ucu baxışla görünməyən və fikirləşməklə dərk edilməyən kiçik gövdəli və nazik bədənli qarışqaya baxın ki, öz yolunu necə gedir və ruzisini əldə etmək üçün necə tələsir. Dəni öz yuvasına daşıyır və onu *(çətin gün üçün)* anbarında hazır saxlayır. Yayda qış və *(isti günlər)* gələndə qayıtmaq *(soyuq günlərin qayıtması)* üçün dənləri toplayır. Allah onun ruzisinə zamindir və halına uyğun olaraq onun ruzi yolunu açıb. Nemət və bəxşişi çox olan Allah, ondan qafil deyil. Əvəz verən Allah onu məhrum və paysız qoymaz, hətta *(bir şey bitməyən)* quru daşın və ya *(bir yerdən digər yerə aparılmayan)* sərt daşın içində olsa belə! Əgər qarışqanın qida boruları, yuxarı və aşağısı, qarnında olan qabırğaları və başında olan göz və qulağı barəsində fikirləşsən, onun yaradılışından *(Allahın onun yaradılışındakı hikmət və tədbirindən)* heyrətə gələrək onu vəsf etməkdə

---

*[1] Bu səbəbdən, haqq yoldan çıxaraq Allahın qüdrətinin nişanələri haqqında düşünmür və Onun nemətlərinin şükrünü yerinə yetirmirlər.*

çətinliyə düşərsən. Buna görə də qarışqanı, yaradılışında heç bir yaradan şərik olmadan *(yaradan)* və heç bir qüdrətli kömək etmədən əl və ayaqları üzərində saxlayan, dirək və bədən üzvləri üzərində quran Allah *(fikir və düşüncəyə yerləşməkdən)* çox-çox uca və üstündür. Əgər öz düşüncə yollarını qət edərək onun sonuna çatsan *(bütün fikir və düşüncələrini işə salsan)*, dəlil və sübut hər bir şeyin *(digərindən)* fərqlənməsində işlədilmiş dəqiqliyə və canlıların növbənöv olmalarının əhəmiyyətinə görə səni ancaq və ancaq bu nəticəyə gətirib çıxaracaq ki, qarışqanın yaradanı elə həmin xurma ağacının yaradanıdır. (Qeyd)[1] *(Buna görə də İmam əleyhis-salam buyurur:)* Onun yaratdıqları arasında böyük-kiçik, ağır-yüngül və güclü-zəif yoxdur və onların hamısı *(Onun kamil qüdrəti müqabilində)* bərabərdirlər. *(Buna görə də belə güman etmə ki, bu kiçik olduğu üçün çətin, digəri isə böyük olduğu üçün asandır.)* Həmçinin *(Onun qüdrəti müqabilində)* göy, hava, külək və su *(bunların hər birinin yaradılması)* da bərabərdir. Həmçinin günəş, ay, bitki, ağac, su və daşa, gecə ilə gündüzün dolanmasına *(bir birini əvəz etməsinə)*, dənizlərin axmasına, dağların çoxluğuna, qüllələrin uzunluğu və dillərin müxtəlifliyinə baxın. (Qeyd)[2] Buna görə də yaradanı inkar edənin və nizama salana inanmayanın vay halına! Belə güman edirlər ki, onlar, *(səhra və dağlarda özbaşına bitən və)* əkəni, toxum səpəni olmayan bitki kimidirlər və onların müxtəlif surətlərini yaradan olmayıb. Onlar, barəsində iddia etdikləri şeydə dəlil və sübuta malik

---

[1] *Xülasə, varlıqların hər birinin yaradılışındakı fərqlər dəqiqdir və onların şəkillərinin müxtəliflik səbəbinin aydınlaşması çətindir. Onların hər birində incə və zərif hikmətlər mövcuddur. Qarışqa və fil, dağ və saman və səhra və dənizdə olan bütün kiçik və böyük varlıqları Hikmət sahibi olan Yaradan hikmət əsasında həmin fərqlər və müxtəlifliklərlə yaradıb və onların uca Yaradana möhtac olmalarında fərq yoxdur.*

[2] *Bu məxluqatın hər birinin yaradılışının qəribəliyində dərindən fikrə dalıb düşünün və onlarda hansı incə hikmətlərin gizləndiyinə diqqət edin ki, bunların hamısı yaradanın olmasına və mövcudluğuna dəlildir.*

deyildirlər və əzbərləyərək inandıqları şeydə araşdırma və yəqinləri yoxdur. *(Bəlkə onların iddiaları yalnız məğrurluq və güman əsasındadır.)* Məgər bənnası olmamış bina və ya canisi olmayan cinayət var? *(Hər bir işin onu görmüş amilə möhtac olması zəruri və aşkar bir məsələdir ki, onu inkar etmək səhv və batil bir düşüncədir və onu inkar edən kəs nadan və azğındır.)*

İstəyirsənsə *(qarışqa kimi)* çəyirtkədən danış *(onun yaradılışının heyranediciliyində fikrə dalaraq düşün)* ki, eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah, onun üçün iki qırmızı göz yaradıb, *(ay kimi)* iki parıltılı bəbək işıldadıb. Ona gizli *(gözlə görünməyən)* qulaq qoyub və münasib ağız açıb. Onun üçün *(yaşayış yolu və öz xeyir-ziyanını bildiyi)* güclü hissiyyat yaradıb və həmçinin vasitəsi ilə *(bitkini)* kəsib ayırdığı iki diş (*verib)*. Həmçinin oraq *(kimi iki ayaq verib)* ki, onunla qaçır. Əkinçilər əkinlərinə görə ondan qorxurlar və hətta söz qoyub birləşsələr belə, onun qarşısını ala bilməzlər. Nəhayət, uçub əkinlərə gələrək onda istədiyini edər, halbuki onun bütün gövdə və bədəni nazik bir barmaq ölçüsündədir. Buna görə də *(dərk edilməkdən)* pak və uzaqdır o Allah ki, göylər və yerdə olanlar *(mələklər və Allaha itaət edənlər)* ixtiyar və çarəsizliklə *(rahatlıq və çətinlikdə)* Ona səcdə edirlər, üzlərini torpağa sürtürlər *(itaətkarlıq və zəifliklərini bildirirlər)*, məcburiyyət və zəiflik üzündən itaət edərək hökmünə tabe olurlar və qorxu üzündən cilovlarını Onun əlinə verirlər. Quşlar Onun əmr və fərmanının ixtiyarındadırlar. O, onların tüklərinin və nəfəslərinin sayını bilir. Onların əl və ayaqlarını su və quruda möhkəmlədib *(bəzilərini dəniz, bəzilərini isə səhra sakini edib)*. Ruzilərini müəyyənləşdirib və onların növlərindən xəbərdardır: bu qarğa, bu qartal, bu göyərçin və bu dəvəquşudur. Hər bir quşu adı ilə çağırıb *(hikmət və məsləhətə uyğun yaradıb)* və ruzisinə zəmanət verib. *(Yağışı olan)* ağır buludu yaradıb, yağışını axıdıb, hər bir yerin ondan olan payını müəyyənləşdirib, yerə quruluqdan sonra su verib və quraqlıqdan sonra onda bitki bitirib.

# 228- ci xütbə

İmam Əli əleyhis-salamın tovhid barəsindəki xütbələrindəndir. Bu xütbə özündə elmin *(Allahı tanımaq elminin)* digər xütbələrin toplamadığı əsas və qaydalarını toplayıb:

Onun üçün keyfiyyət və necəlik *(zata əlavə edilən sifətlər)* müəyyənləşdirən kəs Onu tək bilmir. Onun üçün misil və bənzər *(şərik)* güman edən kəs Onun həqiqətinə çatmayıb *(Onu tanımayıb)*. Onu *(bir şeyə)* oxşadan kəs Onu nəzərdə tutmayıb. Ona işarə edən və Onu xəyala gətirən kəs Onu istəməyib. (Qeyd)[1] Öz zatı ilə tanınan şey *(həqiqət və zatı tanınmış, dərk edilmiş şey)* yaradılmış və məxluqdur. (Qeyd)[2] Özündən başqası ilə var olan hər bir şey nəticədir. (Qeyd)[3] O, faildir, *(işləri görəndir)* amma alət və vasitələrdən istifadə etmədən! *(Çünki alət və vasitələrə möhtac olmaq mümkün varlığın sifətlərindəndir. Ruzi, əcəl və bu kimi şeyləri)* təyin edəndir, amma fikir və düşüncə işlətmədən. *(Çünki Allah düşüncəyə möhtac olmaqdan pak və uzaqdır.)* Ehtiyacsızdır, amma başqasından bəhrələnməklə yox. *(Varlıların ehtiyacsızlıqları başqalarından bəhrələnmək vasitəsi ilədir. Allah-təala isə bundan pak və uzaqdır. Çünki o, naqislik və möhtaclığın zəruri nəticələrindəndir.)* Zaman və vaxtlar onunla yoldaş deyildirlər.

---

[1] *Çünki hiss və ya ağıl ilə işarə edilən şey məhduddur və məhdudluq cismin xüsusiyyətlərindəndir. Birinci xütbənin şərhində bu məsələyə toxunulub.*

[2] *Allah isə yaradılmış deyil. Çünki yaradılmış yaradana möhtacdır və möhtaclıq vücudu vacib olan varlıq deyil, mümkün olan varlığın xüsusiyyətlərindəndir. Buna görə də Allah-təala zatı ilə tanınmır, bəlkə Onu nişanə və əlamətləri ilə tanıyırlar.*

[3] *Çünki başqası ilə var olan məkana möhtacdır və möhtac olan hər bir şey mümkün varlıqdır. Və hər bir mümkün varlıq nəticədir. Buna görə də vacib varlığın başqası ilə var olması münasib deyil, əksinə, hər bir şey onun vasitəsi ilə mövcuddur.*

(Qeyd)[1] Alət və vasitələr Ona yardım etmirlər. *(Çünki alətləri O yaradıb və hər bir kömək və yardımdan ehtiyacsızdır.)* Onun mövcudluğu zamanlardan, varlığı yoxluqdan və əzəlilik və əbədiliyi başlanğıcdan qabaqdır. *(Çünki hər bir şey Onda sona çatır, O Özü isə sonsuzdur.)* Onun hiss və idrak qüvvələrini yaratması ilə Onu dərk etmə vasitəsinin olmaması məlum olur. Əşyalar arasında ziddiyyət və ixtilaf yaratması ilə Onun zidd və müxalifinin olmaması bilinir. Onun əşyalar arasında tay və yoldaş təyin etməsi ilə Onun tay və yoldaşının olmaması başa düşülür. *(Çünki hiss, zidd və tayları yaradan Odur.)* İşıqlıqla qaranlığı, aşkarla gizlini *(ağla qaranı)*, quru ilə yaşı və isti ilə soyuğu bir-birinə zidd edib. *(Müxtəlif ünsürlər kimi)* bir-birindən ayrı və uzaq olan zidd şeyləri birləşdirəndir; *(ruh ilə bədən kimi)* bir-birlərindən ayrı olanları tay və yoldaş edəndir; *(qəlbləri və müxtəlif istəkləri bir-birinə qovuşdurmaq kimi)* bir-birindən uzaq olanları yaxınlaşdırandır və bir-birinə yaxın olanları bir-birindən ayırandır *(ölüm ilə ruhla bədən arasında ayrılıq salmaq kimi)*. Heç bir hədd ilə məhdud deyil *(çünki məhdudluq vacib varlığa deyil, mümkün varlığa aiddir)*, ədəd və say ilə sayılmaz *(çünki O, onun üçün ikinci fərz edilməyən həqiqi təkdir)*. Alətlər özlərini *(mümkün varlıqları)* məhdudlaşdırırlar və vasitələr öz bənzərlərinə işarə edirlər. *(Çünki Allah cisim deyil ki, məhdudlaşsın və Ona işarə edilsin.) (Ərəb dilində zamanın başlanğıcını bildirən)* «مُنْذُ» *(«munzu»)* kəlməsi alət və vasitələrin qədim olmalarına mane olub. (Qeyd)[2] Həmçinin *(keçmiş zaman felinin əvvəlinə gələndə keçmiş zamanı indiki zamana yaxınlaşdıran, gələcək zaman felinin əvvəlinə gələndə isə azaldan)* «قَدْ» *(«qəd»)* kəlməsi əzəlilik və əbədiliyin qarşısını alıb. (Qeyd)[3] Eləcə də *(ikinci cümlədəki inkarı birinci cümləyə*

---

[1] *Çünki O, əzəlidir, zaman isə hadis və sonradan yaranmış. Hadis əzəli ilə yoldaş olmaz. Ona görə ki, yoldaşlıq birgə olmağı tələb edir.*

[2] *Buna görə də Allah-təaladan başqa hər bir şey barəsində «* وُجِدَ هٰذا مُنْذُ زَمانِ كَذا *» «bu, filan zamandan meydana çıxıb» deyilə bilər.*

[3] *Buna görə də hər hansı bir şey barəsində «*وَ قَدْ يَكُونُ كَذا*» «yaxın keçmişdə belə idi» və ya «bəzən belə olur» demək olar.*

*birləşdirmək üçün olan)* «لَوْ لا» *(«lau la»)* kəlməsi kamil olmaqdan uzaqlaşdırıb. (Qeyd)[1] Həmin alət və vasitələrlə onların yaradanı ağıllara aşkar olub *(ağıllar tərəfindən tanınıb)*. Həmçinin onlarla, gözlərlə görünməkdən imtina edib. (Qeyd)[2] Durğunluq və hərəkət Ona şamil olmur. *(Onun barəsində «hardasa qalıb» və ya «bir yerə gedib» demək olmaz.)* Onun *(məxluqatda)* qoyduğu şey Onun Özünə necə cari olsun, yaratdığı şey Onun Özündə necə yaransın və icad etdiyi şey Onda necə icad olsun ki, belə olsa *(fərzən durğunluq və hərəkət Onda cari olsa)* zatı *(artıqlıq və nöqsanla, yəni, hərəkət və durğunluqla)* dəyişər və mahiyyəti parçalanar. (Qeyd)[3] Həmçinin həmin surətdə Onun həqiqəti əzəlilik və əbədilikdən imtina edər. *(Çünki hər bir cisim hadisdir, sonradan yaranmadır.) Əgər (hərəkət və durğunluqda)* Onun üçün ön və qabaq tapılsa, arxa da olacaq. *(Onda O, başlanğıc olmayacaq, halbuki vacib varlıq başlanğıcların başlanğıcıdır.)* Əgər naqisliklə yoldaş olsa, kamilləşmək istəyəcək *(halbuki vacib varlığın kamilləşmək istəməsi qeyri-mümkündür)*. Bu vaxt - *(yəni, əgər Onda hərəkət və durğunluq olmuş olsa)* hər bir şey Onun varlığının dəlili olduqdan, imtina və qeyri-mümkünlük dəlili ilə Onun, Ondan başqasına *(mümkün varlıqlara)* təsir edən şeyin təsirindən uzaq olması məlum olduqdan sonra, Onda məxluq olmaq nişanəsi aşkar olacaq və O, *(digər yaranmışlar kimi)* yaradanın varlığına dəlil olacaq.

O Allah ki, haldan hala düşmür *(dəyişmir)*, zavala uğramır (Qeyd)[4] və qayib və gizli olması rəva deyil.

---

[1] *Necə ki, Allahdan başqası barəsində «لَوْ لا خالِقُهُ لَما وُجِدَ» «əgər onu yaradan olmasaydı, o mövcud olmazdı» deyilir.*

[2] *Çünki əgər görünsə, həmin alət və vasitələr kimi olar və onlar kimi yeni yaranmış və başqasına möhtac olar.*

[3] *Çünki cisim hərəkət və durğunluqla vəsf edilir. Hər bir cisim isə mürəkkəbdir və mürəkkəb hissələrdən ibarətdir.*

[4] *Çünki dəyişmək və zavala uğramaq vacib varlığın deyil, mümkün varlığın xüsusiyyətlərindəndir.*

(Qeyd)[1] Doğmayıb ki, doğulmuş *(başqasının nəticəsi)* olsun *(çünki doğan, mürəkkəb və başqasının nəticəsidir)*; doğulmayıb ki, məhdud olsun *(çünki hər bir doğulmuş şey hadisdir və onun varlığı ata-anaya qayıdır, onlara bağlıdır)*. Onun zatı övladları olmaqdan uca və qadınlarla yaxınlıq etməkdən pak və uzaqdır. *(Çünki övladı olmaq və qadından ləzzət almaq məxluq və yaranmışın xüsusiyyətlərindəndir.)* Xəyal və düşüncələr Ona çatmaz ki, *(fikirdə)* Onu məhdud və mövcud etsinlər; dərk və qavrama itiliyi Onu fikrə gətirməz ki, təsəvvür etsin *(bir şəkil və formaya salsın)*; hisslər Onu dərk etməz ki, Onu hissi varlıq etsin; əllər ona toxunmaz ki, Ona çatsınlar. O, bir hala dəyişmir və halların birindən digərinə keçmir. *(Çünki dəyişmək və keçmək cismin xüsusiyyətlərindəndir.)* Gecə və gündüzlər Onu köhnəltmir, qocaltmır. Aydınlıq və qaranlıq dəyişmir Onu! Hissələrdən heç biri, bədən və üzvlər, artırma xassələrdən heç biri, başqasının Onunla olması və

---

[1] *Çünki bunun nəticəsi yerdəyişmə və hərəkətdir ki, o da hadis olmaq və yeni yaranmağa dəlalət edir. Buna görə də Qurani-Kərimdə deyildiyi kimi Həzrət İbrahim əleyhis-*salam *ulduz, ay və günəşin itməsini və batmasını onların Rəbb olmamalarına dəlil gətirir. Ənam surəsinin 76-79-cu ayələrində buyurulur:* « فَلَمَّا جَنَّ عَلَيْهِ اللَّيْلُ رَأَى كَوْكَبًا قَالَ هَذَا رَبِّي فَلَمَّا أَفَلَ قَالَ لا أُحِبُّ الآفِلِينَ فَلَمَّا رَأَى الْقَمَرَ بَازِغًا قَالَ هَذَا رَبِّي فَلَمَّا أَفَلَ قَالَ لَئِن لَّمْ يَهْدِنِي رَبِّي لأكُونَنَّ مِنَ الْقَوْمِ الضَّالِّينَ فَلَمَّا رَأَى الشَّمْسَ بَازِغَةً قَالَ هَذَا رَبِّي هَذَآ أَكْبَرُ فَلَمَّا أَفَلَتْ قَالَ يَا قَوْمِ إِنِّي بَرِيءٌ مِّمَّا تُشْرِكُونَ إِنِّي وَجَّهْتُ وَجْهِيَ لِلَّذِي فَطَرَ السَّمَاوَاتِ وَالأَرْضَ حَنِيفًا وَمَا أَنَاْ مِنَ الْمُشْرِكِينَ» *«(İnsanların bəzilərinin ulduz, ay və günəşə ibadət etdikləri dövrdə) gecə qaranlığı İbrahimi bürüdükdə o, bir ulduz görüb (onlar kimi) «bu mənim Rəbbimdir!» dedi. Ulduz batdıqda isə: «Mən (nəinki ibadət), batanları (heç) sevmirəm» söylədi. (Sonra) doğan ayı görüb dedi: «Bu mənim Rəbbimdir!» Ay batdıqda isə: «Doğrudan da əgər Rəbbim məni Özünü tanımağa doğru yönəltməsə mən zəlalətə düşənlərdən olaram», dedi. Elə ki günəşi doğan gördü «bu mənim Rəbbimdir, bu (həcm və işıqlılıq baxımından) daha böyükdür» dedi. Günəş batdıqda isə dedi: «Ey camaatım, mən, həqiqətən sizin Allaha şərik qoşduqlarınızdan uzağam. Mən müsəlman olaraq bütpərəstlik və şirkdən uzaq olub müşrik olmayan halda göyləri və yeri yaradana üz tuturam».*

heç bir hissə ilə vəsf edilməz. (Qeyd)[1] Həmçinin Onun barəsində «hədd və sonu var; bitdi və tükəndi; şeylər, yuxarı qaldırmaq, yaxud endirmək üçün Onu əhatə edirlər; bir tərəfdən digər tərəfə aparmaq və ya düz saxlamaq üçün bir şey Onu götürdü» deyilməz. Əşyalara daxil olmayıb və onlardan xaric də deyil *(bəlkə hər şeyi əhatə edib və hər şeyi biləndir)*. Xəbər verir, amma dil və dilçəklər vasitəsi ilə yox; eşidir, amma dəliklərlə *(qulağın deşikləri ilə)* və alətlərlə *(eşitmə alətləri ilə)* yox; danışır, amma kəlmələrlə yox; *(hamının söz və əməllərini)* əzbər bilir, amma hafizə qüvvəsi vasitəsi ilə yox *(və ya hər bir şeyi qoruyur, amma Özünün başqası tərəfindən qorunmağa ehtiyacı yoxdur)*; istəyir, amma düşünmədən; sevir və şad olur, amma riqqətə gəlmək və mehribançılıq səbəbindən yox; nifrət bəsləyir və qəzəblənir, amma məşəqqət və çətinliyə görə yox *(bəlkə məhəbbət və razılığı müvəffəqiyyət və rəhmət, nifrət və qəzəbi isə rəhmətindən uzaq düşməkdir)*. Olmasını istədiyi hər bir şeyə «ol!» deyir və o, mövcud olur. *(Bu söz)* nə *(qulaqlara)* daxil olan səs vasitəsi ilədir, nə də eşidilən harayla. Allahın kəlamı Onun yaratdığı işindən başqa bir şey deyil. Onun bənzəri bundan qabaq mövcud olmayıb *(bəlkə yenidir)* və əgər qədim olsaydı, mütləq ikinci allah *(və vacibəl-vücud)* olardı *(və bu qeyri mümkündür)*.

*(Allah-təala barəsində)* «yoxluqdan sonra var oldu» deyilməz. *(Çünki Onun vücudunun nə vaxtsa olmaması olmayıb. O, qədim və əzəlidir. Əgər elə deyilərsə)* onda yeni yaranmışların sifətləri Ona şamil olar, Onunla yeni yaranmışlar arasında *(seçilmə və üstünlüyə səbəb olan)* bir fərq qalmaz və Onun onlardan heç bir məziyyət və üstünlüyü olmaz. Beləliklə, yaradanla yaradılmış bərabər və vücuda gətirənlə vücuda gətirilən yeksan olar. O, məxluqatı başqasından qalmış

[1] *Xülasə, Onun hissəsi, xassəsi, bir qismi yoxdur. Eləcə də Onunla birgə heç bir şey yoxdur, istər hissə kimi daxilində olsun, istərsə də xassə kimi xaricində. Çünki bunların olmasının nəticəsi, Onun tərkibə malik olması, mürəkkəbliyidir və bu, vacib varlıqda qeyri-mümkündür.*

nümunəsiz yaratdı və onları yaratmaq üçün yaratdıqlarının heç birindən kömək istəmədi. Yeri yaratdı və onu (ona) məşğul olmadan *(Öz kamil qüdrəti ilə)* saxladı. Onu sakitlik olmayan yer *(dalğalanan su)* üzərində möhkəmləndirdi. Yeri dirəklərsiz dikəltdi, sütunlarsız ucaltdı, əyilməkdən qorudu və düşmək və yarılmaqdan saxladı. Onun mıxlarını möhkəmləndirdi, sədlərini *(dağlarını)* basdırdı, çeşmələrini axıtdı və çaylarını yardı. Beləliklə, tikdiyi süstləşməyib və qüvvətləndirdiyi zəifləməyib. Öz səltənət və böyüklüyü *(qüdrət və bacarığı)* ilə yerə *(və onda olanlara)* hakim olan Odur. Odur Öz elm və biliyi ilə onun necəliyini bilən. Böyüklük və izzəti ilə onun hər şeyindən üstündür. İstədiyi heç bir şey Onu aciz qoya bilməz, Ondan boyun qaçıra bilməz və nəhayət, ona qalib gələr. Onların tələsəni Ondan qaça bilməz ki, Ondan qabağa keçsin, qabaqlasın Onu. Dövlətli və varlıya möhtac deyil ki, Ona pay versin. Hər bir şey Ona təvazökar və Onun əzəmət və böyüklüyü qarşısında xar və həqirdir. Onun xeyir və ziyanından *(bəxşiş və cəzalarından)* yayınmaq üçün səltənət və padşahlığından digər bir yerə qaçmaq gücləri yoxdur. Onun tay və bərabəri olmaq üçün bir bənzəri yoxdur. (Qeyd)[1] Əşyaları varlıqlarından sonra vücudları yox olana kimi məhv edən Odur. *(Həmin şeylər elə yox edilirlər ki, sanki heç əvvəldən olmayıblar.)* Dünyanın yaradıldıqdan sonra yox olması, onu icad etmək və yaratmaqdan daha təəccüblü *(və ağır)* deyil. Necə də təəccüblü olsun, axı əgər dünyanın bütün canlıları: quşlar,

---

[1] *Çünki əgər Ona bənzər təsəvvür etsək, o ya vücudu mümkün olan varlıq olacaq, ya da vacib olan varlıq. Əgər vücudu mümkün olan varlıq olsa, onda o, var olmaq baxımından Ondan sonradır və buna görə də Onun bərabər və bənzəri ola bilməz. Əgər vücudu vacib olan varlıq olsa, bu onun birliyi və təkliyi ilə ziddiyyət təşkil edir və onun nəticəsi həmin varlığın mürəkkəb olmasıdır. Çünki hər nə Ona oxşar olsa, iki hissədən ibarətdir, biri birlik, digəri isə fərqlilik cəhətindən. Bütün mümkün varlıqların mənşəyi olan vacib varlığın mürəkkəb olması isə qeyri-mümkündür.*

dördayaqlılar, axşamüstü öz tövlələrinə qayıdanlar, səhrada otlayanlar və onların müxtəlif növləri, qanmaz və kütbeyinlər və onların zirəkləri bir yerə toplaşsalar, bir ağcaqanadı yaratmağa gücləri çatmaz, onu yaratmaq yollarının necə olmasını dərk edə bilməz, ağıl və düşüncələri onu bilməkdə mat-məəttəl qalar və gücləri aciz və süst olar. Məğlub olmalarını bildikləri, onu yaratmaqda aciz qalmalarını iqrar və onu yox etməyə qadir olmamalarını etiraf etdikləri halda, əldən-ayaqdan düşmüş və yorğun vəziyyətdə qayıdarlar. (Qeyd)[1] Naqisliklərdən pak və uzaq olan Allah dünya məhv olandan sonra *(qiyamətdən qabaq)* tək qalar və onu yaratmamışdan öncə olduğu kimi Onunla birgə heç nə olmaz. Həmçinin onun yoxluğundan sonra vaxt, məkan, an və zamansız olar. (Qeyd)[2] Dünyanın yox olması ilə müddətlər, vaxtlar, illər və saatlar da yox olarlar. *(Çünki onların hamısı fələyin yox olması ilə yox olan zamanın hissələridir.)* Beləliklə, *(hər şeyə)* qalib, tək və bütün işlərin qayıdışı Ona tərəf olan Allahdan başqa bir şey olmayacaq. (Qeyd)[3] Yaradılışın əvvəlində məxluqat

---

*[1] Əgər Allah istəməsə, heç kəs nəinki ağcaqanadı yox edə, heç tuta da bilməz. Deyirlər ki: Ağcaqanad yaradılışında fil kimidir, amma onun bədən üzvləri filinkindən çoxdur. Çünki filin dörd ayağı, xortumu və quyruğu olduğu halda ağcaqanadın bunlardan əlavə iki ayaq və dörd qanadı da var ki, həmin qanadlarla uçur. Filin xortumunun içi boş və deşik deyil. Amma ağcaqanadın xortumu deşikdir və onu insanın bədəninə batıranda onunla qan içir. Deməli, ağcaqanadın xortumu onun hulqumu yerindədir.*

*[2] Çünki fələklər olmayan təqdirdə məkan da vücuda malik olmur. Hamısının mənası bir olan vaxt, an və zaman da fələyin hərəkətinin miqdarından ibarətdir. Buna görə də fələk olmayan surətdə zamanın mövcud olması üçün hərəkət də yoxdur.*

*[3] Xülasə, hər bir şey yox olacaq, hətta bütün kainat yox olandan sonra qalacağı güman edilən vaxt və zaman. İmam əleyhis-salamın «Naqisliklərdən pak və uzaq olan Allah dünya məhv olandan sonra tək qalar» cümləsindən sonra olan buyuruqları aşkar şəkildə qiyamətdən qabaq bütün şeylərin zatının yox olacağını bəyan edir. Qurani-Kərimin Ənbiya surəsinin 104-cü ayəsində buyurulur: «كَمَا بَدَأْنَا أَوَّلَ خَلْقٍ نُّعِيدُهُ» «İlk*

qüdrət və ixtiyara malik deyildi. Onların fanilik və yox olmaları da hər cür imtinasız və boyun qaçırmasız olacaqdır. Əgər onlar imtina edə bilsəydilər, həmişəlik qalardılar.[1] Yaradılış zamanı məxluqatın heç birini yaratmaq Ona çətin deyildi və vücuda gətirib yaratdıqlarını yaratmaq Onu yorub əldən salmadı. *(Çünki işin çətin gəlməsi və yorğunluq cismin xüsusiyyətlərindəndir.)* O, yaratdıqlarını Öz səltənətini möhkəmləndirmək, yox olmaq və azalmaqdan qorxduğu, *(Ondan)* qabağa düşə biləcək bənzərinə qarşı onlardan kömək istəmək, *(Ona)* hücum edə biləcək düşməndən uzaq olmaq, padşahlığını uzatmaq, hansısa bir şərik Onunla şərikliyində qalib gəldiyi və fəxr etdiyi, qorxu və vahimədə olub onlarla ünsiyyət qurmaq istəyi üçün var etməyib. Beləliklə, varlıqları yaratdıqdan sonra *(qiyamətdən qabaq)* məhv edəcək, amma onların bir haldan digər hala düşmələri və onların işlərini idarə etmək nəticəsində darıxaraq təngə gəldiyi, rahatlıq və dincliyə çatmaq və onlardan nəsə Ona ağır gəldiyi üçün yox. Onların ömürlərinin uzunluğu Onu bezikdirməyib ki, nəticədə Onu, onları tezliklə yox etməyə vadar etsin. Amma eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah varlıqların nizamını lütf və mərhəməti ilə bərqərar edib, onları Öz əmr və fərmanı ilə *(dağılmaqdan)* saxlayıb və qüdrəti ilə möhkəmləndirib. Sonra onları məhv olduqdan sonra onlara

---

*dəfə yaratdığımız kimi onu qaytaracağıq». Varlıqları yoxluqdan yaratdığı kimi onları qaytarmaq da yoxluqdan olacaqdır. Buna görə də «şeylərin yox olmalarından məqsəd onların hissələrinin dağılmasıdır, çünki yox olmuş şeyi qaytarmaq qeyri-mümkündür» demək mübahisəli bir məsələdir. Bu kitab ümumi kütlənin mütaliəsi üçün nəzərdə tutulduğuna görə həmin məsələnin burada geniş şəkildə açıqlanması münasib deyil.*

[1] *Allah varlıqları onlardan icazə istəmədən yaratdığı kimi, onları yox etməkdə də icazə istəmir. Onlar yaradılarkən imtina edə bilmədikləri kimi, yox olmaqdan da - ki, təbii olaraq hamı ondan qaçır, - imtina etmək qüdrətinə malik deyildirlər. Büna görə də əgər onlar bacarsaydılar, imtina edərək həmişə qalardılar.*

ehtiyacı olmadan və onların heç birindən kömək almadan qaytaracaq, amma bu, vahiməli və qorxulu vəziyyətdən ünsiyyət halına qayıtmağa, nadanlıq, korluq və azğınlıqdan elm və istəyə, yoxsulluq və ehtiyaclılıqdan varlılıq və ehtiyacsızlığa və həqirlik və zəiflikdən izzətlilik və qüdrətliliyə dönməyə görə deyil. (Qeyd)[1]

# 229- cu xütbə

İmam Əli əleyhis-salamın *(hidayət imamları əleyhimus-salamın məqam və dərəcələri və)* qarşıya çıxacaq acı hadisələr barəsindəki xütbələrindəndir.

Bilin! Atam-anam o kəslərə fəda olsun ki*, (məndən sonra yolunu azmışlara bələdçi və xalqın imamıdırlar və)* onlar, adları *(böyüklükləri)* göydə *(mələklərin yanında)* məşhur, yerdə *(insanların çoxunun azğınlığına görə onların yanında)* isə naməlum olan bir dəstədəndirlər. İşlərinizin dağınıqlığından, *(dini və dünyəvi)* əlaqələrinizin kəsilməsindən, azyaşlı uşaqları iş üstünə gətirməyinizdən və *(onları böyüklərə və qocalara)* rəhbər etməyinizdən yaranacaq hadisələrdən xəbərdar olun və gözləyin. (Qeyd)[2] Bu hadisələr o vaxt baş verəcək ki,

---

[1] *Çünki bütün bu məsələlər mütləq kamala malik olmayan və hər cəhətdən naqis və başqasına möhtac olan mümkün varlıqlara aiddir. Həmçinin heç kəs belə güman etməməlidir ki, zatda naqislik nəticəsini verən hədəfsizlik, Allahın işlərinin heç bir hədəf və məqsədinin olmamasından xəbər verir. Əksinə, Allahın işlərinin hədəf, xeyir, hikmət və mənfəətləri var, amma onların nəticəsi yaradılmışlar üçündür. Çünki Allah-təala bihudə və puç iş görməkdən pak və uzaqdır, necə ki, Qurani-Kərimin Ənbiya surəsinin 16-17-ci ayələrində buyurulur: «* **وَمَا خَلَقْنَا السَّمَاءَ وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا لَاعِبِينَ لَوْ أَرَدْنَا أَن نَّتَّخِذَ لَهْوًا لَّاتَّخَذْنَاهُ مِن لَّدُنَّا إِن كُنَّا فَاعِلِينَ** *» «Biz göyü, yeri və onların arasında olanları oyun üçün yaratmadıq. Əgər Biz Özümüzə əyləncə etmək istəsəydik (belə bir iş görmək Bizə layiq olsaydı), onu mütləq Öz dərgahımızdan edərdik (və onda mümkün varlıqlara möhtac olmazdıq).»*

[2] *Yaxud məqsəd nalayiq və alçaq adamların böyük və yaxşı insanlardan qabağa düşməsidir ki, kiçiklərin hər iki mənada qabağa düşmələri pis*

*(haram halala qalib gəldiyi üçün)* möminə qılınc vurmaq halal yol ilə bir dirhəm qazanmaqdan daha asan olacaq. Bu hadisələr alanın savabı verəndən çox olan zaman baş verəcək. (Qeyd)[1] Bu işlər o vaxt olacaq ki, içməmiş sərxoş olacaqsınız və *(sizin sərxoşluğunuzun)* səbəbi nemət *(onun bolluğu)* və rifah içində yaşamağınız olacaqdır. Məcburiyyət və naçarlıq olmadan and içəcək və sıxıntıya düşmədən yalan deyəcəksiniz. Bu hadisələr bəla və çətinliklər sizi *(yaxşılarınızı)* palan dəvənin belindəki güvənləri gəmirdiyi kimi çeynəyən *(əziyyətə salan)* zaman baş verəcək. Bu çətinlik nə qədər də uzun və bu arzu və ümidvarlıq *(həmin çətinliklərdən qurtulmaq arzusu)* necə də uzaqdır!! (Qeyd)[2] Camaat! Belləri sizin əllərinizin ağır yüklərini götürmüş dəvələrin *(pisliklərə əmr edən nəfsin)* cilovunu buraxın. *(Günaha aludə olmayın və Allah və Peyğəmbərin göstərişlərinə zidd davranmayın)* və öz sultanınızdan *(İmami-Zamana itaət və tabeçilikdən)* uzaqlaşmayın. Yoxsa *(dağılışacağınız təqdirdə)* işləri gördükdən *(çirkin əməllərinizdən)* sonra özünüzü məzəmmət edərsiniz *(və peşman olarsınız)*. Üz tutduğunuz fitnə-fəsad alovunu şölələndirməyə *(və nahaq qan tökülməsinə)* qorxusuz daxil olmayın, həmin yoldan dönün və yolun ortasını onun üçün boş saxlayın *(kənara çəkilin ki, gəlib*

---

*və səhv bir işdir. Çünki din və dünya işlərinin xarab olmasına və onlara xələl gəlməsinə səbəb olur. Deyirlər ki, uzaqgörən bir filosofdan soruşurlar ki: Sasanilər dövlətinin məhv olmasına nə səbəb olub? Cavab verir ki: Onlar kiçik insanları öhdəsindən gəlmədikləri böyük işlərə təyin etdilər və həmçinin böyük şəxsləri etina etmədikləri kiçik işlərə məcbur etdilər. Bu səbəbdən işlərinin nizam-intizamı bir-birinə dəydi və birlikləri dağıldı.*

[1] *Çünki onda mallar şübhəli və niyyətlər çirkin olacaq, yoxsullar bir şeyi məcburiyyətlə alacaqlar və varlılar naçarlıqdan və ya riyakarlıq və özlərini göstərmək üçün bir az verəcəklər.*

[2] *Bu cümlə Məhəmməd əhli-beytindən olan on ikinci imamın - Allah onun zühurunu tezləşdirsin - zühurundan qabaq baş verəcək fitnələrə işarədir ki, həmin vaxt möminlərə çox çətin keçəcək və o Həzrət zühur edənə kimi həmin fitnələrdən qurtulmaq mümkün olmayacaqdır.*

*keçsin. Çünki sizin onun qarşısını almaq gücünüz yoxdur. Buna görə də boş yerə çalışmayın. Ona görə ki,)* öz canıma and olsun ki, mömin həmin fitnənin alovunun şöləsində həlak olar, müsəlman olmayan isə salamat qalar. (Qeyd) [1] Mən sizin aranızda qaranlıqda yanan çıraq kimiyəm ki, yanına gələn hər bir kəs onun işığından bəhrələnir. Buna görə də ey camaat, *(mənim öyüdümü)* eşidin və əzbərləyin, qəlblərinizin qulaqlarını hazır edin ki, *(sözlərimin nəyə işarə olduğunu)* başa düşəsiniz.

# 230- cu xütbə

İmam Əli əleyhis-salamın *(pərhizkarlığa tövsiyə etdiyi və ölümü və ölüləri yada saldığı)* xütbələrindəndir.

Ey camaat! Sizə pərhizkarlığı və Allahdan qorxmağı, sizə verdiyi nemətlərinə, sizə çatan ətalarına və sizi *(xeyir və şər, rahatlıq və çətinliklə)* sınamasına görə Ona çox şükr etməyi tövsiyə edirəm. Nə çox nemət ki, sizə məxsus edib və *(nə çox)* rəhm və mərhəmət ki, halınıza şamil olub. *(Həmin nemət və mərhəmətlərdən biri budur ki,)* siz öz günah və çirkin işlərinizi aşkar etmisiniz və O *(Özünün eybləri örtmək və günahları bağışlamaq sifəti ilə)* sizi örtüb *(rüsvay və biabır etməyib və bu Onun böyük nemətlərindəndir)* və cəzalandırmasına səbəb olan iş görmüsünüz, amma sizə möhlət verib. (Qeyd) [2] Həmçinin

---

[1] *Çünki möminin nəzər və düşüncəsi nəfsi istəklər və fitnəkarlığın əleyhinədir. Müsəlman olmayanın və münafiqin nəzər və düşüncəsi isə ona uyğundur.*

[2] *Sizi cəzalandırmaqda tələsməyib ki, bəlkə tövbə edərək qayıdarsınız. Çünki əfv, bağışlama və mərhəməti cəza və qəzəbini qabaqlayıb. Bu da Onun, bəndələrinə əta etdiyi digər bir böyük nemətdir ki, əgər insanları günahlarına görə cəzalandırsaydı, yer üzündə heç kəs sağ qalmazdı. Necə ki, Qurani-Kərimin Nəhl surəsinin 61-ci ayəsində buyurur:* « **وَلَوْ يُؤَاخِذُ اللّهُ النَّاسَ بِظُلْمِهِم مَّا تَرَكَ عَلَيْهَا مِن دَآبَّةٍ وَلَكِن يُؤَخِّرُهُمْ إِلَى أَجَلٍ مُّسَمًّى فَإِذَا جَاء أَجَلُهُمْ لاَ يَسْتَأْخِرُونَ سَاعَةً وَلاَ يَسْتَقْدِمُونَ** » *«Əgər Allah insanları günahlarına,*

sizə ölümü yada salmağı və ondan az qafil olmağı tövsiyə edirəm. Siz, sizdən qafil olmayan şeydən *(ölümdən)* necə qafilsiniz? Sizə möhlət verməyən kəsə *(ölüm mələyinə)* necə tamah salmısınız və hərissiniz? Buna görə də gördüyünüz ölülər *(sizə)* öyüd verən olmaq üçün kifayətdirlər. Onları çiyinlər üzərində qəbirlərinə tərəf apardılar, halbuki *(çiyinlərə öz ixtiyarları ilə)* qalxmamışdılar, qəbirlərinə qoyuldular, halbuki *(qəbrə özləri)* düşməmişdilər.[1] Beləliklə, *(bu dünyadan elə əl çəkib gediblər və heç bir nişanələri qalmayıb)* sanki onlar dünyanı qurub abadlaşdıranlar olmayıblar və yerləri həmişə axirət olub. Məskunlaşdıqları dünyadan xaric oldular və hürkdükləri gorda yerləşdilər. Əl çəkdikləri dünyaya bulaşmışdılar və tərəfinə getdikləri axirəti zay etmişdilər. *(İndi peşman və acizdirlər.)* Nə çirkin işdən *(tövbə edib)* qayıda bilirlər, nə də yaxşı işləri çoxalda bilirlər. *(Çünki axirət müəyyən edilmiş vəzifələri yerinə yetirmək yeri deyil. Bu bədbəxtçilik ona görədir ki,)* dünyaya alışdılar və dünya onları aldatdı, ona güvəndilər və dünya onları yerə vurdu *(məhv etdi)*. Belə isə - Allah sizi bağışlasın! - abadlaşdırılmasına əmr edildiyiniz, barəsində həvəsləndirildiyiniz və tərəfinə çağırıldığınız *(axirət)* mənzillərinizə tərəf sürət götürərək bir-birinizlə yarışın! Allaha itaətə səbrlilik və itaətsizliklərdən uzaq olmaqla Onun sizə olan nemətlərini kamilləşdirin. (Qeyd)[2] Çünki sabah *(ölümün gəlib çatacağı*

---

*haqsızlıqlarına görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı. Lakin Allah onlara müəyyən müddət möhlət verər. Əcəlləri gəlib çatdıqda isə onlar bircə saat belə nə yubanar, nə də tələsərlər».*

[1] *Çünki bir yerə qalxmaq və düşmək ixtiyar və istək ilə olmalıdır. Buna görə də ölülərin çiyinlərdə aparılmaları və qəbirlərə qoyulmaları onların özlərinin dərk etmələri ilə şüurlu surətdə olmadığı üçün demək olmaz ki, onlar çiyinlərə qalxmışdılar və qəbirlərə düşüb daxil olmuşdular.*

[2] *İbadətin çətinliklərinə səbr etmək və günahdan uzaqlaşmaqla özünüzü axirət nemətlərinin və əbədi Cənnətin ləzzətlərinə layiq edin ki, o nemətlərin dünya nemətləri ilə birgə olması nəticəsində Allahın nemətlərindən tam bəhrələnmiş olasınız.*

*zaman)* bu günə yaxındır. Günün saatları necə də sürətlə keçir; ayın günləri necə də tez arxada qalır; ilin keçməsində aylar necə də sürətlidir; ömrün illəri necə də tez keçir *(ki, onların tez keçmələri həyatın sona çatması və ölümün yaxınlaşması ilə nəticələnir).*

# 231- ci xütbə

İmam Əli əleyhis-salamın *(imanın vəsfi barəsindəki)* xütbələrindəndir.

İmanın *(Allahın varlığını təsdiq etmək, Həzrət Peyğəmbərin ilahi elçi olmasına yəqini olmaq və məsum imamlar əleyhimus-salamın vilayətlərinə etiqad bəsləməkdən ibarət olan)* bir hissəsi qəlblərdə sabit və bərqərardır *(və o, həqiqi imandır ki, dəlil və sübut vasitəsi ilə əldə edilir və insanları azdıran kimsələrin yaratdıqları şəkk-şübhə və azğınlıqlar onu aradan qaldıra bilmir).* Onun *(dəlil və sübut yolu ilə əldə edilməyən)* digər bir hissəsi isə müəyyən edilmiş vaxta *(dünyadan köçülənə)* kimi qəlblə sinə arasında müvəqqətidir və aradan getməsi ehtimal olunur *(istər təqlid edən şəxsin etiqadları kimi yəqinliyi olan olsun, istərsə də güman edilən və xəyali. Çünki belə bir iman qəlbdə sabitləşməyib və yer almayıb).* Buna görə də *(istər sabit, istərsə də müvəqqəti iman qəlbdə olan bir məsələ olduğu və ondan xəbərdarlıq mümkün olmadığı üçün)* sizdə *(pis güman və ya çirkin əmələ görə)* ikrah yaranan zaman onun *(iman əhli və ya kafir olması)* barəsində ölüm onu haqlayana kimi səbr edin. (Qeyd)[1] *(Amma əgər o öz çirkin əməlindən əl çəkməsə və eləcə dünyadan köçsə)* onda *(belə olan surətdə, onun özünə də ikrahla yanaşılmalı və ondan uzaqlaşılmalıdır. Çünki)* o həmin vaxt nifrətə layiq olur. *(Ona görə ki, ölümdən sonra iman əldə edilməsi və qazanılması üçün bir vəzifə və iş yoxdur.)* Hicrət *(zəlalət və*

---

[1] *Çünki ola bilər ki, dünyadan köçməmişdən onun imanı sabitləşərək bərqərar olsun və o, öz çirkin əməlinə görə tövbə edərək haqqa qayıtsın. Buna görə də onun özünə ikrah hissi ilə yanaşmaq və ondan uzaqlaşmaq yaxşı deyil, bəlkə gərək onun əməlinə ikrahla yanaşılsın və həmin əmələ nifrət bəslənilsin.*

*azğınlıqdan hidayət və qurtuluşa, küfrdən imana köçmək)* Həzrət Peyğəmbərin peyğəmbərliyə göndərilməsinin əvvəlində vacib olduğu kimi vacibdir. (Qeyd)[1] Allahın yer üzü əhlinin *(küfr ölkələrində)* imana tərəf hicrət etmələrini *(təqiyyə ilə)* gizlədən dəstəyə və *(İslam ölkələrində)* aşkar edənlərə ehtiyacı yoxdur.[2] (Qeyd) Yer üzündəki höccəti *(Allahın nümayəndəsini)* tanımayınca hicrət adı heç kəsə qoyulmur və şamil olmur.[3] (Qeyd) Buna görə də mühacir, Allahın höccətini tanıyan və onu təsdiqləyərək qəbul edən kəsdir.[4] (Qeyd) Höccətin xəbəri çatan, qulağı onu eşidən və qəlbində yer tutan kəsə zəif və aciz adı verilməz.[5] (Qeyd)

---

[1] *Deməli, hicrətin vacib olması ancaq Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) zamanına aid deyil və onun mənası təkcə Məkkədən Mədinəyə getmək deyil. Bəlkə o Həzrətin xəlifə və canişinlərinə tərəf hicrət etmək də vacibdir. Çünki hicrətdən məqsəd zəlalət və azğınlığı tərk etməkdir və bu ancaq Həzrət Peyğəmbərin xəlifə və canişinləri olan din imamlarının - onların hamısına Allahın salamı olsun - hidayət və istiqamətləndirmələri ilə mümkündür. Buna görə də onlara tərəf hicrət etmək elə o Həzrətə doğru hicrət etmək deməkdir. Xülasə, hicrət bütün zaman və vaxtlarda özünün əvvəlki vaciblik dərəcəsində qalmaqdadır.*

[2] *Hicrət məsələsi və digər şəri vəzifələrdən məqsəd Allahın hansısa xeyir və mənfəət əldə etmək və ya zərər-ziyanı Özündən uzaqlaşdırmaq istəməsi deyil, bəndələrin onlardan faydalanmaları və qiyamət gününün əzabından nicat tapmalarıdır. Çünki O, mütləq zəngin və həqiqi ehtiyacsızdır.*

[3] *Öz zəmanəsinin imamını tanımayınca kiminsə hicrət etməsini və zəlalət və azğınlıqdan çıxmasını demək olmaz. Çünki İmam əleyhis-salamın yol göstərməsi və bələdçiliyi olmadan azğınlıqdan hidayətə hicrət etmək mümkün deyil.*

[4] *Həmin şəxs azğınlıqdan hidayətə hicrət edib, hətta öz vətənindən xaric olmasa belə. Bu cümlə açıq aydın şəkildə dediyimiz bu mətləbi təsdiqləyir ki, hicrətin vacib olması ancaq Həzrət Peyğəmbərin zamanına aid deyil və onun mənası Məkkədən Mədinəyə hərəkət etmək deyil.*

[5] *Əgər Allahın höccətinin dəlil-sübut olması xəbəri kiməsə çatsa və həmin şəxs onu qəbul etməsə, bu işdən qafil olub təqsirli sayılmayan zəif və acizlərdən olmasını güman etməməlidir. Çünki höccətin dəlil*

*(Allahın höccətini tanımaq ləyaqəti hamıda olmadığı və onu tanımağın həqiqəti ancaq sadiq və saf möminlərə məxsus olduğu üçün İmam əleyhis-salam sözünün davamında belə buyurur:)*

Bizi tanımaq çox çətin bir işdir ki, Allahın qəlbini iman üçün sınaqdan keçirmiş olduğu *(imanı qəbul etməyə layiq bildiyi)* mömin bəndədən başqa heç kəs onu götürmür və onun yükünün altına girmir. Həmçinin bizim hədis və sözlərimizi ancaq əmanətçi və inanılmış sinələr və mətin ağıllar qoruyub saxlayarlar. *(İmam əleyhis-salamın məqsədi dinləyiciləri özünə tərəf hicrət etməyə və o Həzrətin hədislərinə tabe olmağa təşviq etmək olduğu üçün onlara sual verməf göstərişi verərək buyurur:)*

Ey insanlar! Məni itirməmişdən, *(itaətsiz dəvə kimi hürküb sahibinin əlindən qaçaraq)* öz cilovunu tapdalayan və adamlarının ağlını başlarından çıxaran fitnə-fəsad *(Bəni-Üməyyənin fitnə-fəsadları)* ayaq tutmamışdan *(onların fitnələri hər yeri bürüyərək insanları haqq yoldan və öz zəmanə imamlarını tanımaqdan saxlayandan)* qabaq, *(ilahi maarifi, şəriət hökmlərini və qiyamətə kimi baş verəcək şeyləri)* məndən soruşun ki, mən göyün yollarını yerin yollarından daha yaxşı bilirəm.[1] (Qeyd)

# 232-ci xütbə

İmam Əli əleyhis-salamın *(təqva, dünyaya ürək bağlamamaq, ölümdən sonrakı çətinliklər və bəlalarda səbrli olmaq barəsindəki)* xütbələrindəndir.

---

*olması xəbəri ona çatıb və o, bunu qulaqları ilə eşidərək qəlbi ilə dərk edib. Buna görə də həmin şəxs, hətta öz vətənində olsa belə, üzrlü sayılmır.*

*[1] Mənim dini elm və maarifə diqqətim dünyəvi işlərdən çoxdur. Qeyd etmək lazımdır ki, ağıl və tarixin hökmünə əsasən Həzrət Peyğəmbərdən sonra Əli ibn Əbu Talib və məsum imamlar əleyhimus-salamdan başqa heç kəsdə «سَلُونِى قَبْلَ أَنْ تَفْقِدُونِى» «məni itirməmişdən qabaq məndən soruşun» demək cürəti olmayıb və yoxdur. Doxsan ikinci xütbənin şərhində bu məsələyə toxunulub və onun dəlili bəyan edilib.*

Allaha bağışladığı nemətlərə görə şükr edirəm. (Qeyd)[1] Və Ondan haqlarını yerinə yetirmək *(elm və maarif əldə etmək və vacib və müstəhəbbi əməlləri yerinə yetirmək)* üçün kömək istəyirəm ki, Onun qoşunu *(mələklər, peyğəmbərlər, peyğəmbərlərin haqq canişinləri və onların tabe və davamçıları insanları düz yoldan azdıranlara və azmışlara)* qalib, qüdrəti böyükdür. Şəhadət verirəm ki, Məhəmməd *(səlləllahu əleyhi və alih)* Onun bəndəsi və elçisidir: *(insanları)* Allaha itaət etməyə və tabe olmağa dəvət etdi, Onun dini yolunda cihad edib vuruşmaqla düşmənlərinə qalib gəldi. Düşmənlərin o Həzrəti inkar etməkdə birləşərək yekdil olmaları və onun nurunu söndürmək *(dinini məhv etmək)* üçün çalışaraq səy göstərmələri, onu cihaddan saxlamırdı. Buna görə də təqvadan və Allah qorxusundan yapışın. (Qeyd)[2] Çünki pərhizkarlıq tutacağı möhkəm olan bir kəndir və zirvəsi bərk olan bir sığınacaqdır. *(O, dünya və axirət bədbəxtliyindən nicat tapmağa və qurtulmağa səbəb olur. Ölüm gəlib çatmamışdan itaət və bəndəliklə, eləcə də bağışlanmaya səbəb olan vasitələrlə)* ölümə və onun çətinliklərinə doğru tələsin, gəlməmişdən *(özünüzü)* onun üçün bəzəyin və daxil olmamışdan hazır olun. (Qeyd)[3] Çünki qiyamət *(savab və cəza veriləcəyi zaman)*, işin sonudur *(və ölüm onun ilk mənzilidir)*. Ölüm ağıllıya öyüd vermək, nadan və qafilə isə ibrət olmaq üçün yetərlidir. Sona *(qiyamətə)* çatmamışdan qabaq qəbirlərin darısqallığı, *(sərvət, övlad və dostlardan ayrılmağa görə yaranan)* qəm-qüssənin çoxluğu, *(qiyamətin vəziyyətindən)* xəbərdar olacağınız yerin *(Bərzəxin)* qorxusu, qorxu və vahimənin ardıcıl gəlməsi,

---

[1] *Çünki nemətə görə şükr etmək firavanlığa, nankorluq etmək isə ağır əzaba səbəb olur.*

[2] *Həzrət Peyğəmbərin göndərilməsi insanları Allahın dininə və Ona itaətə çağırış olduğu üçün o Həzrətin dəvətini qəbul etməyiniz təqva və Allah qorxusu ilə vacibi əməlləri yerinə yetirərək haramların ətrafına belə firlanmamağınız ilə olmalıdır*

[3] *Nə qədər ki, ölüm gəlib çatmayıb Allah və Peyğəmbərin göstərişlərinə uyğun davranaraq şeytandan və pis işlərə əmr edən nəfsdən uzaq olun, çünki o gələndən sonra yol bağlanacaqdır*

*(qəbrin təzyiqi nəticəsində)* qabırğaların yerlərinin dəyişməsi, qulaqların *(qorxunc səslərdən)* tutulması, ləhədin (qəbirdəki çuxurun) qaranlığı, Allahın *(peyğəmbərlərinin dili ilə)* xəbər verdiyi əzabın qorxusu, qəbrin örtülməsi və *(vasitəsi ilə qəbrin ağzı bağlanan)* enli daşın möhkəmləndirilməsi kimi şeyləri bilirsiniz.

Belə isə, ey Allahın bəndələri, Allahdan qorxun, Allahdan qorxun! (Qeyd)[1] Çünki dünya sizə *(axirət yolu olan və sizdən qabaqkıların keçdikləri)* bir yoldan keçəcəkdir. *(O, hamını həmin yol ilə aparır və heç kəsi yerdə qoymur.)* Siz qiyamətlə bir ipə bağlanmısız *(sizinlə onun arasında uzun bir fasilə və zaman yoxdur)*. Sanki qiyamət öz əlamət və nişanələrini aşkar edib, bayraqlarını *(qabaqkılara birləşməyin müqəddiməsini)* yaxınlaşdırıb və sizi *(hesab və sorğu-sual üçün)* öz yolu üstündə saxlayıb. Sanki çətinliklərini önə gətirib və *(yükün, belindən götürülməsi üçün sinəsini yerə qoyan dəvə kimi)* sinələrini açıb *(ağrılı əzablarını üzə çıxarıb)*. Dünya öz sakinlərindən əl çəkib və onları öz himayəsindən çıxarıb. Odur ki, keçən bir gün və ya başa çatan bir ay kimi idi. Onun təzəsi köhnəldi və kökü arıqladı *(bədənlər zəifləyərək gücsüzləşdi)*. *(Onları)* darısqal yerdə *(qiyamətin, çətinlikləri ağır və qurtulmaq qeyri-mümkün olan)* qarmaqarışıq və böyük işlər, əziyyətlə dolu, uca səsli, parlaq şöləli, qorxunc naləli, alovları yatmaq bilməyən yandırıcı, odunu çox alovlu, təhdidi qorxunc, dibi naməlum, kənarları zülmət, qazanları çox qaynar və cəzaları rüsvayedici olan *(dar yerində saxlayacaqlar)*. *(Pərhizkarlar barəsində isə Allah-təala Qurani-Kərimin Zumər surəsinin 73-cü ayəsində belə buyurur:)* « وَسِيقَ الَّذِينَ اتَّقَوْا رَبَّهُمْ إِلَى الْجَنَّةِ زُمَرًا حَتَّى إِذَا جَاؤُوهَا وَفُتِحَتْ أَبْوَابُهَا وَقَالَ لَهُمْ خَزَنَتُهَا سَلَامٌ عَلَيْكُمْ طِبْتُمْ فَادْخُلُوهَا خَالِدِينَ» «Rəbbindən qorxanlar *(dünyada pərhizkar olanlar)* dəstə-dəstə Cənnətə doğru aparılacaqlar. *(Mələklər onları aparacaqlar. Nəhayət, ora çatınca onun qapıları açılacaq və Cənnətin qapıçıları*

---

[1] *Ölüm gəlib çatmamışdan elə bir iş görün ki, ondan sonrakı çətinliklərə düçar olmayasınız və əlinizin tezliklə üzüləcəyi dünyaya ürək bağlamayın.*

*onlara deyəcəklər: Salam olsun sizə, pak və pakizəsiniz: dünyada özünüzü günahlara bulaşdırmadınız. Buna görə də Cənnətə daxil olun və həmişəlik orada qalın.)*» Beləliklə, əzabdan xatircəm, məzəmmətdən kənar və oddan uzaq olarlar. Cənnət onlara görə rahatlanıb, *(gözləmə halından xaric olub)* onlar da öz mənzil və məskənlərindən şaddırlar. *(Bunlar)* o kəslərdirlər ki, dünyada əməlləri təmiz və gözəl, gözləri isə *(Allah xofu və əzabın qorxusundan)* ağlar olub. Dünyada onların gecələri itaətkarlıq etmələri və bağışlanma istəmələrinə *(gecəni ibadət və bəndəliklə keçirdiklərinə)* görə gündüz *(kimi)*, gündüzləri isə *(əzabdan)* qorxduqları və *(dünyadan)* uzaqlaşdıqları *(və razü-niyazla məşğul olduqları)* üçün gecə *(kimi)* olub. Buna görə də Allah Cənnəti onların qayıdış yerləri, şadlığı isə mükafatları edib. Onlar həmişəlik padşahlığa, həmçinin sabit və dəyişməz nemət və şadlığa, Cənnətə və onun sakinlərinə daha layiqdirlər.

Belə isə, ey Allahın bəndələri, *(indi ki, Cənnət və Cəhənnəm əhlinin halını eşitdiniz,)* nicat tapanınızın riayət edərək xeyir qazandığı, zay edəninizin isə pozaraq ziyana düşdüyü şeyi qoruyun. (Qeyd)[1] Əməlinizlə öz ölümlərinizi qabaqlayın. *(Elə olun ki, ölüm gələndə iztirab və narahatlıq keçirməyəsiniz.)* Çünki siz qarşıya göndərdiyiniz şeyin girovusunuz və yerinə yetirdiyiniz şeylərə görə cəzalandırılacaqsınız *(əvəz alacaqsınız)*. Sanki ölüm sizi haqlayıb. Buna görə də nə *(öz çirkin əməllərinizin düzəldilməsinə)* nail olmaq üçün qayıdış var, nə də *(etdiyiniz)* günah və büdrəmələrdən xilas olacaqsınız. (Qeyd)[2] Allah bizi və sizi Özünün və Peyğəmbərinin itaətinə vadar etsin və rəhmətinin çoxluğu ilə bizdən və sizdən *(günahlarımızdan)* keçsin.

---

[1] *Allah və Peyğəmbərin göstərişinə tabe olun ki, əbədi səadət və xoşbəxtliyi əldə edəsiniz. Həmçinin onlardan qafil olmayın ki, bədbəxt olarsınız.*

[2] *Çünki günahlardan xilas olmaq tövbə etməklə və həmin yoldan qayıtmaqla mümkündür. O da əvəz verilmə evi olan axirətdə deyil, vəzifə və əməl evi olan dünyada mümkündür.*

*(Yuxarıda deyilmiş məsələlərdə fikrə dalıb düşündükdən sonra)* öz yerinizdə oturun *(lazımsız yerə həddinizi aşmayın)*, bəla və çətinliyə *(küfr və azğınlığa)* səbrli olun, əl və qılınclarınızı dillərinizin istəklərində işə salmayın *(davakar olmayın və söyüş söyərək boş sözlər danışmayın)*. Həmçinin Allahın yerinə yetirilməsini vəzifə kimi təyin etmədiyi şeyə tələsməyin. (Qeyd)[1] Çünki sizdən hər kim Allahın, Onun Peyğəmbəri və elçisinin və o Həzrətin əhli-beytinin haqqını tanımış halda öz yatağında ölsə, şəhid olmuş kimi ölüb və onun əvəzi *(mükafatı)* Allahladır. O, fikrində olan yaxşı əməlin savabına layiqdir və bu fikir onun qılınc çəkməsinin yerini tutur. Hər bir şeyin müddəti və sona çatma zamanı vardır *(ki, həmin müddəti keçməyincə çalışmağın faydası olmaz)*. (Qeyd)[2]

# 233- cü xütbə

İmam Əli əleyhis-salamın *(pərhizkarlıq və dünyaya ürək bağlamamaq barəsində buyurduğu)* xütbələrindəndir.

Şükr o Allaha layiqdir ki, şükrü *(nəticəsində saysız nemətləri)* yaranmışlar arasında yayılıb, Onun *(dininin yolunda düşmənlərinə qarşı cihad edən mələklər, peyğəmbərlər, onların haqq canişinləri və möminlərdən ibarət)* qoşunu qalibdir və böyüklüyü *(hər şeydən)* üstündür. Ona bir-birinin ardınca olan *(ağılların, müqabilində heyran olduğu və dillərin saymaqda aciz qaldığı)* nemətlərinə və böyük bəxşişlərinə görə şükr edirəm. O Allah ki, çox səbrlidir *(günahkarları tez cəzalandırmır)* və *(onların əfv edilməsi mümkün olan günahlarını)* bağışlayır. Barəsində qərar çıxardığı *(təqdir etdiyi)* şeydə ədalət və

---

[1] *Allahın göstərişinə zidd davranmayın və heç bir işdə fikirləşib-düşünməmiş və onun xeyir-ziyanını araşdırmamış, yersiz olaraq özünüzü çətinliklərə düçar etməyin.*

[2] *Xülasə, imkan və gücünüz olmadan və ya ölmək üçün mənəvi mənfəət nəzərdə tutmadan düşmənlə döyüşə başlamayın. Çünki döyüşmək niyyəti və onlara nifrət bəsləmək də Allah yolunda cihad etmək və ölmək hökmündədir.*

insafla *(hikmət əsasında)* davranıb. Baş verənləri və baş vermişləri bilir. *(Onun gələcək və keçmiş barəsindəki elmi birdir. Başqasını)* təqlid etmədən və *(heç kəsdən)* öyrənmədən, hansısa bir uzaqgörən sənətkarın nümunəsindən istifadə etmədən *(çünki O, başlanğıcların başlanğıcı və birincisidir ki, Onun üçün hansısa bir birinci fərz edilmir)*, səhv və xəta ilə qarşılaşmadan və *(məsləhətləşmə aparmaq üçün ağıllı və alim insanlardan ibarət)* bir dəstəni bir yerə toplamadan *(çünki O, elmin özüdür və buna görə də məsləhətləşməyə ehtiyac yaranmasına səbəb olan səhv və xəta Ona yol tapa bilməz)* Özünün *(zatının eyni olan)* elmi ilə yaranmışları vücuda gətirən və *(heç kəsin mane olub qarşısını ala bilmədiyi)* əmr və fərmanı ilə onları yaradandır. Və şəhadət verirəm ki, Məhəmməd *(səlləllahu əleyhi və alih)* Onun bəndəsi və elçisidir. Onu insanlar çoxlu zəlalət və azğınlıqlar içərisində dolaşdıqları və çaşqınlıq və iztirab içərisində batıb-çıxdıqları bir zamanda göndərdi. Həlakət və bədbəxtlik cilovları onları sürükləyirdi *(və dünya və axirət çətinliklərinə tərəf çəkirdi)* və qəlblərinə azğınlıq qıfılları vurulmuşdu. *(Belə ki, onlarda haqq və həqiqət nuru tapılmırdı.)*

Ey Allahın bəndələri! Sizə təqvalı olmağı və Allahdan qorxmağı tövsiyə edirəm. Çünki təqva Allahın sizin boynunuzda olan haqqıdır (Qeyd)[1] və o, Allahın sizin haqqınızı *(əməllərinizə əvəz)* verməsini zəruriləşdirərək bərqərar edən amildir. Həmçinin sizə tövsiyə edirəm ki, Allahdan təqvalı olmaq üçün kömək diləyəsiniz *(sizi təqvalı və pərhizkar olmağa müvəffəq etməsini istəyəsiniz)* və təqvadan Allah *(Ona yaxınlaşmaq)* üçün yardım istəyəsiniz. *(Pərhizkar olun ki, Allaha yaxınlaşasınız.)* Çünki təqva bu gün *(dünyada)* pənah və *(çətinliklər müqabilində)* qalxan, sabah *(qiyamətdə)* isə Cənnət yoludur. Onun yolu aşkar, yolçusu xeyir götürən və əmanət saxlayanı *(Allah)* qoruyandır. *(Onun yanında əmanət itmir və məhv olmur, bəlkə O, qiyamət günü onları çox artıq xeyirlə geri*

---

[1] *Allah vacibləri yerinə yetirmək və qadağan edilmişləri tərk etməkdən ibarət olan təqvanı Öz haqqı və nemətlərinin şükrünün yerinə yetirilməsi vasitəsi təyin edib.*

*qaytaracaqdır.)* Təqva həmişə özünü keçmiş insanlara və qalanlara göstərib və göstərməkdədir *(ki, ondan bəhrələnsinlər).* Çünki onlar sabah *(qiyamətdə)* ona möhtacdırlar. O sabah ki, Allah yaratdıqlarını qaytaracaq *(ölüləri dirildəcək)*, *(dünya və onun malından)* verdiklərini alacaq və əta etdiyi *(saysız nemətlərin hansı yollarda sərf edilməsi)* barəsində soruşacaq. Buna görə də təqvanı qəbul edib onu sədaqətlə öz şüarı edən kəslər nə qədər də azdırlar. Onlar say baxımından azdırlar və eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın vəsf və tərifinə layiqdirlər ki, *(Qurani-Kərimin Səba surəsinin 13-cü ayəsində)* buyurur: «وَقَلِيلٌ مِّنْ عِبَادِيَ الشَّكُورُ» «Mənim çox şükr edən bəndələrim azdırlar». Belə isə qulaqlarınızla təqvaya *(onun vəsfini eşitməyə)* tərəf tələsin *(ki, başa düşəsiniz)*, səy və təlaşınızla ona riayət edin *(ki, nicat tapasınız)* və onu keçən *(əldən çıxmış)* hər bir şeyin müqabilində əvəz və canişin, hər bir müxalifin *(haqq yolunun əleyhdarının)* qarşısında müvafiq *(tərəfdar)* edin. Təqva vasitəsi ilə yuxunuzu qaçırdın *(qəflət yuxusundan oyanın)* və gününüzü ayırın *(dünyaya ürək bağlamayın)*. Onu qəlblərinizin ayrılmaz yoldaşı edin *(heç vaxt ondan uzaqlaşmayın)* və günahlarınızı onunla yuyun. Xəstəliklərinizi onunla müalicə edin və onunla ölümü qabaqlayın *(elə bir iş görün ki, ölümdən heç bir nigarançılığınız olmasın)*. Təqvanı zay edib əldən çıxarmış kəsdən (Qeyd)[1] ibrət götürün. Məbada ona tabe olan kəs sizdən ibrət götürmüş olsun. Bilin! Təqvanı *(təkəbbür, xudbinlik, riyakarlıq və özünü göstərmək kimi xislətlərə düçar olmaqdan)* qoruyun və özünüz də onun vasitəsi ilə qorunun. *(Çünki təqva əzab müqabilində sığınacaq və qalxandır.)* Dünyadan uzaq və axirətə aşiq və vurğun olun. Təqvanın ucaltdığı kimsəni alçatmayın *(pərhizkarları xar sanmayın ki, bu, təqva və pərhizkarlığa ziddir)* və dünyanın qaldırdığı kəsi yüksək

---

[1] *Şeytana və pis işlərə əmr edən nəfsə tabe olub dünyada bədbəxt halda qalmış və ya istədiyi xeyri əldə edə bilməmiş və axirətdə əbədi əzaba düçar olan şəxsdən.*

məqamlı hesab etməyin. (Qeyd)[1] Dünyanın ildırımlı buluduna *(parıldayan malına)* göz dikməyin. Onun danışanına qulaq asmayın, çağıranının dəvətini qəbul etməyin *(dünyapərəstlərlə isnişərək get-gəl etməyin)*, parıltısında işıqlıq axtarmayın və nəfis mallarına tovlanmayın. Çünki onun ildırımı yağışsız, söhbəti yalan, malları qarət *(olunmuş şeylər)* və nəfis malları oğurluqdur. Bilin! Dünya, özünü *(kişilərə)* göstərib üzünü döndərən əxlaqsız qadına bənzəyir. Həmçinin hərəkət edərkən dayanıb əmrə tabe olmayan itaətsiz ata bənzəyir. O, çox xəyanətkar yalançı, naşükür davakar, *(haqq yoldan)* sapan cəfakar, *(doğru yoldan)* çox uzaqlaşan, narahat və qarmaqarışıqdır. Onun adəti *(bir haldan digər bir hala və bir şəxsdən digər şəxsə)* keçmək, ayağının altı titrəyən və qeyri sabit, möhtərəmliyi xarlıq, səy və çalışması oyun və zarafat, yüksəkliyi alçaqlıqdır. Dünya, malı almaq *(quldurluq)*, soyğunçuluq, qarətçilik, məhv və həlak etmək evidir. Onun əhli ayaq üstədir *(çətinliklərin çoxluğundan bir an olsun belə rahatlıq və dinclikləri yoxdur)*, qovulurlar, *(qabaqkılara)* birləşəcəklər və *(mal, arvad, övlad, qohum və dostlardan)* ayrı qalacaqlar. Onun yolları çaş-baş salan *(gedənlər, hara getdiklərini və hara çatacaqlarını bilmirlər)*, daldanacaqları acizləşdirən *(insanlar onda bir sığınıcaq tapmırlar və əllərini bir yerə ilişdirə bilmirlər)* və məqsədləri ümidsizləşdirəndir *(heç kəs onda öz istəyinə çatmır)*. Buna görə də sığınacaqlar dünyapərəstləri *(bəla və çətinliklərə)* təslim edib və onları saxlamayıb, mənzillər onları kənara atıb və zirəkliklər onları acizləşdirib və yorub. (Qeyd)[2] Buna görə də *(dünya əhlinin)* bəzisi nicat tapıb, *(amma)* ayaqları kəsilib və yaralıdır. Bəzisi ayrılmış ət kimi, bəzisi başı kəsilmiş bədən, bəzisi isə tökülmüş qan kimidir. Bəzisi

---

[1] *Varlıları var-dövlətlərinə görə böyük sanmayın. Çünki var-dövlətə görə hörmət göstərmək təqva və pərhizkarlığa ziddir.*

[2] *Xülasə, dünyada pənah aparmaq üçün bir sığınacaq və daldalanacaq yoxdur. Həmçinin insanı özündə saxlayıb kənara atmayan bir mənzil yoxdur. Orada zirəklik və bir-birinə arxa olmağın da xeyri yoxdur.*

*(qəm-qüssədən)* əllərini gəmirər, bəzisi *(heyfslənərək)* əllərini bir-birinə vurar, bəzisi *(çarəsizilkdən)* yanaqlarını dirsəklərinə qoyar, bəzisi öz fikrini məzəmmət edərək səhv sanar, bəzisi öz məqsədindən daşınar. Halbuki tədbir töküb çarə qılmaq fürsəti əldən çıxıb *(onların xeyri yoxdur)*, gözlənilməz bəla üz tutub *(ölüm gəlib çatıb və iş-işdən keçib)* və həmin vaxt qaçmaq zamanı deyil. *(Allah Qurani-Kərimin Sad surəsinin 3-cü ayəsində buyurur:* «**كَمْ أَهْلَكْنَا مِن قَبْلِهِم مِّن قَرْنٍ فَنَادَوْا وَلَاتَ حِينَ مَنَاصٍ**» *«Biz onlardan əvvəl neçə-neçə nəsilləri məhv etdik. Onlar (qaçmaq üçün) fəryad edib kömək diləyirdilər, lakin artıq qaçıb can qurtarmaq vaxtı deyildi».) (Ölüm gəlib çatdıqdan sonra ondan qaçmaq və ya bir iş görmək xülyası həqiqətdən)* çox-çox uzaqdır!!! Həqiqətən əldən çıxan əldən çıxdı, keçən keçdi *(günahları islah etmək və səhv və çirkin işlərin yerini doldurmaq zamanı arxada qaldı)* və dünya, *(əhlinin arzularına uyğun şəkildə deyil)* öz ürəyi istəyən kimi keçdi. *(Qurani-Kərimin Duxan surəsinin 29-cu ayəsində buyurulur:)* «**فَمَا بَكَتْ عَلَيْهِمُ السَّمَاءُ وَالْأَرْضُ وَمَا كَانُوا مُنظَرِينَ**» «Beləliklə, göy və yer əhli dünyapərəstlərin həlakına ağlamadı *(özlərini qəmləndirmədilər)* və onlar *(əzabdan qurtulmaq yolunu tapmaq üçün)* möhlət verilənlərdən deyildilər».

# 234- cü xütbə

İmam Əli əleyhis-salamın xütbələrindəndir ki, bəziləri onu «Qasiə» *(«قاصِعَه»)* xütbəsi adlandırırlar. (Qeyd)[1] O, təkəbbür və itaətsizlik göstərmiş, Adəm əleyhis-salama səcdə etməmiş, təəssübkeşlik göstərib haqqı qəbul etməməsini aşkar etmiş ilk varlıq olmuş, məğrurluq və xudbinliyə qapılmış şeytanın *(Allah ona lənət etsin)* məzəmməti və *(eləcə də)* insanları onun yol və üsuluna tabe olmaqdan çəkindirmək barəsindədir *(və bu xütbə «Nəhcül-Bəlağə»nin xütbələrinin ən uzunudur).*

Şükr o Allaha layiqdir ki, qüdrətlilik və böyüklüyü *(qüdrət və böyüklük libasını)* geyindi *(qüdrətlilik və böyüklük ancaq Ona məxsusdur ki, heç nə Onu zəif sala bilməz və Onun həqiqətinə çata bilməz)* və bu iki sifəti yaratdıqlarına deyil, Özünə məxsus etdi. *(O, bu sifətlərdə tək və yeganədir. Çünki Ondan başqa hər bir şey zatən qüvvətsiz, əlaltı və hər şeydə başqasına möhtacdır.)* Onları Özündən başqasına qadağan və haram etdi *(buna görə də heç kəs onların iddiasını edə bilməz və əgər etsə cavab verməli olacaq, cəzalandırılacaq)* və Öz cəlalı üçün seçdi. Bəndələrindən bu iki sifətdə Onunla çəkişmə aparan *(özünü qüdrətli və böyük tutan)* kəs üçün lənət *(rəhmindən uzaqlıq)* müəyyənləşdirib. (Qeyd)[2] Beləliklə, bu iki sifəti Özünə məxsus etdiyinə

---

[1] *Qasiə kəlməsinin kökü olan «قَصْع» «qəs» kəlməsi lüğətdə gövşəmək mənasındadır. Deyirlər ki: Bu xütbənin «Qasiə» adlandırılmasının səbəbi budur ki, İmam əleyhis-salam onu Kufə əhlinə buyurarkən gövşəyən bir dişi dəvəyə minibmiş. Digər bir dəstə isə deyib ki: «Qəs» lüğətdə təhqir etmək və alçatmaq mənasında da gəlib. Buna görə də onun bu cür adlandırılmasının səbəbi, o Həzrətin onda şeytanı təhqir etməsi, alçaltması və xar etməsidir. Xütbənin adı barəsində digər səbəblər də deyilib. Amma həqiqətə ən yaxın nəzər birinci, onların ən gözəli isə ikinci nəzərdir.*

[2] *Necə ki, Qurani-Kərimin Zumər surəsinin 60-cı ayəsində buyurur:* **«وَيَوْمَ الْقِيَامَةِ تَرَى الَّذِينَ كَذَبُواْ عَلَى اللَّهِ وُجُوهُهُم مُّسْوَدَّةٌ أَلَيْسَ فِي جَهَنَّمَ مَثْوًى لِّلْمُتَكَبِّرِينَ»** *«Qiyamət günü Allaha qarşı yalan uydurub Onun əmrinə tabe olmayanların üzlərini qapqara görərsən. Məgər Cəhənnəmdə təkəbbür*

görə dərgahına yaxın olan mələkləri, onların təvazökarlarını təkəbbürlülərdən *(cindən olub mələklərin arasında Adəmə səcdə etməyə əmr olunan şeytandan)* seçib ayırmaq üçün sınadı. (Qeyd)[1] Qəlblərin gizlinlikləri və gözlərdən örtülü olan qeybləri bilməsinə baxmayaraq, *(Qurani-Kərimin Sad surəsinin 71-74-cü ayələrində bildirildiyi kimi)* buyurdu: «إِنِّي خَالِقٌ بَشَرًا مِن طِينٍ فَإِذَا سَوَّيْتُهُ وَنَفَخْتُ فِيهِ مِن رُّوحِي فَقَعُوا لَهُ سَاجِدِينَ فَسَجَدَ الْمَلَائِكَةُ كُلُّهُمْ أَجْمَعُونَ إِلَّا إِبْلِيسَ» «Mən palçıqdan bir insan yaradacağam. Mən onu tamamlayıb Öz ruhumdan üfürən kimi ona səcdə edin *(təzim edərək təvazökarlıq göstərin. Yaxud onu öz qibləniz edin. Çünki Allahdan başqası üçün ibadət və bəndəlik səcdəsi etmək qadağandır)*. Beləliklə də, mələklərin hamısı birlikdə səcdə etdi, İblisdən başqa!» (Qeyd)[2] *(Xülasə, o, Adəmə səcdə*

---

*göstərənlər və itaətsizlik edənlər üçün yer yoxdur?!» Həmçinin Nəhl surəsinin 29-cu ayəsində buyurur:* «فَادْخُلُواْ أَبْوَابَ جَهَنَّمَ خَالِدِينَ فِيهَا فَلَبِئْسَ مَثْوَى الْمُتَكَبِّرِينَ» *«Haydı, girin əbədi qalacağınız Cəhənnəmin qapılarına (dərinliklərinə və dibinə). Təkəbbürlülərin yeri necə də pisdir!»*

[1] *Onların ilahi əmrə tabe olanın nicat tapan, müxalifət edənin isə əzaba düçar olan olmasını bilmələri üçün, onlarla imtahan edib sınayan kəslər kimi davrandı. Yoxsa məqsəd Özünün nəyisə bilmək üçün mələkləri imtahan etməsi deyildi. Çünki bu mənada olan imtahan və sınaq Onun barəsində qeyri-mümkündür, necə ki, altmış ikinci xütbənin şərhində bu məsələyə toxunuldu.*

[2] *İmam Rza əleyhis-salam buyurub ki: Şeytanın adı Haris olub.* «سُمِّيَ إِبْلِيسٌ لِأَنَّهُ أَبْلَسَ مِنْ رَحْمَةِ اللهِ» *O, Allahın rəhmətindən uzaqlaşdığı üçün İblis adlandırılıb. Qeyd etmək lazımdır ki, alimlər arasında şeytanın cinlərdən, yoxsa mələklərdən olması barəsində fikir ayrılığı mövcuddur. Düzgün nəzər onun cinlərdən olmasıdır. İmamiyyə alimləri də bu nəzərdə yekdildirlər. Bu nəzər Şeyx Mufiddən (əleyhirrəhmə) də nəql edilib və bu barədə məsum imamlar əleyhimus-salamdan nəql edilmiş «mütəvatir» hədislər də mövcuddur. Qurani-Kərimin özü də aşkarcasına bu mənanı təsdiqləyir. Kəhf surəsinin 50-ci ayəsində buyurur:* «وَإِذْ قُلْنَا لِلْمَلَائِكَةِ اسْجُدُوا لِآدَمَ فَسَجَدُوا إِلَّا إِبْلِيسَ كَانَ مِنَ الْجِنِّ» *«Xatırla ki, bir zaman mələklərə: «Adəmə səcdə edin!»-dedik. Beləliklə, İblisdən başqa hamısı səcdə etdi. O, cinlərdən idi.» Ayədəki istisna şeytanın mələklərdən olmasına dəlil deyil. Çünki «o, cinlərdən idi» cümləsi aşkarcasına bu mətləbə dəlalət edir ki, burada və Qurani-Kərimin bu barədəki digər yerlərində olan istisna, istisnanın «kəsik» növündəndir.*

*etmədi, çünki)* təkəbbür və öyünmə ona üz tutdu. Beləliklə, öz yaradılışı ilə Adəmə öyünərək nazlandı və öz əslinə *(yaranmış olduğu oda)* təəssüb göstərərək aşkarcasına Haqqın əmrindən boyun qaçırdı. *(Və dedi: Onu palçıqdan, məni isə oddan yaratmısan. Mən ki, ondan yaxşıyam, ona nə üçün səcdə etməliyəm?)* Beləliklə, Allahın düşməni *(Şeytan)* təəssübkeşlərin başçısı və təkəbbürlülərin qabaqda gedənidir ki, təəssübkeşliyin təməlini qoydu, Allahla *(Ona məxsus olan)* əzəmət və böyüklüyündə çəkişdi, *(layiq olmadığı)* izzət və ucalıq libası geyindi və *(layiq olduğu)* zillət və xarlıq geyimini kənara atdı.

Məgər Allahın onu təkəbbür və itaətsizliyinə görə necə kiçiltdiyini və məğrurluğuna görə necə alçatdığını görmürsünüz? Buna görə də onu dünyada *(Öz rəhmətindən)* qovdu (Qeyd)[1] və axirətdə onun üçün alovlanan od hazırlayıb. (Qeyd)[2]

Əgər Allah-təala Adəmi parıltısı gözləri qamaşdıran və gözəlliyi ağılları məğlub edən *(ağılların, müqabilində heyran və məəttəl qaldıqları)* nurdan və ya gözəl iyi insanları bürüyən xoş ətirli şeydən yaratmaq istəsəydi, mütləq yaradardı. Əgər *(elə)* yaratsaydı, boyunlar Adəmin müqabilində əyilərdi və onun barəsindəki sınaq mələklərə asan olardı. *(Şeytan durmadan ona səcdə etməyə tələsər və onu özündən aşağı təsəvvür etməzdi).* Lakin eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah yaratdıqlarını *(başqalarından)* fərqləndirmək və ayırmaq, təkəbbür və itaətsizliyi aradan qaldırmaq və özünü bəyənmək xüsusiyyətini onlardan uzaqlaşdırmaq üçün əsl

---

*Yəni, istisna olunan şeyin, istisna olunduğu şeylərlə cinsi bağlılığı yoxdur.*

[1] *Necə ki, Qurani-Kərimin Hicr surəsinin 34-35-ci ayələrində buyurur:* «**قَالَ فَاخْرُجْ مِنْهَا فَإِنَّكَ رَجِيمٌ وَإِنَّ عَلَيْكَ اللَّعْنَةُ إِلَى يَوْمِ الدِّينِ**» *«Allah buyurdu: Cənnətdən çıx ki, sən qovuldun və sən qiyamət gününə kimi lənətlənmişsən».*

[2] *Necə ki, Qurani-Kərimin Sad surəsinin 85-ci ayəsində buyurur:* «**لَأَمْلَأَنَّ جَهَنَّمَ مِنكَ وَمِمَّن تَبِعَكَ مِنْهُمْ أَجْمَعِينَ**» *«Cəhənnəmi sən və insan və cinlərdən sənin ardınca gedənlərin hamısı ilə dolduracağam».*

və səbəbini bilmədikləri bəzi şeylərlə imtahan edir *(ağlın hikmətini dərk etmədiyi şəriət hökmlərinin çoxu da bu qəbildəndir)*.

Buna görə də Allahın şeytan barəsindəki işindən ibrət götürün ki, onun uzun müddətli ibadət və bəndəliyini, çoxlu səy və təlaşını *(təkəbbür və itaətsizliyinə görə)* heç və puç etdi. Halbuki o, Allaha altı min il ibadət etmişdi ki, onun dünya, yoxsa *(bir günü dünyanın əlli min ilinə bərabər olan)* axirət illərindən olması məlum deyil *(siz bilmirsiniz və dərkiniz naqisdir)*. *(Bu,)* bir saatlıq təkəbbürlülük və itaətsizliyə görə *(oldu ki, o özünü Adəmdən üstün bildi və ona səcdə etmədi)*! Belə isə kim şeytandan sonra onun günahı kimi bir günah *(təkəbbür və itaətsizlik)* etməklə Allahın əzabından amanda qala bilər? Əsla! Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah heç vaxt heç bir insanı, səbəbindən bir mələyi *(şeytanı)* Cənnətdən çıxardığı işlə ora daxil etməyəcək. (Qeyd)[1] Allahın göy əhli *(mələklər)* və yer əhli *(insanlar)* barəsindəki hökmü birdir. Onunla yaratdıqlarının heç biri arasında Onun yaranmışlara haram edib ancaq Özünə məxsus etdiyi şeyi *(əzəmət və böyüklüyü)* rəva bilmək barəsində icazənamə yoxdur. (Qeyd)[2]

Odur ki, ey Allahın bəndələri, Allahın düşməninin *(şeytanın)* sizi öz dərdinə *(təkəbbür və itaətsizliyə)* düçar etməsindən *(özü kimi təkəbbürlü və itaətsiz edərək Allahın rəhmətindən uzaqlaşdırmasından)*, sözləri ilə sizi *(doğru yoldan)* saxlayaraq narahat etməsindən və qoşununun *(davamçılarının)* atlı və piyadalarını sizin ətrafınıza toplamasından qorxun. Canıma and olsun ki, o, kamanının yayına sizin üçün şər *(azdırmaq)* oxu qoyub və sizi nişan alaraq onu bərk özünə

---

[1] *İmam əleyhis-salamın burada şeytanı mələk adlandırmasının səbəbi onun göylərdə olması və mələklərlə qaynayıb-qarışmasıdır.*

[2] *Allahın hökmləri hamı barəsində yeksandır. Buna görə də şeytanın adi bir itaətsizliyə görə Allahın dərgahından qovulmasını demək olmaz. Bilmək lazımdır ki, kimliyindən və harada olmasından asılı olmayaraq müəyyənləşdirilmiş ilahi vəzifədən boyun qaçıran hər bir kəs Allahın rəhmətindən kənarda qalacaq və əzaba düçar olacaqdır.*

tərəf çəkib. Sizə yaxından ox atıb *(ki, səhv getməsin)*. Və *(Allahın, Qurani-Kərimin Hicr surəsinin 39-cu ayəsində nəql etdiyi kimi belə)* deyib: « رَبِّ بِمَا أَغْوَيْتَنِي لَأُزَيِّنَنَّ لَهُمْ فِي الْأَرْضِ وَلَأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ» «Ey Rəbbim! *(Adəmə səcdə etmədiyim üçün)* məni azdırdığına görə mütləq mən də yer üzündə Adəm övladlarının qarşısında günahları yaxşı göstərəcəyəm *(ki, itaətdən qalsınlar)* və onların hamısını azdıracağam». Halbuki *(o, bu sözü bilmədən)* qeybdən xəbər verərək və səhv gümana əsaslanaraq deyib. *(Amma)* qürurun övladları, təəssübkeşliyin qardaşları və təkəbbürlülük, cahillik və nadanlıq süvariləri onun iddiasını təsdiqləyərək gerçəkləşdirdilər. (Qeyd)[1] Nəhayət, sizin *(doğru yoldan çıxmış)* itaətsiziniz ona tabe oldu və *(buna görə də)* onun sizin barənizdəki *(sizi azdırmaq üçün olan)* tamah və hərisliyi möhkəmləndi. Buna görə də gizlinin necəliyi aşkar oldu. *(Onun vəsvəsələrinin nişanələri sizin qəlblərinizdə aşkar olub ki, çəkinmədən Allahın göstərişlərinə zidd davranırsınız.)* Onun sizi ələ keçirməsi gücləndi və öz qoşununu sizə yaxınlaşdırdı. Beləliklə, onlar sizi zillət və xarlıq mağaralarına atdılar və ölüm *(məhv olma)* çalasına tulladılar. Sizi gözlərə nizə batırmaq, boğazları kəsmək, burunların deşiyini əzişdirmək kimi ağır yaralarla, həmçinin ölüm yerinizə atmaq qəsdi və buruna taxılan məcburiyyət və qəzəb noxtasının halqası ilə, sizin üçün hazırlanmış oda tərəf sürükləmək istəyi ilə tapdalayaraq məhv etdilər. (Qeyd)[2] Beləliklə, şeytan, sizin dininizi yaralamaq *(ona ziyan vurmaq)* və dünyanızda alov qızışdırmaqda *(fitnə-fəsad yaratmaqda)*, aşkarcasına düşmənçilik edib onlara qarşı *(vuruşmaq üçün)* toplaşdığınız *(bir-birinizdən kömək istədiyiniz)* düşmənlərdən də böyük və tutuşdurucu amilə çevrilib.

---

[1] *Çünki dünya əhli günah və itaətsizlik edərək şeytanın malik olduğu təkəbbürlülük və özünü öymək xəstəliyinə düçar oldular. Beləliklə, onun nadanlıq və güman əsasında etdiyi iddianı düz çıxartdılar.*

[2] *Xülasə, şeytan və onun qoşunu pis işlərə əmr edən nəfsin istəklərini və günahları sizin gözünüzdə gözəlləşdirərək sizi bədbəxtlik tələsinə salıb əzaba sövq edir.*

Buna görə də öz güc və təlaşınızı onu dəf etməyə səfərbər edin. Allaha and olsun ki, o, sizin soyunuza *(atanız Adəmə)* öyünərək nazlanıb, şan-şöhrətinizi *(qüdrət və məqamınızı)* məzəmmət edib və nəsəbinizi *(qohum-əqrabalıq əlaqələrinizi)* kiçildib və alçaldıb. O, sizin üçün *(sizi azdırmaq üçün)* öz süvarilərini səfərbər edib, piyadaları ilə sizin yolunuzun fikrinə düşüb *(ki, azğınlıqda qalaraq hidayət və nicat yoluna qədəm basmayasınız)*. Sizi harada ovlasalar tələyə salarlar, barmaqlarınızın ucunu kəsərlər. Hiylə və bicliklə *(onlardan)* imtina edə və əzm və iradə ilə *(onları)* dəf edərək özünüzdən uzaqlaşdıra bilməzsiniz. Halbuki siz zillət və xarlıq dəryası, dar halqa, ölüm düzənliyi və bəla və çətinliyin *(dünyanın bəla və çətinliklərinin)* cövlan etdiyi yerdəsiniz *(onlara düçarsınız və pis işlərə əmr edən nəfsi öldürməkdən və ona tabe olmamaqdan başqa heç cür şeytanın şərindən qurtula bilməzsiniz)*. Buna görə də qəlblərinizdə gizlənmiş təəssübkeşlik alovu və cahiliyyət dövrünün kin-küdurətlərini söndürün ki, müsəlmanda olan bu təkəbbür, itaətsizlik və özündənrazılıq şeytanın qıcıqlandırmalarından və onun öyünmələri, məhv etmələri və vəsvəsələrindəndir. Özünü aşağı tutmağı başlarınızın üzərinə qoyaraq lovğalıq və özündən razılığı ayaqlarınız altına atmaq qərarına gəlin. Təkəbbür və məğrurluğu boyunlarınızdan uzaqlaşdırın və təvazökarlıqdan sizinlə düşmən olan şeytan və onun qoşunu arasında tamamilə silahlanmış qoşun yerinə istifadə edin. Çünki onun hər bir millətdən qoşunları, yardımçıları, atlı və piyadaları vardır (*ki, onlar sizi bəla və məhvə düçar etmək üçün ona kömək edərək təkəbbür və məğrurluğu sizin gözlərinizdə yaxşı göstərirlər)*. (Qeyd)[1] Anasının oğluna *(Habilə)* qarşı lovğalanmış itaətsiz təkəbbürlü *(Adəm əleyhis-salamın oğlu Qabil)* kimi olmayın. O, Allahın ona heç bir üstünlük verməməsinə baxmayaraq, qardaşına qarşı təkəbbür göstərdi. Ona həsəddən yaranan təkəbbür və məğrurluq üz tutdu və qəzəb

---

[1] *Buna görə də siz təvazökarlığı öz qoşununuz edərək onlarla vuruşun.*

odundan onun qəlbində təəssübkeşlik və kin yarandı. Və şeytan onun burnuna təkəbbür və özünü böyük tutmaq küləyi üfürdü. Elə özündən razılıq və itaətsizlik ki, Allah təkəbbür və məğrurluqdan sonra ona peşmançılıq verdi. (Qeyd)[1] Və qiyamətə kimi, qatillərin günahını ona yoldaş etdi. (Qeyd)[2] Bilin ki, siz Allahla düşmənçiliyi aşkar etmək və möminlərlə müharibə etmək üçün *(ev-eşiklərinizdən)* xaric olmaqla zülmkarlıqda çox cəhd göstərdiniz və yer üzündə fitnə-fəsad törətdiniz! (Qeyd)[3] Buna görə də təəssübdən doğan təkəbbür və cahiliyyət öyünmələrində Allahdan qorxun, Allahdan qorxun! Çünki təkəbbür düşmənçilik amili və şeytanın üfürmə meydanlarıdır ki, həmin üfürmələrlə keçmiş ümmətləri və ötən nəsilləri *(Nuh, Ad və Səmud tayfalarını və Firon və Nəmrud kimilərini)* aldadıb (Qeyd)[4] və nəticədə onun nadanlıq zülmətlərinə və azğınlıq tələlərinə doğru tələsiblər. Belə ki, onun sövq etməsi müqabilində ram və sürükləməsi qarşısında *(onun dalınca düşməkdə)* sakit *(təslim)* idilər. Onlar, qəlblərin barəsində yeksan olduğu və keçmişlərin, bir-birinin ardınca

---

[1] *Qardaşının ölməsi nəticəsində avara-sərgərdan qaldı. Peşmançılıqdan məqsəd onun qardaşını öldürməsindən peşman olması deyil. Çünki əgər qardaşını öldürdüyü üçün peşman olmuş olsaydı, bu, onun etdiyi günahdan tövbəsi olardı və əzabda qalmazdı.*

[2] *Necə ki, Qurani-Kərimin Maidə surəsinin 31-32-ci ayələrində buyurur:* « **فَأَصْبَحَ مِنَ النَّادِمِينَ مِنْ أَجْلِ ذَلِكَ كَتَبْنَا عَلَى بَنِي إِسْرَائِيلَ أَنَّهُ مَن قَتَلَ نَفْسًا بِغَيْرِ نَفْسٍ أَوْ فَسَادٍ فِي الأَرْضِ فَكَأَنَّمَا قَتَلَ النَّاسَ جَمِيعًا** » *«(Qabil Habili öldürəndən sonra) peşman olmuşdu. Buna görə də İsrail oğullarına hökm etdik ki, hər kəs bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur.»*

[3] *Ola bilər ki, İmam əleyhis-salamın burada bu cümlədən məqsədi ümmətin Həzrət Peyğəmbərin (səllallahu əleyhi və alih) vəfatından sonra onunla müxalifət etməsi və ya Şam əhli və Müaviyənin tərəfdarlarının o Həzrətlə rəftarıdır.*

[4] *Öyünmək və məğrurluğu onların gözündə yaxşı göstərib və beləliklə, onlar təkəbbürlülük ucbatından peyğəmbərləri təkzib ediblər və düz yola gəlməyiblər.*

güdazına getdikləri işə - ürəklərin səbəbindən *(kin-küdurət və paxıllıqdan)* sıxıldığı təkəbbür və lovğalığa tərəf tələsdilər.

Xəbərdar olun! Qorxun və çəkinin o böyüklərinizə və başçılarınıza tabe olmaqdan ki, *(xalq arasında qazandıqları)* yüksək məqam və ad-sandan təkəbbürlülüyə düçar oldular, öz nəsəblərinə *(vücuda gəldikləri ailələrinə)* qədərindən artıq öyündülər, *(öz gümanlarında)* xoşagəlməz və çirkin olan şeyi Rəbblərinə nisbət verdilər (Qeyd)[1], Allahın qəzavü-qədəri ilə müharibə etmək və nemətləri ilə vuruşmaqla Onun onlara etdiyi yaxşılıqları inkar etdilər. (Qeyd)[2] Buna görə də onlar təəssübkeşlik təməlinin dirəkləri, fitnə və çaxnaşma dayağının sütunları və cahiliyyət fəxr və öyünmələrinin qılınclarıdırlar. (Qeyd)[3] Buna görə də Allahdan qorxun və sizə verdiyi nemətlərinə *(təkəbbür və məğrurluqla)* nankor və sizə etdiyi yaxşılıqlarına görə paxıl olmayın. (Qeyd)[4] Yaxşı və başçı sandığınız pis və

---

[1] *Birinə «sən əcəmsən, yoxsa ərəb; yaxud xorasanlısan, yoxsa tehranlı?» dəmələri kimi ki, bu cür nisbətlər əslində insana deyil, Allaha şamil olur. Çünki həmin şəxsin əcəm və ya xorasanlı olmasında o özü günahkar deyil.*

[2] *Dünyada onlardan az paya malik olmaları təqdir edilmiş kimsələri xar və həqir hesab etdilər və Allahın onlara əta etdiyi nemətlərlə yoxsullara və kasıblara təkəbbür göstərdilər. Halbuki bu, insafsızlığın son həddidir. Çünki onların hər biri öz payını və qismətini əldə edib. Xalq hörmət göstərərək onu böyük, başçı və rəhbər adlandırır, amma o özünə gəlmir və başa düşmür ki, Allah bu nemətləri ona imtahan və sınaq üçün verib.*

[3] *Necə ki, cahiliyyət dövrünün ərəbləri öz qəbilələri, ataları və başçıları ilə fəxr edir, öyünürdülər və müharibə zamanı onları adları ilə çağırırdılar. Deməli, onlar müharibə qılıncları kimi idilər. Bunlar da təkəbbür və məğrurluqlarına görə fitnə və çaxnaşma qılıncları kimidirlər.*

[4] *Çünki nankorluq və naşükürlük və eləcə də paxıllıq nemətin zavala uğramasına səbəb olur. Onlar paxıla ona görə oxşadılıblar ki, paxıl nemətin başqasının əlindən çıxmasını istədiyi kimi, sanki onlar da Allahın neməti müqabilində nankorluq olan məğrurluq və itaətsizliklə*

alçaqlara tabe olmayın. Çünki onlar sizin tutqun lilli sularını öz duru və təmiz suyunuz ilə bir yerdə içdiyiniz, xəstəliklərini öz sağlamlıqlarınız ilə qatışdırdığınız və batil və əyriliklərini öz haqq və düzlüyünüzə daxil etdiyiniz kimsələrdir. (Qeyd)[1] Halbuki onlar fisqin *(Allahın itaətindən çıxmağın)* əsası, günah və *(Allah, Peyğəmbər və İmamla)* müxalifətin yavər və ayrılmaz yoldaşıdırlar. Şeytan onları azğınlıq daşıyan dəvələr, vasitələri ilə xalqa hökmranlıq etdiyi qoşun və xalqın dilində danışan dilmanc edib ki, sizin ağıllarınızı oğurlasın *(yalan sözlərlə sizi Allahın zikrindən və axirəti yada salmaqdan qafil edərək saxlasın)*, gözlərinizə daxil olsun *(dünya həyatı və günahları sizin nəzərinizdə gözəlləşdirsin və nəticədə Allahın nişanələrinə nəzər salmaqdan qalasınız)*, qulaqlarınıza üfürsün *(sizə o qədər puç və çirkin sözlər öyrətsin ki, Allahın və Peyğəmbərin sözlərinə qulaq asmayasınız)*. Beləliklə, *(ağıllarınızı oğurlamaq, gözlərinizə daxil olmaq, qulaqlarınıza üfürməkdən əldə etdiyi nəticə budur ki,)* sizi özünün *(həlak və məhvetmə)* oxunun nişangahı, *(zillət və xarlıq)* ayaqaltısı və əl tutacaq yeri edir. Buna görə də *(indi ki, şeytanın təkəbbürlü insanların vasitəsi ilə sizi azdırmasını başa düşdünüz, onlara tabe olmayın və təkəbbür və məğrurluğu öz şüarınız etməyin və)* Allahın cəzalandırmasından və Onun *(nəmrudçular, fironçular və başqaları kimi)* sizdən qabaqkı təkəbbürlülərə gəlib çatmış əzablarından ibrət alın, üzlərinin torpağa atıldığı və böyürlərinin düşdüyü yerlərdən *(qəbirlərdən)* öyüd götürün *(qarşısından pərdələr asılan üzlərin torpağa qoyulmasına və sincab yataqlara qoyulan böyürlərin quru yerə sərilməsinə nəzər salın)* və zəmanənin çətin hadisələrindən Allaha pənah apardığınız kimi, təkəbbür və məğrurluq yaradan şeylərdən də Ona

---

*özlərinə paxıllıq edirlər və Allahın lütf və ehsanının zavala uğramasını istəyirlər.*

[1] *Həqiqi din və imanın bayrağı altında əldə etdiyiniz səadət, xoşbəxtlik və asayişinizi əldən çıxararaq zahirdə İslam donu geyinmiş kimsələrə tabe olmaq nəticəsində fitnə, çaxnaşma, qan axıdılması və bədbəxtliyə düçar oldunuz və buna görə də həmişə narahat və nigaransınız.*

pənah aparın. *(Hətta təkəbbür yaradan amillərdən Allaha pənah aparmaq zəmanənin hadisələrindən Ona pənah aparmaqdan daha mühümdür. Çünki təkəbbür axirət əzab və ağrılarına, zəmanənin hadisələri isə dünya işlərində əzab-əziyyətə səbəb olur və axirət ağrı-acıları daha mühümdür. Ona görə ki, onlardan nicat tapılması qeyri-mümkündür.)*

Əgər Allah, bəndələrindən kiməsə təkəbbürlülük və öyünmək icazəsi versəydi *(bu işi kiməsə rəva bilsəydi)*, bu icazəni Öz peyğəmbərlərinə və dostlarına verərdi. Lakin *(heç kəsi istisna etmədən)* onları təkəbbürlülük və öyünməkdən çəkindirərək onların təvazökarlıq etmələrini bəyənib. Beləliklə, onlar *(da Allahın təvazökarlıq barəsindəki əmr və göstərişinə tabe olaraq itaətkarlıq və təvazökarlığın çoxluğundan)* üzlərini yerə qoyub sifətlərini torpağa sürtdülər və öz *(xidmət və mehribançılıq)* qanadlarını möminlər və Allaha ibadət edənlər üçün aşağı saldılar *(lovğalanaraq öyünmədilər)*. Peyğəmbərlər və Allahın dostları zəif sayılan *(insanlar və dünyatələblərin, öz nəzərlərində zəif və aciz sandıqları)* bir dəstə idilər ki, Allah onları aclıqla sınamışdı, çətinliklərə düçar etmişdi, qorxu yerləri ilə imtahana çəkmişdi və çirkinliklərdən təmizləyərək paklaşdırmışdı. Buna görə də *(peyğəmbərlər və Allahın dostları, dünyanı bu minvalla keçirdikləri üçün)* varlılıq və yoxsulluğun sınaq və imtahan yerlərini bilmədiyiniz üçün Allahın razılıq və qəzəbinin *(meyarının)* var-dövlət və övlad sahibi olmaq olmasını güman etməyin *(ki, var-dövlətə və övlada sahib olmaq Onun razılığının, olmamaq isə qəzəbinin nişanəsi deyil)*. Çünki eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah *(Qurani-Kərimin Muminun surəsinin 55-56-cı ayələrində)* buyurur: « **أَيَحْسَبُونَ أَنَّمَا نُمِدُّهُم بِهِ مِن مَّالٍ وَبَنِينَ نُسَارِعُ لَهُمْ فِي الْخَيْرَاتِ بَل لَّا يَشْعُرُونَ**» «Məgər elə zənn edirlər ki, onlara verdiyimiz mal-dövlət və övladla Biz onların yaxşılıqlarına tələsirik? (Belə deyil) bəlkə şüurları yoxdur və anlamırlar *(ki, onları mal və övladla sınayırıq və günah və itaətsizliklərini nə qədər artırıb onun nəticəsində əzaba düçar olmalarını yoxlamaq üçün onlara möhlət veririk)*». Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah Özünün təkəbbürlü və məğrur bəndələrini onların

gözünə zəif görünən dostları ilə sınayır. *(Bu məsələyə şahid kimi Musa ilə Fironun əhvalatını gətirmək olar.)* Musa ibn İmran onunla birgə olan qardaşı Harunla *(onların hər ikisinə Allahın salamı olsun)* Fironun yanına gəldi. Onların əyinlərində yun paltar, əllərində taxta əsa var idi. Onunla şərt kəsdilər ki, əgər İslamı qəbul *etsə (Allahın birliyini və Musanın peyğəmbərliyini təsdiq etsə)*, padşahlığı davam edəcək və izzət və hörməti öz yerində qalacaq. Firon *(öz tərəfdarlarına)* dedi: Bu iki nəfərə təəccüb etmirsiniz ki, gördüyünüz bu yoxsul və xar vəziyyətdə ola-ola mənimlə möhtərəmliyimin öz yerində qalması və padşahlığımın davam etməsini şərt kəsirlər?! *(Onları məzəmmət edərək camaata dedi: Əgər bu iki nəfər Allah tərəfindən qəliblərsə,)* bəs nə üçün qollarından qızıl bilərziklər asılmayıb? (Qeyd)[1] *(Xülasə, Firon bu sözləri dedi,)* çünki qızılı və onu toplamağı böyük bilərək *(Musa ilə Harunun əynində gördüyü)* yunu və onu geyinməyi xar sandı.

Əgər eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah peyğəmbərlərini göndərəndə onlara qızıl xəzinələri, xalis qızıl mədənləri və hər cür ağac əkilmiş bağlar vermək, eləcə də göyün quşlarını və yerin canlılarını onlara qoşmaq istəsəydi, edərdi bunu. Əgər belə etsəydi, onda sınaq mənasını itirər, əvəz vermək düz olmaz və xəbərlərə *(səmadan gələn xəbərlərə və ilahi tapşırıqlara)* lüzum olmazdı. (Qeyd)[2] Həmçinin onda *(belə bir peyğəmbərin dəvətini)* qəbul

---

[1] *Fironun bu cür danışmasının səbəbi Şeyx Təbərsinin (rəhiməhullah) «Məcməul-bəyan» kitabında dediyi kimi, bu idi ki, həmin dövrdə birini ağa və başçı təyin edəndə onu qızıl bilərzik və boyunbağı ilə bəzəyirdilər.*

[2] *Çünki hər kim bu cür nemət, dəbdəbə və qüdrət ilə Allah tərəfindən bəndələrə göndərilsəydi, heç kəs onun göstərişindən boyun qaçırmazdı və hamı tam təvazökarlıqla onun buyruqlarını yerinə yetirərdi. Belə olan surətdə də gerçək itaətkar və həqiqi günahkar tanınmaz və savab və cəza layiqincə öz yerini tutmazdı.*

edənlərə sınanmışların savabı düşməzdi, (Qeyd)[1] *(həmin peyğəmbərə)* iman gətirənlər yaxşı əməl sahiblərinin savabına layiq olmazdılar *(çünki onların imanları əlacsızlıqdan olub)* və adlar mənalarla uyğun gəlməzdi.[2] (Qeyd) Amma eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah Öz peyğəmbərlərini qəlb və gözləri ehtiyacsızlıqla dolduran qaneçiliklə *(aza razı olmaqla)* və göz və qulaqları əzab-əziyyətlə dolduran yoxsulluq və kasıblıqla, iradə və qərarlarında güclü, gözlərin *(zahiri)* vəziyyətlərindən gördüyü şeydə isə zəif edib. (Qeyd)[3] Əgər peyğəmbərlər heç kəsin onlara hakim olmaq niyyətinə düşə bilmədiyi qüvvəyə, zülmə məruz qalmamaları həddə ağalığa və insanların boylanacaqları səltənət və padşahlığa malik olsaydılar və *(onların dəbdəbələrini görmək üçün)* dəvələrin palanlarının düyünləri bağlansaydı *(camaat dünyanın hər tərəfindən səfər edib onların yanına köçsəydi)*, bu, insanlar üçün ibrət götürmələrində *(tabe olmalarında)* daha asan olardı və onlar öyünmək və təkəbbürlülükdən daha uzaq olardılar *(heç vaxt heç bir kəs onlarla müxalifət etməzdi)*. İnsanlar onlara hakim olan qorxu və ya onları meylli edən rəğbət və istəyə görə iman gətirərdilər. Onda *(belə olan surətdə)* niyyətlər saf olmazdı və yaxşılıqlar *(ibadətlər)* bölünmüş *(bir hissəsi dünya, bir hissəsi isə axirət üçün)* olardı. Amma eyb və nöqsan

---

*[1] Çünki belə bir peyğəmbərə tabe olmaq, sınanmışların savab və mükafatının nəsib olmasına səbəb olan imtahan yolu ilə deyil, tamah, hərislik və ya qorxuya görədir.*

*[2] Çünki hərislik və qorxu üzündən olan İslam, iman və təvazökarlıq bu adlarla adlanmalarına baxmayaraq, həqiqi olmadıqları üçün mənaları ilə uyğun gəlmirlər. Buna görə də Allah peyğəmbərləri bu cür böyüklük, dəbdəbə və qüdrət ilə göndərməyib.*

*[3] Hər hansı bir düşüncə sahibi onların barəsində fikirləşsə, görər və başa düşər ki, onlar digər yoxsullar kimi dünya nakamlıqlarından qəm-qüssədə deyildirlər, bəlkə qəlbləri qane olmaq və razılıqla güclü və zəngin olan həqiqi varlılardırlar. Həmçinin hər kim onların pərişan hallarını görür və eşidirdisə, zahirdə pərişan, dağınıq və möhtac göründükləri üçün kədərlənirdi.*

sifətlərdən pak və uzaq olan Allah belə istəyib ki, peyğəmbərlərə tabe olmaq, kitabları təsdiq etmək, Onun zatı müqabilində əyilmək, əmrinə təslim olmaq və itaət və bəndəliyinə boyun qoymaq ancaq Ona görə olan işlər olsunlar və onlara özlərindən başqa heç bir eyb *(istək, qorxu, riya, özünü göstərmək və sairə)* qarışmasın. *(Bu, imtahan və sınağın böyüklüyünə görədir. Odur ki,)* imtahan və sınaq hər nə qədər böyük olsa, savab və mükafat da bir o qədər çoxdur.

Məgər eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın keçmişləri, Adəmin *(Allahın salam və salavatı olsun ona)* zamanından bu dünyanın son nəfərinə kimi, nə ziyanı olan və nə də xeyir verən, nə görən və nə də eşidən *(müqəddəs Kəbənin tikildiyi)* daşlarla sınadığını görmürsünüz?! Beləliklə, həmin daşları Özünün «Beytul-haram»ı *(müşriklərin ora daxil olmalarını, eləcə də ona sığınmış kəsi oradan çıxarmağı haram buyurduğu möhtərəm evi)* etdi. Ora Allahın insanlar üçün dikəltdiyi bir evdir *(onların toplaşdıqları və həm dünya, həm də axirət xeyirlərinə olan bir məkandır)*. Sonra onu yerin daşlıq olmaq baxımından ən çətinində, dünyanın yüksək yerlərinin ən az kəsək və torpağı olanında və dərələrin yerin bir tərəfində qərar tutan ən darında yerləşdirdi. *(Həmin evi)* nahamar dağlar, narın qumlar, suyu az çeşmələr və *(su, ot və münasib havası olmadığı üçün)* nə dəvə, nə at və nə də inək və qoyunu kökəlməyən bir-birindən uzaq kəndlərin arasında *(yerləşdirdi)*. Sonra Adəm əleyhis-salama və onun övladlarına ona tərəf yollanmalarını, üz tutmalarını əmr etdi. Beləliklə, «Beytul-haram» onların səfərlərinin xeyirvermə yeri və yüklərinin düşürülmə məkanına çevrildi. *(Həccin vacibi əməllərini yerinə yetirmək nəticəsində qazandıqları axirət xeyrindən əlavə, oranın onlar üçün dünya mənfəəti də vardır.)* Könüllərin meyvələri abadlıqdan uzaq otsuz-susuz çöllüklərdən, enişli dərələrin yüksəkliklərindən, dənizlərin *(əhatəyə alması nəticəsində yerin digər hissələrindən)* ayrı düşmüş adalarından həmin evə düşər *(səfalı insanlar orada toplaşaraq bir-birlərindən mənəvi mənfəətlər əldə edərlər)*. *(Onlar uzaq yerlərdən səfər edərək*

*çox çətinliklə ora çatarlar)* və nəhayət, *(«səy» əməli və təvafda)* tam itaətkarlıq və təvazökarlıqla öz çiyinlərini tərpədərlər, evin kənarında «təhlil» *(la ilahə illəllah)* deyərlər. Allahın razılığını əldə etmək üçün saçı pıtlaşıq və üzü toz-torpağa bulaşmış halda «hərvələ» edərlər *(tələsik yeriyərlər)*. Paltarlarını arxaya atıblar *(həmişə geyindikləri paltarı əyinlərindən çıxarıb «ehram» paltarı geyiniblər)*. Saçlarını qırxmamaları və onların çoxalmaları nəticəsində öz yaradılışlarının gözəlliklərini *(məhbuslar kimi)* çirkinləşdiriblər. Allah onları *(«Beytul-haram»ın ziyarətində bu əməllərlə)* imtahan edib. Elə bir böyük, çətin, aşkar və kamil imtahan ki, onu Öz rəhmətinin əldə edilməsi və Cənnətinə çatmaq amili edib. Əgər eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah Özünün hörmətli evini və böyük ibadətgahlarını bağlarda, arxlarda, sıx ağaclı, meyvələri əlçatan və binaları bir-birinə birləşmiş yumşaq və hamar yerdə, yaxın kəndlərdə, qırmızıyanaq buğda və yaşıl çəmənliklər arasında, gül-çiçəkli ot dolu yerlərdə, təravətli zəmilərdə və abad yollarda yerləşdirmək istəsəydi, onda mükafatın miqdarını imtahanın azlığına uyğun şəkildə az edərdi. Əgər evin təməli və tikildiyi daşlar yaşıl zümrüd və qırmızı yaqutdan, eləcə də nurlu və parıltılı olsaydı, belə bir bina könüllərdə şəkkin çəkişməsini azaldar, şeytanın səy və təlaşını qəlblərdən silər və xalqdan tərəddüd iztirabını və nigarançılığını uzaqlaşdırardı. Lakin Allah, təkəbbür və məğrurluğu qəlblərdən çıxarmaq və təvazökarlığı canlara yerləşdirmək üçün bəndələrini müxtəlif çətinliklərlə sınayır, onlardan növbənöv çalışqanlıqlarla bəndəlik etmələrini istəyir və onları təbiətən xoşlanılmayan şeylərlə imtahan edir ki, həmin imtahanı Öz lütf və fəzlinə açılmış qapı və əfv və bağışlamasının asan vasitələri etsin.

Odur ki, dünyada fitnə-fəsad törətmək *(onun cəzası)*, axirətdə zülmün ziyanı və məğrurluq və təkəbbürlülüyün pis nəticəsi barəsində Allahdan qorxun, Allahdan qorxun! Çünki fitnə-fəsad, zülm və məğrurluq şeytanın ən böyük

tələ və hiyləsidir. O, elə bir hiylədir ki, öldürücü zəhər kimi insanların qəlbinə daxil olur *(və onları məhv edir)*. Buna görə də şeytan heç vaxt aciz qalmır və heç kəsin - nə elminə görə alimin, nə də köhnə paltarına görə yoxsulun - ölüm yerini səhv salmır. (Qeyd)[1] Allah mömin bəndələrinin əl, ayaq və digər üzvlərinin *(günah və itaətsizlikdən)* dinc qalması, gözlərini yerə dikmələri, canlarının təvazökarlığı, qəlblərinin xarlığı və təkəbbür və lovğalığı onlardan uzaqlaşdırmaq üçün onları namazlar, zəkatlar və vacib günlərdə oruc tutmağa çalışmaq vasitəsi ilə fitnə-fəsad, zülm və təkəbbürlülükdən qoruyur. Çünki gözəl üzlərin təvazökarlığa görə torpağa sürtülməsi və kiçikliyi bildirmək üçün *(səcdə zamanı)* şərəfli üzvlərin *(yeddi yerin)* yerə yapışdırılması namazdadır. Özünü kiçiltmək və heç bilmək üçün qarınların bellərə yapışması orucdadır. Həmçinin yerin meyvələrini *(arpa, buğda, xurma və kişmişi)* və ondan başqasını *(dəvə, inək, qoyun, qızıl və gümüşü)* yoxsul və fağırlara vermək zəkatdadır. Bu ibadətlərin aşkar öyünmələri və özünü yekə tutmaqları necə xar etmək və *(dünya bədbəxtliyi və axirət əzabına səbəb olan)* aydın təkəbbür və məğrurluqları aradan qaldırmaq kimi mənfəətlərinə nəzər salın. *(İmam əleyhis-salam burada Kufə əhlini fitnə-fəsad və zülmə səbəb olan yersiz təəssübkeşlik və məğrurluğa görə məzəmmət edərək buyurur:)*

Mən *(insanların hallarına)* nəzər saldım. İnsanlardan sizdən başqa bir şeyə görə təəssübkeşlik və təkəbbürlük edən elə birisini tapmadım ki, *(heç olmasa)* nadanların səhvə düçar olmalarını əhatə edən səbəbə və ya səfeh və qanmazların ağıl və fikirləri ilə uyğun gələn dəlilə əsaslanmamış olsun. (Qeyd)[2] Amma siz elə bir işə görə təəssübkeşlik və

---

[1] *Alim öz elmi və yoxsul öz kasıblığı ilə şeytanın hiylələrindən olan bu çirkinliklərdən qurtula bilmir. Onda nadan və varlı necə xatircəm ola bilər?*

[2] *Xülasə, onların təəssübkeşləri əslində səhv olan səbəb və dəlilə əsaslanırdı və onlar nadanlıq və ağılsızlıqları ucbatından özlərinin zahirdə düz və doğru olmalarını güman edirdilər.*

təkəbbürlülük edirsiniz *(bir-birinizə öyünürsünüz)* ki, *(heç zahirdə, nadan və ağılsızların yanında da)* ona bir səbəb və dəlil tapılmır. Şeytan *(oddan olan)* əslinə görə Adəmə qarşı təəssübkeşlik və məğrurluq etdi və onu xilqət və yaradılışında məzəmmət edərək dedi: Mən oddanam, sən isə palçıqdansan. *(Buna görə də nadanın gözündə təəssübkeşliyə dəlil ola bilən səbəbdən təəssübkeşlik və məğrurluq etdi.)* Ümmətlərin çoxlu nemətlər içərisində olan və istədikləri kef və ləzzətlərdən bəhrələnən varlıları nemətlər *(var-dövlət, övladlar və əl altında olanların onları böyük saymaları)* səbəbindən təəssübkeşlik və təkəbbürlülük etdilər. Beləliklə, (Qeyd)[1] dedilər: «Bizim mal-dövlətimiz və övladımız *(sizinkindən)* daha çoxdur və bizə əzab da verilməyəcəkdir.» (Qeyd)[2] Buna görə də əgər təəssübkeşlik və təkəbbürlülükdən başqa bir çıxış yolunuz yoxdursa, onda gərək sizin təəssübkeşliyiniz nəcib sifətlər, bəyənilən işlər və gözəl şeylər - ərəb sülalələri və qəbilə başçılarından olan böyüklərin və igidlərin rəğbət göstərilən xislətlər, böyük ağıllar, yüksək məqamlar və xoşagələn sifətlər vasitəsi ilə onda bir-birlərini üstələməyə çalışdıqları sifət, iş və şeylər - üçün olsun. Odur ki, qonşunun haqqına riayət etmək, əhd-peymana vəfa etmək, yaxşılara tabe olmaq, təkəbbürlülərə qarşı çıxmaq, yaxşılığı *(yaxşı işi)* götürmək, zülmdən əl çəkmək, qan tökməyi *(onun günahını)* böyük bilmək, xalqla ədalətli və insaflı olmaq, qəzəbi boğmaq və yer üzündə

---

[1] *Qurani-Kərimin Səbə surəsinin 34-35-ci ayələrində deyildiyi kimi:* « **وَمَا أَرْسَلْنَا فِي قَرْيَةٍ مِّن نَّذِيرٍ إِلَّا قَالَ مُتْرَفُوهَا إِنَّا بِمَا أُرْسِلْتُم بِهِ كَافِرُونَ وَقَالُوا نَحْنُ أَكْثَرُ أَمْوَالًا وَأَوْلَادًا وَمَا نَحْنُ بِمُعَذَّبِينَ** » *«Biz hər hansı bir məmləkətə qorxudan bir peyğəməbər göndərdiksə, onun naz-nemət içində yaşayan zəngin başçıları ancaq: «Biz sizinlə göndərilənləri inkar edirik!» dedilər.*

[2] *Allah bizi dünyada saysız-hesabsız nemətlərdən bəhrələndirdiyi kimi axirətdə də bizə əzab verməyəcəkdir. Xülasə, siz Kufə əhalisi hansı dəlil və sübuta əsasən təəssübkeşlik edir, təkəbbür göstərirsiniz? Bəlkə siz də şeytan kimi öz yaradılışınızı daha üstün hesab edirsiniz? Yoxsa zənginliklər və naz-nemət içində yaşayan kimsələr kimi öz var-dövlət və övladlarınızla öyünürsünüz?*

fitnə-fəsad törətməkdən çəkinmək kimi tərifə layiq xislətlər üçün təəssübkeşlik edin.

Çirkin və pis əməllərinə görə sizdən qabaqkı ümmətlərə gəlmiş əzab və çətinliklərdən qorxun! Onların başlarına gələnləri (öz) xeyir-şərinizdə yad edin *(hansı işin nəticəsinin nə olmasına nəzər salın)*. Onlar kimi olmaqdan çəkinin *(ki, pis əməl və çirkin danışıqlara görə siz də əzab və çətinliyə düçar olarsınız)*. Onların iki *(yaxşı və pis)* hallarının fərqləri barəsində düşündükdən sonra *(xeyirli və yaxşı yola qədəm qoyun və)* vasitəsi ilə hörmətli və izzətli olduqları, düşmənləri onlardan dəf edən, salamat qalmalarına və nemət və rahatlıqlarının artmasına səbəb olmuş, *(birlik)* iplərini kəramət və böyüklüyə birləşdirmiş işi - parçalanmadan *(nifaq və ikiüzlülükdən)* çəkinmələri, mehribanlıqları *(vəhdət və birlikləri)* və bir-birlərini mehribanlığa *(həmrəylik və yekdilliyə)* həvəsləndirərək tövsiyə etmələrini-seçin.[1] Həmçinin *(şər və pis yola ayaq basmayın və)* qəlblərdə kin bəsləmək, sinələrdə düşmənçilik daşımaq, insanların bir-birlərinə arxa çevirmələri və əllərin bir-birinə kömək etməməsi səbəbindən keçmişlərin bel fəqərə sümüyünü sındırmış və güclərini süstləşdirmiş hər bir işdən uzaq olun. Eləcə də sizdən qabaqkı möminlərin *(Bəni-İsraildən və digər tayfalardan olan imanlıların)* vəziyyətləri, sınaq zamanı və əziyyət çəkərkən necə olmaları barəsində düşünün. Məgər onlar digər insanlardan daha ağır vəziyyətdə *(cəfa içərisində)*, başqalarından daha çox əziyyət çəkən deyildilər və həyatları dünya əhlindən daha sıxıntılı deyildi?! Fironlar onları nökər və qulluqçu edirdilər, əzabın çətinliyini onlara daddırırdılar *(oğullarının başını kəsir, qızlarını saxlayırdılar)* və acılığı onlara qurtum-qurtum içirdirdilər *(əzab-əziyyətin ən son həddinə düçar etmişdilər onları. Onların bir dəstəsi fironların nökərləri, digər bir dəstəsi isə əkinçiləri idilər. Əlindən heç bir iş*

---

[1] *Onların hörmətli olmalarına, düşmənin dəf olmasına, salamat və asudə qalmalarına, nemət və rahatlığa layiq görülmələrinə və birlik ipinin möhkəmlənməsinə səbəb olan iş bunlardır.*

*gəlməyəndən isə bac alırdılar)*. Buna görə də onlar həmişə həlakolma xarlığı və hökm *(fironların hökmü)* altında və istismar vəziyyətində idilər. *(Fironların əmrlərindən)* boyun qaçırmaq üçün çarə və *(onların zülmlərindən)* müdafiə üçün yol tapmırdılar. Nəhayət, Allah onların Onun məhəbbəti yolunda əziyyətlərə səbr etməkdə çalışqanlıq göstərmələrini və Ondan qorxduqları üçün iyrəncliklərə dözmələrini nəzərə aldı. Onları ağır çətinliklərdən xilas etdi və onlara xarlıq və həqirliyin əvəzində izzət və möhtərəmlik, qorxunun əvəzinə dinclik əta etdi. Beləliklə, əmr verən hökmdarlar və yol göstərən rəhbərlər oldular. Allah tərəfindən onlara arzusunda olduqlarından da çox izzət və böyüklük bağışlanıldı. (Qeyd)[1] Beləliklə, cəmiyyətləri bir yerə toplaşanda, fikirlər birgə, qəlblər bir, əllər bir-birinə yardımçı, qılınclar bir-birinə kömək, uzaqgörənliklər dərin və qərarlar yekdil olanda onların necə olmalarına nəzər salın. Məgər yer üzünün *(şəhərlərin)* böyüyü və insanların hər şeyinin ağası deyildilər?! Sonra onların işlərinin *(kef çəkmələrinin)* axırında *(aralarında)* parçalanma yarananda, mehribanlıq və birlikləri bir-birinə dəyəndə, sözləri ilə qəlbləri arasında fərq yarananda, dəstə-dəstə olub bir-birlərinin canına düşəndə və bölünərək bir-birləri ilə vuruşanda düçar olduqları şeyə *(çətinliklərə)* nəzər salın. Allah *(həmin çirkin əməllərinə görə, Buxtunəsr və digər zalımlar vasitəsi ilə)* izzət və böyüklük libasını onların əyinlərindən çıxartdı, nemət bolluğunu onlardan aldı və sizin öyüd

---

[1] *Elə bir məqam və dərəcəyə çatdılar ki, onu heç zehnlərindən belə keçirməmişdilər. Necə ki, Qurani-Kərimin Bəqərə surəsinin 47-ci ayəsində buyurulur:* « **يَا بَنِي إِسْرَائِيلَ اذْكُرُواْ نِعْمَتِيَ الَّتِي أَنْعَمْتُ عَلَيْكُمْ وَأَنِّي فَضَّلْتُكُمْ عَلَى الْعَالَمِينَ**» *«Ey İsrail övladı! Sizə bəxş etdiyim nemətlərimi və sizi (zamanınızda olan) bütün insanlardan üstün etdiyimi yadınıza salın!» Onların üstünlükləri dənizi onlar üçün yarması, onları fironçuların əlindən xilas etməsi, düşmənlərini məhv etməsi, şəhər və mal-dövlətlərini özlərinə qaytarması, onlara «Tövrat»ı nazil etməsi və digər nemətlər idi.*

götürənlərinizin ibrət almaları üçün onların başlarına gələnlərin əhvalatı aranızda qaldı.

Həmçinin *(Zəbih)* İsmayılın övladlarının, *(İbrahim Xəlilin oğlu)* İshaqın oğullarının və İsrail övladının *(Yaqub ibn İshaqın)* əleyhimus-salam-başlarına gələnlərdən ibrət götürün ki, sərgüzəştlər *(hər bir əsrin insanlarının sərgüzəştləri)* necə də bir-birinə uyğun və əhvalatlar *(bir-birinə)* necə də yaxındır! *(Yəni, sizin vəziyyətinizlə keçmişlərin vəziyyətləri bir-birinə oxşayır. Buna görə də yaxşı olar ki, onların əhvalatlarından ibrət götürəsiniz.)* Onların Kəsralar *(əcəm şahları)* və Qeysərlər *(Rum şahları)* onlara ağalıq edib hakim olan gecələrdəki *(zamanlardakı)* sərgüzəştləri, parçalanma və bir-birlərindən ayrılmalarının necəliyi barədə fikrə dalın və düşünün. Onları əkin yerlərindən *(abadlıqlardan)*, İraq çaylarından *(Dəclə-Fəratdan)* və dünyanın yaşıllıqlarından yovşan bitən, bərk küləklər əsən və yaşayış çətin olan yerlərə qovdular. *(Onları otsuz-susuz və abadlıqdan uzaq olan çöllüklərə göndərdilər.)* Beləliklə, onları yoxsul, kasıb və yaraya və dəvə tükünə yoldaş halda tərk etdilər *(dəvə otaran etdilər)*. Onlar ev və məskən baxımından tayfaların ən həqiri və oturaq salma baxımından ən bədbəxti idilər *(yaşadıqları yerlərin nə suyu var idi, nə də otu)*. Nə bir başçının ətrafına toplaşırdılar ki, ona sığınsınlar *(bu bədbəxtlik və çətinlikdən nicat tapmaları üçün onları bir dinə dəvət edərək bir iş ətrafına toplayacaq bir kimsə yox idi)*, nə də dostluq və mehribanlığın kölgəsi altına yığışırdılar ki, onun izzət və böyüklüyünə arxalansınlar *(etimad edərək rahatlanmaları üçün bir başçı və rəhbərləri yox idi)*. Beləliklə, nigaran vəziyyət, ixtilaflı əllər *(bir-biri ilə yoldaşlıq etmədən)* və parçalanmanın çoxluğu ilə ağır çətinlik və qızları diri-diri torpağa basdırmaq, bütlərə sitayiş, qohumlardan uzaqlıq və hər bir yolda soyğunçuluq etmək kimi cəhalət və nadanlıq içərisində idilər.

Sonra da, Allahın, onlara peyğəmbər *(peyğəmbərlərin sonuncusu Həzrət Məhəmmədi-səlləllahu əleyhi və alih-)* göndərdiyi, onları onun şəriətinə tabe etdiyi və həmin peyğəmbərin

dəvəti ilə onları toplayaraq bir-biri ilə mehribanlaşdırdığı zaman onlara verdiyi nemətlərinə nəzər salın. Baxın ki, nemət və rahatlıq özünün kəramət qanadlarını onların üzərinə necə sərdi, onlar üçün rifah və bolluq çaylarını necə rəvan etdi və şəriət *(o Həzrətin şəriəti)* onları öz bərəkətli xeyirlərində necə topladı. Beləliklə, *(xoşbəxtlik, möhtərəmlik və asayişin son yüksək həddini onlara tədarük gördüyü üçün)* onun nemətində qərq oldular və onun həyatının ləzzətindən məmnun qaldılar. Həyatları qalib şahın *(müqəddəs İslam dininin)* kölgəsində quruldu və vəziyyətlərinin yaxşılığı onları böyüklük və qələbənin kənarında yerləşdirdi. Qüdrətli şahlığın ucalığı sayəsində işlər onlara asanlaşdı *(dünya və axirət səadəti üz tutdu onlara)*. Beləliklə, onlar aləmdə olanlara fərman verənlər və yerlərin *(şəhərlərin)* şahları idilər. Onlara hakim olmuşlara hakim oldular və onlara əmr verənlərə əmrlər verirdilər. Onlara nizə atılmır, daş tullanmırdı!! *(İslam dini onlara elə bir güc və qüdrət verdi ki, dünyanın işlərinin idarəçiləri və aləmdə olanlara hakim oldular və heç kəs onlara hakim ola bilmirdi.)*

Bilin ki, siz *(yaranmışların ən xeyirlisi olan Həzrət Peyğəmbərin şəriətinə iman gətirmək nəticəsində izzət və şərəf tapdıqdan sonra)* əllərinizi itaət və tabeçilik kəndirindən çəkdiniz *(Allahdan və Peyğəmbərdən üz çevirərək uzaqlaşdınız)*, Allahın ətrafınıza çəkilmiş hasarında cahiliyyət hökmləri *(İslamdan qabaqkı dövrün adətləri)* ilə uçuq yaratdınız *(öz imam və rəhbərinizə itaət etmədiniz və onun nəticəsində öz dünya və axirətinizi bərbad etdiniz)*. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah, bu ümmətin boynuna aralarında yaratdığı, kölgəsinə daxil olduqları və kənarında qərar tapdıqları bu ülfət və mehribançılıq bağlantısında qiymətini, yaratdıqlarından heç bir kəsin bilmədiyi bir nemətlə *(ülfətə səbəb olan din ilə)* haqq qoyub *(zəhmətə qatlaşmadan nemət verib)*. Çünki qarşılıqlı ülfət və mehribanlığın dəyəri hər bir qiymətdən artıq və hər bir böyüklükdən böyükdür. *(Ona görə ki, ülfət və birliklə dünya və axirət səadəti və xoşbəxtliyi əldə edilir.)* Bilin ki, siz hicrətdən

sonra *(nadanlıq və azğınlıqdan bilik və hidayətə nail oldunuz və sonra bir daha təəssübkeşlik, məğrurluq, bir-birinizlə düşmənçilik və fitnə və çaxnaşma yaratmaq səbəbindən)* bədəvi ərəb *(nadanlıq və azğınlıq çölçüləri)* oldunuz. Həmçinin dostluqdan *(bir yerə toplaşdıqdan)* sonra *(bir-birinə müxalif və düşmən olan)* dəstələrə parçalandınız. İslamla, onun adından başqa heç bir əlaqə və bağlılığınız yoxdur. İmandan, onun nişanəsindən başqa bir şey tanımırsınız!! *(Ancaq dildə kəlmeyi şəhadətləri deyirsiniz. Amma İslamın hökmlərindən bir şey öyrənməmisiniz və həmçinin imanın həqiqətini dərk etməmisiniz.)* Deyirsiniz ki: «Oda gedərik, amma xarlığa razı olmarıq»?! *(«اَلنّارَ وَ لاَ الْعارَ» «Oda gedərik, amma xarlığa razı olmarıq» məsəlini zillət və xarlığa boyun əyməyən kəslər deyirlər. Bu məsəl haqq barəsində deyilsə, çox gözəldir. Amma əgər batil və nahaq barəsində deyilsə, səhvdir. Əgər Kufə əhlinin məqsədi o Həzrət olmuş olsa və ya onlarla Şam əhlinin məqsədləri ümumi müraciət olmuş olsa, bu, fitnə, qalmaqal və İslamın göstərişlərinə ziddir. Buna görə də İmam əleyhis-salam onları məzəmmət edərək sözlərini davam edir:)* Sanki siz İslamın hörmət pərdəsini yırtmaq və peymanını sındırmaqla *(hökm və şərtlərinə əməl etməməklə)* onu başıaşağı və tərsinə çevirmək *(məhv etmək)* istəyirsiniz *(necə ki, kafir, münafiq və düşmənlər onu məhv etmək niyyətindədirlər)*. Elə bir peymanı ki, Allah, onu yer üzündə *(düşmənlərin hücum edərək sizə hakim olmalarının qarşısında)* sizin üçün sığınacaq və yaratdıqları arasında *(onların iztirab və nigarançılıqlarını aradan qaldırmaq üçün)* əmin-amanlıq və rahatlıq *(vasitəsi) edib (ki, bəşəriyyət hər hansı bir işdə çarəsiz qalanda və əli bütün yollardan üzüləndə İslamın peymanına, yəni, onun hökm və göstərişlərinə üz tutub tabe olsun)*. Əgər siz *(belə bir dinə malik olmağınıza baxmayaraq,)* İslamdan qeyrisinə sığınsanız *(öz şücaətinizə, cəmiyyət və qohum-əqrabalarınızın çoxluğuna arxalanaraq onun hökmlərinə tabe olmayıb göstərişlərinə hörmətlə yanaşmasanız)*, kafirlər sizinlə vuruşacaqlar. Həmin vaxt Cəbrail, Mikail, Mühacirlər və Ənsar da olmayacaq ki, sizə kömək etsin *(necə ki, Həzrət Peyğəmbərin - səlləllahu əleyhi və alih - zamanında edirdilər)*. Allah aranızda *(qələbənin hansınıza nəsib olması barəsində)* hökm çıxarana kimi *(heç bir kömək olmadan)* ancaq qılınc ilə vuruşacaqsınız. Allahın *(keçmiş ümmətlərə olan)*

əzabı, *(qəlbləri)* sıxan və ağrıdan bəla və çətinlikləri, *(qəzəb)* dövranlar*(ı)* və *(çarəsi olmayan)* hadisələri barəsindəki məsəl və sərgüzəştləri əliniz altındadır. *(Allah Qurani-Kərimdə Nuh, Ad, Səmud və digər tayfaların sərgüzəştlərini bəyan edib.)* Buna görə də Allahın məsuliyyətə alacağına nadan olmağınız, bərkə çəkməsini yüngül saymağınız və əzabına düçar olmamağınız səbəbindən Onun əzabını*(n gəlib çatmasını)* uzaq sanmayın. (Qeyd)[1] Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah, keçmiş ümmətləri onların «əmr be məruf və nəhy əz munkər»i tərk etmələrindən ayrı bir səbəbdən Öz rəhmindən uzaqlaşdırmayıb. *(Onlar bir-birlərinə yaxşı işlər görməyi əmr etmir, nalayiq əməllərdən çəkindirmirdilər.)* Odur ki, Allah ağılsız və qanmazları günah etdiklərinə, ağıllıları isə pisliklərdən çəkindirmədiklərinə görə lənətləyib *(Öz rəhmindən uzaqlaşdıraraq ağır əzaba düçar edib).*

Bilin ki, siz İslamın bağını qırdınız *(təəssübkeşlik və məğrurluq ilə ülfət və dostluğa göz yumaraq bir-birinizlə düşmənçilik etdiniz)*, onun hüdudlarını tərk etdiniz *(müəyyənləşdirdiyi vəzifələrə əməl etmədiniz)* və hökmlərini *(xüsusilə hökmlərinin ən böyük və mühümü olan «əmr be məruf və nəhy əz münkər»i)* aradan qaldırdınız. *(Amma mən ki, sizin itaət etməyiniz vacib olan imam və rəhbərinizəm və Həzrət Peyğəmbərə - səlləllahu əleyhi və alih-ən yaxın adam olmuşam, məmur edildiyim şey əsasında davranıram. Buna görə də)* bilin ki, Allah mənə zülmkarlar, əhdini sındıranlar və yer üzündə fitnə-fəsad törədənlərlə vuruşmağı əmr edib. Odur ki, əhdini pozanlarla *(Cəməl əhli olan Təlhə, Zübeyr və onların tərəfdarları ilə)* vuruşdum *(və onları diz çökdürdüm)*, haqdan əl götürənlərlə *(Şam əhli ilə)* cihad edərək döyüşdüm və dindən xaric olanlara *(Nəhrəvan Xəvaricinə)* qəzəb edərək onları xar və zəlil etdim. Rədhə şeytanına (Qeyd)[2]

---

[1] *Çünki ilahi hikmət günahkarların əzablarının təxirə düşməsini tələb edir ki, yaxşılar tövbə edərək pis əməllərdən qayıtsınlar və zalımlar öz bədbəxtliklərini daha da aşkar etsinlər.*

[2] *Məqsəd Nəhrəvan Xəvaricinin başçılarından biri olmuş Sərmələ və ya Zussudəyyə ləqəbli Hurqus ibn Züheyrdir. Ona bu ləqəbin verilməsinin*

gəldikdə isə: *(vuruşmaq və öldürmək əvəzinə)* onun barəsində nəticəsində ürəyinin döyüntüsünü və sinəsinin titrəməsini eşitdiyim qorxunc bir nərə ilə kifayətləndim. (Qeyd)[1] Əgər Allah izn versə *(istəsə və mən sağ qalsam)*, ikinci dəfə zalımlardan *(Əmr ibn Asın hiylə və kələyi ilə Quranları nizələrin başına sancıb Siffeyn müharibəsini dayandıran Müaviyə və onun ətrafındakılarından)* yerdə qalanlara tərəf gedəndə, şəhərlərin kənarlarına dağılanlar istisna olmaqla, dövləti və qüdrəti onlardan alacağam *(və hamısını məhv edəcəyəm). (O Həzrət burada öz şücaət, qəhrəmanlıq, məqam, dərəcə və böyüklüyünü xatırladaraq buyurur:)*

Mən uşaqlıqda ərəbin kürəyini yerə vurmuşam *(İslamın ilkin çağlarında onların böyüklərini öldürmüşəm)* və Rəbiə və Muzərin *(bu qəbilələrin)* yeni yetişmiş budaqlarını *(igidlərini)* sındırmışam. Siz mənim Həzrət Peyğəmbərin *(səlləllahu əleyhi və alih)* yanında yaxın qohumluq *(əmioğluluq və kürəkənlik)*, yüksək məqam və xüsusi ehtiram səbəbindən

---

*səbəbi bir əlinin arvadların döşləri kimi olmasıdır. Bəziləri onun ləqəbini Zülyudəyyə oxuyublar, yəni, bir əli kiçik olan.*

[1] *«رَدْهَة» «Rədhə»nin lüğətdə mənası dağda və ya sərt daşda yağış suyu yığılan çuxurdur. İmamın onu şeytan adlandırmasının səbəbi həmin şəxsin özünün azğın olması və azğın insanların başçısı olmasıdır. Onun Rədhəyə nisbət verilməsinin səbəbi isə budur ki, İmam əleyhis-salam Nəhrəvan Xəvarici ilə müharibəni qurtardıqdan sonra onu ölülər arasınıda tapmaq istəyir. Çox axtarışdan sonra onu bir çuxura düşmüş tapır. Xütbənin ərəb dilindəki əslində işlənmiş və vahiməli və qorxunc mənasını verən «صَعْقَة» «səqə» kəlməsindən məqsəd isə rəvayətdə nəql edilmiş bu mənadır ki: O Həzrət Xəvaric ilə qarşı-qarşıya gələndə bir nərə və fəryad qoparıb və Zussudəyyə qorxub qaçanlardan biri olub. Sonradan onun cəsədi bir çuxurun içindən tapılıb. Bəziləri də deyiblər ki, Allah onu ildırım ilə öldürüb. Bəziləri isə deyiblər ki, o Həzrət Zussudəyyəyə bir qılınc vuran kimi o özündən gedərək ölüb. Digər bir dəstə isə deyib ki: Rədhə şeytanı şeytanın övladlarından biridir. Başqa birisi isə deyib ki: Rədhə cinlərin şeytanıdır. Lakin İmam əleyhis-salamın kəlamının zahirinə və onun deyilmə məqamına diqqət etdikdən sonra bu nöqtə məlum olur ki, Rədhə şeytanından məqsəd xəvaricin başçılarından biridir və o, o Həzrətin nərəsindən qorxub qaçıb və meyidi çuxurdan tapılıb. Daha yaxşısını isə Allah bilir.*

olan qədir-qiymət və dərəcəmi bilirsiniz *(ki, mən o Həzrətin yanında belə böyük bir hörmət və məqama malik idim və məni xilafətə təyin etmişdi).* O məni uşaqlıqdan öz yanında böyüdüb. O məni sinəsinə sıxar, yatanda qucağına alar, bədənini bədənimə sürtər, öz xoş ətrini mənə iylədər, *(ata öz övladına etdiyi kimi)* ağzıma çeynənmiş yemək qoyardı. O mənim sözümdə yalan, əməlimdə səhv və xəta tapmadı. (Qeyd)[1] Peyğəmbər *(səlləllahu əleyhi və alih)* süddən ayrılandan sonra Allah mələklərinin ən böyüyünü o Həzrətə yoldaş etdi ki, gecə-gündüz onu nəciblik yollarına və dünyanın gözəl xislətlərinə doğru yönəltsin. (Qeyd)[2] Mən dəvə balası anasının dalına düşüb getdiyi kimi onun arxasınca gedirdim. (Qeyd)[3] O, hər gün öz xislətlərindən bir bayraq və əlamət ucaldır *(biruzə verir)* və mənə ona yiyələnməyi əmr edirdi. *(Peyğəmbərliyə təyin edilməmişdən qabaq)* hər il *(bir ay insanlardan uzaqlaşaraq ibadət və bəndəliklə məşğul olmaq üçün Məkkə yaxınlığındakı dağlardan biri olan)* Hirada məskunlaşardı. Həmin müddətdə mən onu görərdim və onu məndən qeyrisi görməzdi. Həmin zamanda İslam Allahın Peyğəmbərinin *(səlləllahu əleyhi və alih)* və *(o Həzrətin arvadı)*

---

*[1] Çünki İmamiyyə alimlərinin yekdil nəzərinə əsasən o Həzrət, Həzrət Zəhra və onların on bir övladının hamısı (onların hamısına Allahın salamı olsun) məsumdurlar və onlardan nə qəsdən, nə də səhvən, nə böyük, nə də kiçik günah baş verməz.*

*[2] Rəvayətlərdən məlum olur ki, həmin mələk Cəbrail və Mikaildan da böyük olan Ruhulqudsdur. O həmişə Həzrət Peyğəmbərlə bir yerdə olub və ondan sonra da pak imamlar əleyhimus-salamlarladır.*

*[3] Mən gecə-gündüz, aşkar və gizlində o Həzrətlə bir yerdə olurdum və heç vaxt ondan ayrılmırdım. İbn Əbil Hədid öz şərhində yazır: Fəzl ibn Abbas deyir: Atamdan soruşdum ki: Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) oğlanlarından hansını daha çox istəyirdi? Dedi: Əli ibn Əbu Talibi. Dedim: Mən səndən onun oğullarını soruşuram. Dedi: Onu oğlanlarının hamısından çox istəyirdi. Əli əleyhis-salamın uşaqlıqdan bir gün belə o Həzrətdən ayrılmasını görməmişəm, Xədicə üçün səfərə getdiyi vaxt istisna olmaqla! Mən oğluna Peyğəmbərin Əliyə mehribanlığından artıq mehriban olan ata və həmçinin atasına Əlinin Peyğəmbərə tabeçiliyindən artıq tabe olan oğul görməmişəm.*

Xədicənin evindən başqa heç bir evə daxil olmamışdı və mən onların üçüncüsü idim. (Qeyd)[1] Vəhy və (ilahi) elçilik nurunu görür və nübuvvət və peyğəmbərlik ətrini duyurdum. *(Vəhy nazil olan zaman o Həzrətlə birgə idim və heç bir tərəddüd olmadan nazil olanlara iman gətirirdim.)* O Həzrətə *(səlləllahu əleyhi və alih)* vəhy nazil olanda şeytanın səsini eşitdim. Dedim: Ey Allahın Peyğəmbəri, bu nə səsdir? Buyurdu: Bu şeytanın səsidir ki, o, pərəstiş edilməkdən ümidsizliyə qapılıb (Qeyd)[2] sən mənim eşitdiklərimi eşidir, gördüklərimi görürsən *(hər şeydə mənimlə bərabərsən)*, sən yalnız peyğəmbər deyilsən, lakin vəzirsən; sən xeyir və yaxşılıqdasan. *(Sən bütün zahiri və mənəvi kamilliklər toplususan və elə bir yoldasan ki, dünya və axirət xeyri və yaxşılığı ondadır.)*

Qüreyşin böyüklərindən ibarət bir dəstə Həzrət Peyğəmbərin *(səlləllahu əleyhi və alih)* yanına gələndə mən onunla bir yerdə idim. Onlar dedilər: Ey Məhəmməd! Sən elə böyük bir iş *(nübuvvət və peyğəmbərlik)* iddia edirsən ki, nə sənin ataların və nə də sənin nəslindən bir nəfər onu iddia etməyib. İndi biz səndən bir iş görməyini istəyəcəyik. Əgər bizim üçün onu yerinə yetirsən və onu bizə göstərsən, biləcəyik ki, *(Allah tərəfindən göndərilmiş)* peyğəmbər və elçisən. Amma əgər yerinə yetirməsən, biləcəyik ki, cadugər və yalançısan. Peyğəmbər - səlləllahu əleyhi və alih - buyurdu: Nə istəyirsiniz? Dedilər: Bu ağacı çağır, kötükləri ilə *(yerdən)* çıxıb *(gəlib)* qarşında dayansın.

---

[1] *Həmin gün Həzrət Peyğəmbər, Xədicə və məndən başqa bir müsəlman yox idi. Bu cümlə tam aşkar şəkildə İmam əleyhis-salamın o Həzrətə ilk iman gətirən və İslamı qəbul edən kişi olmasına dələlət edir. Bu kəlamın bənzəri, o Həzrətin yüz otuz birinci kəlamdakı buyuruğudur ki:* « **اللّهُمَّ إنّی أوَّلُ مَنْ أنابَ وَ سَمِعَ وَ أجابَ لَمْ يَسْبِقْنِی إلّا رَسُولُ اللهِ صَلَّی اللهُ عَلَيْهِ وَ آلِهِ بِالصَّلاةِ** » *Allahım, mən haqqa çatan,onu eşidən və qəbul edən ilk kimsəyəm; namaz qılmaqda Allahın Peyğəmbərindən (səlləllahu əleyhi və alih) başqa heç kəs məndən qabağa düşməyib.*

[2] *Bu vəhy nazil olduqdan sonra insanların azğınlıq və zəlalətdən çıxıb ona tabe olmayacaqlarını bildiyi üçün naümid olub nalə və fəryad qoparır.*

Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurdu: Allah hər şeyə qadirdir. Əgər sizin bu istəyinizi rəva etsə, iman gətirib haqqa şəhadət verəcəksiniz? Dedilər: Bəli. Buyurdu: Mən istədiyinizi sizə göstərəcəyəm. Amma bilirəm ki, xeyir və yaxşılığa *(bütün dünya və axirət xeyirlərini özündə toplamış İslama)* bağlanmayacaqsınız. Sizin aranızda eləsi var ki, *(öz kafirliyində qalıb Bədr müharibəsində öldürüləcək və)* quyuya atılacaq. (Qeyd)[1] Həmçinin *(sizin aranızda)* qoşunları toplayacaq kimsə var. (Qeyd)[2] Bundan sonra Peyğəmbər *(səlləllahu əleyhi və alih)* buyurdu: Ey ağac, əgər sənin Allaha və qiyamət gününə imanın varsa və mənim Allahın peyğəmbəri olmağımı bilirsənsə, öz köklərinlə yerindən çıx və Allahın əmri ilə mənim qarşımda dayan. O Həzrəti haqq *(düz və doğru)* olaraq göndərən Allaha and olsun ki, ağac kökü ilə yerdən çıxdı və quşların qanadlarının səsinə bənzər ağır səslə gəlib qanad çalan quş kimi Peyğəmbərin (səlləllahu əleyhi və alih) əlləri arasında dayandı və özünün böyük budağını Allahın Peyğmbərinin *(səlləllahu əleyhi və alih)* başına, budaqlarının bəzilərini isə mənim çiynimə atdı. Mən o Həzrətin *(səlləllahu əleyhi və alih)* sağ tərəfində dayanmışdım. Həmin dəstə onu görəndən sonra təkəbbürlülük və məğrurluq üzündən dedi: De ki, onun yarısı sənin yanına gəlsin, digər yarısı isə öz yerində qalsın. Beləliklə, Peyğəmbər ağaca həmin istəyin gerçəkləşməsi əmrini verdi. Sonra onun yarısı heyrətləndirici gəliş və gurultulu səslə o Həzrətə tərəf üz tutdu *(o Həzrətin əmrini*

---

[1] *Məqsəd Bədr adlandırılan quyudur ki, Məkkə ilə Mədinənin arasında yerləşir və Mədinəyə daha yaxındır. Bədr müharibəsində öldürüldükdən sonra quyuya atılanlar içərisində Rəbiənin iki oğlu Utbə və Şeybə, Üməyyə ibn Əbd Şəms, Əbu Cəhl və Vəlid ibn Muğeyrə də var idi.*

[2] *Xəndək fitnəsində müsəlmanlarla vuruşacaq kimsə var. Ordan-burdan qoşun toplayaraq Mədinəni mühasirə edənlər arasında Əbu Süfyan, Əmr ibn Əbduvəd, Səfvan ibn Üməyyə, Əkrəmə ibn Əbu Cəhl və Səhl ibn Əmr də var idi. Xəndək Mədinənin qala divarı ətrafında həmin müharibə üçün qazılmış bir çuxur idi.*

*birincidən daha sürətli şəkildə yerinə yetirdi)* və az qalmışdı ki, Allahın Peyğəmbərinə (səlləllahu əleyhi və alih) sarılsın. Onlar yenə naşükürlük və ədavət üzündən dedilər: Əmr et bu yarı hissə qayıdıb əvvəl olduğu kimi öz yarısına birləşsin. Sonra Peyğəmbər - səlləllahu əleyhi və alih - əmr etdi və ağac qayıtdı. Mən dedim: İbadətə Allahdan başqası layiq deyil. Ey Allahın Peyğəmbəri! Mən sənə ilk iman gətirən və həmçinin ağacın Allahın əmr və istəyi ilə yerinə yetirdiyini, sənin peyğəmbərliyini təsdiq etmək və əmrinə ehtiram üçün etdiyini etiraf edən ilk kimsəyəm. Sonra həmin dəstədəkilərin hamısı dedi: Çox yalançı cadugərdir! Bu, onun çox çevik olduğu heyrətləndirici bir cadudur! *(Çünki fikrə dalıb düşünmədən istədiyini etdi. Həmçinin dedilər:)* Səni işində bu şəxsdən başqası təsdiqləyir? Onlar məni nəzərdə tuturdular. Mən o dəstədənəm ki, onlara Allah yolunda heç bir tənə vuranın tənəsi mane olmur. Onların üzləri doğruçuların üzləri, sözləri gözəl əməl sahiblərinin sözləridir. Gecə abadlaşdıran, gündüz isə nişanə və bələdçidirlər *(gecə oyaq qalaraq axirətlərini abadlaşdırırlar. Gündüz də xalqı haqq yola istiqamətləndirirlər)*. Özlərini Quran ipindən *(onun azğınlıq və bədbəxtçilikdən nicat tapmağa səbəb olan elm və maarifinə)* asarlar və Allahın yollarını və Onun Peyğəmbərinin sünnəsini dirçəldərlər. *(Dinin nişanələrini yayaraq onun hökmlərinə əməl edərlər.)* Təkəbbür göstərməz, məğrurluq, haqsızlıq və pozğunçuluq etməzlər. Qəlbləri Cənnətdə, bədənləri isə işlə məşğuldur *(qəlbləri Cənnətə yönəlib, bədənləri isə yaxşı işlərlə və bəndəliklə məşğuldur)*.

# 235- ci xütbə

İmam Əli əleyhis-salamın Abdullah ibn Abbasa buyurduğu kəlamlarındandır. Abdullah, Osman *(zülmkarlıqlarına, müsəlmanların beytülmalını dağıtdığına və gördüyü çirkin işlərə görə)* mühasirədə olan zaman *(müsəlmanlar onu xilafət məqamından uzaqlaşdırmaq istəyirdilər və o, öldürülmək*

*qorxusundan çölə çıxmağa cürət etmədiyi üçün)* ondan o Həzrətə bir məktub gətirdi. Osman həmin məktubda o Həzrətdən, xalqın onu xilafətə namizəd kimi irəli sürmələri hay-küyünün yatması üçün Yənbudakı (Qeyd)[1] malikanəsinə getməsini istəmişdi. (Qeyd)[2] Halbuki həmin istəyin bənzərini bundan qabaq da etmişdi. (Qeyd)[3] Buna görə də İmam əleyhis-salam buyurdu:

Ey Abbasın oğlu! Osman məni böyük vedrə ilə su daşıyan dəvə kimi etməkdən, *(həmin dəvə kimi)* gedib-gəlməyimdən başqa bir şey istəmir. *(Bundan qabaq yanıma adam)* göndərdi ki, *(Mədinədən)* çıxım. Ondan sonra *(yenə adam)* göndərdi ki, *(ona kömək etmək üçün Yənbudan Mədinəyə) gəlim. İndi də (səni)* göndərir ki, çıxım. Allaha and olsun, *(kömək edərək)* onu elə müdafiə etdim ki, *(onunla bir yerdə olmaqda çox çalışmağımın nəticəsində)* günahkar olmağımdan qorxdum. *(Çünki o, gördüyü nalayiq işlərə görə müdafiə edilməyə layiq deyildi.)*

---

[1] *Mədinənin dəniz tərəfdən kənarındakı yer adıdır.*

[2] *Çünki Osmanı mühasirəyə alanlar uca səslə xilafəti Əmirəl-mömininə nisbət verirdilər. Osman belə güman edirdi ki, onun mühasirəyə alınmasına xalqı o Həzrət təhrik edir. Buna görə də o Həzrətin Mədinədən xaric olmasını istədi ki, bəlkə camaat da onun evinin ətrafından dağılışaraq o Həzrətlə gedər və o, evdən çıxıb bir çarə qıla bilər.*

[3] *Bundan qabaq bir dəfə də o Həzrətin Yənbuya getməsini istəmişdi. Həzrət gedəndən sonra, onun Mədinəyə qayıdaraq ona kömək etməsini istəmişdi. İndi bir daha Yənbuya getməsini istəyirdi.*

# 236- ci xütbə

İmam Əli əleyhis-salamın kəlamlarındandır ki, onda özünün Həzrət Peyğəmbərin *(səlləllahu əleyhi və alih) (Məkkədən Mədinəyə)* hicrətindən sonrakı vəziyyətinin necəliyini və o Həzrətə birləşməsini açıqlayıb:

*(Həzrət Peyğəmbər Məkkədən Mədinəyə hicrət edən zaman mənə əmr etdi ki, hərəkət edəcəyi axşam onun yatağında yatım. Onun səhərisi gün müşriklər Peyğəmbərin getdiyini və yataqda yatan şəxsin mən olduğumu bildilər. O Həzrətin hicrətindən üç gün sonra piyada onun arxasınca yola düşdüm.)* Beləliklə, Allahın Peyğəməbərinin *(səlləllahu əleyhi və alih)* getdiyi yolu tutdum. Hər addımı onun fikri ilə atırdım *(və hər mənzildə onu soraq edirdim)* ki, nəhayət, Ərəcə *(Məkkə ilə Mədinə arasında yer adıdır)* çatdım. (Qeyd)[1] *(Seyyid Rəzi deyir:)* Bu cümlə *(o Həzrətdən nəql edilmiş)* uzun bir kəlamdandır. *(Seyyid Rəzi daha sonra belə deyir:)*

O Həzrət əleyhis-salamın «فَأَطَأُ ذِكْرَهُ» «hər addımı onun fikri ilə atırdım» cümləsi ixtisar və fəsahətin son həddinə çatıb. *(Həmin sözdən)* məqsəd budur ki, mən *(Məkkədən)* çıxandan Ərəcə çatana kimi o Həzrəti *(səlləllahu əleyhi və alih)* soraqlaşırdım. Odur ki, bu kəlamı belə bir heyrətləndirici metafora üçün gətirib. (Qeyd)[2]

---

[1] *Harada o Həzrətdən bir nişanə əldə etsəydim, ora gedib onu axtarırdım ki, nəhayət, Mədinəyə cənub tərəfdən yaxın olan Quba adlı yerdə onun hüzuruna çatdım. Birlikdə Mədinəyə Əbu Əyyub Xalid ibn Yezid Ənsarinin evinə getdik.*

[2] *Metaforanın mənası insanın bir kəlməni aşkar şəkildə dəlalət etmədiyi bir məna üçün istifadə etməsidir. Necə ki, İmam əleyhis-salam burada buyurur: «Hər addımı onun fikri ilə atırdım». Bu cümlə hər yerdə o Həzrətin sorağında olmaq, onun arxasınca getmək və ayağını bir addım belə kənara qoymamaq barəsində metaforadır.*

# 237- ci xütbə

İmam Əli əleyhis-salamın *(insanın nə qədər ki, sağdır, ibadət və bəndəliyi əldən çıxarmamasının zəruriliyi barəsindəki)* xütbələrindəndir.

*(Allaha həmd və Həzrət Peyğəmbərə və onun Əhli-Beytinə salamdan sonra, bilin ki, dünya həmişə qalmayacaq. Buna görə də)* nə qədər ki, həyat genişliyindəsiniz *(sağsınız)*, dəftərlər *(əməl dəftərləri gözəl söz və əməllərin yazılması üçün)* açıqdır *(bağlanmayıb)*, tövbə və *(pisliklərdən)* qayıdış sərilib *(qəbul edilir)*, üz döndərən *(günahkar çirkin əməldən əl götürüb tövbə etməyə)* çağırılır, pis əməl sahibinə *(çirkin əməlinin yerini yaxşı əməllərlə doldurmaq üçün)* ümidvarlıq verilir, əməl çırağı sönməyib fürsət əldən çıxandan, vaxt sona çatandan, tövbə qapısı bağlanandan, mələklər göyə qalxandan *(qələmlər əməl dəftərinə yaxşı və ya pis bir şey yazmaqdan saxlanılandan)* qabaq *(bacardığınız qədər Allah və Peyğəmbərin göstərişlərinə uyğun)* iş görün. Buna görə də gərək insan *(ölüm - yəni, heç bir iş görmək imkanı olmayan zaman gəlib çatmamışdan qabaq)* özündən özü, həyatdan ölüm, yoxluqdan varlıq və ötəridən daimi üçün nəticə əldə etsin *(dünyada özünü işə vadar etsin ki, onun nəticəsi axirətdə dərdinə dəysin)*. Ölüm çatana kimi fürsət və işin görülməsinə qədər möhlət verilmiş halda Allahdan qorxan *(və əməldə çalışan)* kəs, o şəxsdir ki, nəfsini noxtalayıb və onun cilovu öz ixtiyarındadır və beləliklə, nəfsin noxtası ilə özünü Allahın qadağan etdiklərindən saxlayıb və onun cilovu ilə özünü Allaha itaət və tabeçiliyə tərəf çəkir.

# 238- ci xütbə

İmam Əli əleyhis-salamın «Həkəmeyn» *(Əmr ibn As və Əbu Musa Əşəri)* barəsindəki və Şam əhalisinin məzəmmətindəki xütbələrindəndir.

Şamlılar daşürəkli və tüfeyli insanlar və alçaq kölələrdir *(nökərlərdir)* ki, ordan-burdan toplaşıblar və müxtəlif qarışıqlardan yığılıblar. *(Hər biri bir yerdən gəlib bir-birinə birləşmiş dəstədirlər və əsil-nəcabətləri məlum deyil.)* Onlar *(İslamın hökmləri)* öyrədilməyə, *(gözəl xislətlərlə)* tərbiyə edilməyə, *(xeyir və şər)* təlim edilməyə, təcrübələndirilməyə, rəhbərlik edilməyə və *(uşaqlar kimi)* əllərindən tutulmağa layiq kimsələrdəndir *(ki, özbaşına bir iş görməsinlər)*. (Qeyd)[1] Onlar nə *(Məkkədən Mədinəyə hicrət edərək Həzrət Peyğəmbərin - səlləllahu əleyhi və alih - yanına gələn)* Mühacirlər və *(İslamı qəbul edərək o Həzrətə kömək edən Mədinə əhli olan)* Ənsardan, nə də Mədinədə yerləri olan *(və hicrətdən qabaq İslamı qəbul edən)* və imanda möhkəm olan kəslərdən idilər.

Bilin ki, Şam əhalisi özləri üçün sevdikləri şeyə *(İraq əhlinə qalib gələ bilmələrinə)* ən yaxın olanı *(Əmr ibn Ası)* seçdilər. Siz isə insanların sevmədiyiniz şeyə *(Şam əhlinin sizə qalib gəlmələrinə)* ən yaxınını *(Əbu Musa Əşərini)* seçdiniz. (Qeyd)[2] Sizin Abdullah ibn Qeys ilə qarşılaşmağınız dünən idi *(çox yaxındır. Mən Bəsrəyə, Cəməl müharibəsinə gedəndə eşitdiniz)* ki, deyirdi: «*(Ey Kufə əhli, İmama kömək etməyin, çünki)* bu qarşıdurma və müharibə fitnədir *(ki, ondan uzaq olmaq lazımdır)*. Odur ki, oxlarınızın yayının kirişini işə salmayın və qılınclarınızı qınına qoyun». Əgər düz deyirdisə, məcbur edilmədən *(bizim yanımıza)* gəlməkdə *(və Siffeyn müharibəsində İraq qoşununda hazır olaraq bizə kömək etməkdə)* səhv edib. *(Çünki öz əqidəsinə zidd davranıb və belə bir şəxsin hökm çıxarmaq səlahiyyəti yoxdur.)* Əgər yalan

---

[1] *Xülasə, onlar nadan və yaxşı əməllərdən uzaq insanlardırlar. Onlar xilafətin öz aralarında olmasına və dinin, xalqın və ölkənin işlərinə dəxalət edərək başçı olmağa layiq deyildirlər.*

[2] *Adı Abdullah ibn Qeys olan Əbu Musa Əşəri qanmazlıq və nadanlıq, eləcə də İmam əleyhis-salamla düşmənçilik səbəbindən həmin işi gördü. Onun İmam əleyhis-salamla düşmənçiliyinin səbəbi isə, o Həzrətin Əşərini Osmanın zamanında işlədiyi Kufənin valisi vəzifəsindən azad etməsi idi.*

deyirdisə, onda ona töhmət vurmaq olar. (Qeyd)[1] Odur ki, Əmr ibn Asın sinəsində olanları Abdullah ibn Abbasın vasitəsi ilə məhv və dəf edin *(Abdullah ibn Abbası öz nümayəndəniz edin ki, hiyləgər Əmr ilə o bacara bilər)*, zamanın fürsətini əldən çıxarmayın və İslamın uzaq şəhərlərini *(fitnəkarların və zalımların onlara hakim olmasından)* qoruyun.

Məgər şəhərlərinizə nəzər salmırsınız ki, *(sizi məhv edərək var-dövlətinizi qarət etmək üçün)* onlarda müharibə aparırlar? Məgər özünüzün möhkəm daş parçalarınızı *(qüdrət və gücünüzü)* görmürsünüz ki, ona ox vururlar? *(Sizin zəiflik və acizliyə düçar olmağınızı və nəticədə məğlub olub təslim olmağınızı istədiklərini görmürsünüz?!)*

# 239- cu xütbə

İmam Əli əleyhis-salamın Məhəmməd Əhli-Beyti əleyhimus-salamı *(onların fəzilətlərini)* bəyan etdiyi xütbələrindəndir.

Məhəmməd əhli-beyti *(pak imamlar-salavatullah əleyhim əcməin)* elm və biliyi dirildənlər və nadanlıq və cəhaləti öldürənlərdir. *(Onlardan elm əldə edilir və vasitələri ilə nadanlıq dəf edilir.)* Onların səbrlilikləri alimliklərindən xəbər verir *(çünki səbr etmək lazım olan yerləri bilib ancaq həmin yerlərdə səbrlilik edərlər)* və həmçinin zahirləri batinlərindən *(gözəl söz və əməlləri paklıq və saflıqlarının kamilliyindən)* və sükutları sözlərinin düzlük və doğruluğundan! *(Çünki insanın sükut edərək yersiz danışmaması onun sözlərinin elm və hikmət əsasında olmasına bir dəlildir.)* Haqq ilə müxalifət etməzlər *(ondan üz döndərməzlər)* və onun barəsində ixtilaf və ziddiyyətləri yoxdur *(sözləri bir şəkildədir)*. Onlar İslamın sütunları və sığınacaqlarıdır *(öz elmləri ilə onu qoruyur və hökmlərini xalqa*

---

[1] *Çünki nəfsi istəkləri əsasında danışır və buna görə də haqqı şəkk-şübhə güman edir. Belə bir şəxsi nəinki hakim təyin etmək, heç ona etimad etmək olmaz.*

*öyrədərək onlara azğınlıq və nadanlıqdan nicat verirlər).* Haqq onların vasitəsi ilə öz əslinə və yerinə qayıdır, batil və nahaq onun yerindən uzaqlaşır, məhv olur və haqq zahir olanda *(batilin)* dili kəsilir. *(Onların elm və biliyi nəticəsində haqq və həqiqət aşkar, batil və nahaq isə məhv olur.) Dini (və onun hökmlərini)* bildilər, qavradılar, amma sırf eşitməyə və nəql etməyə əsaslanan qavrama ilə deyil, elmə və riayət *(əməl)* etməyə əsaslanan qavrama ilə! *(Çünki əgər belə olmasaydı, başqalarından bir üstünlükləri olmazdı.)* Elmi rəvayət edənlər çox, ona əməl edənlər isə azdır. (Qeyd)[1]

[1] *Bütün dövrlərdə bir çox insanlar müxtəlif elmləri əldə edir, məclis və yığıncaqlarda kamal nümayiş etdirərək özlərini başqalarından üstün və onlara başçı hesab edirlər. Amma onların əməlləri sözləri ilə bir deyil. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah hamını qəflət yuxusundan oyatsın və elminə əməl etməkdə müvəffəq etsin.*

# V hиссә

# Feyzul-İslamın V hissəyə yazdığı müqəddimə:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

الْحَمْدُ لِلّهِ الْفاشِى فِى الْخَلْقِ أَمْرُهُ وَ حَمْدُهُ الظّاهِرِ بِالْكَرَمِ مَجْدُهُ الْباسِطِ بِالْجُودِ يَدَهُ الَّذِى لا تَنْقُصُ خَزائِنُهُ وَ لا تَزِيدُهُ كَثْرَةُ الْعَطاءِ إِلّا جُوداً وَ كَرَماً إِنَّهُ هُوَ الْعَزِيزُ الْوَهّابُ وَ الصَّلوةُ وَ السَّلامُ عَلى عَبْدِهِ وَ رَسُولِهِ سَيِّدِ الْأَنْبِياءِ وَ الْمُرْسَلِينَ مُحَمَّدٍ وَ الِهِ الْهُداةِ الْمَهْدِيِّينَ

اللّهُمَّ صَلِّ عَلى مُحَمَّدٍ وَ الِ مُحَمَّد وَ عَجِّلْ فَرَجَهُمْ وَ أَهْلِكْ عَدُوَّهُمْ مِنَ الْجِنِّ وَ الْإِنْسِ مِنَ الْأَوَّلِينَ وَ الْاخِرِينَ

«Nəhcül-Bəlağə» peyğəmbərlərin sözlərinin cövhəri, Qurani-Kərim həqiqətlərinin sirlərinin açıqlaması, azğın və düşkünlərin xilasedicisidir. Əmirəl-möminin əleyhis-salamın Seyyid Şərif Rəzi *(əleyhir-rəhmə)* tərəfindən nümunələri müqəddəs «Nəhcül-Bəlağə» kitabında toplanmış kəlam və əməllərinə tabe olmayınca qan tökülməsi, fitnə-fəsad, zülmkarlıq, ikiüzlülük, özündənrazılıq və bədbəxtlik bəşəriyyətdən uzaqlaşmayacaq və dünyada sülh və asayiş, ədalət, vəhdət və xoşbəxtlik bərqərar olmayacaq. Bu kitabda insanın həyat

və asayişinə aid hər bir şey olduğu üçün o, əməl edən hər bir kəsin başucalığı və xoşbəxtliyinə zamindir.

Bu sözlər əql və elm sütunları üzərində bərkidilib və boşboğazlıq və naqqallıq deyil. Əgər inanmırsınızsa, öz alim və tanınımış şəxsiyyətlərinizlə bir yerə toplaşaraq barəsində ətraflı fikirləşib düşünün ki, həqiqətlərini dərk edəsiniz.

Xeyir və yaxşılıq, asayiş və gözəllik axtaran hər bir kəs, gərək «Nəhcül-Bəlağə»ni özünə örnək etsin. Buna görə də bədbəxt o böyük və başçıdır ki, bu kitabı oxumayıb; aciz o rəhbər və tayfa başçısıdır ki, onun göstərişlərinə əməl etmir; avara-sərgərdan o xalqdır ki, əməlləri «Nəhcül-Bəlağə»nin buyuruqları ilə uyğun gəlmir; xoşbəxt o kəslərdir ki, bu tərcümə və şərhin dörd hissəsini diqqətlə oxuyub və əməl ediblər və indi beşinci hissəni dərk etməyə nail olurlar. Çünki biz lazım olan bütün nöqtələrə *(hamının səviyyəsində olan xülasə şəklində və hamının başa düşdüyü sadə dildə)* toxunmuş və onları yada salmışıq. Bu məsələ elm və bilik əhlinə bəllidir. Hissələrdə Allah və Peyğəmbərin razılığına zidd bir söz yazılmamasına, elm şəhəri olan Əli əleyhis-salamın hüzurunda əməlimin qəbul edilməsinə və qiyamət günü günahlarımın bağışlanmasına səbəb olacağına ümid bəsləyirəm.

**اللهُمَّ اخْتِم عَمَلى بِأَحْسَنِهِ وَ اجْعَلْ ثَوابى مِنْهُ الجَنَّةَ بِرَحْمَتِكَ**
**امين يا رَبَّ العالَمينَ**

**Fani bəndə:**
**Əliyyənnəqi (Feyzul-İslam) İsfahani**
**Ali-Məhəmməd əd-Dibac,**
**1368 H.Q.**

# Fəsil

Bu fəsildə ağamız və başçımız Əmirəl-möminin Əli əleyhis-salamın düşmənlərinə və şəhərlərin rəhbərlərinə *(yazdığı)* məktubları toplanıb və o Həzrətin məmurları ilə olan əhd-peymanlarının bir hissəsi, eləcə də Əhli-Beyt və dostlarına tapşırıqları *(öyüd-nəsihətləri)* də fəslə daxildir.

# 1-ci məktub

İmam Əli əleyhis-salamın Mədinədən Bəsrəyə *(Təlhə, Zübeyr və onların tərəfdarları ilə müharibəyə)* gedərkən yoldan Kufə əhlinə göndərdiyi məktublarındandır. *(O, Maul-uzəybə çatanda bu məktubu Kufə əhlinə yazdı və onları Osmanın öldürülmə səbəbindən xəbərdar edərək öz köməyinə çağırdı.Məktubu Kufəyə imam Həsən və Əmmar ibn Yasir ilə göndərdi.)*

Allahın bəndəsi Əmirəl-möminin Əlidən alicənab yardımçı və ərəbin şərafətlilərindən olan Kufə əhlinə:

Allaha həmd və Peyğəmbərə salamdan sonra, mən sizi Osmanın işindən *(və onun öldürülmə səbəbindən)* elə xəbərdar edirəm ki, onu eşitmək görmək kimi olsun. *(Kufə əhlindən həmin hadisədə olmayanlar orada olanlar və görənlər kimi olsunlar.)* Xalq *(yaramaz əməllərinə görə)* Osmana çirkin və nalayiq sözlər dedi. Mən *(Həzrət Peyğəmbərlə Məkkədən Mədinəyə sülh və asayiş üçün gəlmiş)* Mühacirlərdən biri idim ki, *(fitnə-fəsad və qan tökülməsinə nifrət bəsləyərək ondan uzaq gəzirdim və)* xalqın ondan razı olmasını çox istəyir, onu az məzəmmət edirdim. *(Ona həmişə öyüd-nəsihət verir və davranışını dəyişməyə çağırırdım.)* Və *(amma)* Təlhə və Zübeyrin onun barəsindəki ən yüngül davranışları kəskin mövqe tutmaq, ən yavaş sövq etmələri isə *(vəziyyətin kəskinləşməsini)* daha da sürətləndirmək idi. (Qeyd)[1] Həmçinin Aişə fikirləşib düşünmədən, qəflətən onun barəsində qəzəbləndi. (Qeyd)[2] Sonra *(Təlhə, Zübeyr və*

---

[1] *Onlar Osmana nəinki heç vaxt öyüd-nəsihət vermirdilər, əksinə, həmişə fətnə-fəsad yaratmaq fikrində idilər. Buna görə də camaatı yaxın-uzaq yerlərdən toplayaraq onu öldürməyə həvəsləndirirdilər. Belə ki, Zübeyr deyirdi: Onu öldürün, o, sizin dininizi dəyişdirib. Osman öz evində mühasirədə olarkən belə deyirdi: Vay olsun Təlhəyə! Mən ona hər cür hörmət etdim, o isə indi mənim qanımı tökmək fikrinə düşüb.*

[2] *O, Osman beytülmalı ancaq öz qohum-əqrəbası arasında bölüşdürdüyü üçün özündən çıxdı və camaatı onu öldürməyə vadar edərək dedi: «اُقْتُلُوا نَعْثَلاً قَتَلَ اللهُ نَعْثَلاً» «Nəsəli öldürün, Allah Nəsəli öldürsün!» Yəni, bu axmaq şeyx və ağılsız qocanı öldürün! Allah onu*

*Aişə camaatı onu öldürməyə sövq etdilər və) bir qrup hazırlaşaraq onu öldürdü. (Buna görə də onlar Osmanın intiqamını almaq fikrinə düşməməlidirlər, bəlkə onlardan intiqam alınmalıdır.)* Xalq heç bir ikrah və məcburiyyət olmadan öz meyl və istəyi ilə mənə beyət etdi. *(Bəs görəsən Təlhə, Zübeyr və onların ətrafındakıların mənə qarşı çıxmalarının və fitnə və çaxnaşma yaratmalarının səbəbi nədir?!)*

Və bilin ki, *(Təlhə, Zübeyr və Aişənin fitnələri nəticəsində)* hicrət diyarı *(Mədinə)* boşalıb və əhalisi ondan uzaqlaşıb. *(Mən naçar qalıb ordan çıxdım.)* Fitnə qazanın qaynaması Kimi qaynayaraq cuşa gəlib. *(Hərc-mərclik səbəbindən oranın sakitlik və asayişi aradan gedib.)* Fitnə *(dinin)* qütbünə *(yəni, İmam əleyhis-salama)* qarşı yönəlib. Odur ki, öz əmir və imamınıza doğru tələsin *(ona kömək və yardım edin)* və Allahın istəyi ilə düşmənlərinizlə *(Təlhə, Zübeyr və onların ətrafındakılarla)* müharibə etməyə çalışın.

# 2-ci məktub

İmam Əli əleyhis-salamın Kufə əhlinə olan məktublarındandır *(ki,həmin məktubda onlara)* Bəsrə *(müharibəsindəki)* qələbəsindən sonra *(minnətdarlıq edib)*.

Allah siz Kufə əhlinə Peyğəmbərinizin əhli-beyti tərəfindən *(əvəzindən)* itaətkarlarına və nemətinə şükr edənlərə verdiyi mükafatların ən gözəlindən versin ki, *(bizim fərmanımızı)* eşitdiniz və *(ona)* tabe oldunuz və *(dinə yardım etməyə)* çağırıldınız və qəbul etdiniz *(və sonda Allah düşmənlərini məğlub edib əldən saldıq)*.

---

*öldürsün! Nəsəl Mədinədə yaşayan uzunsaqqallı bir yəhudinin adı idi. Aişə belə deməklə Osmanı ona bənzədirdi. Rəvayət edilib ki, bir gün Osman minbərə çıxmışdı və məscid cəmiyyətlə dolu idi. Aişə pərdə arxasından əlini çölə çıxartdı və Həzrət Peyğəmbərin nəleyn və köynəyini camaata göstərərək dedi: Bunlar Peyğəmbərin nəleyn və köynəyidir və onlar köhnəlməmiş sən onun din və sünnəsini dəyişdirmisən. Onlar orada bir-birlərinə kobud sözlər dedilər.*

# 3-cü məktub

İmam Əli əleyhis-salamın onun tərəfindən qazı təyin edilən Şüreyh ibn Harisə yazdığı məktublardandır *(ki, onda dünyaya və dünya malına bel bağlamağın ziyanlarından danışıb).* (Qeyd)[1] Rəvayət edilib ki, Əmirəl-möminin tərəfindən də qazı olan Şüreyh ibn Haris, o Həzrətin xilafəti zamanında səksən dinara bir ev alıbmış. Bu xəbər İmama çatanda, onu çağırtdıraraq deyib ki, mənə sənin səksən dinara ev almağın və sənəd yazaraq bir neçə nəfəri şahid tutmağın barəsində xəbər çatıb. Şüreyh cavab verir ki, ey Əmirəl-möminin, elə olub. Ravi deyir: Həzrət qəzəbli şəxsin baxışları ilə ona baxaraq belə buyurdu :

Ey Şüreyh, bil ki, tezliklə sənin yanına *(yazdığın)* sənədə baxmayan və şahidlərdən *(bir şey)* soruşmayan bir kimsə *(Əzrail)* gələcək, səni həmin evdən gözün baxa-baxa *(heyran və sərgərdan, yaxud köçəri kimi)* çıxaracaq və hər şeydən ayrı, göruna tapşıracaq. Odur ki, ey Şüreyh, bax! Məbada bu evi başqasının pulu ilə almış olasan, yaxud onun pulunu halal olmayan şeylə vermiş olasan ki, əgər belə olsa dünya və axirət zərər-ziyanını qazanmış olarsan!! *(Çünki əgər evi*

---

[1] *Şüreyh kosa idi və üzünə tük çıxmırdı. Ömər ibn Xəttab onu Kufənin qazısı təyin etmişdi və o, həmin diyarda qazılıq və şəriət hakimliyi ilə məşğul idi. Əmirəl-möminin onu öz vəzifəsindən uzaqlaşdırmaq istədi. Kufə əhalisi dedi: Onu vəzifəsindən uzaqlaşdırma, çünki o, Ömər tərəfindən təyin edilib və biz səninlə o şərtlə beyət etmişik ki, Əbu Bəkr və Ömərin qərarlarını dəyişdirməyəsən. Muxtar ibn Əbu Ubeydə Səqəfi hakimiyyətə gələndə Şüreyhi Kufədən çıxardaraq sakinləri yəhudi olan bir kəndə göndərdi. Həccac Kufənin hakimi olanda onu Kufəyə qaytardı və yaşlı qoca olmasına baxmayaraq, ona qəzavət işləri ilə məşğul olmağı əmr etdi. O, Muxtar tərəfindən xar edildiyi üçün xahiş etdi ki, Həccac onu qəzavət etməkdən üzrlü saysın. Həccac onun bu istəyini qəbul etdi. Axır ki, o, yetmiş beş il qazı olub. Ömrünün ancaq son iki ilini bu işdən kənarda qalıb və yüz iyirmi yaşında dünyadan köçüb.*

*başqasının malı və ya haram malla almış olsan, dünyadan lazımınca bəhrələnməyəcək, axirətdə isə əzaba düçar olacaqsan.)* Bil *(ki)*, əgər ev alanda mənim yanıma gəlsəydin, sənin üçün bu *(aşağıdakı)* kimi bir sənəd yazardım. Onda həmin evin çox *(yəni, səksən dinar)* deyil heç bir dirhəmə də alınmasına rəğbət göstərməzdin. Həmin sənəd budur:

Bu, xar və həqir bəndənin, *(mütləq öləcək və evindən axirət evinə)* köçmək üçün çıxmış ölüdən, yox olanların yeri və məhv edilmişlərin nişanəsi olan yalan diyarda aldığı bir evdir. Bu evin dörd hasarı var: Birinci hasar xoşagəlməz və acınacaqlı hadisələrə *(dağıntı, xəstəlik, çətinlik və oğurluğa)* gedib çıxır. İkinci hasar qəmlər amilinə *(əzizlərin ölümü, arzu və sərmayənin əldən getməsinə)*, üçüncü hasar məhv edici istək və arzulara və dördüncü hasar azdırıcı şeytana gedib çıxır.Bu evin qapısı isə dördüncü hasardandır.

İstək və arzulara uymuş bu şəxs, belə bir evi ölüm üçün çıxmış şəxsdən qənaət kəramətindən xaric olmaq və istək və xarlıq həqirliyinə daxil olmaq bahasına alıb. (Qeyd)[1] Bu alıcıya aldığı şeydə satıcı tərəfindən dəyən *(və onun zamin olmasına səbəb olan, yəni, satıcının, əvəzini ödəməli olduğu)* ziyan və pisliyin intiqamı padşahların canlarını məhv edən, itaətdən çıxanların canlarını alan və *(İran şahları)* Kəsra, *(Rum şahları)* Sezar, *(Yəmən şahları)* Tübbə, *(qəbilə sahibi olan Himyər ibn Səba ibn Yəşğəb ibn Yərəb ibn Qəhtanın övladları)* Himyər kimi fironların səltənətlərini aradan aparan və mal üstünə mal toplayaraq onu çoxaldan, *(binalar)* tikib ucaldıb onları bəzəyərək zinətləndirənləri, sərvət toplayan və ev, bağ və əşyalarını öz gümanları ilə övladları üçün nəzərdə tutaraq toplayanları aradan aparanın *(yox edən ölüm mələyinin)* öhdəsinədir. *(Allah tərəfindən haqq və batil,)* cənnətlik və

---

[1] *Çünki qənaət və başqalarına möhtac olmamaq hissini əldən vermək zillət və xarlığa səbəb olan çətinlik və giriftarlıqlar gətirir. Deməli, əslində ehtiyac olmayan evin alınmasının qiyməti qənaət, şərafət və abır izzətindən çıxmaq və nəfs zilləti, çətinlik və giriftarçılıqlara daxil olmaqdır.*

cəhənnəmliklər barəsində qəti hökm veriləndə, O, onları sorğu-sual ediləcək və mükafat veriləcək yerə göndərəcək. (Qeyd)[1] Orada, pozğun və puç işlər görənlər ziyana uğrayarlar. *(Pis işlərə əmr edən nəfsin)* istəklərinə tabeçilikdən azad olan və dünyaya bağlılıqdan sağlam qalan ağıl bu sənədə *(onun düzlüyünə)* şahiddir. *(Dünyaya ürək bağlamış və nəfsi istəklər əlində əsir olan kimsə isə bu sözlərə inanmaz və ona görə də onun düzlüyünə şəhadət verməz.)*

# 4-cü məktub

İmam Əli əleyhis-salamın öz qoşun başçılarından bəzilərinə *(İmam əleyhis-salam tərəfindən Bəsrənin hakimi olmuş və sərgüzəştlərinin bir hissəsi 171-ci xütbənin şərhində deyilmiş Osman ibn Hüneyfə)* məktublarındandır. *(İmam ona düşmənin itaət etməyəcəyi təqdirdə onlarla vuruşmağı əmr edir.)*

*(Cəməl əhli «Təlhə, Zübeyr, Aişə və onların tərəfdarları» Bəsrəyə çataraq müharibəyə hazırlaşdıqdan sonra Osman ibn Hüneyf İmam əleyhis-salamı onların məqsədlərindən xəbərdar etmək üçün ona məktub yazdı. O Həzrətin Osman ibn Hüneyfə cavab olaraq yazdığı məktubun bir hissəsi belədir:)* Əgər itaət kölgəsinə qayıtsalar *(fitnə-fəsaddan əl çəkərək asayiş bərqərar edilməsini istəsələr)* bu, elə bizim sevdiyimiz *(istədiyimiz)* şeydir. Amma əgər işlər onları düşmənçilik və üsyankarlığa sövq etsə *(müharibəyə hazırlaşsalar),* sənin əmrinə tabe olanlarla, əmrinə tabe olmayanlara qarşı qalx və döyüş. Sənin dalınca gedən kimsə ilə sənə yardım etməkdən çəkinən kimsəyə möhtac olma *(kömək etməyənlərə möhtac olduğunu sanma)*. Çünki bir işə meyli olmayan kimsənin *(orada)* olmaması olmasından daha yaxşıdır, oturması durmasından daha xeyirlidir. *(Ona görə ki, meyli olmadan məcburiyyətlə bir işə başlayan şəxs öz sirrini aça bilər və nəticədə başqaları da onun dalınca gedərək işdən qalarlar.)*

---

[1] *Qurani-Kərimin Mumin surəsinin 78-ci ayəsində deyilir:* « **فَإِذَا جَاء أَمْرُ اللَّهِ قُضِيَ بِالْحَقِّ وَخَسِرَ هُنَالِكَ الْمُبْطِلُونَ** » *«Allahın əmri gəldikdə ədalətlə hökm olunar. Yalan danışanlar, batil söyləyənlər elə oradaca ziyana uğrayarlar».*

# 5-ci məktub

İmam Əli əleyhis-salamın Əşəs ibn Qeysə *(-onun barəsində 19-cu xütbənin şərhində bir az danışılıb)* məktublarındandır. O, *(Osman tərəfindən)* Azərbaycanın hakimi idi. (Qeyd)[1]

Sənin işin *(və hakimliyin)* sənin üçün ruzi və yemək deyil. *(Səni ona görə hakim etməyiblər ki, bir şey tapan kimi ondan özbaşına yeyəsən.)* O iş sənin boynunda olan bir əmanətdir *(ki, qoruyaraq onun yolunda, dinin hökmlərinə zidd bir addım atmamalısan)*. Səndən özündən üstün olan kimsə üçün gözətçi olmağını istəyiblər. *(Sən elə bir əmirin əli altındasan ki, səni gözətçi təyin edib və sənə vilayəti onun tərəfindən qorumağı tapşırıb. Buna görə də)* rəiyyətin işində öz istədiyin kimi davrana bilməzsən. *(Sənə əmr edilməmiş bir iş görə bilməzsən.)* Sənə əmr və fərman gəlməyincə böyük işə girişə bilməzsən. Sənin əllərində bənzərsiz və böyük Allahın mallarından var. Sən onları mənə təhvil verənə kimi mənim xəzinədarlarımdan birisən. Ümidvaram ki, mən sənin üçün vali və əmirlərin ən pisi olmayım. *(Bu hökmün sənin dünya və axirətinə də xeyri var.)* Salama layiq kimsəyə salam olsun!

# 6-cı məktub

İmam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındandır *(ki, onu Şama Cərir ibn Abdullah Bəcəlli vasitəsi ilə göndərib və onda öz xilafətinin haqq və düzgün olmasını sübut edərək Osmanı öldürməkdən uzaq olduğunu açıqlayıb)*.

---

[1] *Azərbaycan İranın şimal-qərbində olan bir vilayətdir ki, çoxlu şəhər və kəndləri var və oranın ən mühüm və mərkəzi şəhəri Təbrizdir. Əmirəl-möminin Osmandan sonra işlərin idarəçiliyini ələ aldıqdan sonra Əşəs nalayiq işlərinə görə İmamın onu öz vəzifəsindən uzaqlaşdıracağından qorxurdu. İmam, Cəməl müharibəsi qurtardıqdan sonra Əşəsin Azərbaycan mallarının qorunmasında sayıq olması üçün ona bir məktub yazdı. Aşağıdakı cümlələr də həmin məktubdandır.*

Əbu Bəkr, Ömər və Osmanla beyət edənlər *(onları xilafətə təyin edənlər)* həmin yolla mənimlə beyət edərək əhd-peyman bağladılar *(işlərin idarəçiliyini mənə tapşırdılar)*. Odur ki, *(xilafətin Allah və Peyğəmbər tərəfindən təyin edilmə ilə deyil, ümmətin ümumi rəyi ilə bərqərar olmasına və xalqın ümumi rəyə gələrək Əbu Bəkr, Ömər və Osmanı xəlifə təyin etmələrinə əqidə bəsləyən sizlər bilməlisiniz ki, məni də xilafətə həmin şəxslər, yəni, xalq kütləsi təyin edib. Buna görə də)* orada *(beyətdə)* olanların *(Təlhə və Zübeyr kimilərin)* ondan başqasını seçmək haqqları yoxdur. Orda olmayanın da *(sənin kimilərin də)* onu qəbul etməmək haqqı yoxdur. *(Sizin əqidənizə görə xilafət məsələsində)* məşvərət aparmaq Mühacirlərin *(Məkkədən Mədinəyə gələrək Həzrət Peyğəmbərə-səlləllahu əleyhi və alih- qoşulanların)* və Ənsarın *(Mədinədə Həzrət Peyğəmbərə iman gətirərək yardım edənlərin)* haqqıdır. Onlar toplaşaraq bir nəfəri xəlifə və imam adlandırsalar, Allahın razılığı da həmin işdə olar. Əgər kimsə *(xəlifədə)* eyb və nöqsan tapması səbəbindən *(bəhanəsi ilə, məsələn, Müaviyənin Osmanın öldürülməsini ona nisbət verməsi kimi)* və ya *(dində rəva olmayan şeyi ona daxil etmək - Təlhə, Zübeyr və onların tərəfdarlarının əhd-peymanlarını pozmaları kimi)* bidət nəticəsində onların əmrlərindən *(onların gördükləri işlərdən)* boyun qaçırsa, onu itaət etməyə vadar edərlər. Əgər *(öyüd-nəsihət fayda verməsə və)* onların göstərişlərini qəbul etməsə, *(sizin əqidənizə görə)* onunla möminlərin yolundan başqa bir yol ilə getdiyi üçün vuruşarlar. Allah *(da)* onu üz tutduğu şeyin öhdəsinə buraxar.

Ey Müaviyə, canıma and olsun, əgər ağlına müraciət etsən *(fikrə dalıb düşünsən)* və nəfsi istəklərinə göz yumsan, *(yersiz danışmaz, Osmanın öldürülməsini mənimlə peyman bağlamamağına bəhanə gətirməzsən)* görərsən ki, mən Osmanın qanında *(öldürülməsində)* ən təmiz adam olmuşam; bilərsən ki, mən ondan uzaqlaşaraq bir guşəyə çəkilmişdim. Amma sən *(nəfsi isətəklərə uyaraq)* böhtan atıb onun öldürülməsini mənə nisbət verirsən və sənə məlum olan şeyi gizlədirsən. Salama layiq kimsəyə salam olsun!

# 7-ci məktub

Bu da imam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındadır *(ki, onda onu, o Həzrətə yazdığı məktuba görə məzəmmət edib və onun nadanlıq və azğınlığını xatırladıb)*.

Allaha həmdü-səna və Həzrət Peyğəmbərə salamdan sonra: Səndən mənə müxtəlif sözləri bir-birinə yapışdırıb məktub bəzədiyin öyüd-nəsihət gəlib çatdı. *(Bəzi mətləblər əldə edərək bu məktubda onları bir-birinə yapışdırmısan, halbuki onların bir-biri ilə heç bir əlaqəsi yoxdur. Onların hər birinin harada və necə işlədilməsinin gərəkliyini bilmədiyin üçün)* öz azğınlığın səbəbindən bu məktubu hazırlamısan və fikir və düşüncənin pisliyindən onu *(mənə)* göndərmisən! Məktub düz yola istiqamətləndirəcək gözü *(bəsirət və gözüaçıqlığı)* və nicat yoluna sövq edəcək başçısı və cilovdarı olmayan kimsədəndir. Nəfsi istək onu *(belə bir işə)* vadar edib, o da qəbul edib, azğınlıq onun rəhbəri olub, o da onun dalınca gedib. *(Buna görə də)* o, sayıqlayaraq boşboğazlıq edib və bihudə fəryad qoparıb *(mənası başa düşülməyən nadürüst sözlər deyib)*; yolunu azaraq səhv edib *(belə nalayiq sözlər yazıb)*.

## Bu da həmin məktubun bir hissəsidir

*(O Həzrətə beyət edənlərlə beyət etməyənlərin boyunlarına düşən vəzifələrin bərabərliyi barəsində:)*

*(Ey Müaviyə, mənimlə beyət etmək və peyman bağlamaq məsələsində Bəsrə əhalisi, Təlhə, Zübeyr, sən və Şam əhlinin vəzifəsi yeksan və bərabərdir.)* Çünki o bir beyətdir ki, *(Məhəmməd - səlləllahu əleyhi və alih – ümmətinin dayaq nöqtəsi saydığınız Mühacirlər və Ənsar toplaşaraq həmin məsələdə birləşiblər və onların, barəsində qərara gəldikləri heç bir beyətdə)* rəy və fikir iki olmur və onda *(başqa bir rəy)* seçmək başdan başlanmır, *(necə ki, Əbu Bəkr, Ömər və Osman və onlarla beyət barəsində belə əqidədəsiniz. Odur ki, həmin beyət məclisində olan kəs peymanı pozaraq başqasını seçə bilməz və orada olmayanın onu qəbul etməmək haqqı yoxdur. Buna görə də)* hər kim peymanı pozaraq ondan əl götürsə, *(müsəlmanların din və ayinlərinə)* tənə vurandır. *(Elə isə onunla*

*çıxdığı yola qayıdana kimi vuruşmaq lazımdır.)* Onun *(qəbul edilib-edilməməsi)* barəsində fikrə dalan da münafiq və ikiüzlüdür. *(Çünki sizin əqidə və əməl təcrübənizə görə həmin şəxsin rədd və ya qəbul etmək barəsində fikirləşməsi, möminlərin getdikləri yol və ona tabe olmağın vacibliyində şəkk-şübhədə olması və onun meylinin səmimiyyət və saflıqla olmaması deməkdir. Ona görə ki, əgər onun doğrudan da meyli olmuş olsaydı, fikirləşib duruxmadan möminlərin toplaşaraq barəsində birləşdikləri şeyi qəbul edərdi.)*

# 8-ci məktub

İmam Əli əleyhis-salamın Cərir ibn Abdullah Bəcəlliyə, onu *(beyət almaq üçün)* Müaviyənin yanına (Şama) göndərərkən yazdığı məktublardandır. (Qeyd)[1] Allaha həmd və Həzrət Peyğəmbərə *(səlləllahu əleyhi və alih)* salamdan sonra: mənim məktubum sənə çatan kimi Müaviyəni işini sona çatdıraraq bir tərəf barəsində qəti qərara gəlib hazırlaşmağa vadar et. *(Sərgərdanlığı özündən uzaqlaşdırsın və səni yubatmasın, beyət etməkdə bəhanə axtararaq bu gün–sabah etməsin.)* Sonra ona

---

[1] *Bəcəli, babaları Yəməndə Bəcilə ibn Səmar ibn Ərş ibn Əmr ibn əl-Qausa nisbət verilən Bəcilə adlı qəbiləyə mənsubdur. «Rical» yəni, ravilərin şəxsiyyətini və etibarını tədqiq edən elm alimləri Cəriri məzəmmət edir və onun rəvayət və sözlərinə etimad etmirlər. Onlar deyirlər ki: Cəririn İmam əleyhis-salam tərəfindən Müaviyəyə məktub aparmasının ilk baxışda onun yaxşılığına dəlalət etməsinə baxmayaraq, işin sonunda o Həzrətdən ayrılaraq Müaviyəyə qoşulması onun pisliyini sübut edir. Mərhum Hacı Şeyx Abdullah Mamqani «Tənqihul-məqal» kitabında həmin məsələləri geniş şəkildə bəyan edib. Xülasə, İmam əleyhis-salam Cəriri Müaviyədən beyət almaq üçün Şama göndərəndə, Müaviyə müxtəlif bəhanələrlə ona cavab vermir, bu gün–sabah edirdi, o vaxta qədər ki, özü üçün Şam əhalisindən beyət aldı. İmamın Müaviyənin o Həzrətin əmrinə tabe olmayacağını bilən səhabələri Cərir Şamdan qayıdıb cavab gətirəndən qabaq dedilər: Şamlılarla müharibəyə hazırlaşmağımız məsləhətdir. İmam əleyhis-salam Cərir cavab gətirməmişdən qabaq şamlılarla müharibəyə başlamaqda qabağa düşməyi məsləhət bilmir və onun səbəbini qırx üçüncü kəlamda deyilənlərlə izah edirdi. Buna görə də işin birdəfəlik olması məqsədi ilə Cərirə Müaviyədən beyət alması üçün bu məktubu yazmışdır.*

camaatı məcburiyyət və nigaranlıqla öz vətən və asayiş yurdundan didərgin salan dağıdıcı müharibə ilə xaredici sülh və barışıq arasında sərbəst seçim etmək imkanı ver. *(Çünki barışıq acizliyin nişanəsidir. İmam əleyhis-salam burada hər iki halda, istər müharibə etsə, istərsə də barışıq etsə qələbənin onunla olacağını başa salmaq istəyir və bu sözlərlə onu hədələyir.)* Beləliklə, əgər müharibəni seçsə, amannaməni ona tərəf at və qayıt. Amma sülh və barışığı qəbul etsə, ondan beyət al. *(Vəzifəni tezliklə yerinə yetirərək geri dön və bizi gözü yolda qoyma).* Salama layiq kimsəyə salam olsun!

# 9-cu məktub

İmam Əli əleyhis-salamın Müaviyəyə məktublarındandır. *(Müaviyə o Həzrətə məktub göndərərək ondan Osmanın qatillərini ona təhvil verməyi istəmişdi. İmam əleyhis-salam bu məktubu ona cavab olaraq yazıb və orada öz fəzilət və kəramətlərini, həmçinin İslam və imanda öncül olmasını xatırladaraq buyurur:)* (Qeyd)[1]

---

*[1] Müşriklər Həbəşistanın müsəlmanlar üçün sığınacaq yeri olmasını və ora qaçanların hər birinin təhlükəsiz və rahat gəzib-dolanmasını, Məkkədə qalanların isə Əbu Talibin pənahında olmasını, həmçinin Həmzənin İslamı qəbul etməsinin müsəlmanları gücləndirməsini gördükdən sonra böyük bir məclis təşkil etdilər və Qüreyş qəbiləsi üzvlərinin hamısı Peyğəmbəri (səlləllahu əleyhi və alih) öldürmək üçün əlbir oldu. Bu fikirdən xəbərdar olan Əbu Talib Bəni-Haşim və Bəni-Əbdülmüttəlibi bir yerə toplayaraq arvad-uşaqları ilə «Şeb Əbu Talib» deyilən dərədə yerləşdirdi. Əbdülmüttəlib övladlarının müsəlman və qeyri-müsəlmanları qəbiləni qorumaq və Əbu Talibin göstərişlərini yerinə yetirmək üçün Həzrət Peyğəmbərdən köməklərini əsirgəmədilər, düşmənlərlə əlbir olan Əbu Ləhəbdən başqa! Əbu Talib öz qohumları ilə Peyğəmbəri qorumağa çalışaraq «Şeb»in, yəni, dərənin hər iki tərəfində gözətçi qoyur və Həzrət Peyğəmbərin yerində çox vaxt öz oğlu Əli əleyhis-salamı yatırdırdı. Həmzə gecələr Peyğəmbərin ətrafında gəzişirdi. Qüreyş kafirləri bu vəziyyəti müşahidə edib o Həzrətə bir şey edə bilməyəcəklərini bildikdən sonra, onların böyüklərindən qırx nəfəri Məkkədə toplantı məkanı olan «Darun-nədvə»də toplaşaraq Əbdülmüttəlib və Bəni-Haşimlə Peyğəmbəri öldürmək üçün onlara*

*təhvil verməyincə dostluq etməmək, qız verib-almamaq, alış-veriş etməmək və onlarla barışmamaq barəsində peyman bağladılar. Onlar həmin peymanı bir səhifəyə yazaraq ona möhür vurdular və onu saxlamaq üçün Əbu Cəhlin xalası Ummul-Culasa tapşırdalır. Bəziləri də nəql ediblər ki, həmin peymannaməni Kəbə evinin qapısından asdılar. Bu peymanla da Bəni-Haşim «Şeb Əbu Talib»də mühasirədə qaldı. Məkkə əhalisindən heç kəsin onlarla alver etməyə cürəti yox idi. Yalnız müharibə haram olan Həcc mövsümündə bu iş qismən mümkün idi və ərəb qəbilələri Məkkəyə gəlirdilər. Müsəlmanlar da Şebdən çölə çıxaraq digər ərəblərdən ərzaq məhsulları alıb geri qayıdırdılar. Qureyş bunu da rəva bilmirdi. Qureyş Bəni-Haşim üzvlərindən birinin nəyisə almaq istədiyindən xəbərdar olan kimi həmin şeyin qiymətini yuxarı qaldıraraq onu özləri alırdı. Qureyşdən kiminsə Əbdülmüttəliblə qohumluq əlaqələrinə görə Şebə yemək göndərməsini bilsəydilər, həmin şəxsi incidirdilər. Şebdə olanlardan kimsə çölə çıxsaydı və onlar onu tutsaydılar, ona işkəncə verirdilər. Əbulas ibn Rəbi, Xədicənin qardaşı oğlu Həkim ibn Xəram ibn Xuvəylid və Hişam ibn Əmr onlara yemək göndərənlərdən idilər. Üç il belə keçdi. Bəzən Bəni-Əbdülmüttəlib uşaqlarının acından fəryad səsləri elə ucalırdı ki, müşriklərin Bəziləri həmin peymanı bağladıqları üçün peşman olurdular. Onlardan beş nəfəri – Hişam ibn Əmr, Züheyr ibn Əbi Üməyyə, Mətəm ibn Ədiyy, Əbulbəxtəri və Zəmə ibn əl-Əsvəd – bir-biri ilə söz qoydular ki, əhdlərinə qarşı çıxaraq peymanı pozsunlar və müqaviləni cırsınlar. Qureyşin böyükləri səhər vaxtı Kəbədə toplaşaraq bu məsələ barəsində danışdıqları zaman birdən Əbu Talib, ətrafındakı bir dəstə ilə Şebdən çıxaraq Kəbəyə gəldi və müşriklərin arasında oturdu. Əbu Cəhl belə güman etdi ki, Əbu Talib Şebdə çəkdiyi əziyyətlər nəticəsində dözümünü itirib və indi Peyğəmbəri (səlləllahu əleyhi və alih) təhvil verməyə gəlib. Əbu Talib dedi: Ey camaat, sizin xeyrinizə olan bir söz deyim. Qardaşım oğlu Məhəmməd (səlləllahu əleyhi və alih) mənə xəbər verib ki, Allah, peymanı yazdığınız kağıza mürgənə göndərib və o, orada yazılanların hamısını yeyib və ancaq Allahın adını saxlayıb. İndi həmin peymannaməni gətirin. Əgər o düz deyibsə sizin onunla danışmağa nə sözünüz ola bilər? Onunla düşmənçilikdən əl çəkin. Əgər yalan demiş olsa, onu sizə təhvil verəcəyəm ki, öldürəsiniz. Onlar dedilər: Yaxşı sözdür. Sonra gedib həmin məktubu Ummul-Culasdan alıb gətirdilər və açıb gördülər ki, mürgünə cahiliyyət dövründə məktubun əvvəlində yazılan «بِاسْمِكَ اللّٰهُمَّ» «bismikəllahummə» kəlməsindən başqa onun hamısını yeyib. Həmin peymannaməni yazan Mənsur ibn Əkrəminin əli çolaq olmuşdu. Müşriklər vəziyyəti belə görüb xəcalət çəkdilər. Sonra Mətəm ibn Ədiyy məktubu cıraraq dedi: Biz bu zülmedici məktuba*

Beləliklə, qəbiləmiz *(Qüreyş)* Peyğəmbərimizi öldürmək və bizim kökümüzü kəsmək *(məhv etmək)* istədi. Bizim üçün qəm-qüssə yaratdılar, barəmizdə nalayiq işlərə əl atdılar və bizi *(həyatın)* asayiş və şirinliyindən məhrum etdilər. Qorxu və vahiməni ancaq bizə aid etdilər və bizi məcburi olaraq sərt dağa *(otsuz, susuz Şeb Əbu Talibə)* getməyə vadar etdilər *(və orada bizi mühasirəyə aldılar; bütün bunlar Həzrət Peyğəmbərin ilahi elçi kimi göndərilməsinin yeddinci ilinin əvvəlində baş verdi)* və bizə qarşı müharibə alovu qızışdırdılar. Biz Allahın istəyi ilə düşmənin şərini Onun Peyğəmbərindən uzaqlaşdırdıq. (*O Həzrətə bir xəsarət dəyməyə qoymadıq.)* Bizim *(Peyğəmbərə iman gətirmiş Əbu Talib və Həmzə kimi)* möminlərimiz Peyğəmbəri himayə etməyin mükafatını *(Allahın razılığını)* diləyir, *(Abbas və Mətəm ibn Ədiyy kimi İslamı qəbul etməmiş)* kafirlərimiz *(isə o Həzrətlə)* qohumluqlarına görə *(onu)* himayə edir və yardım göstərirdilər. *(Biz Bəni-Haşimdən başqa)* Qureyşdən müsəlman olan digər kimsələrin bizim qədər *(kafir və müşriklərdən)* qorxu və vahimələri yox idi. Səbəb onların *(müşriklərlə)* and və peymanlarının olması, ya da *(onlarla)* qohum olmaları idi. *(Bu səbəblər)* onu qorxu və vahimədən saxlayırdı və o, öldürülməkdən *(ölüm təhlükəsindən)* amanda olurdu.

*(Allah müşriklərlə müharibə və onların şərlərinin uzaqlaşdırılmasını əmr edəndə və)* savaş, camaatın *(qorxu və vahimədən)* geri çəkilmələri həddinə qədər çətinləşəndə, Həzrət Peyğəmbər *(səlləllahu əleyhi və alih)* öz əhli-beytini qabağa verir və onların vasitəsi ilə səhabələri və qoşununu nizə və şəmşirlərin *(yaradacağı yaraların)* istiliyindən

---

*nifrət edirik. Bundan sonra Əbu Talib Şebə qayıtdı. Səhərisi gün Mətəm ibn Ədiyy Qureyşdən olan digər dörd nəfərlə birlikdə Şebə gedərək Bəni-Əbdülmüttəlibi Məkkəyə gətirib evlərində yerləşdirdilər. Amma müşriklər Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) Şebdən çıxandan sonra yenə də öz səhv əqidələrinə görə bacardıqca o Həzrətlə düşmənçilik etməkdən əl çəkmədilər və ona əzab-əziyyət verməyi davam etdirdilər. Xülasə, İmam əleyhis-salamın aşağıdakı məktubda həmin hadisələrə toxunaraq buyurduqları Müaviyəni qəflət yuxusundan oyatmaq üçün olmuşdur.*

qoruyurdu. *(O Həzrətin əmisi oğlu)* Ubeydə ibn Haris *(ibn Əbdülmüttəlib)* Bədr müharibəsində *(Bədr Məkkə yolunda, Mədinə yaxınlığında qazılmış quyunun adıdır), (o Həzrətin əmisi)* Həmzə Ühüd müharibəsində *(Ühüd Mədinə yaxınlığındakı bir dağın adıdır)* və *(qardaşım)* Cəfər Mutə müharibəsində *(Mutə Şam ətrafında yer adıdır)* öldürüldü. İstəmədiyim üçün adını çəkmədiyim kimsə də *(İmam əleyhis-salam),* onlar kimi öldürülməyi və *(Allah yolunda)* şəhid edilməyi istəyirdi. *(Mənim də şəhid olmaq və öldürülmək arzum var idi.)* Lakin onların ömürləri daha tez sona çatdı və adını çəkmədiyim şəxsin ölümü təxirə düşdü. *(Peyğəmbər mənə xəbər verdi ki, sən də öldürüləcəksən. İmam yüz əlli beşinci kəlamda bu mətləbə işarə edib.)* İndi *(Həzrət Peyğəmbəri qorumaq və İslam dinini yaymaq üçün çəkdiyim bu qədər əziyyət və çətinliklərdən sonra)* ruzgara təəccüb edirəm ki, elə bir zamana gəlib çıxmışam ki, dinin yardımı üçün mənim kimi çalışmamış və İslamda mənim *(Allaha və Peyğəmbərə iman gətirməkdə)* malik olduğum birincilik və öncüllük iftixarıma malik olmayan birisi mənimlə bərabər hesab edilir. Heç kəs belə bir iftixar əldə edə bilməz. Ancaq iddia edən *(Müaviyə)* iddia edərək (özü barəsində) mənim bilmədiyim və Allahın da tanımasını güman etmədiyim belə bir şey deyər. *(Çünki Allaha və Peyğəmbərə ilk iman iftixarı məndən başqasına nəsib olmayıb ki, Allah da onu tanısın.)* Hər halda həmd-səna Allaha məxsusdur *(ki, məsləhət bilib sənin kimisini mənim qarşımda qoyub, sən də haqq və həqiqətə zidd nalayiq şeylər iddia edirsən)*.

Amma Osmanın qatillərini sənə göndərməklə bağlı istəyin barəsində: mən bu barədə fikirləşdim və gördüm ki, onları sənə və səndən başqasına göndərmək mənim öhdəmdən xaricdir. (Qeyd)[1] *(İmam sonra Müaviyəni hədələyərək*

---

[1] *Çünki onların sayı hədsiz, gücləri çoxdur. Necə ki, İmam əleyhis-salam yüz altmış yeddinci kəlamda həmin məsələyə işarə edərək buyurur:* «**كَيْفَ لِى بِقُوَّةٍ وَ الْقَوْمُ الْمُجْلِبُونَ عَلى حَدِّ شَوْكَتِهِمْ يَمْلِكُونَنا وَ لا نَمْلِكُهُمْ**» *Yəni: «Mən Osmanın qatillərindən necə intiqam ala bilərəm, halbuki onu*

*buyurur:)* Canıma and olsun, əgər azğınlıq və düşmənçilikdən əl çəkməsən, tezliklə səni axtaranları tanıyacaqsan ki, onlar bu axtarışlarında səni səhrada, dənizdə, dağda və düzənlikdə zəhmətə salmayacaqlar *(birbaşa sənin sorağına gələcəklər)*. Amma bu axtarış səni incidərək qəmləndirəcək və bu ziyarətçilərlə görüşmək və onları görmək səni sevindirməyəcək *(sənin sorağına elə gələcəklər ki, deyəcəksən: Ey kaş, mən onları tələb etməyəydim)*. Salama layiq kimsəyə salam olsun! (Qeyd)[1]

# 10-cu məktub

Bu da, imam Əli əleyhis-salamın Müaviyəyə məktublarındandır *(ki, İmam əleyhis-salam onda Müaviyənin çirkin əməllərini məzəmmət edir, ona öyüd-nəsihət verir və onu işlərinin pis nəticəsi ilə qorxudur)*.

Özünü *(dünyapərəstlər üçün)* bəzəyərək gözəl göstərən və ləzzətləri ilə aldadan yaşadığın dünyanın pərdələri səndən *(gözün önündən)* götürülən zaman nə edəcəksən? *(Dünya)* səni *(öz dostluğuna)* dəvət edib, *(sən də)* qəbul etmisən; qabağına düşüb dalınca getmisən; sənə əmr edib itaət etmisən. *(Ölüm, əzab və günahların cəzası ilə nə edəcəksən?)* Qarşını alacaq birisinin səni saxlaması *(onun gələcəyi zaman)* yaxındır. *(Ölüm gəlib çatıb səni)* o şeydən *(əzab və cəzadan)* xəbərdar edəcək ki, heç bir nicat verən səni xilas edə bilməyəcək. Buna görə də *(bu çətin keçidləri nəzərə alaraq nəfsi istəklərə tabe olmayıb)* bu işdən *(layiq olmadığın xilafət iddiasından)* əl çək və özünü hesab və sorğu gününə hazırla. Sənə çatacaq şey *(ölüm və ondan*

---

*öldürməyə toplaşanlar çox qüdrətli olmaqda qalmaqdadırlar və bizə ağalıq edirlər və biz onlara ağalıq etmirik.»*

[1] *İbn Əbil-Hədid özünün «Nəhcul-Bəlağə»yə olan şərhinin bu yerində belə deyir: İmam əleyhis-salamın «sənə salam olsun» deməsi düzgün olmazdı. Çünki o Həzrət Müaviyəni fasiq və günahkar hesab edirdi. Fasiqə hörmət göstərmək isə düz deyil. Buna görə də buyurur: Salama layiq kimsəyə salam olsun.*

*sonrakı çətinliklər)* üçün qolunu çırma *(çevik ol, çalış)*. Qulağına *(Əmr ibn As və Mərvan kimi)* azğınları dinləmək imkanı vermə *(onların sözlərinə qulaq asma və göstərişlərinə tabe olma)*. Əgər belə etməsən *(bu öyüd-nəsihəti qəbul etməsən)*, səni özün barəndə qafil olduğun şeydən xəbərdar edirəm: sən naz-nemət içərisində qərq olmusan, *(nemət səni üsyankar edib və buna görə də)* şeytan səndə *(sənin qəlbində)* yer tutub və öz arzusuna çatıb, sənin *(vücudunda)* can və qan kimi hərəkət edib. *(Sənə elə hakim olub ki, etdiyin hər bir iş, dediyin hər bir söz onun göstərişi ilədir. İmam əleyhis-salam bundan sonra onu məzəmmət edərək buyurur: )*

Ey Müaviyə, siz *(Üməyyə övladları)* heç bir xeyir və yaxşılıq iftixarına, möhtərəmlik və şərəfə malik olmadan nə vaxtdan rəiyyətə hakimlik və müsəlmanlara başçılıq ləyaqətinə sahib olmusunuz?! *(Bundan qabaq heç bir işdə fəzilət və üstünlüyün olmayıb ki, sənin xilafət və əmirlik iddiası etməyinə səbəb olsun.) (İnsanı şeytanın və nəfsi istəklərin davamçısı edən)* bədbəxtlik tarixçələrinin bərpa olmasından Allaha pənah aparıram! Səni həmişə arzulara aldanmaqdan və zahirinlə batininin iki cür olmasından çəkindirirəm. *(Dünyapərəstlik, münafiqlik və ikiüzlülükdən qorx. Sonra onu müharibə ilə hədələyərək buyurur:)*

Məni döyüşə çağırmısan. Elə isə camaatı bir tərəfə qoyaraq özün mənim yanıma gəl. Hər iki qoşunu döyüşdən saxla ki, günahın, bizlərdən hansının qəlbinə qələbə çalması, pərdənin *(qəflət pərdəsinin)* kimin gözü önündən asılması məlum olsun.*(Camaatı öz hallarına qoy ki, kimin Allah yolunda qılınc çalması, haqq yolda dayanması və qaçmaması bilinsin.)* Mən Əbul-Həsənəm, sənin babanı *(ciyər yeyən anan Hindin atası Ütbə ibn Rəbiəni)*, dayını *(Vəlid ibn Ütbəni)* və qardaşını *(Hənzələ ibn Əbu Süfyanı)* öldürən! Mən onları Bədr müharibəsində məhv etdim. Həmin qılınc *(indi də)* məndədir. Həmin ürəklə düşmənimlə üz-üzə gəlirəm. Başqa din seçməmiş, yeni peyğəmbər götürməmişəm. *(İslamın hökmlərinin heç birinin əksinə hərəkət etmirəm.)* Mən bir yoldayam ki, siz öz ixtiyarınızla onu tərk etdiniz və ona məcburiyyət

üzündən daxil olmuşdunuz. (Qeyd)[1] Belə güman edirsən ki, *(məndən)* Osmanın intiqamını almağa gəlmisən?! Halbuki Osmanın harada öldürülməsini *(və onu kimlərin qətlə yetirmələrini məndən yaxşı)* bilirsən. Əgər *(doğrudan da)* intiqam almaq istəyirsənsə, oradan *(onu öldürmüş Təlhədən, Zübeyrdən və digərlərindən)* intiqam al. Səni sanki *(onun intiqamını bəhanə edən, əslində isə)* müharibədən, dəvələrin yükün ağırlığından qopardıqları fəryadları kimi fəryad edib şivən qoparan görürəm, qorxursan ki, (o,) dişlərini sənə batırsın *(sənə üz tutsun)*. Sanki sənin qoşununu görürəm ki, aldıqları ardıcıl zərbələr, baş verəcək çətin hadisələr və bir-birinin ardınca torpağa düşmələri nəticəsində çarəsizlikdən məni Allahın kitabına dəvət edirlər *(ki, müharibədən əl götürüm)*. (Qeyd)[2] Həmin qoşun haqqa kafir və onu inkar edənlərdir *(ki, mənə beyət etməyiblər)*, yaxud beyət edib *(sonra ondan)* əl götürüblər. *(İraq münafiqləri o Həzrətə beyət edəndən sonra əhdlərini pozaraq Şama, Müaviyənin yanına getmişdilər.)*

# 11-ci məktub

İmam Əli əleyhis-salamın düşmənə tərəf göndərdiyi qoşuna olan tövsiyələrindəndir. (Qeyd)[3] Nə vaxt siz

---

[1] *Mənim söz və əməllərim, sizin elə əvvəldən öz xoşunuzla qəbul etmədiyiniz İslam dininin hökmləri əsasındadır. Siz naçar olduğunuz üçün zahirdə iman gətirərək batində kafir qaldınız.*

[2] *«Hərir» gecəsinin sübh çağı Şam qoşunu Əmr ibn Asın göstərişi ilə Quranları nizələrin başına keçirtdi və İraq qoşunundan sülh və barışıq istədi. Otuz altıncı xütbənin şərhində bu mətləbə işarə edilib. İmam əleyhis-salamın buyuruğundakı bu cümlə qeyb xəbərlərindəndir ki, hadisə baş verməmişdən onu Müaviyəyə xatırladır.*

[3] *Bu, həm də İmam əleyhis-salamın səhabələrinin yaxşı simalarından olmuş Ziyad ibn Nəsr və Şüreyh ibn Haninin məktublarına yazdığı cavab məktubunun bir hissəsidir. İmam əleyhis-salam onları on iki min nəfərlik İraq qoşunu ilə birlikdə Şam qoşununa qarşı müharibəyə göndərmişdi. Yolda onlar bir-birləri ilə müxalifət edərək hər biri Kufəyə o Həzrətə məktub göndərib digərindən şikayət etmişdi. O Həzrət*

düşmənlə rastlaşsanız və ya düşmən sizinlə rastlaşsa *(qarşı-qarşıya gəlsəniz)*, gərək sizin qoşunun düşərgəsi hündür yerlərdə *(təpələrdə)*, ya dağların ətəyində, ya da çayların kənarında olsun ki, sizə kömək etsin, *(onların əllərinin sizə çatmasına)* mane olsun. Həmçinin sizin *(düşmənlə)* döyüşünüz gərək bir, yaxud iki tərəfdən olsun. *(Çünki bir neçə tərəfli döyüşün nəticəsi pərakəndəlik, zəiflik və məğlubiyyətdir.)* Dağların yüksəklikləri və hamar təpələrin üstündə özünüz üçün gözətçi qoyun ki, düşmən sizə tərəf gəlməsin, istər *(«məbada gəlsin» deyib)* qorxduğunuz yerdən, istərsə də *(həmin istiqamətdən gəlməməsindən)* əmin və arxayın olduğunuz yerdən. *(Ola bilər ki, gözlənilmədən həmin yerdən gəlsin. Belə olanda gözətçilər uzaqdan düşmənin gəlməsini görüb sizi xəbərdar edərlər və siz, onların qarşısını almaq fikrində olarsınız.)* Bilin ki, qoşunun qabağında gedənlər onun gözətçiləridir və qoşunun qabağındakıların gözətçiləri *(qoşunun qabağında gedən bir neçə nəfər)* kəşfiyyatçılardır. (Qeyd)[1] Bir-birinizdən ayrılmaq və pərakəndəlikdən çəkinin. *(Bir yerdə)* düşən zaman *(oturaq salanda)* hamılıqla düşün və (hərəkət edərək) köçəndə hamılıqla köç edin. Gecə sizi bürüyəndə *(axşam gəlib çatanda)* nizələri *(öz ətrafınızda)* dairəvi *(şəkildə)* yerləşdirin *(ki, düşmən gecə basqın edəndə müdafiə alətləri əliniz çatan yerdə olsun).* Yuxunu dadmayın *(rahat yuxuya getməyin)*, az miqdar və suyu ağızda dolandıraraq çölə tökmək qədər istisna olmaqla! *(Mürgü vurun, amma rahatlıqla yatmayın. Çünki düşmən oyaq olar və gecə basqın etmək fikrinə düşə bilər.)*

# 12-ci məktub

---

*onların hər ikisinin cavabında məktub yazmışdı ki, həmin məktubun bir hissəsində onlara düşmənlə döyüş taktikasını xatırladır.*

[1] *Xülasə, gərək bir neçə nəfər kəşfiyyatçı qabaqda, qoşunun gözətçiləri onların arxasınca, qoşunun özü isə onlardan sonra getsinlər ki, düşmənin işlərindən xəbərdar olub hər bir məsələdə düşünülmüş addım atsınlar.*

İmam Əli əleyhis-salamın *(səhabə və şiələrindən olmuş)* Məqil ibn Qeys Riyahiyə olan tövsiyələrindəndir. İmam əleyhis-salam *(bu məktubu)* onu *(Mədaindən)* üç min nəfərlə, Şam *(qoşunu)* istiqamətinə öz qoşununun başçısı kimi göndərəndə yazıb *(və məktubda Məqilə düşmənlə döyüş üslubunu öyrədir)*.

*(Mükafat və cəzasına)* qovuşmaqdan başqa çarən olmayan Allahdan qorx! Sənin Ondan başqa son *(gedəcək)* yerin yoxdur. (Qeyd)[1] Ancaq səninlə vuruşanla vuruş. *(Çünki səninlə vuruşmayan kimsə ilə vuruşmaq zülmdür və təqvalı, pərhizkar şəxs heç kəsə zülm etməz.)* Havanın sərin olduğu səhər və axşam vaxtları yol get və *(havanın isti olduğu)* gündüz çağı *(günorta)* camaatı *(istirahət etmələri və dincəlmələri üçün)* saxla və yavaş hərəkət etdir. *(Tələsmə ki, zəiflər də güclülərlə birlikdə gedə bilsinlər.)* Gecənin əvvəlində yol getmə. Allah onu köç etmək üçün deyil, dincəlmək, istirahət etmək və rahatlanmaq üçün nəzərdə tutub. (Qeyd)[2] Odur ki, gecənin əvvəlində bədən və miniyini rahat burax. Gecəni dincəldikdən sonra *(dan yeri sökülməmişdən)* səhər görünməyə başlayanda və ya dan yeri sökülən zaman Allah tərəfindən yetişəcək xeyir-bərəkətlə yola düş. Düşmənlə üz-üzə gələn zaman öz qoşununun ortasında dayan. Düşmənə, nə vuruşmaq istəyən adam qədər yaxınlaş, nə də onlardan döyüşdən qorxan adam qədər uzaq ol. Mənim əmrim sənə çatana qədər gözlə. (Qeyd)[3] Kin və düşmənçilik sizi onları *(haqq yola)* dəvət

---

[1] *Çünki sənin işin-gücün ancaq Onunladır. Elə isə Onun razılığı üçün cihad et və qorxma. Onun yolunda ölməkdən çəkinmə.*

[2] *Belə ki, Qurani-Kərimin Yunus surəsinin 67-ci ayəsində buyurur:* « **هُوَ الَّذِي جَعَلَ لَكُمُ اللَّيْلَ لِتَسْكُنُواْ فِيهِ وَالنَّهَارَ مُبْصِرًا إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَسْمَعُونَ** » *«Gecəni dincəlməyiniz üçün (qaranlıq), gündüzü (çalışıb ruzi qazanmağınız üçün) işıqlı edən Odur. Həqiqətən bunda (Allahın kəlamını) eşidənlər üçün (ibrətamiz) dəlillər vardır».*

[3] *Çünki əmr gəlməmişdən müharibəyə başlamaq bəlkə də yaxşı olmaz və onun ziyanı xeyrindən çox olar. Uzaqlaşmaq da düşmənin cəsarətlənməsinə səbəb olar.*

etməmişdən və hərtərəfli dəlillərlə başa salmamışdan qabaq onlarla savaşa başlamağa vadar etməsin. (Qeyd)[1]

# 13-cü məktub

İmam Əli əleyhis-salamın qoşun sərkərdələrindən olan iki nəfərə *(Ziyad ibn Nəsr və Şüreyh ibn Haniyə)* göndərdiyi məktublarındandır. (Qeyd)[2] *(Həmin məktubun mətni belədir:)*

Malik ibn Haris Əştəri sizə və sizin tabeçiliyinizdə olanlara başçı və əmir təyin etdim. Beləliklə, onun əmrinə qulaq asıb itaət edin və onu *(özünüzə)* zireh və sipər edin. Çünki o, süstlük *(bacarıqsızlıq)*, büdrəmək *(səhvə yol vermək)*, həmçinin çeviklik və cəldlik ehtiyat və ağıllılığa daha uyğun sayılan yerdə asta tərpənmək, asta hərəkət etmək daha yaxşı olan yerdə isə tələskənlik etmək qorxusu olan adamlardan deyil. *(Malik Allahın razılığını əldə etmək üçün çalışaraq heç vaxt süstlüyə yol verməz, bihudə sözlər danışaraq yersiz bir iş görməz.)*

# 14-cü məktub

---

[1] *Çünki kin və düşmənçilik ucbatından aparılan müharibə Allaha itaət və Onun buyuruqlarına tabe olmaq deyil, nəfsi istəklər üçündür. Buna görə də belə olan halda, kimsə öldürülsə və ya başqasını öldürsə, günahkardır və əzaba düçar olacaq.*

[2] *Onlar «Sur ər-Rum»da Müaviyənin qoşun başçısı Əbul Əvər Silmi və onun böyük qoşunu ilə qarşılaşdılar və onu və ətrafındakıları İmam əleyhis-salama tabe olmağa dəvət etdilər. Onlar isə bu dəvəti qəbul etmədilər. Sonra onlar baş verənləri o Həzrətə yazaraq Haris ibn Cumhan vasitəsi ilə göndərdilər. Əmirəl-möminin onların məktubunu oxuyub Malik Əştəri çağırtdıraraq buyurdu: Ziyad və Şüreyh mənə məktub yazıb əmrimi gözləyirlər. Gərək sən onların yanına gedərək Allahın istəyi ilə mən sənə çatana qədər onlara başçı olasan və Ziyadı sağ, Şüreyhi isə sol tərəfinə qoyasan. İmam əleyhis-salam Ziyad və Şüreyhə məktub yazaraq onlara Malik Əştərə tabe olmağı əmr etdi və həmin məktubu özünün dostlarından olan Haris ibn Cumhan ilə göndərdi.*

İmam Əli əleyhis-salamın Siffeyn müharibəsində düşmənlə *(Şam qoşunu ilə)* qarşılaşmamışdan qabaq öz qoşununa olan tövsiyələrindəndir *(ki, onda onlara qələbə yolunu göstərib və onları qadınları incitməkdən çəkindirib).*

Onlar *(Şam qoşunu)* sizinlə döyüşə başlamayınca siz müharibə etməyin *(müharibəyə başlamayın)*. Çünki Allaha şükr olsun ki, sizin dəlil və sübutunuz var. (Qeyd)[1] Sizin, onlar döyüşə başlamayınca onlarla müharibəyə başlamamağınız da, onlara qarşı olan digər bir sübut və dəlilinizdir. (Qeyd)[2] Buna görə də əgər *(onlar müharibəyə başlayaraq sizi də döyüşə vadar etsələr və)* Allahın əmr və istəyi ilə *(onlar meydandan)* qaçmaq və məğlubiyyətlə üzləşsələr, qaçanları öldürməyin,

---

[1] *Ona görə ki, onlar öz zamanələrinin imamına itaətsizlik ediblər və buna görə də onlarla vuruşmaq vacibdir. Necə ki, Allah-təala Qurani-Kərimin Hucurat surəsinin 9-cu ayəsində buyurur:* « **وَإِن طَائِفَتَانِ مِنَ الْمُؤْمِنِينَ اقْتَتَلُوا فَأَصْلِحُوا بَيْنَهُمَا فَإِن بَغَتْ إِحْدَاهُمَا عَلَى الْأُخْرَى فَقَاتِلُوا الَّتِي تَبْغِي حَتَّى تَفِيءَ إِلَى أَمْرِ اللَّهِ فَإِن فَاءتْ فَأَصْلِحُوا بَيْنَهُمَا بِالْعَدْلِ وَأَقْسِطُوا إِنَّ اللَّهَ يُحِبُّ الْمُقْسِطِينَ** » *«Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın. Əgər onlardan biri təcavüzkarlıq etsə, təcavüzkarlıq edənlə Allahın əmrinə (itaətinə) qayıdana qədər vuruşun. Təcavüzkarlıq edən (Allahın əmrinə) qayıtsa, hər iki dəstənin arasını ədalətlə düzəldin və insafla hərəkət edin. Şübhəsiz ki, Allah insaflıları sevər!»*

[2] *Çünki onların müharibəyə başlamaları Allah və Peyğəmbərlə müharibə etmələri kimidir. Buna görə ki, Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurub:* «**يا عَلِيُّ حَرْبُكَ حَرْبِى**» *«Ey Əli, səninlə müharibə etmək mənimlə müharibə etməkdir». Allah və Peyğəmbərlə müharibə edərək fitnə-fəsad törədəni də öldürmək lazımdır. Necə ki, Qurani-Kərimin Maidə surəsinin 33-cü ayəsində buyurur:* « **إِنَّمَا جَزَاء الَّذِينَ يُحَارِبُونَ اللّهَ وَرَسُولَهُ وَيَسْعَوْنَ فِي الأَرْضِ فَسَادًا أَن يُقَتَّلُواْ أَوْ يُصَلَّبُواْ أَوْ تُقَطَّعَ أَيْدِيهِمْ وَأَرْجُلُهُم مِّنْ خِلافٍ أَوْ يُنفَوْاْ مِنَ الأَرْضِ ذَلِكَ لَهُمْ خِزْيٌ فِي الدُّنْيَا وَلَهُمْ فِي الآخِرَةِ عَذَابٌ عَظِيمٌ** » *«Allaha və Onun peyğəmbərinə qarşı vuruşanların, yer üzündə fitnə-fəsad salmağa çalışanların cəzası ancaq öldürülmək, çarmıxa çəkilmək, ya əl-ayaqlarının çarpazvari kəsilməsi, yaxud da yaşadıqları yerdən sürgün olunmalarıdır. Bu cəza onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir». Həmçinin Bəqərə surəsinin 194-cu ayəsində buyurur:* « **فَمَنِ اعْتَدَى عَلَيْكُمْ فَاعْتَدُواْ عَلَيْهِ بِمِثْلِ مَا اعْتَدَى عَلَيْكُمْ وَاتَّقُواْ اللّهَ وَاعْلَمُواْ أَنَّ اللّهَ مَعَ الْمُتَّقِينَ** » *«Sizə qarşı həddini aşanlara (müharibəyə başlayanlara) siz də həmin ölçüdə həddi aşın. Allahdan qorxun və bilin ki, Allah təqvalılarladır».*

acizləri yaralamayın, yaralını öldürməyin, qadınları hətta sizin şərəfinizi söysələr və başçı və böyüklərinizə nalayiq sözlər desələr belə, *(onları)* incitməklə təhrik etməyin. Çünki onların güc, can (iradə) və ağılları zəif və süstdür. Bizə *(Həzrət Peyğəmbərin – səlləllahu əleyhi və alih – zamanında)* əmr olundu ki, onlardan əl götürək, halbuki onlar müşrik idilər. *(Deməli, zahirdə İslamı qəbul etdiklərini bildirsələr, mütləq onlara toxunaraq incitməkdən çəkinmək lazımdır).* Cahiliyyətdə kişi bir qadını daş və ya çomaq ilə vursaydı, buna görə onu və övladlarını məzəmmət edərdilər.

# 15-ci məktub

İmam əleyhis-salam düşmənlə qarşılaşanda və döyüşə hazırlaşan zaman *(Allahla münacat və razü-niyaz edərək Ondan kömək istəyib belə)* deyirmiş:

Allahım, *(bizim)* qəlblər*(imiz)* Sənə tərəf yönəlib, boyunlar*(ımız Sənə doğru)* uzanıb, gözlər*(imiz)* Sənə dikilib, ayaqlar*(ımız)* Sənin yoluna qoyulub və bədənlər*(imiz Sənin itaətində)* zəifləyib. (Qeyd)[1]

Allahım, *(Peyğəmbərinin bizim aramızdan getməsi ilə)* gizli düşmən üzə çıxdı və kin qazanları qaynadı. Allahım, Peyğəmbərimizin *(aramızda)* olmaması, düşmənlərin çoxluğu, *(nəfsi)* istək və düşüncələrimizin pərakəndəliyindən Sənə şikayət edirəm. (Qeyd)[2] *(Qurani-Kərimin Əraf surəsinin 89-cu ayəsində buyurulduğu kimi o, belə demişdi:)* « رَبَّنَا افْتَحْ بَيْنَنَا وَبَيْنَ قَوْمِنَا بِالْحَقِّ وَأَنتَ خَيْرُ الْفَاتِحِينَ» «Ey Rəbbimiz! Bizimlə tayfamız arasında ədalətlə hökm et. *(Bizim aramızda haqq və düzlüyü üzə*

---

[1] *Səndən başqasından göz yumaraq Sənin itaət və bəndəliyin yolunda hər şeydən keçmişik. Elə isə, bizə kömək et ki, Sənin razılığını əldə edək.*

[2] *Bu camaatdan olan incikliyimi Sənə bildirirəm ki, onları cəzalandırasan. Buna görə də Səndən Həzrət Şüeybin, ümmətinin pis rəftarları nəticəsində istədiyi şeyi istəyirəm.*

*çıxart ki, onlar bizlərdən kimin haqq olmasını başa düşsünlər.)* Axı Sən hökm verənlərin ən yaxşısısan *(ki, haqqı üzə çıxarırsan)*».

# 16-cı məktub

İmam əleyhis-salam döyüş vaxtı səhabələrinə *(düşmənlə vuruşmaq barəsində)* buyurub:

Arxasında qayıdış duran qaçış *(meydandan qaçmaq)*, sonrası düşmənə hücüm olan məğlubiyyət sizə ağır gəlməsin. (Qeyd)[1] Qılıncların haqqlarını əda edin. *(Düşmənə cəsurluqla qılınc endirin və onların)* arxalarını yerə vurun *(onları torpaq üstünə sərərək məhv edin)*. Özünüzü *(düşmənin)* içinə işləyən nizə atmağa və möhkəm qılınc çalmağa vadar edərək çox çalışın. Səsləri boğun. *(İztirab və nigarançılığın sizə yaxınlaşmasına yol verməyin və sakit qəlblə düşmənə tərəf üz tutun.)* Çünki o, qorxu və nigarançılığı daha çox uzaqlaşdırır. Toxumu cücərdən və insanı yaradan Allaha and olsun ki, *(Müaviyə, Əmr ibn As, Mərvan və digərləri kimi münafiq və ikiüzlülər daxilən)* İslamı qəbul etməyiblər. Amma *(qorxudan)* təslim olublar *(özlərini müsəlman kimi göstəriblər)* və küfrü *(qəlblərində olan küfrü)* gizlədiblər. Küfrə yardımçı tapan zaman onu üzə çıxartdılar. *(Din ilə müxalifət və bizimlə döyüş bayrağı ucaltdılar.)*

# 17-ci məktub

İmam Əli əleyhis-salamın Müaviyənin məktubuna cavab olaraq yazdığı məktublardandır. (Qeyd)[2]

---

[1] *Ərəblərin təsəvvür etdikləri kimi bu işi ar saymayın. Çünki ola bilər ki, düşmənlərin öz səngərlərini buraxıb qabağa gəlmələri və sizin arxadan hücüm edərək onları mühasirə etməyiniz üçün meydandan qaçmaq məsləhət olsun. Yaxud düşmənin hücumu nəticəsində meydandan qaçanda ümidsizləşməyin. Öz məğlubiyyətinizin səbəblərini aradan qaldıraraq yenidən meydana qayıdın.*

[2] *Həzrət bu məktubu, təfsilatı 36-cı xütbənin şərhində bəyan edilmiş «Hərir» gecəsi hadisəsindən iki-üç gün qabaq yazıb. O bu məktubda öz*

məqam və dərəcəsini açıqlayıb və Müaviyənin o Həzrətə yazdığı sözlərin səhv olmasını izah edərək onu məzəmmət edib. İbn Əbil-Hədid adı ilə məşhurlaşmış mötəzili şərhçi Əbdülhəmid ibn Hibətullah Mədaini və mərhum alim Kəmaləddin Meysəm ibn Əli ibn Meysəm Bəhrani (rəhiməhullah) özlərinin «Nəhcül-Bəlağə»yə olan şərhlərinin bu yerində az fərqli ibarətlərlə belə nəql ediblər: Müaviyə Əmirəl-möminin əleyhis-salama bir məktub yazıb ondan Şam vilayətinə vali təyin edilməsini istəmək fikrinə düşmüşdü. O bu fikrini Əmr ibn Asla bölüşdü. Əmr gülərək dedi: Ey Müaviyə, sən hansı fikirlərlə yaşayırsan? (Sən nə qədər də sadəlövhsən?) Elə güman edirsən ki, sənin hiylə və kələyin Əliyə (əleyhis-salam) təsir edə bilər?! Müaviyə dedi: Məgər biz Əbdül-Mənaf övladlarından deyilik?! (Mənimlə Əli arasında nə fərq var ki, hiylə və kələklərim ona təsir etməsin?) Əmr dedi: Düzdür, amma (söhbət əsil-nəsəbdə deyil, ad-san, məqam və dərəcədədir) onlar nübuvvət və peyğəmbərlik məqamına malikdirlər ki, sənin həmin məqamdan bir payın yoxdur. Əgər belə bir məktub yazmaq istəyirsənsə, yaz (ki, mənim sözümün düzlüyünü biləsən). Müaviyə sonra (Yəmən qəbilələrindən olan) Səkasik qəbiləsinə mənsub Abdullah ibn Əqəbəni çağırtdırdı və onunla Əmirəl-möminin əleyhis-salama məktub göndərdi və həmin məktubda belə yazdı: «Əgər biz müharibə və qan axıdılmasının bizim üçün bu qədər bəla və müsibət yaradacağını bilsəydik, heç birimiz ona başlamazdıq. Biz indi öz ağıllarımıza qalib gəlmişik. Bizim üçün qalmış çıxış yolu keçmişdən peşman olaraq gələcəkdə islah etmək fikrində olmaqdır. Bundan əvvəl səndən Şam vilayətini istədim. Sən itaət və fərmanını mənim boynuma qoymadan onu qəbul etmədin. Bu gün də səndən həmin şeyi istəyirəm. Gizli deyil ki, sən həyatdan, mənim ümid bağladığım şeydən başqa bir şey istəmirsən, yoxluqdan mənim qorxduğumdan başqa bir şeydən qorxmursan. Allaha and olsun ki, əsgərlər məhv olublar və döyüşçülər yoxa çıxıblar. Biz Əbdül-Mənaf övladlarıyıq və bizlərdən birinin digərindən üstünlüyü yoxdur ki, onun vasitəsi ilə hörmətli xar, azad isə qul olsun. Vəssalam». Abdullah ibn Əqəbə məktubu İmam əleyhis-salama çatdıranda o Həzrət onu oxuyub buyurdu: Qəribədir, Müaviyə və onun məktubu! Sonra öz katibi və ən yaxın və seçilmiş şiələrindən olan Abdullah ibn Əbi Rafeni çağırıb ona belə bir cavab yazmasını buyurdu: «Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: məktubun gəlib çatdı. Yazmısan ki, əgər müharibənin bizə bu qədər ziyan vuracağını bilsəydik, heç birimiz ona başlamazdıq. Bil! Mənimlə sənin müharibənin sonu var ki, biz hələ ona çatmamışıq. Mən əgər Allah yolunda və Onun düşmənləri ilə müharibədə yetmiş dəfə ölüb dirilsəm, çalışmaqdan əl çəkmərəm. Həmçinin deyibsən ki, bizim qalan

Məndən Şam vilayətini istəməyinə gəldikdə (bilməlisən ki): mən dünən sənə verməyərək əsirgədiyim şeyi bu gün verən kimsə deyiləm. *(Çünki mənim oranı sənə verməməyimin səbəbi sənin haqqa qarşı çıxmağın və dinə laqeydliyindir ki, həmin səbəb indi də öz yerində qalmaqdadır.)* «Müharibə ərəbi yeyib *(öldürərək məhv edib)*, qalan canları almayaq!» kimi sözlərin barəsində bil və xəbərdar ol ki, haqqın yediyi *(haqq yolunda şəhid olan)* kimsə cənnətə yollanıb, batil və nahaqqın yediyi kimsə *(nəfsi istəkləri yolunda öldürülən)* isə cəhənnəm yolunu gedir. *(Hər iki halda təəssüflənmək və qəmlənmək lazım deyil.)* Bizim, müharibədə və *(döyüşçü)* kişilər baxımından bərabər olmağımız barəsində *(dediklərin də düz deyil, çünki)*: Sənin şəkk və tərəddüd *(bir neçə günlük dünya ağalığını əldə etmək)* üçün olan səy və təlaşın mənim yəqinlik və inam *(axirət səadəti və xoşbəxtliyi)* üçün səyimdən artıq deyil; Şam əhalisinin dünyaya hərisliyi İraq əhalisinin axirət hərisliyindən çox deyil. «Biz Əbdül-Mənaf övladlarıyıq» sözünə gəldikdə, biz də eləyik. (Qeyd)[1] Amma Üməyyə Haşim kimi, Hərb Əbdülmüttəlib kimi və Əbu-Süfyan Əbu Talib kimi deyil. (Qeyd)[2] *(Burada «mən də*

---

*ağlımız keçmişdən peşman olmağımızdır. Bil ki, mən əqlə zidd iş görməmişəm və etdiklərimdən peşman deyiləm.*

[1] *Çünki İmam əleyhis-salam Əbu Talib ibn Əbdülmüttəlib ibn Haşim ibn Əbdül–Mənafın, Müaviyə isə Əbu Süfyan ibn Hərb ibn Üməyyə ibn Əbdüşşəms ibn Əbdül-Mənafın oğludur.*

[2] *Çünki Bəni-Haşim şirk və küfr çirkinliklərinə bulaşmadı. Bəni-Üməyyə isə bu cəhətdən murdarlandı. Bəni-Haşim nübüvvət və vilayət dürrünün sədəfləri, Bəni-Üməyyə isə şər və günah mənbəyi idi. İbn Əbil-Hədid burada belə yazır: Tərtib İmam əleyhis-salamın Əbdüşşəmsin qardaşı Haşimi onunla bir sırada, Üməyyəni Əbdülmüttəlibin müqabilində, Hərbi isə Əbu Talibin müqabilində deməsini tələb edirdi ki, Əbu Süfyan, Əmirəl-möminin əleyhis-salamın müqabilində olsun. Amma o Həzrət Siffeyndə Müaviyənin müqabilində olduğu üçün Haşimi Üməyyə ibn Əbdüşşəmsin müqabilində qoydu və «mən sənin kimi deyiləm» buyurmadı. Çünki belə deyilməsi yaxşı deyildi, necə ki, «qılınc əsadan daha işləkdir» deyilmir. Hətta bu cümləni müsəlmanların biri barəsində deməsi də yaxşı olmazdı. Bəli, bu cümləni bəzən işarə ilə buyurardı. Çünki o Həzrət özünü kiminləsə müqayisə etmək və kiməsə bənzətməkdən üstün idi.*

*sənin kimi deyiləm» demək əvəzinə işarə ilə belə buyurdu:)* Mühacir (Məkkədən Mədinəyə hicrət edən) əsirlik zəncirindən azad olan kəs kimi deyil. (Qeyd)[1] Nəsəbi pak olan da *(həmin pak nəsəbə)* yapışdırılmış kimi deyil. (Qeyd)[2] Nə danışıq və işləri düz olan, yalançı və pis əməlli kimidir, nə də mömin və dinə sığınan, münafiq və ikiüzlü kimi. Həqiqətən keçib cəhənnəm oduna düşən atasının *(yaxud qohumlarının)* yolunu davam etdirən övlad nə pis övladdır! *(Sən pis övladsan ki, küfr, şirk, yalançılıq və ikiüzlülük nəticəsində ilahi əzaba düçar olan keçmişlərinin yolunu davam etdirirsən!)*

---

[1] *Çünki İmam əleyhis-salam hər yerdə və həmişə Həzrət Peyğəmbərlə birgə olub. Müaviyə isə Məkkənin fəthində qılınc gücünə əsir olmuşdu. Həzrət Peyğəmbər Müaviyə İslamı qəbul etdiyi üçün onu minnət qoyaraq azad etdiyi kimsələrdən biri etdi. Minnət qoyularaq azad edilənlər içərisində Sifvan ibn Üməyyə kimi İslamı qəbul etməyənlər və Müaviyə ibn Əbu Süfyan kimi zahirdə İslamı qəbul edənlər var idi. Buna görə də müharibədə əsir olan və «fida», yəni, mal ödəmək və ya minnət qoymaq vasitəsi ilə azad olan kimsə «طَلِيق» «təliq», yəni, «azad edilmiş» çağırılırdı.*

[2] *Ata-babaları məlum və aşkar olan şəxs atasından başqasına nisbət verilmiş kimsə kimi deyil. İbn Əbil-Hədid bu yerdə belə yazır: Həmin cümlədən məqsəd budur ki, etiqad və saf niyyətlə İslamı qəbul edən şəxs, qılınc qorxusundan və ya dünya malı əldə etmək üçün müsəlman olan kəs kimi deyil. Əllamə Məhəmmədbaqir Məclisi (rizvanullah əleyh) «Biharul-ənvar» kitabının səkkizinci cildində, bu məktubun şərhində belə deyir: İbn Əbil-Hədid bu yerdə Müaviyənin abır-həyasını qorumaq üçün özünü nadanlığa vurub. Bizim alimlərdən bəziləri imamət barəsindəki kitablarında yazıblar ki, Üməyyə Əbdüşşəmsin nəslindən deyil, rum qulamlarından olub və Əbdüşşəms onu özünə nisbət verib. Cahiliyyət dövründə adət belə idi ki, biri qulamını özünə nisbət verməK istəyəndə, həmin qulu azad edib onu bir ərəb qızı ilə evləndirirdi və bununla da qul onun nəsəbinə birləşirdi. Necə ki, Zübeyrin atası Əvam, Xuvəylidə nisbət verilib. Deməli, Bəni-Üməyyə Qureyşdən deyil, bəlkə onlara yapışdırılıb. Bu sözü Əmirəl-möminin əleyhis-salamın, Müaviyənin «biz Əbdül Manaf övladlarıyıq» deyə yazdığı məktub və iddiaya cavab olaraq buyurduğu «Hicrət edən azad edilmiş kimi deyil, nəsəbi pak olan yapışdırılmış kimi deyil» cümlələri də təsdiq edir. Müaviyə bu sözləri dana bilməyib.*

Bütün bu fəzilət və böyüklüklərdən əlavə nübuvvət və peyğəmbərlik fəziləti və şərəfi də bizim əlimizdədir. *(Peyğəmbər biz Bəni-Haşimdən göndərilib.)* Biz onun vasitəsi ilə hörmətlini xar, xar olanı isə hörmətli etdik. *(Səadət və xoşbəxtlik düşmənlərini məhv edərək onu istəyənlərə dünya və axirət əzab və çətinliklərindən nicat verdik.)* Allah ərəbi dəstə-dəstə öz dininə daxil edəndə, bu ümmətdən *(bir dəstə)* meyl və rəğbətlə, *(digər bir dəstə isə)* naçarlıqdan təslim oldu. *(İslamı çıxılmaz vəziyyətdə qalıb qəbul etdilər.)* Siz *(dünyaya)* məhəbbət və ya *(öldürülməkdən)* qorxu səbəbindən dinə daxil olan kəslərdən idiniz. *(Bu)* o vaxt *(baş verdi)* ki, qabaqda gedənlər *(İslama səmimiyyətlə)* tabe olduqları üçün qalib gəlmişdilər və ilkin Mühacirlər fəzilət və böyüklüklərinə görə getmişdilər *(və özlərinə şirk və küfrdən nicat vermişdilər)*. Bəs *(indi ki, sənin vəziyyətin belədir)* Şeytanın səndən bəhrələnməsinə və *(onun)* sənə yol tapmasına imkan vermə. *(Şeytana tabe olub dalınca düşərək bu cür çirkin və nadürüst sözlər yazma, Allahın və Onun Peyğəmbərinin hökmlərinə tabe ol!)* Salama layiq kimsəyə salam olsun! (Qeyd)[1]

---

[1] *İbn Əbil-Hədid burada belə yazır: O Həzrətin məktubu Müaviyəyə çatanda o, həmin məktubu bir neçə gün Əmr ibn Asdan gizlətdi. Sonra onu çağırtdıraraq məktubu ona oxudu. Əmr Müaviyəni danladı və İmam əleyhis-salamın onu məzəmmət etməsindən şad oldu.*

# 18-ci məktub

İmam Əli əleyhis-salamın, Abdullah ibn Abbas onun tərəfindən Bəsrənin hakimi olan zaman ona yazdığı məktublarındandır. (Qeyd)[1]

Ey Abbasın oğlu! Bil ki, Bəsrə Şeytanın endiyi yer və fitnələr tarlasıdır. *(Bu şəhərin fitnə axtaranları çoxdur.)* Buna görə də o diyarın əhalisinə yaxşılıq etməklə, onları şad edərək sevindir. Və *(pis davranışla onları üsyana qaldırma. Əgər onlar keçmiş nalayiq işləri nəticəsində qorxu və vahimə içindədirlərsə, sən)* onların qəlblərindən qorxu düyününü aç *(onlarla elə rəftar et ki, sənin onların keçmiş əməllərinə göz yumduğunu başa düşsünlər).*

Sənin Bəni-Təmim qəbiləsi ilə pis rəftar etməyin və kobud davranmağının xəbəri mənə çatdı. Həqiqətən Bəni-Təmimin bir ulduzu batmamış, digər bir ulduzu parlayıb. (Qeyd)[2] Cahiliyyət və İslam dövründə heç kəs intiqam almaqda onlardan qabağa düşməyib. *(Buna görə də bu cür adamlarla kobudluq və sərtliyə başlamaq olmaz.)* Həmçinin *(onlara qarşı kobudluq edilməməsinin digər səbəbi budur ki,)* onlar bizə yaxın qohumdurlar. *(Çünki Bəni-Haşimlə Bəni-Təmimin nəsəbi*

---

[1] *Abdullah ibn Abbas İmam əleyhis-salamın əmisi oğludur. «Rical» alimlərinin çoxu onu inanılmış, gözəl davranışlı, Peyğəmbərin – səlləllahu əleyhi və alih – səhabəsi və Əmirəl-mömininin şiə və tərəfdarı hesab ediblər. O, Bəsrənin hakimi olduqdan sonra, Cəməl müharibəsində Təlhə, Zübeyr və Aişənin tərəfində olmuş Bəni-Təmim qəbiləsi ilə düşmənçilik edir və pis davranırdı. Belə ki, o, onları Cəməl tərəfdarı və itaətkarları, «Əskər»in (Aişənin dəvəsinin adıdır) köməkçi və yardımçıları və Şeytanın tərəfdarları adlandırırdı. İbn Abbasın onlarla bu cür davranışı İmam əleyhis-salamın Bəni-Təmim qəbiləsindən olan şiələrinə ağır gəlirdi və onlar bu səbəbdən ondan incidilər. Sonra o Həzrətin Bəni-Təmim qəbiləsindəki şiələrindən olan Harisə ibn Qudamə İmama məktub yazaraq ibn Abbasdan şikayət etdi. İmam əleyhis-salam İbn Abbasa Bəni-Təmim qəbiləsi ilə mehriban olması barədə bir məktub yazdı və bu həmin məktubun bir hissəsidir.*

[2] *Onların fəzilət, böyüklük, şücaət və cəsurluq səmaları parlaq ulduzlardan boş olmayıb. Onlardan bir böyük öldürülən kimi, başqa birisi onun yerini tutub.*

*Həzrət Peyğəmbərin 16-cı babası İlyas ibn Müzərrə gedib çıxır. Buna görə də)* bizim həmin qohumluq tellərini birləşdirməyimizdə savab, qırmağımızda isə günah vardır. Odur ki, ey Əbul Abbas – Allah səni bağışlasın – əlindən və dilindən çıxan yaxşı və pis işlərdə *(danışıq və davranışında rəiyyətlə)* yumşaq davran. Çünki biz danışıq və davranışımızda bir-birimizlə şərikik. *(Ona görə ki, sən mənim tərəfimdən hakimlik edirsən.)* Elə ol ki, sənin barəndə yaxşı gümanda olum və sənin haqqında fikrim süstləşməsin *(heç vaxt yersiz söz danışma, mənim göstərişim olmadan bir iş görmə).* Salama layiq kimsəyə salam olsun. (Qeyd)[1]

# 19-cu məktub

İmam Əli əleyhis-salamın onun tərəfindən hakim olan bəzi şəxslərə yazdığı məktublardandır. *(Məktub müşrik olan və həmin hakimlərdən şikayət etmiş rəiyyətlərlə yumşaq davranmaq barəsindədir.)*

Allaha həmd və Peyğəmbərə salamdan sonra: hakim olduğun şəhərin *(su və torpaq sahibi olan)* əkinçiləri sənin kobudluğun, daşürəkliliyin, onları xar etməyin və zülmkarlığından şikayət ediblər *(məni sənin hərəkət və davranışından xəbərdar ediblər)*. Mən *(onların şikayətləri barəsində)* fikirləşdim. Onları sənin onlara çox yaxınlaşmağına *(çox hörmət və mehribançılığına)* layiq görmədim. Çünki onlar müşrikdirlər. *(Bəzi nəzərlərə əsasən həmin camaat müşrik deyil, atəşpərəst olublar.)* Amma onlar uzaq olmaq və zülm edilməyə də layiq deyildirlər. Çünki *(müsəlmanlarla)* peyman bağlayıblar *(cizyə, yəni, vergi verirlər və İslamın pənahındadırlar.)* Buna görə də onlarla *(davranışında)* sərtliklə qarışıq olan mehribançılığı öz şüarın et və onlarla sərtqəlblilik və

---

[1] *«Nəhcül-Bəlağə»nin məşhur şərhçilərindən olmuş Bəhrani (rəhiməhullah) burda belə yazıb: «Əbul Abbas Abdullah ibn Abbasın künyəsidir. Ərəblər birinə hörmət əlaməti olaraq onu öz künyəsi ilə çağırırlar».*

mehribançılıq arasında rəftar et. *(Bəzən sərt, bəzən də mehriban ol.)* Allahın istəyi ilə onlar üçün yaxınlaşdırmaqla lap yaxınlaşdırmağı və uzaqlaşdırmaqla lap uzaqlaşdırmağı bir-birinə qarışdır *(mötədilliyi əldən vermə).*

# 20-ci məktub

İmam Əli əleyhis-salamın Ziyad ibn Əbihə o, Bəsrə hökumətində Abdullah ibn Abbasın canişini olan zaman yazdığı məktublardandır. Abdullah həmin vaxt Əmirəl-möminin tərəfindən Bəsrə, Əhvaz, Fars və Kerman şəhərlərində hakim idi. (Qeyd)[1]

Mən Allaha and içirəm, özü də tam sədaqətlə və düz ki, əgər mənə, sənin müsəlmanların beytülmalına istər az, istərsə də çox xəyanət etməyin və ya onu göstərişə zidd *(yerlərə)* sərf etməyin *(barəsində xəbər gəlib)* çatsa, səninlə sərt davranacağam. *(Səninlə)* elə sərt *(davranacağam)* ki, o *(sərtlik)*, səni sərmayəsi az, yükü çox, zəlil və xar etsin. (Qeyd)[2] Salama layiq kimsəyə salam olsun!

# 21-ci məktub

---

[1] *İmam əleyhis-salam bu məktubda onu müsəlmanların beytülmalına xəyanət etməkdən çəkindirərək qorxudur. Onun Ziyad ibn Əbih, yəni, «atasının oğlu Ziyad» adlandırılmasının, daha dəqiq desək, atasının adının deyilməməsinin səbəbi atasının kimliyinin məlum olmamasıdır. O, iddia edirmiş ki, atası Əbu Süfyandır. Əbu Süfyan da Ömər ibn Xəttabın məclisində onu öz oğlu adlandırıb. Qırx dördüncü məktubun şərhində deyəcəyimiz kimi, onun, həmçinin Əbi Bəkrənin də anası olan Suməyyə zina etməkdə məşhur imiş. Deyirlər ki, onu ilk dəfə «atasının oğlu» deyə çağıran Aişə olmuşdur.*

[2] *Səni öz vəzifə və məqamından uzaqlaşdırıb beytülmaldan topladıqlarını geri alacağam. Belə ki, dərvişə dönüb ailənin xərc və ruzisini öz çiyinlərində çəkmək qüdrətinə də malik olmayacaq, camaat qarşısında xar olub alçalacaqsan.*

Bu da imam Əli əleyhis-salamın Ziyad ibn Əbihə olan məktublarındandır *(ki, burada ona mötədil və təvazökar olmağı əmr edir).*

*(Malın sərf edilməsində)* israf etmə, mötədil ol. *(Ehtiyacdan nə artıq və nə də az sərf et.)* Bu gün səhərin fikrində ol. Malından, öz ehtiyacın qədər dala at. *(Ondan)* artığını ehtiyac günün *(axirət)* üçün qabağa göndər *(Allah yolunda yoxsul və möhtac kimsələrə bağışla).*

Allahın sənə *(qəlblərini dünyaya bağlamayan və Onun göstərişlərinə müvafiq davranan)* təvazökarlara verəcəyi mükafatı verməsinə *(necə)* ümid bəsləyirsən, halbuki Allah yanında *(qəlbini dünyaya bağlayan və Onun əmrlərinə zidd hərəkətlər edən)* təkəbbürlülərdənsən. Allahın sənə *(səfillərə təkəbbür və riyakarlıq olmadan əl tutan)* sədəqə verənlərin mükafatını vacib etməsi və verməsinə hərissən, halbuki eyş-işrətə qərq olub aciz, biçarə, dul qadın və yoxsulları ondan bəhrələndirmirsən! İnsana ancaq və ancaq öncə gördüyü işə görə mükafat veriləcək və o, əvvəlcədən göndərdiyi yerə daxil olacaq. Salama layiq kimsəyə salam olsun! (Qeyd)[1]

# 22-ci məktub

---

[1] *İbn Əbil-Hədid burada belə deyir: Allah Ziyaddan xeyir-bərəkəti kəssin! Çünki o, Əli əleyhis-salamın onun barəsindəki yaxşılıq, xeyirxahlıq və təlim-tərbiyəsinin əvəzini o Həzrətin tərəfdarları və dostları barəsindəki nalayiq hərəkətləri, o Həzrətə qarşı yaramaz sözlər demək, onun davranışını pisləməkdə ifrata varmaq və Müaviyənin, azına da qane olduğu bu kimi işlər istiqamətində çox çalışması kimi deyilməsinə ethiyac olmayan şeylərlə çıxdı. Bu işlər Müaviyənin razılığını əldə etmək üçün görülmürdü. O, onları öz təbiətinə uyğun olaraq görürdü və o Həzrətlə zahir və batində düşmənçilik edirdi. Allah onun anasına nisbət verilərək atasının məlum olmamasını aşkar etməkdən başqa bir şey istəmirdi. «Ot kökü üstə bitər!» Ondan sonra Həzrət Əba Əbdillah Hüseyn əleyhis-salamı öldürmək üçün Küfədən Kərbəlaya qoşun göndərən oğlu Ubeydullah atasının pisliklərini son həddə çatdırdı. İşlərin hamısının sonu Allaha qayıdır, yəni, O, onları ən pis əzab və cəzaya düçar edəcək.*

İmam Əli əleyhis-salamın Abdullah ibn Abbasa yazdığı məktublardandır. İbn Abbas belə deyərmiş: «Həzrət Peyğəmbərin – səlləllahu əleyhi və alih – kəlamından sonra bu söz kimi heç bir sözdən faydalanmamışam.» *(İmam əleyhis-salam bu məktubda ona axirət işləri üçün sevinmək və kədərlənmək barəsində öyüd-nəsihət verib.)*

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: insanı onun, əldən çıxarmamalı olduğu *(əldən çıxarması təqdir edilməmiş)* şeyə çatmaq sevindirir, əldə edilməsi *(məsləhət)* olmayan şeyə çatmaq isə kədərləndirir. (Qeyd)[1] Buna görə də *(dünyanın xeyir-ziyanının qəza-qədərlə olmasını və mənfəətə sevinərək ziyandan qəmlənməyin insan üçün fitri olmasını bildiyin üçün)* gərək sevincin axirət mənfəətinə görə olsun ki, *(onun əldə edilməsi vasitəsini dünyada)* tapmısan. Həmçinin qəm-qüssən əldən çıxmış axirət xeyiri üçün olmalıdır. Dünyadan əldə etdiyin şey üçün çox sevinmə. *(Çünki dünya və onda olan şey sonda məhv olacaq.)* Dünya malından əldən çıxmış şeylər

---

[1] *Dünyanın xeyir və zərərinin səbəbkarı qəzavü-qədərdir. Nə səy və təlaş xeyir əldə edilməsində, nə də fikrin səhvliyi və tənbəllik ziyan görməkdə səbəbdir. Amma camaat məsələyə bəsirət və gözüaçıqlıqla baxmır və hər kimə xeyir və ziyan təqdir olunubsa, onun gəlib çatacağını bilmir, necə ki, Allah-təala Qurani-Kərimin Hədid surəsinin 22-23-cü ayələrində buyurur:* « **مَا أَصَابَ مِن مُّصِيبَةٍ فِي الْأَرْضِ وَلَا فِي أَنفُسِكُمْ إِلَّا فِي كِتَابٍ مِّن قَبْلِ أَن نَّبْرَأَهَا إِنَّ ذَلِكَ عَلَى اللَّهِ يَسِيرٌلِكَيْلَا تَأْسَوْا عَلَى مَا فَاتَكُمْ وَلَا تَفْرَحُوا بِمَا آتَاكُمْ وَاللَّهُ لَا يُحِبُّ كُلَّ مُخْتَالٍ فَخُورٍ** » *«Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda (lövhi-məhfuzda) yazılmamış olsun. Bu Allah üçün çox asandır! Bu sizin əlinizdən çıxana kədərlənməməyiniz və əlinizə gələnə sevinməməyiniz üçündür. Allah özünü bəyənən, özü ilə fəxr edən heç bir kəsi sevməz!» Yəni, yer üzündə baş verən bahaçılıq və quraqlıq, sizin özünüzdə baş verən xəstəlik, yoxsulluq və övladlarınızın ölümü kimi qəm-qüssələr, biz nəfsləri yaratmamışdan lövhi-məhfuzda yazmadığımız təqdirdə baş vermir. Bu işlərin yazılması hər nə qədər çox olsa belə, Allah üçün asandır. Bu ona görədir ki, siz əlinizdən çıxan şey üçün kədərlənməyəsiniz və əlinizə gələn şeylər üçün sevinməyəsiniz. Allah dünyanın üzlərinə gülməsi nəticəsində öyünərək qürrələnən heç bir itaətsizi sevmir, yəni, öz rəhmətindən uzaqlaşdırır.*

üçün qəmli və səbrsiz olma. Sənin səy və təlaşın, gərək ölümdən sonrakı işlərdə olsun. *(Gərək çalışıb ölümdən sonrakı əbədi həyatın bağışlanma və xoşbəxtlik vasitələrini əldə edəsən.)*

# 23-cü məktub

İmam Əli əleyhis-salamın, məlun İbn Mülcəm onun başına qılınc vurduqdan sonra *(fani)* həyatla vidalaşmasına yaxın, vəsiyyət və tapşırıq yönlü kəlamlarındandır. *(İmam əleyhis-salam bu sözlərində övladlarını İbn Mülcəmi əfv etməyə həvəsləndirib.)*

Mənim sizə vəsiyyət və tapşırığım Allaha heç nəyi şərik qoşmamağınız və Məhəmmədin *(səlləllahu əleyhi və alih)* sünnəsini məhv edib aradan aparmamağınızdır. *(O Həzrətin göstərişlərinə zidd davranmayın.)* Bu iki sütunu *(Allaha şərik qoşmamaq və Həzrət Peyğəmbərin sözlərinə uyğun davranmağı)* dikəldin *(ki, müqəddəs İslam dininin binasının möhkəmliyi bu iki sütun ilədir)*. Bu iki çırağı nurlandırın *(ki, nadanlıq və azğınlıq qaranlıqlarında sərgərdan qalmayasınız). (Əgər belə etsəniz)* siz məzəmmət edilib qınanmazsınız.

Mən dünən *(sağlam bədən, qüdrət və şücaətlə)* sizin dost və yoldaşınız idim. Bu gün isə sizin üçün ibrət və nəsihətəm. *(Bütün cəngavərlik və böyüklüyümə baxmayaraq, əldən düşmüşəm.)* Sabah sizdən ayrılacağam *(öləcəyəm)*! Əgər qalsam öz qanımın ixtiyar sahibiyəm *(öz ixtiyarımla istəsəm İbn Mülcəmi cəzalandırar, istəsəm bağışlayaram)*. Əgər ölsəm, *(onsuz da)* ölüm mənim vədə yerimdir. *(Ölsəm heç bir ixtiyara malik deyiləm və siz öz şəri vəzifənizə əməl edin.)* Əgər *(onu)* bağışlasam *(bağışlamaq istəsəm)*, bağışlamaq mənim üçün *(Allahın rəhmətinə yaxınlıq amili olan)* itaət və bəndəlikdir. *(Siz onu bağışlamaq istəsəniz)* bağışlamaq sizin üçün xeyirxahlıqdır. Belə isə *(siz onu)* bağışlayın. *(Çünki Allah-təala Qurani-Kərimin Nur surəsinin 22-ci ayəsində buyurur:)* «أَلَا تُحِبُّونَ أَن يَغْفِرَ اللَّهُ لَكُمْ وَاللَّهُ غَفُورٌ رَّحِيمٌ»

«Allahın sizi bağışlamağını istəmirsiniz? Allah bağışlayan və rəhm edəndir!» (Qeyd)[1]

Allaha and olsun ki, ölümlə mənim yanıma xoşlamadığım *(bir şey)* gəlməyəcək və *(ondan sonra)* istəmədiyim bir şey aşkar olmayacaq. *(Ölümə hazıram. Çünki ölümün arxasında əbədi səadət var və mən bu dünyadakı həyata vurulmamışam.)* Mən *(ölümə münasibətdə)* su axtararaq *(onu)* tapan və bir şeyin arzusunda olub *(onu)* əldə edən şəxs kimiyəm. *(Çünki gözəllik və xoşbəxtlik ölümdən sonradır, necə ki, Qurani-Kərimin Ali-İmran surəsinin 198-ci ayəsində buyurulur:)* «وَمَا عِندَ اللّهِ خَيْرٌ لِّلأَبْرَارِ» «Allah yanında olan *(əbədi)* nemətlər yaxşı əməl sahibləri üçün *(dünya mallarından)* daha xeyirlidir». *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Bu kəlamın bir hissəsi bundan əvvəl xütbələr fəslində *(149-cu kəlamda)* keçdi. Amma buradakı bu kəlamda (Bəzi) əlavə sözlər var idi ki, onun ikinci dəfə gətirilməsini zəruriləşdirdi.

# 24-cü məktub

İmam Əli əleyhis-salamın əmlak və malları ilə necə davranılması barəsindəki vəsiyyətlərindəndir. O Həzrət bu vəsiyyətnaməni Siffeyn *(müharibəsin)*dən qayıtdıqdan sonra yazıb.

Bu, Allahın bəndəsi və möminlərin başçısı Əli ibn Əbu Talibin Allahın razılığını əldə etmək üçün öz əmlak və malı barəsindəki göstərişidir ki, Allah onun səbəbi ilə məni cənnətə daxil etsin və mənə ona görə rahatlıq *(axirət rahatlığı)* əta etsin.

---

[1] *Burada qeyd edilməsi lazım olan nöqtə budur ki, İmam əleyhis-salamın İbn Mülcəmi bağışlamaq barəsindəki göstərişi müstəhəbbi hökmü bəyan edir. O Həzrətin ölməsi və ya sağ qalması barəsindəki tərəddüd də 149-cu kəlamın şərhində deyildiyi kimi, İmamın öz ölümünün vaxtını bilməsi və ondan xəbərdar olması ilə ziddiyyət təşkil etmir.*

# Bu da həmin vəsiyyətin bir hissəsidir

*(Məndən sonra)* tapşırıqlarımı Həsən ibn Əli yerinə yetirəcək. *(O mənim vəsi və canişinimdir.)* O mənim mal və sərvətimdən layiqli şəkildə *(şəriətin hökmlərinə uyğun olaraq öz ehtiyaclarının aradan qaldırılmasında)* sərf edəcək və doğrudan da ehtiyacı olan kimsələrə bağışlayacaq. Əgər Həsənin başına bir iş gəlsə *(o, dünyadan köçsə)* və Hüseyn sağ olsa, mənim Həsəndən sonrakı vəsi və canişinim odur və mənim tapşırıqlarımı onun kimi yerinə yetirər.

Əlinin *(əleyhis-salam)* hədiyyəsindən Fatimənin iki oğluna *(Həsən və Hüseyn əleyhiməs-salama)* Əlinin digər oğlanlarına çatan qədər çatır. *(Mənim malımdan digər qardaşlara verdikləri qədər götürsünlər.)* Mən bu işin öhdəçiliyini Fatimənin iki oğluna Allahın razılığını əldə etmək, Həzrət Peyğəmbərə yaxınlaşmaq, ona ehtiram və o Həzrətlə qohumluq şərəfinə görə verdim.

Və *(İmam əleyhis-salam)* malın öhdəçiliyini verdiyi şəxslə *(Həsən əleyhis-salamla)* şərt kəsir ki, bu malı olduğu kimi saxlasın *(satmasın)* və onun meyvəsini əmr edilən və yolu göstərilən yerlərdə sərf etsin. Həmçinin şərt kəsir ki, bu kəndlərin xurma ağaclarının yeni pöhrələrinin bir qələmini belə həmin kəndlərin yeri, xurma ağaclarının bitməsi səbəbindən dəyişik gələnə kimi satmasın. *(Ağacların çoxluğu onları görəni belə gümana salana kimi ki, bu yer onun əvvəllər gördüyü yer deyil.)*

Bir yastığa baş qoyduğum və uşağı olan və ya hamilə olan kənizlərimin hər biri, öz övladlarının ixtiyarında qoyulurlar və *(o kəniz)* onun payıdır. (Qeyd)[1] Əgər həmin kənizin övladı ölmüş olsa və onun özü sağ olsa *(yenə də)* azaddır *(və onu satmaq düz deyil. Çünki)* kənizlik ondan

---

[1] «أُمُّ وَلَد» *«ummu vələd», yəni, övladı olan kənizin günün qiymətinə öz övladına verilməsi. Həmin kəniz öz övladına verildiyi üçün azad olur.*

götürülüb və *(övlada verilmə yolu ilə olan)* azadlıq, onu azad edib. *(Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

O Həzrət əleyhis-salamın bu vəsiyyətdəki « أَنْ لا يَبِيعَ مِن نَخْلِها وَدِيَّةً» «şərt kəsir ki, bu kəndlərin xurma ağaclarının yeni pöhrələrinin bir qələmini belə satmasın» cümləsində işlətdiyi «وَدِيَّةً» «vədiyyə» kəlməsi «فَسِيلَة» «fəsilə» *(xurma ağacının qələmi)* mənasınadır. Onun cəm forması isə «وَدِيّ» «vədiyy»dir. O Həzrətin «حتّى تُشْكِلَ أرْضُها غِراساً» «həmin kəndlərin yeri xurma ağaclarının bitməsi səbəbindən dəyişik gələnə kimi....» cümləsi ən fəsih kəlam və ən gözəl sözlərdəndir. Məqsəd budur ki, həmin kəndlərdə xurma ağaclarının bitməsi o qədər çoxalsın ki, onu görən onları *(əvvəllər)* gördüyü yerdən ayrı bir yer sansın və yer ona dəyişik təsir bağışlasın, *(ağacların çoxluğundan)* elə bilsin ki, həmin yer *(əvvəllər gördüyü)* o yerdən ayrı bir yerdir.

# 25-ci məktub

İmam Əli əleyhis-salamın zəkat yığmaq vəzifəsinə təyin etdiyi şəxsə yazdığı tövsiyələrindəndir *(ki, onda zəkat almaq və yığmaq yollarını göstərir, zəkat verənlərlə mehriban olmaqdan danışır və zəkat kimi alınan dəvələri incitməməyi əmr edir)*. Biz burada həmin tövsiyədən bəzi cümlələri xatırladırıq ki, onların vasitəsi ilə İmam əleyhis-salamın haqqın sütunlarını dikəltməsi və kiçik, böyük, gizlin və aşkar işlərdə ədalət *(bərabərlik və düzlük)* nümunələrini üzə çıxarması bilinsin.

Bir olan və şəriki olmayan Allahdan qorxub çəkinərək get. *(Danışıq və davranışında Allahı nəzərində saxla.)* Və *(əmr və hökmü keçənlərdən olduğun üçün zalım hakimlər kimi)* heç bir müsəlmanı qorxutma. Əgər onun ürəyindən olmasa, *(torpaq və bağının)* yanından keçmə. Ondan Allahın onun malında olan haqqından *(onun verməsini əmr etdiyindən)* artıq alma. Hər hansı bir qəbiləyə (*məxsus yerə)* çatanda, onların evlərinə daxil olma, sularının üstündə düş. Bundan sonra sakitcə,

vüqarla onlara tərəf gedib aralarında dayan. Sonra onlara salam ver. Onlara salamı qısa etmə. *(Onlara ehtiramsızlıq və hörmətsizlik göstərmə.)* Sonra belə de: «Ey Allahın bəndələri! Allahın dostu və xəlifəsi, məni Allahın mallarınızda olan haqqını və payını *(mallarınıza aid olan zəkatı)* almaq üçün sizin yanınıza göndərib. Mallarınızda Allahın vəlisinə veriləcək Allah haqqı varmı?» Əgər biri «yox *(mənim veriləcək zəkatım yoxdur)*!» desə, ona müraciət etmə. *(İkinci dəfə onun yanına getmə.)* Əgər biri «var» desə, onu qorxutmadan, vahiməyə salmadan, sərtlik edərək çətinliyə düçar etmədən onunla birlikdə get. Sonra qızıl və gümüşdən sənə nə versə al. Əgər inək, qoyun və dəvəsi olmuş olsa, onun icazəsi olmadan onların yanına getmə. Çünki onların çoxu onundur. Dördayaqlıların yanına çatanda, onlara onların sahiblərinin ağası və ya ona qarşı sərt olan kəs kimi baxma. Heyvanı hürküdərək qorxutma və onu alanda yiyəsini incitmə. Malı iki hissəyə böl. Sonra onu *(malın sahibini onlardan istədiyini seçməkdə)* sərbəst burax. *(Həmin iki hissədən birini)* seçəndən sonra onun seçdiyinə toxunma. *(Ona «niyə bunu seçdin?!» demə!)* Ondan sonra yerdə qalanı iki hissəyə ayır və *(yenə)* onu *(istədiyini seçməkdə)* azad burax. Beləliklə, elə ki *(onlardan birini)* seçdi, seçdiyinə toxunma. Onun malından yerdə Allahın haqqı *(zəkat)* miqdarında qalana kimi bölgünü davam etdir. *(Bu cür davranışla)* Allahın haqqını ondan al. Əgər *(sənin zəkat kimi götürdüyünün onun seçdiyindən yaxşı olmasını güman etsə və)* həmin bölgünün pozulmasını istəsə, sən *(bölgünü)* poz və hər iki hissəni bir-birinə qarışdır. Sonra Allahın onun malında olan haqqını almaq üçün bir daha etdiyin işləri yerinə yetir. Əldən düşmüş qoca dəvəni, *(əl-ayağı)* sınıq olanı və nöqsanlını *(bir gözlü və bu kimini)* zəkat kimi götürmə. (Qeyd)[1] Və *(onları zəkat kimi təhvil aldıqdan*

---

[1] *Mərhum İbn Meysəm böyük imamiyyə alimlərindən olmuş və çoxlu kitab müəllifi, o cümlədən «Nəhcül-Bəlağə»nin şərhi olan «Minhacul-bəraə» kitabının müəllifi, Kaşan və İsfahan şəhərləri arasındakı Ravənd kəndindən olan və qəbri Qum şəhərində Həzrəti Məsumə əleyhəs-*

*sonra)* dinindən əmin olduğun şəxsdən başqa heç kəsə tapşırma. *(Həmin şəxsin danışıq və davranışının İslam dininin hökmlərinə uyğun olmasından arxayın olduqdan sonra malları ona tapşır.)* Həmin şəxs müsəlmanların malına *(münasibətdə)* düz olmalıdır ki, onu onların hakimlərinə çatdırsın və o, müsəlmanların arasında bölsün. Onlara ancaq düz və mehriban adamı gözətçi et ki, kobudluq edib çətinliklərə salmasın və onları incidib yormasın. Sənin yanında yığılanları tez bizə göndər ki, Allahın əmr etdiyi yerə sərf edək. Sənin inandığın şəxs onları *(bizim yanımıza gətirmək üçün)* götürəndə, ona tapşır ki, dəvə ilə südəmər balasını bir-birindən ayırmasın, onun südünü çox sağmasın ki, *(nəticədə)* balasına ziyan dəyməsin, onu minərək yorub əldən salmasın və sağmaq və minməkdə onunla başqa dəvələr arasında bərabər davransın. *(Ancaq birinin südünü sağmasın və ya bütün yol boyu təkcə birinə minməsin.)* Həmçinin gərək yorulan üçün rahatlıq yaratsın. Ayağı yeyilmiş və getməkdən aciz olanını yavaş sürsün. Dəvələri yanından keçdikləri gölməçələr və su yığılan yerlərə salsın. Onları otlu yerlərdən *(otsuz)* yollara aparmasın *(ki, onlar yol boyu otlayaraq güclənsinlər)*. Gərək onlara saatlarla *(hər neçə saatda bir dəfə, yaxud otlaqlarda)* istirahət versin *(ki, rahat otlasınlar)*. Həmçinin gərək onlara su və ot olan yerdə imkan versin və onları boşlasın ki, bizim yanımıza yorğun və əzgin deyil, Allahın izn və əmri ilə, kökəlib dolu sümüklü gəlsinlər və biz də onları Allahın kitabının *(Qurani-Kərimin)* göstərişi və Peyğəmbərinin sünnəsi ilə *(ehtiyacı olanlar arasında)* bölüşdürüb paylayaq. Allahın istəyi ilə, deyilənlər sənin *(Allah tərəfindən)* mükafatlanmağın üçün çox münasib, hidayət və nicat tapmağın üçün isə çox yetərlidir.

---

*salamın hərəminin şərq hissəsində yerləşən Əbulhüseyn Səd ibn Hibətullah ibn Həsən Qütbuddin Ravəndidən nəql edib ki: İmam əleyhis-salamın buyurduqlarının zahirindən məlum olur ki, o Həzrət heyvanların nöqsanlılarının ayrılmasını, onları iki hissəyə bölməkdən qabaq nəzərə almağı əmr edir.*

# 26-cı məktub

İmam Əli əleyhis-salamın öz məmurlarından birini zəkat yığmağa göndərərkən, onunla *(pərhizkarlıq, rəiyyətlə mehribanlıq və əli altında olanların və yoxsulların hüquqlarına riayət etmək barəsində)* olan əhd-peymanlarındandır .

Öz məmuruma gizlinliklərdə *(düşüncəsində)* və örtülü işlərində Allahdan başqa olan və görən və Ondan başqa gözətçi və işlərin tapşırılacağı kimsə olmayan yerdə Allahdan qorxub çəkinməyi əmr edirəm.

Həmçinin əmr edirəm ki, üzdə Allahın əmrinə itaət edib gizlin və batində onun əksini etməsin *(münafiq və ikiüzlü olmasın)*. Gizlin və aşkarı və danışıq və davranışı iki cür olmayan kəs əmanəti əda edib *(Allahın göstərişini yerinə yetirib)* və ibadət və bəndəliyi *(riyakarlıq və özünü göstərməklə deyil)* saf niyyət və düzlüklə yerinə yetirib.

Ona əmr edərək göstəriş verirəm ki, onları *(rəiyyət və əli altında olanları)* incitməsin və onlara yalan deməsin *(yaxud onlara yalan şey nisbət verməsin. Məsələn, «dəvəniz və ya əkininizin məhsulu bundan çoxdur, amma zəkat verməkdən yayınmağınız üçün onları gizlətmisiniz» kimi sözlər deməsin onlara)*. Onlara göstəriş verən olduğu üçün itaətsizlik səbəbindən onlardan üz döndərməsin *(özünü onlardan ehtiyacsız sanmasın)*. Çünki onlar dində qardaş və dindaşdırlar, haqları hazırlamaq və ortaya çıxarmaqda yardımçıdırlar. (Qeyd)[1]

Sənin bu zəkatda sabit payın, aşkar haqqın və yoxsul və acizlərdən ibarət şərik və ortaqların var. *(Necə ki,)* biz sənin haqqını tam şəkildə ödəyirik, sən *(də)* onların haqlarını tam şəkildə ödə. Əgər belə etməsən *(onların haqqlarını kəssən)*, qiyamət günü sənin hamıdan çox düşmənin olacaq. Vay o

---

[1] *Onlar torpağı suvarıb əkir, heyvanları saxlayır və onlara baxırlar ki, bu mallar toplanır. Biz onlardan zəkat alırıq. Buna görə də onlar incidilməməlidirlər.*

adamın halına ki, Allah yanında onun düşmənləri yoxsullar, kasıblar, dilənçilər, qovulmuş səfillər, günah olmayan işlər üçün borca girənlər, öz malından, evindən və əhli-əyalından uzaqda aciz qalmış müsafirlər *(səfərdə olanlar)* olsun! Əmanətə *(ilahi hökmə)* xor baxan, xəyanətdə otlayan *(ondan çəkinməyən)* və özünü və dinini ondan təmizləməyən kəs dünyada özünə rüsvayçılıq rəva bilib və axirətdə daha çox xar və rüsvay olacaq. Ən böyük xəyanət və əyrilik ümmətə xəyanət etmək və ən çirkin hiylə isə, imamlara qarşı hiylə işlətməkdir. (Qeyd)[1] Salama layiq kimsəyə salam olsun!

# 27-ci məktub

İmam Əli əleyhis-salamın Məhəmməd ibn Əbu Bəkr *(Allah ondan razı olaraq mükafatlandırsın)* ilə olan əhd-peymanlarındandır. (Qeyd)[2] İmam bu əhdi Misir hökumətini ona tapşırarkən yazıb. *(Bu əhdnamədə ona camaat arasında ədalət və bərabərliklə davranmağı əmr edərək pərhizkarlığı, ölümün və qiyamət əzabının çətinliklərini yada salıb və sonda ona nəfsi istəklərlə mübarizə və namaza diqqət etmək barəsində nəsihətlər verib.)*

Qanadını onlar *(Misir əhalisini)* üçün yığ *(hamı ilə təvazökar ol)* və mülayim davran *(elə iş gör ki, hamı sənin davranışından faydalansın)*. Onlarla gülərüz ol *(əlin altında olanlara üzünü turşutma)* və onları gözaltı baxmaqda və baxışını üzlərinə zilləməkdə bərabər tut. (Qeyd)[3] *(Belə et)* ki, böyüklər sənin onların xeyrinə zülm və sitəm etməyinə *(düzlükdən*

---

[1] *Səfil və yoxsulların haqqına əl uzadan kəs həm ümmətə xəyanət edib, həm də öz imam və rəhbərinə qarşı hiylə işlədib.*

[2] *Çox dəyərli və yüksək məqamlı bu şəxs İmam əleyhis-salamın yaxın səhabələrindən olub. «Həccətul-vida» ilində, yəni, hicrətin 10-cu ilində dünyaya gəlib və hicrətin 38-ci ilində Əmirəl-möminin əleyhis-salamın xilafəti zamanında Misirdə qətlə yetirilib. Onun başına gələnlərin bir hissəsi altmış yeddinci kəlamın şərhində yazılıb.*

[3] *Bərabərliyə riayət edərək böyüklə kiçik arasında fərq qoyma, varlılar və böyükləri əl altında olanlardan və yoxsullardan üstün tutmayıb hamı ilə bərabər davran.*

*uzaqlaşmağına)* tamahlanmasınlar *(əlləri altında olanlara zülm etməsinlər)* və imkansızlar sənin ədalət və düzlüyündən məyus olmasınlar. Çünki ey Allah bəndələri, Allah-təala *(qiyamət günü)* sizin kiçik və böyük, aşkar və gizlin işləriniz barəsində soruşacaq. Buna görə də əgər əzab versə *(sizi odda yandırsa)*, siz *(özünüzə qarşı hamıdan)* çox zalımsınız *(çünki ona sizin günah və itaətsizlikləriniz səbəb olub)*. Əgər bağışlasa, O, çox kərim və böyükdür.

Ey Allah bəndələri, bilin ki, pərhizkarlar keçici dünyanı və gələcək axirəti *(onların xeyrini)* qazanıblar. Beləliklə, onlar dünya əhli ilə dünyalarında *(onun xeyrlərində)* şərik oldular. Dünya əhli isə onların axirətlərində *(onun xeyirində)* şərik olmadılar. Onlar dünyada ən yaxşı mənzildə məskunlaşdılar və yeməlilərin ən yaxşısını yedilər. (Qeyd)[1] Beləcə, dünyadan əylənənlər kimi bəhrələndilər və itaətsizlərin aldıqları ləzzəti aldılar. (Qeyd)[2] Dünyadan sonra onları *(məqsədə)* çatdıran azuqə və *(səadət)* mənfəəti olan sövdələşmə ilə *(axirətə)* getdilər. Dünyada öz zahidliklərinin ləzzət və şirinliyini daddılar. Sabah, axirətdə Allahın yaxınlığında olacaqlarını yəqin etmişdilər, *(Allahın rəhmətinin onlara çatacağını yəqinliklə bilirdilər. Belə)* ki, istəkləri rədd edilməyəcək və rahatlıq və asayiş bəhrələri azalmayacaq. Odur ki, ey Allah bəndələri, *(pərhizkarlara tabe olub fani dünyaya bel bağlamayın və)* ölüm və onun yaxın olmasından qorxun və onun üçün tədarük görün. *(Elə edin ki, ölüm çatanda nigarançılıq keçirməyəsiniz.)* Çünki ölüm böyük təhlükəsi olan bir işlə gəlir. *(Yaxşı işlər görənlər üçün)* heç vaxt pisliyi olmayan xeyir və yaxşılıqlar gətirir. Yaxud *(pis işlər görənlər üçün)* onunla heç vaxt yaxşılıq olmayan şər və pisliklər

---

[1] *Çünki dünyapərəstlər kimi məskunlaşmaq üçün əziyyət çəkmədilər və yemək üçün çətinliyə düşmədilr. Buna görə də məskunlaşdıqları yer ən yaxşı yer, yedikləri şey isə ən yaxşı yemək oldu.*

[2] *Halal yol ilə mal və nemət əldə edib Allah və Peyğəmbərin göstərişinə uyğun sərf edərək axirətlərini abadlaşdırdılar və dünyanın ləzzət və xoşluqlarını tamamilə əldə etdilər.*

gətirir! Belə isə, Cənnətə Cənnət işləri görəndən və Cəhənnəmə Cəhənnəm işləri görəndən kim yaxın ola bilər? Siz ölümün qovduğu, təqib etdiyi kimsələrsiniz. Əgər dayansanız, sizi tutacaq, əgər ondan qaçsanız, sizi tapacaq. (Qeyd)[1] Ölüm sizə kölgənizdən də yaxındır *(sizdən bir an belə ayrılmaz)*! Ölüm sizin kəkillərinizə bağlanıb *(ondan qurtula bilməyəcəksiniz)* və dünya sizin arxanızca bükələcək *(şəxs keçdikdən sonra bükülərək yığışdırılan xalça kimi)*. Belə isə, *(axirət məsələsinə bu qədər etinasız olmayıb)* dərinlik və istiliyi hədsiz, əzab və çətinliyi isə yeni olan oddan qorxun. (Qeyd)[2] *(Cəhənnəm)* elə bir yerdir ki, orada rəhmət və mehribançılıq yoxdur, istək qəbul edilmir, qəm-qüssə qurtarmır. (Qeyd)[3] *(İndi)* əgər Allahdan həm xof və qorxunuzun çox, həm də Ona güman və ümidinizin yaxşı olmasını bacarırsınızsa, qorxu ilə ümidi *(bir yerə)* toplayın. *(Mütləq elə edin ki, həm qorxasınız, həm də ümidvar olasınız, nə qorxunuz çox olsun, nə də*

---

[1] *Necə ki, Qurani-Kərimin Nisa surəsinin 78-ci ayəsində buyurulur:* «**أَيْنَمَا تَكُونُواْ يُدْرِككُّمُ الْمَوْتُ وَلَوْ كُنتُمْ فِي بُرُوجٍ مُّشَيَّدَةٍ**» *«Harada olursunuz olun, hətta uca və möhkəm qalalar içərisində olsanız belə, ölüm sizi haqlayacaq.»*

[2] *Necə ki, Qurani-Kərimin Nisa surəsinin 56-cı ayəsində buyurur:* « **إِنَّ الَّذِينَ كَفَرُواْ بِآيَاتِنَا سَوْفَ نُصْلِيهِمْ نَارًا كُلَّمَا نَضِجَتْ جُلُودُهُمْ بَدَّلْنَاهُمْ جُلُودًا غَيْرَهَا لِيَذُوقُواْ الْعَذَابَ إِنَّ اللّهَ كَانَ عَزِيزًا حَكِيمًا** » *«Ayələrimizi (Peyğəmbər və Qurani-Kərimi) inkar edənləri tezliklə elə bir oda atacağıq ki, onların dəriləri yanıb bişdikcə, əzabı həmişə dadsınlar deyə, o dəriləri başqası ilə əvəz edəcəyik. Əlbəttə, Allah (onlara əzab verməyə) qadir və biləndir!»*

[3] *Necə ki, Qurani-Kərimin Zuxruf surəsinin 74-77-ci ayələrində buyurur:* « إِنَّ الْمُجْرِمِينَ فِي عَذَابِ جَهَنَّمَ خَالِدُونَ لَا يُفَتَّرُ عَنْهُمْ وَهُمْ فِيهِ مُبْلِسُونَ وَمَا ظَلَمْنَاهُمْ وَلَكِن كَانُوا هُمُ الظَّالِمِينَ وَنَادَوْا يَا مَالِكُ لِيَقْضِ عَلَيْنَا رَبُّكَ قَالَ إِنَّكُم مَّاكِثُونَ» *«Günahkarlar əbədi olaraq Cəhənnəm əzabı içində qalacaqlar. Onların bu əzabı yüngülləşdirilməyəcək və həmin əzab və çətinlik içində (Allahın rəhmətindən) naümiddirlər. Biz (əzabla) onlara zülm etmədik, amma onlar özləri özlərinə zülm etdilər (ki, Allahın və Peyğəmbərin dünyada axirət xoşbəxtliyinə səbəb olan göstərişlərinin əksinə hərəkət etdilər). Onlar Cəhənnəmin gözətçisini çağırıb deyəcəklər ki, Rəbbindən bizim barəmizdə hökm etməsini istə (bizi öldürsün ki, bu əzabdan qurtulaq). O deyəcək ki, siz (burada) qalacaqsınız (nə öləcəksiniz, nə də ondan qurtula biləcəksiniz)».*

*ümidiniz qorxunuzu üstələsin.)* Çünki bəndənin Rəbbinə olan yaxşı güman və ümidi, Rəbbindən olan qorxusunun miqdarındadır və insanların Allaha nisbətdə ən nikbini Ondan ən çox qorxandır. (Qeyd)[1]

Ey Məhəmməd ibn Əbu Bəkr, bil ki, mən səni qoşunlarımın ən böyüyü olan Misir əhlinə vali təyin etmişəm. Buna görə də dünyadan sənin bir saatın qalmış olsa belə, öz nəfsinlə müxalifət edərək dinini müdafiə etməlisən. Allahı, yaratdıqlarından birini *(nahaq)* şad etməklə qəzəbləndirmə. Çünki Allahdan başqasında olan şeylərin əvəzi, Onun yanında var, *(amma)* Allah yanında olan şeylərin əvəzi, Ondan başqasında yoxdur. *(Əgər Allah razı olsa, başqasından nə qorxu və əgər O razı olmasa, başqasına nə ümid?)*

Namazı onun üçün müəyyənləşdirilmiş vaxtda yerinə yetir və bekarçılıqdan onu vaxtından əvvəl qılma. Həmçinin işin olduğu üçün onun vaxtını keçirmə və bil ki, əməllərinin hər bir şeyi namaza bağlıdır. *(Əgər namazını yaxşı qılsan, başqa işləri də yaxşı yerinə yetirəcəksən. Onu zay etsən isə ondan qalan işləri daha xarab və pis edəcəksən)*

## Bu da həmin əhdin (Məhəmməd ibn Əbu Bəkri və Misir əhalisini münafiq və ikiüzlülərdən çəkindirmək barəsindəki) bir hissəsidir

*(Gərək sizin dil və qəlbiniz bir olsun və ikiüzlü olmayasınız, azğınların ardınca düşməyəsiniz.)* Çünki qurtuluş *(yolunun)* başçısı *(İmam əleyhis-salam)* ilə həlakət *(yolunun)* başçısı *(Müaviyə)*,

---

*[1] Bəndənin Allah barəsindəki gümanı nə qədər yaxşı olsa, qorxusu da o qədər artar və Onun razılığı olmayan işi görməz ki, məbada ondan inciyə. İbn Əbil-Hədid burada dördüncü imam Əli ibn Hüseyn əleyhis-salamdan nəql edir: «Əgər Allah-təala Kitab göndərib onda bir nəfərə əzab verəcəyini yazsa, mən həmin şəxsin özüm olacağımı güman edərəm. Yaxud onda bir nəfəri bağışlayacağını yazsa, ümidvaram ki, o mən olum. Əgər məni hökmən əzaba düçar etməli olsa belə, yenə öz səyimi artıraram ki, məbada özümə gələndə nəfsim məni məzəmmət etsin.»*

Peyğəmbərin dostu ilə düşməni bir deyil. (Qeyd)[1] Allahın Peyğəmbəri *(səlləllahu əleyhi və alih)* mənə buyurub ki: «Mən ümmətim üçün mömin və müşrikdən qorxmuram. Çünki Allah mömini imanına xatir *(başqalarını yoldan azdırmaqdan)* saxlayır. *(Deməli, ondan müsəlmanlara ziyan dəyməz.)* Allah müşriki də şirkinə görə zəlil və xar edir. *(Müsəlmanlar da şirkinə görə onun sözlərinə qulaq asmaz və dalınca düşməzlər.)* Amma mən sizin üçün qəlbən ikiüzlü və dildə alim olan kimsədən *(ikiüzlülüyü qəlbində gizlədərək dilinə şəriət hökmlərini gətirənlərdən)* qorxuram. O sizin bəyəndiyiniz şeyləri deyir, nalayiq hesab etdiyiniz işləri isə yerinə yetirir. (Qeyd)[2]

---

[1] *Buna görə də aldanaraq bu iki başçıya bir gözlə baxıb azğınlıq yolunun başçısı kimi ikiüzlülüyü öz adətiniz etməyin. İmam əleyhis-salam Müaviyə və onun kimilərini başçı adlandırıb, necə ki, Allah-təala da onun kimiləri azğınlıq və zəlalət başçıları adlandırıb. Qurani-Kərimin Qəsəs surəsinin 41-ci ayəsində buyurulur:* « **وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَدْعُونَ إِلَى النَّارِ وَيَوْمَ الْقِيَامَةِ لَا يُنصَرُونَ**» *«Biz onları Cəhənnəm oduna çağıran azğınlıq rəhbərləri etdik. Qiyamət günü onlara (Allahın əzabından qurtulmaq üçün) heç bir kömək edilməyəcəkdir!» İbn Əbil-Hədid burada belə yazır: «İmamın Müaviyəni Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) düşməni hesab etməsindən məqsəd onun Qureyşlə müharibə günlərindəki düşməniçiliyi deyil, bəlkə məqsəd Müaviyənin indi də Peyğmbərin (səlləllahu əleyhi və alih) düşməni olmasıdır. Buna dəlil Peyğəmbərin (səlləllahu əleyhi və alih) İmam Əliyə buyurduğu* « **وَ عَدُوُّكَ عَدُوِّى وَ عَدُوِّى عَدُوُّ اللهِ**» *«Sənin düşmənin mənim düşmənimdir və mənim düşmənim Allahın düşmənidir» kəlamıdır.*

[2] *Bəli, münafiq və ikiüzlüdən qorxmaq və onun şərinin dəf edilməsini Allahdan istəmək lazımdır. İmam əleyhis-salamın 185-ci xütbədə onların əlamət və davranış üslublarını şərh etmişdir.*

# 28-ci məktub

İmam Əli əleyhis-salamın Müaviyənin məktubuna cavab olaraq yazdığı məktublardandır. (Qeyd)[1]

Tək olan Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: məktubun gəlib mənə çatdı. Onda Allahın Məhəmmədi *(səlləllahu əleyhi və alih)* Öz dini üçün seçməsini və o Həzrəti qüdrət verdiyi səhabələrin yardımı ilə gücləndirməsini xatırladırsan. Deməli, zəmanə bizdən sənin barəndə təəccüblü şey gizlədibmiş ki, sən bizi Allahın bizim yanımızda olan xeyir-bərəkətindən və Peyğəmbərimizə görə bizə verdiyi naz-nemətdən xəbərdar etməyə başlamısan. Sən bu işində «Həcər»ə xurma vuran və yaxud öz müəllimini ox atmaq müsabiqəsinə çağıran şəxsə bənzəyirsən. (Qeyd)[2] İslamda insanların ən yaxşısının filankəslə filankəsin *(Əbu Bəkr ilə Ömərin)* olmasını güman edir, sonra elə şeyi *(onları)* xatırladırsan *(təriflәyirsən)* ki, əgər *(dediklərin)* düz olsa, ondan sənə bir pay çatmır, səhv olsa isə

---

*[1] Burada Müaviyənin nadürüst iddialarını və puç sözlərini xatırladıb və öz davamçılarının diqqətini dəlil və sübut gətirmə məqamında çox əhəmiyyətli həqiqətlərə yönəltmişdir. Buna görə də Seyyid Rəzi əleyhir-rəhmə buyurmuşdur ki, «bu, ən gözəl məktublardandır». Hərçənd ki, o Həzrətin hər bir məktubu və hər bir sözü öz yerində gözəlliyin son dərəcəsindədir.*

*[2] Mərhum İbn Meysəm burada belə buyurur: «Həcər» Bəhreyndə bir şəhər adıdır. Orada xurma bağları çox, xurma isə boldur. «* **كَناقِلِ التَمْرِ إلَي هَجَر** *» «Həcərə xurma vuran kimisən» məsəlinin əsli belə olub: Həcərdən olan bir kişi Bəsrə şəhərinə mal aparır ki, onu satıb əvəzində aldığı şeydən xeyir götürsün. O, Bəsrədə xurmadan kasad bir şey tapmır. Buna görə də xurma alır və Həcər şəhərinə vurur. Xurmaları öz evində saxlayaraq, onun qiymətinin qalxmasını gözləyir. Amma qiymət günü-gündən aşağı düşür və sonda xurmaların hamısı xarab olub əldən gedir. İndi bu məsəl bir şeyi mədəninə və vətəninə, bol olduğu yerə aparan şəxs barəsində çəkilir. «* **كَداعِی مُسَدِّدِهِ إِلَی النِّضالِ** *» «öz müəllimini ox atmaq müsabiqəsinə çağıran şəxs kimisən» məsəli isə, birini özündən daha yaxşı bildiyi şey barəsində xəbərdar etmək istəyən şəxs barəsindədir.*

sənə bir ziyanı və xəcaləti yoxdur. Sənin *(kimin)* üstün və *(kimin ondan)* aşağı, *(kimin)* başçı və *(kimin isə)* əlaltı olması ilə nə işin var? Azad edilmişlər *(Əbu Süfyan)* və oğlanlarının *(Müaviyənin)* ilkin çağlarda Məkkədən Mədinəyə hicrət edənlər arasında ayrı seçkilik salmaq, onların mərtəbələrini müəyyənləşdirmək və təbəqələrini tanıtdırmaqla nə işi? *(Sən ki, «azad edilənlər»dənsən və hələ də din və imanın həqiqətini dərk etməmisən, fəzilətli ilə üstünün və məqamı aşağı olanla əlaltının kim olmasını necə bilə bilərsən?) (Bu sözləri danışmaq ləyaqəti səndən)* nə qədər də uzaqdır! Yarış oxlarından olmayan ox səs çıxartdı və xilafətə layiq kimsəyə tabe olmaqdan başqa bir şey rəva olmayan kimsə, xilafət və imamət barəsində hökm verməyə başladı. (Qeyd)[1] Ey insan, axsaq olmağına baxmayaraq, dayanmırsan? Əlinin qısa olduğunu görmürsən? Arxaya, qəzavü-qədərin sənin olmağını istədiyi yerə dönmürsən?! *(Nə üçün ayağını yorğanından çölə çıxarır, xəcalət çəkib xəcalətlə başını aşağı salmırsan?)* Məğlub olanın məğlubiyyətinin ziyanı və qalibin qələbəsinin xeyri sənə qalmayıb. Sən azğınlıq çölündə vurnuxursan və ayağını düz yoldan kənara qoymusan. Səni xəbərdar etmək *(və özümü öymək)* üçün deyil, Allahın *(mənə əta etdiyi)* nemətlərinə görə deyirəm: görmürsənmi *(bilmirsənmi)* Mühacir və Ənsarın bir hissəsi Allah yolunda öldürüldü və onların hamısı şərafət və fəzilət sahibi idi. Nəhayət, bizim şəhidimiz *(Həmzə ibn Əbdülmüttəlib Ühüd müharibəsində)* öldürüldü və *(onun barəsində)* belə deyildi *(Həzrət Peyğəmbər buyurdu)*: «سيِّد الشهداء» «O, Allah yolunda şəhid olanların ağası və böyüyüdür». Allahın Peyğəmbəri *(səlləllahu əleyhi və alih)* onun namazını qılarkən yetmiş dəfə «Allahu əkbər» deməklə *(bu fəziləti ancaq ona)* məxsus etdi.

---

[1] «لَقَدْ حَنَّ قِدْحٌ لَيْسَ مِنْها» *«Yarış və qumar oxlarından olmayan ox səs çıxartdı» məsəli belə olub ki, ərəblər qumar oxlarını bir örtüyün altına qoyur və onların səs çıxarmaları üçün bir-birinə qatışdırardılar. Bəzən səsdən, onların arasında ayrı və yad bir ox olmasını bilirdilər.*

(Qeyd)[1] Görmürsənmi *(xəbərdar deyilsənmi)* ki, Allah yolunda *(Həzrət Peyğəmbərin səhabələrindən)* bir dəstənin qolları *(bədənlərindən)* ayrıldı və onların hamısı fəzilət və şərafətə malik idi. Onların başına gələn iş bizlərdən də birinin *(Cəfər ibn Əbu Talibin)* başına gəldi. *(Mutə müharibəsində qolları bədənlərindən ayrıldı və onun barəsində belə) deyildi (Peyğəmbər onu belə adlandırdı)*: «الطَّيّارُ فِي الْجَنَّةِ وَ ذُو الْجَناحَينِ» «O, iki qanad sahibidir və Cənnətdə uçur». Əgər Allah insanın özünü tərifləməsini qadağan etməsəydi, danışan *(İmam əleyhis-salam)* saysız fəzilət və üstünlüklər sayardı ki, möminlərin qəlbləri onlarla tanış olar, eşidənlərin qulaqları inkar etməzdi. Buna görə də «ovun yoldan qaytardığı bir kimsəni özündən uzaqlaşdır».(Qeyd)[2] Biz Rəbbimizin tərbiyə etdiyi kimsələrik və sonrakı insanlar bizim tərbiyə etdiklərimizdir. (Qeyd)[3] Qədim şərəf və uzaq keçmişli böyüklük, bizə sənin qohumlarını özümüzə qarışdırmağa mane olmadı. Bir-birinə tay-tuş adamlar kimi (sizdən) qız aldıq, (sizə) qız verdik, halbuki siz həmin səviyyədə deyildiniz. Sizdə belə bir ləyaqət haradan ola bilər, halbuki Peyğəmbər bizdən, *(Allahın Peyğəmbəri – səllallahu əleyhi və alih – ilə hamıdan çox düşmənçilik edən və Bədr müharibəsində kafir kimi öldürülmüş)* təkzib edən *(Əbu Cəhl)* sizdəndir! Əsədullah *(«أسَدُ الله» «Allahın şiri»)* bizdən *(məqsəd o Həzrətin özü, ya da əziz əmisi - şəhidlərin ağası Həmzədir)* Əsədul-əhlaf («أسَدُ الأحْلاف» «andlar şiri») isə

---

[1] *Çünki namaz qurtardıqdan sonra mələklərin digər bir dəstəsi gəlirdi və Peyğəmbər də bir daha onlarla birlikdə ona namaz qılırdı. Bu, ancaq Həzrət Həmzənin (Allah ondan razı olsun) xüsusiyyətlərindəndir.*

[2] «فَدَعْ عَنْكَ مَنْ مالَتْ بِهِ الرَّمِيَّةُ» *«Ovun yoldan qaytardığı kimsəni uzaqlaşdırmaq» məsəli düz yoldan çıxıb əyri yol ilə gedən şəxs barəsindədir. Məqsəd budur ki, Əmr ibn As kimi dünya ovu tamahı ilə haqq yoldan çıxanlara tabe olma və onların sözlərinə qulaq asma.*

[3] *Allah bizi seçib və xalqa bizə tabe olmağı və bizi sevməyi əmr edib. Bizə bizimlə Onun arasında heç bir vasitənin olmaması və xalqla Allah arasında bizim vasitə olmağımız kimi böyük nemət əta edib.*

sizdəndir. (Qeyd)[1] Cənnət cavanlarının iki başçı və ağası bizdən *(Həzrət Peyğəmbər –səlləllahu əleyhi və alih – buyurub: « هُما سَيِّدا شَبابِ أَهْلِ الْجَنَّةِ» «Həsənlə Hüseyn Cənnət cavanlarının başçılarıdırlar»)*, od əhli olan uşaqlar isə sizdəndirlər. (Qeyd)[2] Bütün aləmlərin qadınlarının ən yaxşısı *(Fatimə salamullahi əleyha)* bizdən, odun daşıyan qadın isə sizdəndir. (Qeyd)[3] *(Qısası bunlar)* bizim xeyrimizə olan çoxsaylı yaxşılıqlar və sizin ziyanınıza olan çoxsaylı pisliklər içərisində *(işarə etdiyim azacıq bir hissə idi)*.

Müsəlmanlığımız deyilənlərdir *(bizim İslamda hamıdan qabağa düşməyimiz və onda olan xidmətlərimiz hamıya məlumdur)* və *(İslamdan qabaqkı)* cahiliyyət dövründəki *(şərəf və üstünlüyümüz)* də inkar edilmir. Allahın kitabı *(Qurani-Kərim)* barəmizdə pərakəndə və dağınıq olanları bizim üçün bir yerə topladı. *(Bizim xilafət və imamətə layiq olmağımıza şahiddir.)* Bu, eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın kəlamıdır

---

[1] *Məqsəd Bəni-Əbd Mənaf, Bəni-Zöhrə, Bəni-Əsəd, Tim və Bəni-Haris ibn Fəhrə ilə Kəbənin başçılığının Bəni-Əbduddarın əlində olan hissəsini geri almaq üçün Bəni-Quseyy müharibəsi aparmağa and içmiş Əsəd ibn Əbdülüzzadır ki, onlar döyüş başlamamış əhdlərini pozaraq dağılışıblar. Bəziləri də deyiblər ki, «əsədul-əhlaf» Müaviyənin ana babası Ütbə ibn Rəbiədir. Bəziləri də deyiblər ki, «əsədul-əhlaf» Xəndək müharibəsində müxtəlif dəstələri bir yerə toplayaraq onları Peyğəmbəri (səlləllahu əleyhi və alih) öldürməyə and vermiş Əbu Süfyandır.*

[2] *Məqsəd Üqbə ibn Əbu Müitin uşaqlarıdır ki, Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) onun «مَنْ لِلصَّبِيَّةِ» «uşaqlar üçün kim qalacaq?» sualının cavabında «həm sən və həm də onlar üçün atəş var» buyurub. Yaxud da məqsəd Mərvan ibn Həkəmin uşaqlarıdır ki, küfrləri nəticəsində Cəhənnəm əhli oldular.*

[3] *Əbu Süfyanın bacısı Ummu Cəmil Həzrət Peyğəmbərlə (səlləllahu əleyhi və alih) düşmənçilik və ədavətinin çoxluğundan axşam çiyinlərində tikan və kol daşıyaraq o Həzrətin keçdiyi yola tökürdü. Allah-təala Qurani-Kərimin Əbu Ləhəb surəsinin 3-4-cü ayələrində Ummu Cəmil və onun əri Əbu Ləhəb barəsində belə buyurur: « سَيَصْلَى نَارًا ذَاتَ لَهَبٍ وَامْرَأَتُهُ حَمَّالَةَ الْحَطَبِ » «O tezliklə alovlu atəşə girəcəkdir. Onun odun daşıyan övrəti də həmçinin!»*

*(Qurani-Kərimin Ənfal surəsinin 75-ci ayəsində)*: « وَأُوْلُواْ الْأَرْحَامِ بَعْضُهُمْ أَوْلَى بِبَعْضٍ فِي كِتَابِ اللّهِ» «Qohumlar Allahın kitabında *(Onun hökm və fərmanında)* bir-birinə daha yaxındırlar». *(Peyğəmbərin qohumlarının mən və mənim övladlarım olmasında heç bir şəkk-şübhə olmadığı üçün qohumluq ancaq ona məxsus olan şəxs o Həzrətin yerində dayanmağa daha layiqdir.) (Həmçinin)* Allah-təalanın *(Qurani-Kərimin Ali-İmran surəsinin 68-ci ayəsindəki)* bu kəlamı: « إِنَّ أَوْلَى النَّاسِ بِإِبْرَاهِيمَ لَلَّذِينَ اتَّبَعُوهُ وَهَـذَا النَّبِيُّ وَالَّذِينَ آمَنُواْ وَاللّهُ وَلِيُّ الْمُؤْمِنِينَ» «Şübhəsiz ki, insanların İbrahimə ən yaxın olanı onun ardınca gedənlər, bu Peyğəmbər *(Məhəmmd)* və ona iman gətirənlərdir. Allah möminlərin dostudur!» Deməli, biz bir dəfə *(Həzrət Peyğəmbərlə)* qohumluq və yaxınlığımıza görə *(imamət və xilafətə başqalarından)* daha layiqik, bir dəfə isə *(o Həzrətə)* tabe olaraq ardınca getdiyimizə görə. (Qeyd)[1] Mühacirlər *(66-cı kəlamın şərhində toxunularaq izah edilən)* Səqifə günündə Ənsara Peyğəmbərlə–səlləllahu əleyhi və alih–qohum olmalarını *(xəlifəlik üçün)* dəlil və sübut kimi gətirdilər və onlara qalib gəldilər. Buna görə də əgər qələbə çalmaq *(xilafəti ələ almaq)* Allahın Peyğəmbəri–səlləllahu əleyhi və alih–ilə qohumluğa görə gerçəkləşirsə *(imamət bu yolla sübut olunursa)*, haqq *(xilafət haqqı)* bizə məxsusdur, sizə yox! *(Çünki biz o Həzrətə daha yaxınıq.)* Amma əgər qələbə, qohumluqdan ayrı bir şeylə

---

[1] *İmam əleyhis-salam «أُوْلُوا الْأَرْحَامِ» «qohumluq» barəsindəki ayə ilə ona görə kifayətlənmədi ki, çox yaxın qohumların yad və bir-birindən ayrı dinlərdə olmaları da mümkündür. Qurani-Kərimin, Hud surəsinin 46-cı ayəsində Həzrət Nuhun oğlu barəsində buyurduğu kimi: « إِنَّهُ لَيْسَ مِنْ أَهْلِكَ إِنَّهُ عَمَلٌ غَيْرُ صَالِحٍ» «O sənin ailəndən deyildir. Çünki o, nalayiq bir əməl (sahibi)dir». Zahiri və mənəvi yaxınlıq, yəni, qohumluqla itaət və tabeçilik bir yerdə olanda isə canişinliyə ləyaqət məsələsində heç bir şəkk-şübhə qalmır. Məlumdur ki, İmam əleyhis-salam və onun əhli-beyti qohumluq və itaətkarlıqlarına görə xilafət və imamət məqamına layiqdirlər və heç kəsin bu məsələdə onlardan qabağa düşmək haqqı yoxdur.*

gerçəkləşirsə *(qohumluq dəlil və sübut deyilsə)*, onda Ənsar öz iddiasında qalmaqdadır. (Qeyd)[1]

Belə güman edirsən ki, mən xəlifələrin hamısına *(Əbu Bəkrə, Ömərə, Osmana)* həsəd aparmış və onlara zülm etmişəm. Əgər sənin bu gümanın düz olsa, sənə qarşı cinayət törədilməyib ki, səndən üzr istənilsin?! *(Çünki onun sənə heç bir dəxli yoxdur, şair Əbi Zuvəyb demişkən: «وَ عَيَّرَ الْواشُونَ إِنِّي أُحِبُّها» Ağzıgöyçəklər məşuqəmi, mən onu sevdiyimə görə qınayır, məzəmmət edirlər.)* «وَ تِلْكَ شَكاةٌ ظاهِرٌ عَنْكَ عارُها» «Bu, ar və xəcaləti səndən uzaq olan günahdır *(ey məşuqə)*!»

Deyibsən ki: məni *(xəlifələrə beyət etmək üçün)* burnuna çubuq soxulub çəkilən dəvə kimi çəkib apardılar ki, beyət edim. Allaha and olsun ki, məni pisləmək istəməyinə baxmayaraq, tərifləmisən; məni rüsvay etmək istəmisən, amma özün rüsvay olmusan. (Qeyd)[2] Müsəlmanın dinində şəkk və yəqin, inamında isə tərəddüd olmasa, onun zülm və sitəmə məruz qalması ona nöqsan və eyb deyil. *(Xilafətimin sübutu üçün işarə etdiyim)* bu dəlillərin bəyan edilməsindən məqsədim səndən başqalarıdır *(icmanın gerçəkləşməsini iddia edən xəlifələrdir)*. Mən həmin dəlil və sübutların ancaq yeri gələn qədərini bəyan etdim *(ki, sən öz azğınlığını başa düşəsən)*.

Sonra mənimlə Osman arasında baş verənləri xatırladırsan *(məni ona kömək etmədiyim üçün zalım adlandırırsan)*. *(Amma)* onunla *(yaxın)* qohum olduğun üçün bu barədə sən

---

[1] *Mühacirlərin Ənsara gətirdikləri dəlillər kəsərli və qaneedici olmayıb və icma gerçəkləşməyib, halbuki Mühacirlərin dəlil və sübutları qaneedici olub və yerinə düşüb, amma itaət və tabeçilik şərti ilə! Onda həmin dəlil İmam əleyhis-salamın ləyaqətliliyini sübut edir.*

[2] *Çünki bu sözlərinlə mənə edilmiş zülmləri üzə çıxarmısan. Mənim zülm, sitəm, ikrah və məcburiyyətlə beyət etməyimi iqrar etdiyin üçün bilməlisən ki, zülm və sitəmlə gerçəkləşən icma düz olmayıb və haqq onu inkar edənlədir. Beləliklə, xəlifələri məzəmmət, özünü isə rüsvay etmisən.*

cavab verməlisən. (Qeyd)[1] Buna görə də *(de görüm,)* mənimlə səndən hansı birimiz onunla daha çox düşmənçilik etdik və onun öldürülməsində bələdçi olduq? Ona kömək etmək istəyən, onun isə qoymayaraq özünü saxlamasını xahiş etdiyi kəs, yoxsa onun kömək istəməsinə baxmayaraq, köməyini əsirgəyən və ölümü *(öldürülmək amillərini)* ona tərəf istiqamətləndirən ki, nəhayət, qəzavü-qədəri *(Allahın onun barəsindəki təqdiri)* ona üz tutdu *(və o öldürüldü)*?! (Qeyd)[2] Allaha and olsun ki, belə deyil! *(Sən münafiq və ikiüzlüsən. Çünki sən ona zülm etdin, indi isə özünü ürəyiyanan kimi göstərirsən. Allah Qurani-Kərimin Əhzab surəsinin 18-ci ayəsində sənin kimilər barəsində belə buyurur: «* قَدْ يَعْلَمُ اللَّهُ الْمُعَوِّقِينَ مِنكُمْ وَالْقَائِلِينَ لِإِخْوَانِهِمْ هَلُمَّ إِلَيْنَا وَلَا يَأْتُونَ الْبَأْسَ إِلَّا قَلِيلًا*»)* «Allah içərinizdən *(müsəlmanların müharibəyə getmələrinə)* mane olanları *(münafiq və ikiüzlüləri)* və qardaşlarına «bizə tərəf gəlin!» deyənləri tanıyır. Onlar ancaq az bir zaman *(o da nifaq və özlərini göstərmək üçün)* müharibəyə gəlirlər».

*(Mən bu sözlərimlə)* Osmana ondan baş verən bidətlər üçün nöqsan tutmağımdan üzr diləmək istəmirəm. Əgər mənim ona yol göstərməyim *(sənin gümanına görə)* günahdırsa, onsuz da: «رُبَّ مَلُومٍ لا ذَنْبَ لَهُ» «günahsız yerə məzəmmət olunan çoxdur».(Qeyd)[3] «وَ قَدْ يَسْتَفِيدُ الظِّنَّةَ الْمُتَنَصِّحُ» «bəzən çox öyüd

---

[1] *Müaviyə ilə Osmanın ikinci babaları Üməyyə ibn Əbdüşşəmsdir. Belə ki, Müaviyə ibn Əbu Süfyan ibn Hərb ibn Üməyyə, Osman isə ibn Əffan ibn Əbilas ibn Üməyyədir.*

[2] *Deyirlər ki, o Həzrət, Osmanla xalq arasında barışıq yaradaraq fitnə və qalmaqalı yatırtmaq istəyirdi. Osman Müaviyənin köməyinə arxalandığı üçün bu işə razı olmadı və o Həzrətin bu məsələdən kənara çəkilməsini istədi. Osman Müaviyənin yanına adam göndərərək onun tez köməyə gəlməsini istədi. Müaviyə isə çox ləngidi və Şamdan çıxandan sonra çox yavaş hərəkət edirdi ki, nəhayət, Osmanın öldürülməsindən xəbər tutdu və Şama qayıdaraq müstəqillikdən və hökumətdən dəm vurdu. Buna görə də İmam əleyhis-salam onun Osman barəsindəki həqiqətə zidd «ürəkyananlığı» haqqında buradakıları buyurmuşdur.*

[3] *Bu şerin birinci misrası belədir: «*وَكَمْ سُقْتُ فِى اثارِكُمْ مِنْ نَصِيحَةٍ*» «mən sizə nə qədər çox öyüd-nəsihət verdim».*

verən kəs *(öyüd nəsihətinin müqabilində)* töhmət və pis gümanlar qazanır». *(Bu misra öyüd-nəsihət verməyə çalışan, axırda isə pis məqsədlər güdməkdə günahlandırılan şəxs barəsində məsəldir. Qurani-Kərim Hud surəsinin 88-ci ayəsində Həzrət Şüeybin öz qövmünə dediyi sözləri belə bəyan edir:* « إِنْ أُرِيدُ إِلاَّ الْإِصْلاَحَ مَا اسْتَطَعْتُ وَمَا تَوْفِيقِي إِلاَّ بِاللّهِ عَلَيْهِ تَوَكَّلْتُ وَإِلَيْهِ أُنِيبُ») «Mən yalnız bacardığım qədər sizi islah etmək istəyirəm. Mənim (işləri islah etməkdəki) müvəffəqiyyətim yalnız Allahın köməyilədir. Mən yalnız Ona təvəkkül etdim və məhz Onun hüzuruna dönəcəyəm!»

*(Məni müharibə ilə qorxudur və)* deyirsən ki, sənin yanında mən və mənim səhabə və havadarlarım üçün qılıncdan başqa bir şey yoxdur! Ağladandan sonra güldürdün *(bizi)! (Bu sözləri səndən eşidən kəs sənin İslam dinini ələ almağına ağlayandan sonra gülər. Sənin bu çərən-pərən sözlərin məni təəccübləndirərək güldürdü. Axı)* sən Əbdülmüttəlib övladlarının düşmənlərdən çəkinərək üz çevirdiklərini və qılıncdan qorxduqlarını harada görmüsən? «لَبِّثْ قَلِيلاً يَلْحَقُ الْهَيْجا حَمَلْ» «Bir az ayaq saxla ki, Həməl *(ibn Bədr – bu, Quşəyr ibn Kəb ibn Rəbiə qəbiləsindən olan bir şəxsin adıdır)* gəlib çatsın» *(«* لا بأسَ بِالْمَوْتِ إذا الْموْتُ نَزَلْ*» «Ölüm insana üz tutanda ondan heç bir qorxu yoxdur»)*.(Qeyd)[1] Tezliklə, axtardığın *(və barəsində çərənçilik, boşboğazlıq etdiyin)* şəxs səni axtarar və uzaq sandığın şey sənə yaxınlaşar. Mən Mühacirlər, Ənsar və gözəl şəkildə onlara davamçı olan çox böyük qoşunla sənə tərəf tələsirəm. Onların sayı çox, toz-dumanları isə dağınıqdır. Ölüm köynəyi geyiniblər. Onlar üçün ən yaxşı görüş özlərinin Rəbbi ilə görüşdür. Bədr müharibəsi iştirakçılarının övladları və Bəni-Haşimin qılıncları da onlarladır. Sən özün qardaşın *(Hənzələ ibn Əbu Süfyan)*, dayın *(Vəlid ibn Ütbə)* baban *(Ütbə ibn Rəbiə – o, Müaviyənin anası Hindin atasıdır və adı çəkilənlərin hər üçü Bədr müharibəsində öldürülüblər)* və qohumlarına qarşı işlədilmiş həmin qılıncların itiliyini

---

[1] *Deyirlər ki, cahiliyyət dövründə Həməlin dəvələrini qarət edirlər, və o gedib onları qaytarır və bu şeri oxuyur. Sonra bu şer müharibə ilə hədələmək zamanında məsələ çevrilir.*

yaxşı bilirsən. *(Qurani-Kərimin Hud surəsinin 83-cü ayəsində Lutun qövmü barəsində belə buyurulur: «وَمَا هِيَ مِنَ الظَّالِمِينَ بِبَعِيدٍ»)* «O əzab sənin ümmətin içərisində olan zalimlərdən də uzaq deyildir!» *(Gərək zalımlar bu cür əzab və çətinliklərə düçar olsunlar.)*

# 29-cu məktub

İmam Əli əleyhis-salamın Bəsrə əhlinə olan məktublarındandır *(ki, onda Bəsrə əhalisini onların çirkin əməllərindən keçdiyinə ümidvar edib və itaətsizlik etməkdən qorxudub).*

*(Azğınların ardınca getmək nəticəsində)* ipinizin qırılması *(əhd-peymanı pozmaq)*, düşmənçilik və müxalifət etməyiniz *(nalayiq işləriniz)* nadan və xəbərsiz olduğunuz məsələlərdən deyildi. Amma mən sizin günahkarınızı bağışladım, qılıncı üz çevirib qaçanınızdan saxladım, üz tutanınızı *(qayıdanınızı)* qəbul etdim. Lakin bundan sonra əgər haqqa zidd pozğunçuluq və səhv düşüncələr sizi mənimlə düşmənçilik və müxalifətə sövq etsə, bilin ki, öz atlarını yaxına gətirərək öz minik dəvəsinə palan qoyan mən olacağam. Əgər məni özünüzə tərəf gəlməyə məcbur etsəniz, sizinlə elə döyüşə başlayacağam ki, Cəməl müharibəsi onun yanında *(qazan dibi)* yalayanın *(qazanın dibini)* yalaması kimi olsun. Hərçənd ki, sizə tabe olanın fəzilət və böyüklüyü və *(sizə, mənə qarşı çıxmamaq barəsində)* öyüd-nəsihət verənin haqqından da xəbərdaram. Eyni zamanda günahsıza vurulmuş töhmətdən və vəfalıya qarşı peymanını pozandan da keçməyəcəyəm. *(Müharibə zamanı haqq ilə batili bir-birinə qatışdırmayacaq, kimin öldürülməli və kimin buraxılmalı, kimin cəzasına çatdırılmalı və kimin mükafatlandırılmalı olmasını yaxşı bilirəm.)*

# 30-cu məktub

İmam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındandır *(ki, onda Müaviyəyə öyüd-nəsihət verərək onu işin sonunda olacaq əzab və bədbəxtlikdən qorxudub).*

Yanında olan şeylərə *(nemətlərə)* görə Allahdan qorx. Onun sənin boynunda olan haqqına *(itaət, hökmlərinə tabeçilik və şükr haqqına)* bax. Barəsində cahil və nadan olmaqda üzrlü sayılmayacağın şeyi tanımağa qayıt *(öz zəmanənin imamına tabe ol)*. Çünki *(əsası zəmanə imamının tanınması olan Allaha)* itaət etmək və tabeçilik üçün aşkar nişanələr, aydın, düz və bəlli yollar və *(Cənnət kimi)* arzu olunan sonluq var. Zirəklər ona daxil olur, alçaqlar isə ondan boyun qaçırır, yayınırlar. *(Allah və Peyğəmbərin göstərişlərinə zidd olan nalayiq işlər görürlər və nəticədə ona nail olmurlar.)* Kim o yoldan çıxsa haqq yoldan kənara çıxıb və bilmədən azğınlıq çölünə ayaq basıb. Allah, nemətlərinin üzünü ondan döndərər *(nemətlərini ondan alar)* və əzab və çətinlikləri ona rəva bilər. Belə isə özünü qoru və nəfsindən qorx *(onun göstəriş və istəklərinə uyğun davranma)* ki, Allah *(səadət və xoşbəxtlik)* yolunu sənə göstərib. İşlərinin sənin öhdənə düşən qədərində öz atını zərər-ziyanın sonuna və küfr və üsyan diyarına *(cəhənnəmə)* sürmüsən və *(istəklərinə tabe olduğun)* nəfsin, səni şər və pisliyə *(öz zəmanənin imamı ilə müxalifət etməyə)* vadar edib, azğınlığa *(əbədi bədbəxtliyə)* atıb, pozğunçuluğa *(Allah və Peyğəmbərə qarşı günah işlətməyə)* məcbur edib və *(hidayət və nicata gedən)* yolları sənə çətinləşdirib. *(Çünki nəfs, ona tabe olan şəxsin azğınlıq və zəlalət yollarından kənara çıxması üçün səadət və xoşbəxtlik yollarını ona çətinləşdirir.)*

# 31-ci məktub

İmam Əli əleyhis-salamın Siffeyndən qayıtdıqdan sonra, Hazirində *(Siffeyn bölgəsi yaxınlığında yer adıdır)* Həsən ibn Əli əleyhiməs-salama yazdığı vəsiyyətlərindəndir. (Qeyd)[1]

---

*[1] O Həzrət bu vəsiyyətnamədə verdiyi çoxlu öyüd-nəsihətlərdə səadət və xoşbəxtlik yollarını göstərib. Bu vəsiyyətnamədə İmam əleyhis-salamın*

*(Bu vəsiyyətnamə)* yoxluq və ölümə yaxın olan, zamanı *(onun keçərliyi və çətinliklərini)* etiraf edən, ömür və həyata arxa çevirmiş, (Qeyd)[1] dövrana *(onun çətinliklərinə)* təslim, dünyaya bədbin, ölülərin evlərində məskunlaşmış və sabah *(yaxın olan ölüm günü)* ondan köçəcək atadan *(xalqın hidayəti və düz yola gətirilməsi barəsində)* əldə edilməz bir şey arzulayan, məhv olanların *(ölülərin)* yolu ilə gedən, *(müxtəlif)* xəstəliklərə hədəf, zamanın girovu olan, müsibət və qəmlərə nişangah, dünyaya qul *(onun xoşagəlməz rəftarına düçar)*, hiylə və yalan diyarının *(yaxşılarının səadət və xoşbəxtliyi və pis əməllilərinin bədbəxtliyinin)* taciri, *(borc yiyəsi kimi öz borcunu almayınca əl çəkməyən xəstəliklərə, ölümlə nəticələnən hadisələrə və)* puçluqlara borclu, *(əlindən qurtarmaq mümkün olmayan)* ölümə əsir, möhnətlərlə müttəfiq, qəm-qüssəyə yoldaş *(insan möhnət və qəm-qüssədən ayrılmır və sanki onlardan ayrılmamağa və yoldaş olmağa and içib)*, bəla və dərdlərə hədəf, nəfsi istəklərin torpağa yıxdığı və *(qovuşacağı)* ölülərin canişini olan oğula!

Dünyanın mənə arxa çevirməsi, dövranın mənə itaətsizlik etməsi və axirətin mənə üz tutması barəsində

---

*sözlərinin hədəf və məqsədi İmam Həsən əleyhis-salam deyil, bütün insanlardır. Buna görə də «bu vəsiyyətnamədəki «dünya qulu və qürur taciri» kimi ibarələr imamın şəni və ismət məqamına layiq olmadığı üçün gərək onlar yozulsunlar, yəni, onların zahiri mənalarına göz yumulsun və zahirdə olmayan mənalarına diqqət edilsin» deyilməsinə heç bir yer qalmır. Çünki söhbətin hədəf və məqsədinin ümumi insanlar olmasını qəbul etsək, başqa yozuma ehtiyac qalmır. Hərçənd ki, Allahın, pak və məsum Əhli-Beyti hər bir eyb və nöqsandan uzaq etməsi və gözəl xislət və sifətlərlə bəzəməsinə baxmayaraq, onlar Allah-taalanın göstərişi ilə özlərini tərifləməyiblər və zahirdə özlərini başqaları kimi göstəriblər. Bütün bunlarla yanaşı, «Nəhcül-Bəlağə»nin şərhçilərindən olmuş mərhum Bəhrani mərhum Əbu Cəfər ibn Babəveyh Qumidən nəql edib ki, İmam əleyhis-salam bu vəsiyyəti öz oğlu Məhəmməd ibn Hənəfiyyəyə yazıb.*

[1] *Çünki o Həzrətin mübarək yaşı altmışı keçmişdi və altmış yaş təbii ömrün yarısıdır və bu yaşa az adam çatır. Əgər kimsə təbii ömür yaşına çatırsa da, altmış yaşdan sonra yerdə qalan, keçəndən az olur. Buna görə də insan altmış yaşdan sonra ömürə arxa çevirmiş sayılır.*

bildiklərim məni başqasını yada salmaq və məndən sonra qalacaq *(ev, var-dövlət və övlad kimi)* şeylər üçün çalışmaqdan saxlayır. *(Çünki belə bir vaxtda kimisə yada salmaq və ya nəyinsə qəmini çəkmək münasib deyil. Gərək səadət və xoşbəxtliyə səbəb olan fəzilətlər əldə etməyin fikrində olum.)* Amma mənə camaatın qəm-qüssəsi deyil, yalnız öz qəm-kədərim aid edildiyi üçün *(nə vaxt öz işimdən başqa iş və öz qəmimdən başqa qəmi yadımdan çıxartdımsa)* düşüncəm məni təsdiqləyərək arzu və nəfsin istəklərindən saxladı, işimin həqiqətini *(dünyadan köçməyi)* aşkar etdi. Sonra məni onda oyun-oyuncaq olmayan səy və təlaşa və yalanla qarışıq olmayan doğruluğa vadar etdi. *(Xülasə, dünyanın mənə arxa çevirdiyini və axirət səfərinə hazırlaşmağın zəruriliyini gördüyüm üçün öz işimdən başqa işlər üçün olan hər bir düşüncəni özümdən uzaqlaşdırdım. Amma)* səni vücudumun bir parçası gördüm *(çünki övlad insanın bir parçasıdır)*, hətta vücudumun hamısı hesab etdim *(çünki övlad valideynin yerini tutaraq adını qoruyur)*. Belə ki, sənə bir şey gəlsə, mənə gəlmiş kimidir və əgər ölüm səni haqlasa məni haqlamış kimidir. *(Qısası, sənin işlərin barəsində düşünməyim öz işim üçün düşünmək kimidir.)* Sənin işin məni öz işlərim qəm-qüssəyə saldığı kimi kədərləndirir. Buna görə də *(həmin səbəbdən)* sağ qalmağımdan və ya ölməyimdən asılı olmayaraq bu məktuba möhkəm arxalanaraq onu sənə yazdım. *(Bu elə bir vəsiyyətnamədir ki, əgər sən ona əməl etsən mənim qəlbim rahat olar.)*

Oğulcan, sənə təqvalı olaraq Allahdan qorxmağı, Onun əmr və hökmlərinə tabe olmağı, qəlbini Onu yada salmaqla abadlaşdırmağı *(çünki bina evin kamilliyi olduğu kimi Allahı yad etmək də nəfsin kamillik amilidir)* və Onun *(itaət və tabeçilik)* ipindən yapışmağı tövsiyə edir, tapşırıram. Əgər sən ondan yapışsan, hansı səbəb və ip səninlə Allah arasında olan ip və səbəbdən möhkəm ola bilər?!

Qəlbini öyüd-nəsihətlə *(elm, hikmət və axirəti yada salmaqla)* dirilt, zahidliklə *(dünyaya ürək bağlamamaqla)* öldür, yəqin və inamla *(Allah və Peyğəmbərə iman gətirməklə)* qüvvətləndir, hikmətlə *(Allahın hökmlərini bilməklə)* nurlandır, ölümü yada

salmaqla zəlil və xar et *(nəfsi istəklərə tabe olma)* və *(dünyanın)* fanilik və yoxluğu*(nu)* etiraf etməyə məcbur et *(onu dünyanın yox olacağını iqrar etməyə vadar et ki, oranın əbədi diyar olmasını zənn etməsin)*. Onu dünyanın pislikləri və dərdləri ilə dərindən tanış et *(ki, ona etimad etməsin)*, zamanın *(acı hadisələrinin)* hücumu və gecə ilə gündüzün pis keçməsi *(insanın istək və arzularına uyğun olmaması)* ilə qorxut. Keçənlərin xəbərləri *(onların sərgüzəştlərinin necəliyi)* ilə tanış edərək səndən qabaqkıların başına gələnləri onun yadına sal. Onların diyarlarını, qalıqlarını və nişanələrini gəz dolan, nə etdiklərinə, haradan köçdükləri və harada düşüb yerləşdiklərinə nəzər sal. Görəcəksən ki, onlar dostlardan ayrılaraq qürbət və tənhalıq diyarına düşüblər. Sanki az müddət sonra sən də onlardan biri olacaqsan. Belə isə *(layiqli əməllərlə)* öz mənzil və uyuyacağın yeri abadlaşdır, axirətini dünyana satma. Bilmədiyin şey barəsində söz söyləmə. Sənə aid olmayan şey barəsində söhbət etmə. Azğınlıq olmasından qorxduğun yoldan *(onunla getməkdən)* çəkin. Çünki azğınlıq sərgərdanlığı zamanı özünü saxlamaq, qorxulu işlər görməkdən daha yaxşıdır. Yaxşı işlərə əmr et ki, yaxşılardan olasan. Pis işləri əlinlə, dilinlə qadağan et. Öz səy və təlaşınla onları *(pis işləri)* yerinə yetirən kəsdən ayrıl. Allah yolunda *(din düşmənlərinə və pis işlərə əmr edən nəfsə qarşı)* Ona layiq tərzdə cihad et. *(İmkan və bacarığın olan qədər cihad etməkdən çəkinmə.)* Allah yolunda, tənə vuranın tənəsindən qorxub çəkinmə. *(Başqalarını yaxşı işlərə əmr edərək pis əməllərdən çəkindirməkdə və digər ilahi hökmlərin icrasında kiminsə tənə vurması, sənə boynunda olan vəzifəni yerinə yetirməyə mane olmasın.)* Harada olmağın və hansı çətinliklə üzləşməyindən asılı olmayaraq haqq-həqiqət uğrunda *(ona yardım etmək üçün)* çalış. *(Bu yolda qarşıya çıxan heç bir hadisədən üz çevirmə.)* Dində elm əldə et. *(Onun hökmlərini öyrən.)* Özünü xoşagəlməz işlərə səbr etməyə adət ver. Haqq yolda səbrli olmaq necə də gözəl xasiyyətdir! Bütün işlərində öz nəfsini Allahına tapşır. Çünki sən *(belə olan halda,)* onu qüdrətli

sığınacağa və qoruyucuya tapşırmış olursan. İstədiyin şeyi ancaq Rəbbindən istə *(Ondan başqasına üz tutma)*. Çünki bağışlamaq və vermək də Onun əlindədir, məhrum etmək də. *(Hər bir işdə Allahdan)* çoxlu xeyir dilə. Mənim vəsiyyət və tapşırığım barəsində dərrakə və fikir işlət, ondan üz çevirmə. Çünki sözün ən xeyirlisi və gözəli onun fayda verənidir *(qulaq asanın eşidərək ona uyğun rəftar etmədiyi deyil, eşidərək əməl etdiyidir)*. Bil ki, (sahibinə) fayda verməyən bilikdə xeyir yoxdur. Öyrənilməsi münasib olmayan *(sehr, cadu və bu kimi din və məzhəbə zidd)* elmdən fayda əldə edilməz.

Oğulcan, qocalaraq yaşlaşdığımı, zəiflik və süstlüyümün artmaqda olmasını görüb sənə vəsiyyət etməyə tələsdim. Zehnimdə olanları sənə çatdırmamış ölüm məni haqlayar və ya bədənimdə çatışmazlıq yarandığı kimi, düşüncəmdə də nöqsan yaranar, yaxud bəzi nəfsi istəklər və ya dünya fitnələri səni məndən tez qabaqlayar *(nəfsi istəklərə tabeçilik və dünyaya ürəkdən bağlanmaq sənə hakim olmamışdan vəsiyyət etdim ki, birdən mənim öyüd-nəsihətlərimi qəbul etməzsən)* və üsyankar dəvəyə dönərsən deyə, onda bir sıra fəzilətlər yazdım. Gəncin qəlbi *(toxum səpilməmiş)* boş yer kimidir. Hansı toxum səpilsə onu qəbul edər *(bitirər)*. Buna görə də ürəyin *(dünyaya vurğunluq səbəbindən)* bərkiməmiş və ağıl və dərrakən *(boş və puç işlərə)* mübtəla olmamış səni ədəbləndirməyə başladım *(din, hikmət, bilik və ibrət qaydalarını sənə xatırlatdım)* ki, öz işlərində tam düşüncə ilə, təcrübə edənlərin sənin axtarmaq və sınaqdan keçirmək ehtiyacını aradan qaldırdıqları şeyə üz tutasan, təcrübə etməyə möhtac olmayasan və sınaqdan keçirməkdən qurtulasan. Beləliklə, bizim *(çox zəhmətlə)* əldə etdiyimiz ədəb *(zəhmətsiz olaraq)* sənə çatar və bizim üçün qaranlıq *(gizlin və naməlum)* olan şey, sənə aydın olar. (Qeyd)[1]

---

[1] *Xülasə, bizim, taparaq əldə edilməsi üçün zəhmət çəkdiyimiz şey heç bir çətinlik və xərcsiz sənin yanına gəlib. Bir daha yada salırıq ki, bu sözlər imamət və ismət məqamına malik olmaqla ziddiyyət təşkil etmir. Çünki heç şəkk-şübhə yoxdur ki, İmam əleyhis-salam burda özünü və*

Oğulcan, məndən əvvəlkilərin ömrü kimi *(uzun)* ömür sürməsəm də, onların işlərinə nəzər salıb, xəbərləri barəsində düşünərək onlardan qalan şeyləri seyr etmişəm. Nəticədə onlardan biri *(kimi)* olmuşam. Hətta onların işləri barəsində mənə çatan şeylərə görə sanki birincisindən sonuncusuna kimi hamısı ilə yaşamışam. Beləliklə, onların işlərinin saf və yaxşısını bulanıq və pisindən və xeyrini ziyanından seçdim. Sənin üçün hər bir işin gözəlini seçdim, bəyənilmişini istədim və onun qaranlıq və naməlum olanını *(məəttəlliyə səbəb olanını)* səndən uzuqlaşdırdım. Sənin işin məni, mehriban atanı vadar edən şeyə vadar etdiyi vaxt və səni tərbiyə etmək və ədəbləndirmək qərarına gəldiyim zaman belə məsləhət gördüm ki, bu işi həyata *(yeni)* üz tutduğun, zəmanəni yeni dərk etdiyin *(gənc və yeniyetməlik)* və pak niyyət və təmiz nəfsə malik olduğun vaxtda görüm. Və bu işə Allahın kitabı, onun təvili *(yozumu)*, İslamın *(həqiqi)* yolları, şəriət hökmləri və Allahın halal-haramını öyrətməklə başlayıram. Allahın kitabından başqa bir şeylə başlamıram sənin təliminə. Sonra xalqın nəfsi istəklər və *(ziddiyyətli)* rəylərə uymaları səbəbindən *(əqidə və şəri hökmlərdə)* şübhələrə düşüb ixtilafa düçar olduqları şey barəsində sənin şübhəyə düşəcəyindən qorxdum. Onu sənin yadına salmağa meylim olmasa da, mənim üçün onu möhkəmləndirmək, səni həlak və məhvediciliyindən əmin olmadığım işdə təkbaşına buraxmaqdan daha xoşdur. Allahın, onda sənə qurtuluş və nicat müvəffəqiyyəti əta etməsini və səni düz yola hidayət etməsini diləyirəm. Beləliklə, bunları vəsiyyət edirəm sənə.

Oğulcan, bil ki, vəsiyyətimdən öyrənəcəyin ən yaxşı şey Allahdan çəkinərək qorxmağın, Allahın sənə vacib etdiyinə kifayətlənməyin və *(Əbu Talib, Seyyidüş-şühəda Həmzə və Cəfər Təyyar kimi)* keçmiş babaların və əməlisaleh əhli-beytinin

---

*övladını başqalarının yerinə qoyub və bu mübarək sözləri hər bir ata və oğul üçün nümunə və örnək edib.*

qoyub getdiklərini əldə etməyindir. Çünki sən fikirləşərək düşündüyün kimi, onlar da öz sayıq düşüncələrini əldən vermədilər *(özlərinə diqqət yetirərək səadət və xoşbəxtlik tapdılar)*. Beləliklə, nəticədə düşüncə onları bildiklərini yerinə yetirməyə və vəzifə daşımadıqlarından çəkinməyə yönəltdi. *(Onlar özlərinə aşkar və məlum olan şeylərə inanaraq ona uyğun davrandılar, qaranlıq və naməlum qalan şeylərdən isə uzaqlaşdılar.)*

Beləliklə, əgər nəfsin, sənin qohumlarının *(təcrübə edərək)* keçdiklərini onlar kimi bilməməsinə baxmayaraq, qəbul etməkdən boyun qaçırırsa, sənin bu barədəki istəyin şübhələrə *(qatma-qarışıq sözlərə)* girişərək mübahisə və çəkişmələrə daxil olmaq deyil, başa düşmək, çalışmaq və elm və bilik əldə etmək olmalıdır. (Qeyd)[1] Ona nəzər salıb barəsində düşüncəyə dalandan qabaq öz Allahından kömək istə, müvəffəqiyyət qazanmağın üçün Ona üz tut və səni şəkk-şübhəyə salan və ya zəlalət və azğınlığa aparan bütün pis işləri tərk et. Beləliklə, ürəyinin təmizlənib saflaşaraq təvazökar və itaətkar olmasını, fikrinin kamilləşərək *(pərakəndəlikdən uzaqlaşıb)* cəmlənməsini və o barədəki səyinin məqsədyönlü olmasını yəqin etdikdən sonra *(bu vəsiyyətnamədə)* dediklərimə nəzər sal və barəsində fikirləş. Əgər istədiyin fikir və düşüncə rahatlığını əldə edə bilməsən *(ürəyin pak və itaətkar olmasa, düşüncələrin pərakəndə olsa, müxtəlif məqsədlərə malik olsan)*, bil ki, öz qabağını görməyən dəvə kimi anlaqsız addım atır və zülmət qaranlıqlara *(azğınlıqlara)* düşürsən. Anlayışı olmadan bilmədiyi yol ilə gedən və ya *(haqqı batilə)* qatışdıran kimsə dini istəyən adam deyil! Belə olan halda, dayanmaq və özünü saxlamaq *(ağıl və elmin hökmünə)* daha yaxındır.

Buna görə də oğul can, mənim vəsiyyət və tapşırığımı yaxşı anla. Bil ki, ölümün sahibi həyatın da sahibidir,

---

[1] *Əgər keçmişlərin yoluna uyğun hərəkət etmək, davranmaq istəmirsənsə, azğın və azdırıcıların müxtəlif sözləri və əməllərinə də etina etmə. Ehtiyat və təmkinliliyi əldən vermə və səy və təlaş et ki, özün həqiqəti əldə edə biləsən.*

yaradan öldürəndir, yox edən, qaytarandır *(bəla və çətinliklərə)* düçar edən nicat verəndir. *(Xülasə, işlərdə şəriksiz Allahdan başqa təsiredici yoxdur.)* Dünya ancaq Allahın nemətlər, imtahanlar, axirət cəzası və bizim bilmədiyimiz şeylərdən istədiyini müəyyən etdiyi şey üzərində dayanıb. Buna görə də işlərdən hansısa sənə çətin gələndə, *(onun hikmət və məsləhətə əsaslanmamasını sanma)* onu sənin ondan xəbərsizliyin və nadanlığın hesab et. Çünki sən yaradılışının əvvəlində nadan idin, sonra bilik sahibi oldun. Sənin *(hikmət və məsləhətini)* bilmədiyin, düşüncənin barəsində sərgərdan qaldığı, görmənin azdığı və sonra görüb dərk etdiyin şeylər çoxdur. Buna görə də yaradan, ruzi verən və gözəl əndamını xəlq edəndən *(Onun rəhmət ipindən)* yapış. İbadət və bəndəliyin Ona olsun, Ona üz tut və qorxun Ondan olsun.

Oğulcan, bil ki, Allah barəsində Peyğəmbər *(səlləllahu əleyhi və alih)* kimi heç kəs xəbər verməyib. Belə isə onu öz *(səadət və xoşbəxtlik)* bayraqdarın hesab et və *(əzab və çətinliklərdən)* nicat və qurtuluş rəhbərin bil. Mən *(bu barədə)* sənə öyüd-nəsihət verməkdə heç nəyi əsirgəmədim. Sən özün üçün *(öz xeyrin üçün)* fikir və düşüncələrində hər nə qədər səy və təlaş etsən də, heç vaxt mənim sənin üçün olan fikir və düşüncələrim həddinə çata bilməzsən.

Oğulcan, bil ki, əgər Rəbbinin şəriki olsaydı, sənin *(hidayət edilməyin)* üçün onun da peyğəmbərləri gələr, onun səltənət və hökmdarlıq nişanələrini görər, iş və sifətlərini tanıyardın. Amma Allah, Özünü vəsf etdiyi kimi təkdir. *(Qurani-Kərimin Kəhf surəsinin 110-cu ayəsində buyurur ki: «أَنَّمَا إِلَٰهُكُمْ إِلَٰهٌ وَاحِدٌ» «Sizin tanrınız yalnız tək olan Allahdır».)* Səltənətində heç kəs Ona qarşı çıxmır. O heç vaxt zavala uğramır və həmişə olub *(əbədi və əzəlidir)*. O hər şeydən əvvəldir, amma *(say mənasında olan)* əvvəl olmaq və birinciliksiz. (Qeyd)[1]

---

[1] *O, sıra tərtibi sayında işlədilən «əvvəl» deyil, həqiqi «əvvəl»dir. Çünki əgər əvvəl olmaq həmin say mənasında götürülsə, onda Onun nə vaxtsa yox olması və sonradan yaranması, meydana çıxması təsəvvür edilir.*

Həmçinin hər şeydən axırdır, sonluqsuz! (Qeyd)[1] O, rübubiyyətinin qəlb və ya gözün əhatə etməsi nəticəsində isbat edilməsindən böyükdür. (Qeyd)[2] Buna görə də Onun sifətlərini *(deyilən kimi)* dərk etdikdən sonra, itaət və bəndəlik axtarışında, əzab və cəzasından qorxmaqda və qəzəbindən *(rəhmətindən uzaqlaşmaqdan)* çəkinməkdə qədir-qiyməti kiçik, qüdrəti az, acizliyi çox və Rəbbinə ehtiyacı böyük olan sənin kimisinə necə davranmaq layiqdirsə, elə hərəkət et. Çünki O, sənə yaxşılıqdan başqa bir şey əmr etməyib və səni çirkin işlərdən başqa bir şeydən çəkindirməyib. (Qeyd)[3] Oğulcan, səni dünya, onun necəliyi, aradan getməsi və əldən-ələ keçməsindən xəbərdar etdim. Sənə axirətdən və həmin diyarda onun əhli üçün hazırlanmış şeylərdən xəbər verdim. Dünya və axirət işləri barəsində sənin üçün misallar da çəkdim ki, onlardan ibrət götürərək ardınca gedəsən! Dünyanı sınaqdan keçirib tanıyan kimsə *(arzu və istəklərinə)* uyğun olmayan qəhətlik və dar yerdən, su və yeməyi bol və yaşıllıqları *(geniş)* olan yerə səfər edən müsafirlər dəstəsi kimidir. Onlar öz diyar və yerlərinin gen-bolluğuna çatmaq üçün yolun əziyyətləri, dostların uzaqlığı, səfərin çətinlikləri və yeməklərinin pisliyinə dözərlər. Beləliklə, həmin çətinliklərdən əziyyət və ağrı-acı hiss etməzlər. *(Öz)* yığdıqlarının həmin yolda xərcləməsində bir ziyan

---

*Bu sifət isə vücudu vacib olan varlığa deyil, mümkün olan varlığa aiddir.*

[1] *Çünki Onun sonu olsa, yoxluğa qovuşacaq. Belə olanda isə zatən vacib əl-vücud olmayacaq.*

[2] *O, qəlblərin elm və biliklə və ya gözlərin zat və sifətlərinin həqiqətlərini görərək Onu dərk etməsindən üstündür. Çünki O, qətiyyən əhatə edilməz və məhdudlaşmaz.*

[3] *Şərhçi Bəhrani burada belə deyir: Mötəzilə, işlərin yaxşı və pis olmaları meyarının ağıl olması məsələsində bu və bu kimi kəlamlara istinad edir.*

görməzlər. (Qeyd)[1] Onlar üçün onları mənzil və yerlərinə yaxınlaşdıran şeydən sevimli bir şey yoxdur. Dünyaya aldanan *(və axirətə göz yuman)* şəxs isə yeyib-içməyi bol, naz-neməti çox və *(arzu-istəklərinə)* müvafiq mənzildə olan və sonra ordan qəhətlik və darısqal yerə gələn dəstə kimidir. Gözlənilmədən yeni yerə çatan və ona doğru hərəkət edən zaman onlar üçün *(əvvəl)* olduqları yerdən ayrılmaqdan acı və ağır şey yoxdur!

Oğulcan, özünü səninlə başqası arasında olan şeydə tərəzi et. Beləliklə, özün üçün bəyəndiyin şeyi başqası üçün də bəyən. Özün üçün istəmədiyin şeyi, başqası üçün də istəmə. Necə ki, sənə zülm edilməsini istəmirsən, sən də zülm etmə. Sənə yaxşılıq edilməsini istədiyin kimi, sən də yaxşılıq et. Başqalarında çirkin saydığın şeyi, özündə də çirkin say. Sən özün başqaları barəsində məmnun və razı olub rəva bildiyin şeyi, başqalarının da sənə rəva bilmələrindən razı ol. Bildiyin az olsa da bilmədiyin şeyi demə. Sənə deyilməsini istəmədiyin şeyi *(sən də başqalarına)* demə.

Bil ki, məğrurluq və özünü bəyənmək xoşagəlməz və haqqa zidd bir xüsusiyyətdir və ağıla ziyan gətirər. Beləliklə, öz yaşayış və dolanışığını təmin etmək üçün çalış. Başqaları üçün xəzinədarlıq etmə. *(Hərisliklə mal və sərvət yığaraq onu başqaları üçün saxlama.)* Öz doğru yoluna çatanda *(haqq yolu tapanda)* isə, Rəbbin müqabilində ən təvazökar və itaətcil halda ol.

Bil ki, qarşında uzaq məsafəli uzun və çox qorxulu bir yol var. Sən orada yaxşılıq axtarışına və yükünün *(ağır günah və itaətsizliklərdən)* yüngül olması ilə birgə səni məqsədə çatdıracaq miqdarda azuqə götürməyə də möhtacsan. Buna görə də arxana taqət və bacarığından artıq yük götürmə ki,

---

[1] *Bəli, bəndənin Onun yolunu gedərkən gördüyü əziyyət və çətinlik rahatlıq və asudəlik olar. Məşuqu ilə vüsal axtarışında olan şəxs üçün gördüyü zərər-ziyan xeyir və mənfəət olar.*

ağırlığı səni incidər *(və yolda qalaraq başqalarına çata bilməzsən)*. Sənin azuqəni qiyamət gününə aparacaq və sabah, sən möhtac olduğun zaman onu sənə qaytaracaq möhtac və imkansız bir adam tapsan qənimət bil və azuqəni ona yüklə. Nə qədər ki, imkanın var, ona çox kömək et. Çünki ola bilər ki, *(ehtiyac günü)* onu axtarasan və tapmayasan. Sənin ehtiyacın olmayan zaman səndən borc istəyəni qənimət bil ki, möhtac olduğun gündə onu sənə qaytarsın.

Bil ki, sənin qarşında çox təhlükəli və çətin bir keçid var. Orada yükü yüngül olan yükü ağır olandan xoşhaldır və ağır tərpənən sürətlə gedəndən pis və aciz vəziyyətdədir. Həmin yolda, sənin enəcək yerin, mütləq ya cənnətdir, ya da od. Buna görə də *(həmin diyara)* çatmamışdan özün üçün qabaqcadan hazırlıq görən göndər *(ki, sənin üçün asayiş və rahatlıq yeri əldə etsin)*. Getməmişdən qabaq mənzil hazırla ki, ölümündən sonra razı salmaq vasitələri yoxdur və heç kəs dünyaya qayıtmır. *(Orada yaxşı iş görmək mümkün deyil ki, günahdan keçsinlər, həmçinin dünyaya qayıtmaq olmur ki, pis işlərə görə tövbə edilsin.)*

Bil ki, göylər və yerin xəzinələri *(qüdrətli və bacarıqlı)* əllərində olan Allah sənə dua etmək və istəmək icazəsi verib və *(onların)* qəbul edilməsinə zəmanət verib. Sənə *(istədiyini)* vermək üçün istəməyini, mehribanlıq etməsi üçün rəhmət və mehribanlıq diləməyini əmr edib. Səninlə Özü arasında Onu səndən ayıracaq bir kimsə qoymayıb. Səni Onun yanına şəfaətçi və vasitəçi aparmağa məcbur etməyib. Pis iş görəndə tövbə etməyinə mane olmayıb, *(günahına görə)* cəza verməyə tələsməyib. Rüsvay edilməyə layiq olduğun yerdə rüsvay etməyib səni. Tövbənin qəbul edilməsində səni əziyyətə salmayıb. Günahlara görə səni sıxıntıya salmayıb və rəhmətindən naümid etməyib. Hətta sənin özünü günahdan saxlamağını yaxşı iş *(görmək)* kimi dəyərləndirib. Sənin günah və pis işini bir günah, yaxşı və gözəl işini isə on bərabər hesab edib. Sənin üçün tövbə, peşman olaraq qayıtmaq və razı salmaq qapısı açıb.

Beləliklə, nə vaxt çağırsan, səsini  eşidər, nə vaxt Onunla münacat və razü-niyaz etsən, qəlbinin sirrini bilər. Belə isə, istəyini Ona çatdırarsan, ürəyinin sirrini Onun yanında açarsan və dərd-qəmindən Ona şikayət edər, Onunla dərdləşərsən. Ondan istəyərsən çətinliklərinin çarəsini və kömək və yardım diləyərsən Ondan. Ömür uzunluğu, can sağlığı və ruzi bolluğu kimi başqalarının verə bilmədikləri şeyləri, Onun rəhmət xəzinələrindən istəyərsən. Sənə Ondan istəmək icazəsi verməklə, xəzinələrinin açarlarını sənin əllərinə verib. Beləliklə, istədiyin zaman dua vasitəsi ilə nemətlərinin qapılarını açar, bir-birinin ardınca rəhmət yağışlarının gəlməsini istəyərsən. Allahın sənə gec cavab verərək *(dualarını)* gec qəbul etməsi naümid etməməlidir səni. Çünki bəxşiş niyyət miqdarında olur. *(Duanın qəbul olunması niyyətin saflığı və daimiliyndən asılıdır.)* Ola bilər, sənin duanın qəbul edilməsi *(ona görə)* təxirə düşsün ki, istəyənin mükafatı daha böyük, ümidvar olanın bəxşişi daha çox olsun. *(Çünki duanın qəbul olunması nə qədər geciksə, istək daha da artar və daha yaxşı razü-niyaz edilər. Nəticədə həmin şəxs bəxşiş edilməyə daha çox layiq olar.)* Çox şey var ki, *(Allah-təaladan)* istəyərsən və o sənə verilməz. Amma dünyada və axirətdə sənə ondan daha yaxşısı verilər. Yaxud da duan sənin üçün daha yaxşı olan şeyə görə qəbul edilməz. Çox vaxt da elə şey istəyirsən ki, o sənə veriləcəyi təqdirdə dinin məhv olar. Buna görə də gərək gözəlliyi sənə qalan, günah və əzabı isə səndən uzaq olan şeyi istəyəsən. *(Xülasə, əbədi səadət və xoşbəxtliyə səbəb olan şeyi istə. İstəklərin çoxu dünya malı və sərvət barəsində olduğu üçün İmam əleyhis-salam onu məzəmmət edərək belə buyurur:)* Mal sənə qalmır. Sən də ona qalmayacaqsan. *(Axirətdə səninlə birgə olmayacaq ki, sənə xeyir versin və sən də həmişə dünyada qalıb ondan bəhrələnməyəcəksən.)*

Bil ki, sən dünya üçün deyil, axirət üçün, qalmaq üçün deyil, yox olmaq üçün və yaşamaq üçün deyil, ölmək üçün yaradılmısan. Sən köç edilən yerdə, müvəqqəti diyarda və axirətə gedən yoldasan. *(Buna görə də belə bir yerə ürək bağlamaq rəva deyil.)* Sən əlindən qaçanın qurtula bilmədiyi və

axtaranın əldən çıxarmadığı ölüm üçün bir ovsan və ölüm onu mütləq haqlayacaqdır. Belə isə ölümün səni özünə «ondan tövbə edərəm» deyib etdiyin günah zamanı haqlayaraq səninlə *(həmin tövbə etmək barəsindəki)* fikrin arasında ayrılıq salmasından qorx və çəkin. *(Əgər belə olsa)* həmin vəziyyətdə sən özünü məhv etmisən. *(Çünki ağıldan uzaq belə bir fikirlə günah edib onun cəzasına düçar olmusan.)*

Oğulcan, ölümü və qəflətən düşəcəyin ölümdən sonrakı hadisələri çox yada sal ki, o sənin yanına gələnə kimi özünü hazırlayıb *(silahını taxaraq)* kəmərini bağlamış olasan. Məbadə ölüm səni qəflətən haqlasın və *(sən ona hazır olmadığın üçün)* qalib gəlsin sənə! Dünya əhlinin dünyaya ürək bağlamaları, güvənmələri, hərislikləri və onun üstündə bir-birləri ilə düşmənçilik etmələrinin səni aldatmasından qorx. Çünki Allah səni ondan xəbərdar edib. (Qeyd)[1] Dünya özü də özünü sənin üçün vəsf edib və pisliklərini açıb göstərib. *(Onun başqaları ilə rəftarını görürsən.)* Dünyapərəstlər hürən itlər və ov axtaran yırtıcılardır *(həmin heyvanlar kimidirlər)*. Onların bəzilərinin bəzilərindən xoşu gəlmir və bir-birlərinin üstünə qışqırır, güclüsü zəifini yeyir. Onların böyüyü zor gücünə kiçiyinə ziyan vurur. Onlar *(bəzisinin)* ayaqları bağlanmış dördayaqlılardır *(dördayaqlılar kimidirlər)*. (Qeyd)[2] Digər qismi isə *(başlı-başına)* buraxılmış heyvanlardırlar ki, ağıllarını itiriblər və azğınlığa düşmüşlər. Onlar quru və sərt çöldə zərər-ziyan otlamaq üçün buraxılmış dördayaqlılardır! Onların nə qoruyacaq çobanları, nə də otaranları var! Dünya onları korluq və azğınlıq yoluna aparır və gözlərini hidayət və nicat

---

[1] *Qurani-Kərimin Ənkəbut surəsinin 64-cü ayəsində buyurulur:* «وَمَا هَٰذِهِ الْحَيَاةُ الدُّنْيَا إِلَّا لَهْوٌ وَلَعِبٌ وَإِنَّ الدَّارَ الْآخِرَةَ لَهِيَ الْحَيَوَانُ لَوْ كَانُوا يَعْلَمُونَ» *«Bu dünya həyatı oyun-oyuncaqdan, əyləncədən başqa bir şey deyildir. Axirət yurdu isə, şübhəsiz ki, əbədi həyatdır. Kaş biləydilər.»*

[2] *Onlara dini məlumatları olmayan, amma şəriətin zahirinə əməl edərək günahlardan çəkinənləri misal göstərmək olar. Şərhçi Bəhraninin dediyi kimi: «Onlar, çobanın bağladığı heyvanlar kimidirlər».*

nişanələrini görməkdən örtüb. Beləliklə, onlar onun azğınlığında sərgərdandırlar və onun naz-nemətləri içərisində qərq olublar. *(Ona vurğunluq və ürək bağlamaq nəticəsində)* onu öz rəbbləri ediblər. Bu cür, dünya onlarla oynayır *(ağıllarını oğurlayır)* və onlar da dünya ilə oynayırlar *(başlarını ona qatıblar)*. Ondan sonra gələcək *(ölüm, çətinliklər və qiyamət günü kimi)* şeyləri unudublar!!

Bir az döz və möhlət ver ki, qaranlıq açılsın. Deyəsən, kəcavələr çatdı *(səfərdə olanlar gəldilər)*! Tələsənin birləşəcəyi vaxt yaxındır. *(Dünyaya könül verənlər tezliklə, hələ əbədi yerinə çatıb düşərgə salmamış qabaqkı karvana çatacaq və əməllərinin cəzasını alacaqlar.)*

Oğulcan, bil ki, mindiyi dəvə gecə-gündüz yol gedən kimsə özü yol getməsə də, miniyi onu aparar. İstirahət və dincəlməkdə olsa da yolu qət edər. (Qeyd)[1]

Yəqin bil və inan ki, heç vaxt öz arzuna çatmayacaq və heç vaxt öz ölümündən qurtula bilməyəcəksən. Sən səndən əvvəlkilərin yolundasan. Belə isə *(ölümə heç bir çarə olmadığı üçün mal və sərvətə görə)* çalışmaqda yüngül keçin və dərinə getmə. Qazanılan şeydə səy və təlaşını gözəlləşdir *(həris olma ki, onun axırı həlak və məhv olmaqdır)*. Çünki çox çalışmaqlar var ki, malın əldən çıxmasına səbəb olur. Hər çalışan tapmaz və hər ortayollu ümidsiz və məhrum olmaz. Nəfsin səni saysız nemətlərə çatdırsa da, onu bütün alçaqlıq və rəzilliklərdən üstün tut, əzizlə. Çünki nəfsindən sərf etdiyin şeyin müqabilində, onu əvəz edəcək bir şey tapa bilməyəcəksən. Başqasına qul olma *(mal və məqam tamahı ilə heç kəsə baş əymə)*. Allah səni azad yaradıb. Pisliklə *(başqasının yanında abır tökməklə)* qazanılan xeyrin *(mal və məqamın)* harası xeyirdir?! Çətinliklə əldə edilən asanlığın nə xeyri var?!

---

[1] *İmam əleyhis-salamın bu sözü metaforadır. Yəni, dolayı yolla demək istəyir ki, insan dünyada həmişə qalmalı olacağını güman edir. Amma gecə ilə gündüzün onu, ömrünü sona çatdırması üçün gəzdirməsindən qafildir.*

Tamah və hərislik dəvələrinin səni sürətlə həlak suyunun başına aparmasından çəkin. *(Dünya və onun mallarına tamah və hərislik nəticəsində haram işlər görmə ki, əgər etsən ilahi əzaba düçar olacaqsan.)* Əgər səninlə Allah arasında başqa nemət sahibinin olmamasına bacarığın çatsa, et bunu! *(Başqalarının yanında abrını tökmə.)* Çünki sən *(dünya süfrəsindən)* öz payını tapacaq, *(sənə çatmalı olan)* hissəni əldə edəcəksən! Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahdan çatan az, Onun yaratdıqlarından gələn çoxdan daha üstün və əzizdir, hərçənd ki, hər şey Ondandır.

Susmağının nəticəsində əldən çıxan şeyi əldə etmək danışmağın nəticəsində əldən çıxan şeyi geri qaytarmaqdan daha asandır. (Qeyd)[1] Qabda olan şeyin qorunması onun qapağının bərk bağlanmasından asılıdır. (Qeyd)[2] Mənə sənin öz əlində olanı qoruyub saxlamağın başqasının əlində olanı istəməyindən daha xoşdur. *(Mal və sərvətə malik olmaq insanı başqasına möhtac edən israfdan daha yaxşıdır.)* Ümidsizliyin *(yoxsulluğun)* acısı başqalarına əl açmaqdan daha yaxşıdır. İffətli və ismətli iş, günah və xəta ilə olan varlılıqdan daha xeyirlidir. İnsan öz sirrini daha yaxşı qoruyur. *(Çünki onun sirri gizlin saxlamaq üçün olan səyi başqalarından daha çoxdur.)* Çox çalışanlar var ki, çalışdıqları şey onlara ziyan gətirir. Çox danışan hərzəçi olar. *(Öz dünya və axirət işləri barəsində)* düşünən bəsirətə çatar. Yaxşı işlər görənlərə qoşul ki, onlardan olasan. Pislərdən ayrıl ki, onlardan olmayasan. Haram nə qədər də pis yeməkdir! Zülmün ən pisi zəif və acizə zülm etməkdir. Yumşaqlıq və mehribanlığın sərtlik və kobudluq sayıldığı yerdə sərtlik və kobudluq yumşaqlıq və mehribanlıqdır. *(Yumşaqlıq fayda verməyən yerdə sərtlik bəyənilir*

---

[1] *Çünki söz, nə qədər ki, deməmisən, sənin ixtiyarındadır. Deyəndən sonra isə sən onun ixtiyarındasan. Buna görə də susmaq çox danışmaqdan daha yaxşıdır.*

[2] *Tuluğun ağzının ipi boş olsa, su yerə tökülər və aradan gedər. Həmçinin əgər insanın dilinin düyünü möhkəm olmasa, ondan yersiz sözlər çıxar. Sonrakı peşmançılıq isə fayda verməz.*

*və ağlın bir iş görə bilmədiyi yerdə dəlilik lazımdır.)* Çox vaxt dərman dərd, dərd isə dərman olar. *(Bəzən birinə yoxsulluq və xəstəlik məsləhət və xeyir olur, varlılıq və sağlamlıq yox.)* Çox vaxt öyüd verməsi gözlənilməyən kəs öyüd verər, öyüd verməsi istənilən kimsə isə xəyanət edər. *(Çox vaxt ağıllı və uzaqgörən və ya nadan düşmən sənin xeyir-ziyanın barədə sənə öyüd verər, dostun isə xəyanət edərək sənə yaxşı yol göstərməz.)* Arzulara güvənmək və dalmaqdan çəkin. Çünki arzu axmaqların və ağlı az olanların sərmayəsidir. Ağıl təcrübələri yadda saxlamaq, qorumaqdır. *(Ağıllı adam təcrübələri əldən verməz. Ağılsız isə onları tez yaddan çıxardar.)* Etdiyin ən yaxşı təcrübə sənə öyüd verən təcrübədir. Fürsət olan zaman o, qəmə çevrilməmişdən tələs. Hər axtaran *(axtardığını)* tapmaz və həmçinin hər səfərə gedən geri dönməz. *(Dünyaya ürək bağlama. Fürsəti əldən vermə və axirət üçün azuqə götür. Çünki fürsət həmişə ələ düşmür və ölüm səfərinə gedən geri dönmür.)* Ziyanlardan biri də azuqəni *(təqva və pərhizkarlığı)* əldən vermək *(yaxud var-dövləti şəhvət və nəfsi istəklərə sərf etmək)* və axirəti bərbad etməkdir. Hər bir işin bir sonu var. *(Ağıllı o adamdır ki, işin sonunu fikirləşir.)* Sənin üçün nə təqdir edilibsə, tezliklə sənə çatacaq. *(Bu qədər əziyyət çəkmə və öz din və dünyanı bərbad etmə. Mal və sərvət əldə etmək üçün dəniz və çöllükləri qət edən)* tacir özünü məhvə və təhlükəyə atır. Nə çox elə az *(mal)* ki, bərəkəti çoxdan *(çox maldan)* daha artıqdır. *(İsmətli peşə sahibinin əldə etdiyi şeyin xeyir-bərəkəti həm dünyada, həm də axirətdə günahkar varlının sərvətindən daha üstündür.)*

Alçaq və xar köməkçidə və *(nifaq və ikiüzlülükdə)* günahlandırılan dostda xeyir yoxdur. *(Çünki həmin köməkçinin imkanı olsaydı özünü zillət və xarlıqdan qurtarardı. İkiüzlü dost da ona görə ki, həmin şəxsə inam yoxdur. Çünki o öz xeyrini güdər və dosta ziyan dəyməsi barəsində fikirləşməz, qayğılanmaz.)* Nə qədər ki, zəmanənin cavan dəvəsi sənə ram olub, onunla asan və yüngül davran. Özünü bir şeyin çoxuna göz dikib təhlükəyə atma. *(Mal və sərvətini çoxaltmaq üçün hərislik göstərmə ki, çətinliklərə düçar olarsan.)* Mindiyin dəvənin itaətsizlik etməsindən çəkin! *(İnadkarlıq və düşmənçilikdən çəkin. Yoxsa səni*

*işlərdə elə çətinliklərə düçar edər ki, onlardan yaxa qurtara bilməzsən.)* Özünü qardaşın *(dindaş və dostun)* səndən ayrılanda ona yaxınlaşmağa, üz döndərəndə mehribanlıq və dostluğa, simiclik edərək əsirgəyəndə ona bəxşiş etməyə, uzaqlaşanda ona yaxınlıq etməyə, sərtlik edəndə ona qarşı yumşaq olmağa və o, pis iş görəndə üzr istəməyə vadar et. *(Qısası, onun pislikləri müqabilində yaxşılıq et.)* Sanki sən onun qulu, o isə sənin nemət verənindir *(kimi et bunları)*. Deyilənləri öz yerindən başqa yerlərdə işlətməkdən *(münafiqlə bu cür davranmaqdan)* və ya onları ləyaqətsiz *(alçaq)* adamlarla münasibətdə etməkdən çəkin. *(Çünki münafiq və ləyaqətsiz adama yaxşılıq etmək şoranlığa toxum səpməkdir.)* Dostunun düşməni ilə dostluq etmə. Əgər belə etsən öz dostunla düşmənçilik etmiş olarsan. Öz qardaşına *(dindaş və dostuna)* saf *(niyyətlə)* öyüd ver *(ona öyüd verərkən Allahın razılığını əldə etməkdən başqa heç bir qəsdin olmasın)*, istər *(onun sənin öyüdünə münasibəti)* yaxşı olsun, istərsə də pis. Qəzəbini qurtum-qurtum ud *(özünü cilovla)*. Çünki mən sonda ondan şirin və dadlı bir içki görmədim. Sənə qarşı qəzəbli və kobud olanla yumşaq davran. Çünki *(sənin yumşaqlığın onu utandırar və)* tezliklə o sənə qarşı yumşalar. *(Müqabil tərəf başa düşən adam olanda belə etmək lazımdır. Başa düşən adam olmasa isə onun qəzəbi müqabilində sərtlik etmək lazımdır.)* Düşməninlə yaxşı və xoş davran. Bu, iki qələbədən *(intiqam alaraq onu cəzasına çatdırmaqdan və ya güzəşt edərək ona yaxşılıq etməyin birindən)* daha şirindir. (Qeyd)[1] Qardaşınla *(dindaş və dostunla)* münasibətlərini kəsmək istəyəndə dostluğunun yerinin bir azını saxla ki, həmin dost nə vaxtsa o dostluq yeri ilə qarşılaşsa ora qayıda bilsin. (Qeyd)[2] Sənin haqqında yaxşı

---

[1] *Yaxşılıq etməklə olan qələbə intiqam qələbəsindən daha şirin və daha faydalıdır və bu yaxşı və xeyirxah insanların fikridir. Amma şər iş görənlərin fikrincə intiqam alaraq qətl və qarət etmək daha şirindir.*

[2] *Dostundan ayrılanda və ya onunla savaşanda ağzına gələni demə və ağlına gələni etmə. Barışmağa yer saxla ki, sizin hər biriniz peşman olan zaman işinizə yarasın.*

və xoş fikirdə olanın zənnini doğrult. *(O səni yaxşı bildiyi və səndən yaxşılıq umduğu üçün xeyir və yaxşı işləri tərk etmək rəva deyil.)* Aranızdakı dostluğa güvənib arxalanaraq qardaşının haqqını pozma. Haqqını pozduğun kimsə qardaşın deyil. Ailən və qohumların sənə nisbətdə camaatın ən bədbəxti olmamalıdırlar. *(Yaxınların bəxşiş və yaxşılıq edilmək baxımından başqalarından daha üstündürlər. Necə deyərlər: «Evə gərək olan çıraq məscidə yaraşmaz».)* Səndən uzaq gəzənlə heç vaxt tanışlıq etmə. *(Çünki istəməyən adamla tanış olmaq insanın həqir və xar olmasına və özünə zülm etməsinə səbəb olur.)* Gərək qardaşının *(dindaş və dostunun)* səndən ayrılmaq bacarığı sənin onunla birləşməyindən və *(həmçinin)* onun pislik etməsi sənin yaxşılıqlarından üstün olmasın. *(Xülasə, o nə qədər ayrılmağa şərait yaratsa da, sən birləşməyə səbəb olan şeyləri önə çək.)* Sənə zülm edənin zülmü gözündə böyüməsin. Çünki o öz ziyanına *(zalımlar üçün müəyyən edilmiş cəzaya)* və sənin xeyrinə *(sənin zülm və sitəmə səbr etməyə vəd edilmiş mükafata nail olmağına)* çalışır. Səni sevindirənin mükafatı sənin onu qəmləndirməyin deyil!

Oğulcan, bil ki, ruzi iki qisimdir: bir ruzini sən axtarırsan, bir ruzi isə səni axtarır və sən ona tərəf getməsən belə sənə çatar. Ehtiyac və yoxsulluq zamanı özünü alçaltmaq, varlı ikən isə zülm və kobudluq etmək necə də çirkin xasiyyətdir! (Qeyd)[1] Sənin dünyandan qazancın yalnız öz yerini *(əbədi axirətini)* abadlaşdırmağa sərf etdiyin miqdardır. *(Bundan başqa sərf etdiyin və ya özündən sonra qoyub getdiyin şeylərin sənə xeyri olmayacaq və onlar əlindən yapışmayacaqlar.)* Əgər əlindən çıxan şey üçün ah-zar edib

---

[1] *Nanəcib insanların xüsusiyyəti ehtiyac zamanı özlərini alçaltmaq, ehtiyacları aradan qalxandan sonra isə kobudluq və itaətsizlik etməkdir. Allah-təala Qurani-Kərimin Məaric surəsinin 19-21-ci ayələrində onları məzəmmət edərək belə buyurur:* « إِنَّ الْإِنسَانَ خُلِقَ هَلُوعًا إِذَا مَسَّهُ الشَّرُّ جَزُوعًا وَإِذَا مَسَّهُ الْخَيْرُ مَنُوعًا» *«Həqiqətən insan çox həris, tamahkar və kəmhövsələ yaradılmışdır. Ona bir pislik üz verdikdə fəryad qopardar. Ona bir xeyir (mal və dövlət) nəsib olduqda (ondan Allah yolunda paylayaraq bağışlamağa) xəsislik edər.»*

inildəyirsənsə, onda sənə çatmayan şeylərə görə də ağlayaraq nalə qopar. (Qeyd)[1] Artıq baş vermiş şeylərə əsaslanıb, olmayanlara dəlil gətir. *(Gördüyün şeylərə baxıb görmədiyin şeyləri dərk et ki, gözüaçıq və işbilənlərdən olasan.)* Çünki işlər *(dünyanın işləri)* bir-birinə bənzəyir. İncidilərək əziyyət verilməyincə öyüddən faydalanmayanlardan olma. Çünki ağıllı adam ədəb vermək və öyrətməklə öyüdlənər, heyvanlar isə kötək yeməyincə tabe olmazlar. Sənə üz tutan qəm-qüssələri təmkinli düşüncələr və *(Allah-təalaya olan)* gözəl inamla özündən uzaqlaşdır. *(Allahın istəyinə tabe ol ki, sənin səadət və xoşbəxtliyin ondadır.)* Kim düz və orta yolu tərk etsə, haqdan uzaqlaşıb və özünə zülm edib. Dost qohum yerindədir. *(Qohumun barəsində riayət etdiyin şeyləri onun barəsində də etməlisən.)* Dost o kəsdir ki, gizlində də düz olsun. *(Dostunun hüzurunda etdiklərini o olmayanda da həmin cür etsin. Belə olmasa münafiq və ikiüzlüdür və öz xeyrinə görə özünü dost kimi göstərir.)* Nəfsi istəklər korluğa bərabərdir. *(Kor bir şey görmədiyi kimi nəfsi istəklər əsiri də qəlbi kor olduğu üçün yaxşı ilə pisi və öz xeyri ilə ziyanını bir-birindən ayıra bilmir.)* Çox uzaq var ki, yaxından da yaxındır və çox yaxın var ki, uzaqdan da uzaqdır. *(Çox vaxt yad insana xeyir verər, qohum isə ziyan vurar.)* Qərib o adamdır ki, dostu yoxdur *(hətta öz vətənində olsa belə).* Haqqı *(düz söz və əməli)* aşanın yolu daralar. (Qeyd)[2] Öz qədir və məqamına uyğun *(hərəkət edən)* adamın qədri həmişəlik qalar. Əldə edərək yapışmalı olduğun ən möhkəm səbəb və ip səninlə Allah arasında olan səbəbdir. *(Allahın ipindən yapışan kəs heç kəsə möhtac olmaz.)* Sənin barəndə laqeyd olan *(xeyrinlə ziyanını bir hesab edən)* kəs sənin düşmənindir. Bəzən tamah və hərislik *(insanı)* həlakətə sürükləyəndə ümidsizlik

---

[1] *Sənə çatmayan şeyə görə ah-zar etməyin bir xeyri olmadığı kimi, əlindən çıxan şey üçün nalə etməyinin də heç bir faydası yoxdur. Buna görə də qarşıya çıxanlarla razılaşaraq dünya malı üçün ruhdan düşüb kədərlənməməlisən.*

[2] *Bu da bir metaforadır. Məqsəd budur ki, haqq yol geniş, asan və aşkar nişanələri olan bir yoldur. Batil və nahaq yol isə dar və qorxulu bir yoldur.*

əldə etmək olar. *(Çox vaxt insan zərər və bədbəxtçiliyinə səbəb olan şeyə tamah salır və həmin şeydən ümidsizləşmək onu əldə etmək kimidir.)* Hər yırtıq *(çirkinlik)* açılmaz *(açaraq üzə çıxarmağın yaxşı deyil)*. Hər fürsət ələ düşməz. *(Elə isə onu qənimət bil və əldən vermə.)* Çox vaxt görən *(ağıllı)* adam öz düz yolunda səhvə düşür və kor *(nadan ağılsız)* nicat yolunu tapır. (Qeyd)[1] Pisliyi təxirə sal, gecikdir. Çünki istədiyin vaxt ona tərəf tələsə bilərsən. Nadanla əlaqələri kəsmək, ondan ayrılmaq ağıllı ilə münasibət qurmağa bərabərdir. Kim zəmanədən əmin olsa, zəmanə ona xəyanət edər. Kim onu böyük sansa, onu zəlil və xar edər. (Qeyd)[2] Hər ox atanın oxu hədəfə çatmaz. (Qeyd)[3] Hökmdar *(onun düşüncə və rəftarı)* dəyişəndə zəmanə (vəziyyət) də dəyişər. (Qeyd)[4] Yoldan qabaq yol yoldaşını, evdən qabaq isə qonşunu soruş.

Başqasından nəql etsən belə, gülünc söz danışmaqdan çəkin. *(Çünki o, insanın başqaları yanında kiçilməsinə səbəb olur.)* Qadınlarla məsləhətləşməkdən çəkin. Çünki onların nəzər

---

[1] *Bil ki, iş ağıl və tədbirlə deyil, Allahın insanı müvəffəq etməsi ilə baş tutur. Buna görə də öz fikir, düşüncə və ayıq-sayıqlığına öyünərək məğrur olma və işlərində Allah-təalaya arxalan, güvən.*

[2] *Deməli, ağıllı ona əmin olmayan, ürək bağlamayan və onu xar sayandır ki, gördüyü hər bir pisliyi ondan gözlənilməz hesab etmir.*

[3] *Çalışan, amma məqsədinə çatmayan kəs kədərlənməməlidir, Allahın istəyinə və Onun təqdirinə razı olmalıdır.*

[4] *İbn Əbil-Hədid burada belə yazır: «Ənuşirəvan bir gün ölkəsinin idarəçiliyi ilə məşğul olan məmurları bir yerə topladı və əlində bir mirvari fırlada-fırlada belə dedi: «Kim ölkənin əkilmiş tarlalarına nəyin daha çox ziyan vurmasını desə, bu mirvarini onun ağzına qoyacağam». Biri dedi: «Çəyirtkələrin hücumları». Digər biri: «Suyun çatmaması», başqa birisi «yağışın yağmaması», o birisi isə «cənub küləyinin əsməsi və şimal küləyinin əsməməsi, yəni, iqlimin müxtəlifliyi» deyə cavab verdi. O sonra öz vəzirinə dedi: «Sən de. Güman edirəm, sənin ağlın rəiyyətin hamısının ağlı ilə bərabər və hətta bəlkə onlardan artıqdır». Vəzir dedi: «Hökmdarın rəiyyət barəsindəki fikrinin dəyişməsi və onlarla pis rəftar edərək zülm etmək qərarına gəlməsi!» Ənuşirəvan dedi: «Əhsən sənin bu ağıl və dərrakənə ki, mənim ata və babalarım səni bu məqama əbəs yerə layiq görməyiblər!» Sonra isə mirvarini vəzirin ağzına qoyur.*

və düşüncələri zəifliyə, qərarları isə süstlüyə doğru gedir. Hicab və örtüklə *(ora-bura)* baxmalarının qarşısını al. *(Çölə çıxıb gözlərinin camaata sataşmasına icazə vermə.)* Çünki hicabın möhkəmliyi *(hicab örtmək və onunla zinətlənmək)* onları daha yaxşı qoruyur. *(Hər nə qədər hicabda olsalar, pozğunçuluqdan qorunmuş olarlar.)* Onların çölə çıxmaları sənin onların yanına *(kişi və qadınlığından asılı olmayaraq)* inanılmayan və etibar edilməyən adamlar gətirməyindən pis deyil. (Qeyd)[1] Əgər bacarsan, elə et ki, səndən başqasını tanımasın. Qadını ona aid olmayan işə hakim etmə. Çünki qadın iş buyruqçusu deyil, ətirli bir güldür *(gül kimidir. Buna görə də onu işləri yerinə yetirməkdən saxla)*. Onu əzizləyəndə ona aid olan şeylərdən kənara çıxma. Onu tamaha salma ki, başqası üçün şəfaət etsin, vasitəçilik etsin. Qısqanclıq edilməməli yerdə qısqanclıq etmək və pis gümana düşməkdən çəkin. *(İffətli qadın barəsində pis gümana düşüb heç nədən özündən çıxma.)* Çünki bu iş, düz qadını əyriliyə və *(nalayiq işlərdən uzaqlıq zinəti ilə)* bəzənmiş qadını tərəddüdə və *(o barədə)* fikirləşməyə vadar edər. (Qeyd)[2] Əlin altında olanların və işçilərinin hər biri üçün bir iş müəyyənləşdir ki, *(yerinə yetirməsə)* həmin işə görə ondan yapışaraq sorğu-suala tuta biləsən. Çünki bu üsul onların sənin işlərini bir-birinin boynuna ata bilməmələri üçün daha münasibdir. Qohumlarına hörmət et, əzizlə onları. Çünki onlar sənin qol-qanadındırlar ki, onlarla uçursan; əsil-kökündürlər ki, onlara qayıdırsan *(onlardan kömək və yardım alırsan və başucalığın onlarladır)*; sənin (yardımçı) əlindirlər ki, onlarla *(düşmənə)* hücum edirsən *(qələbə qazanırsan)*.

---

[1] *Çünki bəzən bəzi adamları evə gətirməyin fəsadı qadınların çölə çıxmalarından çox olur. Bəzən də qadınların onların yanına gəlməsinin fəsadı kişilərdən çox olur.*

[2] *Nalayiq işlərdən uzaq olmağa əhəmiyyət verən qadına pis işlər nisbət vermək nəticəsində həmin işləri görmək ona asan gələr və ola bilər ki, o, onları yerinə yetirsin.*

Sənin din və dünyanı Allah yanında əmanət qoyuram *(ki, qorusun və qarşıya çıxacaq hər bir pis hadisədən saxlasın)*. Ondan sənin üçün indi və gələcəkdə, dünya və axirətdə ən gözəl təqdir və istəyini diləyirəm. Salama layiq kimsəyə salam olsun!

# 32-ci məktub

İmam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındandır *(ki, onda onun xalqı düz yoldan azdırmasını xatırladıb və Allahdan qorxmaq və çəkinmək barəsində öyüd-nəsihət verib)*.

İnsanların çoxunu həlak etdin: onları öz azğınlığınla aldatdın, öz *(nifaq və ikiüzlülük)* dənizinin dalğalarına atdın. Zülmətlər *(azğınlıqlar)* onları əhatə edib və şübhələr *(əyriliklər)* onların ətrafında ləpələnir. Beləliklə, öz doğru yollarından uzaqlaşdılar *(haqdan sonra batilə tərəf getdilər)*. Keçmişlərinə qayıtdılar *(dal-dala getdilər)* və arxa çevirdilər. *(Batil yoldan haqq yola)* qayıtmış gözüaçıqları *(ağıllıları)* istisna olmaqla, *(qalanları)* əsl-köklərinə *(sülalələrinin ad-sanına)* arxalandılar *(öyündülər)*. Bu cür onlar səni tanıyandan *(sənin haqqa zidd addım ataraq xalqı aldatmağını biləndən)* sonra səndən ayrıldılar. Onları çətinliklərə doğru çəkəndə *(batilə sövq edəndə)* və doğru yoldan qaytaranda *(azdıranda)*, sənə kömək etməkdən Allahın yardımına qaçdılar. Belə isə, ey Müaviyə, özün *(əzab və cəzaya düçar olmağın)* barəsində Allahdan qorx və cilovunu Şeytanın əlindən çək *(onunla əlaqələrini bir-birinə vur və nəfsinin ona tabe olmasının qarşısını al)*. Çünki dünya səndən ayrılacaq və axirət sənə yaxındır. Salama layiq kimsəyə salam olsun!

# 33-cü məktub

İmam Əli əleyhis-salamın onun tərəfindən *(xilafətinin bütün müddəti ərzində)* Məkkənin hakimi olan Qusəm ibn Abbasa *(ibn Ədül Müttəlibə)* məktublarındandır. (Qeyd)[1] Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: mənim qərbdəki *(qərb şəhərlərindən olan Şamdakı)* kəşfiyatçım məktub yazaraq məni Şam əhalisindən bir dəstənin həccə göndərilməsindən xəbərdar edib. Onların qəlbləri kor, qulaqları kar və gözləri anadangəlmə kordur. Onlar haqqı batildə *(batil yolda)* axtarırlar. *(Belə güman edirlər ki, Müaviyəyə tabe olmaqla haqq dinə qovuşacaqlar.)* Yaradılmışa tabe olub yaradana günah və Allaha itaətsizlik edirlər. *(Müaviyəyə və onun tərəfdarının göstərişlərinə tabe olurlar və bu, Allahın hökmlərinə ziddir.)* Din bəhanəsi ilə dünyanın südünü sağırlar. *(Dünya malı əldə etmək üçün din və başqalarını pis işlərdən çəkindirmək adı ilə bir yerə toplaşaraq öz zəmanələrinin imamına qarşı çıxırlar.)* Yaxşı əməl sahibləri və təqvalıların axirətlərinin əvəzinə mövcud dünyanı alırlar. *(Əbədi xoşbəxtlik və Cənnətin yerinə Cəhənnəm alovu və ilahi əzabı götürürlər.)* Yaxşı əməl sahibindən başqa heç kəs xeyir və yaxşılığa nail olmaz. Pis əməl sahibindən

---

*[1] «Rical» alimləri onu etibarlı və inanılmış şəxslərdən və Əmirəl-möminin əleyhis-salamın səhabələrinin yaxşılarından hesab ediblər. O Həzrət əleyhis-salam bu məktubda onu Müaviyənin casuslarından xəbərdar edərək sayıq olmağa çağırır. İbn Meysəm (əleyhir-rəhmə) burada belə yazır: Bu məktubun göndərilmə səbəbi Müaviyənin Həcc mövsümündə Məkkəyə bir dəstə adam göndərməsi idi. Müaviyə onları göndərmişdi ki, xalqı onun itaətinə çağıraraq Əli əleyhis-salama yardım etməkdən saxlasın. Həmçinin xalqa bu fikri təlqin etsinlər ki, İmam əleyhis-salam ya Osmanın qatilidir, ya da həmin qətldə qatillərlə şərik və əlbir olub. Yaxud da Osmana köməyini əsirgəyib. Bütün bunlara görə imamət səlahiyyətinə layiq deyil. Həmin qrupun digər vəzifəsi Müaviyənin onların nəzərində olan yaxşılıq və xeyirxahlıqlarını onun gözəl davranışı və bəxşişləri ilə nəql etmək idi. İmam əleyhis-salam Qusəm ibn Abbası bu işdən xəbərdar etmək və onun siyasət, tədbir və düşüncə ilə hərəkət etməsi üçün bu məktubu ona göndərdi. Bəziləri də deyiblər ki, Müaviyənin Məkkəyə göndərdiyi bir qoşun idi və o, həmin qoşunu həcc mövsümündə Məkkəni ələ keçirmək üçün göndərmişdi.*

başqa heç kəs pis cəza görməz. Buna görə də çalışqan, ehtiyatlı və öz imam və rəhbərinə tabe olan ağıllı nəsihətçi kimi əlində olan şeydə *(Məkkə hökuməti və onun nizam-intizam və sakitliyinin qorunmasında)* möhkəm dur və müqavimət göstər. Məbada üzrxahlığa səbəb olacaq bir iş görəsən. Nemət firavanlığı zamanında çox şad olma *(ki, bu, kibr və itaətsizliyə səbəb olur)*. Həmçinin çətinliklər zamanı qorxma və özünü itirmə *(ki, bunlar məğlubiyyətə və cəsurluğun əldən çıxmasına gətirib çıxarır)*. Salama layiq kimsəyə salam olsun!

# 34-cü məktub

İmam Əli əleyhis-salamın Məhəmməd ibn Əbu Bəkrə məktublarındandır. Məhəmməd ibn Əbu Bəkrin Misir hökumətindən kənarlaşdırılaraq yerinə *(Malik)* Əştərin təyin edilməsi xəbərini eşidəndə qəmlənməsi o Həzrətə çatanda İmam bu məktubu yazıb. Əştər Misirə çatmamış yolda vəfat edib. *(O, yolda öldürülüb. Onun başına gələnlər əlli üçüncü məktubun şərhində deyiləcək. İmam əleyhis-salam bu məktubda Malik Əştərin onun yerinə təyin edilməsinin məsləhət olmasının səbəbini açıqlayıb.)*

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Əştəri sənin yerinə təyin etməyimdən narahat olmağın xəbəri mənə çatdı. Mən bunu sənin səy və təlaş göstərməkdə ağır tərpənməyin və sənin çalışqanlığını artırmaq üçün etməmişəm. *(Çünki sən əlindən gələni etmisən. Amma Əştərin bacardığı işləri sən bacarmazsan.)* Sənin əlində olan şeyi *(Misir hökumətini)* ixtiyarından çıxartsam da, səni elə şeyə *(şəhər və ya işə)* təyin edəcəyəm ki, onun ağırlıq və əziyyəti az, hakimliyi isə sənə daha xoş olsun.

Misirə vali təyin etdiyim şəxs *(Malik, sənin kimi)* bizim xeyrimizi düşünən və düşmənimizə qarşı cəsur və bacarıqlı bir adam idi *(ki, sən belə deyilsən)*. Allah rəhmət eləsin ona və günahlarını bağışlasın ki, həyatını *(səadət və xoşbəxtliklə)* sona çatdırdı və ölümlə qarşılaşdı. Biz ondan razıyıq. Allah ona Öz rəhmətindən əta etsin və mükafatını bir neçə qat artıq

etsin. Buna görə də *(indi ki, Malik öldürüldü və Misirə çatmadı)* düşmənə tərəf hərəkət et *(şəhərdə qalma ki, düşmən sənə tərəf gəlsin)*, gözüaçıqlıqla yola düş *(müharibə işində və üslubunda ehtiyat və sakitliyi əldən vermə)* və səninlə döyüşənlə vuruşmağa tələs *(ağır tərpənmə ki, sənə qalib gəlsin)*. *(Onları)* Rəbbinin yoluna dəvət et *(ki, heç bir bəhanə yeri qalmasın və sənin onlarla müharibənin nəfsi istəklərə görə deyil, Allahın hökmü ilə olmasını bilsinlər)*. Allahdan çox yardım dilə ki, səni qəm-qüssəyə salan *(düçar edən)* şeylərdən qorusun və üz vermiş şeylərdə *(çətinliklərdə)* sənə yardım etsin, əgər Allah *(fəth və qələbəni sənin üçün)* istəsə!

# 35-ci məktub

İmam Əli əleyhis-salamın Məhəmməd ibn Əbu Bəkr Misirdə öldürüləndən sonra Abdullah ibn Abbasa məktublarındandır. *(Abdullah ibn Abbas o Həzrət tərəfindən Bəsrənin hakimi idi. İmam əleyhis-salam bu məktubu yazaraq onu Məhəmməd ibn Əbu Bəkrin şəhid edilməsindən və Əmr ibn As və Müaviyənin qoşununun Misiri ələ keçirmələrindən xəbərdar edib.)*

Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: Misir zəbt edildi. *(Müaviyənin qoşunu oranı tutdu.)* Məhəmməd ibn Əbu Bəkr *(Allah ona rəhmət etsin)* şəhid edildi. Allahdan onun əvəz və əcrini istəyirəm. O bizim üçün xeyrimizi düşünən və mehriban övlad, (Qeyd)[1] zəhmətkeş məmur, iti bir qılınc

---

[1] *Məhəmməd İmam əleyhis-salamın arvadının oğlu idi. Çünki onun anası Umeys Xəsəmiyyənin qızı Əsmadır və o, Peyğəmbərin zövcəsi Meymunənin və Fəzl ilə Abdullahın anası, Abbas ibn Əbdülmüttəlibin arvadı Lulabənin bacısıdır. Əsma Həbəşistana hicrət etmiş qadınlardandır. O, həmin vaxt Cəfər ibn Əbu Talibin arvadı idi və Həbəşistanda onun Cəfərdən Məhəmməd, Abdullah və Aun adlı üç oğlu oldu. O, Cəfər ilə Həbəşistandan Mədinəyə qayıtdı. Cəfər Mutə müharibəsində şəhid olduqdan sonra Əbu Bəkr Əsmanı aldı və Məhəmməd ibn Əbu Bəkr dünyaya gəldi. Əbu Bəkrin vəfatından sonra Əmirəl-möminin onunla evləndi və Yəhya ibn Əli ondandır. Xülasə, Məhəmməd ibn Əbu Bəkrə İmam əleyhis-salam tərbiyə verdiyi üçün*

və qoruyucu sütun idi. Mən xalqı həvəsləndirərək ona tərəf getməyə çağırır, öldürülməmişdən qabaq ona kömək etməyi əmr edirdim. Onları gizlin və aşkar şəkildə *(ona kömək etməyə)* çağırırdım. *(Özü də)* bir dəfə yox, dəfələrlə öz çağırışıma əvvəldən başlayırdım. Beləliklə, onların bəziləri nigaran və meylsiz halda gəlirdilər, bəziləri yalandan bəhanə gətirirdilər. Bir dəstə də öz yerində oturaraq etina etmirdi. Allahdan tezliklə məni onlardan nicat verərək xilas etməsini istəyirəm. Allaha and olsun ki, mənim düşmənimlə qarşılaşanda şəhid olmaq *(Allah yolunda öldürülmək)* arzum olmasaydı və ürəyimi ölümə qızdırmasaydım, heç vaxt bunlarla bir gün belə qalmaq və üz-üzə gəlib qarşılaşmaq istəməzdim. *(Çünki bu cür insanlarla düşmənə qalib gəlmək mümkün deyil. Buna görə də naçar qalıb onlarla yaşayıram ki, qələbə qazanmasam da, şəhadət və Allah yolunda öldürülməyə nail olum.)*

# 36-cı məktub

İmam Əli əleyhis-salamın qardaşı Əqil ibn Əbu Talibə, bəzi düşmənlərə tərəf göndərdiyi qoşun barəsindəki məktublarındandır. Bu, Əqilin o Həzrətə yazdığı məktuba cavabdır. (Qeyd)[1]

---

*onu öz övladı adlandırır. Bu barədə altmış yeddinci kəlamın şərhində danışılıb.*

[1] *Əqil barəsində «Rical» alimləri arasında fikir ayrılığı mövcuddur. Bəziləri onu Əmirəl-mömininin səhabələrindən hesab edərək tərifləyirlər. Şeyx Səduq əleyhir-rəhmə «Əmali» kitabının iyirmi yeddinci məclisində öz sənədi ilə İbn Abbasdan belə rəvayət edib: Əli əleyhis-salam Həzrət Peyğəmbərdən (səlləllahu əleyhi və alih) soruşdu: «Əqili çox istəyirsən?» Buyurdu: «Bəli, Allaha and olsun, onu çox istəyirəm. Onu iki cəhətdən çox istəyirəm. Biri onun özünə görə, biri də ona görə ki, Əbu Talib onu çox istəyirdi». «Rical» alimlərinin bəziləri isə onu qardaşı Əli əleyhis-salamı buraxıb Müaviyəyə qoşulduğu üçün pisləyiblər. Amma mərhum ayətullah Mamqani «Tənqihul-məqal» kitabında belə yazır: «Əqil Əli əleyhis-salamın qardaşı, Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) əmisi oğlu və Müslümün atası*

*(Düşmənimin qələbə çalması və tərəfdar və şiələrimin mənə kömək etməmələri barəsində yazdıqların düz deyil.)* Müsəlmanlardan ibarət böyük bir qoşunu ona *(düşmənə)* tərəf göndərdim. Bu xəbər ona çatanda, o, qaçmağa tələsdi və peşman halda geri döndü. Mənim qoşunum gün batana yaxın yolda ona çatdı. Sonra bir-birləri ilə «yox-yox» kimi vuruşdular. (Qeyd)[1] Beləliklə, boğazı bərk sıxılandan və yarımcan qalandan sonra bir saatdan artıq dayanmadan kədərlə xilas oldu. Deməli, ardıcıl çətinliklərlə qurtuldu. *(Deyibsən ki, yaxınlarımı da götürüb sənin yanına tələsim və sağ qalsaq bir yerdə olaq, ölsək də bir yerdə ölək. Bunun cavabında belə deyirəm:)* Qureyşi və onların azğınlıqda sürətlə irəliləmələri, düşmənçilikdə cövlan etmələri və sərgərdanlıqdakı itaətsizliklərini burax! *(Onlar barəsində bir şey danışma.)* Çünki onlar məndən qabaq Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) ilə müharibə etmək üçün müttəfiq olduqları kimi mənimlə döyüşmək və vuruşmağa da birləşiblər. Cəza verənlər mənim yerimə Qureyşi cəzalandırsınlar. *(Ümid var ki, onlar zalımların müxtəlif zülm və əzablarına düçar olsunlar.)* Çünki onlar mənim *(Həzrət Peyğəmbərlə olan)* qohumluq tellərimi qırdılar *(bu qohumluğa hörmət göstərmədilər)* və anamın oğlunun *(Peyğəmbərin)* hökumətini *(xilafətini, mənə qarşı olan kinlərinə görə)* məndən oğurladılar. (Qeyd)[2]

---

*olduğu üçün hörmət məqsədi ilə biz onun barəsində bir söz danışmırıq. Amma bununla belə, onun xəbərlərinə inanmır və etimad etmirik. Xülasə, İmam əleyhis-salam bu məktubunda Qureyşin pis rəftarından şikayət edərək gileylənir və Allah yolunda qarşıya çıxacaq hər bir çətinliyə dözərək möhkəm durub müqavimət göstərəcəyini xatırladır.*

[1] *«لا وَ لا» «Yox-yox»dan məqsəd budur ki, onlar bir-birləri ilə elə vuruşdular ki, sanki vuruşmayıblar. Yəni, döyüşləri çox tez sona çatdı. Yaxud da məqsəd budur ki, onlar «yox-yox» demək kimi vuruşdular. Bu, ərəblərdə çox tez görülən iş üçün çəkilən məsəldir.*

[2] *İmam əleyhis-salamın Həzrət Peyğəmbəri (səlləllahu əleyhi və alih) anasının oğlu adlandırmasının səbəbi budur ki, Əbdülmüttəlibin digər oğlanlarının əksinə olaraq Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) atası Abdullahla Əmirəl-mömininin atası Əbu Talib, Əmr ibn İmran ibn Aiz ibn Məxzumun qızı Fatimədən, yəni, bir anadandırlar.*

Mənim *(düşmənlə)* müharibə barəsindəki nəzərimi soruşmusan *(və demisən ki, kömək olmadan güclü düşmənlə müharibə aparmaq rəva deyil)*. Mənim fikrim Allaha qovuşana *(Onun yolunda öldürülənə)* kimi müharibəni düz sayanlarla *(ilahi əhd-peymanı pozaraq Allah və Peyğəmbərin göstərişinə zidd davrananlarla)* döyüşməkdir. Ətrafımda xalq kütləsinin çoxluğu mənim izzət və hörmətimi, onların ətrafımdan dağılmaları isə qorxu və vahiməmi çoxaltmır. *(İstər kimsə mənə kömək etsin, istərsə də məndən uzaqlaşsın. Bunun heç birinə əhəmiyyət verməyib din düşməni qarşısında dayanaraq Allahın istəyini yerinə yetirəcəyəm.)* Belə zənn etmə ki, atanın oğlu *(İmam əleyhis-salam)* xalq onu tək qoysa *(kömək və yardım etməsə, düşmən müqabilində)* xar və zəlil olacaq, süstlük və acizlikdən zora tabe olacaq, *(ram edilmiş dəvə kimi)* cilovunu onu çəkənin əlinə verəcək və yaxud da minmək istəyənə minmək imkanı verəcək! *(Qısası, düşmən qarşısında heç bir çətinlikdən qaçmayacağam.)* Lakin *(Qüreyş və qohumlar barəsində söz danışmaq, deyilənlərə görə öz məşuqəsinə xitab edən)* Bəni-Suleym qardaşın *(Bəni-Suleym qəbiləsindən olan Abbas ibn Murdas Selminin)* dediyi kimidir ki:

فَإِنْ تَسْأَلِينِى كَيْفَ أَنْتَ؟ فَإِنَّنِى صَلِيبٌ صَبُورٌ عَلي رَيْبِ الزَّمانِ

يَعِزُّ عَلَيَّ أَنْ تُري بِي كابَةٌ فَيَشْمَتَ عادٍ أَوْ يُساءَ حَبِيبٌ

«Əgər məndən soruşsan ki, «necəsən?», mən dövranın çətinliklərinə çox səbrli və vüqarlıyam. Mənim üçün məndə, düşməni şad edəcək, dostu isə qəmləndirəcək qəm-qüssənin görünməsi çox ağırdır. *(Buna görə də Qüreyşdən söz*

---

*Amma Əbdülmüttəlibin digər övladları ana tərəfdən bir-birindən ayrıdırlar. Bəziləri də deyiblər ki, Əmirəl-mömininin Həzrət Peyğəmbəri (səlləllahu əleyhi və alih) elə adlandırmasının səbəbi, İmamın anası Fatimə bint Əsədin Həzrət Peyğəmbərə uşaqlığında Əbu Talibin evində dayəlik etməsidir. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) də onun barəsində belə buyurub: «***فاطِمَةُ أُمِّى بَعْدَ أُمِّى***» «Fatimə mənim anamdan sonrakı anamdır.»*

*açmır və onların pis rəftarlarından olan ürək ağrısı və incikliyimi açıqlamıram.)*»

# 37-ci məktub

İmam Əli əleyhis-salamın Müaviyəyə məktublarındandır *(ki, onda Müaviyəni məzəmmət edir və Osmana kömək edilməməsində onu günahlandırır)*.

Allaha həmd-səna edərək Onu hər bir eyb və nöqsandan pak bilirəm. *(Əcəba)* sənin haqqı zay etmək və etimad olunan şeyləri–Allahın bəyəndiyi və bəndələrinin dəlili olan həqiqətləri kənara atmaq nəticəsindəki şəhvətpərəstliyin, yeni nəfsi istəklərin və tabe olduğun çaşqınlıqlar nə qədər də çoxdur. (Qeyd)[1] Osman və onun qatilləri barəsində çox danışaraq çərənləməyinə *(və onu məzlum kimi qələmə verməyinə)* gəldikdə *(bilməlisən ki)*: *(sənin onun qisasını tələb etməyin yersizdir. Çünki)* sən Osmana öz xeyirinə olan zaman kömək etdin. Onun xeyrinə olan zaman isə yardım etmədin. (Qeyd)[2] Salama layiq kimsəyə salam olsun.

---

[1] *Qısası, pis işlərə əmr edən nəfsi istəklərə çox düçar olmusan və azğınlıqların dalınca düşmüsən. Həmişə camaatı yeni bidətlərlə aldadaraq öz azğınlığın üçün yeni səbəb və bəhanələr axtarırsan.*

[2] *Osman bir-birinin ardınca Müaviyəyə məktub yazaraq ondan kömək istəyirdi. Müaviyə isə vədə verərək hərəkət etmirdi və nəticədə Osmanın işləri daha da çətinləşdi və onu mühasirəyə aldılar. Müaviyə Yəzid ibn Əsəd əl-Qəsrini qoşunla göndərərək ona belə dedi: «gedib (Mədinənin səkkiz fərsəxliyindəki) Zi–Xuşub adlı yerdə düşüb qalarsan. « الشاهِدُ يَرى ما لا يَرَى الْغائِبُ » «Şahid orada olmayan şəxsin görmədiklərini görür» demə. Müaviyənin bu cümlədən məqsədi bu idi ki, özbaşına bir iş görmə və mənim əmrim sənə çatmayınca oradan hərəkət etmə. Üstüörtülü surətdə ona başa salır ki, onun göndərilməsindən məqsəd özünü Osmana çatdırıb kömək etmək deyil, bəlkə zehnində başqa planlar var. Sən orada gözlə görək nə olur. O da bir müddət həmin yerdə qalır və Osman öldürülür. Sonra Müaviyə onu qoşunla birlikdə Şama çağırır və xilafəti öz əlinə keçirmək fikrinə düşür.*

# 38-ci məktub

İmam Əli əleyhis-salamın *(Malik)* Əştəri Misir əhalisinə vali təyin edəndə onlara yazdığı məktublarındandır. *(İmam əleyhis-salam onları tərifləyərək onlara Malik Əştərə tabe olmağı əmr edib. O Həzrət əleyhis-salam Malik Əştəri Məhəmməd ibn Əbu Bəkrin yerinə Misirə göndərəndə oranın əhalisi iki dəstəyə bölünmüşdü. Onların bir hissəsi Osman və Müaviyənin tərəfdarı idilər və Məhəmmədlə müxalifət edirdilər. Əksəriyyət təşkil edən digər hissə isə Əmirəl-mömininin Osmanın öldürülməsi istiqamətində səy etmiş dostları idilər. İmam əleyhis-salamın məktubu onlara xitab və müraciətdir.)*

Bu, Allahın bəndəsi Əmirəl-möminin Əlinin Allahın *(yaratdığı)* yer üzündə günah və itaətsizlik ediləndə, Onun haqqı tapdananda *(əmr və fərmanlarına əməl edilməyəndə)*, beləliklə də, zülm həm yaxşı, həm də pis iş görənin, həm məskunlaşan, həm də səfərdə olanın başı üzərinə kölgə salanda, *(xalq Allah və Peyğəmbərin buyuruqlarının əksinə hərəkət edəndə və nəticədə)* sığınılaraq asudəlik və rahatçılıq əldə edilən yaxşı və bəyənilən bir iş tapılmayanda və heç bir pis və çirkin işin qarşısı alınmayan zamanda *(yaxşılıqlar tərk edilərək pis işlərin yayıldığı Osmanın zamanında)* Allaha xatir qəzəblənən tayfa və dəstəyə məktubudur. (Qeyd)[1]

Beləliklə, Allah bəndələrindən elə birisini sizin yanınıza göndərdim ki, o, qorxulu günlərdə yuxuya getməz, qorxulu və vahiməli anlarda düşmən qabağından qorxub geri çəkilməz. O, *(haqdan üz döndərərək azğınlığa düşmüş)* pis əməl

---

[1] *İmam əleyhis-salamın bu sözlərindən o Həzrətin Osmanın özünün, ətrafındakıların və məmurlarının əməllərindən bezar və uzaq olaraq narahatçılıq keçirməsi məlum olur. Amma bu, İmam əleyhis-salamın Osmanın öldürülməsinə razı olması və Misir əhalisini bu cəhətdən tərifləməsinə dəlalət etmir. O Həzrət əleyhis-salam onları Mədinəyə gələrək Osmanın öldürülməsinə kömək etdiklərinə görə deyil, başqalarını pis işlərdən çəkindirmək niyyətində olduqlarına görə tərifləyib.*

sahiblərinə qarşı odun yandırmasından da şiddətli və kəskindir. *(O, düşmənləri əldən salan bir qəhrəmandır.)* O, Məzhicdən *(Məzhic qəbilə və tayfasından)* olan Malik ibn Harisdir. (Qeyd)[1] Buna görə də onun sözlərinə qulaq asın və haqqa uyğun əmr və göstərişlərinə tabe olun. Çünki o, Allahın itiliyi korlaşmayan və zərbəsi təsirsiz qalmayan *(vurulduğu yeri kəsən)* qılınclarındandır. Buna görə də əgər o sizə *(düşmənə tərəf)* getməyi əmr etsə yola düşüb gedin. Əgər əmr etsə ki, getməyin, siz də getməyərək durun. Çünki o *(heç bir işdə)* mənim əmrim olmadan nə qabağa düşər, nə də arxaya çəkilər, nə üz döndərər və nə də irəli gedər. Mən onun sizin xeyrinizi istəməsi və düşmənə vurduğu cilovun möhkəm olması səbəbindən, onun barəsində sizi özümdən üstün tutdum. *(Ona ehtiyacımın olmasına baxmayaraq, onu sizin yanınıza göndərdim. O, düşmənə əldən salan cilov vurur.)*

---

[1] *Məzhic Yəməndəki qəbilələrdən birinin adıdır. Həmin qəbilədən olan tayfalardan biri Nəxə tayfasıdır. Malik Əştər həmin Nəxə tayfasındandır.*

# 39-cu məktub

İmam Əli əleyhis-salamın Əmr ibn Asa məktublarındandır *(ki, onda onu azğınlığına və Müaviyəyə tabe olduğuna görə məzəmmət edir).*

*(Düz yolda olan nicat tapmışlara salamdan)* sonra *(bil ki)*: Sən öz dinini azğınlığı aşkar olan və pərdəsi yırtılmış bir kəsin *(Müaviyənin)* dünyasına tabe etmisən. (Qeyd)[1] O öz məclisində hörmətli şəxsi nöqsanlı və başıaşağı edir və ünsiyyətdə olmaqla alimi nadan edir. (Qeyd)[2] İndi sən də *(bir loxma yemək tamahı ilə)* aslanın dalınca düşüb pəncələrinə baxaraq ovunun artığını ona atmasını gözləyən it kimi belə bir adamın dalınca gedir və ondan bəxşiş istəyibsən. Buna görə də həm dünyanı, həm də axirətini bada vermisən *(dünyada özünü rüsvay etmisən, axirətdə də ilahi əzaba düçar olacaqsan)*! Əgər haqdan yapışsaydın *(bizə üz tutsaydın dünya və axirətdən)* istədiyini tapardın. İndi *(ki, haqdan üz çevirib azğınlığa düşmüsən)*, əgər Allah mənə səni və Əbu Süfyanın oğlunu ələ keçirmək imkanı versə sizi cəzalandıracağam. Amma əgər məni acizləşdirib *(məndən sonra)* qalsanız *(bilin ki,)* qarşınızda olan *(ilahi əzab və cəza)* sizin üçün daha pisdir. (Qeyd)[3] Salama layiq kimsəyə salam olsun.

---

[1] *Deyirlər ki, Müaviyə şərab içmək, ipək paltar geyinmək, qızıl və gümüş qablardan istifadə etmək kimi şəriətə zidd və çirkin hər cür iş görürdü. Amma Ömərin xilafəti zamanında onun qorxusundan bunların çoxunu gizlində edirdi. Osmanın zamanında isə heç nədən çəkinmirdi. Xilafət iddiasına düşdükdən sonra isə onların bəzilərini aşkar, bəzilərini isə gizlində edirdi.*

[2] *Onunla oturan hər bir kəs əgər pakdırsa murdar, hörmətlidirsə xar, ağıllı və biliklidirsə ağılsız və nadan olur. Yaxud da məqsəd budur ki, o öz məclisində hörmətli şəxsdən nöqsan tutur və bilikli adamı nadan sayır. İbn Əbil-Hədid burada belə yazır: «Müaviyə öz məclisində Bəni-Haşimə nalayiq sözlər deyirdi».*

[3] *Necə ki, Qurani-Kərimin Taha surəsinin 127-ci ayəsində buyurur:* «وَلَعَذَابُ الْآخِرَةِ أَشَدُّ وَأَبْقَى» *«Axirət əzabı isə, şübhəsiz ki, (dünya əzabından) daha şiddətli, daha sürəklidir!»*

# 40-cı məktub

İmam Əli əleyhis-salamın məmurlarından birinə yazdığı məktublarındandır *(ki, onda onu əyriliyinə görə məzəmmət edib və hesabat verməsini tələb edib).*

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Mənə səndən bir iş barəsində xəbər çatıb ki, əgər onu etmisənsə Rəbbini qəzəbə gətirmiş, imamına qarşı itaətsizlik etmiş və əmanətini xar etmisən. *(Öz işində xəyanət etmisən və artıq, hakimlik ləyaqətini itirmisən.)*

Mənə (xəbər) çatıb ki, sən yeri silib-süpürmüsən. *(Ağac və əkinəcəklərin məhsullarını özün üçün götürmüsən və rəiyyətə bir şey verməmisən.)* Sonra ayaqlarının altında olan hər bir şeyi götürmüsən və əllərində olanı yemisən. *(Beytülmalın mallarını götürüb özün üçün yığmısan.)* İndi öz *(mədaxil və məxaricinin)* hesabını mənə göndər və bil ki, Allahın *(qiyamət günündəki)* hesabatı xalqın hesab-kitabından daha böyükdür. (Qeyd)[1] Salama layiq kimsəyə salam olsun!

# 41-ci məktub

İmam Əli əleyhis-salamın öz məmurlarından birinə olan məktublarındandır *(ki, onda onu əhdini pozduğu və beytülmalı yediyi üçün məzəmmət edib).* (Qeyd)[2]

---

[1] *Allahın hesabı daha dəqiqdir. Çünki burada gerçəklik və həqiqətə zidd və yalan bir hesabat sənədi düzəltmək mümkündür. Amma orada düzlükdən başqa bir iş baş tutmayacaq.*

[2] *İmam əleyhis-salamın bu məktubu öz məmurlarından hansına yazması barəsində «Rical» alimləri və «Nəhcül-Bəlağə»nin şərhçiləri arasında ixtilaf və fikir ayrılığı vardır. Bəziləri deyiblər ki, İmam əleyhis-salam bu məktubu onun tərəfindən Bəsrənin hakimi olmuş Abdullah ibn Abbasa yazıb. O, beytülmalı götürüb Məkkəyə getmişdi və orada kef etməklə məşğul idi. Digər birisi isə deyib: «Abdullah möhtərəm və şərəfli bir adam olub və o Həzrətin yanından və ona tabe olmaqdan heç vaxt ayrılmayıb». Bəzisi isə belə deyib: İmam əleyhis-salam bu məktubu*

Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: Mən səni öz əmanətimə *(rəiyyətə hakimlik və onların bu dünya və axirət işlərinin islah edilməsinə)* şərik və ortaq etdim. Səni köynəyim və paltarımın astarı *(kimi)* etdim. *(Səni həmişə özümə ən yaxın və önəmli şəxs hesab edirdim.)* Qohumlarımdan heç kəs əmanətin *(beytülmala aid malların)* mənə çatdırılmasında ahəngdarlıq və kömək etməkdə səndən etibarlı və sadiq deyildi. Bəs sən də dövranın əmin oğlunun əleyhinə olmasını, düşmənin ona hiddətlənməsini, xalqın əmanətinin *(əhd-peymanlarının)* məhv olmasını və bu ümmətin *(qan tökmək və zülm etməyə)* cürətlənərək dağılışmalarını görən kimi qalxanın arxasını çevirdin əmin oğluna *(ona tabe olmaqdan əl götürdün)!* Uzaqlaşanlarla birlikdə ondan uzaqlaşdın. Kömək etməyənlərlə əlbir olub ona kömək etmədin. Xəyanət edənlərə qoşulub ona xəyanət etdin. Beləliklə, nə əmin oğlu ilə yoldaşlıq etdin, nə də əmanəti əda etdin. Sanki sənin *(din yolunda)* çalışmağın Allaha görə deyildi. Elə bil ki, sən Rəbbindən *(iman gətirmək üçün)* dəlil və sübuta malik deyildin. *(İmanı süst olanlar kimi Allahı tanımayaraq Ona laqeydcəsinə yanaşanlar kimi.)* Sanki sən bu camaata qarşı hiylə və kələk işlədir və onları var-dövlət məsələsində aldatmaq istəyirdin. *(Xülasə, sənin din və imanını üzə çıxarmaqdan məqsədin camaatı aldadaraq onların var-dövlərini oğurlamaq idi.)* Xalqa xəyanət etməyin səni gücləndirdiyi üçün tez hücum edərək cəld tərpəndin və iti canavarın əldən düşmüş keçini

---

*Abdullah ibn Abbasın qardaşı Ubeydullaha yazıb. Ubeydullah dini ancaq dirhəm və pul olan şəxsdir və alimlər onun xəbərlərinə etimad etməyərək nəql etdiklərini zəif sayırlar. Onun Səid ibn Nəmran ilə Yəməndən qaçaraq Kufəyə Əmirəl-möminin əleyhis-salamın yanına gəlməsi dastanının bir hissəsi xütbələr fəslində iyirmi beşinci xütbənin şərhində deyilib. «Rical» alimləri Səid ibn Nəmranı o Həzrətin şiələrindən və inanılmış şəxslərdən hesab edirlər. Digər birisi isə belə deyir: «Ubeydullah ibn Abbas İmam əleyhis-salam tərəfindən Yəmənin hakimi olub və onun barəsində belə bir şey nəql edilməyib. Axır ki, İmam əleyhis-salamın bu məktubu Bəsrənin hakimi olmuş əmisi oğlanlarından hansına yazması məlum olmayıb.*

oğurlaması kimi, onların dul qadın və yetimləri üçün yığdıqları var-dövlətlərindən əlinə düşəni oğurladın. Sonra həmin malı ürək genişliyi ilə *(sevinc və şadlıqla)*, onu oğurlamağın günahından qorxub çəkinmədən Hicaza *(Məkkəyə, yaxud da Mədinəyə)* apardın. «Sənin kimi atadan heç olmaz!» *(Vay olsun sənə!)* Elə bil ki, sən ata-anandan *(qalmış)* miras payını *(götürüb)* ailənin yanına gətirmisən *(beytülmalı ata-ananın mirası güman edibsən)*. Allaha həmdü-səna edib Onu hər bir eyb və nöqsandan pak və uzaq bilirəm. *(Əcəba,)* sənin məada və Allahın hüzuruna qayıdışa imanın yoxdur, yoxsa ki, (axirətdəki) hesab və sorğu-sualın dəqiqliyindən qorxmursan? Ey bizim yanımızda əvvəllər ağıllılardan sayılan, *(o malı)* yeyib-içməyi necə düzgün və doğru hesab edirsən, halbuki haram yeyib-içdiyini bilirsən? Allahın bu malları onlar üçün müəyyənləşdirdiyi və bu şəhərləri *(düşmənlərdən)* vasitələri ilə qoruduğu yetimlər, yoxsullar, möminlər və mücahidlərin malları ilə kənizlər alır və arvadlarla nigah bağlayırsan?! Bütün bunlara görə Allahdan qorx və bu dəstənin mallarını özünə qaytar. Əgər bu işi görməsən və Allah mənə əlimin sənə çatması imkanını versə, Allah yanında sənin barəndə *(səni cəzalandırmaq barəsində)* dəlil gətirər və səni həmin o qılıncımla vuraram ki, onunla vurduğum kimsə ancaq və ancaq oda *(cəhənnəmə)* daxil olub. Allaha and olsun ki, əgər sənin etdiklərini Həsənlə Hüseyn *(əleyhiməs-salam)* etsəydi, onlarla barışmazdım və onlardan haqqı tələb edib zülm ilə əldə edilmiş batili uzaqlaşdırmayınca onlar məndən olan heç bir istəklərinə çatmazdılar. Aləmlərin Rəbbi olan Allaha and olsun ki, sənin onların mallarından götürdüklərin mənim üçün halal olsaydı da, onu özümdən sonra irs qoymağım məni sevindirməzdi. Buna görə də «dəvəni səhər tezdən yavaş otar!» (Qeyd)[1] ki, deyəsən axirətə *(ölümə)* çatmısan,

---

[1] «ضَحِّ رُوَيداً» - *Bu cümlə yavaş gedilməsi lazım olan yerdə tələsən adam barəsində məsəldir. Burada malın sərf edilməsindən ifrata varmamağa*

torpaq altında gizlədilmisən; zülmkarın *(əldən verdikləri üçün)* qəm-qüssəsi səbəbindən fəryad qopardığı və *(başqalarının haqqını)* zay edənin *(dünyaya)* qayıtmağı arzuladığı yerdə əməlin sənə göstərilib, halbuki həmin zaman *(ilahi əzabdan)* qaçmaq vaxtı deyil.

---

*işarədir.*

# 42-ci məktub

İmam Əli əleyhis-salamın Ömər ibn Əbi Sələmə Məxzumiyə olan məktublarındandır. O, İmam tərəfindən Bəhreynin hakimi olub və o Həzrət, Məxzumini öz vəzifəsindən kənarlaşdıraraq yerinə Nöman ibn Əclan Zurəqini təyin edib. *(İmam əleyhis-salam bu məktubda Öməri tərifləyib və onu özü ilə müharibəyə aparmaq istədiyini bildirib. Ömər Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) zövcəsi Ummu Sələmənin oğludur. Nöman Ənsarın böyüklərindən olub. «Rical» alimləri bu iki nəfəri Əmirəl-möminin əleyhis-salamın səhabələrinin yaxşılarından hesab ediblər və rəvayət nəql etməkdə onlara etimad edirlər. Bəzi kitablarda Ömərin adı Əmr ibn Əbi Sələmə kimi yazılır. Amma onun adının Ömər ibn Əbi Sələmə olması daha düzgündür. Çünki «Nəhcül-Bəlağə»nin nüsxələrinin çoxunda onun adı Əmr deyil Ömər kimi yazılıb.)*

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Mən Nöman ibn Əclan Zurəqini Bəhreynin vali və hakimi təyin etdim və əlini səni məzəmmət etmədən və qınamadan *(ondan)* üzdüm *(səni öz yanıma çağırdım)*. Sən valiliyi gözəl yerinə yetirdin və əmanəti *(beytülmalı)* əda etdin. Belə isə *(mənim yanıma)* gəl ki, sənə qarşı pis gümanda deyiləm, səni məzəmmət edərək qınamıram və günahkar hesab etmirəm. Buna görə də *(səni çağırmağımın səbəbi budur ki,)* Şam əhlinin zalımlarına tərəf *(onlarla müharibəyə)* getmək qərarına gəlmişəm və sənin özümlə olmağını istəyirəm. Çünki sən, mənim Allahın istəyi ilə düşmənlə müharibə etmək və dinin sütunlarının qaldırılmasında *(İslam hökmlərinin icrasında)* arxalandığım şəxslərdənsən.

# 43-cü məktub

İmam Əli əleyhis-salamın, özünün Ərdəşir Xurrədəki *(Farsda şəhər adıdır)* valisi Musqələ ibn Hubəyrə Şeybaniyə olan məktublarındandır. (Qeyd)[1]

Mənə bir xəbər çatıb ki, əgər sən onu etmisənsə öz Allahını qəzəbləndirmisən *(Onun rəhməti sənə şamil olmayacaq)* və imam və rəhbərini hirsləndirmisən *(və gərək o səndən intiqam alsın. Çünki xəbər çatıb ki)*: sən müsəlmanların nizə və atlarının topladığı və yolunda qanları axıdılmış mallarını səni seçmiş ərəb qohumların arasında bölüşdürmüsən. *(Torpaq altında)* toxumu yaran və insanı yaradan Allaha and olsun ki, əgər *(xəbər verilmiş)* bu iş doğru olsa, məndən özünə qarşı xarlıq görəcəksən və mənim yanımda olan məqam və mövqeyini yüngülləşdirəcəksən. Buna görə də Rəbbinin haqqını yüngül sayma və dünyanı, dinini xarab etməklə abadlaşdırma ki, *(qiyamət günü)* əməlləri baxımından ziyana uğrayanların sırasında olarsan.

Bil ki, sənin və mənim yanımda olan müsəlmanlar, bu malların bölüşdürülməsində bərabər hüquqa malikdirlər. *(Hər bir kəs bulağın başına gedib qayıtdığı və bulaq fərq qoymadan hamıya su verdiyi kimi müsəlmanlar da)* mənim yanıma o mallar üçün gəlib qayıdırlar. *(Buna görə də sənin həmin malları ancaq öz qohum-əqrabana ayırmaq və bölmək haqqın yoxdur.)*

# 44-cü məktub

İmam Əli əleyhis-salamın, Müaviyənin Ziyad ibn Əbihə məktub yazaraq onu *(qardaş olmaları hiyləsi ilə)* özünə

---

[1] *O Həzrət əleyhis-salam Musqələni qənimətin–müsəlmanların qələbə nəticəsində düşməndən aldıqları malların bölüşdürülməsində zülm etdiyi üçün məzəmmət edib. «Rical» alimləri onu «zındıq», yəni, zahirdə imanlı, batində isə kafir olmuş şəxs adlandırırlar. Onun İmam əleyhis-salamın dost və fədakarlarından olmuş Məqil ibn Qeys ilə sərgüzəşti xütbələr fəslində qırx dördüncü kəlamın şərhində deyilib.*

birləşdirməklə aldatmaq istəməsini eşidərkən, Ziyada yazdığı məktublardandır. (Qeyd)[1]

---

[1] *İmam əleyhis-salam bu məktubda onu Müaviyəyə aldanmaqdan çəkindirir. Ziyad Həzrət Seyyiduş-şühəda Hüseyn əleyhis-salamın qatili Ubeydullah ibn Mərcanənin atasıdır. Ubeydullahın anası Mərcanə zina etməkdə çox məşhur olan bir kəniz olub. Ziyadın atasının kimliyi məlum deyil. Bəziləri onu Ziyad ibn Ubeyd adlandıraraq Səqifə nisbət veriblər. Onu Ziyad ibn Əbu Süfyan, Ziyad ibn Əbih–yəni, atasının oğlu Ziyad, Ziyad ibn Ummih–yəni, anasının oğlu Ziyad və Ziyad ibn Suməyyə kimi müxtəlif nisbətlərlə adlandıranlar da var. Həmçinin deyirlər ki: Əbu Süfyana nisbət verilməmişdən onu Ziyad ibn Ubeyd adlandırırdılar. Ubeyd qul olub və Ziyad böyüyənə və varlanana kimi qul olaraq qalıb. Sonra isə Ziyad onu alaraq azad edib. Anası isə məşhur ərəb təbibi Haris ibn Kəldənin kənizi Suməyyə olub. Deyirlər ki, Ömər ibn Xəttabın zamanında bir gün Ziyad onun məclisində söhbət edib və qulaq asanların təəccübünə səbəb olub. Əmr ibn As belə deyib: «Əcəba, əgər bu cavan Qureyşdən olsaydı ərəbi öz əsası ilə sürərdi!» Əbu Sufyan deyib: «Bil, Allaha and olsun ki, o, Qureyşdəndir; əgər onu tanısaydın, onun sənin qohumlarının ən yaxşılarından olduğunu bilərdin». Əmr deyib: «Atası kimdir?» Əbu Süfyan deyib: «Allaha and olsun ki, onu anasının uşaqlığına mən qoymuşam». Əmr deyib: «Bəs nə üçün onu özünə nisbət vermirsən?» Əbu Süfyan cavab verib ki: Burada oturan böyükdən, yəni, Ömərdən qorxuram ki, dərimi soyar. Həmçinin deyiblər ki: onun künyəsi Əbu Muğeyrədir və Məkkənin fəthi ilində və ya hicrət ilində, yaxud da Bədr müharibəsi günündə Taifdə dünyaya gəlib. O, Həzrət Peyğəmbəri (səlləllahu əleyhi və alih) görməyib. O, həmişə Əmirəl-mömininlə və ondan sonra imam Həsən əleyhiməs-salam Müaviyə ilə sülh bağlayana kimi o Həzrətlə bir yerdə olub. Ondan sonra isə Müaviyəyə qoşulub. Hicrətin əlli üçüncü ilində Ramazan ayında imam Həsən əleyhis-salamın nifrini nəticəsində bədənin müəyyən hissəsini hiss və hərəkətdən salan iflic xəstəliyindən və ya vəbadan Kufədə ölüb. İbn Əbil-Hədid burada və başqa yerdə onun imam Həsənə və Əmirəl-möminin əleyhimas-salamın şiələrinə qarşı olan xəbislikləri, çirkin işləri, yaramaz sözləri və öz zəmanəsinin imamına etdiyi hörmətsizliklərdən elə hadisələr nəql edib ki, onları oxuyub əlimi başıma tutdum və ağlayaraq qəlbim sındı. Onları tərcümə etməkdən utandım. Buna görə də onun xəbislik və nanəcibliyi barəsində iyirmi birinci məktubun şərhində İbn Əbil Hədiddən nəql etdiyim şeylə kifayətlənirəm. Xülasə, Əmirəl-möminin əleyhis-salam öz xilafəti zamanında Ziyadı Farsa vali təyin etmişdi və o, həmin diyarı yaxşı*

Xəbərdar oldum ki, Müaviyə sənə məktub yazaraq qəlbini *(xoşbəxtlik yolundan)* sapdırmaq və sənin itilik və çevikliyinə *(zirəkliyinə)* nüfuz etmək istəyir. Buna görə də ondan çəkinərək qorx. Çünki o, insanın qabaq və arxasından, sağ və solundan gələn və sonda birdən onun qəflət və nadanlıq anında nüfuz edərək ağlını oğurlayan *(və dünyada məəttəlçilik və sərgərdanlığa, axirətdə isə əbədi əzaba düçar edən)* bir şeytandır.

Ömər ibn Xəttabın xilafəti zamanında Əbu Süfyandan nəfsi istəklər və şeytanın vəsvəsələri nəticəsində ölçülməmiş bir söz çıxdı. *(Əmr ibn Asa belə dedi: Bu mənim onun anası ilə olan zinamın nəticəsidir.)* Bu sözü deməklə nəsəb sübut olmur və onunla heç kəs irs aparmağa layiq olmur. (Qeyd)[1] *(O Həzrət buyurur ki:)* Belə səhv sözə ürək bağlayan şəxs dəvət edilmədən özünü şərab içənlərin içinə soxan və onların, hey rədd edərək uzaqlaşdırdıqları adama və *(yük daşıyanın üstündən asılan və)* qərar tutmayıb yellənən taxta kasaya bənzəyir. (Qeyd)[2] *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Ziyad o Həzrətin məktubunu oxuyandan sonra belə dedi: «Kəbənin Rəbbinə and olsun ki, Əbu Süfyan deyilənlərə şəhadət verib». *(Bu məsələ)* həmişə onun nəzərində idi və nəhayət, Müaviyə onu çağırdı *(və Ziyad da ona qoşuldu).*

---

*idarə edərək qoruyurdu. Buna görə də Müaviyə ona məktub yazaraq, onu qardaşlığı ilə aldatmaq fikrinə düşdü. Bu xəbər İmam əleyhis-salama çatanda o Həzrət Ziyada belə bir məktub yazdı.*

*[1] Ərəblərin bəzisi zina ilə nəsəbin bərqərar olmasını qəbul edirdilər. Amma Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) onu səhv adlandıraraq buyurdu: «الْوَلَدُ لِلْفِراشِ وَ لِلْعاهِرِ الْحَجَرُ» «Övlad qadınla nigahı olan və qadın ixtiyarında olan kişinindir və zinakar məhrumdur». Yəni, ona heç nə çatmır və o, irs aparmır. Bəziləri isə deyiblər ki, məqsəd budur ki, zinakar daşqalaq edilməlidir. Amma İmam əleyhis-salamın buradakı sözü birinci mənanı təsdiqləyir.*

*[2] Xülasə, Əbu Süfyanın Ömərin məclisində dediyi sözlərlə sən Bəni-Üməyyə nəsəbinə daxil olmursan ki, Müaviyə onu əlində dəlil kimi tutub səni aldatmaq istəyir.*

İmam əleyhis-salamın kəlamında işlədilmiş «الواغِل» «əl-vağil» kəlməsi o adama deyilir ki, o həmişə özünü şərab içənlərin arasına soxub onlarla içib onlardan sayılmamaq istəyir və buna görə də onu qovaraq öz aralarına girməsinə mane olurlar. «النَّوْطُ الْمُذَبْذَبُ» «ən-nautul-muzəbzəb» birləşməsi isə taxta kasa, qədəh və buna bənzər şeyə deyilir ki, miniyin üstündəki yükdən asılır və yükün üstündə adam olanda və miniyi möhkəm sürəndə dayanmadan yellənir.

# 45-ci məktub

İmam Əli əleyhis-salamın, onun tərəfindən Bəsrənin valisi olan Osman ibn Hüneyfə olan məktublarındandır. Həzrət bu məktubu Bəsrə əhlinin Osmanı qonaqlığa dəvət etməsini və onun qonaqlığa getməsini eşidəndə yazıb. *(İmam əleyhis-salam onu həmin qonaqlığa getdiyi üçün məzəmmət edib. Osman və onun İmam əleyhis-salam tərəfindən Mədinənin valisi olmuş qardaşı Səhl ibn Hüneyf Həzrət Peyğəmbərin – səlləllahu əleyhi və alih – səhabələrindən olublar. Onların hər ikisi ömürlərinin sonuna kimi Əmirəl-möminin əleyhis-salamın şiə və dostlarından olublar. Buna görə də «Rical» alimləri bu iki qardaşın yaxşılığında ixtilaf və tərəddüdə düçar olmayıb onların nəql etdikləri hədisləri mötəbər və inanılmış hesab etmişlər. Cəməl əhli Bəsrəni alarkən Osman ibn Hüneyfin başına gələnlərin bir hissəsi yüz yetmiş birinci xütbənin şərhində deyilib.)*

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: ey Hüneyfin oğlu, mənə xəbər çatıb ki, Bəsrə gənclərindən biri səni toy süfrəsinə dəvət edib və sən tələsik həmin süfrəyə doğru getmisən. Sənin üçün növbənöv ləzzətli yeməklər istənilib və qarşına böyük kasalar gətirilib. Sənin, kasıb və yoxsullarını qovan, varlıları isə dəvət edən bir camaatın qonaqlığına getməyini güman etməzdim. Buna görə də bu yeməkdən dişlədiyinə diqqət et. *(Halal və ya haram olması)* sənə məlum olmayan şeyi at (yemə). Qazanılma yollarının pak olmasını *(halal və düz yolla əldə edildiyini)* bildiyin şeyi ye.

Bil ki, tabe və ardıcıl olan hər bir şəxsin bir imam və başçısı var ki, ona tabe olur və onun elminin nuru ilə

aydınlıq axtarır. *(Hər bir tabe və ardıcıl danışıq və davranışının düzlüyünü öz imamından öyrənir. Sən də gərək öz imamına tabe olub onun ardınca gedəsən.)* Bunu da bil ki, sizin imamınız öz dünyasından iki köhnə paltarla *(yəni, bədəni başdan ayağa kimi örtən qumaş köynək və şalvarla)*, yeməklərdən isə *(iftar və obaşdanlıq və ya nahar və şam üçün)* iki tikə çörəklə kifayətlənib. Sizin bu cür etmək qüdrətiniz yoxdur. Amma *(heç olmasa)* mənə pərhizkarlıq, çalışqanlıq, iffətlilik və düzlüklə kömək edin. (Qeyd)[1] Allaha and olsun ki, sizin dünyanızdan qızıl toplamamışam, onun qənimətlərindən çoxlu mal yığmamışam və əynimdəki köhnə paltardan başqa digər bir köhnə paltar hazırlamamışam.

Bəli, göyün kölkə saldığı bütün şeylərdən *(dünya malından)* yalnız Fədək bizim əlimizdə idi ki, bir dəstə adam *(üç xəlifə)* ona paxıllıq etdi *(onu qəsb edərək əlimizdən aldı)*. Başqaları *(İmam əleyhis-salam və əhli-beyti)* da bəxşiş edərək ondan keçdilər. Allah gözəl hakimdir *(və haqq ilə batil arasında hökm çıxaracaq)*. (Qeyd)[2] Mən Fədəyi və Fədəkdən qeyrisini nə

---

[1] *Nalayiq işlərdən uzaqlaşaraq özünüzü hər bir çirkinlikdən kənar saxlayın ki, mənə rəiyyət və əlim altında olanların islah edilməsində kömək etmiş olasınız.*

[2] *Fədək yəhudi kəndlərindən birinin adıdır ki, onunla Mədinə arasında iki mənzil, onunla Xeybər arasında isə bir mənzildən az məsafə var. Fədəkin qəsb edilməsi dastanı və Həzrət Fatimənin - əleyhas-salam - zülmə məruz qalması və ondan şikayətlənməsi ərəb və fars dilində yazılmış müxtəlif kitablarda açıqlanıb və biz məsələnin aydınlaşması üçün şərhçi Bəhraninin bu yerdə yazdıqlarının bir hissəsini xatırladırıq: «Fədək Həzrət Peyğəmbərə – səlləllahu əleyhi və alih – məxsus idi. Çünki Mədinənin Şam istiqamətində üç günlük yol miqdarındakı yaxınlığında olan Xeybər şəhəri fəth ediləndə, Fədək əhalisi onun yarısını və hətta bəzi rəvayətlərə görə, onun hamısını sülh və dinc yol ilə təhvil vermişdi. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) həmin kəndi öz həyatı dövründə Fatimə əleyhas-salama bağışladı. Bu barədə müxtəlif yollarla bir çox rəvayətlər nəql edilib, o cümlədən «Rical» alimlərinin mötəbər və inanılmış şəxs saydıqları Əbi Səid Xudridən nəql edilib ki, Allah tərəfindən Həzrət Peyğəmbərə İsra surəsinin 26-cı ayəsi olan «وَآتِ ذَا الْقُرْبَى حَقَّهُ وَالْمِسْكِينَ وَابْنَ السَّبِيلِ» «Qohum-*

*əqrəbaya* da, *miskinə də, müsafirlərə də haqqını ver»* nazil olanda, o *Həzrət Fədəyi Fatimə əleyhas*-salama verdi. *Əbu Bəkr xəlifə* olanda onu almaq *istədi. Fatimə əleyhas*-salam ona *xəbər göndərdi ki, Fədək mənimdir və* onu *mənə* atam *bağışlayıb. Əmirəl*-möminin *əleyhis*-salam *və Həzrət Peyğəmbərin tərbiyə edərək* azad etdiyi Ummu *Əymən* bu *məsələyə şəhadət verdilər. Əbu Bəkr dedi: «Həzrət Peyğəmbər (səlləllahu əleyhi və* alih) buyurub ki, biz *peyğəmbərlər* öz *ailəmizə* miras *saxlamırıq,* qoyub *getdiklərimiz sədəqə və bəxşişdir. Fədək müsəlmanların* o *Həzrətin əlində* olan *malı* olub *və* o, onu *ümmətin işlərində və Allahın* yolunda *sərf* edib. *Mən də həmin* yolda *sərf edəcəyəm».* Sonra *Həzrət Fatimə əleyhas*-salam *başına çadra salıb* öz *xidmətçiləri və qohumlarından* olan *bəzi qadınlarla Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və* alih) *məscidinə gəldi. Əbu Bəkr və həmçinin* Mühacir *və Ənsarın əksəriyyəti* orada idi. Ortadan *pərdə asıldı.* Sonra *nalə edərək elə ağladı ki, hamı ağlamağa başladı.* Bundan sonra uzun bir *müddət sakit qaldı ki, camaatın səs-küyü yatsın.* Sükut *yaranandan* sonra uzun bir *xütbə* oxudu, o *cümlədən belə* buyurdu: *«Ey Əbu Quhafənin oğlu, sən* atandan irs *aparırsan, amma mən* atamdan irs *aparmıram?»* Sonra üzünü *atasının müqəddəs qəbrinə* çevirib *ümmətdən narazılığını bildirərək* onunla *dərdləşdi. Ravi deyir:* Heç vaxt *Mədinənin arvad və kişilərinin həmin* gün *olduğu qədər* çox *ağladıqları görünməmişdi.* Sonra *Ənsarın məscidinə* üz tutaraq onlara da *bəzi sözlər* dedi, o *cümlədən belə* buyurdu: «Bilin ki, *mən* sizi dini inkar *edən görürəm. Siz dadlı tikəni ağızdan çölə atdınız. Əgər siz və* yer *üzündə olanların hamısı* kafir olsa, Allah *yenə də* ehtiyacsızdır». Bundan sonra *evə qayıtdı və* and içdi ki, *Əbu Bəkrlə danışmasın və* ona nifrin etdi *və* bu *vəziyyətdə* dünyadan köçdü. *Həmçinin vəsiyyət* etdi ki, *Əbu Bəkr* ona namaz *qılmasın.* O *həzrətə* Abbas namaz *qıldı və* o, *gecə dəfn* edildi. *Xülasə, Əbu Bəkr oranın məhsul və* xeyrini götürür *və* ondan *kifayət edəcək* miqdarda *Əhli*-*Beyt əleyhimus*-salama verirdi. *Müaviyəyə* kimi olan *digər xəlifələr də Əbu Bəkrin* yolu *ilə gedirdilər.* Amma *Müaviyə* imam *Həsən əleyhis*-salamdan sonra *oranın üçdə* birini *Mərvana* verdi. *Mərvan isə* öz *xilafəti zamanında oranın hamısını* öz *əlinə aldı.* Ondan sonra *Mərvanın övladları Ömər* ibn *Əbdüləzizin zamanına* kimi *oranı bir-birlərinə ötürdülər. Ömər* ibn *Əbdüləziz xəlifə* olanda *oranı* Fatimə *əleyhas*-salamın *övladlarına qaytardı. Şiə deyir: «Onun* zülm *ilə alınmışlardan qaytardığı* ilk *şey Fədək* idi». Sünni deyir: «O, *oranı əvvəlcə* öz mülki etdi *və* sonra *Fatimə əleyhas*-*salamın övladlarına bağışladı».* Ondan sonra ora bir daha, *Bəni*-Abbas *dövlətinə kimi, qəsb edildi. Əbul* Abbas *Səffah oranı qaytardı. Mənsur isə təzədən geri aldı.* Onun *oğlu* Mehdi *qaytardı,* iki *oğlu* Musa *ilə*

edəcəyəm? Halbuki insanın yeri sabah *(öləndən sonra)* qəbir və gordur ki, onun qaranlıqlarında nişanələri məhv olacaq və xəbərləri itib gedəcək. Həmçinin elə bir çuxurdur ki, əgər onun genişliyi çoxalsa və gorqazanın əlləri onun genişliyində çalışsa daş-kəsək onu sıxar və torpaq bir-birinin üstünə yığılaraq deşiklərini örtər. Mənim fikir və düşüncəm bundadır ki, öz nəfsimi pərhizkarlıqla tərbiyə edərək xar edim ki, qorxu və vahiməsi çox olan gündə

---

*Harun isə aldı. Sonra Məmun qaytardı və Mütəvəkkilə kimi Fədək onlarda oldu və o oranın xeyrini Abldullah ibn Ömər Bazyara həvalə etdi. Deyirlər ki, orada on bir dənə xurma ağacı var imiş və onları Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) öz mübarək əlləri ilə əkibmiş. Fatimənin övladları oranın xurmalarını hacılar üçün sovqat və hədiyyə göndərirmişlər və çoxlu mal alırmışlar. Bazyar bir nəfər adam göndərərək həmin ağacları kəsdirdi və Bəsrəyə qayıdan kimi əlləri iflic oldu». İbn Əbil-Hədid doqquzuncu məktubun şərhində bir münasibətlə belə yazır: Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) qızı Zeynəbin əri Əbul-As müşrik idi və (Məkkədə olduğu müddətdə o Həzrət onu Zeynəbdən ayıra bilmirdi, hərçənd ki, Zeynəbin İslamı qəbul etməsi onu ərindən ayırmışdı. Əbul As) müharibədə əsir düşərək tutuldu. Məkkəlilər əsirlərini azad etmək üçün fidyə və mal göndərirdilər. Zeynəb də anası Xədicənin ona verdiyi boyunbağını göndərdi. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) həmin boyunbağını görən kimi riqqətə gəldi və müsəlmanlara belə dedi: «Əgər Zeynəbin əsirini azad edərək onun fidyəsini özünə qaytarsanız, yaxşı olar.» Müsəlmanlar dedilər: «Baş üstə, ey Allahın Peyğəmbəri, bizim can və mallarımız sənə qurbandır». Sonra Zeynəbin fidyəsini qaytararaq Əbul-Ası fidyəsiz azad etdilər. İbn Əbil Hədid sonra belə yazır: Mən bu xəbəri rəhmətlik Nəqib Əbu Cəfər Yəhya ibn Əbu Zeyd Bəsri Ələviyə oxuyurdum. O mənə dedi: Elə bilirsən, Əbu Bəkrlə Ömər həmin hadisədə olmayıblar?! Görəsən, onların Fatimə əleyhas-salamın ürəyini şad etmələri və müsəlmanlardan öz haqlarını ona vermələrini istəmələri yaxşı olmazdı?! Məgər onun Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) yanındakı məqamı Zeynəbdən az idi, halbuki o, iki dünya qadınlarının xanımıdır?! Bütün bunları o fərzlə deyirik ki, onun Fədək barəsində heç bir haqqa – istər bağışlama və hədiyyə yolu ilə olsun, istərsədə irs yolu ilə – malik olmamasını təsəvvür edək. Xülasə, İmam əleyhis-salam ona olmuş zülmə işarə edib və (bu xütbədəkiləri) dünya malına bağlı olmaması barəsində buyurub.*

*(qiyamətdə)* asudə və rahat olsun və sürüşkənliyin kənarında möhkəm dayansın.

Əgər istəsəm yolumu bu balın saf və təmizinə, buğda çörəyinin xalisinə və bu ipək paltarın toxunulmuşu istiqamətinə sala bilərəm. Amma Hicazda *(Məkkə, Mədinə və onun digər şəhərlərində)*, yaxud *(Yəmən şəhərlərindən olan)* Yəmamədə kiminsə *(imkansızlıqdan)* bir tikə çörəyə ümidsiz olması və tox yatdığı vaxtı yadından çıxarması ehtimalı ola-ola nəfsi istəklərin mənə qalib gəlməsi və hərisliyin çoxluğunun məni yemək seçməyə vadar etməsi məndən necə də uzaqdır!! Həmçinin ətrafımda ac qarın və isti *(susuz)* ciyərlər ola-ola tox qarınla yatmaq, yaxud söz sahibinin *(Hatəm ibn Abdullah Tainin)* dediyi kimi olmaq, məndən çox uzaqdır. O deyib:

وَ حَسْبُكَ داءً أَنْ تَبِيتَ بِبِطْنَةٍ وَ حَوْلَكَ أَكْبادٌ تَحِنُّ إِلَي الْقِدِّ

«Sənə bu dərd bəsdir ki, gecə tox qarınla yatasan və ətrafında keçi balasının dərisinin həsrətini çəkənlər olsun *(nəinki yemək, heç bunu da tapa bilmirlər)*».

Dövranın çətinliklərində onlarla həmdərd olmadan, acı günlərində gözləri önündə durmadan mənə möminlərin əmir və başçısı deyilməsi ilə kifayətlənim?! Məni fikri ancaq ot olan bağlı heyvan, yaxud bir şey tapıb yemək üçün zir-zibili alt-üst edən və mədəsini əlinə düşənlə dolduraraq onun üçün nəzərdə tutulan şeydən qafil olan açıb buraxılmış dördayaqlı kimi yaratmayıblar ki, gözəl təamlar yemək məni *(əbədi xoşbəxtlikdən)* saxlasın. (Qeyd)[1] Həmçinin məni bekar qalaraq əbəs yerə özbaşınalıq etmək və ya azğınlıq ipini çəkərək düşünmədən sərgərdanlıq yoluna yollanmağım üçün yaratmayıblar. Sanki sizlərdən birinin belə dediyini görürəm: «Əgər Əbu Talib oğlunun yeməyi budursa, onda zəiflik və süstlük onu tay-tuşları ilə döyüşdən

---

[1] *Həmin heyvan bilmir ki, sahibi onun kökəlməsini onu ətliyə göndərmək üçün və ya onunla yük daşıyaraq işlərini görməsinə görə istəyir.*

və şücaətlilərlə rəqabət apararaq bərabərlik etməkdən saxlamayacaq!» Bilin ki, *(suyun az çatdığı)* çöl ağacının taxtası bərkdir *(möhkəmdir)*. Amma *(suyu çox olan bağlarda əkilmiş)* yaşıl ağacların qabıqları daha nazikdir. *(Yağış suyundan başqa digər bir su tapmayan)* səhra bitkilərinin alovlarının şöləsi daha çox saçır və onlar daha gec sönürlər. (Qeyd)[1] Mənimlə Rəsulullah *(bağlılıq və birlik baxımından hər ikisi bir kökdən bitmiş)* xurma ilə xurma və *(bir-birinə birləşmiş)* əl ilə bazu kimiyik. *(Buna görə də)* Allaha and olsun ki, əgər bütün ərəblər mənə qarşı müharibə etməyə birləşsələr onların qabağından qaçmaram və əgər ələ fürsət düşsə onlara tərəf tələsərəm *(Allahın və dinin yardımı yolunda hamısının boynunu vuraram)*. Tezliklə yer üzünü bu baş-ayaq şəxsdən və başıaşağı gövdədən *(Müaviyədən)* təmizləməyə çalışacağam ki, daş-kəsək biçilmiş buğdadan ayrılsın. *(Münafiq və ikiüzlünü möminlərin içindən qovub çıxaracaq və din yolunu azğınlıq yolkəsənlərindən təmizləyəcəyəm.)*

## Bu da həmin məktubun
### (*dünyanın məzəmməti, pərhizkarlar və ona ürək bağlamayıb Allahın işindən qafil olmayanların mədhi barəsindəki*)
## bir hissəsi və sonudur

Ey dünya, məndən uzaq ol ki, cilovun belindədir *(cilovunu boynuna atıb buraxmışam səni)*. Mən sənin caynaqlarından sıçrayıb çıxmışam, tələlərindən qurtulmuşam, sürüşkənliklərinə *(azğınlıqlarına)* getməkdən çəkinmişəm. Oyun və şənliklərinlə tutub aldatdığın kəslər haradadırlar? Zinət və bəzəklərinlə fitnə və azğınlıqlara saldığın ümmətlər haradadırlar? İndi onlar gorlara girovdurlar və

---

[1] *Bəli, insan hər nə qədər az yeyib-içsə bədəni daha möhkəm və döyüşdə daha şücaətli olar. Amma hər nə qədər çox yeyib içsə nazikqabıq, süst ürəkli və qorxaq olar.*

ləhədlərdə *(qəbirdə olan çuxurlarda)* itib-batıblar! Allaha and olsun ki, əgər sən görünən bir şəxs və hiss olunan bir cisim olsaydın, bəndələri arzular vasitəsi ilə aldatmağının, ümmətləri uçurumlara *(bədbəxtliklərə)* atmağının və padşahları məhvə təslim edərək onları nə düşülməsi və nə də qayıdılması *(münasib)* olmayan bəla və çətinlik nohurlarına salmağının əvəzində sənə ilahi hədd icra edərdim *(Allahın günahlar üçün müəyyənləşdirdiyi cəzaları icra edərdim sənin barəndə)*. Mənim sənə aldanmağım baş tutan şey deyil. Sürüşkənliklərinə ayaq basan sürüşər, bol sularının üstünə çıxan batar və torunun iplərindən uzaq gəzən müvəffəqiyyət qazanıb *(nicat tapar)*. Sənin əlindən salamat qalanın yataq yeri darısqal olsa *(çətinlik və narahatçılıqla yaşasa)* da, nigarançılıq keçirməz. *(Çünki bu çətinliyin tezliklə keçib gedəcəyini bilir. Buna görə də buyurur:)* Dünya onun gözündə ötüb keçməsi gəlib çatmış bir gün kimidir.

Uzaq ol məndən! Allaha and olsun, sənə ram olmayacağam ki, məni xar edəsən; tabe olmayacağam *(əmrlərini yerinə yetiməyəcəyəm)* ki, məni *(istədiyin yerə)* çəkib aparasan. Allaha and olsun – Allahın iradə və istəyini istisna edib and içirəm(Qeyd)[1] – nəfsimi elə tərbiyə edəcəyəm ki, yavanlığına bir tikə çörək tapanda sevinərək təəccüblənsin, duzla yavanlıq etməyə qane olub uyğunlaşsın və gözlərimin kasasını *(ağlamağın çoxluğundan)* öz halında qoyaram ki, suyu çəkilmiş bulaq kimi onun göz yaşı boşalsın. *(O qədər ağlayaram ki, göz yaşım qurtarsın, qalmasın.)* Otlayan heyvanın qarnı otladığı şeylərlə dolur və o, yanı üstə düşür *(yatır)* və qoyun sürüsü otdan doyandan sonra yatağına gedir. Əli *(salavatullahi əleyh)* də dördayaqlılar kimi öz azuqəsini yeyib yatsın?! Belə olsa gözləri aydın

---

[1] *Necə ki, Allah-təala bu cür etməyi əmr edib. Qurani-Kərimin Kəhf surəsinin 23-24-cü ayələrində buyurur:* « **وَلَا تَقُولَنَّ لِشَيْءٍ إِنِّي فَاعِلٌ ذَلِكَ غَدًا إِلَّا أَن يَشَاءَ اللَّهُ** » *«Və heç bir şey barəsində heç vaxt «Mən onu sabah edəcəyəm» demə! Ancaq «İnşaallah (əgər Allah istəsə, Allah qoysa) edəcəyəm» de.»*

olsun ki, uzun illərdən sonra özbaşına buraxılmış və sürüdə otlayan dördayaqlının yolunu gedir *(halbuki insanın əzm və düşüncəsinin yeyib-içmək olması ardır)*!

Xoş o adamın halına ki, qayıdış *(qiyamət günü)* qorxusu gözlərini oyaq saxlayan, yanlarını yataqlardan uzaqlaşdıran, dodaqları yavaş-yavaş Rəbblərini zikr edən və istiğfarın *(bağışlanmaq istəyinin)* çoxluğundan günahları *(dağınıq buludlar kimi)* dağılmış dəstənin içərisində Rəbbinin vacib etdiklərini əda edir, çətinliklərdə dözümlüdür, gecələr yuxu və mürgü qalib gələnə kimi yuxudan uzaqdır *(və yuxu və mürgü qalib gələndə isə)* yeri öz döşəyi və əlini yastığı edir! *(Qurani-Kərimdə Mucadilə surəsinin 22-ci ayəsində buyurulur:)* «Onlar Allahın firqəsidirlər. Bilin ki, Allahın firqəsi – məhz onlar, nicat tapıb əbədi səadətə qovuşanlardır.» (Qeyd)[1]

Buna görə də ey Hüneyfin oğlu, Allahdan qorx *(qarın otarmaqla məşğul olma)*. Gərək bir neçə tikə çörəklə kifayətlənəsən ki, o sənin oddan qurtulmağına səbəb olsun.

# 46-cı məktub

İmam Əli əleyhis-salamın icraçılarından birinə olan məktublarındandır *(ki, onda ona rəiyyətlə mülayim və xoş davranmağı, lazım gələndə isə sərt olmağı əmr edir)*.

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Sən mənim dinin qorunmasında köməklərinə arxalandığım, vasitəsi ilə günahkarın itaətsizliyini yatırtdığım və düşmənin qorxulu dilçəyini *(sərhəddini)* bağladığım kimsələrdənsən. (Qeyd)[2] Buna görə də səni qəmləndirən işlərdə Allahdan kömək istə və *(rəiyyətlə işlərində)* sərtlik və qatılığı bir az yumşaqlıq və mülayimliklə qatışdır *(ki, ürəyini ələ almaq istəyəndə edə biləsən)*. Mülayimlik lazım olan zaman

---

[1] «أُوْلَئِكَ حِزْبُ اللَّهِ أَلَا إِنَّ حِزْبَ اللَّهِ هُمُ الْمُفْلِحُونَ»

[2] *İmam əleyhis-salam sərhəddi insanın boğazının yaxınlığında olan və dilçək adlanan ətə bənzədib. Çünki o tutulsa nəfəs kəsilər.*

mülayim və mehriban ol. Sərtlikdən başqa bir şey yeriməyən vaxt da sərtlik və qatılıq et. Qanadını rəiyyət üçün endir, onlarla gülərüz ol və özünü yumşalt *(mehriban, mülayim və xoşrəftar ol.)* Gözucu baxmaq, gözünü zilləmək, işarə etmək və salam verməkdə onların arasında bərabər davran *(birini digərindən üstün tutma)* ki, böyüklər sənin zülm etməyinə tamah salıb həris olmasınlar *(səninlə düşmənçilik fikrinə düşməsinlər)* və zəiflər sənin ədalətindən naümid olmasınlar. Salama layiq kimsəyə salam olsun!

# 47-ci məktub

İmam Əli əleyhis-salamın məlun İbn Mülcəm onu zərbətləyəndən sonra Həsən və Hüseyn əleyhiməs-salama olan vəsiyyətlərindəndir *(və onları intiqam almaqdan çəkindirib və yaxşı işlərə əmr edib)*.

Sizə təqvalı olmağı və Allahdan qorxmağı, eləcə də dünya sizi axtarsa da, sizin onu istəməməyinizi vəsiyyət edirəm. *(Dünya malına hətta əlinizdə olsa belə, ürək bağlamayın.)* Dünya malından əlinizdən alınmış şey üçün kədərlənməyin. Düz və doğru danışın. *(Axirətdə)* mükafat qazanmaq üçün iş görün. Zalıma düşmən, məzluma yardımçı və kömək olun.

Sizə, bütün övladlarıma, əhli-beytimə və məktubum çatan hər bir kəsə təqvalı olmağı, Allahdan qorxmağı, işlərinizi qaydaya salmağı və aranızda ayrılığa səbəb olan ixtilafları həll etməyi vəsiyyət edirəm. Çünki mən sizin cəddinizin (səlləllahu əleyhi və alih) belə buyurduğunu eşitmişəm ki: «İki nəfərin arasını *(parçalanmaya səbəb olan ixtilafları)* düzəltmək bütün namaz və oruclardan yaxşıdır.» *(Çünki xalq arasında parçalanma hakim olsa dini işlər sahmana düşməz, düşmən ağalıq edər və abadlıqlar viranlıqlara və xarabalıqlara çevrilər.)* Yetimlər barəsində Allahdan qorxun, Allahdan qorxun. Belə ki, onların ağızları üçün növbə müəyyənləşdirməyin *(gah tox, gah da ac saxlamayın onları)*. Onlar *(aclıq, yalavaclıq və yiyəsizlik nəticəsində)* sizin yanınızda

məhv və heç olmasınlar. Qonşularınız barəsində Allahdan qorxun, Allahdan qorxun ki, onlar Peyğəmbərinizin sifariş etdiyi kimsələrdirlər. *(Həzrət Peyğəmbər)* daima onları *(elə)* tapşırırdı ki, biz onlara *(qonşudan-qonşuya)* miras müəyyənləşdirəcəyini *(mallarında onlara bir pay ayıracağını)* güman etdik. Quran barəsində Allahdan qorxun, Allahdan qorxun ki, başqaları ona əməl etməklə sizdən qabağa düşməsinlər. Dininizin sütunu olan namaz barəsində Allahdan qorxun, Allahdan qorxun. Rəbbinizin evi *(əzəmətli Məkkə)* barəsində Allahdan qorxun, Allahdan qorxun. Nə qədər ki, sağsınız onu boş qoymayın. Əgər o tərk edilsə *(sizin getməməyiniz nəticəsində boş qalsa, ilahi əzab)* sizə möhlət verməyəcək *(və Allahın əzabına düçar olacaqsınız)*. Mallarınız, canlarınız və dillərinizlə Allah yolunda cihad etmək barəsində Allahdan qorxun, Allahdan qorxun. *(Dinin yayılması və Allah və Peyğəmbərin düşmənləri ilə vuruşmaqda heç nədən çəkinməyin.)* Bir-birinizlə birlik və dostluğunuz olsun və qarşılıqlı bəxşişlər edin. Bir-birinizə arxa çevirmək və bir-birinizdən ayrılmaqdan qorxun. «Əmr be məruf»u *(başqalarını bəyənilən yaxşı işlər görməyə vadar etməyi)* və «nəhy əz munkəri» *(çirkin işlərdən çəkindirməyi)* tərk etməyin ki, *(əgər bunları tərk etsəniz)* pis əməlliləriniz sizə hakim olarlar, sonra isə dua edərsiniz *(Allahdan onları sizdən uzaq etməsini istəyərsiniz amma)* qəbul olmaz. (Qeyd)[1] Sonra belə buyurdu:

Ey Əbdülmüttəlib oğulları, sizi «Əmirəl-möminin öldürüldü, Əmirəl-möminin öldürüldü» deyib bu bəhanə ilə müsəlmanların qanlarına batmış halda görmək istəmirəm. *(Mənim öldürülməyimi müharibə və qan axıdılması üçün bayraq etməyin.)* Bilin ki, mənim əvəzimə ancaq qatilim öldürülməlidir.

---

[1] *Çünki əmr be məruf və nəhy əz munkər etməməklə Allahı qəzəbləndirmiş və bu bəla və çətinliyi özünüz üçün tədarük görmüsünüz. Buna görə də tövbə edib Allahın yoluna qayıdana kimi dualarınız qəbul olunmayacaq.*

Baxın, əgər mən onun bu zərbəsi nəticəsində ölsəm, onun əvəzində ona bir zərbə vurun. Onu «muslə» etməyin. (Qeyd)[1] Çünki mən Allah Peyğəmbərinin *(səlləllahu əleyhi və alih)* belə buyurduğunu eşitmişəm ki: «Muslə etməkdən uzaq olub çəkinin, hətta qapağan it olsa belə.» *(Çünki Allah adamları, qatilin əməlindən çox kədərli olsalar da bu cür cəza növünü bəyənmirlər. O, nadan və kobud adamların davranış tərzidir ki, onlar öz ürəklərində olan kinlərini bununla soyudur, qabalıqlarını üzə çıxarırlar.)*

# 48-ci məktub

İmam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındandır *(ki, onda Müaviyəyə öyüd-nəsihət verib)*.

Zülm etmək və yalançılıq insanın din və dünyasını məhv edir və nöqsan axtaranın yanında onun naqislik və gücsüzlüyünü üzə çıxarır. Sən bilirsən ki, əldən çıxması təqdir edilmiş şeyi *(dünyadakı istəklər və ya Osmana öldürülməsindən sonra kömək edilməsini)* əldə edə bilməyəcəksən. Bəzi dəstələr haqsız olaraq işin *(imamət və xilafətin)* fikrinə düşdülər və *(həqiqi imama tabe olmamaq, əhdi pozmaq və vəzifə və dünya malı əldə etmək üçün)* aşkar ilahi hökmü başqa yerə yozdular. *(Öz meylləri ilə xilafəti camaatın rəyinə həvalə etdilər və öz arzularına çatmaq üçün Osmanın qisası məsələsini bəhanə etdilər.)* Buna görə də Allah onları yalançı adlandırıb *(və onlara yalançıların əzab və cəzasını verəcək)*. Belə isə o gündən qorx və çəkin ki, onda işinin sonunun yaxşı olmasını görən kəs şad olacaq, ixtiyarını Şeytana vermiş və onunla vuruşaraq müqavimət göstərməyən *(cilovunu Şeytanın əlindən çəkməyən və onun istədiyi yerə apardığı)* kəs isə peşman olacaq.

Sən Quran əhli olmamağına baxmayaraq, *(Siffeyn müharibəsində)* bizi Quranın hökmünə dəvət etdin. *(Quran əhli*

---

[1] *Öldürüləndən qabaq və ya sonra onun göz, qulaq, burun, dodaq, əl, ayaq və digər əzalarını kəsməyin və ya ona qarşı digər çirkin işlər görməyin.*

*olmamağının dəlili, işlərinin onun hökm və göstərişinə zidd olmasıdır.)*
Biz sənə cavab vermədik və Quranın hökmünü qəbul etdik. Salama layiq kimsəyə salam olsun!

# 49-cu məktub

Bu da imam Əli əleyhis-salamın Müaviyəyə *(öyüd-nəsihət verdiyi)* məktublarındandır.

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: dünya *(insan üçün)* baş qatmaq və ondan başqasından *(axirətdən)* saxlamaq yeridir. Dünyatələb dünya malından bəhrələndikcə ona olan vurğunluq və hərisliyi də mütləq artacaqdır. *(O, bir şey əldə edəndə ondan bəhrələnməmiş daha çoxunu arzulayar.)* Dünyatələbi, heç vaxt onda tapdığı *(dünya malı)* əldə etmədiyindən *(axirət nemətlərindən)* ehtiyacsız etməyəcək. Halbuki topladıqdan sonra ondan ayrılmaq, möhkəmləndirməsindən sonra isə məğlubiyyət və bir-birinə vurmaq mövcuddur. Əgər *(öz ömründən və ya zamanın hadisələrindən)* keçənlərdən ibrət alsan, qalanında özünü saxlayaraq bəhrələnəcəksən. Salama layiq kimsəyə salam olsun!

# 50-ci məktub

İmam Əli əleyhis-salamın qoşunlarının başçılarına olan məktublarındandır. *(Həzrət bu məktubda onların imamın boynunda, həmçinin özünün onların boynunda olan haqlarını bəyan edib və onlara ədalətli və əmrlərinə tabe olmağı əmr edib.)*

Bu, Allahın möminlərin başçısı və əmiri olan bəndəsi Əli ibn Əbu Talibin sərhədçilərinə olan məktubudur: Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: valinin bir üstünlük tapması və nemət əldə etməsi onun rəiyyətlə olan münasibətlərinin dəyişməsinə səbəb olmamalıdır. *(Məqam və vəzifə onu əli altında olanları incitməyə vadar etməməlidir.)* Həmçinin Allahın ona qismət etdiyi nemətlər, onu Allahın bəndələri ilə daha yaxından tanış olmağa və qardaşları ilə mehriban olmağa məcbur etməlidir. *(Kim belə etməsə Rəbbinin nemətlərinin şükrünü yerinə yetirməyib.)*

Bilin ki, sizin mənim boynumda olan haqqınız müharibə zamanından başqa sizdən heç bir sir gizlətməməyim *(çünki müharibə sirlərinin faş olması ilə düşmən ondan xəbərdar olar)*, şəriət hökmlərindən başqa heç bir işi sizinlə məsləhətləşmə aparmadan yerinə yetirməməyim *(şəriət hökmlərində məsləhətləşmə aparmaq lazım deyil, çünki siz bütün hökmləri məndən öyrənməlisiniz)*, haqlarınızın yerində sizə çatdırılmasında səhlənkarlıq etməməyim, möhkəmləndirərək sona çatdırmayınca ondan əl çəkməməyim və haqq və hüquq baxımındın sizin mənim yanımda bərabər olmağınızdır *(mənim birinizi digərinizdən üstün tutmamağımdır)*. Beləliklə, mənim sizinlə rəftarım bu cür olduğu halda nemətləri sizə tamamlamaq Allahın öhdəsinədir. Mənim sizin boynunuzda olan haqqım isə tabeçilik və itaətkarlıq, mənim əmrlərimdən üz döndərməməyiniz, mənim məsləhət bildiyim işlərdə səhlənkarlıq etməməyiniz və haqq yolu üzərindəki çətinliklərə daxil olmağınızdır *(haqqı tapmağınız üçün çətinliklərə qatlaşmağınızdır)*. Əgər siz mənim barəmdə bunları etməsəniz, mənim yanımda heç kəs sizin əyri yol ilə gedəninizdən xar və alçaq ola bilməz. Buna görə də onu bərk cəzalandıraram və o, mənim yanımda *(həmin cəzadan)* qurtulmaq imkanı əldə edə bilməz. Siz *(də)* öz *(əliniz altında olan)* başçılarınızla belə bir peyman bağlayın və Allahın, vasitəsi ilə işinizi islah etdiyi şeylərdən özünüz onlara bağışlayın. *(Onları xar etməyin ki, köməkləri vasitəsi ilə düşmənə qalib gələ biləsiniz.)* Salama layiq kimsəyə salam olsun!

# 51-ci məktub

İmam Əli əleyhis-salamın xərac toplayan məmurlarına olan məktublarındandır. *(Həzrət bu məktubda xərac alanda camaatı incitməkdən və satılması ziyan olan şeyi satmağa məcbur etməkdən çəkindirir.)*

Bu məktub Allahın bəndəsi Əmirəl-möminin Əlidən xərac toplayanlaradır: Allaha həmd və Həzrət Peyğəmbərə

salamdan sonra: kim ona üz tutacaq şeydən *(qiyamət gününün hesab-kitabından)* qorxmasa özü üçün qabağa onu *(əzab və cəzadan)* qoruyacaq qoruyucu göndərməz. Bilin ki, sizin üzərinizə qoyulmuş iş yüngül, onun savabı isə çoxdur. Əgər Allahın qadağan etdiyi zülm və haqsızlıq kimi şeylərə görə bir cəza olmasaydı da, onlardan çəkinmək müqabilində olan savab, onu istəməməyə bir bəhanə yeri qoymur. (Qeyd)[1] Belə isə xalqla mülayim və insaflı davranın və onların istəklərinə səbr və dözümlə yanaşın. Çünki siz rəiyyətin xəzinədarlarısınız *(və xərac almaq üçün bir dəstə ilə ünsiyyətdə olur, iş görürsünüz və yığdıqlarınızı digər bir dəstəyə ötürməlisiniz. Belə işlə məşğul olan adam səbrli və təmkinli olmalıdır)*. Həmçinin ümmətin vəkili, imam və başçıların nümayəndələrisiniz *(ki, onlar sizin vasitəsinizlə rəiyyət barəsində göstəriş verirlər)*. Heç kəsi istəyi barəsində qəzəbləndirərək hacətindən çəkindirməyin. (Qeyd)[2] Camaatdan xərac alan zaman onların qış və yay paltarlarını, iş heyvanlarını və qullarını satmayın. *(Əgər xəracı ödəməyə malı yoxdursa, ehtiyacları olan şeyləri onlardan almayın.)* Qətiyyən heç kəsə bir dirhəmə görə qamçı vurmayın. Namaz qılanların və *(cizyə verərək İslamın pənahında olan)* peyman bağlamışların heç birinin mallarına – vasitəsi ilə müsəlmanlara zülm edilən at və silah tapmağınız istisna olmaqla – toxunmayın. Çünki müsəlmanın onları *(at və silahı)* İslam düşmənlərinin əlində qoyması və nəticədə onların onun müqabilində qüdrətə malik olmaları rəva deyil. Özünüzə öyüd-nəsihət verməyi, qoşuna yaxşılıq etməyi, rəiyyətə kömək göstərməyi və Allahın dinini gücləndirməyi tərk etməyin. Allah yolunda münasib, sizə vacib və lazım olan şeyi yerinə yetirin. Çünki nöqsan

---

[1] *Tutaq ki, Allahın hökmləri ilə müxalifət etməyin müqabilində heç bir cəza yoxdur. Amma ona tabe olmağa elə bir əvəz və mükafat verirlər ki, ona göz yummaq mümkün deyil.*

[2] *Heç kəsin işini məəttəlçiliyə salıb «belə et, belə etmə» və ya «torpağı əkmə», yaxud «suyu filan yerdən çıxart» deməyin. Qısası, heç kəsi sərgərdan qoymayın.*

sifətlərdən pak və uzaq olan Allah bizdən və sizdən Onun ehsan və yaxşılıqları müqabilində Ona şükr etməyimizi və gücümüz çatan qədər Ona yardım etməyimizi istəyib, *(hərçənd ki,)* uca və böyük Allahın yardımı olmadan heç bir güc və qüdrət yoxdur.

# 52-ci məktub

İmam Əli əleyhis-salamın şəhərlərin hakimlərinə namaz *(onun vaxtı)* barəsindəki məktublarındandır.

Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: zöhr *(günorta)* namazını camaatla günorta *(günəş göyün ortasından qərb istiqamətinə meyl edən zamandan)* günəşin kölgəsi keçi ağılı *(keçilərin yatdıqları yerin divarı)* qədər qayıdan zamana kimi *(hər bir şeyin kölgəsi onun özü miqdarında olana kimi)* qılın. (Qeyd)[1] Həmçinin onlarla əsr *(ikindi)* namazını günün *(sonunda deyil)* bir hissəsində–*(günəşin batmasına)* iki ağac yol getmək mümkün olan qədər vaxt qalan zaman, günəş *(solğun deyil)* ağ və görünən olanda qılın. (Qeyd)[2] Oruc tutmuş şəxs iftar edəndə və hacılar *(Ərafatdan)* Minaya yola düşəndə, onlarla məğrib *(axşam)* namazını qılın. Onlarla, işa *(xüftən)* namazını isə qırmızılıq *(qərbdən)* çəkiləndən gecənin üçdə birinə kimi qılın. Şəxs öz dost və yoldaşının sifətini görüb seçə bildiyi zaman da onlarla sübh namazını qılın. Namazı onlarla onların ən zəifi kimi qılın *(müstəhəb olan yerləri azaldın)* və fitnə-fəsada səbəb olmayın. (Qeyd)[3]

---

[1] *Bu, onun fəzilətli vaxtıdır. «Nəhcül-Bəlağə»nin bir neçə nüsxəsində* «**حِينَ تَفِيُ الشَّمْسُ مِثْلَ مَرْبِضِ الْعَنزِ**» *yəni, namazı kölgə keçi ağılı miqdarında olan zaman qılın yazılıb.*

[2] *Günorta və ikindi namazlarının vaxtının müəyyənləşdirilməsi barəsində fiqh alimləri və müctəhidlərin çoxlu fərqli nəzər və ixtilafları var və bu məsələlər barəsində fiqh kitablarında bəhs edilib. Bəziləri İmam əleyhis-salamın burada buyurduqlarının zahirinə əsaslanaraq günorta və ikindi namazını bir yerdə qılmağa icazə verməyiblər. Amma rəvayətlər və müctəhidlərin fitvaları həmin namazların bir yerdə qılınmasının düzgün olmasından xəbər verir.*

[3] *Namazı onların qüdrətindən artıq miqdarda uzatmayın ki, əgər onu çox uzatsanız nəticədə onlar camaat namazına gəlməzlər. Mərhum Əllamə Məclisi «Biharul-ənvar» kitabının on səkkizinci cildində Diləminin «İrşadul-qulub» kitabına istinad edərək nəql edir ki: Əli əleyhis-salam Siffeyn müharibəsi günlərinin birində döyüşlə məşğul ola-ola iki qoşunun arasında olmasına baxmayaraq günəşi izləyirdi.*

# 53-cü məktub

İmam Əli əleyhis-salamın *(Malik ibn Haris)* Əştər Nəxəiyə *(Allah onu bağışlasın)* onu Məhəmməd ibn Əbu Bəkrin hakimiyyəti alt-üst və qarmaqarışıq olan zaman Misirə və onun ətraf bölgələrinə vali təyin edəndə yazdığı əhd-peymanlardandır. Bu, yaxşılıq və xeyirxahlıqlar *(başqalarına kömək etməyin hökmləri, rəiyyətin təşkilatçılığının sirləri, ölkə idarəçiliyinin qaydaları, qoşun çəkməyin yolları və hamıya öyüd-nəsihət)* barəsində yazılaraq toplanmış ən uzun əhdnamədir. (Qeyd)[1]

---

*İbn Abbas deyir: Ey Əmirəl-möminin bu nə işdir? Həzrət buyurur: Namaz qılmaq üçün günəşin günortanı keçib-keçməməsinə baxıram. İbn Abbas deyir: İndi namaz vaxtıdır, halbuki müharibə bizi namazdan saxlayıb?! Həzrət buyurur: Biz onlarla namazdan başqa bir şeyə görə vuruşmuruq. İbn Abbas deyir: O Həzrət heç vaxt, hətta «Hərir» gecəsində gecə namazını tərk etmədi!!*

[1] *Ərəblər göz qapağı çevrilmiş və kirpikləri olmayan şəxsə «Əştər» deyirlər. Həmçinin göz qapağı və ya dodağı yırtıq olan şəxsə də Əştər deyilir. Malik ibn Haris Nəxəiyə (Allah onun ruhunu müqəddəsləşdirsin) Əştər deyilməsi barəsində belə deyilib: Hicrətin on altıncı ilində ərəb qoşunun rum qoşunu ilə müharibəsində Malikin dəbilqəsinə bir gürz vurulur və onun dəbilqəsi parçalanaraq başına səpələnir. Dəbilqənin dəmir parçalarından biri onun gözünü deşir. Ondan sonra ona Əştər ləqəbi verilir. Məhəmməd ibn Əbu Bəkrin hakimiyyəti dövründə Müaviyənin fitnə-fəsad və təxribatları nəticəsində Misirdə vəziyyət qarışanda və bir qrup adam Osmanın qisasını almaq bəhanəsi ilə qiyam edəndə həmin diyarın vəziyyəti barəsində Əmirəl-möminin əleyhis-salama xəbər çatır və o Həzrət buyurur: Misir hökumətinə iki nəfərdən biri layiqdir. Orada ya əvvəllər oradan götürdüyüm Qeys ibn Səd - o, Əli əleyhis-salamın şiələrindən və ən ədalətli şəxslərdən olub - hakim olmalıdır, ya da ora Malik ibn Haris Nəxəi getməlidir. Amma Qeys ibn Səd bu işə meylsiz olduğu üçün Həzrət onu öz işində saxlayır və Nəsibəyndə - Şam və İraq arasındakı şəhərlərdə - olan Malik Əştəri çağırtdırır və onun üçün bu əhdnaməni yazaraq yola düşməyə hazırlaşmasını əmr edir.Malik yola düşməmişdən qabaq İmam əleyhis-salam Misir əhalisinə bundan öncə gətirdiyimiz 38-ci məktubu göndərir. Malik öz qoşunu ilə Misirə doğru*

hərəkət edir. Müaviyə bundan xəbər tutan kimi Misir şəhərlərindən olan «Əriş»in əkinçilərindən birinə xəbər göndərir ki, Əştərə zəhər içizdir, mən səndən iyirmi ilin xərac və vergilərini almayım. Əştər «Əriş»ə çatanda onun balı çox sevdiyini bilən əkinçi, ona bir az zəhərli bal «hədiyyə» gətirir və onun ləzzət və faydalarından danışır. Əştər zəhər qatılmış həmin baldan meyl edir və bal onun qarnına çatmamış həyatla vidalaşır. Bəziləri isə deyiblər ki, o, Misirdən üç günlük yol miqdarında uzaqda olan «Qulzum» şəhərində şəhid edilib və zəhəri ona Osmanın qulu olmuş Nafe yedirdib. Bu böyük şəxsiyyətin şəhid olması xəbəri Müaviyəyə çatanda o, çox sevincək halda camaat içərisində ayağa duraraq belə deyib: «Əli ibn Əbu Talibin iki dostu var idi. Onlardan biri ondan Siffeyn müharibəsində ayrıldı və o, Əmmar ibn Yasir idi ki, öldürüldü. Digəri isə bu gün ayrıldı və o, Malik Əştərdir ki, onun ölüm xəbəri indi gəlib çatdı. O, Misirə getmək üçün yola düşmüşdü və Osmanın qulu Nafe, Yənbə ilə Misir arasındakı Əylə şəhərində onun yanına gəlib. Bir müddət onun qulluğunda olub ki, Əştər ona tam inansın. Sonra «Qulzum» şəhərində ona zəhər qatışdırılmış bal şərbəti içirdib və onun nəticəsində Malik dünya ilə vidalaşıb. «أَلا وَ إِنَّ لِلهِ جُنُداً مِنْ عَسَلٍ» Bilin ki, Allahın «bal qoşunları» var». Digər tərəfdə Malikin şəhid edilməsi xəbəri Əmirəl-möminin əleyhis-salama çatanda, o Həzrət çox kədərlənir, ağlayır və minbərə çıxaraq belə buyurur: « إِنّا للهِ وَ إِنّا إِلَيْهِ راجِعُونَ وَ الْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ اللّهُمَّ إِنِّى أَحْتَسِبُهُ عِنْدَكَ فَإِنَّ مَوْتَهُ مِنْ مَصائِبِ الدَّهْرِ رَحِمَ اللهُ مالِكاً فَلَقَدْ أَوْفى عَهْدَهُ وَ قَضى نَحْبَهُ وَ لَقِىَ رَبَّهُ مَعَ أَنّا قَدْ وَطَّنّا أَنْفُسَنا عَلى أَنْ نَصْبِرَ عَلى كُلِّ مُصِيبَةٍ بَعْدَ مُصابِنا بِرَسُولِ اللهِ ـ صَلَّى اللهُ عَلَيْهِ وَ آلِهِ ـ فَإِنّها مِنْ أَعْظَمِ الْمُصِيبَاتِ» «Biz Allahdanıq və Ona tərəf qayıdacağıq. Həmd, aləmlərin Rəbbi olan Allaha məxsusdur. Allahım, mən Əştərin müsibətini Sənin yanında saya alıram. Çünki onun ölümü dövran və zəmanənin matəmlərindəndir. Allah Malikə rəhmət eləsin. O, öz əhdinə vəfa etdi, ömrünü sona çatdırdı və Rəbbinə qovuşdu. Bütün bunlara baxmayaraq biz əhd etmişik ki, Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) müsibətindən sonra hər bir müsibətə səbr edək. Çünki o, müsibətlərin ən böyüyü idi.» İmam əleyhis-salam sonra minbərdən düşüb evə gedir. Nəxə ağsaqqalları o Həzrətin hüzuruna gəlirlər. O, çox heyfslənirdi və solğun idi. Buyurur: « وَ للهِ دَرُّ مالِكٍ وَ ما مالِكٌ لَوْ كانَ مِنْ جَبَلٍ لَكانَ فِنداً و لَوْ كانَ مِنْ حَجَرٍ لَكانَ صَلْداً أما وَ اللهِ لَيَهِدَّنَّ مَوْتُكَ عالَماً وَ لَيُفْرِحَنَّ عالماً عَلى مِثْلِ مالِكٍ فَلْتَبْكِ الْبَواكِى وَهَلْ مَرْجُوٌّ كَمالِكٍ وَهَلْ مَوْجُودٌ كَمالِكٍ وَهَلْ قامَتِ النِّساءُ عَنْ مِثْلِ مالِكٍ» «Allah Malikə xeyir versin. O, necə Malik idi? Dağ idisə əzəmətli və böyük bir dağ idi! Daş idisə möhkəm bir daş idi. Bilin, Allaha and olsun ki, ey Malik, sənin ölümün bir dünyanı viran və pərt, bir dünyanı isə şad edir». Yəni, Şam əhalisini sevindirir, İraqı isə pərt edir. «Ağlayanlar Malik kimisinə ağlamalıdırlar. Görəsən Malik kimi

## Ruzi verən və bağışlayan Allahın adı ilə

Bu, Allahın bəndəsi Əmirəl-möminin Əlinin Malik ibn Haris Əştəri Misirə, oranın vergilərini yığmaq, düşmənləri ilə vuruşmaq, əhalisinin vəziyyətinin yaxşılaşdırılması ilə məşğul olmaq və şəhərini abadlaşdırmaq üçün vali təyin edən zaman onunla olan əhdindəki əmrləridir.

---

*bir yardımçı görünəcək? Görəsən Malik kimisi var? Görəsən arvadlar Malik kimi olacaq bir uşaq doğacaqlar?»*
*Deyirlər ki: Malikin cənazəsini «Qulzum»dan mübarək Mədinə şəhərinə gətiriblər. Onun nurlu qəbrinin yeri orada tanınır və məşhurdur. Qeyd etmək lazımdır ki, Əştər (Allah ondan razı olsun) ağıllı, şücaətli və alicənab şəxs olmaqla yanaşı səbr, pərhizkarlıq və zahidlik zinətlərinə də malik olub. Nəql edirlər ki, o, bir gün Kufə bazarından keçirmiş. Bez paltar geyinibmiş və başında da elə bezdən əmmamə var imiş. Bazar alverçilərdən biri onu təhqir etmək məqsədi ilə ona yaşıl çubuq atır. Əştər özünü cilovlayaraq ona etina etmir və keçib gedir. Orada olanlardan Əştəri tanıyan bir nəfər həmin alverçiyə deyir: Vay olsun sənə! Kimi təhqir etdiyini bilirsən? O, «yox» deyə cavab verir. Həmin şəxs deyir: O, Malik Əştərdir, Əmirəl-mömininin dostu və köməkçisi. Sonra həmin alverçi etdiyi işin qorxusundan titrəməyə başlayır və üzrxahlıq etmək üçün Əştərin dalınca gedir. Maliki məsciddə namaz qılan halda tapır. Malikin namazını qılıb qurtarmasını gözləyir. O, namazını qılıb qurtardıqdan sonra, salam verərək özünü onun ayağına atıb öpməyə başlayır. Malik onu qaldıraraq deyir: Nə iş görürsən?! Həmin şəxs deyir: Məndən baş vermiş günahın üzrünü istəyirəm, tanımamışdım səni! Əştər deyir: Sən artıq günahsızsan. Allaha and olsun ki, mən məscidə sənin bağışlanmağını istəmək üçün gəlmişdim. Bəli, Malik Əştər gərək belə olmuş olsun və öz nəfsini o qədər cilovlamağı bacarsın ki, nadan bir adam onu təhqir edərək alçaldanda da o cür şücaət və cəsarətə malik olmasına baxmayaraq, halı dəyişməsin. Çünki bütün işlərində öz zəmanəsinin imamının davamçısı idi ki, nəticədə Əmirəl-möminin onun barəsində belə buyurmuşdur: «* **لَقَدْ كانَ لِى مِثْلَ ما كُنْتُ لِرَسُولِ اللهِ** *» «Malik mənim üçün mən Allahın Peyğəmbərinə olduğum kimi idi.» Xülasə, Malik hicrətin otuz səkkizinci ilində həyatla vidalaşıb. Əmirəl-möminin əleyhis-salamın onun mübarək adı ilə bağlı əhdnaməsi isə həmişəlik olaraq, məkanından asılı olmayaraq dünyanın bütün hakimləri üçün təlimat olub.*

Ona pərhizkarlıq edərək Allahdan qorxmağı, Onun hökmlərini üstün tutmağı və Öz kitabında *(Qurani-Kərimdə)* əmr etdiyi vacib və bəyənilmişlərə tabe olmağı əmr edir. Onlara *(həmin vacib və bəyənilmiş şeylərə)* əməl etmədən heç kəs xoşbəxt ola bilməz və hər bir kəs ancaq onlardan boyun qaçıraraq onları ayaq altına salmaqla bədbəxt olar. Həmçinin nöqsan sifətlərdən uzaq və pak olan Allaha *(Onun dininə)* qəlb, əl və diliylə yardım etməsini əmr edir. *(Qəlbində iman və inamı olsun, əli ilə düşmənin qarşısını alsın, dili ilə isə yaxşı işlərə əmr edərək pis işlərdən çəkindirsin.)* Çünki adı uca olan Allah Ona yardım edənə yardım etməyə, Ona *(dininə)* hörmət göstərənə izzət bəxş etməyə zəmanət verib.

Ona əmr edir ki, şəhvət və istəklərin *(tüğyan edən)* zamanında öz nəfsini bassın və baş qaldıraraq itaətsizlik edən vaxt onun qarşısını alsın *(ki, cilov onun əlinə düşməsin və çətinliklərə salmasın)*. Çünki Allahın rəhm etdiyi kimsə istisna olmaqla, nəfs hər bir kəsə pis işlər görməyi əmr edir. (Qeyd)[1]

Ey Malik, sonra bil ki, mən səni səndən qabaq ədalətli və zalım hökmdarları olmuş şəhərlərə göndərirəm. Sən özündən qabaqkı hökmdarların işlərinə necə baxırsansa, xalq da sənin işlərinə həmin nəzərlərlə baxır. Sən onların barəsində nə deyirsənsə, camaat da sənin barəndə həmin şeyləri deyir. Allahın, bəndələrinin dillərində əzbər etdiyi *(yaxşı və pis)* sözlərdən, saleh və yaxşı əməl sahiblərini

---

[1] *İnsan, onun şərindən amanda deyil. Həzrət İmam Musa ibn Cəfər əleyhis-salam öz atalarından rəvayət edib ki, Əmirəl-möminin əleyhis-salam belə buyurub: Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) döyüşçülərdən bir hissəsini müharibəyə göndərmişdi. Onlar qayıdanda o Həzrət buyurdu: Kiçik cihadı sona çatdıran, böyük cihadları isə qalmış dəstənin xoş halına! Onlar dedilər: Ey Allahın Peyğəmbəri, böyük cihad nədir? Buyurdu: Nəfslə olan cihad və mübarizə. Sonra belə buyurdu: Ən yüksək cihad öz nəfsi ilə mübarizə aparan kimsənin cihadıdır.*

tanıyıb bilmək mümkündür. (Qeyd)[1] Buna görə də sənin ehtiyac günü üçün tədarük gördüyün şeylərin ən yaxşısı saleh əməl olmalıdır. Öz nəfsi istəklərinə hakim ol. *(Onların cilovunu əlində saxla ki, səni çətinliklərə salmasın.)* Halal və rəva olmayan şeyləri nəfsinə qıyma, simiclik et. Çünki nəfsə xoşladığı və ya xoşlamadığı şeydə simiclik etmək insaf və ədalətdir. (Qeyd)[2] Rəiyyətlə qəlbən mehriban, xoş rəftarlı və yaxşı ol. (Qeyd)[3] Məbadə onlara qarşı yeməklərini qənimət bilən yırtıcı heyvan (kimi) olasan. Çünki onlar iki dəstədirlər: Ya sənin din qardaşındırlar, ya da yaradılışda sənin kimidirlər ki, ayaqları sürüşür, pisliklərə səbəb olan amillər onlara üz tutur və bilərəkdən və ya səhvən *(bilmədən)* onların əllərinə düşür. Buna görə də *(məsum olan imam və peyğəmbərlərdən başqa heç kəs səhv və xətadan amanda olmadığı üçün hansısa bir hadisə onları bilərəkdən və ya səhvən pis işlərə salanda, onları bağışlamamağın rəva deyil. Belə isə)* Allahın güzəşt edərək səni bağışlamasını istədiyin kimi, sən də güzəşt edib

---

[1] *Əgər dillərə onların yaxşılıqları düşmüş olsa, xalq onları xeyirxah və yaxşı əməl sahibi sayıb onlara dua edəcək. Dillərə adları pis düşmüş olsa isə, onları pis əməl sahibi hesab edib nifrin və qarğış edəcəklər. Buna görə də istər Ömər ibn Əbdüləziz kimi müsəlman, istərsə də Ənuşirəvan kimi kafir olmasından asılı olmayaraq hər bir hökmdar və həmçinin hər bir tayfa başçısı özündən xoş xatirə və yaxşı ad yadigar qoyan işlər görməlidir ki, xalq onun barəsində xeyirli dualar etsin və nəticədə o, əbədi səadəti əldə etsin.*

[2] *Nəfsə qarşı simic olmaq budur ki, sənə rəva olmayan şeyin ətrafına belə fırlanmayasan, hətta əgər onu çox sevsən və hərisi olsan da!*

[3] *Belə olmasın ki, zahirdə dostluq göstərib batinində onlarla düşmən olasan. Çünki bu, rəiyyətin sənin ətrafından dağılmasına səbəb olar, necə ki, Qurani-Kərimin Ali-İmran surəsinin 159-cu ayəsində Həzrət Peyğəmbərə buyurulur: «* **فَبِمَا رَحْمَةٍ مِّنَ اللّهِ لِنتَ لَهُمْ وَلَوْ كُنتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لاَنفَضُّواْ مِنْ حَوْلِكَ فَاعْفُ عَنْهُمْ وَاسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِي الأَمْرِ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللّهِ إِنَّ اللّهَ يُحِبُّ الْمُتَوَكِّلِينَ** *» «Allahın mərhəməti səbəbinə sən onlarla mehriban oldun. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Buna görə də (sənə pislik edəndə) onları əfv et, onlar üçün bağışlanmaq dilə, işdə (müharibə işində) onlarla məsləhətləş, (məsləhətləşdikdən sonra) qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən Allah təvəkkül edənləri sevər!»*

günahlarından keçməklə onları əfv et. Çünki sən onlardan, səni valiliyə göndərən səndən, Allah isə bu hökuməti sənə tapşıran, işlərini yerinə yetirməyini istəyən və səni onlarla sınayandan üstündür. *(Sən onlarla nə cür davransan, O da səninlə elə davranacaq.)* Məbadə özünü Allahla mübarizəyə hazırlayasan *(dinə qarşı çıxaraq xalqa zülm edəsən)* ki, sən Onun qəzəbinə dözə bilməzsən və Onun bağışlamasına və mehribançılıqlarına möhtacsan. Heç vaxt əfv və güzəşt etməkdən peşman, cəzalandırmaqdan şad olma. Düçar olmamağını bacardığın qəzəbə tələsmə. *(İtaətsizlik və qəlbiqaralıq üzündən)* mən məmuram və *(hər nə istəyirəmsə)* əmr edirəm və gərək mənim əmrimi qəbul etsinlər, demə. Bu, qəlbin qaralması, dinin zəifləməsi və nemətlərin dəyişərək zavala uğramasına səbəb olar. Səltənət və hökumət sənə əzəmət və böyüklük və ya lovğalıq və özündənrazılıq gətirən zaman Allahın səndən üstün olan səltənətinə, həmçinin Onun sənə nisbətdə sənin özünün aciz olduğun şeyə qadir olmasına nəzər sal və bax ki, bu baxış *(Onun böyüklüyü barəsində düşünmək və Allahı hər şeyə qalib bilmək)* lovğalıq və itaətsizliyi yatırdar, dikbaşlığının qarşısını alar və səndən uzaqlaşmış ağıl və düşüncəni sənə qaytarar. *(Bu iş barəsində fikirləşmək sənin özünə gələrək lovğalıq və özündənrazılığı özündən uzaqlaşdırmağına səbəb olar.)* Özünü Allahla Onun əzəmətində bir tutmaqdan və qüdrətində özünü Ona bənzətməkdən çəkin. Çünki Allah hər bir itaətsiz lovğanı xar edərək alçaldır. Allahla insaflı davran. *(Onun əmrlərinə əməl edərək qadağan etdiklərindən çəkin.)* Özün, yaxın qohumların və sevdiyin hər bir rəiyyət tərəfindən xalq barəsində insafı əldən vermə. *(Onlara nə özün zülm et və nə də yaxınlarının və dostlarının sənin adınla zülm etmələrinə imkan vermə.)* Əgər belə etməsən zülmkar olarsan. Allahın bəndələrinə zülm edənlə, bəndələrin yerinə Allah düşmən olar. Allah, Onunla düşmən olanın dəlil və sübutunu puça çıxarar *(üzrünü qəbul etməz)*. Həmin kəs *(zülmdən)* əl çəkərək tövbə edib (düz yola) qayıdana kimi Allahla müharibədə olar.

Allahın nemətlərinin dəyişməsində *(əldən çıxmasında)* və Onun tez qəzəbə gətirilməsində *(rəhmətindən uzaq düşülməsində Allahın bəndələrinə)* zülm etməkdən təsirli bir şey yoxdur. Çünki Allah, məzlumların dualarını eşidən və zalımların pusqusunda dayanandır *(onların intiqamını alacaq)*.

Sənin üçün işlərin ən sevimlisi haqda orta yolu tutmaq, onu bərabərlik baxımından ümumiləşdirmək və rəiyyətin şad olmasına daha çox səbəb olan ədalətlilik olmalıdır. (Qeyd)[1] Çünki kütlənin qəzəbi bir neçə nəfərin razılığını məhv edir və kütlənin razılığı müqabilində bir neçə nəfərin qəzəbi əhəmiyyətsizdir. Rəiyyətin valiyə rifah və asayiş zamanı ən ağır yük olanı, çətinliklərdə ən az kömək edəni, ədalət və bərabərlik zamanı ən narazısı, istəklərdə ən çox israr edəni, bəxşiş veriləndə ən az şükr və minnətdarlıq edəni, rədd edəndə üzrü hamıdan gec qəbul edəni, dövranın çətinlikləri müqabilində səbr etməkdə ən zəifi xas təbəqədir. Dinin sütunu, müsəlmanların kütləvi birliyi və düşmənlər müqabilində *(onların hücumlarının qarşısını almağa)* hazır olan *(tezliklə heç bir iş görməyə qadir olmayan bir neçə nəfər xas təbəqə deyil)* xalqın ümumi hissəsidir. Buna görə də gərək onlarla birgə olasan və meyl və rəğbətin onlarla olsun. Rəiyyətin, özündən ən çox uzaqlaşdıraraq düşmən saymalı olduğun adamı camaatın eyblərini danışmaqda israr edəni olmalıdır. Çünki camaatın eyb və nöqsanları var və onları örtməyə ən layiq olan kəs, validir. Buna görə də camaatın sənə gizli olan eyblərini axtarma *(arama)* ki, sənin vəzifən sənə məlum olanları *(onların eyb və nöqsanlarından bildiklərini)* ört-basdır etməkdir. Səndən gizlin olan şeylər barəsində Allah hökm edəcək. Belə isə Allahın, sənin rəiyyətdən gizlətmək istədiyin eyblərini örtməsi üçün bacardıqca eyblərin *(camaatın eyblərinin)* üstünü ört. Camaatdan olan bütün kin düyünlərini aç. *(Qəlbində onlardan kin saxlama.)* Səni

---

[1] *Hər bir işdə ümumi kütlənin xeyrinə olan mövqeyi seç, hərçənd ki, bu azlığa ağır gəlsin və onlar ondan razı qalmasınlar.*

intiqam və cəzaya birləşdirən bütün telləri qır. Sənə görə düz olmayan hər bir şeydə özünü bilməməzliyə vur. Qeybətçi və söz gəzdirəni *(onun dediklərini)* təsdiqləmək və ona inanmaqda tələsmə. Çünki sözgəzdirən özünü öyüd verənlərin simasına salsa da xəyanətkar və hiyləgərdir. *(Buna görə də onun dediklərini tez qəbul etmək sonrakı peşmançılığında heç bir fayda olmayan səhvə səbəb ola bilər.)*

Öz *(işlərin barəsindəki)* məsləhətləşmələrinə xəsis adamı daxil etmə ki, o, səni yaxşılıqdan və bəxşiş verməkdən saxlayar, yoxsulluq və kasıblıqla qorxudar; nə ürəksiz və qorxağı *(daxil et)* ki, o səni işlərdə *(onlara girişməkdə)* süstləşdirər; nə də həris adamı ki, o, *(ehtiyac günü üçün mal toplamaq)* hərisliyinin çoxluğundan *(xalqa)* zülm etməyi sənin nəzərində gözəlləşdirər. Beləliklə, xəsislik, qorxaqlıq və hərislik bir-birindən ayrı müxtəlif xislətlərdirlər ki, Allaha qarşı pis gümanda olmaq onları bir yerə toplayır! (Qeyd)[1]

Sənin vəzirlərinin *(məmləkətin işlərinə təyin edərək nəzər və fikirlərindən istifadə etdiyin kəslərin)* ən pisi səndən qabaq şər və pis əməlli insanların vəziri olmuş və günahlarda *(nalayiq işlərdə)* onlarla şərik və ortaq olmuş vəzirdir. Buna görə də o, *(belə bir adam)* sənin yaxın və xüsusi adamlarından olmamalıdır. Çünki onlar günahkarların köməkçiləri və zalımların qardaşlarıdırlar *(yoldaşlarıdırlar)*. Halbuki sən onların yerinə *(ölkənin işlərində)* onlar kimi gözəl düşüncə və yaxşı icraçılıq bacarığına malik olanlar arasından üzərində onların *(pis və şər adamların hökumətində mürtəkib olduqları)* günah və çirkin əməlləri olmayan, zalıma zülmündə və günahkara günahında yardım etməyərək əlbir olmamış ən yaxşı vəzir tapa bilərsən. Sənin onlara çəkdiyin xərc yüngül

---

*[1] Bu xislətlərin mənşəyi Allaha qarşı pis gümanda olmaqdır. Allah barəsində pis gümanda olan kimsə Onu tanımır. Çünki xəsis adam əgər Onu çox bəxşiş edən bilsə, başqaları ilə münasibətdə simiclik etməz. Qorxaq adam Onu öz qoruyucusu adlandırsa Allahın bəyəndiyi işə girişərək onu yerinə yetirməkdən qorxmaz. Həmçinin həris adam əgər Onu ruzi verən bilsə sərvət toplamağa hərislik etməz.*

*(-çünki onlar sənin verdiyin az neməti çox hesab edib müqabilndə təşəkkür və minnnətdarlıq edərlər)*, onların sənə etdikləri yardım daha gözəl, sənə mehribançılıq üzündən olan meyl və rəğbətləri daha çox və səndən başqası ilə dostluqları daha az olar. Buna görə də onları öz xəlvət *(iş)* və məclislərində yaxın və xüsusi adamlarından et. Gərək sənin yanında onların ən üstünü o vəzir olsun ki, sənə, acı olan həqiqəti çox söyləyir və səni, Allahın Öz dostları üçün bəyənmədiyi danışıq və davranışında az tərifləyir, hərçənd acı söz və sənin istək və arzularını az tərifləmək ürəyinin sıxılmasına səbəb ola bilər. *(Onun acı danışıq və davranışının sənə ağır gəlməsindən və onun bu tərzdə davranmasından şad olmasan da deyilən kimi et.)* Pərhizkar və doğruçulara qoşul *(həmişə onlarla otur-dur)* və onları səni çox tərifləməyə və puç və bihudə işlər görməməyinə *(və deyilməsi münasib olmayan şeylərə)* görə səni sevindirməməyə vadar et, öyrət *(ki, sənin diqqətinin özünə cəlb olunmasına şərait yaratmış olsunlar)*. Çünki tərifləməkdə çox israr etmək insanı özündənrazı edərək itaətsizlik yaradır.

Yaxşı iş görənlə pis iş görən kəs sənin yanında bir səviyyədə olmamalıdır. Çünki bu, yaxşı əməl sahiblərini yaxşılıq etməkdə həvəsdən salar, pis əməlliləri isə pislik etməyə məcbur edər. Onların hər birinə özlərinin seçdikləri şeylə əvəz ver *(yaxşı əməl sahibini mükafatlandır, pislik edəni cəzalandır)*. Bil ki, valinin rəiyyətə yaxşılıq etməsindən, xərclərini yüngülləşdirməsindən və onlardan əsassız inciməməsindən yaxşı heç nə, onun onlara münasibətdə nikbinliyinə səbəb olmur. Buna görə də gərək bu barədə rəiyyətin barəsində nikbin olmağına səbəb olan işlər görəsən. Çünki nikbinlik səndən çoxlu çətinlikləri uzaqlaşdırar. (Qeyd)[1] Sənin ona qarşı nikbin olmağına ən

---

[1] *Buna görə ki, rəiyyət barəsində bədbin olmaq sərtliyə səbəb olur. Sərtlik isə inciklik gətirir. Onlar inciyəndən sonra isə sənin tutduğun vəzifədən kənarlaşdırılmağına çalışacaq, bacardıqca səninlə müxalifət etməyə başlayaraq fürsət axtaracaqlar. Sən də naçar qalıb həmişə*

layiqli kimsə, çox yaxşılıq edərək yaxşı sınadığın şəxsdir. Barəsində bədbin olmağına ən layiqli kimsə isə pis rəftar edərək az sınadığın şəxs olmalıdır. *(Buna görə də onların yardımına ehtiyacın olanda, səndən pislik və sərtlik görmüş şəxsə deyil, ehsan və yaxşılıq etdiyin şəxsə etimad et.)*

Bu ümmətin başçı və böyüklərinin əməl etdikləri, *(camaat arasında)* ülfət və ünsiyyət yaranmasına səbəb olmuş və rəiyyəti *(onun işlərini)* sahmana salmış gözəl adət və qaydanı *(məsləki)* pozma. Keçmiş adətlərdən nəyəsə ziyan vuran ənənə və üsulları icra etmə. Çünki *(əgər belə etsən, bil ki, xeyir əldə etməyəcəksən)* savab və mükafat həmin *(gözəl)* adət və qaydaların kökünü qoyanın, günah isə həmin adətləri pozduğun üçün sənin olacaqdır.

Sənin şəhərlərinin işlərini sahmana salan şeyləri möhkəmləndirmək və səndən qabaqkı insanların bərqərar etdiklərini bərpa etmək barəsində alimlərlə çoxlu müzakirələr və doğruçular, düz əməl sahibləri ilə danışıqlar apar *(ki, nəticədə hökumətin həmişəlik qalsın və rəiyyətin işi layiqli tərzdə yerinə yetirilsin)*.

Bil ki, rəiyyət *(sənin fərmanın altında olanlar)* bir neçə təbəqədən ibarətdir ki, bəziləri *(bəzilərinin işləri)* yalnız digər bəziləri ilə qaydaya, nizam-intizama düşür, bir dəstə, digər dəstəyə möhtacdır. Beləliklə, onların bəziləri *(birincisi, Allahın düşmənlərinin qarşısını almağa hazır olan)* Allah orduları, bəziləri *(ikincisi)* ümumi və xüsusi katiblər, digər bir qismi *(üçüncüsü, şəriət hökmlərini xalq arasında ədalətlə icra edən)* ədalətli qazılar, başqa bir hissəsi *(dördüncüsü)* insaflı və mülayim davranan işçilər *(hökumət məmurları)*, bəziləri *(beşincisi)* himayədə olan cizyə verənlər *(mal, can və namuslarının İslamın pənahında olması üçün vergi verən kafirlər)* və xərac verən *(Allahın haqqını ödəyən)* müsəlmanlar, digər bir qismi *(altıncısı)* tacirlər və sənət sahibləri, başqa bir dəstəsi *(yeddincisi isə)* möhtac və miskinlərdən ibarət aşağı təbəqədir. Allah bu təbəqələrin

---

*onların işləri barəsində fikirləşdiyin üçün qəmgin və kədərli olacaqsan və beləliklə də, rahatlıq və asayaşini itirəcəksən.*

hər birinin pay və səhmini zikr edib, onun vacibi ölçü və miqdarını Öz kitabında *(Qurani-Kərimdə)* və ya Peyğəmbərinin *(səlləllahu əleyhi və alih)* sünnəsində əhd və əmr formasında bəyan edib ki, onlar bizim yanımızda saxlanılaraq qorunub *(həmin ölçü və öhdəçiliklər bizim əlimiz çatan yerdədir)*. Beləliklə, *(bu dəstələrin xeyri budur ki,)* əsgərlər Allahın əmri ilə rəiyyət üçün *(onları düşmənlərin şərindən qoruyan)* qala və istehkam *(kimi)*, valilərin zinət və bəzəyi, dinin izzəti və əmin-amanlıq yollarıdırlar. Rəiyyətin bərqərar olması ancaq onların mövcudluğundan asılıdır. Əsgərlərin nizam-intizam və asayişi isə Allahın onlar üçün müəyyənləşdirdiyi xəracdan *(vacib edilmiş haqdan)* başqa heç nə ilə təmin olunmur. Onlar, onun vasitəsi ilə düşmənləri ilə vuruşmağa güc və qüdrət əldə edirlər və işlərini sahmana salmaqda ona arxalanırlar. O *(xərac)*, onların *(əsgərlərin)* ehtiyacları olan zaman işlədilir. Bu iki dəstənin *(əsgərlər və xərac ödəyənlərin)* dayağı və asayişi isə ancaq üçüncü dəstədən asılıdır ki, o, bağlantılar *(alış-veriş və evlənmə məsələləri)* barəsində hökm çıxaran qazılar, vergi və xərac toplayan məmurlar, ümumi və xüsusi işlərdə etimad edilən *(hesablama işlərini tənzimləyən)* katiblərdən ibarətdir. Bütün bu dəstələrin rahatlıq və asayişi isə ancaq gəlir və xeyirlərini toplayıb bazarlar yaradan və özlərindən başqalarının səy və təlaşlarının qura bilmədiyi işləri quran tacir və sənət sahibləri vasitəsi ilə təmin olunur. Bu dəstələrdən sonra möhtac və yoxsullardan ibarət aşağı təbəqə gəlir və *(varlılara,)* onlara əl tutaraq kömək etmək vacib və lazımdır. Allah yanında bu təbəqələrin hər biri üçün *(yoxsulluq və acizlik deyil)* gen-bolluq, firavanlıq var. *(Buna görə də əgər bəzilərini bəzilərinə möhtac edibsə bu, yoxsulluq və qüdrətin azlığından deyil, hikmət və məsləhətə əsaslanır.)* Bu dəstələrin hər birinin, valinin boynunda, onun işini sahmana salmaq miqdarında haqqı var. Vali Allahın ona vacib etdiyi şeyin öhdəsindən ancaq səy və təlaş etmək, Allahdan yardım istəmək, özünü haqqın

həyata keçirilməsinə hazırlamaq və çətin və asanlığından asılı olmayaraq hər bir işdə səbr etməklə gələ bilər.

Buna görə də *(işlərin icrasına)* əsgərlərindən o adamı təyin et ki, Allah və Onun Peyğəmbəri *(Onların razılığını əldə etmək)* üçün, həmçinin imam və rəhbərin üçün *(ona tabe olmaqda)* daha çox öyüd qəbul edən, daha təmiz ürəkli *(danışıq və davranışında düz)*, daha ağıllı və səbrli olsun. Həmin şəxs gec qəzəblənənlərdən, üzrü *(günahkarın üzrünü)* tez qəbul edənlərdən *(rahatlığı qəzəblənərək üzrü qəbul etməməkdə görən qaba və kobud adamlar kimi olmayanlardan)*, əli altındakılara mehriban, güclü və qüvvətlilərə qarşı isə sərt olub baş əyməyənlərdən, sərtliyin yerindən qopartmadığı *(sərtlik nəticəsində zülm etməyə enməyənlərdən)* və yumşaqlığın *(işlərin icrasında)* yerində oturtmadığı *(vəzifəsini yerinə yetirməkdən saxlamadığı)* kimsələrdən olsun.

Buna görə də şərəfli və nəcib ailələrdən olanlar, *(xalqa xidmət və Yaradana tabe olmaqda)* gözəl keçmişə malik kimsələrlə, həmçinin igidlər, şücaətlilər, səxavətlilər və comərdlərlə otur-dur. *(Ordu və ölkə başçılarını belə adamlardan seç.)* Çünki onlar böyüklük toplusu və yaxşılığın qol-budağıdırlar. Belə isə övladlarına can yandıran valideyn kimi onların işlərinə can yandır. Onlara olan və onları qadir edən yaxşılığın, sənə böyük *(ağır)* gəlməməlidir. Onların müqabilində götürdüyün yoldaşlıq öhdəçiliyini, hətta kiçik olsa da, yüngül saymamalısan *(Onlara həmişə yaxşılıq et, istər az olsun, istərsə də çox. Buna görə də əgər onlara böyük yaxşılıq etmək fürsəti qarşıya çıxsa və sən onu etsən, etdiyin yaxşılığı böyük sanma. Həmçinin əgər kiçik bir yaxşılıq etsən onu kiçik sayıb tərk etmə və yerinə yetir.)* Çünki yaxşılıq onları sənə xeyirxah və xoşbin edər *(və nəticədə əmrlərini lazımınca yerinə yetirərlər)*. Onların böyük işlərini yerinə yetirməyə arxalanmaq və ümid bəsləməklə az əhəmiyyətli işlərdə onlara kömək etməyi, yardım göstərməyi tərk etmə. *(Heç vaxt «mənim kimi böyük işlərdə onlarla birgə olan adam üçün xəstənin halını soruşmağın, yeni dünyaya gəlmiş uşağa görə təbrik deməyin və bu kimi şeylərin elə də əhəmiyyəti yoxdur» demə!)* Çünki sənin kiçik yaxşılığının öz

yeri var və onlar ondan bəhrələnirlər. Eləcə də böyük yaxşılığının da öz yeri var ki, onlar ona da möhtacdırlar. *(Xülasə, kiçik yaxşılığı tərk etmə və onları böyük yaxşılığın intizarında qoyma ki, bu, inciklik və pərişanlığa səbəb olar.)* Gərək qoşun başçılarının ən seçilmişi və üstünü qoşunla *(mal və sərvət)* yoldaşlığında bərabərlik edəni, insaflısı *(malın artığında deyil əsli və mayasında özünü onlarla bərabər biləni-çünki artığından bağışlamağa bərabərlik deyilməz)* və qoşunun düşmənlə döyüşdə yekdil olması *(döyüş zamanı ailələrinin vəziyyətlərinin yaxşı olmamasının qəmini çəkməmələri)* üçün öz imkanatından *(qoşunun onun əlində olan ərzaqından)* asayişdə olmaları miqdarında onlara və ailələrinə ehsan edən kimsə olsun. Çünki sənin onlara qarşı mehribançılığın və kömək etməyin onların qəlblərini sənə doğru yönəldəcək və onları sənə mehriban edəcək. (Qeyd)[1] Valiləri şad edən ən gözəl şey şəhərlərdə ədaləti bərqərar etmək və rəiyyətin arasında məhəbbəti üzə çıxarmaqdır. Onların məhəbbəti ancaq sinələrinin *(qəzəb və kindən)* salamat qalması ilə üzə çıxır. Onlar valilərin qorunmasını istəmələri, onların ətrafında olmaları, hakimiyyətlərini ağır saymamaları və onların *(hökumət)* müddətinin başa çatmasını gözləməməkdən başqa heç bir şeylə *(sağlam sinə ilə)* xeyirxah olmurlar. Buna görə də onların arzularını yerinə yetir. Onları yaxşı yad et və sınaqdan keçib əziyyət çəkənlərin çalışqanlıqlarını dilə gətir. Çünki onların yaxşı iş görənlərini yad etmək şücaət sahibini həyəcanlandıraraq hərəkətə gətirər və Allahın istəyi ilə oturanı *(işdən qalanı)* həvəsləndirər *(yenidən işə başlamağa sövq edər)*.

Buna görə də onların hər birinin zəhmət və işini onun özü üçün hesab et və birinin zəhmətini digərinə nisbət vermə *(ki, zəhmətkeş, valinin ədalət və insafına bədbin olmasın və*

---

[1] *Bəli, əgər başçı öz qoşun başçılarını əsgərlərlə bərabərlik edərək onların gündəlik və aylıq paylarını vaxtında verməyə vadar etsə, hamı onun tərəfdarı olar. Belə olmayan surətdə isə onların qəlbləri başçıdan dönər və ölkənin işlərinin pozularaq geriləməsinə səbəb olar.*

*həmçinin başqaları da böyük işlərə girişsinlər)*. O, işini sona çatdıranda onu mükafatlandırmaqda səhlənkarlıq etməməlisən. Həmçinin kiminsə böyüklüyü səni onun kiçik zəhmət və işini böyük hesab etməyə, eləcə də birinin kiçikliyi onun böyük zəhmət və işini kiçik saymağa vadar etməməlidir. (Qeyd)[1]

Aciz qaldığın çətin işləri, sənə şübhəli görünən *(Allahın, onun barəsində olan hökmünü bilməkdə çaş-baş qaldığın)* işləri Allaha *(Onun kitabına)* və Onun Peyğəmbərinə *(onun sünnəsinə)* həvalə et. Çünki nöqsan sifətlərdən pak və təmiz olan Allah *(Qurani-Kərimin Nisa surəsinin 59-cu ayəsində)* hidayət etmək istədiyi dəstəyə belə buyurub: « يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ فَإِن تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللّهِ وَالرَّسُولِ» «Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə *(imam, rəhbər və Həzrət Peyğəmbərin haqq olan xəlifə və canişininə)* itaət edin. Əgər bir iş barəsində mübahisə etsəniz *(ixtilafa düçar olsanız)* onu, Allaha və Peyğəmbərə həvalə edin *(belə hallarda onlara müraciət edin, nəfsi istəklər üzündən hökm çıxarmayın ki, bu məhvə səbəb olar)*.» Deməli, Allaha müraciət etmək Onun kitabından «möhkəm» olanları *(mənasında şübhə və tərəddüd olmayanları)* götürmək, Peyğəmbərə müraciət isə onun təfriqə yaratmayan və birləşdirici olan sünnəsini(Qeyd)[2] *(hökmlərini)* götürməkdir.

Beləliklə, xalq arasında qəzavət və hakimlik üçün rəiyyətin ən yaxşısını seç. Eləsini ki, işlər ona çətin gəlməsin *(hər bir hökmün öhdəsindən gəlsin və aciz qalmasın)*, çəkişməyə düşmüş kəslər dava və qalmaqal barəsində öz nəzərlərini ona qəbul etdirə bilməsinlər, mütəmadi olaraq səhvə yol verməsin, haqqı dərk edəndə ona qayıtmaqda aciz

---

[1] *Çünki bu cür rəftar etmək ədalətə ziddir və iş görənlərin işləri yerinə yetirərək həvəsdən düşmələrinə səbəb olur.*

[2] *Məqsədi məlum olmayan və parçalanma yaradan deyil, ixtilafları aradan qaldıran və hamını fikir və düşüncədə birləşdirən sünnə (nəzərdə tutulur).*

qalmasın *(özü öz səhvini başa düşəndə və ya başqası onu səhvindən xəbərdar edəndə inadkarlıq göstərərək öz səhvinə israr edən deyil, ondan qayıdan olsun)*, nəfsi tamah və hərisliyə meylli olmasın *(-çünki tamahkar olsa düzgün hökm çıxara bilməz)*, lazımınca düşünmədən az anlayışla kifayətlənməsin *(bəlkə gərək araşdırma aparsın və axıra kimi lazım olan şeyi əldə etsin)*, şübhəli məqamlarda dayanaraq hamıdan çox götür-qoy etsin *(şübhəli işlərdə həqiqəti əldə etməyincə hökm çıxarmasın)*, dəlil və sübutları hamıdan çox öyrənib mənimsəsin, şikayətçilərin müraciətlərindən hamıdan az bezsin, işlərin aydınlaşdırılmasında *(olan əziyyətlərə)* hamıdan çox təmkinli və dözümlü olsun, hökm aydınlaşanda hamıdan qətiyyətli olsun *(məsələnin həqiqətini dərk edən kimi tez onun hökmünü çıxarsın və hökmü gecikdirməsin və mübahisə edən tərəflərin məəttəl qalmalarına səbəb olmasın)*, çox tərifləmək onu xudbinliyə düçar etməsin və məcburiyyət və kələk onu *(iki tərəfdən birinə)* meylli etməsin. Bu sifətlərlə zinətlənmiş hakimlər az ələ düşürlər. *(Onları tapmaq üçün çox çalışmaq lazımdır.)* Bundan sonra onun çıxardığı hökmlərdən ətraflı xəbər tut, yoxla. *(Məbada o, sonra düzəldə bilmədiyin səhvə yol vermiş olsun.)* Ona o qədər bəxşiş et və yaşayışını elə gen-bol təmin et ki, üzr və bəhanə gətirməsinə yer qoymasın və həmin bəxşiş səbəbindən xalqa ehtiyacı az olsun *(və rüşvət almağa heç bir bəhanəsi qalmasın, işlərində düzgün və doğru hökm çıxarsın)*. Öz yanında ona elə bir məqam və böyüklük ver ki, yaxınlarından başqa birisi onun *(aradan götürülməsi)* tamahına düşməsin və o, sənin yanında camaatın gözlənilmədən onu puç etməsindən qorxusuz və xatircəm olsun. (Qeyd)[1] Beləliklə, qazıları seçmək və onlar üçün saydığım sifətlər barəsində hərtərəfli fikirləş. Çünki bu din şər və pis əməlli adamların əlində əsir olub, onunla nəfsi istəklər əsasında davranılıb və onun vasitəsi ilə dünya istənilib.

---

[1] *Çünki qazının düşməni və paxıllıq edəni çoxdur. Əgər onun sənin yanında məqam və ehtiramı olmasa o, rahat və asudə olmayacaq və düzgün hökmü bəyan etməkdən qorxacaq.*

Sonra məmur və icraçılarının işlərinə nəzər sal, diqqət et. Onları sınaqdan keçirdikdən sonra işə təyin et. *(Onların dindarlıq, düzlük və doğruluğunu sınamıyınca bir işə təyin etmə.)* Onları öz istəyinlə, onlara kömək məqsədi ilə və özbaşına *(məsləhətləşmədən)* bir işə göndərmə. Çünki kimisə öz istəyinlə və özbaşına hər hansı bir işə təyin etmək *(rəiyyətə)* zülm və xəyanət budaqları toplumudur. (Qeyd)[1] Onları sınanılmışlardan, nəcib və ləyaqətli ailələrdən olan həyalılardan və İslamda öncül olanlardan istə *(təyin et)*. Çünki onlar gözəl əxlaq və xasiyyətə, düzgün namus və şərəfə *(özlərinə ar və bədnamlıq rəva bilməzlər)*, az tamaha və işlərin sonunu görməkdə düzgün fikrə *(uzaqgörənliyə)* malikdirlər. Sonra onların ərzaq paylarını gen-bol ver. Çünki bu iş onlara özlərini islah etməkdə *(xasiyyətlərini yaxşılaşdırmaqda)* qüvvət verir və əllərində olanları *(müsəlmanların mallarını)* yeməyə ehtiyac duymurlar. Həmçinin əgər əmrinə tabe olmasalar və ya əmanətinə xəyanət etsələr, bu, sənin onlara qarşı dəlil və sübutundur. (Qeyd)[2] Sonra onların işlərini təftiş et, yoxla. Onlara doğruçu və vəfalı müfəttişlər göndər. Çünki sənin onların işlərini gizlin şəkildə yoxlamağın onların düz və rəiyyətlə yumşaq və mülayim davranmağa məcbur olmalarına səbəb olar. *(Əgər vali onların işlərinə nəzarət etməsə, onlar ədalət və insaf çərçivəsindən kənara çıxar və xalqa zülm edərlər)*. Özünü *(xəyanətkar)* yardımçı və köməkçilərdən qoru. Əgər onlardan biri xəyanət və nadürüstlük etsə və müfəttişlərinin onun xəyanəti barəsindəki xəbərləri bir-biri ilə üst-üstə düşsə,

---

[1] *Ona görə ki, əgər hakim özbaşına, məsləhətləşmədən, sınamadan nəfsi istəklərə qapılaraq kimlərisə hər hansı bir işə təyin edibsə, ədalət və insafa zidd bir hərəkət edib və xalqın əmanətinə xəyanət edib.*

[2] *Əgər sən onların qarınlarını tox etsən və onlar göstərişlərini yerinə yetirməsələr, yaxud əmanətinə xəyanət edib rüşvət alsalar onları cəzalandırmaq istəsən heç bir bəhanə gətirə bilməzlər.*

həmin xəbərlərlə kifayətlən. (Qeyd)[1] Buna görə də gərək ona bədən cəzası verəsən və onu əməlinə görə tənbih edəsən. Sonra onu dəyərsiz və xar et, ona xəyanət damğası vur və töhmət və bədnamlıq arını *(boyunduruq kimi)* boynundan as *(ki, nadürüst insanlar üçün ibrət olsun)*.

Vergi işində vergi verənlərin xeyrinə araşdırma apar. Çünki verginin və vergi verənlərin xeyrində başqalarının dinclik və rahatlığı var. Başqalarının dinclik və rahatlığı ancaq vergi verənlərin vasitəsi ilə təmin olur. Çünki camaatın hamısı verginin və vergi verənlərin çörəkyeyənləridir. *(Buna görə də əgər vergi və vergi verənlərin işləri düz olsa camaat rahatlıq və asayişdə olar. Amma bu məsələyə etina etməsən hamı çətinliyə düşər.)* Sən vergi almaqdan çox *(vergi alınan)* yerlərin abadlığına diqqət yetirməlisən. Çünki vergi ancaq abadlıqla əldə edilir. Abadlıq yaratmadan vergi tələb edən kəs şəhərlərinin viranlığına və bəndələrin məhvinə başlayıb və onun işi ancaq qısa müddət davam edər. Buna görə də əgər vergi verənlər *(müəyyənləşdirilmiş verginin)* ağırlığından, *(məhsula dəymiş)* xəstəlik və bəladan, su payının kəsilməsindən *(kəhrizlərinin tutulmasından və ya hovuzu və çayın bəndini selin aparmasından və bu kimi şeylərdən)*, yağış yağmaması və şeh düşməməsindən, suyun *(sel və bu kimi şeylərin)* örtdüyü yerin dəyişməsindən və ya susuzluğun *(əkinləri)* məhv etməsindən şikayətlənsələr onların vergilərini işlərinin düzələrək yaxşılaşacağına ümid bəslədiyin qədər yüngülləşdir. (Qeyd)[2] Onların yüklərini yüngülləşdirmək sənə ağır gəlməməlidir. Çünki onlara etdiyin bu güzəşt bir

---

[1] *Bu cümlə bəlkə də buna işarədir ki, dövlət işində şəhadət vermək üçün müctəhidlərin şəriət məsələlərində şahid üçün şərt hesab etdikləri müəyyən say və ədalət şərt deyil.*

[2] *Mərhum şərhçi Molla Məhəmmədsalih Qəzvini burada belə buyurub: Bu kəlam verginin ancaq şəriətdə müəyyənləşdirilmiş zəkat olmamasına dəlalət edir. Həmçinin məlum olur ki, o, torpaq, su və başqa şeylər üçün müəyyənləşdirilmiş vergidir və onun miqdarı barəsində zamanın tələbi əsasında fərq qoyulur və bu ancaq İslamın pənahında olan qeyri-müsəlmanlara aid deyil.*

ehtiyatdır ki, onu şəhərlərin abadlığı və hökumətinin zinətləndirilməsi ilə sənə qaytaracaqlar. Həmçinin onların nikbinlik və təriflərini özünə cəlb edəcəksən və aralarında haqq-ədaləti bərqərar etməyindən şad və məmnun olacaqsan. Eyni zamanda onların yanında tədarük gördüyün şeylərlə - onlar üçün yaratdığın asayişlə, öz ədalətinlə qazandığın inamları ilə və etdiyin mülayimliklərlə güclərinin artmasına arxalanacaqsan. Beləliklə, qarşıya elə hadisə çıxa bilər ki, etdiyin yaxşılıqdan sonra onu onlara tapşırarsan və onlar onu sevinclə yerinə yetirərlər. Çünki abad məmləkətə hər nə yükləsən çəkə bilər *(və bu, rəiyyətin vəziyyətinin yaxşılığı və onların öz hakimlərinə inam və etimadları nəticəsində mümkündür).* Yer həmişə, əhalisinin yoxsulluğu üzündən viran olur. Rəiyyətin yoxsul və pərişan olmasının səbəbi isə hökmdarların ancaq *(mal-sərvət)* toplamaq fikrində olmaları, *(hökumət və başçılıqda)* qalmağa bədbinlikləri və hadisələr, ibrətlər və dövranın gedişi barəsindəki düşüncələrdən az bəhrələnmələridir.

Ondan sonra katiblərinin vəziyyətinə nəzər sal və onların *(davranış və danışığı düz olanının)* ən yaxşısını işə təyin et. *(Düşmənin qarşısını almaq və dövlətçilik barəsindəki)* plan və sirlərini açıqladığın məktubları elə adama həvalə et ki, *(dindarlıq, əmanətə sadiqlik, xeyirxahlıq, təmizlik və bu kimi)* bütün bəyənilmiş xüsusiyyətlərdə digər katiblərdən zəngin olsun. (Qeyd)[1] Elə bir adamı ki, məqam və böyüklük onu, camaatın və böyüklərin hüzurunda sənə qarşı çıxmaqdan çəkinməmək həddinə qədər cürətləndirməsin, qafillik və unutqanlıq məmurlarının məktublarının sənə çatdırılmasında və onlara sənin tərəfindən gözəl cavab verilməsində, eləcə də sənin üçün aldığı və sənin tərəfindən bağışladığı şeylərdə səhlənkarlıq etməsinə səbəb olmasın,

---

[1] *Çünki hökumət sirlərindən hamıdan çox xəbərdar olan kəs, bəyənilən sifətlərə malik olmalıdır. Belə olmasa kiçik bir istək və məqsədə görə müharibədə qoşunun məğlubiyyətinə və ölkənin işlərinin ziyanına şərait yarada bilər.*

sənin xeyrinə olan müqaviləni süst bağlamasın *(onu möhkəm və tutarlı yazsın)*, sənin zərərinə bağlanmış müqavilənin düyününü açmaqda aciz olmasın və işlərdə öz yerini və qədir-qiymətini bilsin. Çünki öz məqam və işini bilməyən kəs başqasının yerini və işini heç bilməz. *(Deməli, dövlət və hakimin xüsusi katibi öz rütbə və qədrini bilməlidir ki, hər bir kəsin məqam və işinə də bələd olsun.)* Bir də onları öz ayıq-sayıqlığın, inamın və nikbinliyinə əsaslanaraq (işə) təyin etməməlisən. Çünki insanlar *(işçi və məmurlar)* vali və hökmdarların ürəklərini ələ almaq üçün özlərini bəzədilmiş və yaxşı xidmət edən kimi tanıtdırırlar. *(Özlərindən əmanətə sadiqlik, nəfs paklığı və xeyirxahlıq biruzə verir və validən eyb və pisliklərini gizlədirlər ki, onu aldadaraq inam və nikbinliyini qazansınlar və divan işlərinə keçsinlər.)* Halbuki *(onlarda)* özlərindən biruzə verdikləri və özlərini bəzədikləri şeylərin arxasında xeyirxahlıq və əmanətə sədaqətdən əsər-əlamət yoxdur. Lakin onları səndən qabaqkı yaxşılar üçün gördükləri işlərdə sına. Sonra onların xalq arasında tanınmışlarının ən yaxşılarını və əmanətdə məşhur və adı dillərdə olanların ən düzünü seç. Sənin bu sınağın Allaha və işləri sənə tapşıran kəsə *(İmam əleyhis-salama)* tabe olmağına bir dəlildir. İşlərinin hər biri üçün katiblərindən bir rəis və müdir təyin et ki, işlərin böyüklüyü onu məğlub və aciz, çoxluğu pərişan etməsin. Əgər katiblərində bir eyb və nöqsan olsa və sənin ondan xəbərin olmasa, həmin pisliyə görə səndən də yapışarlar. *(Onun məsuliyyəti səninlədir.)*

Sonra tacirlər və sənət sahibləri barəsindəki tapşırıqları qəbul et və *(öz məmurlarına)* onlara yaxşılıq etməyi tapşır *(ki, onların mal və sərvətinə tamah salıb bəhanə gətirərək onları incitməsinlər və həvəsdən salmasınlar)*, istər onların *(bir şəhərdə alıb-satanı və ya şəriki başqa yerdən göndərən və o, şəhərdə qalıb satan)* məskunlaşaraq oturaq salanı olsun, istər öz mal və sərvəti ilə get-gəl edəni, istərsə də öz bədəni *(fiziki əməyi)* ilə fayda verənlər *(öz əl-qolları ilə xalqın ehtiyacı olan şeyləri hazırlayan sənətkarlar)*! Çünki onlar mənfəət amili və mənbəyidirlər və malı sənin hakimiyyətinin əhatə

dairəsində olan səhra, dəniz, düzənlik və dağlıqların çətin yollar və uzaq nöqtələrindən - camaatın toplaşmadığı və getməyə cürət etmədiyi yerlərdən gətirənlərdir. Beləliklə, tacirlər sərtlik qorxusu olmayan asudəlik, həmçinin şər və pislik gözlənilməyən sülh və barışıq adamlarıdır. Özün olan yerdə və şəhərlərinin kənar-bucağında onların işlərini yoxla. *(Uzaq və yaxın yerlərdən onların rahatlığını istə ki, onlara bir zülm və sitəm olmasın.)* Onlar barəsində olan bütün tapşırıqlarla bərabər bil ki, onların çoxunda hədsiz hərislik, çirkin və xoşagəlməz xəsislik, baha satmaq üçün möhtəkirlik *(malları yığıb saxlamaq)* və istədiyi kimi qiymət qoymaq *(xisləti)* var. Onların bu işləri xalqa ziyan dəyməsinə səbəb olur və bu, valilərə nöqsandır. Buna görə də möhtəkirliyin qarşısını al. Çünki Allahın Peyğəmbəri *(səlləllahu əleyhi və alih)* onu qadağan edib. *(Möhtəkirliyin qayda-qanununları və onunla bağlı məsələlər fiqh kitablarında açıqlanıb.)* Alış-veriş gərək asan, əyər-əskiyi olmayan tərəzilərlə elə qiymətə aparılsın ki, satana və alana zülm və haqsızlıq olmasın. (Qeyd)[1] Beləliklə, sənin qadağa qoymağından sonra möhtəkirlik edəni cəzalandır, elə cəzalandır ki, onun rüsvay olmasına *(və başqalarının ibrət götürmələrinə)* səbəb olsun. Amma həddini keçməsin. (Qeyd)[2]

Sonra çarəsiz, aciz, yoxsul və möhtaclardan, eləcə də çətinlik, xəstəlik və zəifliyə düçar olmuşlardan ibarət aşağı təbəqə barəsində Allahdan qorx, Allahdan qorx! Çünki bu təbəqə içərisində həm həqirlik və biçarəliyini üzə çıxarıb istəyənlər, həm də bəxşişə möhtac olmasına baxmayaraq, *(nəfsi pak olduğu üçün)* onu zahirdə bildirməyənlər var. Allahın

---

[1] *Şərhçi Qəzvini (rəhiməhullahu əleyh) burada belə buyurub: Bu kəlamın zahiri mənası budur ki, vali onları, tərəflərin heç birinə zülm olmaması üçün müəyyən qiymətə məcbur edə bilər.*

[2] *Cəza günahdan artıq olmasın. Bu, camaatın təbəqələrinə nisbətdə fərq edir. Ola bilər ki, azacıq danlaq kimsə cəza olsun. Həmçinin ola bilər ki, kimsə həbs və işgəncə ilə də ayılaraq özünə gəlməsin. Belə olan halda, hər bir kəsin cəzasının müəyyənləşdirilməsi valinin öhdəsinədir.*

razılığını qazanmaq üçün Onun Öz haqqından, onlar barəsində sənə əmr etdiyini yerinə yetir və əlində olan beytülmalın bir hissəsini, eləcə də hər bir şəhərdə İslamın qənimət *(yolu ilə)* aldığı yerlərin taxıl və məhsulunun bir qismini onlara ayır. Çünki onların ən uzaqda olanı ən yaxında olan qədər pay və bəhrəyə malikdir. (Qeyd)[1] Səndən onların hər birinin hüquqlarına riayət etmək istənilib. Buna görə də şadlıq itaətsizliyi və naz-nemətə qərq olmaq səni onların halını bilməkdən saxlamasın. Çünki sən, barəsində səy və diqqətin çox olan böyük işləri möhkəmləndirməyin üçün kiçik işləri əldən çıxartmağa görə üzrlü sayılmırsan. Buna görə də səyini onlardan *(işlərini düzəltməkdən)* əsirgəmə və itaətsizlik səbəbindən onlardan üz döndərmə. Onların *(yoxsul və zəiflərin)* - gözlərin *(camaatın)* xar və həqirliklə baxdığı, xalqın kiçik saydığı kimsələrin - sənə əli çatmayanlarının işləri ilə maraqlan, araşdır. (Qeyd)[2] Beləliklə, onlar *(onların vəziyyətləri ilə maraqlanaraq araşdırma aparmaq)* üçün özünün *(Allahdan)* qorxan və təvazökar olan inanılmış nümayəndəni təyin et ki, onların işlərini sənə çatdırsın. Sonra onların barəsində elə işlər gör ki, *(qiyamətdə)* Allaha qovuşacağın *(Onun hesab və araşdırma aparacağı)* gün üzrünü qəbul etsinlər. Çünki onlar rəiyyət arasında ədalət və insafa başqalarından daha çox möhtacdırlar. *(Ona görə ki, onlar öz haqq və hüquqlarını qorumaq qüdrətinə malik deyildirlər.)* Beləliklə, onların hər birinin haqqını əda etməkdə Allah yanında dəlil və sübuta malik ol *(ki, heç bir məsuliyyət*

---

[1] *Onların hamısı beytülmaldan və müsəlmanlarla müharibə edənlərdən alınmış yerlərin taxılından bəhrələnirlər, istər uzaqda olsunlar, istər yaxında. Onların, özlərini sənə çatdıraraq öz paylarını almaq imkanları olmadığı üçün sən onların haqlarını vermək üçün olduqları şəhərə məmur göndər ki, heç kəs məhrum və ümidsiz qalmasın.*

[2] *Çünki qapıçılar yoxsul və zəiflərə alçaldıcı və həqirlik gözü ilə baxırlar və onları valinin yanına çox az hallarda buraxırlar. Buna görə də sən onlar üçün elə bir iş gör ki, öz istəklərini heç bir qorxu olmadan və çətinliyə düşmədən sənə bildirsinlər və nəticədə heç kəs zülmə məruz qalıb ümidsizləşərək səndən Allah-təalaya şikayətlənməsin.*

*daşımayasan). (Az yaşlı)* yetimləri və çarəsiz və *(zəiflik ucbatından)* özlərini xahişə hazırlamamış yaşlı qocaları öhdənə götür. Dediklərimiz *(və sənin üçün proqram kimi müəyyənləşdirdiyimiz şeylərə əməl etmək)* valilərə ağır və çətindir. *(Ümumiyyətlə)* haqqın hamısı ağırdır. Bəzən Allah onu gözəl mükafat və nicat axtaranlara, özlərini səbrə vadar edənlərə və Allahın vəd etdiyinin *(əbədi Cənnətin)* düzlüyünə inananlara yüngülləşdirər *(sonra onlar onu asanlıqla icra edərlər).*

Vaxtının bir hissəsini sənə ehtiyacı olanlara ayır və həmin vaxt özünü onlar üçün *(onların istəkləri ilə məşğul olmağa)* hazırlayaraq ümumi məclisdə otur *(ki, zəif və biçarələrin sənə əlləri çatsın)*. Beləliklə, səni yaradan Allaha *(Onun razılığını əldə etməyə)* görə *(onlarla)* təvazökar ol. Öz gözətçi və qarovulçularından olan əsgər və qapıçılarını *(onlara mane olmaqdan)* saxla ki, onların nümayəndələri kəkələmədən, qorxub çəkinmədən danışsın *(ehtiyacını istəsin)*. Çünki mən Həzrət Peyğəmbərin *(səlləllahu əleyhi və alih)* dəfələrlə belə buyurduğunu eşitmişəm ki: «Heç bir ümmət, zəifin haqqı güclüdən kəkələmədən, qorxub çəkinmədən alınmayınca paklaşmaz, ülviləşməz». Sonra onların sərtlik, kobudluq və söhbət qaydalarını bilməmələrinə döz və üzə vurma. (Qeyd)[1] Tündlüyü *(pis xasiyyətliliyi)* və özünü bəyənməyi *(onlarla oturub durmaq və danışmağı özünə sığışdırmamağı)* özündən uzaqlaşdır ki, Allah rəhmət qapılarını sənin üzünə açsın və itaət və tabeçilik mükafatını sənə əta etsin. *(Onlardan birinə bir şey vermək istəyəndə)* bağışladığın şeyi xoş üzlə bağışla *(ki, o, istəyənin də ürəyinə yatsın)*. Həmçinin *(əgər onun istəyini yerinə yetirməyə gücün çatmasa və ya onu yerinə yetirməyi məsləhət bilməsən, əsirgədiyin şeyi)* mehribançılıq və üzrxahlıqla əsirgə *(ki, o, səndən inciməsin və qəlbində sənə qarşı kin saxlamasın)*.

---

[1] *Çünki ehtiyac sahiblərinin çoxu iztirablı və söz danışmaqda acizdirlər. Əgər vali yaxşı xasiyyətli və təmkinli olmasa onların işləri düzəlməz.*

İşlərinin içərisində bəziləri də var ki, onları gərək sən özün yerinə yetirəsən. Onlardan biri məmurlarına *(onların mətləblərinə)* katiblər aciz qalanda *(özlərindən cavab verə bilməyəndə)* cavab verməkdir. *(Həmin işlə əgər vali şəxsən məşğul olmasa katib və məmurlarının məəttəlçiliklərinə səbəb olar.)* O işlərdən *(digər)* biri camaatın, *(çoxluğuna görə)* köməkçilərinin *(məmurlarının)* darıxmasına səbəb olan istəklərini sənə çatan gün yerinə yetirməyindir *(onlara cavab verməyindir. Məmurlar öz rahatlıqları üçün həmin işləri dala atmaq istədikdə onlara sən özün baxmalı və onları təxirə düşməyə qoymamalısan)*. Hər günün işini həmin gün gör. Çünki hər günün özünə məxsus işi var. (Qeyd)[1] Vaxtın ən gözəl və fəzilətlisini özünlə Allah arasında olan şeylər *(ibadət və bəndəlik)* üçün müəyyənləşdir, ayır. *(Məsələn, namazı bütün işləri yerinə yetirib qurtardıqdan sonra yorğun və həvəssiz deyil, ilk vaxtda, qıvraq və enerjili vaxtında qıl.)* Hərçənd ki, əgər onda niyyət və məqsəd pak və rəiyyət ondan asayişdə olsa *(xalqın işinə həsr etdiyin)* vaxtların hamısı Allaha məxsusdur.

Ancaq və ancaq Allaha görə olan vacib əməllərin yerinə yetirilməsi, gərək dinini Allah üçün xalisləşdirdiyin xüsusi vaxtda olsun. *(Vaxtın ən yaxşısını ibadətə həsr etmək lazım olduğu kimi, ibadət vaxtlarının ən yaxşısını da vacib ibadətlərin yerinə yetirilməsində sərf etmək lazımdır.)* Beləliklə, gecə və gündüzündə *(onların bir hissəsində)* bədənini Allahın ixtiyarında qoy *(Ona ibadət et)*. Vasitəsi ilə Allaha yaxınlaşdığın şeyə *(vacib əmələ)* vəfalı ol. Çalış ki, *(soyuq havada dəstəmaz almaq və isti havada oruc tutmaq kimi şeylər)* bədənini əzginləşdirsə də, onları kamil şəkildə, eyb və nöqsansız *(riyasız, özünü göstərmək və başqalarının diqqətini cəlb etmək məqsədi olmadan)* yerinə yetirəsən. Namazını camaatla qılanda *(camaat namazında, onu uzadaraq)* xalqı özündən uzaq

---

[1] *Ona görə ki, əgər qafil olub bu günün işini sabaha, sabahın işini isə o biri günə saxlasan, işlər çoxalacaq və sən onların öhdəsindən gəlməyəcəksən, xalq məəttəl olub işdən qalacaq və nəticədə ölkə məhv və xarab olacaq.*

və incik, namazı isə *(vacib yerlərini tərk etməklə)* zay və xarab etmə. Çünki camaat içərisində əlil, xəstə, möhtac və işi olan var *(ki, əlil və xəstənin namazı uzatmaq taqəti və gücü, işi olanın isə vaxtı yoxdur)*. Allahın Peyğəmbəri (*səlləllahu əleyhi və alih*) məni Yəmənə göndərəndə soruşdum ki, onlarla necə namaz qılım? Buyurdu: «Onlarla ən zəif və acizləri kimi namaz qıl və möminlərə qarşı mehriban ol!»

Bu göstərişlərdən sonra məbada özünü rəiyyətin gözündən çox gizlədəsən. Çünki valilərin rəiyyətə görünməməsi sıxıntı *(qanısoyuqluq)*, az elmlilik və işlərdən xəbərdar olmamağın bir hissəsidir. (Qeyd)[1] Həmçinin valilərin rəiyyətə görünməməsi *(ölkə və rəiyyətin vəziyyəti barəsində)* onlara gizli olan şeylər haqqındakı məlumatları örtülü saxlayır. Beləliklə, *(belə olan halda, bəzən)* valinin yanında böyük iş kiçik, kiçik iş isə böyük, gözəllik çirkinlik, çirkinlik isə gözəllik görünər və haqq və düzlük batil və nadürüstlüyə qarışar. Vali də adi bir insandır ki, xalqın ondan gizlədilən işlərindən xəbərdar ola bilmir. Haqqın da elə bir əlamətləri yoxdur ki, onların vasitəsi ilə düzlə yalanın növləri tanınsın. Sən iki adamdan birisən: Biri budur ki, haqq və düzlüyü əda etməkdə səxavətli və əliaçıqsan. Belə olan halda, vacib haqqı əda etməyin və ya gözəl iş görməyin üçün üzə çıxmamağının səbəbi nədir? Yaxud da sən bərk və bəxşiş etməyən bir adamsan. Belə olan halda, *(yenə də görünməməyə bir dəlil yoxdur, çünki)* tezliklə xalq səndən bir şey istəməkdən əl çəkər. Çünki sənin bəxşişindən naümid olar. Halbuki xalqın səndən istəklərinin çoxu xərc və zəhməti olmayan - *(onlara edilmiş)* zülmdən şikayətlənmək *(və onun qarşısının alınmasını səndən istəmələri)*, yaxud davranış və rəftarlarda insaflı və ədalətli olmağı istəmək kimi şeylərdir.

---

[1] *Çünki valilər xalqla oturub-durmaq və söhbət etməklə ölkə və rəiyyətin halından xəbərdar olurlar. Amma əgər tək otursalar işlərin sir və rəmzlərinin çoxunu dərk edə bilməzlər.*

Sonra *(bil),* valilərin bəzi yaxınları və qohumları var ki, özbaşınalıq, itaətsizlik, *(xalqın malına)* əliuzunluq və insafsızlığa adət ediblər *(və rəiyyəti çətinlik və əziyyətə salırlar).* Həmin sifətlərə səbəb olan amilləri kəsib uzaqlaşdırmaqla onların *(şərlərinin)* kök və əsaslarını qurut. *(Ədalətli ol və ölkənin daxili vəziyyətindən xəbər bil ki, onlar sənin ədalətsizlik və xəbərsizliyindən özbaşınalıq, əliuzunluq və insafsızlıqlarına vasitə kimi istifadə edib rəiyyəti incitməsinlər.)* Ətrafında olanlardan, əhli-beytin və qohumlarından heç kəsə torpaq vermə. Gərək heç kəs səndən tarla və əkinəcək alıb onun qonşuluğundakı camaata su mənbəyində ziyan vurmaq, yaxud müştərək görülməli işdə şərikli işin çətinlik və ağırlığını qonşulara yükləmək tamahına düşməsin. Belə olan halda, onun xeyir və mənfəəti sənin deyil, onların olacaq. Onun dünya və axirət eyb və məzəmməti isə sənə qalacaqdır. Haqq layiqli və bəyənilən olduğu üçün yaxından və uzaqdan *(qohum və yaddan)* olmasından asılı olmayaraq onu icra et. Bu işdə səbrli və *(Allahdan)* əvəz istəyən ol, hətta haqqı icra etmək nəticəsində qohum və yaxınlarına hər nə olsa belə! *(Məsələn haqqı icra etmək üçün qohumlarından birindən qisas almaq lazım gəlsə də, et bunu.)* Sənə olan ağırlıqla *(və yaxınlarına olan çətinliklə),* haqqın sonuna bax ki, *(onun sonu)* bəyənilən və bərəkətlidir.

Əgər rəiyyət sənin barəndə zalımlıq gümanında olsa, üzr və dəlilini onlara açıqla və bu açıqlama ilə onların gümanlarını özündən uzaqlaşdır. Çünki sən bu işlə özünü *(ədalət və insafa)* öyrəşdirərək adət verər və rəiyyətə mehribançılıq göstərmiş olarsan. Həmçinin bu üzr gətirməklə sən onları haqqa vadar etmək barəsindəki istəyinə çatmış olarsan. *(Onların sənin barəndə pis gümanda olmaları və səni məzəmmət etmələrindən qurtulmaq istəyirsənsə öz üzrünü açıqla ki, səhvdən çıxaraq sənin məhəbbətini qəlblərinə salsınlar.)*

Düşməninin səni çağırdığı və Allahın da razılığı olan sülh və barışıqdan boyun qaçırma. Çünki barışıqda ordunun rahatlığı, qəm-kədərin asayişi və şəhərlər *(onların əhalisi)*

üçün əmin-amanlıq vardır. (Qeyd)[1] Amma barışıqdan sonra düşmənindən çəkin və qorx. Çünki çox vaxt düşmən, özünü yaxınlaşdırır ki, *(tərəf müqabilini)* qəfildən haqlasın *(sonra onun işini bitirsin, yaxud da onu çətinliyə salsın)*. Buna görə də ehtiyatlı olmağa və işi möhkəm görməyə adət et və tez, nikbinlik və yaxşı güman yükünün altına girmə. (Qeyd)[2] Əgər düşməninlə bir əhd bağlasan və öz tərəfindən ona aman *(paltarı) geyindirsən (pənah versən)*, əhdinə vəfa et və verdiyin pənah və sığınacağa riayət et, özünü bağladığın əhd-peymana sipər et. Çünki insanlar, ziddiyyətli istəklərə və fikir ayrılığına malik olmalarına baxmayaraq, Allahın vacib buyurduqları içərisində əhdə vəfa etməyi uca tutmaq kimi heç nə barəsində yekdil deyildirlər. Müşriklər də müsəlmanlardan qabaq öz aralarında əhdə vəfa etməyi zəruri bilirdilər. Çünki əhdi pozmağın xoşagəlməz və pis nəticələrini başa düşmüşdülər *(dadmışdılar. Belə isə müsəlmanlar onu yerinə yetirməyə daha layiqdirlər)*. Buna görə də öz verdiyin amana xəyanət edib əhdini pozma və düşmənini aldatma. Çünki *(əhdi pozmaq Allaha qarşı çıxmaq və cürət etməkdir və)* bədbəxt nadandan başqa heç kəs Allaha qarşı çıxmaz, cürət etməz. Allahın əhdi Onun rəhmət və mehribanlıqla bəndələri arasında yaydığı əmin-amanlıq və rahatlıqdır. *(Onlara hərc-mərclik, qətl və fəsaddan qurtulmaları üçün əhdlərinə riayət etmələrini əmr edib.)* Onu sığınacaq edib ki, möhkəmliyi ilə yaşayaraq ona pənah aparsınlar. Buna görə də onu pozmaq və onda hiylə işlətmək rəva deyil. Elə bir əhd-peyman bağlama ki, onda başqa yerə yozmaq, bəhanə

---

[1] *Necə ki, Allah-təala Qurani-Kərimin Ənfal surəsinin 61-ci ayəsində buyurub:* **«وَإِن جَنَحُواْ لِلسَّلْمِ فَاجْنَحْ لَهَا وَتَوَكَّلْ عَلَى اللّهِ إِنَّهُ هُوَ السَّمِيعُ الْعَلِيمُ»** *«Əgər onlar sülh və barışığa meyl etsələr, sən də sülhə meyl et və (əgər batində hiylə və məkr işlədərək sülh və barışıq ilə səni aldatmaq istəyirlərsə, qorxma) Allaha bel bağla. Həqiqətən Allah (onların danışıqlarını) eşidən və (düşüncələrini) biləndir».*

[2] *Mömin hamıya qarşı nikbin olmasına baxmayaraq, o, ictimai məsələlərdə nifaq və ikiüzlülükdən, eləcə də düşmənin hiylələrindən xəbərdar və onlara qarşı sayıq olmalıdır.*

gətirmək və hiylə və kələk işlətmək yolu olsun. (Qeyd)[1] Əhd-peymanı bərqərar edib möhkəmləndirdikdən sonra ikibaşlı söz işlətmə. (Qeyd)[2] Barəsində Allahın əhdinə *(başqası ilə bağladığın peymana)* riayət etməli olduğun işin çətinliyi səni, onu nahaq yerə pozmağa vadar etməsin. Çünki sənin, mükafatında asayiş və artım olmasına ümidvar olduğun çətin işə səbr etməyin, dünya və axirətdə əfv və bağışlanmasını istəmək yolu olmayan və bunu edə bilməyəcəyin hiylə və kələyin günah və cəzasından və Allah tərəfindən sorğu-suala tutulmağından qorxmaqdan daha yaxşıdır. *(Başqası ilə bağlanmış peymana riayət edilməsinə təkid etmək və onu pozmaqdan qorxutmaq üçün İmam əleyhis-salam onu Allahın peymanı adlandırıb.)*

Qanlardan *(adam öldürməkdən)* və onu nahaq yerə tökməkdən qorx. Çünki nahaq qan tökmək kimi heç nə əzab və cəzanın çoxluğuna, sorğu-sualın böyüklüyünə, nemətin əldən çıxmasına layiq olmağa və ömrün sona çatmasına səbəb olmur. Nöqsan sifətlərdən pak olan Allahın, qiyamət günü, barəsində bəndələr arasında hökm edəcəyi ilk şey tökülmüş qanlar olacaqdır. Buna görə də hökumətini haram qan tökməklə *(dinin hökmlərinin əksinə adam öldürməklə)* möhkəmləndirərək bərqərar etmək istəmə. Çünki haram qan tökmək hökuməti zəiflədərək süstləşdirən, hətta onu aradan aparan və *(bir sülalədən digər sülaləyə)* keçirən işlərdəndir. Sən qəsdən adam Öldürmək barəsində nə Allahın və nə də mənim yanımda üzrlü hesab edilməzsən. Çünki həmin təqdirdə *(sözsüz-söhbətsiz)* bədən qisası almaq *(başqasını öldürdüyün kimi öldürmək)* lazım gəlir. Əgər xəta və səhv

---

[1] *Məsələn, düşmənlə peyman bağlasın ki, əsirləri azad etsə qoşunlarını filan şəhərdən çıxaracaq. Amma əsirlər azad edildikdən sonra şəhəri xarabalığa çevirib boşaltsın.*

[2] *İnsanın, haqdan başqa şeyə and içmək məcburiyyəti qarşısında qalanda «tövriyə» etməsi və məqsədi gizlətməsi, yalan şeyə and içməyənə qədər pis deyil. Amma bu, bir dəstə ilə əhd bağlayarkən və barışıq edərkən rəva deyil və sonra «tövriyə» edilməsi iddiası qəbul edilməz.*

üzündən başqasını öldürsən, qamçın və ya qılıncın işkəncə verməkdə həddini aşsa *(hadisə, qəsd olmadan qətl ilə nəticələnsə)* – deməli, yumruq vurmaq və ondan yuxarısı da öldürməkdir *(bəzən ölümə səbəb olur)* - hökumət qürurun səni, öldürülmüş şəxsin sahib və qohumlarına onun qanbahasını ödəməkdən saxlamamalıdır. *(Tam təvazökarlıqla gərək onun qanbahasını ödəyəsən.)*

Özünü bəyənməkdən, səni məğrurluğa sövq edən şeylərə arxalanmaqdan və camaatın səni çox tərifləmələrini sevməkdən çəkin. Çünki bu hal şeytanın yaxşı əməl sahiblərinin yaxşılıqlarını aradan aparması üçün ən mühüm fürsətlərindəndir. *(Şeytan həmişə belə fürsətin ələ düşməsini gözləyir. O, insanı məğrurluğa və tərifi sevməyə sövq edir ki, gördüyü yaxşı iş təsirsiz olsun.)*

Rəiyyətə, etdiyin yaxşılığa görə minnət qoymaqdan, gördüyün işi olduğundan artıq saymaq və ya ona verdiyin vədə vəfa etməməkdən çəkin. Çünki minnət qoymaq yaxşılığı nəticəsiz edir. (Qeyd)[1] İşi olduğundan artıq güman etmək *(bir növ məğrurluq, zülm və yalandır və )* haqqın nurunu söndürür *(yaxşılıq və düzlüyü savabsızlaşdırır)*. Vədə vəfa etməmək də Allahın və xalqın qəzəbinə səbəb olur. Allah-təala *(Səff surəsinin 3-cü ayəsində)* buyurub: « كَبُرَ مَقْتًا عِندَ اللَّهِ أَن تَقُولُوا مَا لَا تَفْعَلُونَ» «Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar.»

Vaxtı çatmamış işlərdə tələsməkdən, çatılan zaman onların arxasınca düşüb bərk çalışmaqdan, kələfin ucu məlum olmayan zaman inadkarlıq göstərməkdən, yaxud ələ düşəndə onlarda süstlük göstərməkdən çəkin. Beləliklə, hər

---

[1] *Necə ki, Qurani-Kərimin Bəqərə surəsinin 264-cü ayəsində buyurulur:* «**يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تُبْطِلُواْ صَدَقَاتِكُم بِالْمَنِّ وَالأذَى**» *«Ey iman gətirənlər! Sədəqələrinizi minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın.»*

bir şeyi öz yerinə qoy və hər bir işi öz vaxtında yerinə yetir *(ki, ədalət, bərabərlik və düzlük budur)*. (Qeyd)[1]

Xalqın bərabər olduğu şeyi ancaq özünə məxsus etməkdən qorx. (Qeyd)[2] Hamının bildiyi işlərdə sənin diqqət etməli olduğun şey barəsində özünü nadanlığa vurmaqdan çəkin. *(Malik olmadığın haqqı tələb etmə və heç edilmiş, tapdanmış haqqa göz yumma.)* Çünki o, *(zülmlə aldığın şey)* səndən, başqası *(məzlum)* üçün geri alınacaqdır. Tezliklə işlər üzərindən pərdələr götürülər *(gizlin olan şeylər üzə çıxar)* və məzlumun və zülmə məruz qalanın haqqı səndən alınar. Qəzəbin şölələnəndə, itaətsizliyin kəskinləşəndə, əlinlə hücum edəndə və dilin acılaşaraq çirkin sözlər danışanda özünü ələ al. Tələsməmək və hücumu təxirə salmaqla bu çirkin işlərdən çəkin ki, qəzəbin yatsın və *(həmin vaxt)* güc və ixtiyar taparaq özünü ələ alarsan. Rəbbinə doğru qayıdacağını çox yadına salıb fikirləşməyincə özünü ələ ala bilməyəcək, qəzəbdən qurtulmayacaqsan. (Qeyd)[3]

Sənə səndən əvvəlkilərinin başlarına gələnləri – çıxardıqları ədalətli və düzgün hökmləri, yaxud əməl etdikləri gözəl ənənələri, yaxud da Peyğəmbərimizdən *(səlləllahu əleyhi və alih)* nəql etdikləri xəbərləri, ya da Allahın kitabındakı vacib əməlləri yerinə yetirmələrini - yada salmaq vacibdir. Beləliklə, bu işlərdən əməl etdiyimizi gördüyün şeyləri sən də et və bu əhdnamədə sənə

---

[1] *Amma əgər dünya və axirət işlərindən hər hansı birində ifrata varsan və ya səhlənkarlıq etsən, yəni, haqqı aşsan və ya onun barəsində laqeydlik göstərsən, zalımsan.*

[2] *Müsəlmanların kafirlərlə müharibədə qənimət kimi əldə etdikləri mallarda hamının haqqı var və onlara hamı şərikdir. Həmçinin sahibi olmayan otlaqlar, sel suları, meşənin ağacları da belədir. Eləcə də ölkənin və rəiyyətin işlərinin xeyir və ziyanı ümumi olanında öz rəy və düşüncəndən istifadə edərək ancaq öz fikrinlə kifayətlənməməlisən. Gərək ağıllı adamlarla məsləhətləşəsən və onların fikirlərinə etinasızlıq göstərməyəsən.*

[3] *Qiyamət gününün zillət, acizlik və çətinliklərini yada salmayınca lovğalıq və məğrurluqdan şölələnən qəzəbini yatırda bilməyəcəksən.*

tapşırdıqlarıma tabe olmağa çalış. Mən bu əhdnamə ilə sənə *(ünvanlanmış)* dəlillərimi möhkəmləndirdim ki, nəfsin istəklərə doğru tələsəndə heç bir bəhanən olmasın. Allahdan başqa pislikdən qoruyan və yaxşı işə nail edən heç bir kimsə qətiyyən yoxdur. Allahın Peyğəmbərinin *(səlləllahu əleyhi və alih)* mənə olan vəsiyyətlərində əhd bağlayaraq tapşırdığı şey namaz və zəkata, eləcə də qullarınızla mehriban olmağa təşviq etmək və *(bu yolda)* çalışmaq idi və mən o Həzrətin vəsiyyət və tapşırığını sənə yazdığım əhdin sonluğu edirəm. Uca və əzəmətli Allahın iradə və istəyi olmadan heç *(kəsdə)* bir hərəkət və qüdrət yoxdur.

## Bu da həmin əhdnamənin bir hissəsi və sonudur

Və mən Allahdan istəyirəm ki, rəhminin genişliyi və hər bir mətləbi vermək qüdrətinin böyüklüyü ilə məni və səni razılığı onda olan şeyə - Onun və yaratdıqlarının qarşısında aşkar üzrə malik olmağa, (Qeyd)[1] bəndələr arasında yaxşılıqla xatırlanmağa, şəhərlərdə gözəl nişanələr qoymağa, neməti tam və izzəti artıq olmağa müvəffəq etsin. Həmçinin mənim və sənin həyatını səadət və şəhadətlə *(Allah yolunda öldürməklə)* sona çatdırmasını diləyirəm. Biz Ona tərəf dönəcəyik. *(Onun rəhmət və mərhəmətini axtarırıq.)* Salam olsun Allahın elçisinə *(Həzrət Mustafaya)*; ona və onun *(hər bir eyb və nöqsandan)* pak və təmiz Əhli-Beytinə Allahın salamı olsun!

# 54-cü məktub

---

[1] *«Aşkar üzr», barəsində qəzavət etdiyin kəsə qarşı ədalətli və insaflı olmaq, Allah yanında isə həmin şəxsi düzgün cəzalandırmaq və ya mükafatlandırmaqdır.*

İmam Əli əleyhis-salamın Təlhə və Zübeyrə olan məktublarındandır ki, *(onda onların əhdlərini pozmaq haqqına malik olmadıqlarını isbat edib və)* onu İmran ibn Hüseyn Xüzai vasitəsi ilə göndərib. (Qeyd)[1] Əbu Cəfər *(Məhəmməd ibn Addullah)* Eskafi(Qeyd)[2] onu Əmirəl-mömininin fəzilətləri barəsində yazdığı «Məqamat» kitabında bəyan edib.

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Gizləsəniz də bilirsiniz ki, camaat məni *(mənə beyət etmək)* istəyənə kimi mən onların fikrinə düşmədim *(onların beyət etmələrini istəmirdim)* və onlar mənə əl uzadana kimi, mən *(beyət almaq üçün)* onlara tərəf əl uzatmadım. Siz mənə tərəf gəlib beyət edən kimsələrdən idiniz. Xalq mənə nə *(malik olduğum)* güc və qüdrətə və nə də mövcud mal və sərvətə görə *(ona tamah salıb)* beyət etməyib. *(Onlar öz ixtiyar və istəkləri ilə əl uzadaraq beyət ediblr.)* Buna görə də əgər siz mənimlə ixtiyari surətdə beyət edib əhd bağlamısınızsa, nə qədər ki, gec deyil *(onu pozmaqdan)* qayıdın, *(bu çirkin işdən)* tövbə edib Allaha tərəf dönün. Əgər ürəksiz əhd bağlamısınızsa, itaət və tabeçiliyi üzdə göstərib *(beyət edib)* günah və itaətsizliyi gizlətməklə *(ürəksiz əhd bağlamaqla)* mənim *(sizi sorğu-suala tutub cəzalandırmağım)* üçün yol açmısınız *(ki, sizdən «əgər batində meyliniz yox idisə, heç bir məcburiyyət və zor olmadan nə üçün beyət etdiniz?» deyə soruşum)*. Canıma and olsun *(ki, mənimlə meyl və rəğbətlə, malik olduğunuz nadürüst məqsədə görə beyət etmisiniz. İndi həmin məqsədinizə çatmadığınız üçün əhdinizi pozmusunuz. Çünki)* siz təqiyyə etməyə, qorxmağa və mənimlə beyətə könülsüzlüyünüzü bildirməməyə, Mühacirlərdən daha layiqli deyildiniz. *(Ona görə ki, siz onlardan güclü idiniz və sizə güc gələrək zor işlətmək imkanı daha az idi.)* Sizin üçün beyətə daxil olmamışdan onun yükünün altına girməməyiniz, onu qəbul etdikdən sonra əhdinizi pozmaqdan daha asan idi. *(Öz*

---

[1] *Xüza Əzddən olan bir qəbilə adıdır. İmran, Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) səhabələrinin biliklilərindən və İmam əleyhis-salamın şiələrindən olub.*

[2] *Eskaf Nəhrəvanla Bəsrə arasında böyük bir kənd olub.*

*əhdlərinizi pozmaq üçün hazırladığınız bəhanə budur ki,)* siz Osmanı mənim öldürməyimi güman edirsiniz *(və həmin bəhanə ilə siz, onun intiqamını almaq üçün mənimlə müharibə etmək fikrinə düşmüsünüz)*. Belə isə mənimlə sizin aranızda Mədinə əhalisindən *(Məhəmməd ibn Müslimə, Usamə ibn Zeyd və Abdullah ibn Ömər kimi)* şəxslər var ki, həm məndən, həm də sizdən uzaqlaşıblar *(heç birimizə kömək etmirlər. Qoy onlar şəhadət verib Osmanın qatilinin kim olmasını desinlər)*. Beləliklə, *(əgər onlar Osmanı kimin öldürməsini desələr, bizlərdən)* hər bir kəs, *(barəsində verilmiş şəhadət əsasında)* bu işdə əli olan miqdarı, boynuna almağa məcbur edilsin *(və ondan qisas alınsın. Şübhəsiz ki, əgər onlar şahidlik etsəydilər Təlhə ilə Zübeyrin, Osmanın öldürülməsinin səbəbkarı olmaları, İmam əleyhis-salamın isə bu işdən uzaq olması məlum olardı.)* Buna görə də ey qocalar, fikrinizdən daşının. *(Nahaq yerə bəhanə gətirməyin və müharibə edib qan tökməkdən əl çəkin.)* Çünki indi – *(qiyamət günündəki)* rüsvayçılıq ilə od bir yerə toplaşmamışdan, *(dünyada)* sizin qarşınıza çıxacaq ən böyük iş xəcalət və ardır. *(Sizin barənizdə «peşman olub tövbə etdilər, qayıtdılar» deyilməsi, Həzrət Peyğəmbərin səhabələrinin öz zəmanələrinin imamı ilə müxalifət səbəbindən ilahi əzaba düçar olmalarından daha yaxşıdır. Çünki burada ar ilə od bir yerə toplanıb.)* Salama layiq kimsəyə salam olsun!

# 55-ci məktub

İmam Əli əleyhis-salamın Müaviyəyə *(nəsihət yönümlü)* məktublarındandır.

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: nöqsan sifətlərdən pak və uzaq olan Allah, dünyanı axirət üçün yaradıb və *(bütün gizlin və aşkar olan şeyləri bilməsinə baxmayaraq)* dünya əhlini onda sınağa çəkib ki, onlardan hansının əməllərinin daha yaxşı olmasını bilsin *(başqalarına göstərsin)*. Biz dünya üçün yaradılmamışıq və onun *(işləri)* üçün çalışmağa göndərilməmişik. *(Hamının ruzi əldə etmək üçün çalışmağa məcbur olmasına baxmayaraq, əsas səy və təlaş axirət işləri üçün olmalıdır.)* Bizi dünyaya onunla sınanmağımız üçün

gətiriblər *(ki, yaxşı əməl sahibləri ilə pis əməl sahibləri məlum olsunlar)*. Allah məni səninlə və səni mənimlə sınayıb və bizim birimizi digərimizə dəlil-sübut edib. (Qeyd)[1] Sən dünyanı əldə etmək üçün Quranı yozmağa tələsdin. (Qeyd)[2] Məndən, əlim və dilim cinayət və günahına batmadığı şeyi *(Osmanın qanını)* istəyibsən. *(Nə özüm onu öldürmüşəm, nə də onun öldürülməsinə göstəriş vermişəm.)* Sən Şam əhli ilə məni Osmanın qanında günahlandırdınız. Aliminiz cahilinizi, duranınız oturanınızı təhrik etdi. *(Bu cür nadürüst sözlərlə bir-birinizi mənə qarşı ayağa qaldırdınız.)* Buna görə də özün barəsində Allahdan qorx. Şeytana müqavimət göstərərək cilovunu onun çəngindən çıxart. Bizim və sənin yolun olan *(hamımızın gedəcəyimiz)* axirətə üz tut. Allahın, səni Öz tərəfindən əsl və kökünə işləyərək nəslini kəsən təcili bəlaya düçar etməsindən qorx. *(O, elə bəla olar ki, səndən və nəslindən əsər-əlamət qoymaz)*. (Qeyd)[3] Mən, sənə görə, Allaha doğru olan bir and içirəm ki: əgər *(insanları)* bir yerə toplayan tale, mənimlə səni qarşılaşdırsa, həmişə səninlə qalacağam «حَتَّى يَحْكُمَ اللّهُ بَيْنَنَا وَهُوَ خَيْرُ الْحَاكِمِينَ» «O vaxta kimi ki, Allah bizim aramızda Öz hökmünü versin *(səni etdiyin zülm və haqsızlığın cəzasına çatdırsın)*. Axı O, hökm verənlərin ən yaxşısıdır!» *(Əraf surəsi, 87-ci ayə)*

---

[1] *Məni sənə dəlil edib və ya hər bir kəsi digərinə dəlil-sübut edib. Müaviyə də o Həzrətə dəlil olub ki, əgər İmam əleyhis-salam onun fitnə-fəsadlarının qarşısını almaq niyyətində olmasaydı, sorğu-suala tutular, cəzalandırılardı.*

[2] *Onun həqiqi mənasına göz yumaraq onu camaata öz nadürüst fikirlərinlə başa saldın. Necə ki, Müaviyə Şam əhlinə belə deyirdi: Mən Osmanın qəyyumuyam və onun işləri mənim öhdəmədir. Allah Qurani-Kərimin İsra surəsinin 33-cü ayəsində buyurub: «* **وَمَن قُتِلَ مَظْلُومًا فَقَدْ جَعَلْنَا لِوَلِيِّهِ سُلْطَانًا**» *«Zülmlə və haqsız yerə öldürülən şəxsin sahib və varisinə ixtiyar verdik (ki, qatildən qisas və intiqam alsın).»*

[3] *Allah-təala Qurani-Kərimin Ənam surəsinin 45-ci ayəsində buyurur: «* **فَقُطِعَ دَابِرُ الْقَوْمِ الَّذِينَ ظَلَمُواْ**» *«Artıq o zalım tayfanın kökü kəsildi». Ayə, onların nəslinin qalmamasına işarədir.*

# 56-cı məktub

İmam Əli əleyhis-salamın *(barəsində on birinci məktubun şərhində bir az izahat verilmiş)* Şüreyh ibn Haniyə onu *(və Ziyad ibn Nəsri)* özünün *(Müaviyə ilə müharibə etmək məqsədi ilə)* qabaqda Şama gedən *(on iki min nəfərlik)* qoşununa başçı təyin edən zaman buyurduğu tövsiyələrindəndir.

Hər səhər-axşam Allahdan qorx. *(Onun göstərişlərinə zidd iş görmə.)* Nəfsin barəsində aldadıcı dünyadan çəkin. Heç vaxt ondan əmin və xatircəm olma. Bil ki, əgər nəfsini sevdiyin şeylərin çoxundan *(nəticədə sənə çatacaq)* xoşagəlməzliklərinə görə saxlamasan və qarşısını almasan, arzu və istəklər sənə çoxlu zərər-ziyan vuracaq. Buna görə də nəfsinin *(şəhvət və istəklərinin)* qarşısını alaraq ona mane ol və qəzəb zamanı özündən çıxmağı özündən uzaqlaşdır.

# 57-ci məktub

İmam Əli əleyhis-salamın Mədinədən Bəsrəyə *(Cəməl tərəfdarları ilə müharibə etmək üçün)* hərəkət edərkən Kufə əhalisinə olan məktublarındandır *(ki, onda, onlardan kömək istəyib)*.

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: mən öz qəbiləmin məkanından *(Mədinədən, Bəsrəyə getmək qəsdi ilə)* çıxdım, halbuki *(həqiqəti dərk etməyib öz zəmanəsinin imamını tanımayan şəxsin nəzərində)* ya zalımam, ya da məzlum, ya təcavüzkaram, yaxud da təcavüzə məruz qalan. *(Hər halda)* mən, Allahı bu məktubum çatan hər bir kəsin yadına salıram ki, tez yanıma gəlsin. Əgər hərəkətim düz olsa *(görsə ki, bu işdə düzgün davranıram)*, mənə kömək etsin.

Hərəkətimin düz olmamasını gördükdə isə, məndən düzlüyə və onların razı olduqları şeyə qayıtmağı istəsin. (Qeyd)[1]

# 58-ci məktub

İmam Əli əleyhis-salamın şəhərlərin əhalisinə olan məktublarındandır ki, onda özü ilə Siffeyn *(müharibəsində Şam)* əhalisi arasında baş verənləri bəyan edib.

İşimizin əvvəlində biz Şam əhli ilə zahiri görünüşdə Rəbbimiz bir, Peyğəmbərimiz bir və *(camaatın hidayət və nicat istiqamətində)* İslamda təbliğ üsulumuz eyni imiş kimi qarşılaşdıq. Biz onlardan Allaha və Onun Peyğəmbərinə imanlarını artırmalarını istəmirdik. Onlar da bizdən bunu istəmirdilər. (Qeyd)[2] *(Amma zahirdə)* iş bərabər və yeksan idi və Osmanın qanı məsələsindən *(və bizim onun qatillərinə kömək etməkdə günahlandırılmağımızdan)* başqa, aramızda heç bir ixtilaf və fikir ayrılığı yox idi. Biz həmin işdən uzaq və kənar idik. Buna görə də *(onlar bu bəhanə ilə müharibəyə şərait yaradanda)* onlara belə dedik: Gəlin bu gün fitnə alovunu söndürmək və xalqa rahatlıq verməklə bundan *(müsəlmanların qanlarının vuruşda axıdılmasından)* sonra əlac edə bilməyəcəyimiz şeyə çarə qılaq ki, işlər möhkəmlənərək qaydasına düşsün və biz haqqı öz yoluna qoya bilək. Dedilər: (Yox,) biz bu işə düşmənçilik və döyüşlə çarə qılacağıq! Beləliklə, *(bizim nəsihətimizdən)* boyun qaçırdılar və nəhayət, müharibə başlandı, onun şölələri qızışdı və iş çətinləşdi. Müharibə və döyüş bizi və onları dişinə alıb caynaqlarını bizə və onlara batıran zaman *(döyüş ağırlaşanda və onlar məğlubiyyətə uğradıqlarını görəndə)*, onlar bizim

---

[1] *Buna görə də heç kəsin bəhanə gətirib evdən çölə çıxmamaq haqqı yoxdur. Əslində Allah nəzərə alınmalı və şəxs evdən çıxaraq məzluma kömək edib zalımı pis əməllərindən çəkindirməlidir. Amma əgər zalımla məzlumu bir-birindən seçə bilməsə, onları öz hallarında qoymalıdır ki, belə olan halda, onun nadanlıq üzrü qəbul edilir.*

[2] *Hərçənd ki, on altıncı məktubda deyildiyi kimi onlar batində Allaha və Peyğəmbərə iman gətirməmişdilər.*

*(müharibədən qabaq, tərəfinə)* çağırdığımız şeyi qəbul etdilər. Bu halda *(bizdən döyüşdən əl götürməyimizi istədilər və biz)* onların çağırışlarını qəbul edib istəklərinə doğru tələsdik ki, dəlilimiz *(bizim haqq olmağımız)* onlara aydınlaşsın və heç bir bəhanə yerləri qalmasın. *(Biz onların istəklərini ona görə qəbul etdik ki, bizim məqsədimizin qan axıdılması olmamasını bilsinlər. Başa duşsünlər ki, bizim onlarla müharibə etmək haqqımız var idi. Ona görə ki, Osmanın qətlə yetirilməsi onlar üçün müxalifət etmək və vuruşmağa bəhanə və dəlil deyildi.)* Buna görə də onlardan hər kim bu sözdə *(bizi çağırdıqları və bizim də qəbul etdiyimiz Allahın kitabında)* möhkəm olsa, deməli, Allah onu həlak və məhv olmaqdan qoruyub. İnadkarlıq göstərərək öz azğınlığında qalan kimsə isə öz əvvəlki halına qayıdıb *(əhdini pozub)*, Allah onun qəlbini *(qəflət pərdəsi)* ilə örtüb və onun başında pis hadisələr fırlanır. (*Xülasə, Allahın kitabına tabe olan kəs xoşbəxt, ona arxa çevirən isə bədbəxt və ilahi əzaba düçar olacaq.)*

# 59-cu məktub

İmam Əli əleyhis-salamın Hülvan qoşununun başçısı Əsvəd ibn Qütbəyə məktublarındandır. *(Hülvan Bağdad ilə beş günlük yol fasiləsi olan bir şəhərdir. «Rical» alimləri Əsvəd ibn Qütbə barəsində bir şey yazmayıblar. Amma çox ehtimal ki, o, gözəl şəxsiyyətlərdən olub. İmam əleyhis-salam bu məktubda ona ədalətli olmağı əmr edib.)*

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: valinin *(hər bir kəs və hər bir işə münasibətdə)* meyl və istəyi eyni olmasa, bu davranış onu, ədalətliliyin çoxundan saxlayar. Buna görə də camaatın *(özününkü və yadın, böyük və kiçiyin, imkanlı və imkansızın)* haqq olan işi sənin yanında bərabər olmalıdır. Çünki zülmün yerinə ədalətin və insafın nəticəsi və mənfəəti əldə edilməz. Bənzərini bəyənmədiyin işdən uzaq ol. *(Başqalarının yerinə yetirmələrini layiqli saymadığın işi görmə.)* Nəfsini, savabına ümid bəsləyib cəzasından qorxaraq Allahın sənə vacib etdiklərinə vadar et.

Bil ki, dünya çətinlik diyarıdır. İnsan onda heç vaxt bir saat asudə və rahat olmayıb. Əgər olubsa da həmin saatın rahatlığı qiyamət günü onun qəm-kədərinə səbəb olar. (Qeyd)[1] Bil ki, heç vaxt heç bir şey səni haqdan ehtiyacsız edə bilməz. *(Buna görə də batil və nahaq şeylərin ətrafına belə fırlanma.)* Sənin boynunda olan haqlardan biri öz nəfsini *(nəfsi istəklər və itaətsizlikdən)* saxlamaq və rəiyyətin işlərində çalışaraq onların çatışmazlıqlarını islah etməkdir. Çünki bu yol ilə *(Allahdan)* sənə çatacaq xeyir və savab, sənin vasitənlə *(rəiyyətə)* çatan xeyirdən daha çoxdur. Salama layiq kimsəyə salam olsun!

# 60-cı məktub

İmam Əli əleyhis-salamın *(qoşunun yolu üstündə yerləşən və)* ordunun keçəcəyi yerlərin valilərinə məktublarındandır *(ki, onlar və rəiyyət barəsində bəzi tapşırıqlar verib)*.

Allahın bəndəsi Əmirəl-möminin Əlidən ordunun, *(yerlərindən)* keçəcəyi şəhərlərin xərac toplayanlarına və valilərinə:

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Mən sizdən *(yerlərinizdən)* keçəcək qoşunu yola saldım və onlara *(camaatı)* incidərək pislik etməmək kimi Allahın onlara vacib etdiklərini tapşırdım. Mən sizin özünüzün və *(pənahınızda olan)* zimmə əhlinizin yanında ordunun ziyan vurması barəsində pak və günahsızam. (Qeyd)[2] Ac və aciz olan və qarnını doydurmaq üçün *(rəiyyətin malından özü və ya onun özü kimi sayılan atının doyması miqdarında götürməkdən başqa)* bir yol tapmayan kəs istisnadır *(və bu cür ziyan rəvadır)*. Buna

---

[1] *Qəm-qüssə yeyər ki, nə üçün həmin saatda axirət üçün azuqə toplamayıb. Amma həmin saatda günah işlə məşğul olmuş olsa qəm-qüssəsi bir neçə qat olar.*

[2] *Çünki onları ziyan vurmaqdan çəkindirmişəm və sizi xəbərdar etmişəm ki, onları rəiyyətə ziyan vurmağa və mal və əkinlərinə əl uzatmağa qoymayın.*

görə də *(ac və möhtac olmayan və)* zülm üçün *(camaatın malına)* əliuzunluq edən qoşunu özünüzdən uzaqlaşdıraraq cəzalandırın. İcazə verdiyim şeydə ağılsızlarınızı onlara mane olaraq hörmətsizlik etməkdən saxlayın *(ki, fitnə və çaxnaşma yaranmasın)*. Mən ordunun arxasındayam. Beləliklə, onların sizə etdikləri zülmləri, həmçinin onların Allahın köməyi və mənə müraciətdən başqa heç bir şeylə qarşısını ala bilmədiyiniz, rəftarları nəticəsində qarşılaşdığınız çətinlikləri mənə xəbər verin. Belə olan halda, mən Allahın kömək və istəyi ilə onu düzəldəcəyəm. *(Sizin şikayətlərinizə baxıb onların zülm və haqsızlıqlarını sizdən uzaqlaşdıracağam.)*

# 61-ci məktub

İmam Əli əleyhis-salamın tərəfindən *(Fəratın sahilindəki şəhərlərdən olan)* Hitin valisi olmuş *(İmam əleyhis-salamın ən seçilmiş dost və şiələrindən)* Kumeyl ibn Ziyad Nəxəiyə məktublarındandır. *(İmam əleyhis-salam bu məktubda)* onu, düşmənin onun olduğu şəhərdən qarətçilik üçün keçən qoşununun qarşısını almadığına görə məzəmmət edir *(ki, nə üçün belə bir vaxtda öz şəhərini buraxıb digər bir düşmənin qarşısını almağa gedib)*.

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: İnsanın təyin edilərək ona tapşırılan şeyi buraxıb ona həvalə edilməyən və başqasının öhdəsinə qoyulmuş işə görə zəhmət çəkməsi, aşkar acizlik və sahibini məhvə aparan düşüncədir. *(Çünki onun mənşəyi ağlın azlığıdır.)* Həmçinin sənin, vali və başçı təyin etdiyim sərhədləri heç bir hami və qoruyucusu və qoşunu *(düşmən qoşununu)* ondan qaytaran bir kimsəsi olmayan halda buraxıb *(Fərat sahilindəki şəhərlərdən olan)* Qerqisiya əhalisinə hücum edib onları qarət etməyin dağınıq nəzər və düşüncədir. Beləliklə, sən *(bu işlərinlə)* dostlarına hücum edib onları qarət etmək istəyən düşmənlərin *(onların keçməsi)* üçün bir körpü olmusan. Eyni zamanda möhkəm *(güclü)* çiyinlərin yox idi və səndən heç bir qorxu mövcud deyildi *(ki, düşmənlərin öz yerlərində otursunlar)*. Nə dəliyi *(düşmənin yolunu)* bağladın və nə də düşmənin vüqar və qüdrətini sındırıb bir-birinə vurdun; nə şəhərinin əhalisinin *(düşmənin qarşısını almaq)* ehtiyacını tam təmin edənsən, nə də öz əmiri tərəfindən bir iş görən! *(Buna görə də sənin kimisi valilik işinə yaramır.)* Salama layiq kimsəyə salam olsun!

# 62-ci məktub

İmam Əli əleyhis-salamın Malik Əştəri *(Allah ona rəhmət etsin)* Misirə vali təyin edəndə onunla, həmin diyarın əhalisinə göndərdiyi məktublarındandır. *(İmam əleyhis-salam bu məktubda Həzrət Peyğəmbərdən – səlləllahu əleyhi və alih – sonra başına gələnlərin bir hissəsini açıqlayıb.)*

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Nöqsan sifətlərdən pak və uzaq olan Allah Məhəmmədi *(səlləllahu əleyhi və alih)* bəşəriyyəti *(ilahi əzabdan)* qorxudan və *(insanların nicatı üçün Allah tərəfindən göndərilmiş)* peyğəmbərlərə şahid kimi göndərmişdir. O Həzrət – səlləllahu əleyhi və alih – vəfat etdikdən sonra müsəlmanlar xilafət barəsində çəkişmə və qalmaqala düşdülər. Allaha and olsun ki, qəlbimə gəlmir və fikrimdən belə keçmirdi ki, ərəblər o Həzrətdən *(səlləllahu əleyhi və alih)* sonra xilafəti onun Əhli-Beytindən başqa birinə həvalə edəcək və *(bütün tapşırıqlara və məni Qədir-Xumda və digər yerlərdə aşkar şəkildə xilafətə təyin etməsinə baxmayaraq,)* o Həzrətdən sonra onu məndən əsirgəyəcəklər. (Qeyd)[1] Məni *(yəni, hər bir ağıllı və agah şəxsi)* camaatın beyət etmək üçün filankəsə *(Əbu Bəkrə)* tərəf tələsmələrindən başqa bir şey narahat etmədi *(və ya təəccübləndirmədi)*. Beləliklə, *(həmin vəziyyətdə)* əl saxladım *(onları öz ixtiyarlarına buraxdım)*. Nəticədə camaatın bir dəstəsinin dindən dönərək mürtəd olduqlarını və İslamdan qayıdaraq Məhəmmədin *(səlləllahu əleyhi və alih)* dinini məhv etmək istədiklərini gördüm. Qorxdum ki, İslam və müsəlmanların köməyinə başlamasam, onda nöqsan və dağıntı *(yaranmasını)* görərəm və onun müsibət və kədəri mənim üçün, nəticəsi *(susuz adamın su sandığı)* ilğım kimi *(yaxınlaşanda)* yoxa çıxan və ya bulud kimi səpələnən bir neçə günlük müvəqqəti mal olan sizə hakimlik və vilayəti

---

[1] *İmam əleyhis-salam keçmiş və gələcəyi bilir. Buna görə «xilafəti başqalırına həvalə edəcəkləri fikrimdən belə keçmirdi» cümləsindən məqsəd budur ki, Peyğəmbərin göstərişinin əksinə hərəkət ediləcəyinə heç kəs inanmazdı və bu iş Həzrət Peyğəmbərin səhabələri barəsində təsəvvüredilməz idi.*

əldən çıxarmaqdan daha ağır olar. Buna görə də həmin hadisə və dağıdıcı hərəkətlərin arasında ayağa qalxdım *(İslam və müsəlmanlara kömək edərək onları məəttəlçilik və çaşqınlıqdan qurtardım)*. Nəticədə əyrilik və təxribatların qarşısı alındı və onlar məhv oldular, din *(mürtəd və dağıdıcıların fitnələrindən)* sakitlik taparaq *(nigarançılıqdan)* qurtulub öz yerində qərar tutdu. (Qeyd)[1]

## Bu da həmin məktubun *(o Həzrətin cihadının haqqın icrası uğrunda olması və onun düşmənin çoxluğundan qorxmaması barəsindəki)* bir hissəsidir

Vallah, əgər mən onlarla *(Müaviyə və onun qoşunu ilə)* təkbaşına qarşılaşsam və onlar *(öz çoxluqları ilə)* bütün yer üzünü doldursalar, *(qətiyyən heç nədən)* çəkinməz və qorxmaram. Mən onların düçar olduqları azğınlıqlar və özümün hidayət və nicat yolunda olmağım barəsində öz tərəfimdən bəsirətə, Rəbbim tərəfindən isə yəqinlik və inama malikəm. Allahla görüşü *(Onun yolunda öldürülməyi)* arzulayır və ümidvarcasına Onun gözəl savabını gözləyirəm. (Qeyd)[2] Amma mənim qəm-qüssəm bü ümmətin işlərinə onun ağılsız və pis əməllilərinin *(Bəni-Üməyyənin)* hakimlik etmələrindən, Allahın malını *(müsəlmanların beytülmalını)* əldən-ələ ötürmələrindən, Onun bəndələrini qul, yaxşılarını düşmən, pislərini isə dost etmələrindəndir. Çünki onlardan sizin *(siz müsəlmanların)* aranızda şərab içən və *(bu çirkin işinə görə)* İslamda təyin

---

[1] *Dinin əsasını qorumaq üçün mənim haqqımı qəsb edənlərlə birgə addımlayaraq razılaşdım. Osmandan sonra zahiri xilafəti qəbul etməyimin səbəbi də dinin işlərinin nizam-intizamının pozulmaması və Həzrət Peyğəmbərin hökmlərinin bərqərar qalması idi.*

[2] *Buna görə də düşmənin az və ya çox olması mənim nəzərimdə eynidir və onlarla vuruşmaqdan qorxum yoxdur. Çünki hər bir halda onlarla müharibə etmək səadət və xoşbəxtliyin artmasına səbəb olur.*

edilmiş qaydada şallaq vurulmuş kəs var. (Qeyd)[1] Onların içərisində *(Əbu Süfyan və Müaviyə kimi)* azacıq bəxşişlər verilməyincə müsəlman olmayıb İslamı qəbul etməyən kəslər var. *(Əsas mətndə işlənmiş «رَضِيخَةٌ» «rəzixə» kəlməsi İslam və müsəlmanlara münasibətdə qəlbləri yumşalıb kömək etmələri üçün kafirlərə verilən az miqdarlı bəxşişə deyilir.)* Buna görə də əgər bu şəxslərin vali olmaq qorxusu olmasaydı, sizi *(cihad və vuruşa)* çox vadar etməz, *(tənbəlliyə görə)* məzəmmət etməz, sizi həvəsləndirmək üçün bu qədər çalışmaz və *(düşmənlə döyüşməkdən)* boyun qaçırıb süstlük edəndə sizi azad buraxardım *(öz halınızda qoyardım)*. Ətrafınızın mühasirə edilməsini, diyarınızın zəbt edilərək ixtiyarınızda olan şeyləri əllərinə almalarını və şəhərinizdə müharibə etmələrini görmürsünüzmü?! *(Müaviyənin sizin bəzi şəhərlərinizi almasını və indi də məmləkətin hamısını öz əlinə keçirmək üçün müharibə etməsini görmürsünüz?!)* Allah bağışlasın sizi! Düşməninizlə döyüşə gedin, özünüzü yerə yük etməyin *(evdə qalıb süstlük etməyin)*. Yoxsa xar olar, biçarəliklə geri dönər və nəsibiniz ən alçaq şey olar. Müharibənin qardaşı *(döyüşkən və cəngavər şəxs)* oyaq və sayıqdır. *(Düşməndən xatircəm olub)* yatan kəsin düşməni yuxuya getməz. *(Düşməndən xatircəm olmasını güman edib yatan kəs bilməlidir ki, düşmən ondan rahat və xatircəm deyil.)* Salama layiq kimsəyə salam olsun.

# 63-cü məktub

[1] *Deyirlər ki, Bəni-Üməyyədən olan Müğeyrə ibn Şöbə Ömər tərəfindən Kufənin hakimi olanda məst halda camaatla namaz qılıb, namazın rəkətlərinin sayını artırıb və məscidin pişnamazın yeri olan mehrabına qusub. Sonra ona şallaq vurublar. Həmçinin Xalid ibn Abdullah Taifdə Ütbə ibn Əbu Süfyana şərab içdiyi üçün şallaq vurub.*

İmam Əli əleyhis-salamın Əbu Musa Əşəriyə olan məktublarındandır. (Qeyd)[1] O, İmam əleyhis-salam tərəfindən Kufənin hakimi idi. İmam əleyhis-salam kufəliləri Cəməl tərəfdarları ilə *(Təlhə, Zubeyr, Aişə və onların ətrafındakılarla)* müharibəyə çağıranda Əşərinin camaatı ona yardım etməyə gəlməkdən çəkindirərək müxalifət etməyə vadar etməsi xəbəri o Həzrətə çatanda bu məktubu yazıb. *(Əbu Musa həmin vaxt belə deyirmiş: Bu, müsəlmanlar arasına düşmüş bir fitnə-fəsaddır və ondan uzaq olmaq lazımdır. Həzrət Peyğəmbərdən – səlləllahu əleyhi və alih – hədis nəql edirmiş ki, ümmətin arasında fitnə zahir olanda siz kənara çəkilin. Bu xəbər İmam əleyhis-salama çatanda oğlu imam Həsən əleyhis-salamı bu məktub ilə Kufəyə göndərdi və onda Əbu Musanı bu çirkin işinə görə hədələyərək məzəmmət etdi.)*

Allahın bəndəsi Əmirəl-möminin Əlidən Abdullah ibn Qeysə:

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Səndən mənə sənin həm xeyrinə, həm də ziyanına olan bir söz çatıb. (Qeyd)[2] Buna görə də mənim elçim sənin yanına gələndə ətəyini çırma, kəmərini möhkəm bağla və deşik və yuvandan *(Kufədən)* çölə çıx. *(Kərtənkələ kimi deşiyə girib rahat qalacağını güman etmə.)* Səninlə olanları *(yoldaşlarını)* çağır və həvəsləndir *(bizə kömək etməyə vadar et)*. Beləliklə, əgər *(bizim işimizi)* düzgün sayıb inansan *(bizə tərəf)* gəl. Amma qorxsan *(bizim arxamızca getməkdə süst olsan)*, uzaqlaş *(hökumət və qoşundan kənar ol)*. Allaha and olsun ki, harada olsan

---

[1] *«Rical» alimləri onu yaramaz şəxs hesab edir və onun rəvayətlərinə etimad etmirlər. Əşər Yəməndə olan bir qəbilənin adıdır və Əşəri həmin qəbiləyə mənsubdur.*

[2] *Çünki camaatı fitnədən kənar olaraq uzaqlaşmağa vadar etmək və Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) buyuruğunu nəql etmək ilk baxışda düzgün və sənin xeyrinədir. Ona görə ki, sənin məqsədin camaatı mənə qoşulmaqdan saxlamaqdır. Amma əslində mənim Cəməl tərəfdarları ilə müharibəm fitnə-fəsad deyil, əksinə, fitnənin qarşısını alan və asayiş amilidir. Buna görə də sənin müxalifət etməyin və onu nahaq yerə fitnə sanmağın sənin ziyanınadır. Çünki dünyada mənim cəzama, axirətdə isə ilahi əzaba düçar olacaqsan.*

gətirərlər səni və yağını südünə və əridilmişini donmuşuna qatmayınca səni azad buraxmazlar. (Qeyd)[1] Oturmağa fürsət tapmaz və arxandan qorxduğun kimi önündən də qorxarsan. *(Nə önündən və nə də arxadan heç cür rahatlığa malik olmazsan.)* Cəməl tərəfdarlarının fitnəsi sənin güman etdiyin qədər asan bir fitnə deyil. O, çox böyük və ağır bir müsibət və dərddir ki, gərək onun dəvəsini minib çətinliklərini asan və dağlıqlarını düzənlik edəsən. *(Bu hadisədən qafil olub onu asan sanmaq olmaz. Onun alovunun yatırılması üçün çalışmaq lazımdır.)* Buna görə də ağlını topla, işini ələ al və payını tap. *(Xülasə, işinin xeyir və ziyanı barəsində yaxşıca fikirləş.)* Əgər *(bizə kömək etmək)* istəmirsənsə qurtuluş olmayan dar yerə uzaqlaş, çəkil. *(Nicat tapmayacağın yerə get.)* Bu işi başqalarının sona çatdırmaları və sənin yuxuda olmağın, nəticədə «filankəs haradadır?» deyilməməsi daha məsləhətdir. *(Kənara çəkil. Çünki bu müharibə sənin köməyin olmadan da aparılar. Sənin orada olmağınla olmamağın birdir.)* Allaha and olsun ki, bu müharibə və döyüş haqq olan kəsin *(İmam əleyhis-salamın)* əli ilə haqq olaraq düzgün aparılır. O, dindən və haqq yoldan uzaqlaşmış kəslərin etdiklərindən qorxub çəkinmir. *(Çünki haqq olan kəsin batil və nadürüstdən qorxusu yoxdur.)* Salama layiq kimsəyə salam olsun!

# 64-cü məktub

İmam Əli əleyhis-salamın Müaviyənin məktubuna cavab məktublarındandır *(ki, onda, onun sözlərinin səhv olmasını bəyan edir və onu məzəmmətləyir)*.

Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: yada saldığın kimi biz sizinlə *(İslamdan qabaq)* dost və birgə idik. Amma dünənki gün *(İslam)* bizimlə sizi bir-birimizdən ayırdı. Biz iman gətirdik *(Allahın elçisinə – səlləllahu əleyhi və alih – inandıq)*, siz isə kafir oldunuz. Bu gün *(o Həzrətdən sonra)* biz düz dayanmışıq *(dinin göstərişlərinə əməl edirik)*, siz isə

---

[1] *Bu cümlə ərəb dilində bir məsəldir və birini alt-üst etməyə işarədir.*

fitnə-fəsada üz tutdunuz *(dinin yolundan kənara çıxdınız)*. Sizin müsəlmanınız *(Həzrət Peyğəmbərin dövründə də)* İslamı ancaq icbarla və İslamın böyük şəxsiyyətlərinin hamısı *(Məkkənin fəthindən qabaq)* Həzrət Peyğəmbərin *(səlləllahu əleyhi və alih)* dost və yoldaşı olandan sonra qəbul etdi. (Qeyd)[1]

Demisən ki, mən *(Məhəmmədin atası)* Təlhəni və *(Abdullahın atası)* Zübeyri öldürmüş, Aişəni uzaqlaşdıraraq işini naməlum saxlamış və Bəsrə ilə Kufədə enmişəm *(Məkkə ilə Mədinədən uzaqlaşmışam)*! Bu, sənin ondan uzaq olduğun bir işdir. *(Bu hadisələrin sənə heç bir dəxli yoxdur.)* Buna görə də sənə bir ziyan dəyməyib və onlara görə sənə üzr və bəhanə gətirməyə lüzum yoxdur. *(Sənin qəzavət edərək öz zəmanənin imamına etiraz etmək haqqın yoxdur.)*

*(Səninlə birgə və yoldaş olan)* Mühacirlər və Ənsarla *(onların olduqları qoşunla)* görüşümə *(mənimlə müharibə etməyə)* gələcəyini xatırladırsan, halbuki hicrət qardaşın *(Əmr ibn Əbu Süfyan Bədr müharibəsində)* əsir olan gün sona çatdı. (Qeyd)[2] Buna görə də əgər *(mənimlə müharibə etməyə)* tələsirsənsə rahat

---

[1] *Bu cümlə Əbu Süfyana işarədir. O, Həzrət Peyğəmbər Məkkəni fəth edərək on min nəfərdən artıq bir qoşunla gecə Məkkəyə daxil olana kimi İslamı qəbul etmədi. Abbas o Həzrətin qatırını minib Məkkənin ətrafında gəzirdi ki, Qureyşi Peyğəmbərin yanına gedib üzr istəmələrinin zəruriliyindən xəbərdar etsin. O, Əbu Süfyanla rastlaşdı. Əbu Süfyana dedi: Mənim tərkimə min, səni Həzrət Peyğəmbərin yanına aparıb sənin üçün aman alım. Onlar Peyğəmbərin yanına gələndə o Həzrət buyurdu: İslamı qəbul et. Əbu Süfyan qəbul etmədi. Ömər dedi: Ey Allahın elçisi, əmr et, onun boynunu vurum. Abbas Əbu Süfyanın qohumu olduğu üçün ona kömək etmək məqsədi ilə belə dedi: Ey Allahın Peyğəmbəri, o sabah İslamı qəbul edəcək. Səhərisi gün yenə Peyğəmbər ona İslamı qəbul etməsini əmr edəndə, o, qəbul etmədi. Abbas gizlində ona belə dedi: Allahın birliyi və Peyğəmbərin peyğəmbərliyinə şəhadət ver, hətta qəlbində inamın olmasa belə, yoxsa öldürüləcəksən. Əbu Süfyan bundan sonra məcbur qalıb İslamı qəbul etdi.*

[2] *İmam əleyhis-salamın məqsədi budur ki, sən bu sözünlə özünü Mühacirlərdən saymaq istəyirsən, halbuki sən, atan və qardaşların əvvəlcə əsir düşdünüz və sonra İslamı qəbul etdiniz.*

ol. Çünki *(biz mütləq bir-birimizlə qarşılaşacağıq. Ona görə də)* mənim sənin görüşünə gəlməyim *(əlinə keçirdiyin şəhərlərdə səninlə vuruşmağım)* daha münasibdir ki, Allah səni cəzalandırmaq üçün məni göndərmiş olur. *(Ona görə ki, fitnə-fəsadla məşğul olanların qarşısını almağa mən başqalarından daha layiqəm.)* Sənin mənim görüşümə gəlməyin *(mənim əlimdə olan şəhərlərdə mənimlə müharibə etməyin)* isə Bəni-Əsəd *(qəbiləsi şairlərindən olan)* qardaşın dediyinə bənzəyir ki:

مُسْتَقْبِلِينَ رِياحَ الصَّيْفِ تَضْرِبُهُمْ      بِحاصِبٍ بَيْنَ أَغْوارٍ وَ جُلْمُودِ

«Xırda daşları çuxurların və böyük daşların arasından götürüb onlara vuran yay küləklərinə üz tutarlar.» *(Məqsəd budur ki, ox, nizə və qılınclar həmin küləklərin xırda daşları kimi sənə və qoşununa yağacaq.)*

Sənin *(ana)* babanı *(Ütbə ibn Rəbiəni)*, dayını *(Vəlid ibn Ütbəni)* və qardaşını *(Hənzələ ibn Əbu Süfyanı)* bir yerdə *(Bədr müharibəsində)* vurduğum qılınc yanımdadır. Allaha and olsun ki, sən mən bildiyim kimisən: qəlbin pərdələnib *(fitnə və azğınlıq pərdəsi ilə elə örtülüb ki, öyüd-nəsihət ona heç bir fayda vermir)* və ağlın zəif və azdır *(ki, haqq yola qədəm qoymursan)*. Sənin barəndə belə deyilsə daha yaxşı olar ki: sən, xeyrinə deyil, ziyanına olan hündür bir pis yeri sənə göstərən nərdivana çıxmısan. Çünki sən sənin olmayan itiyi axtarmısan və sənin olmayan heyvanı otarmısan. Elə şeyi istəyirsən ki, ona layiq deyilsən və onun mədənindən uzaqsan. Buna görə də sənin sözün əməlindən nə qədər də uzaqdır!! (Qeyd)[1] Əmilərinə və dayılarına *(qohumlarına)* çox tez oxşadın. Bədbəxtçilik və puç arzular onları Məhəmmədi *(səlləllahu əleyhi və alih)* inkar etməyə vadar etdi. Buna görə də onları sənin bildiyin yerlərdə *(Bədr, Hüneyn və başqa müharibələrdə)* öz həlak yerlərinə atdılar *(öldürdülər)*. Böyük

---

[1] *Çünki deyirsən ki, mən Osmanın intiqamını almaq niyyətindəyəm və məzluma və zülmə məruz qalmış kimsəyə kömək edərək fitnə və xoşagəlməz işlərin qarşısını almaq istəyirəm. Amma sənin əməlin zülm, fitnə-fəsad və öz zəmanənin imamına qarşı çıxmaqdır.*

hadisənin qarşısını almadılar, meydanı boşaltmayan və heç süstləşməyən qılıncların müqabilində himayə edərək kömək göstərilməsi lazım olan şeydən çəkinmədilər.

Osmanı öldürənlər barəsində çox danışdın. Elə isə sən də xalqın daxil olduğu şeyə daxil ol. *(Sən də başqaları kimi itaət edərək tabe ol.)* Bundan sonra mənim yanımda onlara qarşı iddia irəli sür ki, mən səni və onları Allahın kitabına *(tabe olmağa)* vadar edim. (Qeyd)[1] Aldatmaq istədiyinə *(Osmanın intiqamı adı ilə Şam hökumətini sənə verməyimi planlaşdırmağına)* gəldikdə *(bilməlisən ki)*: bu, uşağı süddən ayırarkən süd *(içməməsi)* üçün onu aldatmağa bənzəyir. Salama layiq kimsəyə salam olsun!

# 65-ci məktub

Bu da imam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındandır. *(Müaviyə məktub yazaraq o Həzrətin Şam hökumətini ona verməsini, onu özünün canişini etməsini və yanına çağırmamasını istəmişdi. İmam əleyhis-salam bu məktubu ona cavab olaraq yazıb və onda, onun sözlərinin səhv olmasını və istədiyi şeylərə layiq olmamasını xatırladıb.)*

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Sənin diqqətlə baxıb aşkar işlərdən faydalanmağının *(mənim xilafətimin düzlük və haqq olmasına yəqin edib inanmağının)* vaxtı çatıb. Nahaq iddialar *(Şam hökuməti və canişinlik iddiası)* etmək, qorxub çəkinmədən özünü yalanlara *(onun azğınlıq çölünə)* atmaq *(və qiyamət əzabını nəzərə almamaq)*, sənin məqam və mərtəbəndən üstün olan şeyi *(müsəlmanlara xəlifəlik və hakimliyi)*

---

*[1] Qurani Kərimin əsasında sizin aranızda hökm çıxarım. Bir-biri ilə çəkişməsi olan iki şəxsə mütləq bir hakim lazımdır. Orada haqq hakim İmam əleyhis-salam idi. Buna görə də Müaviyənin, bir qrup Mühacir və Ənsarı o Həzrətdən tələb edərək qətlə yetirmək haqqı yoxdur. Əslində onun itaət və tabeçilik göstərməsi vacib idi ki, həmin şəxslərlə imamın yanında bir-birini mühakimə etsinlər və sonra həmin mühakimə onun ya xeyrinə, ya da zərərinə sona çatsın. Amma Müaviyənin məqsədi mühakimə və qisas alınması məsələsi deyildi.*

iddia və yalan *(yolu)* ilə özünə yapışdırmaqla keçmişlərinin *(qohumlarının azğınlıq)* yolları ilə getdin *(və düz yoldan uzaqlaşdın)*. Haqdan *(Allahın və Peyğəmbərin göstərişlərindən)* uzaqlaşdığın və sənə ət və qanından da lazımlı şeyi *(mənim xilafətimi)* inkar edib tabe olmadığın üçün sənə tapşırılan şeyi *(beytülmalı)* oğurladın. (Qeyd)[1] Onu *(Həzrət Peyğəmbərin Qədir-Xum və bir çox digər yerlərdə mənim barəmdə buyurduqlarını)* sənin qulağın qoruyub saxlayıb *(«eşitməmişəm» deyə bilməzsən)* və sinən onunla dolub *(«xəbərim yoxdur, bilmirəm» deyə bilməzsən)*. Haqdan və düzlükdən sonra aşkar azğınlıqdan, həmçinin haqqı aşkar etdikdən sonra yanlışlıq və batilə qarışmaqdan başqa nə var? (Qeyd)[2] Buna görə də şübhədən və haqq ilə batili bir-birinə qatmaqdan qorx. Çünki *(şübhələr yaradan)* fitnə, neçə vaxtdır öz pərdələrini asıb *(hazırlayıb)* və onun zülməti gözləri torlu və görməz edib.

Səndən mənə sözləri qarmaqarışıq *(bir-birinə aidiyyatı olmayan)* bir məktub gəlib çatıb ki, onun *(sözlərinlə dəm vurduğun)* sülh və barışıq gücü zəif və yetərsizdir. Onda elə hiylələr var idi ki, onları sənin elm və təmkinin uydurmamış, bir yerə toplamamışdır. *(Əksinə, sən onları nadanlıq, həyasızlıq və ağılsızlıqla hazırlamısan.)* Sən bu puç sözlərinlə hamar qumluqda batan və qaranlıq yerdə ehtiyatsız hərəkət edən *(öz ayağının qabağını körməyən)* kimsəyə bənzəyirsən. Özünü elə uca yerə qaldırmısan *(məndən səni canişin etməyimi istəmisən və həmin məqamı umursan)* ki, ora çatmaq çətin, nişanələri isə yüksəkdir. Ora *(heç kəsin əli çatmayan uca dağların qüllələrində yuva quran iti caynaqlı və yüksək uçuşlu)* qartal *(belə)* çata bilməz. Onunla Əyyuq *(süd yolunun*

---

*[1] Xilafət və imamətin hər şeydən vacib olmasının səbəbi budur ki, ət və qan həmişə dəyişir və əvəz olur. İmama tabe olmağın vacibliyi isə həmişə şəxslə birgədir və onun ayrılmaz hissəsidir ki, onda dəyişmə və əvəz olma baş vermir.*

*[2] Məsələnin həqiqətini bildikdən və haqq aşkar olandan sonra insanın axtarması üçün nahaqdan başqa bir şey qalmır, bu istisna ilə ki, o, həmin nahaqqı haqq kimi göstərməyə çalışsın.*

*sağında çox yüksəklikdə olan kiçik, aydın və qırmızı bir ulduzdur ki, Ülkər ulduzunun arxasında olur və ondan qabağa keçmir)* bir ola bilər. (Qeyd)[1]

Allah göstərməsin ki, sən məndən sonra işlərinin həlli üçün müsəlmanlara hakim olasan, yaxud sənə onların biri üzərində əqd *(– nigah, alver, icarə və bu kimi şeylər), yaxud əhd (beyət, aman, himayə və buna bənzər işlər)* üçün bir vəzifə verim! (Qeyd)[2] Buna görə də indi özünü hazırlayaraq düşün. Çünki əgər Allahın bəndələri sənə tərəf hərəkət edənə *(qoşunumuz səninlə döyüşə gələnə)* kimi nöqsan və başısoyuqluğunu davam etdirsən, qapılar üzünə bağlanacaq və bu gün səndən qəbul edilə bilən iş *(onda)* qəbul edilməyəcək. (Qeyd)[3] Salama layiq kimsəyə salam olsun!

# 66-cı məktub

İmam Əli əleyhis-salamın Abdullah ibn Abbasa *(dünyada sevinməmək və kədərlənməmək barəsində öyüd-nəsihət verdiyi)* məktublarındandır. Bu məktub bundan öncə *(iyirmi ikinci məktubda)* başqa ibarələrlə keçdi.

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Bəndə həmişə əldən çıxarması təqdir edilməmiş şeyə çatanda sevinir. Ona çatması təqdir edilməmiş şeyə görə isə kədərlənir. (Qeyd)[4] Buna görə də dünyadan əldə etdiyin ən yaxşı şey ləzzət və şadlığa çatmaq və *(intiqam almaq və*

---

[1] *Xülasə, insan Allahın istəyi olmadan bu məqam və mərtəbənin həqiqətinə nail ola bilməz.*

[2] *Çünki sən layiq deyilsən və mən, heç vaxt haqqa zidd və Allah və Peyğəmbərin göstərişlərinin əksinə olan bir iş tutmaram və sənin ovsunlarınla yoldan çıxmaram.*

[3] *Əgər bu gün tövbə edib öz yoluna qayıdaraq bizə tabe olsan rahat və asudə qalarsan. Amma müharibə və qan tökülməsi başlayandan sonra çarə etmək mümkün olmayacaq.*

[4] *Halbuki sevinc və kədər yersizdir. Çünki çatmalı şey çatacaq, çatmamalı şey üçün səy edib çalışmağın isə bir faydası yoxdur.*

*incitməkdə)* qəzəb işlətmək deyil, batil və nahaqqı yatırmaq *(məhv etmək)* və haqq və düzlüyü diriltmək *(bərpa etmək)* olmalıdır. Gərək sevincin qabaqcadan göndərdiyin *(sabahına tədarük gördüyün)* şey üçün, kədərin görmədiyin *(dünyada axirət üçün yerinə yetirmədiyin)* iş üçün, fikir-düşüncən isə ölümdən sonra üçün olsun. (Qeyd)[1]

# 67-ci məktub

İmam Əli əleyhis-salamın onun tərəfindən Məkkənin hakimi olan Qusəm ibn Abbasa məktublarındandır. *(İmam əleyhis-salam bu məktubda ona həcc mərasimini bərqərar etməyi əmr edir, camaatla ünsiyyətdə olmayıb qapalı olmaqdan çəkindirir və Məkkə əhalisinin hacılardan kirayə almalarını qadağan edir.)*

Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: Həcci camaatla birgə bərqərar et *(onun əməllərini bilməyənlərə öyrət və həcci yerinə yetirmək üçün onları bir yerə topla)* və «Allahın günlərini» *(keçmiş ümmətlərin çirkin əməllərinə görə aldıqları cəzaları)* onların yadına sal. *(Vaxtların ən yaxşısı olan)* səhər və axşamüstü onlarla otur, *(dini)* hökm soruşana fitva ver, nadana elm öyrət və alimlə söhbət et. Gərək sənin, dilindən başqa camaata söz çatdıranın olmasın. *(Hər nə istəyirsənsə özün birbaşa onlara de. Məğrur insanlar kimi xəbər göndərmə.)* Həmçinin üzündən başqa qapıçın olmamalıdır. *(İstəyən hər bir kəs maneəsiz səni görə bilməlidir.)* İstəyi olanın səninlə görüşməsinə mane olma. Çünki əgər həmin istək işin əvvəlində sənin qapılarından düzəlməsə, onu işin sonunda düzəltdiyin üçün təriflənməzsən. *(İstək sahibi, işin əvvəlində çəkdiyi zəhmətlər nəticəsində ruhdan düşdüyü üçün səni tərifləməz.)*

Allahın malından *(müsəlmanların beytülmalından)* yanında yığılanlara bax *(onunla məşğul ol).* Onu yanında olan ailəli və ac kəslərə ver, *(həqiqətən)* fağır, yoxsul və möhtac olanlara

---

[1] *Çünki sevinmək o vaxt yerinə düşər ki, tapılmayan bir şey əldə edəsən. Həmçinin kədərlənmək o yerdə rəvadır ki, əldə olan qazanc və mənfəəti əldən çıxarasan.*

çatdır. Ondan artıq qalanını bizim yanımıza göndər ki, yanımızda olanlar arasında paylayaq.

Məkkə əhalisinə göstəriş ver ki, *(həmin diyarın əhalisindən olmayıb evlərdə)* məskunlaşanlardan muzd və kirayə almasınlar. Çünki nöqsan sifətlərdən pak olan Allah *(Qurani-Kərimin Həcc surəsinin 25-ci ayəsində)* buyurur: (« إِنَّ الَّذِينَ كَفَرُوا وَيَصُدُّونَ عَن سَبِيلِ اللَّهِ وَالْمَسْجِدِ الْحَرَامِ الَّذِي جَعَلْنَاهُ لِلنَّاسِ سَوَاء الْعَاكِفُ فِيهِ وَالْبَادِ» *Kafir olub Allaha və Peyğəmbərə iman gətirməyənlər və camaatı Allahın yolundan, itaət və bəndəlikdən, hamı üçün etdiyimiz və)* onda «akif» (*oranın əhli*) ilə «badi» (*qərib*) bərabər olan *(Məscidül-Həramdan döndərənlərə şiddətli əzab daddıracağıq)*.» «عاكِف» «Akif»dən məqsəd Məkkədə yaşayan, «بَادِ» «badi»dən məqsəd isə həmin diyarın sakini olmayıb həccə gedəndir. (Qeyd)[1] Allah bizi və sizi Özünün sevdiyi *(əmr buyurduğu)* gözəl əməl və layiqli işlərə müvəffəq etsin. Salama layiq olana salam olsun!

---

[1] *Altıncı əsrin imamiyyə alimlərinin böyüklərindən olmuş mərhum Şeyx Əbu Əli Fəzl ibn Həsən Təbərsi «Məcməul-bəyan fi təfsiril-Quran» kitabında bu mübarək ayənin təfsirində İbn Abbas, Qutadə və Səid ibn Cubeyrdən nəql edib ki: Məkkənin evlərini icarəyə vermək və satmaq haramdır. Həmçinin Məscidül-Həramdan məqsəd bütün Məkkədir, Allah-təalanın İsra surəsinin 1-ci ayəsində buyurduğu kimi ki: «* **سُبْحَانَ الَّذِي أَسْرَى بِعَبْدِهِ لَيْلاً مِّنَ الْمَسْجِدِ الْحَرَامِ إِلَى الْمَسْجِدِ الأَقْصَي** *» «Bəndəsi Həzrət Mustafanı bir gecə Məscidül-Həramdan, yəni, Məkkədən Məscidül-Əqsaya, yəni, Beytul-müqəddəsə aparan Allah pak və müqəddəsdir» Təbərsi əleyhir-rəhmə bu mübarək ayənin təfsirində də belə buyurur: Təfsir alimlərinin əksəriyyəti deyiblər ki, Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) həmin gecə Əli ibn Əbu Talibin (əleyhis-salam) bacısı Ummu Hani və onun əri Hübeyrə ibn Əbu Vəhəb Məxzuminin evində yatıbmış və meraca oradan gedib. Buna görə də burada Məscidül-Həramdan məqsəd Məkkədir və Məkkə ilə hərəmin hər ikisi məsciddir. Mərhum Şeyx Tureyhi «Məcməul-bəhreyn» lüğət kitabında «* **عَكَفَ** *» «əkəfə» kəlməsi barəsində belə deyir: Hədisdə nəql edilib ki, Həzrət Sadiq əleyhis-salam buyurub: Məkkənin evlərinə qapı qoymaq yaxşı sayılmırdı. Çünki hacılar ora düşməli idi ki, öz həcc əməllərini həmin ev əhli ilə birlikdə yerinə yetirsin. İlk dəfə Məkkənin evlərinə qapı qoyan Müaviyə olub. Burada bu məsələ barəsində bundan artıq danışmaq lazım deyil və onun yeri fiqh kitablarıdır.*

# 68-ci məktub

İmam Əli əleyhis-salamın *(zahiri)* xilafətə çatmamışdan qabaq Salman Farsiyə *(Allah ona rəhmət etsin)* olan məktublarındandır *(ki, onda onu dünyaya aldanmaqdan çəkindirib)*. (Qeyd)[1]

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Dünya əl vuranda yumşaq, zəhəri isə həlakedici olan ilan misalındadır. Buna görə də səni dünyada şad edən şeydən *(maldan)* uzaq ol. Ona görə ki, onun malından bir azı *(ancaq bir kəfən)* səninlə birgə qalacaqdır *(qəbrə gedəcəkdir)*. Həmçinin onun qəm-kədərini özündən uzaqlaşdır. Çünki ondan ayrılacağına və onun halının dəyişəcəyinə inanırsan *(bilirsən ki, nəhayət ondan ayrı qalacaqsan və onun rəftarı hər an əvvəlki vaxtdakı rəftarına ziddir. Buna görə də ona ürək bağlama və bir neçə günlük yaşayış üçün özünü qəmləndirmə)*. Dünya ilə ünsiyyət və əlaqən çox olan zaman ondan daha çox qorx. Çünki dünyapərəst ona ürək bağlayıb şad olanda, dünya onu

---

[1] *Salman (Allah onun ruhunu müqəddəsləşdirsin) ən böyük və hörmətli müsəlmanlardan, Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) ən seçilmiş və yaxın səhabələrindən və Əmirəl-möminin əleyhis-salamın şiələrindən olub. İbn Əbil Hədidin hədis alimlərinə istinad edərək nəql etdiyinə görə Salman «Səqifə» günü müsəlmanlara fars dilində belə deyib: «كرديد و نكرديد» «kərdid və nəkərdid» «etdiniz və etmədiniz», yəni, özünüz xəlifə seçdiniz və Həzrət Peyğəmbərin təyin etdiyi xəlifəyə göz yumdunuz. Kinayə ilə demək istəyib ki, zahirdə müsəlmana oxşayırsınız, amma batində müsəlman deyilsiniz. Qələm əhli arasında onun İslamdan qabaqkı adı barəsində fikir ayrılığı mövcuddur və onun üçün Mənuçehr şahın övladlarından Ruzbeh ibn Xoşnudan, Behbud ibn Bədəxşan və bu iki addan başqa digər adlar deyilib. Həzrət peyğəmbər onu Salman adlandırıb. Ona Salmanul-xeyr və Salmanul-Məhəmmədi ləqəbi verilib. Ondan «sən kimsən?» deyə soruşanda «mən Adəm övladlarından olan Salman ibn əl-İslamam» cavab verirmiş. Künyəsi Əbu Abdullah, Əbulbəyyinat və Əbulmürşid olub. Onun əsli ya Şirazdan, ya Ramhürmüzdən, ya Şuştərdən, ya da İsfahanın Cəyy deyilən kəndindən olub.*

həmin şəraitdən çətinliyə tərəf çəkir, yaxud onunla ünsiyyət və əlaqəyə arxalanıb dinclik tapanda onu həmin haldan *(çıxarıb)* qorxu və vahiməyə düçar edir. *(Buna görə də ağıllı adam bu cür düşmənlə dostluq etməyə aldanmamalıdır, əksinə, o, özünü dost kimi göstərəndə ondan daha çox uzaqlaşmalıdır.)* Salama layiq kimsəyə salam olsun!

# 69-cu məktub

İmam Əli əleyhis-salamın Haris Həmdaniyə məktublarındandır. *(O, Əmirəl-möminin əleyhis-salamın səhabələrindən və deyəsən, o Həzrətə tabe olanlardan olub. Həmdan Yəməndə olan bir qəbilənin adıdır. Bu, böyük bir məktubdur ki, Seyyid Şərif Rəzi əleyhir-rəhmə onun bir hissəsini burada bəyan edib. Onun mövzusu gözəl və nəcib əxlaq və xasiyyət, eləcə də bəyənilən davranış qaydalarıdır.)*

Quran ipindən yapış *(onun hökm və göstərişləri əsasında davran)*, onu özünə öyüd-nəsihət verən et və halalını halal, haramını haram bil *(ki, dünya və axirət səadətini və xoşbəxtliyini sənə nəsib etsin)*. Bundan əvvəl olmuş həqiqətlərə inan. *(Həzrət Peyğəmbərdən əvvəl olmuş peyğəmbərləri və onların Allah tərəfindən öz ümmətlərinə gətirdiklərini təsdiq et.)* Dünyanın keçmişindən onun qalan hissəsi üçün ibrət al. *(Onun qalan hissəsini keçmişi ilə müqayisə et, tutuşdur və bil ki, qalan da keçən kimi minlərlə dərd-qəmlə ötüb keçəcək.)* Çünki onun bir hissəsi digər hissəsi kimidir və sonu əvvəlinə bağlıdır. Onun hamısı məhv olan və aradan gedəndir. (Qeyd)[1] Allahın adını uca tut və haqq, doğru və yerindən başqa Ona and içmə. *(Yaxud Ona, and içilməsi münasib və layiqli olan yerdə and iç. Buna görə də Onun adına yalandan və ya əhəmiyyətsiz şey üçün and içməkdən çəkin, qorx.)* Ölümü və ölümdən sonrakı vəziyyətləri çox yadına sal *(ki, bu sənin üçün ən böyük moizə edən və öyüd-nəsihət verəndir)*.

---

[1]*Dünya həmişə belə olub və indi də belədir və sonda onun hamısı məhv olacaqdır. Buna görə də belə bir yerə ürək bağlamaq ağılsızlıqdır.*

Möhkəm şərti olmadan onu arzulama. (Qeyd)[1] Əməl sahibinin özündə layiqli bilib başqa müsəlmanlarda nalayiq hesab etdiyi hər bir işdən çəkin. *(Özün üçün bəyənmədiyin işi başqasına rəva görmə. Həmçinin özün üçün münasib bilmədiyin şeyi camaata namünasib güman etmə.)* Gizlində edilərək aşkarda xəcalət gətirən hər bir işdən çəkin. *(Gizlində çirkin və günah iş görüb camaat xəbər tutanda xəcalət çəkməyinə səbəb olan işdən çəkin.)* Əməl sahibindən *(nə üçün belə etməsini)* soruşanda inkar etdiyi və ya üzr istədiyi hər bir işdən uzaq ol. *(Heç vaxt kiminsə barəsində söz gəzdirmə, yalan quraşdırma.)* Şərəf və heysiyyətini söz oxlarına hədəf etmə. *(Onu ağzıgöyçəklər və eyb axtaranların dilindən qoru.)* Hər eşitdiyini xalqa demə ki, bu yalançılığın nişanəsidir. (Qeyd)[2] Xalqın sənə dediklərini rədd edib yalan sanma ki, bu da nadanlığa dəlildir. *(Çünki ola bilər ki, sənə deyilənlər düz olmuş olsun. Buna görə də onu inkar etmək haqqa nadan olmaqdır.)* Qəzəbini ud və qüdrətin olan zaman *(cəzalandırmaqdan)* keç. Əsəbləşəndə təmkinli ol və imkan və qüdrətinin olmasına baxmayaraq, *(intiqam almaqdan)* uzaq ol ki, gözəl savab sənin olsun. *(Qiyamət günü Allah səndən intiqam almasın və mərhəmətini sənə nəsib etsin.)* Allahın sənə əta etdiyi hər bir nemətin şükrünü yerinə yetir. Allahın sənə bəxş etdiyi nemətlərin heç birini zay etmə. Gərək Allahın sənə əta etdiyi şeyin nişanəsi səndə görünsün. (Qeyd)[3]

---

[1] *Ölüm arzulamaq o vaxt yerinə düşər ki, itaət və bəndəlik nəticəsində və axirət səfərinin azuqəsinə malik olmaqla sənin ölümdən sonra işlərinin bu həyatdan yaxşı olacağına yəqinliyin olsun. Belə olmasa, bu cür arzulara dalmaq dini zəif və ağılsız insanların diləyidir ki, onlar axirət işlərini düzəltməmiş ölüm arzulayarlar.*

[2] *Çünki ola bilər ki, eşitdiyin şey yalan olmuş olsun. Buna görə də fikirləşib düşünmədən nəyisə söyləməyin sənin özünün yalan danışmağın, «belə eşitmişəm» deməyin isə yalan nəql etməyin kimidir.*

[3] *Məsələn gərək elmini nadanlara öyrədəsən, gözəl paltarını geyinəsən, mal və sərvətindən yoxsullara bağışlayasan, geniş-rahat evində möminləri qonaq çağırasan və həmçinin Allahın sənə verdiyi hər bir nemətin nişanəsini xalqa göstərəsən.*

Bil ki, möminlərin ən gözəli özündən, qohum-əqrəbasından və malından bağışlamaq baxımından daha yaxşı olanıdır. (Qeyd)[1] Həmçinin bil ki, sənin qabaqcadan göndərdiyin gözəllik *(Allah yolunda verdiyin və əta etdiyin şeyin gözəlliyi)* sənin üçün toplanaraq qalır *(qiyamət günü onun savabını əldə edəcəksən)*. Özündən sonra qoyduğun şeyin gözəlliyi isə başqası üçündür *(onun xeyri varisə nəsib olur)*. Zəif nəzər və düşüncə və xoşagəlməz əməl sahibi ilə oturub-durmaq və yoldaşlıq etməkdən çəkin. Çünki insan öz dostu ilə həmxasiyyət olur. *(Buna görə də onu dostuna oxşadırlar.)* Böyük şəhərlərdə məskunlaş. Çünki müsəlmanlar orada bir-birinin yanındadırlar *(və onlardan elm və bilik əldə etmək və səadət və xoşbəxtlik yollarını öyrənmək olar)*. *(Allahdan)* qafil olmağa və *(Onu)* yaddan çıxarmağa, *(yaxşılara)* zülm etməyə səbəb olan və Allaha itaət və bəndəlik yolçularının az olduğu *(küfr ölkələri və kəndləri kimi)* yerlərdən çəkin. Düşüncəni işinə yarayan şeylərə vadar et *(puç işlərə sərf etmə)*. Bazarların başında oturmaqdan çəkin. Çünki ora Şeytanın yeri və fitnə-fəsadın üzə çıxdığı məkandır. *(Çox vaxt bu yerlərdə dünya işləri və dinə zidd əməllərlə məşğul olurlar. Buna görə də bacardıqca oradan uzaq olmaq lazımdır. Əl altında olan və)* sənin ondan üstün olduğun *(Allahın səni ondan üstün etdiyi)* kəs barəsində çox düşün, qayğılan. Çünki sənin onun barəsində fikirləşməyin, şükr yollarından biridir. *(Bu qayğılanmaq ilə Allahın sənə verdiyi nemətlərin şükrünü yerinə yetirmiş kimi olursan.)* Cümə günü namazda iştirak edənə kimi səfərə çıxma. Allah yolunda *(din düşmənləri ilə cihada)* getmək, yaxud üzrlü olduğun *(və namaz vaxtına kimi qala bilmədiyin)* səfər bundan istisnadır. Bütün işlərində Allaha itaət et, tabe ol *(Onun göstərişləri əsasında hərəkət et)*. Çünki *(səadət və xoşbəxtlik onunla əldə edildiyi üçün)* Allaha itaət hər bir şeydən üstündür. İbadət və bəndəlikdə öz nəfsini tovla. *(Onu aldadıb cəzadan qorxutmaq və savaba*

---

[1] *Özü itaət və bəndəlik edən, qohum-əqrəbasını düz yola istiqamətləndirən və malından yoxsul və imkansızlara verən kəsdir.*

*sevindirmək vasitəsi ilə şəhvətdən saxla və itaətə vadar et.)* Onunla yumşaq davran *(Onu çox çətinliyə salma)* və onu məğlub etmə *(öhdəsinə ağır vəzifələr qoyma)*. Güzəşt və sevinc zamanı onu haqla *(asudə və şad olanda onu itaət və bəndəliyə məcbur et, əlbəttə, gündəlik namazlar kimi)* yerinə yetirilməsi sənin üçün vacib olan şeylərdən qeyrisi üçün. Çünki onun *(vacibatın)* yerinə yetirilməsi və vaxtında həyata keçirilməsi zəruridir *(şad və ya qəmgin olmaqdan asılı olmayaraq onları mütləq yerinə yetirmək lazımdır)*. Sən dünya malı əldə etmək üçün Rəbbindən *(Ona itaətdən)* qaçarkən ölümün səni haqlamasından qorx. Yaramaz əməl sahibləri ilə yoldaşlıq etməkdən çəkin. Çünki pis pisliyə birləşər. Allahı uca və böyük bil, Onu sevənləri sev. Qəzəbdən çəkin. Çünki o, şeytanın qoşunlarından olan böyük bir qoşundur *(ki, onun vasitəsi ilə səni bədbəxtliyə çəkir)*. Salama layiq kimsəyə salam olsun!

# 70-ci məktub

İmam Əli əleyhis-salamın onun tərəfindən Mədinənin hakimi olmuş *(və qırx beşinci məktubun şərhində yaxşılığını xatırlatdığımız)* Səhl ibn Hüneyf Ənsariyə, həmin diyarın əhalisindən Müaviyəyə birləşmiş bir dəstə barəsindəki məktublarındandır *(ki, İmam əleyhis-salam ona bu hadisəni əhəmiyyətsiz sayıb kədərlənməməyi buyurmuşdur)*.

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Mənə xəbər çatıb ki, sənin yanında olanlardan bəziləri gizlində Müaviyəyə birləşirlər. Onların əldən çıxması və sənə olan köməklərinin *(qoşun və rəiyyətinin sayının)* azalmasına görə ruhdan düşüb kədərlənmə. Onlar *(cəzalandırılmaları)* üçün azğınlıq *(xəstəliyi)*, sənin üçün isə onlardan şəfa tapmaq *(onların əzab-əziyyətlərindən qurtulmağın)* bəsdir. (Qeyd)[1] Onların qaçdıqları şey hidayət və qurtuluş,

---

[1] *Çünki azğınların olmasının özü cəmiyyətin bədənində ağır bir xəstəlikdir. Bəzən onun mikrobu sirayət edib cəmiyyəti dağıdır. Buna görə də onların qaçmaları cəmiyyətin həmin xəstəlikdən sağalmasında*

*(tərəfinə)* tələsdikləri şey isə azğınlıq və nadanlıqdır. Onlar dünyanı sevənlərdir ki, tələsik ona üz tutublar. Onlar *(bizim davranış üsullarımızdan)* ədalət və düzlüyü tanıyıb gördülər, eşitdilər, qulaqlarında saxladılar və bildilər ki, bizim yanımızda olan insanlar haqq-hüquq baxımından bərabərdirlər. Buna görə də *(onların arasında hər bir şeyi ancaq bərabər bölüşdürməyimizi görüb)* qaçdılar ki, özləri mənfəət əldə edib başqalarını nəsibsiz qoysunlar. Allah onları rəhmindən uzaq etsin!!

Allaha and olsun ki, onlar zülm və sitəmdən qaçmayıb və ədalət və insafa qovuşmayıblar. Biz Allahın, istəyəcəyi təqdirdə bu xilafət işinin çətinliklərini bizim üçün asanlaşdıracağına və nahamarlıqlarını hamarlaşdıracağına ümidvarıq . Sənə salam olsun!

# 71-ci məktub

İmam Əli əleyhis-salamın *(Əbdül-Qeys qəbiləsindən olan)* Münzir ibn Carud Əbdiyə məktublarındandır. *(İmam əleyhis-salam)* onu bəzi şəhərlərə *(Farsa)* hakim təyin etmişdi. Münzir o Həzrətin onu təyin etdiyi bəzi işlərdə xəyanət etmişdi. *(Xərac pullarından dörd min dirhəm oğurlamışdı. İmam əleyhis-salam bu məktubda onu məzəmmət edərək öz yanına çağırmışdır. Həmçinin öz qəbiləsi Əbdül-Qeys ilə Həzrət Peyğəmbərin hüzuruna gəlib İslamı qəbul etmiş atası Carudu tərifləmişdir. Axır ki, «Rical» alimləri Münziri zəif hesab edir və onun rəvayətlərinə etimad etmirlər.)*

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Atanın yaxşılığı məni aldatdı və sənin, onun üsuluna tabe olub onun yolu ilə gedəcəyini güman etdim. Birdən mənə xəbər çatdı ki, xəyanət etmisən: nəfsi istəklərinə tabe

---

*təsirlidir. İmamın sağalaraq şəfa tapmağı hakimə nisbət verməsinin səbəbi, cəmiyyət başçısının cəmiyyətin hamısı kimi, onun timsalında olmasıdır.*

olmaqdan əl çəkmirsən, axirətin üçün azuqə toplamırsan, öz dünyanı axirətini viran etməklə abadlaşdırırsan və dinindən qırılaraq qohum-əqrəbana birləşirsən. (Qeyd)[1] Əgər səndən mənə çatan şey *(xəyanət)* düz olsa, sənin əhlilləşmiş dəvən və ayaqqabının bəndi(Qeyd)[2] səndən yaxşıdır. (Qeyd)[3] Sənin kimisi isə sərhədin qorunmasına, ya iş görülməsinə, yaxud məqamı yüksəldilməyə, yaxud əmanətə şərik edilməyə və ya xəyanət və əyriliyin qarşısının alınmasına təyin edilməyə layiq deyil. *(Sərhədlərin qorunması, şəhərlərin hökuməti və ya işlərin icrasına başçılığı sənə tapşırmaq yaraşan iş deyil.)* Buna görə də Allahın istəyi ilə bu məktubum sənə çatan zaman mənim yanıma gəl. (Qeyd)[4] *(Seyyid Rəzi deyir:)*

Bu Münzir həmin kəsdir ki, Əmirəl-möminin əleyhis-salam onun barəsində belə buyurub: O, öz sağ-soluna çox baxır, əynindəki iki «bürd»ü *(çox qiymətli Yəmən paltarı)* ilə öyünür və ayaqqabılarının toz-torpağını çox təmizləyir. *(Yəni, o, özü və paltarı ilə öyünən və bəzənən təkəbbürlü və məğrur bir şəxsdir.)*

---

[1] *Bəlkə də bu cümlə gələcəkdən xəbərdir. Mərhum Əllamə Məclisi «Biharul-ənvar» kitabının onuncu cildində Seyyid ibn Tavus əleyhir-rəhmədən nəql edir ki, İmam Hüseyn əleyhis-salam bir məktub yazıb onu, adı Süleyman, künyəsi isə Əba Zərin olan qulamı ilə Bəsrənin böyüklərinə göndərdi və onları köməyə və ona tabe olmağa çağırdı. Yəzid ibn Məsud Nəhşəli və Münzir ibn Carud Əbdi də həmin Bəsrə böyüklərindən idilər. O, həmin hadisəni nəql edərək bu yerə çatır ki: Münzir ibn Carud məktub gətirən şəxsi Ubeydullah ibn Ziyadın yanına gətirdi. Çünki məktubun Ubeydullah tərəfindən kələk və məkr olmasından qorxdu. Münzir ibn Carudun qızı Bəhriyyə, Ubeydullah ibn Ziyadın arvadı idi. Sonra Ubeydullah məktub gətirən şəxsi dar ağacından asdı. Bundan sonra isə minbərə çıxıb xütbə oxudu və Bəsrə əhalisini hədələdi ki, müxalifət yolunu tutmasınlar.*

[2] *Ərəb ayaqqabılarında ayağın böyük barmağının qoyulduğu yer.*

[3] «**جَمَلُ أَهْلِكَ وَ شِسْعُ نَعْلِكَ خَيْرٌ مِنْكَ**»*Bu cümlə məsəldir və mənası budur ki, heyvan və cansız əşyanın xeyri səndən çoxdur.*

[4] *Münzir İmam əleyhis-salamın yanına gələndə o Həzrət onu zindana saldı. Əmirəl-mömininin səhabələrinin yaxşılarından və Əbdül-Qeys qəbiləsinin böyüklərindən olan Səsəə ibn Sauhan onun barəsində vasitəçilik edərək onu zindandan azad etdirdi.*

# 72-ci məktub

İmam Əli əleyhis-salamın Abdullah ibn Abbasa *(Allah onu bağışlasın)* məktublarındandır *(ki, onda ona öyüd-nəsihət verir)*.

Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: Sən öz əcəlindən qabağa düşə bilməyəcəksən. Sənə çatmayan şey sənin ruzin deyil. *(Ölümünün ixtiyarı sənin əlində deyil. Həmçinin sənə çatmayacaq şeyi əldə edə bilməzsən.)* Bil ki, ruzigar iki gündür: bir günü sənin xeyrinə, bir günü isə ziyanınadır. Dünya şadlıqların fırlanaraq əldən ələ keçdiyi diyardır. *(Hər kəsin öz növbəsi var.)* Buna görə də dünyadan sənin xeyrinə olan şey, hətta aciz olsan *(başqaları onun qarşısını alsalar)* belə, sənə çatacaqdır. Həmçinin *(güclü olsan da)* onun sənin ziyanına olan şeylərinin qarşısını zor və güc ilə ala bilməzsən. (Qeyd)[1]

# 73-cü məktub

İmam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındandır *(ki, onda onu məktubunun nadürüstlüyünə görə məzəmmət edərək hədələyib)*.

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Mən sənə dalbadal cavab verməklə və məktubuna qulaq asmaqla *(nadan və azğın olduğun üçün öyüd-nəsihətin sənə heç vaxt xeyir verməyəcəyi və fitnə-fəsaddan əl çəkməyəcəyin barəsindəki)* nəzər və düşüncəmi süstləşdirirəm, fərasət və zirəkliyimi *(yəqin və inamımı)* səhvə salıram *(halbuki sənin kimisinin cavabında*

---

[1] *Necə ki, Qurani-Kərimin Yunus surəsinin 107-ci ayəsində buyurulur:* « **وَإِن يَمْسَسْكَ اللّهُ بِضُرٍّ فَلاَ كَاشِفَ لَهُ إِلاَّ هُوَ وَإِن يُرِدْكَ بِخَيْرٍ فَلاَ رَآدَّ لِفَضْلِهِ يُصَيبُ بِهِ مَن يَشَاء مِنْ عِبَادِهِ وَهُوَ الْغَفُورُ الرَّحِيمُ** » *«Əgər Allah sənə bir zərər yetirsə, səni Ondan başqa heç kəs qurtara bilməz. Əgər Allah sənə bir xeyir diləsə, heç kəs Onun nemətinə maneçilik edə bilməz. Allah onu bəndələrindən istədiyinə nəsib edər. O, bağışlayan və rəhm edəndir!»*

*susmaq lazımdır. Amma mənim cavab verməyimin səbəbi ancaq və ancaq yumşalaraq bir daha səni başa salıb bəhanə gətirməyinə yer qoymamaqdır)*. Sən hiylə və «zirəngliklə» məndən bəzi şeylər istəyəndə və cavab almaq üçün mənə məktub göndərəndə yalan və pərişan yuxu görən ağır yatmış şəxsə, yaxud da ayaq üstə durmaqdan aciz və biçarə qalmış *(nə yol gedə bilən, nə də ayaq üstə dayana bilən)* və qarşıya çıxacaq şeyin xeyrinə və ya ziyanına olacağını bilməyən kimsəyə bənzəyirsən. Sən onun kimi deyilsən, bəlkə o sənə oxşayır. *(Sənin vəziyyətin başqasına oxşamaqdan da pisdir. Çünki sən bədbəxtlik və biçarəlikdə təksən. Sən ancaq və ancaq özünə oxşayırsan.)* Allaha and olsun ki, əgər *(əsaslanaraq ona uyğun davranmalı olduğum məsləhətə görə)* qalmağını istəməsəydim tərəfimdən sənə sümüyü sındıran və əti əridən *(səni məhv edən)* zərbə vuranlar *(müharibə və döyüşün çətinlikləri)* gəlib çatardı. Bil ki, sənin yaxşı işlərə qayıtmağına və nəsihət verənin öyüdlərinə qulaq asmağına *(öz zəmanənin imamına üz tutaraq göstərişlərini icra etməyinə)* şeytan mane olur. Salama layiq kimsəyə salam olsun!

# 74-cü məktub

İmam Əli əleyhis-salamın Rəbiə və Yəmən əhli üçün yazdığı əhdnamələrdəndir *(ki, onda onlarla Qurani-Kərimə tabe olmaq, vəhdət və birlik barəsində əhd bağlayıb.)* Bu əhdnamə *(Əbul Münzir)* Hişam ibn *(Saib)* Kəlbinin(Qeyd)[1] xətti ilə nəql edilmişdir.

Bu, Yəmən əhli və Rəbiə qəbiləsinin həm məskunlaşmışları, həm də köçərilərinin Allahın kitabı *(ona əməl etmək)* barəsində bir araya gəldikləri əhddir ki: *(başqalarını)* ona tərəf dəvət etsinlər, onun əsasında əmr etsinlər, ona dəvət edib əmr verəni *(onun sözlərini)* qəbul etsinlər, onun müqabilində heç bir şey almasınlar və onu dəyişdirməyə razı olmasınlar. *(Bu əhdə sadiq qalsınlar və dünya malı əldə etmək üçün aldanıb Qurandan əl götürməsinlər.)* Həmçinin onlar müxalif və etinasızların qarşısını almaq üçün vəhdət *(birlik)* yaradaraq bir-birlərinəköməkçi olsunlar: çağırışları *(sözləri)* bir olsun, birinin töhmət vurması və qəzəblənməsi və ya bir dəstənin digər bir dəstəni təhqir etməsi və söyməsinə görə əhdlərini pozmasınlar. (Qeyd)[2] Onların hazır və qaibləri, ağlı az olanları və alimləri, həlim və nadanları bu əhdnamədə möhkəmdirlər. Beləliklə, bu əhdnamə ilə Allahın peymanı onların öhdəsinə düşdü *(və gərək ona əməl etsinlər). (Çünki)* Allahın peymanı barəsində sorğu-sual ediləcəkdir. *(Bu əhdnaməni)* Əli ibn Əbi Talib yazdı.[3] (Qeyd)

---

[1] *Kufə əhlindən və böyük imamiyyə alimlərindən olan İbn Kəlbi çoxlu təfsir və əsərlər sahibi olub və ərəb soyları və tarixinə də bələd olub. O, iki yüz altıncı hicri ilində vəfat etmişdir.*

[2] *Bu iki qəbilənin və ya digər bir yerin nadanlarından bəzisinin onları təhqir etməsini, ehtiramsızlıq göstərməsini və ya söyüş söyməsini əhd-peymanlarını pozmaq üçün dəlil etməməlidirlər.*

[3] *«Nəhcül-Bəlağə»nin bəzi nüsxələrində Əli ibn Əbi Talibin yerinə Əli ibn Əbu Talib yazılıb və onun izahında belə deyilib: İmam əleyhis-salam buna bənzər digər bir yerdə də (o Həzrətin xətti ilə olması*

*məşhur* olan *və* böyük kitabxanalarda *saxlanılan* Quranlarda da) öz *adını həmin kəlmə izafət tərkibində təyin edən olmasına* baxmayaraq onu *«Əbu» şəklində yazıb. Çünki izafətin tərkib hissələri* xüsusi ism olanda, o, *bir kəlmə misalında* olur. *Buna görə də* onun *ortasında* heç bir *hərəkə dəyişikliyi baş* vermir.

# 75-ci məktub

İmam Əli əleyhis-salamın xalqın onunla beyətinin əvvəlində Mədinədən Müaviyəyə yazdığı məktublarındandır. *(O Həzrət, bu məktubda Müaviyəyə və onun dostlarına, ona beyət etməyi əmr edir.)* Bu məktubu *(Əbu Abdullah Məhəmməd ibn Ömər)* Vaqidi(Qeyd)[1] Cəməl kitabında nəql edib:

Allahın bəndəsi Əmirəl-möminin Əlidən Əbu Süfyanın oğlu Müaviyəyə:

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Mənim sizin barənizdəki üzrümdən *(mülayimlik və laqeydliyimin səbəbindən)* xəbərdarsan və *(bundan əvvəl)* sizdən *(sizləri özümə beyət etməyə dəvət etməkdən)* uzaqlaşmağımı bilirsən. Nəhayət, çarəsi olmayan və qarşısı alınmaz şey *(Osmanın öldürülməsi və ya ondan qabaqkı digər hadisələr)* baş verdi. Hekayə uzun, söz çoxdur. *(Onları deməyə fürsət yoxdur və ya onlara göz yummaq daha yaxşıdır.)* Keçən keçdi, gələn gəldi. *(Əvvəlki xəlifələrin dövrləri keçdi və haqq olan xilafətin zamanı gəlib çatdı.)* Buna görə də yanında olanlardan *(mənim üçün)* beyət al və yoldaşlarından bir dəstə ilə yanıma gəl. Salama layiq kimsəyə salam olsun!

# 76-cı məktub

İmam Əli əleyhis-salamın Abdullah ibn Abbası Bəsrədə öz canişini edəndə ona olan tövsiyələrindəndir *(ki, onda Abbasa xalqla mehriban olmaq və qəzəbdən uzaq olmaq barəsində öyüd-nəsihət verib)*.

Xalqla gülərüz, məclis yoldaşı və düz ol. *(Heç kəsin səninlə görüşünə mane olma. Elə yerdə otur ki, hamı yanına yol tapa bilsin. Hamının hörmətini saxla. Onları çətin və ağır işlərə məcbur etmə və*

---

[1] *Mədinəli böyük şiə alimlərindən olmuş və iki yüz yetmişinci hicri ilində Bağdadda vəfat etmişdir. Vaqid onun babasının adı olmuşdur.*

*aralarında ədalət və insafla hökm et. Xalqa)* qəzəblənməkdən çəkin. Çünki o, şeytandan olan *(ondan sənə çatan)* yelbeyinlikdir. Bil ki, səni Allaha *(Onun mərhəmətinə)* yaxınlaşdıran hər bir iş, oddan *(qiyamət gününün cəzasından)* uzaqlaşdırır. Səni Allahdan uzaqlaşdıran hər bir iş isə oda yaxınlaşdırır.

# 77-ci məktub

İmam Əli əleyhis-salamın Abdullah ibn Abbası Xəvaricə *(düşüncə və danışıqlarının səhv olması barəsində)* dəlil gətirmək üçün göndərəndə buyurduğu tövsiyələrindəndir *(və onda onu Qurana istinad edib dəlil gətirməkdən çəkindirib)*.

Onlarla Quranla mübahisə etmə *(Qurandan dəlil gətirmə)*. Çünki Quran *(təvil, təfsir, batini və zahiri məna kimi)* çoxlu ehtimal və yozumlara malikdir. *(Onlardan birini)* sən deyərsən *(digər birini isə)* onlar deyərlər *(beləliklə, mübahisə uzun çəkər)*. Onlara sünnəyə(Qeyd)[1] əsaslanaraq dəlil gətir. Çünki onlar heç vaxt sünnəyə əsaslanan dəlildən qaçmağa yol tapa bilməzlər. *(Həmin sözlərin düz və doğru olmasını qəbul etməkdən başqa bir çarələri olmaz.)*

# 78-ci məktub

İmam Əli əleyhis-salamın Əbu Musa Əşəriyə onların *(onunla Əmr ibn Asın)* hökm çıxarmaq *(xəlifə seçmək)* üçün təyin edildikləri *(şərhi 35-ci xütbədə deyilmiş «Daumətul-Cəndəl» adlı)* bir yerdən o Həzrətə yazdığı məktuba cavab

[1] *Həzrət Peyğəmbərin bu kimi buyuruqlarına ki: «حَرْبُكَ يا عِلِيٌّ حَرْبِى » «Ey Əli, səninlə müharibə etmək mənimlə müharibə etməkdir»; həmçinin bu buyuruğuna ki: «عَلِيٌّ مَعَ الْحَقِّ وَ الْحَقُّ مَعَ عَلِيٍّ يَدُورُ مَعَهُ حَيْثُما دارَ» «Əli haqq ilədir və haqq Əli ilə, o hara fırlansa haqq da onunla fırlanar», yəni, Əli əleyhis-salam hər nə desə və etsə haqq və düzdür.*

məktublarındandır. Bu məktubu Səid ibn Yəhya Əməvi *(özünün)* Məğazi *(adlı)* kitabında bəyan edib.

İnsanların çoxu *(dünya və axirətdə)* öz nəsib və qismətlərinin çoxundan məhrum oldular. Beləliklə, dünyaya üz tutdular *(ayaqlarını haqdan kənara qoydular və)* nəfsi istəkləri ilə danışdılar *(Allah və Peyğəmbərin öz zamanlarının imamına tabe olmaq barəsindəki sözlərinə göz yumdular)*. Mən bu işdə *(xilafət məsələsində)* təəcüblü bir yerə gəlib çıxmışam. Orada nəfsləri onları kibr və məğrurluğa vadar etmiş bir neçə dəstə toplaşıb. (Qeyd)[1] Buna görə də mən *(onlarla mülayim davranıram və)* onların çiban və yaralarını müalicə edirəm. Çünki qanın *(birdən)* bağlanmasından *(və sonra müalicənin çətinləşməsindən)* qorxuram. *(Ey haqq və həqiqətdən xəbərsiz və ey nadan)* bil *(mənim onlarla mülayim davranmağımın səbəbi budur)* ki, Məhəmməd – səlləllahu əleyhi və alih – ümmətinin işlərinin nizam-intizama düşməsinə və onların arasında ülfət və dostluq yaranmasına məndən həris *(çox çalışan)* bir kimsə yoxdur. Bu işimlə gözəl savab və qayıdış yeri, sığınacaq istəyirəm və hətta sən məndən ayrılarkən malik olduğun ləyaqətdən *(özünü göstərdiyin paklıq və yaxşılıqdan)* dönsən *(və nəfsi istəklərinlə Qurani-Kərimə zidd hökm versən)* belə, mən tezliklə verdiyim vədə və qoyduğum qərara vəfa edəcəyəm. Çünki bədbəxt və ziyana uğramış o adamdır ki, ona verilmiş əql və təcrübədən məhrum qallmış olsun. (Qeyd)[2] Mən danışan birisinin batil və nahaq söz deməsindən və həmçinin Allahın məsləhət bildiyi bir işi

---

[1] *Çox təəccüblü və heyrətləndirici bir işdir ki, mən, göstərişlərimə əməl etməyən və zülm və müxalifət bayrağı ucaltmış özbaşına və özündən razı bir dəstənin arasında qalmışam. Sonda iş o yerə çatdı ki, xilafət məsələsində mənimlə Müaviyə arasında sən və Əmr ibn As kimisini münsif və vasitəçi təyin etdilər.*

[2] *Yaxud da belə deyirik: Verdiyim vədə vəfa edəcəyəm və əgər sən özündən göstərdiyin ləyaqətdən qayıtsan bədbəxtsən. Çünki bədbəxt o kəsdir ki, ona verilmiş mənfəət və təcrübədən məhrum qalsın. Amma birinci məna daha yaxşıdır.*

pozmaqdan uzaq olduğumu *(yaxud əsəbləşdiyimi və halımın pozulmasını)* bildirirəm.[1] (Qeyd) Buna görə də tanımadığın şeyi burax. *(Bilmədiyin şeyin ətrafına belə firlanma və ehtiyat və düşüncəni əldən vermə.)* Çünki insanların pis əməllilər xoşagəlməz *(haqq və həqiqətə zidd)* sözlərlə sənə tərəf tələsirlər *(ki, sənin ağlının azlığından istifadə edib müsəlmanları zəlalət və azğınlıq yoluna apararaq bədbəxt etsinlər).*[2] (Qeyd)Salama layiq kimsəyə salam olsun!

# 79-cu məktub

İmam Əli əleyhis-salamın *(zahirdə)* xilafətə çatanda ordu başçılarına məktublarındandır *(ki, onda onları haqqa tabe olmağa əmr edərək batil və nahaqdan çəkindirib).*

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: sizdən qabaqkılarınızın həlak olmalarının səbəbi bu olub ki, onlar xalqı haqdan *(hidayət və nicat yolundan)* saxlayıblar və xalq da onu alıb *(qəbul edərək tabe olub, yaxud satıb, yəni, əldən verərək ona qarşı etinasız olub)*. Həmçinin onları batilə *(zəlalət və azğınlığa)* vadar ediblər və onlar da ona tabe olublar.

---

[1] *Əgər bu işdə Quranın hökmləri əsasında hərəkət edilsə mən onunla varam və ümmətin xeyrini pozmaz, bir-birinə vurmaram.*

[2] *Xülasə, Əmr ibn As və Şam əhalisinin sözləri səni aldatmasın. Əgər belə olmasa dünya və axirət səadət və xoşbəxtliyini əldən verəcəksən.*

# VI hиссә

# Feyzul-İslamın VI hissəyə yazdığı müqəddimə:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

أَلْحَمْدُ لِلّهِ الْأَوَّلِ بِلا أَوَّلٍ كانَ قَبْلَهُ وَ الْاخِرِ بِلا اخِرٍ يَكُونُ بَعْدَهُ الَّذِي قَصُرَتْ عَنْ رُؤْيَتِهِ أَبْصارُ النّاظِرِينَ وَ عَجَزَتْ عَنْ نَعْتِهِ أَوْهامُ الْواصِفِينَ وَ الصَّلاةُ عَلى عَبْدِهِ وَ رَسُولِهِ سَيِّدِ الْأَوَّلِينِ وَ الْاخِرِينَ الصّادِقِ الْأَمِينَ مُحَمَّدٍ وَ الِهِ الْأَئِمَّةِ الطَّيِّبِينَ الْهُداةِ الْمَهْدِيِّينَ

اللَّهُمَّ إِنِّي أَسْئَلُكَ بِحُرْمَةِ وَجْهِكَ الْكَرِيمِ وَ بِحُرْمَةِ نَبِيِّكَ مُحَمَّدٍ صَلَواتُكَ عَلَيْهِ وَ الِهِ وَ بِحُرْمَةِ أَهْلِ بَيْتِ رَسُولِكَ أَمِيرِ الْمُؤْمِنِينَ عَلِيٍّ وَ الْحَسَنِ وَ الْحُسَيْنِ وَ عَلِيٍّ وَ مُحَمَّدٍ وَ جَعْفَرٍ وَ مُوسى وَ عَلِيٍّ وَ مُحَمَّدٍ وَ عَلِيٍّ وَ الْحَسَنِ وَ الْخَلَفِ الْباقِى صَلَواتُكَ وَ بَرَكاتُكَ عَلَيْهِمْ أَنْ تُصَلِّىَ عَلَيْهِمْ أَجْمَعِينَ وَ تُعَجِّلَ فَرَجَ قائِمِهِمْ بِأَمْرِكَ وَ تَنْصُرَهُ وَ تَنْتَصِرَ بِهِ لِدِينِكَ وَ تَجْعَلَنِي فِى جُمْلَةِ النّاجِينَ بِهِ وَ الْمُخْلِصِينَ فِى طاعَتِهِ بِرَحْمَتِكَ يا أَرْحَمَ الرّاحِمِينَ

«Nəhcül-Bəlağə» elə bir kitabdır ki, əgər dünyanın ağıllıları, alimləri və natiqləri insanların səadət, xoşbəxtlik və asayişi barəsində bir söz demək və ya yazmaq istəsələr, onun kimi deyə və yaza bilməzlər. Çünki o elə bir şəxsin dil və qələmindən çıxıb ki, elmlər və ilahi maarifin nümunəsidir və peyğəmbərlərin sonuncusundan *(səlləllahu əleyhi və alih)* sonra bütün bəşəriyyətdən üstündür. Bü kitab möcüzədir. Çünki bəşəriyyət onun kimisini gətirməyə qadir deyildir. Əlbəttə, ola bilər ki, bəziləri bu nöqtəni dərk etməyib mənim sözlərimi puç sansınlar. Amma mən uzun illər dini elm və maariflə məşğul olub onu dərk etdikdən sonra bu mübarək

kitab və onun ərəb və fars dillərində olan şərhlərini mütaliə etdiyim və onun barəsində yüzlərlə təfsir, fiqh, hədis, fəlsəfə, kəlam, tarix, lüğət, rical və digər elmlərin kitablarını diqqətlə oxuyub araşdırdığım üçün bu sözü tam əminliklə bütün bəşəriyyətə xatırladıram. Həmçinin Allaha şükr edir və «elm şəhərinin qapısı» Həzrət Əmirəl-mömininin hüsn-rəğbətindən baş ucalığı duyuram ki, məni bu kitabın beş hissəsinə tərcümə və şərh yazmağa nail edib və mənə ancaq məhdud bir təbəqənin istifadə etdiyi *(və hər bir kəsin öz dərki miqdarında ondan dünya və axirət mənfəəti qazanması üçün onu ümumi kütlənin istifadəsinə çatdırmaq yolunu bilmədikləri)* bir kitabı dünyanın hər yerində yaymaq və həm seçilmiş təbəqə həm də avam təbəqəni onun məziyyət və xüsusiyyətləri ilə tanış etmək bacarığı verib. İndi *(bu kitabın son hissəsi olan)* altıncı hissəni yazmağa başlayıram və ümidvaram ki, Allahın istəyi ilə tezliklə oxucularaın ixtiyarına veriləcəkdir.

**اللّهُمَّ صَلِّ عَلى مُحَمَّدٍ وَ الِهِ وَ وَفِّقْنا فِى يَوْمِنا هذا وَ لَيْلَتِنا هذِهِ وَ فِى جَمِيعِ أَيّامِنا لِاسْتِعْمالِ الْخَيْرِ وَ هِجْرانِ الشَّرِّ وَ شُكْرِ النِّعَمِ وَ اتِّباعِ السُّنَنِ مُجانِبَةِ الْبِدَعِ وَ الْأَمْرِ بِالْمَعْرُوفِ وَ النَّهْىِ عَنِ الْمُنْكَرِ وَ حِياطَةِ الْإِسْلامِ وَانْتِقاصِ الْباطِلِ وَ إِذْلالِهِ وَ نُصْرَةِ الْحَقِّ وَ إِعْزازِهِ وَ إِرْشادِ الضّآلِّ وَ مُعاوَنَةِ الضَّعِيفِ وَ إِدْراكِ اللَّهِيفِ امِينَ يا رَبَّ الْعالَمِينَ**

**Fani bəndə:**
**Əliyyənnəqi Feyzul-İslam**
**İsfahani Ali-Məhəmməd əd-Dibac.**

# Fəsil

Bu fəsildə *(hissədə)* Əmirəl-möminin Əli əleyhis-salamın hikmətli söz və nəsihətləri toplanıb və ona, o Həzrətdən soruşulmuş bəzi sualların cavabları və

nəzərdə tutduğu şeylər barəsində bəyan etdiyi qısa kəlamları əlavə edilib.

## 1

İmam Əli əleyhis-salam *(fitnəkarlarla rəftar barəsində)* buyurmuşdur:

Fitnə-fəsad zamanı nə minilməli beli *(gücü)* və nə də süd sağılmalı əmcəyi olan *(iki yaşı tamam olmuş və anası ondan sonra doğduğu balasına süd verən)* erkək dəvə balası kimi ol. ***(Qeyd)***[1]

## 2

İmam Əli əleyhis-salam *(tamah, hərislik, çətinlik və yoxsulluğu başqalarına bildirmək və düşünmədən danışmağın məzəmmətində)* buyurmuşdur:

Tamah və hərisliyi *(başqalarının əlində olan şeylərə göz tikməyi)* öz şüarı etmiş kəs özünü kiçildib. *(Çünki tamah möhtaclığa və insanın özünü əyməsinə səbəb olur. Möhtaclıq və özünü əymək isə alçaqlıq və kiçikliyə səbəb olur.)* Öz çətinlik və pərişanlığını *(başqasının yanında)* bildirən kəs zillət və xarlığa qol qoyub. *(Çünki çətinlik və pərişanlığı aşkar etmək həqirlik və xarlıqdır.)* Dilini özünə hakim edən *(fikirləşib düşünmədən dilinə gələni danışan)* kəs öz yanında da xar və zəlildir. (Qeyd)[2]

## 3

İmam Əli əleyhis-salam *(xəsislik, qorxaqlıq, kasıblıq, yoxsulluq və acizliyin məzəmməti və səbrlilik, zahidlik və günahlardan uzaq olmağın mədhində)* buyurmuşdur:

---

[1] *Fitnə-fəsad zamanı elə hərəkət et ki, fitnə törətmək istəyənlər sənin can və malına tamah salmasınlar. Əlbəttə, bilmək lazımdır ki, bu, müharibə və döyüş Əbdülməliklə İbn Zübeyrin və ya Həccac ibn Əşəsin fitnələri kimi iki azğın və azdırıcı başçı arasında olan zaman üçündür. Cəməl və Siffeyn müharibələri kimi onlardan biri haqq, digəri batil olanda isə mövcud qarşıdurma fitnə sayılmır və haqq tərəfə birləşərək onun yolunda mal və canı qurban vermək vacibdir.*

[2] *Çünki həmin şey çox vaxt onun məhvinə və həlakına səbəb ola bilər. Belə adam özünə heç bir məqam və dərəcə nəzərdə tutmayıb.*

Xəsislik ardır. *(Çünki xalq xəsis adamı dünya malına bağlılığına görə məzəmmət edir.)* Qorxaqlıq nöqsan və çatışmazlıqdır. *(Ona görə ki, hər hansı bir məqam və dərəcəyə çatmaq şücaət və cəsurluqdan sonra mümkün ola bilər.)* Kasıblıq zirək şəxsi dəlil və sübutunu bəyan etməkdə lal və dilsiz edir *(necə ki, varlılıq alçaq və nadanı natiqləşdirir)*. Yoxsul öz şəhərində qəribdir *(heç kəs onunla get-gəl etmir)*. Acizlik *(insanı əldən salan)* bəla və biçarəlikdir. Səbr şücaətdir. Zahidlik sərvətdir. *(Çünki zahid, heç kəsə ehtiyacı olmayan varlı şəxs kimi dünya və onun malına möhtac deyil.)* Günahlardan uzaqlıq *(ilahi əzab müqabilində)* qalxandır. *(Qalxan insanı qılıncdan qoruduğu kimi pərhizkarlıq da onu dünya və axirət çətinliklərindən xilas edir.)*

## 4

İmam Əli əleyhis-salam *(insanın ilahi təqdirə razı olması, elm, gözəl xasiyyət və təfəkkürün mədhində)* buyurmuşdur:

İlahi təqdirə razı olmaq gözəl yoldaşdır. *(İnsanın yoldaşı onu rifah və əmin-amanlıqda saxladığı kimi, Allahın istədiyi şeyə razı olan şəxs də rifah və əmin-amanlıqda olur.)* Elm müqəddəs və əziz bir mirasdır *(ki, belə bir irs çatmış hər bir kəs səadət və xoşbəxtlik açarını əldə edib)*. Gözəl xasiyyətlər *(heç vaxt köhnəlməyən)* təzə və yeni zinətlərdir. *(Hər bir işdə)* fikirləşmək təmiz və pak güzgüdür *(güzgü kimidir ki, fikirləşən şəxs onunla işin xeyir və ziyanının görür)*.

## 5

İmam Əli əleyhis-salam *(sir saxlamaq, gülərüzlülük və çətinliklərə qatlaşmağın mədhində)* buyurmuşdur:

Ağıllı adamın sinəsi onun sirlərinin xəzinəsidir. *(Ağıllı şəxs yadı öz sirrindən xəbərdar etməz.)* Gülərüzlülük və yaxşı xasiyyətlilik dostluq tələsidir. *(Gözəl xasiyyət və gülərüzlülüklə xalqın ürəyini ələ almaq mümkündür.)* Çətinliklərə dözüb səbr

etmək pisliklərin örtüyüdür. (Qeyd)[1] *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Nəql edilib ki, o Həzrət əleyhis-salam bu mətləbin yozumunda həmçinin belə buyurmuşdur: Sülh və barışıq eybləri örtməkdir. (Qeyd)[2]

# 6

İmam Əli əleyhis-salam *(özündənrazılığın məzəmməti, yoxsullara sədəqə vermək və bəxşiş etməyin faydaları və hər kəsin öz əməlinin savab və cəzasına çatacağı barəsində)* buyurmuşdur:

Özündənrazı kimsəyə qəzəb edən çox olar. *(Çünki özündən razı olan kimsə xalqı xar sayar və buna görə də hamı ona qəzəb edər.)* Sədəqə xeyirli və şəfaverici dərmandır.[3] (Qeyd) Bəndələrin dünyadakı əməlləri axirətdə gözləri önündə olacaq. (Qeyd)[4]

# 7

İmam Əli əleyhis-salam *(insanın yaradılışının heyrətamizliyi barəsində)* buyurmuşdur:

---

[1] *Çünki əgər şəxs çətinliklər müqabilində səbrli olsa, xalq ondan razı qalaraq onun eyb və pisliklərinə göz yumar. Yaxud onun təmkinliliyi ilə eybləri aşkar, nadanlıqları faş olmaz.*

[2] *Əgər iki nəfər arasında vuruşma yerinə sülh və barışıq bərqərar edilsə xalq onların pisliklərindən xəbərdar olmaz. «Nəhcül-Bəlağə»nin bəzi nüsxələrində həmin kəlam «الْمُسالَمَةُ خِباءُ الْعُيُوبِ» şəklində, yəni, «sülh və barışıq eyblərin örtüyüdür» yazılıb.Çünki vuruşan tərəflər döyüş zamanı bir-birlərinin eyblərinin üstünü açırlar və əgər sülh və barışıq etsələr bir-birlərinin eybləri barəsində də danışmazlar.*

[3] *Çünki sədəqə insanın qəlbini onu verənə yönəldir və o, Allahın dərdi ondan uzaqlaşdırmasına səbəb olur. Buna görə də Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur: «داوُوا مَرْضاكُمْ بِالصَّدَقَةِ» «Xəstələrinizi sədəqə verməklə müalicə və dərman edin.»*

[4] *Çünki axirət hər bir gizlin şeyin aşkar olunaraq göründüyü müşahidə diyarıdır, necə ki, Allah-təala Qurani-Kərimin Ali-İmran surəsinin 30-cu ayəsində buyurmuşdur: « يَوْمَ تَجِدُ كُلُّ نَفْسٍ مَّا عَمِلَتْ مِنْ خَيْرٍ مُّحْضَرًا وَمَا عَمِلَتْ مِن سُوءٍ تَوَدُّ لَوْ أَنَّ بَيْنَهَا وَبَيْنَهُ أَمَدًا بَعِيدًا» «O gün hər kəs etdiyi yaxşı və pis əməlləri, qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq məsafə olmasını arzulayacaqdır (ki, ey kaş onları etməmiş olaydı).»*

Bu insana *(onun yaradılışına)* heyrətlənin *(onun xilqəti barəsində düşünün ki, onu yaradanın qüdrət və bacarığını dərk edəsiniz. Yaradan onu elə yaradıb)* ki, piylə *(göz ilə)* görür, ətlə *(dil ilə)* danışır, sümüklə *(qulaq ilə)* eşidir və dəlikdən *(burundan)* nəfəs alır!!

# 8

İmam Əli əleyhis-salam *(dünyanın məzəmmətində)* buyurmuşdur:

Dünya bir dəstəyə üz tutan zaman başqalarının yaxşılıqlarını müvəqqəti olaraq onlara *(nisbət)* verər. Onlara arxa çevirəndə isə onların öz yaxşılıqlarını da alar. *(Biri imkanlı olanda və bir məqama çatanda dünyapərəstlər onun üçün yaxşılıqlar uydurarlar. Yoxsul və imkansız olanda isə onun öz kamilliklərini də yaddan çıxararlar.)*

# 9

İmam Əli əleyhis-salam *(xalqla mehriban davranmağın faydası barəsində)* buyurmuşdur:

İnsanlarla elə qaynayıb-qarışın və rəftar edin ki, əgər həmin halda ölsəniz *(onlardan ayrıldığınız üçün)* sizə ağlasınlar və əgər sağ qalsanız sizinlə ünsiyyətdə olmağa can atsınlar.

# 10

İmam Əli əleyhis-salam *(düşməni bağışlayaraq onun günahlarından keçmək barəsində)* buyurmuşdur:

Düşmənini ələ keçirən zaman onu bağışlayaraq günahından keçməyi ondan üstünlük qüdrətinin *(bu nemətin)* şükrü et. (Qeyd)[1]

---

[1] *Həzrət Peyğəmbərdən (səlləllahu əleyhi və alih) rəvayət edilib ki: Qiyamət günü bir carçı uca səslə car çəkəcək ki, kimin Allahın öhdəsində savab və mükafatı varsa ayağa dursun. Həmin vaxt başqasının təqsirindən keçənlərdən başqa heç kəs ayağa durmayacaq. Məgər Allah-təalanın (Şura surəsinin 40-cı ayəsindəki) «* فَمَنْ عَفَا وَأَصْلَحَ

# 11

İmam Əli əleyhis-salam *(dostu olmamaq və dostu itirməyin məzəmmətində)* buyurmuşdur:

İnsanların ən acizi dost tapmaqda aciz olan kəsdir. Ondan da acizi isə qazandığı dostlardan birini itirən kəsdir. *(Çünki dost tapmaq onu qoruyub saxlamaqdan daha asandır.)*

# 12

İmam Əli əleyhis-salam onunla birlikdə *(düşmənə qarşı)* vuruşmaqdan kənara çəkilmiş şəxslər(Qeyd)[1] barəsində buyurmuşdur:

Haqq ilə *(İmam əleyhis-salamla)* yoldaşlıq etmədilər və batilə *(Müaviyəyə)* kömək göstərmədilər. (Qeyd)[2]

# 13

İmam Əli əleyhis-salam *(Allahın nemətlərinə şükr etməyə həvəsləndirərək)* buyurmuşdur:

Nemətlərin nümunələri sizə çatanda şükrün azlığı ilə onun qalan hissəsini uzaqlaşdırmayın. (Qeyd)[3]

---

«فَأَجْرُهُ عَلَى اللَّهِ» *«bununla belə hər kəs düşməninə güzəşt edib onunla öz arasını düzəltsə, onun mükafatı Allahın öhdəsinədir» buyuruğunu eşitməmisiniz?*

[1] *Abdullah ibn Ömər ibn Xəttab, Səd ibn Əbu Vəqqas, Səid ibn Əmr ibn Nəfil, Usamə ibn Zeyd, Məhəmməd ibn Muslimə, Ənəs ibn Malik, Əbu Musa Əşəri, Əxnəf ibn Qeys və onlar kimilər (nəzərdə tutulur).*

[2] *Məqsəd budur ki, batilə yardım edənlərin bəhanələri var, amma bitərəf qalanların heç bir üzr və bəhanələri yoxdur. Yaxud məqsəd budur ki, haqdan bir nişanə və batildən bir əlamətləri olmayanların vücudları tamamilə boş və əbəsdir. Yaxud da məqsəd budur ki, onlar bədbəxtlik və azğınlıqda batilə yardımçı olan Əmr ibn Asa və digərlərinə çatmamışdılar.*

[3] *Az nemətə çatanda şükr edin ki, onun daha çoxuna çatasınız. Allah-təala Qurani-Kərimin İbrahim surəsinin 7-ci ayəsində belə buyurur:* «لَئِن شَكَرْتُمْ لَأَزِيدَنَّكُمْ وَلَئِن كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ» *«Əgər (Mənə) şükr etsəniz,*

## 14

İmam Əli əleyhis-salam *(Allahın köməksizlərə yardım etməsi barəsində)* buyurmuşdur:

*(Qardaş, əmi, dayı kimi)* çox yaxın qohumların tərk etdikləri şəxsə *(onun köməyinə)* çox uzaq olan yad çatar. *(Allah adamlar göndərər ki, onu tək qoymasınlar.)*

## 15

İmam Əli əleyhis-salam *(fitnə və bəlaya düçar olmuş kəslər barəsində)* buyurmuşdur:

Fitnə və bəlaya düçar olmuş hər bir kəsi məzəmmət etmək olmaz. (Qeyd)[1]

## 16

İmam Əli əleyhis-salam *(tədbir tökməyə və uzaqgörənliyə arxalanmamaq barəsində)* buyurmuşdur:

İşlər qəzavü-qədərin hökmlərinə elə ram və tabedir ki, (bəzən) ölüm tədbir tökmək və uzaqgörənlikdə olur. (Qeyd)[2]

## 17

İmam Əli əleyhis-salamdan *(xilafəti zamanında saqqalını rəngləməməsinin səbəbini bu yolla)* soruşdular ki, Həzrət Peyğəmbərin *(səlləllahu əleyhi və alih)* «qocalığı dəyişdirin

---

*sizə olan nemətimi artıracağam. Yox əgər nankorluq etsəniz Mənim əzabım, həqiqətən şiddətlidir (və ona düçar olacaqsınız)!»*

*[1] Çünki ola bilər ki, insan məcburiyyət və naçarlıq üzündən onlara düçar olub. Buna görə də o, məzəmmət edilməməlidir, çünki bunun heç bir xeyri yoxdur. Əksinə, ona kömək edilməli, yardım göstərilməlidir, yaxud barəsində dua edilməlidir ki, düşdüyü vəziyyətdən çıxa bilsin.*

*[2] İnsan qəzavü-qədərin xeyir-ziyanlarından və sirlərindən xəbərdar olmadığı üçün öz tədbir və düşüncəsinə ürək qızdırmamalıdır. Çünki tədbir tökmək və düşüncənin özü ölümə səbəb ola bilər.*

*(saqqalınızı rəngləyin)* və özünüzü yəhudilərə oxşatmayın» buyuruğunun mənası nədir? O Həzrət buyurdu:

Peyğəmbər *(səlləllahu əleyhi və alih)* bu sözü din *(əhli)* az olan zaman buyurub. Buna görə də *(müsəlmanlara əmr etdi ki, saqqallarını rəngləsinlər və yəhudilər kimi olmasınlar. Çünki yəhudilər saqqallarına rəng qoymurdular. Amma)* indiki zamanda ki, dinin qayışı genişlənib *(İslam hər yerə yayılıb)* və öz sinəsini yerə qoyub *(qərar tutaraq möhkəmlənib)* hər bir kişi öz ixtiyarındadır. (Qeyd)[1]

# 18

İmam Əli əleyhis-salam *(uzun arzuların məzəmmətində)* buyurmuşdur:

Hər kim arzusunun dalınca qaçaraq cilovunu buraxsa ölüm onun ayağını sürüşdürər *(arzusuna çatmadan ölər. Buna görə də uzun-uzadı arzuların dalınca getməyin və ölümdən qafil olmayın).*

# 19

İmam Əli əleyhis-salam *(comərdlər barəsində)* buyurmuşdur:

Comərdlərin səhv və xətalarından keçin. Çünki onlardan birinin ayağı sürüşən kimi Allahın *(mərhəmət)* əli onun əlində olur və onu *(həmin sürüşkənlikdən)* qaldırır. (Qeyd)[2]

# 20

İmam Əli əleyhis-salam *(qorxu, yersiz utancaqlıq və fürsəti əldən verməyin məzəmmətində)* buyurmuşdur:

---

[1] *İstəyir saqqalını rəngləsin, istəyir rəngləməsin. Xülasə, bu, mübah, yəni, izn verilmiş bir işdir və vacib və ya müstəhəbb deyil. Bəli, saqqalı rəngləmək bir növ zinət və bəzəkdir, necə ki, İmam əleyhis-salam gələcək 465-ci kəlamında bu nöqtəyə toxunub.*

[2] *Allah onu həmin səhv və pisliklərdən qayıtmağa nail edir. Xülasə, Allah yaxşı əməl sahiblərinə öz səhvlərini düzəltmək istiqamətində çalışmaq üçün kömək əta edir.*

Qorxu ziyanla yoldaşdır və utancaqlıq ümidsizliyə birləşikdir. (Qeyd)[1] Fürsət *(münasib vaxt)* ötəri bulud kimi keçir. Buna görə də gözəl fürsətləri əldən çıxarmayın.

---

[1] *Həzrət Peyğəmbər (səlləllahu əleyhi və* alih) *buyurub: «* **اَلْحَياءُ حَياءَانِ حَياءُ عَقْلٍ وَ حَياءُ حُمْقٍ فَحَياءُ الْعَقْلِ هُوَ الْعِلْمُ وَ حَياءُ الْحُمْقِ هُوَ الْجَهْلُ**» *«Həya iki növdür: əqldən* olan *həya və axmaqlıqdan* olan *həya. Əqldən* olan *həya elm, axmaqlıqdan* olan *həya isə nadanlıqdır.» Mərhum Məclisi «*Biharul-*Ənvar» kitabının* on *beşinci cildində «Kafi» kitabından bu rəvayəti nəql etdikdən* sonra *belə yazır: Peyğəmbərin (səlləllahu əleyhi* və alih) *bu buyuruğu həyanın iki növ olmasına dəlalət* edir. *Onlardan biri bəyənilən həyadır ki, əql və ağıllılıqdan yaranır. Belə ki, şəxs sağlam əqlin və ya şəriətin çirkin olmasına* hökm *etdiyi şeydən, məsələn,* günahlar *və* nalayiq *əməllərdən xəcalət çəksin. Digəri isə xoşagəlməz həyadır və o, axmaqlıq və ağılsızlıqdan yaranır.* Buna misal *olaraq insanın* avam insanların pis hesab *etdikləri, əslində isə* çirkin *olmayan və sağlam əqlin və şəriətin* onun düzgün *olmasına* hökm *etdiyi işdən, məsələn, elmi məsələlər barəsində* sual soruşmaq *və ya şəri ibadətləri yerinə yetirməkdən xəcalət çəkməyi göstərmək* olar.

## 21

İmam Əli əleyhis-salam *(xilafətinin qəsb edilməsi barəsində)* buyurmuşdur:

Bizim bir haqqımız *(xilafətimiz)* vardır *(ki, onu Həzrət Peyğəmbər müəyyənləşdirib)*. Buna görə də əgər onu bizə versələr, alacağıq və əgər verməsələr, bu seyr və gecə səfəri uzun olsa da, dəvələrin tərkinə minəcəyik. *(Uzun çəksə də, çətinliyi özümüzə asanlaşdıraraq dözümlülüyü əldən verməyəcəyik. Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

İmamın bu buyuruğu, diqqət və fikrə dalmaqla başa düşülən dolğun kəlamlardandır və onun mənası budur ki, əgər bizim haqqımızı verməsələr çətinlikdə və xar olacağıq. Səbəb budur ki, arxa tərəfə minən kəs qul, əsir və ya onların dərəcəsində olan adam olur və dəvənin tərkinə belələri minir. (Qeyd)[1]

## 22

İmam Əli əleyhis-salam *(gözəl əməllərə təşviq edərək)* buyurmuşdur:

Əməlinin ağırlaşdırdığı *(ibadət və bəndəlik etməyərək yaxşı işlər görməyən tənbəl)* kəsi məqam və dərəcəsi qoçaqlaşdırmaz. (Qeyd)[2]

---

[1] *Xülasə, İmam əleyhis-salamın «əgər bizim haqqımızı verməsələr dəvələrin tərkinə minəcəyik» cümləsindən məqsəd budur ki, həmin qeyd edilən kəslər kimi çətinlik və əziyyət içərisində qalacağıq. Əlbəttə, İmam əleyhis-salamın buyuruğunu Seyyid Rəzi əleyhir-rəhmənin bəyanından daha dəqiq və ya dolğun olan bu şəkildə də tərcümə etmək olar ki: Xilafət bizim payımızdır. Əgər onu bizə versələr, alacağıq. Verməsələr isə çox uzansa da dəvələrin tərkinə minəcəyik və əl çəkməyib dəvənin cilovunu bir dəfəlik olaraq qəsb edənlərə tapşırmayacağıq. Ola bilər ki, İmam əleyhis-salam bu sözü Səqifə günü və ya həmin günlərdə buyurub.*

[2] *Zahiri ad-san və böyüklük ona dünya və axirət məqamı verməz. Çünki məqam və dərəcə sonradan əmələ gələn bir şeydir. Gözəl əməlin təsiri isə zatidir və heç vaxt yox olmur.*

## 23

İmam Əli əleyhis-salam *(zülmə məruz qalanları və qəmgin insanları tapşırıb belə)* buyurmuşdur:

Zülmə məruz qalanın dadına çatmaq və qəmgini şad etmək böyük günahların kəffarələrindəndir. *(Böyük günahların bağışlanmasına səbəb olan amillərdəndir. Çünki günahkar günah etməklə fikirləri qəmləndirib. Buna görə də gərək qəmli qəlbləri sevindirsin ki, Allah onun günahlarından keçsin.)*

## 24

İmam Əli əleyhis-salam *(naşükürlər barəsində)* buyurmuşdur:

Ey Adəm övladı! Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Rəbbinin ardıcıl olaraq sənə nemətlər əta etməsini, eyni zamanda sənin isə Ona qarşı günah və itaətsizlik etdiyini görən zaman Ondan *(əzabından)* çəkin. *(Çünki nankorluq və naşükürlük intiqam alınmasına və cəzalandırmaya səbəb olur.)*

## 25

İmam Əli əleyhis-salam *(sirrin gizlin qalmaması barəsində)* buyurmuşdur:

Kim qəlbində bir şey gizlətsə bu mütləq, özünü onun düşünülməmiş sözlərində və sifətinin rəngində biruzə verəcəkdir. *(Məsələn, üzün rənginin saralması qorxu əlaməti, qızarması isə xəcalət çəkməyin nişanəsidir.)*

## 26

İmam Əli əleyhis-salam *(xəstəliklərə dözmək barəsində)* buyurmuşdur:

Nə qədər ki, ağrın səni yola verir *(əldən salmayıb)*, sən də onu yola ver. *(Yəni, yüngül xəstəliyə görə yatağa düşmə.)*

## 27

İmam Əli əleyhis-salam *(zahidlik barəsində)* buyurmuşdur: Zahidliyin ən gözəli onu gizləməkdir. (Qeyd)[1]

## 28

İmam Əli əleyhis-salam *(ölümü yada salmaq barəsində)* buyurmuşdur:

Sən *(dünyaya)* arxa çevirəndə və ölüm *(sənə)* üz tutanda *(səninlə ölüm arasında)* görüş və qovuşma necə də tez baş verəcək.

## 29

İmam Əli əleyhis-salam *(günahdan uzaq olmağa təşviq edib)* buyurmuşdur:

*(İtaətsizlikdən)* uzaq olun, uzaq olun. Allaha and olsun, O, *(günahları elə)* gizlədib ki, sanki *(onları)* bağışlayıb. (Qeyd)[2]

## 30

İmam Əli əleyhis-salamdan iman haqqında soruşublar və O Həzrət *(imanın və onun ziddi olan küfr və şəkkin əlamət və nişanələri barəsində)* belə buyurmuşdur:

İman dörd dirək üzərində möhkəmlənib: Səbr və dözümlülük, yəqinlik və inam, ədalət və insaf, *(din yolunda)* cihad və çalışqanlıq. Səbr dörd növdür: arzu, qorxu, pərhizkarlıq və intizar çəkmə. Buna görə də cənnət arzusu

---

[1] *Çünki aşkar zahidlik riya və özünü göstərməkdən ayrı deyil. İbn Meysəm əleyhir-rəhmə burada Həzrət Peyğəmbərdən (səlləllahu əleyhi və alih) belə bir hədis nəql edib:* « إِنَّ اللهَ لا يَنْظُرُ إِلى صُوَرِكُمْ وَ لا إِلى أَعْمالِكُمْ وَ لكِنْ يَنْظُرُ إِلى قُلُوبِكُمْ» *«Allah sizin üz və əməllərinizə deyil, qəlblərinizə baxır.»*

[2] *Buna görə də indi ki, möhlət verib və günahların üstünü örtüb Onun qəzəbindən qorxub çəkinmək vacibdir. Gərək günah etməyib keçənlərə görə peşman olaraq tövbə edəsiniz. Çünki Onun həlimlik və səbri çox olduğu kimi cəzalandırma və əzabı da ağırdır.*

olan kəs nəfsi istəkləri unudar və onlara göz yumar. Oddan qorxan haram və xoşagəlməz işlərdən uzaqlaşar. Dünyada pərhizkar olan kəs qəm-qüssəni yüngül sayar. Ölüm intizarında olan kəs yaxşı və xeyirxah işlərə tələsər.

Yəqin də dörd növdür: Zirəkcəsinə gözüaçıqlıq, həqiqətlərə çatmaq, başqalarından ibrət götürmək və keçmişlərin yolu. Zirəkcəsinə gözüaçıq olana *(elm və əməldə)* düz yol aşkar olar. Hikmət və düz yol aşkar olan kimsə müxtəlif hadisələrdən ibrət götürməyi öyrənər. İbrət götürməyi öyrənən kəs keçmişlərin arasında olmuş *(onların vəziyyətini görmüş, işlərinin sonunu sınaqdan keçirmiş və nəticədə varlıqların başlanğıcı və sonu barəsində yəqinlik və inama malik)* şəxsə bənzəyir.

Ədalət də dörd növdür: Düzgün anlamaq üçün diqqətlilik, elmin həqiqətinə çatmaq, yaxşı hökm çıxarmaq və dözümlülüyü möhkəm saxlamaq. Buna görə də şəxs diqqət edərək düzgün başa düşsə elmin həqiqətini əldə edər. Elmin həqiqətini əldə edən kəs din qaydaları əsasında hökm çıxarar. Səbrli və dözümlü olan kəs isə öz işində səhlənkarlıq etməz və xalq arasında yaxşı adla yaşayar.

Cihad da dörd növdür: Yaxşılıqlara əmr etmək, pisliklərdən çəkindirmək, danışıqda düzlük və pis əməl sahibləri ilə düşmənçilik. Beləliklə, hər kim yaxşı işlərə əmr etsə möminlərə qoşularaq onları gücləndirib. Pis *(nalayiq)* işləri qadağan edən kəs münafiq və ikiüzlülərin burunlarını torpağa sürtüb. Danışığında düz olan kəs boynunda olan şeyi yerinə yetirib. Kim pis əməl sahibləri ilə düşmənçilik etsə və Allaha görə qəzəblənsə, Allah da ona görə *(onlara)* qəzəblənər və qiyamət günü onu şad edər (rəhmətindən bəhrələndirər).

Küfr də dörd sütun üzərində dayanıb: *(Mənşəyi əsassız şübhə və tərəddüd olan, ağıl və dərrakəndən kənar, yersiz)* dərinə getmək, inadkarlıq və çəkişmə etmək *(ki, o, ifrat - yəni, haqqı aşmaqdır)*, haqdan əl çəkmək *(ki, o, təfrit - yəni, haqq barəsində başısoyuqluqdur)*, düşmənçilik və haqqa tabe olmamaq. *(Yersiz)*

dərinə gedən kəs düz yola ayaq basmayıb. Nadanlıq üzündən çox inadkarlıq göstərib çəkişməyə düşən şəxsin haqqa qarşı kor olması həmişəlikdir. Haqdan əl götürən şəxsin yanında yaxşılıq pislik, pislik isə yaxşılıq olar və o, azğınlıq sərxoşluğu ilə məst olar. Düşmənçilik edərək haqqa tabe olmayan kəsin yolları çətinləşər, işi ağırlaşar və *(azğınlıq və zəlalətdən)* çıxmaq yolu daralar.

Şəkk *(və tərəddüd)* də dörd növdür: *(Boş və nahaq yerə)* söz güləşdirmək, *(haqqın icrasından)* qorxmaq, sərgərdanlıq və *(azğınlağa)* təslim olmaq *(və nicat yolu istiqamətində çalışmamaq)*. Mübahisə və söz güləşdirməyi özünün adəti etmiş kəsin gecəsi gündüz olmaz *(şəkk və tərəddüd zülmətindən yəqinlik və inam işıqlılığına çıxmaz)*. Qarşısındakı şeyin *(cihad və haqq yolunda çalışmağın)* qorxutduğu kəs arxaya qayıdar *(öz işlərində bir yerə çatmaz)*. Kim şübhə içərisində avara və sərgərdan qalsa *(və özünü yəqinlik və inamın təhlükəsiz və rahat yerinə çatdırmasa)* şeytanların ayaqları onu tapdaq edərlər *(şeytanlar ona hakim olaraq onu məhv edərlər)*. Dünya və axirəti məhv etməyə təslim olan kəs, dünya və axirətdə məhv olar. *(Seyyid Rəzi-rəhiməhullah- deyir:)*

Bundan sonra da söz var idi ki, biz onu söhbətin uzun olması və bu kitabda nəzərdə tutulmuş *(ixtisar)* qəsdimizdən xaric olmaqdan qorxduğumuz üçün bəyan etmədik.

## 31

İmam Əli əleyhis-salam *(səbəbin nəticədən üstün olması barəsində)* buyurmuşdur:

Yaxşı işin sahibi yaxşılıqdan daha yaxşıdır və pis işin sahibi pislikdən daha pisdir. *(Çünki iş onu görəndən asılıdır. Buna görə də onu görən işin özündən üstündür.)*

## 32

İmam Əli əleyhis-salam *(ifrata varmaq və təfritə düçar olmaqdan çəkindirərək)* buyurmuşdur:

Bəxşiş edən ol, amma israf və yersiz həddə yox *(ki, ifrat və həddi aşmaq olsun)*! Mötədil ol və xəsis olma *(ki, o, təfrit- hədd və əndəzədən aşağı haldır)*.

## 33

İmam Əli əleyhis-salam *(arzulara ürək bağlamamaq barəsində)* buyurmuşdur:

Varlılıq və zənginliyin ən üstünü arzuları qəlbə buraxmamaqdır. *(Çünki arzu insanı möhtac edir.)*

## 34

İmam Əli əleyhis-salam *(başqasını incitməyin ziyanı barəsində)* buyurmuşdur:

Kim xalqın inciməsinə səbəb olan şeyə tələssə *(düşünmədən danışsa və ya onların meyl və istəyinə zidd bir iş görsə)* onun barəsində bilmədikləri şeyi danışarlar. *(Çünki insan birindən inciyəndə təbii olaraq onun barəsində eşitdiyini və ya yalan deməkdən çəkinmir.)*

## 35

İmam Əli əleyhis-salam *(uzun arzuların ziyanı barəsində)* buyurmuşdur:

Arzusunu uzadan kəs əməlini pisləşdirib. *(Çünki uzun arzu, axirətdən qafil olmağa və əbədi həyat səadətindən məhrumluğa səbəb olur. Amma miqdarında olan arzu və ümidvarlıq bəyəniləndir.)*

## 36

İmam Əli əleyhis-salam Şama gedəndə *(İraq şəhərlərindən olan)* Ənbar şəhərinin kəndxuda və böyükləri onunla rastlaşdılar və o Həzrətə təzim və ehtiram məqsədi ilə atlarından düşüb miniyinin qabağında qaçmağa başladılar. Bu zaman o Həzrət buyurdu: Bu nə iş idi ki, siz gördünüz? Dedilər: Bu bizim adətimizdir və öz əmir və hakimlərimizə belə ehtiram göstəririk. Sonra o Həzrət *(Allahdan başqası üçün əyilməyin məzəmmətində)* buyurdu:

Allaha and olsun ki, sizin hökmdarlarınız bu işdən heç bir xeyir görmürlər. Siz isə bu işinizlə özünüzü dünyada əziyyətə, axirətdə isə bədbəxtliyə düçar edirsiniz. *(Çünki Allahdan başqasının müqabilində əyilmək günahdır və əzaba səbəb olur.)* Arxasınca cəza olan əziyyət *(Allahdan başqası üçün əyilmək)* necə də çox ziyanlıdır! Kənarında oddan *(cəhənnəmdən)* xatircəmlik olan rahatlıq *(məxluqa xoş gəlmək üçün əziyyət çəkməmək)* nə qədər çox xeyirlidir!

## 37

İmam Əli əleyhis-salam oğlu *(imam)* Həsən əleyhis-salama *(öyüd verərkən)* buyurmuşdur:

Oğulcanım, məndən dörd və dörd şeyi yadında saxla ki, onlarla gördüyün heç bir iş sənə zərər gətirməz. (Qeyd)[1] *(Şəxsin özünə aid olan dörd şeydən birincisi belədir:)* Var-dövlətin ən üstünü ağıldır *(ki, şəxs onun vasitəsi ilə dünya və axirət səadət və xoşbəxtliyini əldə edir). (İkincisi:)* Ən böyük yoxsulluq ağılsızlıqdır *(ki, iki dünyada da bədbəxtliyə səbəb olur). (Üçüncü:)* Ən böyük qorxu xudpəsəndlikdir *(ki, belə olan şəxs heç kəslə ünsiyyətdə olmur və bu səbəbdən hamı onunla düşmən olur və o, həmişə qorxu içində olur). (Dördüncü:)* Ən üstün böyüklük xoşxasiyyətlilikdir. *(Çünki xoşxasiyyət olan kəs hamının yanında yüksək məqama malik olur.)*

Oğulcanım, *(başqaları ilə davranış barəsində olan dörd şeydən birincisi budur:)* axmaqla dostluq etməkdən çəkin. Çünki o, sənə xeyir vermək istəyər, amma ziyan vurar. *(Çünki axmaq xeyirlə ziyanın yerlərini bir-birindən ayıra bilmir.) (İkincisi:)* Xəsis adamla dostluq etməkdən çəkin. Çünki o, *(xəsislik və simicliyinə görə)* çox ehtiyacın olan şeyi səndən əsirgəyər. *(Üçüncüsü:)* Pis əməl sahibi ilə dostluq etməkdən çəkin ki, o, səni lap az şeyə satar. *(Çünki öz səadətini az şeyə görə əldən vermiş kəs səni, əlbəttə ki, daha az qiymətə satacaqdır.) (Dördüncüsü:)* Çox yalan danışan adamla dost olmaqdan çəkin ki, o, uzağı yaxın və yaxını uzaq edən ilğım *(hamar yerdə su kimi nəzərə çarpan suya bənzər görüntü)* kimidir *(öz nadürüst məqsədlərini həyata keçirmək üçün çətin işi asanlaşdırar, asan işi isə çətinləşdirər).*

## 38

İmam Əli əleyhis-salam *(vacibi əməllərə əhəmiyyət vermək barəsində)* buyurmuşdur:

---

[1] *Deyiblər ki: İmam əleyhis-salam ona görə «dörd və dörd» buyurub ki, birinci dörd şey şəxsin özünə aiddir, ikincisi isə başqaları ilə davranış barəsindədir.*

Müstəhəbbi əməllər vacibata zərər yetirəndə onların vasitəsi ilə Allahın rəhmətinə yaxınlaşmaq rəva deyil. (Qeyd)[1]

# 39

İmam Əli əleyhis-salam *(axmağın məzəmmətində)* buyurmuşdur:

Ağıllı adamın dili qəlbinin arxasındadır. *(Ağıllı adam əvvəl deyəcəyi şeyin yaxşı və pis cəhətlərini öz ağlı ilə ölçür və sonra deyir.)* Axmağın isə qəlbi dilinin arxasındadır. *(Ağılsız adam başa düşmədən istədiyini deyir və onun düz və ya səhv, xeyirli və ya ziyanlı olması barəsində sonra fikirləşir. Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Bu kəlam gözəl və ürəyəyatan mənalardandır. Məqsəd budur ki, ağıllı adam düşüncəsi ilə məsləhətləşmə aparıb onun müsbət rəyini almadan dilini buraxmır *(söz danışmır)*. Ağılsızın dilinin çölə ötürdükləri və düşünülməmiş danışıqları isə, işin aqibəti barəsində fikrə və dərin düşüncəyə müraciət etməyi ötür. Buna görə də sanki ağıllı adamın dili qəlbinə, ağılsız adamın isə qəlbi dilinə tabedir. Bu məna o Həzrət əleyhis-salamdan başqa sözlə də nəql edilib və həmin kəlam belədir: «Axmağın qəlbi ağzında, ağıllı adamın dili qəlbindədir.» Hər iki kəlamın mənası eynidir.

# 40

İmam Əli əleyhis-salam səhabələrindən biri xəstə olan zaman *(xəstəliyin günahların bağışlanmasına səbəb olması barəsində)* ona buyurmuşdur:

Allah sənin xəstəliyini, günahlarının silinməsi *(üçün səbəb)* edib. Buna görə də xəstəlik üçün savab yoxdur. Amma *(insanı üzgün və zəif etdiyi və o, belə bir vəziyyətdə tövbə edib*

---

[1] *Çünki vacibi əməllərin yerinə yetirilməsində səhlənkarlıq edən kəs itaətsizlik edib və buna görə, cəzalandırılacaqdır. İtaətsizlik edən kəs əslində Allaha yaxınlaşmayıb, çünki yaxınlaşmaq itaətsizliklə, bir araya sığmır.*

*Rəbbinə doğru döndüyü, günah və itaətsizliyindən peşman olaraq onları tərk etmək qərarına gəldiyi üçün)* günahları aradan aparır və onları yarpaqların *(ağacdan)* tökülməsi kimi tökür. Savab və mükafat dillə danışmaqda və əl və ayaqla olan əməllərdədir. *(Xəstəlik nə danışmaqdır və nə də əməl.)* Nöqsan sifətlərdən pak və uzaq olan Allah, bəndələrindən istədiyini niyyətinin paklığı və batininin saflığına görə cənnətə daxil edir. (Qeyd)[1] *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Deyirəm: İmam əleyhis-salam xəstəlik üçün savab olmamasını düz buyurub. Çünki xəstəlik əvəzi olan şeylər qismindədir. Ona görə ki, əvəz Allah-təalanın bəndələrə verdiyi dərd, xəstəlik və bu kimi şeylər müqabilindədir. Savab isə bəndənin iş və əməli müqabilindədir. Deməli, əvəzlə savab arasında fərq var və İmam əleyhis-salam dərin elm və dolğun nəzəri ilə onu açıqlayıb.

# 41

İmam Əli əleyhis-salam Xəbbab ibn Ərətt(Qeyd)[2] barəsində buyurmuşdur:

Allah Xəbbab ibn Ərətti bağışlasın ki, o, İslamı *(ikrah və məcburiyyətlə deyil)* rəğbətlə qəbul etmişdi və itaətkarlıq üçün vətənindən hicrət etdi *(və Həzrət Peyğəmbərin - səlləllahu əleyhi və alih - yanına gəldi). (Dünya malından)* keçinəcək miqdara qane

---

[1] *Buna görə də kimsə xəstəlikdə dözümlü və gözəl batinə, pak qəlbə malik olsa, ola bilər ki, Allah əl və ayaqla əməl olmadan onu bağışlasın.*

[2] *O, Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) səhabələrinin yaxşılarından və ilkin mühacirlərin alim simalarından olub. Bədr və ondan sonrakı müharibələrdə Həzrət Peyğəmbərlə birgə olub və 37 və ya 39-cu hicri ilində yetmiş üç yaşında Siffeyn və Nəhrəvan müharibələrində Həzrət Əmirəl-mömininlə bir yerdə iştirak etdikdən sonra Kufədə dünya evi ilə vidalaşıb. İmam əleyhis-salam ona namaz qılıb və o, Kufənin kənarında dəfn edilib. O, Kufənin kənarında dəfn edilmiş ilk şəxsdir. Ondan qabaq camaat ölülərini evlərində və ya evlərinin qabağında dəfn edirdi. Xülasə, burada o Həzrət onun xoşbəxtliyi və gözəl sifətləri barəsində buyurur.*

oldu. Allahdan *(Onun verdiyi rahatlıq, çətinlik, xəstəlik və sağlamlıqdan)* razı və məmnun idi. Mücahid yaşadı *(bütün həyatı boyu Allah yolunda cihad etdi). (Sonra onu tərifləyərək buyurur:)* Xoş o adamın halına ki, məad və dönüş yerini yadına salır, *(həmin gündə olacaq)* hesab və sorğu üçün iş görür, gündəlik keçinəcəyi miqdar ruziyə qane olur və Allahdan *(Onun verdiyindən)* razı və məmnundur.

## 42

İmam Əli əleyhis-salam *(mömin və münafiq barəsində)* buyurmuşdur:

Əgər bu qılıncımla möminin burnunu kökündən vursam ki, mənimlə düşmən olsun, düşmənçilik etməyəcək. Həmçinin əgər bütün dünyanı *(dünya malının hamısını)* münafiqin başına töksəm ki, məni *(həqiqətən)* sevsin, sevməyəcək. Bu ona görə belədir ki, *(ilahi hökm bu cür)* verilib və təhsil görməmiş Peyğəmbərin *(səlləllahu əleyhi və alih)* dilində belə cari olub ki: «Ya Əli! Mömin səninlə düşmən olmaz və münafiq səni sevməz.»

## 43

İmam Əli əleyhis-salam *(özündən razılığın məzəmmətində)* buyurmuşdur:

Allah yanında, səni qəmləndirən pis iş *(məsələn yalan danışıb sonra ondan peşman olmağın)* səni məğrurluq və öyünməyə vadar edən yaxşılığından *(məsələn namaz qılmaq və ya oruc tutmaqdan)* daha yaxşıdır. *(Çünki peşmançılıq günahı aradan aparır. Amma yaxşı iş görüb məğrur olmaq həmin yaxşılığı məhv edən günahdır.)*

## 44

İmam Əli əleyhis-salam *(gözəl sifətlər barəsində)* buyurmuşdur:

İnsanın qədir-qiyməti onun himməti miqdarındadır. *(Buna görə də əgər himməti böyük olsa hörmətli və əziz, himməti az olsa isə xar və zəlil olar.)* Düzlüyü isə comərdliyi

miqdarındadır. (Qeyd)[1] Həmçinin onun şücaət və cəsurluğu şərəfinin qədərində, çirkin və nalayiq işləri ar bilməsi miqdarındadır. *(Deməli, çirkin işi hər nə qədər çox ar bilsə şücaət və cəsurluğu da bir o qədər çoxdur.)* Eləcə də namus və isməti qeyrəti qədərdir. (Qeyd)[2]

# 45

İmam Əli əleyhis-salam *(qələbə barəsində)* buyurmuşdur:

Qələbə uzaqgörənliklədir. Uzaqgörənlik fikri işə salmaqladır. Fikir isə sir və gizli şeyləri qorumaqladır. *(Deməli, öz gizlin sirrini faş edən kəs rəy və fikrini qorumayıb və uzaqgörənlikdən xaric olub və nəticədə məqsədinə çatmayacaq.)*

# 46

İmam Əli əleyhis-salam *(comərd və alçaq adam barəsində)* buyurmuşdur:

Səxavətli və comərd şəxsin ac *(möhtac)* olanda hücum etməsindən qorxun. *(Çünki belə olan halda, xalqın etinasızlığı onu qıcıqlandırır və o, onlara hakim olub intiqam almaq üçün özünü təhlükəyə atır.)* Həmçinin alçağın tox olandakı *(varlanandakı)* hücumundan çəkinin. *(Çünki varlılıq onu arzusuna çatdırar və o, təbiətinə uyğun olaraq əli altında olanlara əziyyət verər, incidər onları.)*

# 47

İmam Əli əleyhis-salam *(könüllərin ələ alınması barəsindəki tapşırığında)* buyurmuşdur:

---

[1] *Çünki comərdlik insanın layiqli və münasib olan şeyləri yerinə yetirməsinə və çirkinliklərdən - ki, yalan da onlardan biridir - çəkinməsinə səbəb olur. Buna görə də onun doğruçuluğunun miqdarı comərdliyindən bilinir.*

[2] *Buna görə də onun qeyrəti, yəni, ona aid olmayan şeydə başqası ilə müştərək istifadəni ar bilməsi hər nə qədər çox olsa, bir o qədər namusludur. Çünki insanı şəhvətin arxasınca düşməkdən və digər çirkin işlərdən saxlayan və onu namuslu edən onun qeyrətidir.*

İnsanların qəlbləri hürkəkdir *(bir-birləri ilə tanış deyildirlər)*. Buna görə də kim *(yoldaşlıq, yaxşılıq və dostluq ilə)* onları ələ alsa, ona üz tutarlar.

## 48

İmam Əli əleyhis-salam *(dünya üzünə gülən şəxs barəsində)* buyurmuşdur:

Nə qədər ki, nəsibin və qismətin səni xoşbəxt saxlayır *(dünya sənə yardır)*, eyibin *(gözlərdən)* gizlin qalar. (Qeyd)[1]

## 49

İmam Əli əleyhis-salam *(əfv etmək barəsində)* buyurmuşdur:

İnsanların əfv etmək və bağışlamağa ən layiq olanı, onların cəzalandırmağa ən çox qüdrət və imkanı olanlarıdır. *(Çünki əfv etmək qüdrətdən asılıdır. Buna görə də zəifin əfv etməsi mənasızdır.)*

## 50

İmam Əli əleyhis-salam *(səxavətin mənası barəsində)* buyurmuşdur:

Səxavət və *(layiq olan kimsəyə bir şey)* bağışlamaq, onu istənilmədən etməkdir. İstək ilə edilən şey isə xəcalətlilik və məzəmmətdən *(istəyən şəxsin və ya xalqın töhmətindən)* qurtulmaqdır.

## 51

İmam Əli əleyhis-salam *(bəzi sifətlər barəsində)* buyurmuşdur:

Ağıl kimi sərvət yoxdur. *(Çünki ağıl dünya və axirət səadəti və xoşbəxtliyini qazanmaq yolunu göstərir.)* Nadanlıq kimi yoxsulluq yoxdur. *(Çünki nadan hər bir şeyin əldə edilməsi üçün başqasından soruşmağa möhtacdır. İnsanı nalayiq və xoşagəlməz işlərdən saxlayan)*

---

[1] *Buna görə də şahların və böyük adamların çirkinlik və nöqsanları onlar ölənə kimi və ya dünya onlardan üz çevirənə kimi, çox olsa da, heç deyilmir.*

ədəb kimi miras yoxdur. (Qeyd)[1] Məsləhət və məşvərət kimi arxa və dayaq yoxdur. *(Çünki düzgün fikir məsləhətləşmə ilə əldə edilir.)*

## 52

İmam Əli əleyhis-salam *(səbr barəsində)* buyurmuşdur:

Səbr iki cürdür: *(Biri)* bəyənmədiyin şeyə səbr etmək *(ki, bu növ səbr şücaət və cəsurluqdur)* və *(digəri)* sevdiyin şeyə səbr etmək *(ki, bu cür səbr namus və ismətdəndir)*.

## 53

İmam Əli əleyhis-salam *(varlılıq və yoxsulluq barəsində)* buyurmuşdur:

Varlılıq *(insan üçün)* qürbətdə vətəndir. *(Çünki ona görə hamı adamla dostluq və tanışlıq edir.)* Yoxsulluq isə vətəndə də qürbətdir. *(Çünki onun nəticəsində hamı adamdan uzaqlaşır.)*

## 54

İmam Əli əleyhis-salam *(qənaətin faydası barəsində)* buyurmuşdur:

Qənaət tükənməz sərvətdir. *(Çünki qənaət etmək, eləcə də əldə olana qane olmaq ehtiyacı uzaqlaşdırır. Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

Bu kəlam Peyğəmbərdən *(səlləllahu əleyhi və alih) (də)* nəql edilmişdir.

## 55

İmam Əli əleyhis-salam *(sərvətin ziyanı barəsində)* buyurmuşdur:

Sərvət şəhvət və nəfsi istəklərin özəl və təməlidir. *(Çünki sərvət nəfsi istəklərə çatmağa imkan yaradır.)*

---

[1] *Çünki ölən şəxsdən məşəqqət və əzab-əziyyətsiz çatan şey əldən çıxandır. Amma ədəb həmişə insanla birlikdədir.*

## 56

İmam Əli əleyhis-salam *(öyüd verən kəs barəsində)* buyurmuşdur:

Səni *(pisliklərdən qorxudaraq)* çəkindirən kəs, səni *(xeyir və yaxşılığa)* müjdələyən şəxs kimidir. *(Çünki şəri dəf etmək xeyirdir.)*

## 57

İmam Əli əleyhis-salam *(düşünmədən danışmağın ziyanı barəsində)* buyurmuşdur:

Dil yırtıcıdır *(yırtıcı heyvan kimidir)* ki, əgər özbaşına buraxılsa *(düşünmədən və ağlın rəhbərliyi olmadan istədiyini desə, sahibini)* parçalayar *(məhvinə səbəb olar)*.

## 58

İmam Əli əleyhis-salam *(arvadın məzəmmətində)* buyurmuşdur:

Arvad əqrəbdir *(onun kimi əziyyətedicidir)* ki, sancmağı *(onunla əlaqədə olmaq)* şirindir.

## 59

İmam Əli əleyhis-salam *(yaxşı işə əvəz vermək barəsində)* buyurmuşdur:

Biri sənə salam verəndə sən *(onun cavabında)* ondan yaxşı salam ver. Sənə ehsan və yaxşılıq ediləndə sən ona ondan artıq əvəz və mükafat ver, *(yaxşılığın əvəzini daha artıq yaxşılıqla çıx)* hərçənd ki, fəzilət və üstünlük yaxşılığı ilk edənə məxsusdur. (Qeyd)[1]

---

[1] *Bu kəlam «Nəhcül-Bəlağə»nin bütün nüsxələrində yoxdur. Amma bizim qəsdimiz onun kamil bir nüsxəsini hazırlamaq olduğu üçün onu İbn Əbil Hədidin nüsxəsindən və digər qədimi bir əlyazma nüsxədən nəql etdik.*

# 60

İmam Əli əleyhis-salam *(vasitəçiliyin xeyri barəsində)* buyurmuşdur:

Vasitəçi və ağız açan, *(başqasından bir şey)* istəyənin qanadıdır *(onun üçün quşun, vasitəsi ilə öz istədiyinə nail olduğu qanadı kimidir)*.

# 61

İmam Əli əleyhis-salam *(qəflət barəsində)* buyurmuşdur:

Dünya əhli yuxuda olduğu halda aparılan karvan kimidir *(və xəbərsizdir ki, birdən məsafə qət olunar və həmişə olacaqları yerə çatarlar və carçı car çəkər ki: düşün və yüklərinizi açın)*.

# 62

İmam Əli əleyhis-salam *(tənhalığın ziyanı barəsində)* buyurmuşdur:

Dostları əldən vermək qürbətdir. *(Çünki bu, vətəndən uzaq düşmək kimidir.)*

# 63

İmam Əli əleyhis-salam *(nalayiq insanlardan minnət götürməmək barəsində)* buyurmuşdur:

Ehtiyacın təmin edilməməsi onu ləyaqətsiz adamdan istəməkdən daha asandır. *(Çünki onun təmin edilməməsi qəm-qüssəyə səbəb olur. Amma onu ləyaqətsiz adamdan istəmək təmin edilib-edilməməsindən asılı olmayaraq xəcalətliliyə səbəb olur.)*

# 64

İmam Əli əleyhis-salam *(bəxşiş barəsində)* buyurmuşdur:

Azı bağışlamaqdan utanma. Çünki ümidsiz qoymaq ondan da azdır *(və utanmağa daha layiqdir)*.

# 65

İmam Əli əleyhis-salam *(iffətlilik və şükr etmək barəsində)* buyurmuşdur:

İffət yoxsul və kasıbın zinət və bəzəyi, *(Allahın nemətlərinə)* şükr etmək isə varlının yaraşığıdır.

## 66

İmam Əli əleyhis-salam *(arzular barəsində)* buyurmuşdur:

İstədiyinə çatmayanda hər nə cür olsan qəmlənmə. *(Çünki çatılmayan şeyə görə qəmlənmək ağılsızlıqdır.)*

## 67

İmam Əli əleyhis-salam *(nadanın məzəmmətində)* buyurmuşdur:

Nadanların hamısı ya ifratçıdırlar *(öz hədd və əndazələrini aşırlar)*, ya da çox süst və səhlənkar *(ki, öz hədd və əndazələrinə çatmırlar)*.

## 68

İmam Əli əleyhis-salam *(ağılın nişanəsi barəsində)* buyurmuşdur:

Ağıl kamilləşən zaman *(kamal həddinə çatanda)* danışıq azalar. *(Çünki ağlın kamilliyi bədən qüvvələrinin qorunub saxlanmasına hakim olmağı tələb edir. Buna görə də o, heç vaxt yersiz danışmır.)*

## 69

İmam Əli əleyhis-salam *(dünya barəsində)* buyurmuşdur:

Dünya bədənləri köhnəldir *(qocaldır)*, *(rahatlığın azlığı ilə)* arzuları yeniləşdirir, *(öz gərdişi ilə)* ölümü yaxınlaşdırır və *(ölümün yaxınlaşması ilə)* arzuları uzaqlaşdırır. Dünyaya qalib gələn *(onun malını əldə edən, onları qoruyaraq artırmaq üçün)* əziyyətə düşdü, onu tapmayan isə *(malik olmadığı üçün)* çətinliyə düçar oldu. *(Xülasə, dünya həm kamına çatan, həm də çatmayan üçün əzab-əziyyət diyarıdır. Buna görə də ağıllı adam ona ürək bağlamaz və aldanmaz.)*

## 70

İmam Əli əleyhis-salam *(başçı və rəhbərlər barəsində)* buyurmuşdur:

Özünü xalqın rəhbəri etmiş şəxs başqasına öyrətməkdən qabaq, öncə öz nəfsinin təliminə başlamalıdır. (Qeyd)[1] O, başqasını dil ilə ədəbləndirərək zinətləndirməmişdən qabaq, gərək onu öz əməli ilə ədəbləndirərək gözəlləşdirsin. *(Məsələn, başqasına «namaz qıl ki, nicat tapasan» deməmişdən, qabaq gərək özü namaz qılsın.)* Öz nəfsini öyrədən və ədəbləndirən, xalqı öyrədərək ədəbləndirəndən təzim və ehtirama daha layiqdir. *(Çünki o, nəfsi istəklərinə tabe deyil.)*

## 71

İmam Əli əleyhis-salam *(ölümün yaxın olması barəsində)* buyurmuşdur:

İnsanın aldığı nəfəs ölümə tərəf atdığı addımdır. (Qeyd)[2]

## 72

---

[1] *Çünki danışığı ilə davranışı eyni olan adamın sözünün kəsəri daha çoxdur və belə olanda xalq ona qarşı çıxmağa çalışmır.*

[2] *Çünki addım atmaq insanı məqsədə çatdırdığı kimi hər bir nəfəs də onun ömrünü azaldır və onu ölümə yaxınlaşdırır.*

İmam Əli əleyhis-salam *(yersiz sevinmək və kədərlənmək barəsində)* buyurmuşdur:

*(Sevinc və kədər, xeyir və ziyan, sağlamlıq və xəstəlik kimi)* saya gələn *(sonu olan)* hər bir şey qurtarandır *(məhv olub aradan gedəndir)*. Çatmalı olan hər bir şey *(təqdir edilmiş xeyir və ya şər)* çatacaqdır. *(Buna görə də ağıllı adam bu cür şeylərə görə sevinməz və ya qəmlənməz.)*

## 73

İmam Əli əleyhis-salam *(işin sonunu fikirləşmək barəsində)* buyurmuşdur:

İşlər şübhəli olanda *(onların sonunun yaxşı və ya pis olması bilinməyəndə)* onların yerinə yetirilməsi başlanğıcları ilə müqayisə edilir, tutuşdurulur *(ölçülür)*. *(Beləliklə, başlanğıcı yaxşı və ya pis olsa, sonu da yaxşı, yaxud pis olacaq. Çünki «gözəl il baharından məlum olar».)*

## 74

*(İmam Əli əleyhis-salamın ən yaxın və yaxşı səhabələrindən olmuş)* Zərar ibn Zəmrə Zibabinin nəql etdiyi rəvayətdə deyilir ki, o, Müaviyənin yanına gələn zaman və Müaviyə ondan Əmirəl-möminin barəsində soruşanda belə deyib: Mən onun, gecə öz zülmət pərdələrini sərəndə bəzi yerlərdə ibadət etməsini görməyimə şəhadət verirəm. O Həzrət ibadət mehrabında dayanıb saqqalını əli ilə tutub ilan çalmış adam kimi qıvrılır, qəm-qüssəyə düçar olmuş şəxs kimi göz yaşı tökür və *(dünya barəsində belə)* buyururdu:

Ey dünya, ey dünya, məndən gözünü çək! *(Aldatmaq qəsdi ilə)* özünü mənə təqdim edir, göstərirsən? Yoxsa mənə meyl salıb məni istəyirsən? Yaxınlaşmasın sənin *(aldatma)* vaxtın! Sənin arzun nə qədər də uzaqdır! Başqasını aldat ki, mənim sənə ehtiyacım yoxdur. Sənin talağını üç dəfə vermişəm *(sənə göz yummuşam)* ki, onda qayıdış yoxdur. Beləliklə, sənin həyatın qısa, əhəmiyyətin az, arzun isə alçaqdır. Əfsus ki,

azuqə *(ibadət və bəndəlik)* az, yol uzun, səfər *(axirət səfəri)* uzaq və daxil olunacaq yer *(qəbr, Bərzəx və qiyamət)* isə çətindir. (Qeyd)[1]

# 75

İmam Əli əleyhis-salamın bir şamlı kişi ondan *(Siffeyn müharibəsindən qayıdandan sonra)* «bizim Şama *(ora əhli ilə müharibəyə)* getməyimiz Allahın qəzavü-qədəri ilə idi?» soruşanda *(qəzavü-qədər barəsində)* buyurduğu kəlamlarındandır. (Qeyd)[2] *(İmam)* uzun söhbətdən sonra bizim seçdiyimiz bu kəlamları buyurdu:

Vay olsun sənə! *(Allah sənə rəhm etsin.)* Deyəsən, sən *(mütləq yerinə yetirilməli olan)* qəti və labüd qəzavü-qədəri güman edirsən *(nəzərdə tutursan)*? Əgər belə olsaydı, savab və cəza düz olmaz və xeyir və yaxşılığa *(cənnətə)* müjdə vermək və şər və pislikdən *(cəhənnəmdən)* qorxutmaq əbəs olardı. (Qeyd)[3]

---

[1] *Bundan sonra Müaviyə ağlayaraq belə dedi: Allah Əbəlhəsənə rəhmət etsin, belə idi. Ey Zərar sənin o Həzrət barəsindəki kədərin necədir? Dedi: Övladının başı yanında kəsilmiş ananın kədəri kimi.*

[2] *İmam əleyhis-salam onun sualının cavabında buyurdu: Toxumu torpağın altında cücərdən və insanı yaradan Allaha and olsun ki, qədəm basdığımız hər bir yer və endiyimiz hər bir dərə qəzavü-qədər ilə olub. Şamlı kişi dedi: Belə isə onda bizim bu səfərdə çəkdiyimiz əziyyətlərin savabı yoxdur, «çünki o bizim öz ixtiyarımızla olmayıb». İmam əleyhis-salam buyurdu: Ey qoca, Allah sizin getmək və gəlmək savabınızı böyük edib və siz heç bir halda məcbur olmamısınız. Qoca dedi: Bizi qəzavü-qədər idarə edirsə, bu necə ola bilər? İmam əleyhis-salam buradakıları buyurdu.*

[3] *Və Allah tərəfindən günahkar üçün cəza və itaətkar üçün savab müəyyənləşməzdi. Həmçinin yaxşı əməl sahibi tərifə, pis əməl sahibi isə məzəmmətə layiq olmazdı. Bu söz bütpərəstlərin, şeytanın davamçılarının, yalançı şahidlərin və düz və haqq yola qarşı kor olanların sözləridir və onlar «Qədəriyyə» və bu ümmətin atəşpərəstləridirlər. Qeyd etmək lazımdır ki, bizim hədislərdə «qədəri» kəlməsi həm cəbr əqidəsi tərəfdarlarına, həm də azadlıq əqidəsi tərəfdarlarına deyilir. Amma burda məqsəd cəbr əqidəsi tərəfdarlarıdırlar ki, belə deyirlər: Hər bir bəndənin gördüyü hər bir iş onun öz ixtiyar və iradəsi ilə deyil, Allahın təqdir və istəyi ilədir və o,*

*(İmam əleyhis-salam söhbətinin davamında belə buyurdu:)* Nöqsan sifətlərdən pak və uzaq olan Allah bəndələrinə ixtiyar verməklə əmr edib və *(əzabdan)* qorxutmaqla qadağan edib, çəkindirib. Boyunlarına asan vəzifələr qoyub *(ki, rəğbətlə yerinə yetirsinlər)*. *(Yerinə yetirmək üçün)* çətin göstəriş verməyib *(ki, onların icrasında məcbur olmasınlar)*. Az əmələ çox savab və əvəz əta edib *(ki, bunun özü ixtiyarın olmasını tələb edir)*. Ona itaətsizlik edilməsinin səbəbi Onun məğlub edilməsi deyil. *(Çünki O, bəndələrinə qalib və üstündür.)* Həmçinin itaət edilməsinin səbəbi məcbur etməsi deyil. *(Əksinə, hamıya ixtiyar verib və hər bir işə lazım olan şəraiti hazırlayıb.)* Peyğəmbərləri oyun üçün göndərməyib *(bəlkə, əksinə, onları göndərib ki, itaət edənlərə cənnət müjdəsi versinlər və itaətsizlik edənləri cəhənnəm ilə qorxutsunlar)*. *(Tövrat, İncil və Quran kimi)* kitabları bəndələr üçün boş yerə göndərməyib *(bəlkə onları göndərib ki, bəndələri Allahın göstərişləri ilə tanış olsunlar)*. Həmçinin göyləri, yeri və onlarda olanları əbəs yerə yaratmayıb. *(Onların hamısını hikmət əsasında yaradıb. Buna görə də bütün işləri düz olan hikmət sahibinin kimisə məcbur etməsi necə ola bilər?! Qurani-Kərimin Sad surəsinin 27-ci ayəsində belə buyurulur:)* «**ذَلِكَ ظَنُّ الَّذِينَ كَفَرُوا فَوَيْلٌ لِّلَّذِينَ كَفَرُوا مِنَ النَّارِ**» «Bu, *(iman gətirməyib)* kafir olanların zənnidir. Vay cəhənnəm odunda yanacaq kafirlərin halına!» *(Sonra həmin qoca dedi: Qəzavü-qədər nədir ki, biz ancaq onun səbəbindən getmişik? İmam buyurdu: O, Allahın hökm və göstərişidir. Sonra bu ayəni - İsra surəsinin 23-cü ayəsini - oxudu:* «**وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ**» *«Rəbbin yalnız Ona ibadət etməyi hökm etmişdir.» Sonra həmin qoca sevincək yerindən qalxıb belə dedi:*

---

*məcburdur. Bunun müqabilində Allah-təalanın qüdrətini inkar edən azadlıq əqidəsi durur və onun tərəfdarları belə deyirlər: Allah bəndəsinə bəzi şeyləri əmr, bəzilərini isə qadağan edib və onu özbaşına buraxıb. Onların hər hansı birini etmək və ya etməməkdə bəndə müstəqildir.*

أَنْتَ الْإِمامُ الَّذى نَرْجُو بِطاعَتِهِ يَوْمَ النُّشُورِ مِنَ الرَّحْمنِ رِضْواناً
أَوْضَحْتَ مِنْ دِينِنا ما كانَ مُلْتَبَساً جَزاكَ رَبُّكَ عَنّا فِيهِ إِحْساناً

*Yəni: «Sən elə bir imam və rəhbərsən ki, biz sənə tabe olmaqla qiyamət günü bağışlayan Allahın razılığını əldə edəcəyimizə ümidvarıq. Sən dinimizdən bizə məchul olan şeyi aşkar etdin. Rəbbin bizim tərəfimizdən sənə bu xidmətinə görə gözəl savab əta etsin.»)*

## 76

İmam Əli əleyhis-salam *(hikmət barəsində)* buyurmuşdur:

Hikməti *(düz və haqqa uyğun sözü)* harda olsa əldə edin *(istər yaxşı əməl sahibindən olsun, istərsə də pis əməllidən)*. Çünki hikmət münafiq və ikiüzlünün sinəsində də var və *(onun dilindən)* xaric olub öz sahibi olan mömininin sinəsində məskən salıncaya qədər orada *(hikmətin saxlanılmasına layiq olmayan yerdə)* iztirab və sıxıntıdadır.

## 77

İmam Əli əleyhis-salam *(yenə də hikmət barəsində)* həmin kəlama bənzər bir açıqlamada buyurmuşdur:

Hikmət mömininin itiyidir *(həmişə gərək onun arxasınca olsun).* Buna görə də hətta ikiüzlülərdən olsa belə, onu əldə et.

## 78

İmam Əli əleyhis-salam *(peşə barəsində)* buyurmuşdur:

Hər bir insanın dəyəri *(onun xalq yanındakı məqamı)* yaxşı *(edə)* bildiyi şeydir *(peşədir, yaxşı bildiyi peşə miqdarındadır. Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Bu sözə qiymət təyin etmək, hər hansı bir hikmət və nəsihəti onunla müqayisə etmək və hansısa bir sözü ona tay tutmaq mümkün deyil.

## 79

İmam Əli əleyhis-salam *(nəsihət verərək)* buyurmuşdur:

Sizə beş şey vəsiyyət edirəm ki, onları əldə etmək üçün *(dabanlarınızla)* dəvələrin qarnının altına vurmağınıza *(sürətlə gedərək əzab-əziyyəti özünüzə rəva bilməyinizə)* dəyər: *(Birinci:)* Heç biriniz öz Rəbbindən başqa birisinə ümidvar olmamalıdır. (Qeyd)[1] *(İkinci:)* Öz günahından başqa bir şeydən qorxmamalıdır. (Qeyd)[2] *(Üçüncü:)* Ondan bilmədiyi şey soruşulanda «bilmirəm» deməkdən utanmamalıdır. (Qeyd)[3] *(Dördüncü:)* Bilmədiyi şeyi öyrənməkdən utanmamalıdır. *(Çünki utansa cəhalət və nadanlıqda qalar və bədbəxt olar. Beşinci:)* Səbrli və təmkinli olun. Çünki *(səbr fəzilət və kamilliklərin hamısında mövcuddur və)* səbrin imana nisbəti, başın bədənə nisbəti kimidir. Başsız bədəndə, eləcə də səbrsiz imanda xeyir yoxdur.

## 80

İmam Əli əleyhis-salam, o Həzrətə əqidəsi olmadan onu tərifləməkdə ifrata varan bir kişiyə *(təvazökarlıq üsulunu öyrədərək)* buyurmuşdur:

Mən sənin dediklərindən *(Allah və Peyğəmbərə layiq olan mədh və sənadan)* aşağı, fikrində keçirdiklərindən *(mənim fəzilət və üstünlüklərimə etiqad və inamının olmamasından)* isə üstünəm.

## 81

İmam Əli əleyhis-salam *(yaxşı insanların nəsl və övladlarının qalması barəsində)* buyurmuşdur:

Qılıncdan qalanlar *(şərafət döyüşündə öldürülməyənlər)* sayca daha qalarlı və övladca daha çoxdurlar. *(Məsələn, şəhidlərin ağa və başçısı imam Hüseyn əleyhis-salam və onun tərəfdarlarının övladları çox, qalarlı və möhkəmdirlər. Bunun müqabilində onun*

---

[1] *Çünki ümidi Ona bağlayaraq diqqəti Ona yönəltmək əməldə niyyətin saflaşması və ibadət və bəndəliyin davamlılığına səbəb olur.*

[2] *Çünki qorxuların ən böyüyü Allahın əzab və cəzasından olan qorxudur və bu, bəndəyə ancaq günah nəticəsində verilə bilər.*

[3] *Ona görə ki, əgər utansa bilmədiyi şeyi deyər və başqasını düz yoldan azdırar. Bu da məhv və həlakətə səbəb olar.*

*nanəcib düşmənlərinin çox olmalarına baxmayaraq, indi onlardan heç bir əsər-əlamət qalmayıb.)*

# 82

İmam Əli əleyhis-salam *(«bilmirəm» deməməyin ziyanı barəsində)* buyurmuşdur:

*(Bilmədiyi bir şey soruşulanda)* «bilmirəm» deməyən şəxsin ölüm yeri *(həlak olacağı yer)* ona çatacaq *(o, rüsvay və məhv olacaq)*.

# 83

İmam Əli əleyhis-salam *(qoca adamın nəzəri barəsində)* buyurmuşdur:

Mən *(müharibə və digər bütün işlərdə)* qoca adamın nəzərini, gəncin bacarıq və cəsurluğundan çox sevirəm. *(Çünki gənc təcrübəsinin azlığı ucbatından məğrur olaraq özünü və dostlarını məhvə düçar edə bilər.)*

Bəzi rəvayətlərdə («مِنْ جَلَدِ الْغُلامِ» *«gəncin cəsurluğu»nun yerinə*) «مِنْ مَشْهَدِ الْغُلامِ» «gəncin iştirakı» nəql edilib *(yəni, qocanın fikir və nəzərini gəncin iştirakından çox sevirəm)*.

# 84

İmam Əli əleyhis-salam *(istiğfar - bağışlanma istəmək barəsində)* buyurmuşdur:

*(Günahları üçün)* istiğfar və bağışlanma istəmək imkanının olmasına baxmayaraq, *(Allahın onu bağışlamasından)* naümid olan kəsə təəccüb edirəm. *(Amma istiğfar, İmam əleyhis-salamın kitabın sonundakı 409-cu kəlamında buyurduğu şərtlərlə olmalıdır.)*

# 85

Həzrət Əbu Cəfər *(imam)* Məhəmməd Baqir ibn Əli *(ibn Hüseyn)* əleyhimus-salam nəql edib ki, İmam Əli əleyhis-salam *(istiğfar etməyə həvəsləndirərək)* buyurmuşdur:

Yer üzündə Allahın cəzasından pənah aparıb rahatlanmaq üçün iki sığınacaq var idi. Onlardan biri əldən çıxdı. Digəri isə sizin yanınızdadır. Buna görə də ondan

yapışın *(onu qoruyun).* Əldən çıxmış sığınacaq, Allahın Peyğəmbəri *(səlləllahu əleyhi və alih)* idi *(ki, sizin aranızdan köçdü).* Qalan sığınacaq isə istiğfar və *(günahlar üçün)* bağışlanma istəməkdir. Allah-təala *(Qurani-Kərimdə Ənfal surəsinin 33-cü ayəsində)* buyurur: « وَمَا كَانَ اللّهُ لِيُعَذِّبَهُمْ وَأَنتَ فِيهِمْ وَمَا كَانَ اللّهُ مُعَذِّبَهُمْ وَهُمْ يَسْتَغْفِرُونَ» «Nə qədər ki, sən onların arasındasan Allah onlara əzab verən deyildir. Bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz!»
*(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Bu bəyan *(Qurani-Kərimdən şahid gətirmək)* gözəl sözlər və həqiqətləri dərk etmək istiqamətindəki incəliklərdəndir *(ki, İmam əleyhis-salam onu açıqlayaraq anladıb).*

## 86

İmam Əli əleyhis-salam *(səadətə çatmaq barəsində)* buyurmuşdur:

Kim özü ilə Allah arasında olanları düzəltsə *(Allahın göstərişlərinə əməl etsə)* Allah onunla xalq arasında olanları düzəldər *(ona çətinliklərdən nicat verər).* Kim axirət işini düzəltsə *(qiyamət əzabından qurtulacaq iş görsə və bütün səy və təlaşını dünya işinə sərf etməsə),* Allah onun dünya işini düzəldər. (Qeyd)[1] Kimin özündən, bir nəsihətçisi olsa *(düşüncə ilə nəfsini günahlardan saxlasa və cəhənnəm əzabından qorxutsa),* Allah tərəfindən onun gözətçisi olar *(ki, onu hər bir bəla və çətinlikdən qorusun.)*

## 87

İmam Əli əleyhis-salam *(təbliğ üsulu barəsində)* buyurmuşdur:

---

[1] *Onu həyat işlərində məattəl qoymaz, necə ki, Qurani-Kərimin Talaq surəsinin 2-3-cü ayələrində buyurur: «* وَمَن يَتَّقِ اللَّهَ يَجْعَل لَّهُ مَخْرَجًا وَيَرْزُقْهُ مِنْ حَيْثُ لَا يَحْتَسِبُ *» «Kim Allahdan qorxub pərhizkar olsa, Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər. Və ona gözləmədiyi yerdən ruzi verər.»*

Dərrakəli və zirək alim o kəsdir ki, xalqı Allahın mərhəmət və bağışlamasından məyus etməsin, onları Allah tərəfindən olan rahatlıq və asayişə naümid etməsin və həmçinin onları Allahın cəza və intiqamından xatircəm və asudə etməsin.

# 88

İmam Əli əleyhis-salam *(kənarında əməl olmayan elmin məzəmmətində)* buyurmuşdur:

Elmin ən dəyərsizi, dildə yerləşən (insanın ona əməl etmədiyi) elmdir. Elmin ən üstünü bütün bədəndə zahir olan elmdir. *(O elmdir ki, insan ona əməl edir. Bu elmin axirətdə xeyiri vardır.)*

# 89

İmam Əli əleyhis-salam *(elm və bilikdən təngə gəlməmək, yorulmamaq barəsində)* buyurmuşdur:

Bədən və cisimlər *(bir növ yemək yeməkdən və bir cür iş görməkdən)* təngə gələrək yorulduğu kimi, bu qəlblər də *(tərkib hissəsi bir-biri ilə eyni olduğu üçün bir mövzu ətrafında düşünərək fikirləşməkdən)* bezərək yorulurlar. Buna görə də həmin qəlblər *(onların yorğunluqlarını çıxarmaq)* üçün *(ləzzət alaraq rahatlandıqları)* yeni və maraqlı hikmət və elmlər *(din başçıları və alimlərin müxtəlif sözləri kimi şeylər)* axtarın *(ki, hikmət kəsb edilməsi və elm əldə edilməsində çalışasınız və yorulmayasınız)*.

# 90

İmam Əli əleyhis-salam *(fitnədən Allaha pənah aparmaq barəsində)* buyurmuşdur:

Heç biriniz «Allahım! Fitnə və imtahandan Sənə pənah aparıram» deməməlidir. Çünki fitnəyə düçar olmayan şəxs yoxdur. Lakin pənah aparan kəs gərək (haqq yoldan) azdıran fitnələrdən pənah aparsın. Çünki nöqsan sifətlərdən pak və uzaq olan Allah *(Qurani-Kərimin Ənfal surəsinin 28-ci ayəsində)* buyurur: «وَاعْلَمُواْ أَنَّمَا أَمْوَالُكُمْ وَأَوْلاَدُكُمْ فِتْنَةٌ» «Bilin ki, mal-dövlətləriniz və övladlarınız fitnədirlər.» Bunun mənası budur ki: Nöqsan sifətlərdən pak və uzaq olan Allah onları var-dövlət və övladları ilə imtahana çəkir ki, ruzisinə

qəzəblənən və öz qismətinə razı olan bəlli olsun, hərçənd ki, eyb və nöqsanlardan pak olan Allah onlardan, onların özündən də çox xəbərdardır. Amma imtahan ona görədir ki, savab və cəzaya layiq əməllər *(onların özləri vasitəsi ilə)* aşkar olsun. Çünki onların bəziləri oğlan uşağını çox istəyir, qızdan isə xoşları gəlmir, bəziləri var-dövləti çoxaltmağı sevir və onun azalmasından narahat olurlar. *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Bu kəlam o Həzrətdən təfsirdə *(və bu mübarək ayənin bəyanında)* eşidilmiş heyranedici sözlərdəndir.

# 91

İmam Əli əleyhis-salamdan xeyir və yaxşılığın nə olmasını soruşdular. O Həzrət *(onun təfsirində belə)* buyurdu:

Xeyir və yaxşılıq var-dövlət və övladının çox olması deyil. Bəlkə xeyir odur ki, elmin artsın, həlimlik və səbrliliyin böyüsün və Rəbbinə itaət və bəndəlik etməyin nəticəsində xalq arasında başuca olasan. Beləliklə, yaxşılıq edəndə Allaha şükr edəsən və pis iş görəndə Allahdan bağışlanmaq istəyəsən. Dünyada iki şəxsdən - etdiyi günahların əvəzini tövbə etməklə çıxan və *(az olsa da)* Allahın bəyəndiyi işləri yerinə yetirməyə tələsən kəsdən - başqa heç kəs üçün xeyir və yaxşılıq yoxdur. Təqva və pərhizkarlıqla yerinə yetirilən iş az deyil. Qəbul edilən əməl necə az ola bilər?

# 92

İmam Əli əleyhis-salam *(itaət və bəndəliyin fəziləti barəsində)* buyurmuşdur:

İnsanların peyğəmbərlərə ən layiqli və yaxını onların *(Allah-təala tərəfindən)* gətirdiklərinə daha çox alim olanlarıdır. (Qeyd)[1] Sonra İmam əleyhis-salam *(Ali İmran surəsinin 68-ci*

[1] *Çünki peyğəmbərlərə layiqlilik və yaxınlıq itaət və bəndəliklə olur. İtaət və bəndəlik isə onların Allah tərəfindən gətirdikləri hökmləri bilməklə mümkündür.*

*ayəsi olan bu ayəni)* oxudu: « إِنَّ أَوْلَى النَّاسِ بِإِبْرَاهِيمَ لَلَّذِينَ اتَّبَعُوهُ وَهَـذَا النَّبِيُّ وَالَّذِينَ آمَنُواْ» «İnsanların İbrahimə ən yaxını onun, bu Peyğəmbərin *(Həzrət Mustafaya - səlləllahu əleyhi və alih-)* və *(o Həzrətə)* iman gətirənlərin ardınca gedənlərdir.» Sonra buyurdu: Məhəmmədin dostu Allaha itaət edən kəsdir, hətta onun *(o Həzrətlə)* qohumluğu uzaq olsa belə *(məsələn Salman, Əbuzər və Miqdad kimi)*! Həmçinin Məhəmmədin düşməni Allaha itaət etməyən və tabe olmayan kəsdir, hətta onun yaxın qohumu olsa belə *(məsələn, Əbu Ləhəb və Əbu Cəhl kimi)*.

## 93

İmam Əli əleyhis-salam Həruriyyədə olanlardan *(Əmirəl-mömininlə müxalifət məqsədi ilə Kufə yaxınlığındakı Hərura səhrasında toplaşmış Nəhrəvan Xəvaricinin)* birinin gecə namazı qılıb Quran oxuduğunu eşidəndən sonra *(zəmanə imamını tanımadan ibadətin faydasız olması barəsində)* buyurmuşdur:

*(Zəmanə imamı və haqq xəlifəyə)* yəqinlik və inamla olan yuxu şəkk və tərəddüdlə namaz qılmaqdan daha yaxşıdır. (Qeyd)[1]

## 94

İmam Əli əleyhis-salam *(hədislərdə düşünmək barəsində)* buyurmuşdur:

Hədisi eşitdiyiniz zaman onu, kəlmələrini nəql etməklə deyil barəsində dərindən düşünməklə dərk edin. Çünki elmi nəql edənlər çox, onda düşünənlər isə azdırlar.

## 95

---

[1] *Çünki ibadətin şəkil və keyfiyyəti barəsindəki təlimin mənbəyi və başlanğıcı, eləcə də dinin özül dirəklərindən biri zəmanə imamıdır. Buna görə də onun barəsində tərəddüddə olan şəxsin qıldığı namaz və oxuduğu Quran düz deyil.*

İmam Əli əleyhis-salam bir kişinin «إِنَّا لِلَّهِ وَإِنَّـا إِلَيْهِ رَاجِعونَ» «biz Allahın əmri ilə gəlmişik və Ona tərəf qayıdacağıq» deməsini eşidib *(onun təfsirində belə)* buyurdu:

«إِنّا لِلّه» «Biz Allahın əmri ilə gəlmişik» deməyimiz Allahın padşahlığını *(və bizim Onun bəndəsi olmağımızı)* etiraf etməyimiz, «وَ إِنّا إِلَيْهِ راجِعُون» «Ona tərəf qayıdacağıq» deməyimiz isə həlak olacağımızı *(və ölərək qiyamətdə hazır olacağımızı)* iqrar etməyimizdir.

# 96

Bir dəstə İmam Əli əleyhis-salamı üzünə təriflədi. O Həzrət (*təvazökarlıq yol və üsulu barəsində belə)* buyurdu:

Allahım, Sən məni mənim özümdən yaxşı tanıyırsan və mən özümdən onlardan çox xəbərdaram. İlahi bizi onların güman etdiklərindən *(təriflədiklərindən)* yaxşı et və bizdən bilmədikləri *(və Sənin bildiyin)* şeyləri *(pislikləri)* bağışla. (Qeyd)[1]

# 97

İmam Əli əleyhis-salam *(ehtiyacları təmin etmək barəsində)* buyurmuşdur:

Ehtiyacları üç şeydən başqa cür təmin etmək münasib deyil: *(Birincisi)* onu *(Allahın yanında)* böyüməsi üçün kiçik saymaq; *(ikincisi)* onu *(savab zamanı)* aşkar olması üçün gizli saxlamaq; *(üçüncüsü, ehtiyac sahibinə)* nuş və ləzzətli olması üçün yerinə yetirilməsində tələsmək.

# 98

---

[1] *Məsumlar əleyhimus-salamın istiğfar edərək bağışlanma istəmələri yetmiş yeddinci kəlamın şərhində deyildiyi kimi, ya onun yol və necəliyini xalqa öyrətmək üçündür, ya da yerinə yetirilməsi daha yaxşı olan şeyi tərk etdikləri üçün. Və bilmək lazımdır ki, bu, məsum şəxsin uzaq olmalı olduğu günah deyil. Şərhçi Bəhrani-rəhiməhullah -də öz şərhinin bu yerində həmin mətləbi buyurub.*

İmam Əli əleyhis-salam *(qarşıya çıxacaq bəzi hadisələr barəsində)* buyurmuşdur:

İnsanlar üçün elə bir dövran gələcək ki, onda şaha söz gəzdirəndən başqa heç kəs yaxın olmayacaq, pis əməlli yalançıdan başqa heç kəs zirək adlandırılmayacaq və əməli düz olan insaflıdan başqa heç kəs zəif və aciz sayılmayacaq. O zaman Allah yolunda sədəqə vermək və mal sərf etməyi cərimə *(məcburi verilən mal)* sayarlar, qohumlarla get-gəl edərək əlaqə saxlamağa minnət qoyarlar *(məsələn, deyərlər ki, «filan-bəhmən edən mənəm»)* və Allaha bəndəlik etməyi xalqdan üstünlük amili hesab edərlər! (*Bu pis əməllərin nəticəsində)* həmin dövrdə padşahlıq *(hökmranlıq)* kənizlərin *(səfil və avara qadınların)* məsləhət və məşvərəti, uşaqların *(təcrübəsiz şəhvətpərəst gənclərin)* hökmdarlığı, xədimlərin *(nalayiq və alçaq kişilərin)* tədbiri ilə olacaq. *(İbn Əbil Hədid öz şərhinin bu yerində belə yazır: İmam əleyhis-salamın bu buyuruğu qeyb xəbərlərindən və o Həzrətə məxsus möcüzələrdən biridir.)*

# 99

İmam Əlinin *(əleyhis-salam)* əynində köhnə və yamaqlı paltar gördülər. Sonra bu barədə o Həzrətlə söhbət oldu. *(Ondan bu cür paltar geyinməsinin səbəbini soruşdular.)* O Həzrət *(köhnə paltar barəsində belə)* buyurdu:

Qəlb onunla təvazökar, nəfsi-əmmarə *(-pis işlərə əmr edən nəfs)* isə ram olur və möminlər onun arxasınca gedirlər *(köhnə paltar geyinməklə təvazökarlıq yolu ilə gedir və nəfsin istəklərinə etinasız yanaşırlar. Bunun müqabilində təzə və gözəl paltar insanı məğrurlaşdırır və o, haqdan qafil olaraq günaha düşür).*

# 100

İmam Əli əleyhis-salam *(dünya və axirət barəsində)* buyurmuşdur:

Dünya ilə axirət bir-birinə zidd iki düşmən və bir-birindən ayrı iki yoldurlar *(cənnət və cəhənnəm yollarıdırlar)*.

Buna görə də dünyanı sevən və ona ürək bağlayan kəs axirətə düşmən olaraq onunla düşmənçilik edib *(ona göz yumub)*. Bu iki şey şərqlə qərb kimidirlər ki, onların ikisinin arasında yol gedən şəxs birinə nə qədər yaxınlaşsa digərindən uzaqlaşar. *(Dünyaya ürək bağlayan ona nə qədər çox bağlansa axirətdən bir o qədər qafil qalar. Eləcə də axirətə ürək bağlamış kəs dünyaya rəğbətsiz olar.)* Onlar bu ixtilaflarından sonra bir əri olan iki arvada oxşayarlar *(ki, heç vaxt bir-birləri ilə düz gəlməzlər. Çünki onların hər birinə yaxınlaşaraq dostluq etmək digərindən uzaqlaşmaq və onunla düşmən olmağa səbəb olur.)*

# 101

*(İmam Əli əleyhis-salamın səhabələrinin seçilmişlərindən olan)* Nauf *(ibn Fəzalə)* Bikalidən nəql edilib ki: Bir gecə gördüm ki, Əmirəl-möminin əleyhis-salam öz yatağından qalxıb çölə çıxdı və ulduzlara baxaraq belə buyurdu: Ey Nauf, yatmısan, yoxsa oyaqsan? Dedim: Oyağam, ey Əmirəl-möminin.

Buyurdu: Ey Nauf, dünyada zahid olub axirətə ürək bağlayanların xoş halına! Onlar yeri xalça, onun torpağını yataq və suyunu dadlı şərbət ediblər *(məişət ləvazimatlarına etinasızdırlar)* və *(həmçinin)* Quranı köynək *(qəlbin zinət və bəzəyi)* və duanı üst paltarı *(hadisələrin qarşısını alan)* ediblər. Beləliklə, *(dünyaya rəğbəti olmayan Həzrət İsa)* Məsih kimi dünyanı özlərindən ayırıblar.

Ey Nauf, Davud əleyhis-salam gecənin bu saatında *(səhərə yaxın Allah-təala ilə razü-niyaz üçün)* qalxaraq dedi: Bu elə bir saatdır ki, onda dəhyek toplayandan *(bac alan və yolkəsəndən)*, xalqı zalımlara tanıtdıran və sirlərini onların yanında faş edəndən, gecə qarovulçusundan və darğanın həmkarlarından və saz, nağara və təbil çalandan başqa dua edən hər bir kəsin duası qəbul olar. *(Çünki onların günahları istəklərinin rəva olmasına mane olur. Seyyid Rəzi əleyhir-rəhmə deyir:)* «عَرْطَبَة» «ərtəbə» «طُنْبُور» «tunbur» *(saz)*, «كُوبَة» «kubə» isə «طَبْل» «təbl» *(təbil və nağara)* mənasındadır. Bəziləri isə

deyiblər ki, «عَرْطَبَة» «ərtəbə» «طَبْل» «təbl», «كُوبَة» «kubə» isə «طُنْبُور» «tunbur» mənasındadır.

## 102

İmam Əli əleyhis-salam *(Allahın hökmlərinə tabe olmaq barəsində)* buyurmuşdur:

Allah sizə *(namaz, oruc, xums, zəkat, həcc və bu kimi)* vacibatı əmr edib. Belə isə onları zay etməyin *(onların yerinə yetirilməsində səhlənkarlıq etməyin ki, cəzalandırılarsınız)*. Həmçinin sizin üçün *(alver, nigah, boşanma və irs hökmləri kimi)* həddlər müəyyənləşdirib, onları aşmayın *(öz zövqünüzə uyğun hərəkət etməyin ki, biçarə olarsınız)*. Sizləri *(zina, livat, qumar, şərab və sələm kimi)* bəzi şeylərdən çəkindirib, onların hörmət pərdəsini yırtmayın *(onları yerinə yetirməyin ki, dünyada ziyan görər, axirətdə isə əbədi əzaba düçar olarsınız)*. *(Axirətə xeyri olmayan elmin öyrənilməsi kimi)* Bəzi şeylərdə isə sizin üçün sükut edib. O, onları unudaraq tərk etməyib *(çünki Allah unutmaq xislətindən pak və uzaqdır)*. Buna görə də özünüzü onları əldə etmək üçün çətinliyə salmayın.

## 103

İmam Əli əleyhis-salam *(dinə etinasızlıq barəsində)* buyurmuşdur:

İnsanlar dünya mənfəəti əldə etmək üçün din işlərini tərk etsələr, Allah mütləq onların qarşısına ziyanı həmin xeyirdən çox olan şey çıxarar. *(Çünki din işlərinə etinasızlıq Allah-təalanın rəhmindən uzaq düşməyə səbəb olur.)*

## 104

İmam Əli əleyhis-salam *(dini hökmlərdən xəbərsizliyin ziyanı barəsində)* buyurmuşdur:

Nə çox alim *(sehr, hesab, nücum, astronomiya, nəsəb və bu kimi elm alimləri)* ki, *(onlarla məşğul olmaq nəticəsində din elminin kəsbindən uzaq düşüb və məsum imamlar əleyhimus-salamdan nəql*

*edilmiş din elminə olan)* cahillik və nadanlığı onu öldürür *(əbədi səadətdən məhrum edir)* və onunla olan elm ona fayda vermir.

## 105

İmam Əli əleyhis-salam *(qəlb barəsində)* buyurmuşudur:

Bu insanın damarlarının birindən bir parça ət asılıb ki, bu onda olan ən heyrətləndirici şeydir. O, qəlbdir. Onun xoşagələn sifətləri və onlara zidd xoşagəlməz keyfiyyətləri var: ona ümid və arzu üz tutanda tamah və hərislik onu xar edər; tamahı cuşa gələndə hərislik onu həlak edər; ümidsizlik ona yol tapanda həsrət və kədər onu öldürər; qəzəb və əsəbilik qarşıya çıxanda hiddət onu boğar; razılıq və məmnunluq ona yoldaş olanda *(xoşagəlməz işlərdən)* çəkinməyi unudar; qorxu qəflətən onu bürüyəndə *(işdən)* uzaqlaşmaq onu məşğul edər; əmin-amanlığı artanda qəflət onu oğurlayar; müsibət və kədər üz verəndə dözümsüzlük onu rüsvay edər; mal tapanda varlılıq onu itaətsizləşdirər; yoxsulluq incidəndə bəla və çətinlik onu əsir edər; aclıq çətinliyə salanda zəiflik onu əldən salar; toxluğu çoxalıb həddini aşanda qarnının doluluğu onu zəhmətə salar. Beləliklə, hədd və normadan aşağı olan hər bir səhlənkarlıq ona ziyan vurar və həddi keçən hər bir artıqlıq onu məhv edər. *(Buna görə də mötədəllik və orta vəziyyəti əldən verməyib hikmət əsasında davranan hər bir qəlb həm dünya, həm də axirət mənfəəti və xeyrini əldə edər.)*

## 106

İmam Əli əleyhis-salam *(on iki imam barəsində)* buyurmuşdur:

Biz *(Əhli-Beyt)*, ortada olan söykənəcəyik. (Qeyd)[1] Geridə qalmış *(bizi tanımaqda səhlənkarlıq etmiş)* kəs özünü həmin söykənəcəyə çatdırmalıdır *(ki, rahatlıq və səadət əldə etsin)*. Həmçinin həddi aşıb qabağa düşmüş *(bizim barəmizdə ifrata vararaq bizi bəşər həddindən çıxaran)* kəs də həmin söykənəcəyə tərəf qayıtmalıdır *(ki, azğınlıqdan nicat tapsın)*.

---

[1] *Onun kimiyik ki, iki tərəfdən ona söykənərlər. Yəni, biz mötədil olan düz yoluq və xalq dünya və axirət işlərini bizdən öyrənməlidir.*

## 107

İmam Əli əleyhis-salam *(hökm icra edən şəxs barəsində)* buyurmuşdur:

Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın hökmünü *(barəsində ilahi hökm icra edilən şəxsə qarşı)* mülayimlik və yumşaqlıq etməyən *(yaxud ondan rüşvət tələb etməyən), (ona)* təvazökarlıq göstərməyən və tamah və arzuların arxasınca getməyən kəsdən başqa heç kəs icra etməməlidir.

## 108

İmam Əli əleyhis-salam digərlərindən çox istədiyi Səhl ibn Hüneyf Ənsari o Həzrətlə Siffeyndən *(müharibədən)* qayıtdıqdan sonra Kufədə vəfat edən zaman *(öz dostlarının çətinlikləri barəsində)* buyurmuşdur:

Əgər məni dağ sevsə, parça-parça olub tökülər. *(Seyyid Rəzi-əleyhirrəhmə deyir:)*

Bu kəlamın mənası budur ki, imtahan çətinliklərlə və imkansızlıqla onu sıxar və qəm-qüssə sürətlə ona üz tutar. Bu ancaq yaxşı əməl sahibi olan pərhizkarlar və böyük məqama malik seçilmiş insanlar barəsində olur. Bu kəlam o Həzrət əleyhis-salamın bu buyuruğu kimidir ki: «Biz - Əhli-Beyti sevən kəs gərək yoxsulluq və kədər köynəyini geyinməyə *(onlara səbr etməyə)* hazırlaşsın. *(Yoxsulluğa səbr etməyi ona görə köynəyə oxşadıb ki, köynək bədəni örtdüyü kimi səbrlilik də yoxsulluğu gizlədir.)* O Həzrətin *(«əgər məni dağ sevsə parça-parça olub tökülər» və ya yoxsulluq barəsindəki digər)* kəlamı *(kasıblıq və imkansızlıq mənasında olan zahiri mənadan)* ayrı bir mənaya yozulub ki, bura onu açıqlamaq yeri deyil. (Qeyd)[1]

---

[1] *Bəlkə də, Seyyid Rəzi əleyhirrəhmənin yoxsulluq üçün dediyi digər mənadan məqsəd, dünyaya etinasızlıq və həyatda qənaətcil və qane olmaqdır. Belə olan halda, onun mənası belə olur: «Bizi sevən kəs gərək dünya üçün çalışmasın və qənaəti öz peşəsi etsin.» Bəlkə də məqsəd qiyamət günündəki möhtaclıqdır ki, onda onun mənası belə*

## 109

İmam Əli əleyhis-salam *(bəyanilən sifətlərə yiyələnməyə həvəsləndirərək məğrurluğun məzəmmətində)* buyurmuşdur:

Ağıldan faydalı heç bir var-dövlət yoxdur. *(Çünki dünya və axirət səadəti ağıl vasitəsi ilə əldə edilir.)* Məğrurluqdan qorxulu tənhalıq yoxdur. (Qeyd)[1] Tədbir tökmək və düşünmək kimi ağıl yoxdur. (Qeyd)[2] Pərhizkarlıq kimi comərdlik yoxdur. *(Çünki pərhizkar həm Xaliqin, həm də xalqın yanında əziz və möhtərəmdir.)* Gözəl xasiyyət kimi yoldaş yoxdur. *(Çünki gözəl xasiyyət qəlbləri ələ alır.)* Ədəb kimi miras yoxdur. *(Çünki ədəb insanı sevimli edir.)* Müvəffəqiyyət və bir işə nail olmaq kimi rəhbər yoxdur. *(Ona görə ki, müvəffəqiyyət insanı düz və Allahın bəyəndiyi yola çəkir.)* Gözəl əməl kimi ticarət və alver yoxdur. *(Çünki o, əbədi səadətə səbəb olur.) (İlahi)* savab kimi mənfəət yoxdur. *(Çünki o, əbədi mənfəətdir.)* Şübhə *(naməlum şey)* müqabilində özünü saxlamaq kimi pərhizkarlıq yoxdur. *(Çünki şübhəli işlərə girişmək insanı haram işlərə çəkir.)* Harama rəğbətsizlik kimi zahidlik yoxdur. *(Çünki harama meyl göstərməmək gözəllik və paklığa səbəb olur.)* Təfəkkür və uzaqgörənlik kimi elm yoxdur. *(Çünki insan onun vasitəsi ilə yaradılışın başlanğıcı və sonunu dərk edir və azğınlıqdan qurtulur.)* Vacibatı yerinə yetirmək kimi ibadət yoxdur. *(Çünki onun savabı müstəhəbbi əməllərdən çoxdur və onu tərk etməkdə əzab və cəza var.)* Həya və səbr kimi iman yoxdur. *(Çünki iman bu iki şeylə kamilləşir.)* Təvazökarlıq kimi yüksəklik və baş ucalığı yoxdur. *(Çünki təvazökar şəxsi hamı ürəkdən sevir.)* Elm kimi şərəf və böyüklük yoxdur. *(Ona görə ki, elm insanın bələdçisidir.)* Dözümlülük kimi izzət yoxdur. *(Çünki dözümlülük baş ucalığına*

---

*olur: «Kim bizi sevsə gərək qiyamət gününün möhtaclığına və pərişanlığına hazır olsun», yəni, itaət və bəndəlik azuqəsi götürsün.*

[1] *Ona görə ki, məğrur şəxs xalqı özündən aşağı sayır. Xalq da ondan uzaqlaşar və nəticədə o, tək qalar.*

[2] *Çünki düşüncə insanın hərəkət yolunu müəyyənləşdirir və möhkəmləndirir.*

*səbəb olur.)* Məşvərət kimi möhkəm arxa yoxdur. *(Çünki məşvərət işin sonunu və onun xeyir-ziyanını dərk etməyə səbəb olur.)*

## 110

İmam Əli əleyhis-salam *(bədbinlik və nikbinlik barəsində)* buyurmuşdur:

Yaxşılıq zəmanə və onun insanlarını bürüyən zaman rüsvayçılığı aşkar olmayan(Qeyd)[1] birinə qarşı bədbin olan kəs, ona zülm edib. Fitnə-fəsad və pozğunluq zəmanə və onun insanlarına hakim olan zaman başqasına nikbin olan şəxs isə özünü təhlükə və həlakətə atıb. *(Çünki fitnə-fəsad hakim olan zəmanədə tərbiyə olunmuş və pozğun insanlarla əlaqə və ünsiyyətdə olmuş adamdan yaxşılıq gözləmək olmaz.)*

## 111

İmam Əli əleyhis-salama dedilər ki: Ey Əmirəl-möminin, özünü necə hiss edirsən? O Həzrət *(dünyanın çətinlikləri barəsində)* buyurdu:

Öz varlığı ilə yox olan *(varlığı yoxluğa doğru çəkən)*, sağlamlığı ilə xəstələnən *(sağlamlığı qocalıq xəstəliyinə doğru aparan)* və ölümün, sığınacağında (dünyada) yaxaladığı şəxsin halı necə olar?

## 112

İmam Əli əleyhis-salam *(bəndələrin imtahan edilmələri barəsində)* buyurmuşdur:

Nə çox adam ki, ona edilən ehsan və yaxşılıqla *(Allahın ona verdiyi nemətlərlə)* əzab və cəzaya yaxınlaşıb *(Allah ona yaxşılıq etdikcə, o, itaətsizliyini artıraraq nankorluq edib)*. Nə çox adam ki, *(pisliklərinin)* gizli qalması ilə aldanıb. *(Çünki hər nə qədər çirkin iş görübsə rüsvay olmayıb.)* Nə çox adam ki, onun barəsindəki xoş sözlər *(xalqın onun haqqında yaxşı danışması)*

---

[1] *Bəzi nüsxələrdə «لَمْ تَظْهَرْ مِنْهُ حَوْبَةٌ» «günahı aşkar olmayan» yazılıb.*

nəticəsində fitnə və çətinliyə düşüb. (Qeyd)[1] Allah heç kəsi ona *(dünyada)* möhlət vermək kimi *(başqa bir şeylə)* imtahan etməyib. *(Çünki həyat və yaşamaq neməti bəndənin imtahan edildiyi ən böyük nemətdir.)*

# 113

İmam Əli əleyhis-salam *(öz dost və düşməni barəsində)* buyurmuşdur:

Mənim yolumda iki nəfər həlak oldu. *(Biri məni sevməkdə)* ifrata varan *(məni vilayət məqamından daha yüksək bilən)* dost və *(digəri)* düşmənçiliyində həddini aşan *(mənim məqam və dərəcəmi inkar edən)* düşmən.

# 114

İmam Əli əleyhis-salam *(fürsəti əldən vermək barəsində)* buyurmuşdur:

Fürsəti əldən vermək *(işə münasib vaxtında başlamamaq)* qəm-qüssədir *(qəm və kədərə səbəb olar).*

# 115

İmam Əli əleyhis-salam *(dünya barəsində)* buyurmuşdur:

Dünyanın misalı əl vuranda yumşaq, qarnında isə öldürücü zəhər olan ilan kimidir. Aldanmış nadan ona tərəf gedir, uzaqgörən ağıllı isə ondan uzaqlaşır.

# 116

İmam Əli əleyhis-salamdan Qureyşin *(sifətləri)* barəsində soruşdular *(və o Həzrət belə)* buyurdu: *(Qureyş tayfalarından olan)* Bəni-Məxzum Qureyşin xoş ətirli gülüdür. *(Çünki kişiləri zirək və qadınları gözəldirlər.)* Kişilərinin sözlərini *(şirindil olduqlarına*

---

[1] *Çünki məğrurluq onu Allahın nemətlərinə və həmin nemətlərdən biri olan xalqın onun barəsində xoş sözlər danışmasına görə şükr etməkdən saxlayır və o, əzab və çətinliyə düçar olur.*

*görə)* və qadınları ilə evlənməyi *(gözəlliklərinə görə)* sevərsən. *(Qureyşin digər bir tayfası olan)* Bəni-Əbd Şəms nəzər və düşüncə baxımından Qureyşin ən uzaqgörəni, arxalarında olan şeyin qarşısını ən yaxşı alanlarıdır. *(Hadisələrdə təkdirlər, bərabərləri yoxdur.)* Amma *(Qureyşin digər bir tayfası olan)* biz *(Bəni Haşim)* əlimizdə olanları *(var-dövləti)* bağışlamaqda ən səxavətli və ölüm zamanı can verməkdə ən comərdik *(döyüş meydanında ölməkdən qorxumuz yoxdur)*. Onlar *(Bəni Üməyyənin də mənsub olduğu Bəni Əbd Şəms isə say baxımından)* daha çox, *(münasibətlərdə)* daha hiyləgər və çirkinsifətdirlər. Biz *(danışıqda)* daha fəsahətli *(dolğun və yetərli danışan)*, daha xeyirxah və *(ünsiyyətdə olarkən)* daha gülərüzük.

# 117

İmam Əli əleyhis-salam *(bəndəliyə təşviq edərək)* buyurmuşdur:

İki əməl - ləzzəti keçib gedən və ziyanı *(cəzası)* qalan əməl *(itaətsizlik)* ilə zəhməti ötüb gedən və savab və mükafatı qalan əməl *(itaət və bəndəlik)* arasında nə qədər də uzaq fasilə var!

# 118

İmam Əli əleyhis-salam *(qəbristanlığa aparılan)* bir cənazənin arxasınca gedirdi və bir nəfərin gülüş səsini eşitdi. Sonra *(bəyənilən xislətlərə yiyələnməyə həvəsləndirərək)* buyurdu:

Sanki ölmək dünyada bizdən başqası üçün yazılıb. Sanki haqq *(ölüm)* dünyada bizdən ayrı biri üçün vacib olub. Sanki *(hər gün getdiklərini)* gördüyümüz ölülər, tezliklə bizə tərəf qayıdacaq müsafirlərdir! Onları qəbrlərinə qoyur və var-dövlətlərini yeyirik. Biz onlardan sonra əbədi qalacağıq kimi öyüd verənləri *(ölən kişi və qadınları)* unutmuşuq və hər cür bəla və ziyana düçar olmuşuq. Xoş o adamın halına ki, nəfsi ram olub *(təvazökralığı özünə peşə edib)*, əməl və

hərəkətləri pak və layiqli, niyyəti *(etiqadı)* bəyənilən və xasiyyəti gözəl olub; mal və var-dövlətinin artığını *(Allah yolunda ehtiyacı olanlara)* bağışlayıb, dilini çox danışmaqdan saxlayıb *(yersiz danışmayıb)*, pisliyini camaatdan uzaqlaşdırıb *(onları incitməyib)*, sünnə *(Həzrət Peyğəmbərin davranış üsulu)* ona ağır gəlməyib və bidətə nisbət verilməyib. *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Deyirəm: Bəziləri bu kəlamı, eləcə də bundan qabaqkı kəlamı Həzrət Peyğəmbərə *(səlləllahu əleyhi və alih)* nisbət veriblər.

# 119

İmam Əli əleyhis-salam *(qeyrət barəsində)* buyurmuşdur:

Qadının *(kişiyə)* qeyrəti küfrdür. *(Çünki onun belə bir qeyrətə malik olması kişinin iki və ya daha artıq arvad almasını haram bilməyə səbəb olur, halbuki Allah onu halal edib.)* Kişinin *(qadına)* qeyrəti isə imandır. *(Çünki bu, iki kişinin bir arvadda şərik olmalarını haram bilməyə səbəb olur və bunu Allah da haram edib.)*

# 120

İmam Əli əleyhis-salam *(həqiqi İslam barəsində)* buyurmuşdur:

İslamı elə vəsf edim ki, məndən qabaq heç kəs *(elə)* vəsf etməmiş olsun: İslam *(Allah və Peyğəmbərin göstərişlərinə)* təslim olmaqdır. Təslim olmaq *(onlara)* inanmaqdır. İnanmaq *(onları)* qəbul etməkdir. Qəbul etmək *(onları)* etiraf və təsdiq etməkdir. Etiraf və təsdiq etmək *(onları)* yerinə yetirməyə hazır olmaqdır. Yerinə yetirmək *(onlara)* əməl etməkdir. *(Deməli, əslində İslam Allah və Peyğəmbərin göstərişlərinə əməl etməkdir.)*

# 121

İmam Əli əleyhis-salam *(çirkin xasiyyət və nalayiq əməllərin məzəmmətində)* buyurmuşdur:

Xəsis və simic şəxsə təəccüb edirəm ki, qaçdığı yoxsulluq və kasıblığa doğru tələsir *(çünki əlində olandan bəhrələnmir. Buna görə də yoxsullarla birdir)*, axtardığı varlılığı əldən çıxarır *(ona görə ki, mal və sərvətindən istifadə etmir)*. Beləliklə, dünyada yoxsullar kimi yaşayır, axirətdə isə onunla varlılar kimi hesab çəkəcəklər. *(Çünki yığılanların hesabını vermək lazımdır.)* Dünən nütfə olmuş, sabah isə leş olacaq *(və əgər cəsədinin üstündən torpağı götürsələr üfunətindən hamı qaçan)* təkəbbürlü adama təəccüb edirəm. Allahın yaratdıqlarını görməsinə baxmayaraq, Allah barəsində şəkk və tərəddüddə olan kəsə təəccüb edirəm. *(Axı yaradansız yaranmış necə ola bilər?!)* Təəccüb edirəm o kəsə ki, ölənləri görə-görə ölümü unudur. Nütfədən yaranmanı görməsinə baxmayaraq, məadın olması və qiyamətdə təkrar qayıdış olacağını inkar edən şəxsə təəccüb edirəm. Yoxluq evini abadlaşdıran *(dünya üçün çalışan)*, varlıq evini *(axirəti)* isə buraxan *(onun üçün azuqə tədarük görmək fikrində olmayan)* kəsə təəccüb edirəm.

## 122

İmam Əli əleyhis-salam *(bəndəlikdə səhlənkarlıq etməyin ziyanı barəsində)* buyurmuşdur:

Əməl və işində *(Allaha bəndəlik etməkdə)* səhlənkarlıq edən *(və öz vaxtını dünyasını abadlaşdırmağa sərf edən)* kəs *(onu əldə etmək, eləcə də səylərinin nəticəsiz qalması üçün)* qəm və kədərə düçar olar. Mal və canında Allahın payı olmayan kəsin Allaha yolu yoxdur. *(Öz malından Allah yolunda verməyən və Allahın dininin yayılması istiqamətində çalışmayan kəs Onun rəhm və mərhəmətini gözləməməlidir.)*

## 123

İmam Əli əleyhis-salam *(bədənin qorunması barəsində)* buyurmuşdur:

Soyuğun əvvəlində *(payızda)* qorunun *(özünüzü yaxşı bürüyün, çünki bədən istiyə öyrəşdiyi üçün narahat olar)*. Onun sonunda

*(baharda)* isə onun pişvazına gedin *(özünüzü çox bürüməyin, çünki bədən soyuğa öyrəşdiyi üçün heç bir ziyan görməz)*. Çünki soyuq, bədənlərə ağaclara etdiyini edir: onun əvvəli yandırır *(ağacların yarpaqlarını tökür)*, axırı isə *(yarpaqları)* bitirir.

# 124

İmam Əli əleyhis-salam *(Allahın böyüklüyü barəsində)* buyurmuşdur:

Yaradanın böyüklüyünü başa düşməyin, yaranmışları sənin gözündə kiçildər *(və nəticədə yaranmışa etina etməz, həmişə öz Yaradanına üz tutar və dünya və axirət səadətini əldə edərsən)*.

# 125

İmam Əli əleyhis-salam Siffeyndən *(Siffeyn müharibəsindən)* qayıdan zaman Kufənin kənarındakı qəbristanlığa çatanda *(pərhizkarlıq barəsində belə)* buyurmuşdur:

Ey qorxulu diyarların, kimsəsiz və otsuz-susuz yerlərin və qaranlıq qəbirlərin sakinləri! Ey torpaq sakinləri, ey vətəndən uzaq qalanlar, ey kimsəsizlər, ey qorxulular! Siz bizim irəli getmiş qabaqcıllarımızsınız və biz sizin arxanızca gələnlərik və sizə çatacağıq. Evlərə *(evlərinizə)* gəldikdə, *(bilin ki,)* onlarda sakin oldular, arvadları *(arvadlarınızı)* aldılar, var-dövlətləri *(sizin sərvətlərinizi)* bölüşdürdülər. Bu bizim yanımızda olan şeylər barəsindəki xəbərlərdir. Bəs sizin yanınızda olan şeylərdən nə xəbər?

Sonra üzünü yoldaşlarına tutub buyurdu: Bilin! Əgər onlara danışmaq icazəsi və əmri verilsəydi sizə xəbər verərdilər ki, *(bu yolda)* ən yaxşı azuqə təqva və pərhizkarlıqdır.

# 126

İmam Əli əleyhis-salam bir kişinin dünyanı məzəmmət etməsini eşidəndə *(dünyanın tərifində belə)* buyurmuşdur:

Ey dünyanı məzəmmət edən ki, onun hiylələrinə aldanmısan və puçluqlarına məftunsan! Dünyaya aldanmısan və onu məzəmmət edirsən?! Sən ona günah yükləyirsən, yoxsa dünya sənə günah yükləyir? Dünya səni harada və nə vaxt avara qoydu, yaxud nə vaxt aldatdı? Atalarının torpağa düşüb çürüdükləri yerlərlə, yoxsa analarının torpaq altındakı yataqları ilə? Öz əllərinlə *(təkcə, yaxın xəstələrinin dərdlərinin sağalması üçün)* nə qədər kömək etdin və *(xəstələrə)* öz əllərinlə nə qədər qulluq göstərdin? Onların sağalmalarını istədin, *(dərdi müəyyənləşdirib xəstəliyin nə olduğunu bildikdən sonra)* təbiblərdən dərmanın xeyrini soruşdun. Səhər sənin dərmanın onların ehtiyacını aradan qaldırmırdı *(onları sağaltmırdı)* və sənin göz yaşların *(çəkdiyin əziyyətlər)* onlara xeyir vermirdi. Sənin qorxun onların heç birinə fayda vermədi, onun barəsində öz istəyinə çatmadın *(o şəfa tapmadı)* və öz gücünlə *(xəstəliyi və ölümü)* ondan uzaqlaşdıra bilmədin! Dünya *(çox çalışmağına baxmayaraq, ölümün çəngindən çıxara bilmədiyin)* həmin şəxsi sənə örnək, onun ölümünü sənin ölümün etdi *(ki, ona etdiyini sənə də edəcəyini biləsən)*. Həqiqətən dünya ona *(onun sözlərinə)* inanan üçün düzlük diyarıdır; başa düşən və onun xəbər verdiklərini dərk edən üçün *(ilahi əzabdan)* aman və xatircəmlik evidir; ondan azuqə götürən *(Allah və Peyğəmbərə tabe olan)* kəs üçün varlılıq diyarıdır; ondan nəticə çıxaranlar üçün öyüd yeridir. Allah dostlarının *(pərhizkarların)* ibadət və bəndəlik yeri, Allahın mələklərinin namazgahı *(yaxud salam göndərmək və bağışlanma istəmə yerləri)*, ilahi vəhyin *(tapşırığın)* nazil olma məkanı və Allahın dostlarının ticarət yeridir ki, onda rəhmət və mərhəməti *(Onun mərhəmətini)* əldə edərlər və qazancları cənnət olar. Dünya *(camaatı onlardan)* uzaqlaşacağından xəbərdar etdiyi, ayrılacağı barədə haray saldığı və özünün və əhlinin *(insanların)* fani və yox olacağından agah etdiyi halda, onu kim məzəmmət edə bilər, halbuki o, öz çətinliyi ilə onlara çətinliyi *(axirət çətinliyini)* göstərib və öz şadlığı ilə onları şadlıq və sevincə

*(axirət şadlıqlarına)* həvəsləndirib?! İnsanı *(itaət və axirət işinə)* həvəsləndirmək və şirnikləndirmək, eləcə də *(günah və itaətsizlikdən)* qorxutmaq və çəkindirmək üçün sağ-salamat axşamlayır *(və insan onun nəticəsində asayiş və rahatlıqda olur)* və çətinlik və kədərlə səhəri açır. Buna görə də peşmançılıq səhərində *(əməllərin aşkar olacağı qiyamətdə)* insanların bir dəstəsi *(pis əməl sahibləri)* onu məzəmmət edərlər *(ondan incik və qəmgin olarlar)*. Digərləri *(yaxşı əməl sahibləri)* isə qiyamət günü onu tərifləyərlər *(ondan razı olarlar)* ki, dünya *(axirəti)* onların yadlarına saldı və onlar da *(onu)* yada saldılar, onlara xəbər verdi və onlar da təsdiq etdilər, onlara öyüd-nəsihət verdi və onlar da qəbul etdilər *(və əbədi səadətə qovuşdular)*.

# 127

İmam Əli əleyhis-salam *(dünyanın sonu barəsində)* buyurmuşdur:

Allahın bir mələyi var ki, hər gün belə fəryad qoparır: doğun ölmək üçün, toplayın yox və məhv olmaq üçün və tikin viran olmaq üçün!

# 128

İmam Əli əleyhis-salam *(dünya barəsində)* buyurmuşdur:

Dünya qalmaq yeri deyil keçid diyarıdır. İnsanlar onda iki dəstədirlər: bir dəstə onda özünü *(nəfsi istəklərə)* satar və beləliklə də, özünü *(onların cəzası olaraq)* həlak edər. Digər bir dəstə isə özünü *(itaət və bəndəliklə)* alar və beləliklə də, özünü *(qiyamət əzabından)* azad edər.

# 129

İmam Əli əleyhis-salam *(dostluğun şərtləri barəsində)* buyurmuşdur:

Dost öz qardaşına *(dostuna)* üç vaxtda qayğı göstərməyincə *(həqiqi)* dost deyil: onun çətinlik və narahatlıqlarında *(can və malı ilə onun yanında olmalıdır)*, o özü olmayanda *(barəsində xoşagəlməz sözlər deyilməsi və eşidilməsinə mane olmalıdır)* və vəfat edərək həyatla vidalaşanda *(dua və istiğfar etməklə onu yad etməlidir)*.

# 130

İmam Əli əleyhis-salam *(dua, tövbə, istiğfar və şükr barəsində)* buyurmuşdur:

Dörd şey verilmiş şəxs, dörd şeydən məhrum olmayıb: dua etməyə əmr olunmuş kəsi, istəyini rəva etməkdən məhrum etməzlər; tövbə etməsi göstərişi verilmiş kəsi *(tövbəsini)* qəbul etməkdən naümid etməzlər; istiğfar etməyə məcbur olunmuş şəxsi bağışlanmaqdan naümid etməzlər;

şükr öyrədilmiş kəsi *(nemətlərin)* çoxalmasından məhrum etməzlər. *(Seyyid Rəzi - rəhiməhullah - deyir:)*

Bu kəlamın təsdiq və şahidi Allah-təalanın kitabındadır ki, dua barəsində (Mumin surəsinin 60-cı ayəsində belə) buyurmuşdur: «أُدْعُونِي أَسْتَجِبْ لَكُمْ» «Məni çağırın, Mən də sizin dualarınızı qəbul edim!»; istiğfar barəsində (Nisa surəsinin 110-cü ayəsində belə) buyurmuşdur: « وَمَن يَعْمَلْ سُوءًا أَوْ يَظْلِمْ نَفْسَهُ ثُمَّ يَسْتَغْفِرِ اللّهَ يَجِدِ اللّهَ غَفُورًا رَّحِيمًا» «Hər kəs pis iş gördükdən və ya özünə zülm etdikdən sonra Allahdan bağışlanmağını diləsə, Allahın bağışlayan və mərhəmətli olduğunu görər»; *(İbrahim surəsinin 7-ci ayəsində)* şükr etmək barəsində buyurmuşdur: «لَئِن شَكَرْتُمْ لأَزِيدَنَّكُمْ» «Əgər nemətlərin şükrünü etsəniz, sizə olan nemətimi artıracağam.» Tövbə barəsində də *(Nisa surəsinin 17-ci ayəsində belə)* buyurmuşdur: « إِنَّمَا التَّوْبَةُ عَلَى اللّهِ لِلَّذِينَ يَعْمَلُونَ السُّوَءَ بِجَهَالَةٍ ثُمَّ يَتُوبُونَ مِن قَرِيبٍ فَأُوْلَـئِكَ يَتُوبُ اللّهُ عَلَيْهِمْ وَكَانَ اللّهُ عَلِيماً حَكِيماً» «Allah yanında yalnız o kəslərin tövbəsi qəbul olunar ki, onlar nadanlıq ucundan pis bir iş gördükdən sonra dərhal *(ölüm çatmamışdan qabaq)* tövbə edərlər. Allah belələrinin tövbəsini qəbul edər! Həqiqətən Allah *(həqiqi tövbəni)* bilən və *(hamı barəsində)* hikmətlidir.»

# 131

İmam Əli əleyhis-salam *(bəzi ibadətlərin sirləri barəsində)* buyurmuşdur:

Namaz hər bir pərhizkarın *(Allahın mərhəmətinə)* yaxınlaşma vasitəsidir. Həcc *(kafirlə cihad etmək imkanı olmayan)* hər bir zəifin cihadıdır. (Qeyd)[1] Hər bir şeyin zəkatı

---

[1] *Allah yolunda apardığı mübarizəsidir. Çünki həccdə də cihadda olan kimi arvad-uşaqdan uzaqlıq, soyuq-isti və qorxu və vahimə ilə rastlaşmaq kimi çətinliklər mövcuddur. Həccin - zəifin cihadı adlandırılmasının səbəbi budur ki, imkanı olanlar və güclülərə həccdən əlavə cihad etmək də vacibdir.*

var və bədənin zəkatı oruc tutmaqdır. (Qeyd)[1] Qadının cihadı əri ilə xoş rəftarlı olmaq və ona tabe olmaqdır. *(Çünki ona cihad etmək rəva deyil və onun ən mühüm cihadı pis işlərə əmr edən nəfslə mübarizə və ərinə tabe olmasıdır.)*

# 132

İmam Əli əleyhis-salam *(sədəqə barəsində)* buyurmuşdur:

*(Rəhmət səmasından)* ruzinin gəlməsini sədəqə verməklə istəyin. *(Çünki sədəqə vermək ruzinin gəlib çatmasına səbəb olur.)* Əvəz alacağına yəqini və inamı olan kəs bağışlamaqda səxavətli və comərd olar. *(Allah tərəfindən əvəz alacağına inandığı üçün bir şey bağışlamaqda xəsislik və simiclik etməz.)*

# 133

İmam Əli əleyhis-salam *(ruzi barəsində)* buyurmuşdur:

Kömək və yardım *(hər bir kəsin ruzisi, Allah tərəfindən)* ehtiyac miqdarında verilir.

# 134

İmam Əli əleyhis-salam *(mötədilliyə həvəsləndirərək)* buyurmuşdur:

*(Həyatda)* mötədilliyi öz peşəsi edən kəs yoxsul olmayıb. (Qeyd)[2]

# 135

İmam Əli əleyhis-salam *(rahat və dinc olmaq barəsində)* buyurmuşdur:

---

[1] *Sərvət, zahirdə zəkat verməklə azaldığı amma batində bərəkətli və xeyirli olduğu kimi, bədənin gücü də zahirdə oruc tutmaqla azalır, lakin nəfsi istəklərdən uzaqlaşmaqla batində qüvvətlənir.*

[2] *Qurani-Kərimin İsra surəsinin 29-cu ayəsində buyurulur:* « **وَلاَ تَجْعَلْ يَدَكَ مَغْلُولَةً إِلَى عُنُقِكَ وَلاَ تَبْسُطْهَا كُلَّ الْبَسْطِ فَتَقْعُدَ مَلُومًا مَّحْسُورًا**» *«Nə əldən çox bərk ol (malını sərf etməkdə möhkəm olma), nə də əlini tamamilə açıb israfçılıq et. Yoxsa həm qınanarsan, həm də peşman olarsan!»*

Külfətin azlığı iki əlin biridir *(əlin digəri isə mal əldə etməkdir). (Camaatla)* dostluq etmək ağlın yarısıdır *(onun digər yarısı isə digər sifətlər və ya onların şər və pisliklərindən uzaq olmaqdır)*. Qəm-kədər qocalığın yarısıdır *(və onun digər yarısı ömrün uzunluğudur)*.

# 136

İmam Əli əleyhis-salam *(səbr barəsində)* buyurmuşdur:

Səbr qəm-qüssə miqdarında verilir. *(Müsibət hər nə qədər böyük olsa Allah onun miqdarında səbr əta edir.)* Müsibət zamanı əlini dizinə vuran *(dözümsüzlük edən)* şəxsin *(həmin müsibət üçün nəzərdə tutulmuş)* savabı məhv olar.

# 137

İmam Əli əleyhis-salam *(əməlin yerinə düşməyən şəkildə edilməsinin məzəmmətində)* buyurmuşdur:

Nə çox oruc tutan ki, oruc tutmağından ona aclıq və susuzluqdan başqa bir şey qalmır. Nə çox namaz *(gecə namazı)* qılan ki, namaz qılmasından ona oyaqlıq və əziyyətdən başqa bir şey qalmır. *(Çünki o, namaz və orucu göstərişlərə uyğun yerinə yetirməyib.)* Zirəklərin yuxusu və onların oruc açmaları necə də gözəldir! *(Çünki onların etdikləri yerinə düşər və göstərişlərə uyğun olar.)*

# 138

İmam Əli əleyhis-salam *(sədəqə vermək, zəkat çıxartmaq və dua etməyə həvəsləndirərək)* buyurmuşdur:

İmanınızı sədəqə ilə qoruyun. *(Çünki sədəqə imanın kamillik nişanəsidir və mömin savab ümidi ilə pak niyyətlə ona tərəf tələsər.)* Var-dövlətinizi zəkat verməklə amanda saxlayın. *(Çünki əgər zəkat verməsəniz yoxsul və ehtiyacı olanlara xəyanət etmisiniz və buna görə də var-dövlətiniz məhv olmağa daha layiqdir.)* Bir-birinin ardınca gələn bəla və çətinlikləri dua etməklə uzaqlaşdırın.

# 139

İmam Əli əleyhis-salamın *(ən seçilmiş və yaxşı dostlarından olan)* Kumeyl ibn Ziyad Nəxəiyə buyurduğu kəlamlardandır. Kumeyl ibn Ziyad deyir: Əmirəl-möminin Əli ibn Əbu Talib mənim əlimdən tutub məni səhraya apardı. Şəhərin kənarına çatanda bəlaya düşmüş şəxs kimi bir ah çəkdi. Sonra *(elm və alimlər barəsində belə)* buyurdu:

Ey Kumeyl ibn Ziyad! Bu qəlblər qabdırlar *(elm, həqiqət və sirlərin qablarıdır)* və onların ən yaxşısı daha yaxşı saxlayanıdır *(ona tapşırılan şeyi daha yaxşı qoruyaraq yadda saxlayanıdır)*. Buna görə də *(diqqətli ol və)* sənə dediklərimi qoruyaraq yaxşı saxla:

İnsanlar üç qisimdirlər: Rəbbani və ilahi alim *(yaradılışın başlanğıc və sonundan xəbərdar olub ona əməl edən, Allahı tanıyan alim)*; *(cəhalət və nadanlıqdan)* nicat və qurtuluş tapmaq yolunda olan elm axtaran və öyrənən; kiçik və zəif «milçəklər» *(müxtəlif çirkinliklərə bulaşmış nadan və qanmaz)* ki, hər çağıranın arxasınca *(hər yola)* gedir və hər küləklə bir tərəfə əyilirlər *(düzü əyridən seçmirlər, heç bir yolda sabitqədəm deyildirlər və qarşıya çıxan hər bir yola gedirlər)*, elm nurundan işıq götürməyiblər *(nadanlıq zülmətində qalıblar)* və möhkəm sütuna *(ağıl və elm sütunları üzərində dayanan haqq əqidəyə)* sığınmayıblar *(onları öyrənməyiblər və azdırıcı insanların arxasınca düşübblər)*.

Ey Kumeyl, elm maldan daha yaxşıdır. *(Çünki)* elm səni *(dünya və axirət çətinliklərindən)* qoruyur, malı isə *(məhv olmaqdan)* sən qoruyursan. Bağışlamaq malı azaldır, elm isə bağışlamaq *(başqasına öyrətmək)* nəticəsində artır. Sərvət ilə yetişdirilmiş şey və əldə edilmiş böyüklük onun əldən çıxması ilə əldən çıxar *(elm ilə qazanılmış böyüklük isə yox olan deyil)*.

Ey Kumeyl ibn Ziyad, elmlə tanışlıq və onu əldə etmək dindir ki, *(qiyamət günü)* ona görə savab və mükafat verilər. İnsan elmlə öz həyatında *(Allah, Peyğəmbər və dini imam və rəhbərlərə)* itaət və tabeçiliyi, ölümdən sonra isə yaxşı və

gözəl sözləri *(xalqın onun barəsindəki xoş danışıqlarını)* əldə edir. Elm hökm edən, mal isə hökmə tabe olan və məğlubdur *(mal əldən-ələ keçir və zavala uğrayır, elm isə bərqərar və qalandır)*.

Ey Kumeyl ibn Ziyad, sərvət toplayanlar diri olmalarına baxmayaraq, həlak olublar *(onlar diri olsalar da qürur və azğınlıq onları məhv edəcəkdir)*. Alimlər, zaman durduqca duracaqlar. Onların vücüdları *(bu dünya ilə vidalaşmaqla)* itib, surətləri isə *(xalqın onlar barəsində olan gözəl və xoşagələn xatirələri nəticəsində)* qəlblərdə bərqərardır. Bil ki, *(mübarək əli ilə sinəsinə işarə edib)* burada çoxlu elm var, əgər onun üçün onu öyrənən şəxslər tapa bilsəydim! (Qeyd)[1] Bəli, zehni iti olan tapıram, amma *(həmin elmlər barəsində)* ondan xatircəm deyiləm. *(Çünki)* o, dini vasitələri dünya üçün istifadə edir və Allahın nemətləri *(elm və mərifət əldə etmək nailiyyəti)* ilə Onun bəndələrinə və dəlilləri *(ağıl və düşüncə)* ilə Onun dostlarına lovğalıq edir. (Qeyd)[2] Yaxud elm əhlinə itaətcil *(danışıq və davranışında tabe)* olan birini tapıram, amma onun *(da)* öz ətrafı barəsində *(bilənə tabe olmaqda)* gözüaçıqlıq və ayıqlığı yoxdur; qarşıya çıxan ilk şübhə onun qəlbində əks şəkk və güman alovu şölələndirir. (Qeyd)[3] Bil ki, nə bu *(bəsirətsiz tabe olan kəs)* layiqdir *(əmanət və həqiqi elm əhlidir)*, nə də o *(iti zehinli)*. Yaxud da ləzzət və kefdə ifrata varan və asanlıqla şəhvətə və nəfsi istəyinə tabe olan bir kəs tapıram. Ya da *(dünya malı və sərvət)* toplamaq və yığmaq vurğunu olan bir kəsi! Bu iki nəfər də

---

[1] *Əgər onu dərk edə bilən zirək şəxslər tapsaydım onları aşkar edərdim. İmam Əli əleyhis-salam burada ilahi maarifi dərk etmək ləyaqəti olan kəslərin olmamasından təəssüflənir.*

[2] *Belə olan şəxs mənəvi zinətlərə malik olmadığı üçün həqiqi elmi əldə etsə, onu cah-cəlal qazanmaq, özünün dünya bazarını rövnəqləndirmək və Allahın bəndələrindən üstünlük vasitəsi edəcək və həmin nemət və dəlillərin köməyi ilə xalqın üzünə zəhmət və çətinlik qapıları açacaq.*

[3] *Bu, haqq dinə tabe olan, amma qavrama qüvvələri zəif olan şəxslərin sifətidir. Buna görə də onlara namaz, oruc, cənnət və cəhənnəm kimi məsələlərin zahiri şəklindən başqa bir şey demək olmaz. Dərin həqiqətlərdə və maarifdə onların anlama və dərk etmə qüvvələrinə arxalanmaq olmaz.*

dini hər hansı bir işdə qoruyanlardan deyildirlər. Bunların ikisinə ən yaxın misal otlayan dördayaqlılardır. Belə bir dövrdə *(ki, elm daşıyıcısı tapılmır)* elm, daşıyıcısı və qoruyanının ölümü ilə ölür *(məhv olub aradan gedir)*.

Allahım, bəli, (Qeyd)[1] yer üzü Allahın dinini dəlil və sübut ilə bərqərar edən şəxsdən boş olmaz. *(Həmin şəxs)* ya *(on bir imam əleyhimus-salam kimi)* aşkar və məşhurdur, ya da *(fitnə-fəsada görə on ikinci imam–Allah onun zuhurunu tezləşdirsin–kimi)* qorxu içində və gizlin ki, Allahın aydın subut və dəlilləri *(peyğəmbərliyin nişanələri, dinin hökmləri, elm və mərifət)* aradan getməsin. (Qeyd)[2] Onlar neçə və haradadırlar *(yaxud nə vaxta kimi qorxu içində və gizlindirlər)*? Allaha and olsun ki, onlar sayca çox az, Allah yanında məqam və böyüklük baxımından isə çox əzəmətlidirlər. Allah Öz aşkar dəlil və sübutlarını, onlar *(dünyanın din, elm və hikmətdən boş qalmaması üçün)* həmin dəlilləri öz bənzərlərinə tapşırana və qəlblərində əkənə qədər onların vasitəsi ilə qoruyur. Elm və bilik həqiqi bəsirətlə birdən onlara üz tutub və onlar asudəlik və sevinclə yəqinlik və inam əldə ediblər. Naz-nemət içində böyüyən insanlara çətin və ağır olan şeyləri yüngül və asan qəbul edərlər; *(Onlar Allahın razılığını əldə etmək üçün dünyanın bütün çətinlikləri ilə keçinir və pərhizkarlıq edərək dünyaya ürək bağlamırlar;)* nadanların *(kimsəsizlik, çətinlik, yoxsulluq və giriftarlıq kimi)* qaçdıqları şeylərə adət ediblər və dünyada ruhları çox yüksək yerdən *(Allahın rəhmətindən)* asılmış bədənlərlə yaşayır. Allahın yer üzündəki xəlifə və canişinləri onlardırlar ki, *(xalqı)* Onun dininə dəvət edirlər. Ah, ah, onlarla görüşməyin çox həsrət və arzusundayam. *(Sonra buyurdu:)* Ey Kumeyl, istəyirsənsə qayıt.

---

[1] *«اَللّهُمَّ بَلي» yəni, «Allahım, bəli» ifadəsi burada istisna mənasındadır.*

[2] *Qalsın və bərqərar olsun. İbn Meysəm (Allah ona rəhmət etsin) deyir: Bu kəlam imamın bütün zamanlarda – nə qədər ki, şəri vəzifələr mövcuddür – xalqın arasında olmasının vacibliyini və zəruriliyini açıqlayır.*

# 140

İmam Əli əleyhis-salam *(danışmaq barəsində)* buyurmuşdur:

İnsan öz dilinin altında gizlənmişdir *(danışmayınca tanınmaz)*.

# 141

İmam Əli əleyhis-salam *(məqam və dərəcə barəsində)* buyurmuşdur:

Öz qədir-qiymət və məqamını *(necə qiymətli inci və cavahir olmasını)* bilməyən *(və ya həddini aşaraq ayağını yorğanından kənara çıxaran)* insan həlak oldu.

# 142

İmam Əli əleyhis-salam ondan öyüd-nəsihət istəyən şəxsə *(xoşagəlməz xasiyyətlərin məzəmmətində belə)* buyurmuşdur:

Əməlsiz *(ibadət və bəndəliyi olmadan)* axirətə ümid bəsləyənlərdən və uzun arzu ilə tövbəni və *(günah və itaətsizlikdən)* qayıtmağı dala atanlardan olma. Onun dünya barəsindəki danışığı zahidlərin danışığı, əməli isə *(dünyanı)* istəyənlərin əməlidir. Dünyadan *(onun malından)* ona verilsə doymaz, çatmasa qane olmaz *(öz payından razı qalmaz)*. Ona verilmiş şeylərin *(nemətlərin)* şükrünə acizdir və çatmayan *(ona verilməmiş)* şeyin daha çoxunu axtarır; *(başqalarını nalayiq işlərdən)* çəkindirir, özü isə *(başqalarını çəkindirdiyi şeydən)* əl çəkmir; *(başqalarına)* özü etmədiyi şeyləri əmr edir. Yaxşı əməl sahiblərini sevir, amma onların əməllərini etmir, günahkarlara nifrət edir, halbuki özü onlardan biridir. Günahlarının çoxluğu səbəbindən ölümdən xoşu gəlmir, amma eyni zamanda ölümdən xoşu gəlməməsinə səbəb olan şeyə *(günahlara)* israrlıdır. Xəstələnsə *(pis əməllərindən)* peşman olar, sağalan kimi isə asudə və qafil qalar. *(Xəstəlikdən)* rahatlıq və əmin-amanlıqda olanda məğrurlaşar, bəlaya düçar olanda isə ümidsizləşərək solar. Qarşısına bəla və çətinlik çıxsa narahatlıqla dua edər və nalə qoparar,

rahatlıq və şadlığa düşəndə isə qürür və *(dünya malına)* aldanma səbəbindən *(Allahdan)* uzaqlaşar. Barəsində zənni olan şeylərdə *(günahların bağışlanmasında, pis işlərə əmr edən)* nəfs ona hakimdir, o isə inamı olan şeyə *(ölüm və əbədi əzaba)* hakim deyil. Başqası üçün özünün günahından kiçik olan günahlara görə qorxur *(onun günahını böyük hesab edir)* və özü üçün əməlindən artıq savab ümidindədir *(öz itaətini böyük sanır)*. Var-dövlətə çatanda sevincək olub fitnə və azğınlığa düşər *(bir-birinin ardınca günah edər)*, yoxsullaşanda isə *(Allahın rəhmindən)* ümidsizləşər və *(ibadət və bəndəlikdə)* süstlük edər. İtaət və bəndəlik edəndə səhlənkarlıq edər *(onları düzgün yerinə yetirməz)*, istəyəndə *(Allahdan hacət diləyəndə)* isə israr edər. Ona bir şəhvət və istək *(asayiş və rahatlıq)* üz tutanda itaətsizlik yolunu tutub tövbəni təxirə salar, amma qəm-kədər üz versə dinin *(çətinlik zamanı səbrli və dözümlü olmaq və Allaha pənah aparmaq kimi)* göstərişlərindən uzaqlaşar. (*Camaata)* başqalarından ibrət almağı bəyan edir, özü isə ibrət götürmür. Öyüd-nəsihət verməkdə səy edər, özü isə öyüd qəbul edən deyil. Beləliklə, o, danışdığı ilə öyünər, əməli isə azdır. Fani və məhv olmalı şeydə *(dünya və onun malında)* çalışır, əbədi olan şeydə *(axirət və onda olan şeylərdə)* isə səhlənkarlıq edir. Qənimət və mənfəət *(itaət və Allah bəndəliyi)* gözünə zərər-ziyan görünər *(onları ziyan güman edər)*, zərər-ziyanı *(günah və itaətsizliyi)* isə qənimət və mənfəət sanar. Ölümdən qorxur, amma fürsət əldən çıxmamış *(saleh əməllər və Allahın xoşu gələn işlərə)* tələsmir. Başqasının itaətsizliyindən o günahı böyük hesab edir ki, özünün ondan daha böyük olan günahını kiçik sayır. Həmçinin başqasından az hesab etdiyi itaəti öz bəndəliyi üçün çox bilir. Beləliklə, o, başqalarına qarşı tələbkar, özünə qarşı isə səhlənkardır. Yoxsullarla Allahı yad etməkdənsə, varlılarla boş-boş danışmağı daha çox sevər. Öz xeyrinə görə *(hətta səhv olsa belə,)* başqasının ziyanına hökm edər, amma başqasının xeyrinə *(hətta düz olsa da)* öz ziyanına hökm etməz. Başqasına yol göstərir, özünü isə azdırır. Beləliklə,

*(başqaları)* onun arxasınca gedərlər, o özü isə günah edər. *(Öz haqqını)* tam alır, *(başqasının haqqını isə)* tam vermir. Xalqdan qorxar, amma Rəbbinin yolunda yox *(onların qorxusundan Allahın bəyənmədiyi işlər görər)*! Həmçinin xalqın işində Rəbbindən qorxmaz *(onlara ziyan vurar və Allahdan çəkinməz). (Seyyid Rəzi əleyhir-rəhmə -deyir:)*

Əgər «Nəhcül-Bəlağə» kitabında bu kəlamdan başqa ayrı bir şey olmasaydı, təkcə o faydalı nəsihət, yetərli hikmət, bəsirət sahibi üçün gözüaçıqlıq və düşüncə sahibi üçün ibrət və öyüd olmaq baxımından kifayət edərdi.

# 143

İmam Əli əleyhis-salam *(hamının sonu və aqibəti barəsində)* buyurmuşdur:

Hər kəsin sonu və aqibəti ya şirin *(səadət və xoşbəxtlik)*, ya da acıdır *(bədbəxtlikdir)*.

# 144

İmam Əli əleyhis-salam *(hər bir şeyin yox olacağı barəsində)* buyurmuşdur:

Hər gələn qayıdandır, qayıdan şey isə olmamış kimidir. *(Dünyanın növbə ilə hamının qarşısına çıxan şirinlik və acılığı elə yox olacaq, zavala uğrayacaq ki, sanki belə bir şirin və ya acı gün olmayıb.)*

# 145

İmam Əli əleyhis-salam *(səbr barəsində)* buyurmuşdur:

*(Çətin)* zaman uzun çəksə də, qələbə səbrli və dözümlüdən ayrılmır.

# 146

İmam Əli əleyhis-salam *(başqasının işinə razı olmaq barəsində)* buyurmuşdur:

Bir tayfanın gördüyü işə razı olan kəs həmin işdə onlarla birgə olmuş kimidir. *(Çünki çirkin işə razı olmaq onu sevməyi tələb edir və bu, rəzil, günah və cəzaya layiq sifətlərdəndir. İşi görənlə ona razı olan arasındakı fərq budur ki,)* batil və nahaq iş görənin iki günahı var: *(biri)* onu etməyin günahı, *(digəri isə niyyət və qəlbdə)* ona razı olmağın günahı.

# 147

İmam Əli əleyhis-salam *(əhd-peyman barəsində)* buyurmuşdur:

Əhd-peymanların tutacaqlarından yapışın(Qeyd)[1].

# 148

İmam Əli əleyhis-salam *(hidayət və nicat imamları əleyhimus-salama tabe olmağa təşviq edərək)* buyurmuşdur:

Tanımamağınızda üzrlü olmadığınız şəxsə tabe olun. (Qeyd)[2]

# 149

İmam Əli əleyhis-salam *(öyüd-nəsihət verərək)* buyurmuşdur:

Sizə göstəriblər – əgər göz açsanız, doğru yolu göstəriblər – əgər yola gəlsəniz, eşitdiriblər – əgər qulaq assanız! *(Yəni, əgər göz açıb diqqət etsəniz görərsiniz ki, düz yola*

---

[1] *Onları qorumaq və onlara vəfa etmək istiqamətində çalışın. Yaxud əhd-peymanın şərtlərini möhkəm və tutarlı edin. Yaxud kafir və münafiqlər kimi ləyaqəti olmayanlarla deyil vəfalılarla peyman bağlayın. Çünki onlar öz əhdlərinə vəfa etmirlər, necə ki, Qurani-Kərimin Tövbə surəsinin 10-cu ayəsində buyurulur:* « **لاَ يَرْقُبُونَ فِي مُؤْمِنٍ إِلاًّ وَلاَ ذِمَّةً**» *«Onlar möminlər barəsində qohumluq haqqına və əhd-peymana riayət etmirlər.»*

[2] *İmamlar əleyhimus-salama tabe olun. Əgər «onları tanımadıq» desəniz üzrünüz qəbul olunmaz. Çünki dini hökm və qanunları onlardan öyrənməlisiniz.*

*gəlməyiniz üçün lazım olan bütün tədbirlər görülüb, amma siz istəməyərək özünüzü korluğa, azğınlığa və karlığa vurmusunuz.)*

# 150

İmam Əli əleyhis-salam *(yaxşılıq barəsində)* buyurmuşdur:

Öz qardaşını *(dostunu)* yaxşılıqla məzəmmət et. *(Onu məzəmmət etmək əvəzinə ona yaxşılıq et ki, utansın. Çünki xəcalətin təsiri bütün məzəmmətlərdən çoxdur.)* Onun pisliyini ona bəxşiş etməklə dəf et. (Qeyd)[1]

# 151

İmam Əli əleyhis-salam *(töhmətə səbəb olan yerlərdən çəkinmək barəsində)* buyurmuşdur:

Töhmət və pis gümanlara səbəb olan yerlərə gedən kəs, onun barəsində pis zənnə düşəni qınamamalıdır. *(Çünki o özü barəsində pis güman edilməsinə səbəb olub.)*

---

[1] *Çünki bəxşiş dostluğa, pislik müqabilində pislik etmək isə düşmənçiliyin artmasına səbəb olur. Qurani-Kərimin Muminun surəsinin 96-cı ayəsində buyurulur:* «**ادْفَعْ بِالَّتِي هِيَ أَحْسَنُ السَّيِّئَةَ**» *«(Ümmətin) əziyyət və pisliyi(ni) yaxşılıqla dəf et!»*

# 152

İmam Əli əleyhis-salam *(məsləhət barəsində)* buyurmuşdur:

*(Bir şeyi)* ələ keçirən kəs özbaşınalaşar *(başqalarının nəzər və fikirlərinə etinasızlaşar)*. Özbaşınalıq edən *(işlərdə məsləhətləşməyən)* həlak oldu. *(Təcrübəli)* insanlarla məsləhətləşən kəs onların ağıllarına şərik olub. *(Məlumdur ki, hər hansı bir işdə bir neçə ağlın hökm verməsi bir ağlın hökm verməsindən daha xeyirli və münasibdir.)*

# 153

İmam Əli əleyhis-salam *(sirri faş etməmək barəsində)* buyurmuşdur:

Xeyir və yaxşılıq öz sirrini gizli saxlayan kəsin öz əlindədir *(sirrini faş edən şəxsin əksinə olaraq onun xeyir və mənfəəti öz əlindədir)*.

# 154

İmam Əli əleyhis-salam *(yoxsulluğun məzəmmətində)* buyurmuşdur:

Yoxsulluq və kasıblıq çox böyük ölümdür. *(Çünki ölümün çətinliyi bir dəfə olur. Yoxsulluğun çətinliyi isə hər an müşahidə olunur.)*

# 155

İmam Əli əleyhis-salam *(layiq olmayan şəxsə yaxşılıq etmək barəsində)* buyurmuşdur:

Hər kim haqqını əda etməyən kəsin haqqını yerinə yetirsə *(ona hörmət etməyən şəxsə ehtiram göstərsə)* ona bəndəlik edib. (Qeyd)[1]

---

[1] *Çünki bəndəlik, əvəz istəmədən əzəmət və böyüklüyü etiraf edilən birinin müqabilində özünü kiçiltməkdir. Buna görə də xeyir və ziyanı olmayan şəxsə hörmət göstərmək ona ibadət və bəndəlik etmək kimidir. Bəzi yerlərdə isə hörmət göstərmək mədh edilib. Deməli, İmam əleyhis-salamın bu kəlamdan məqsədi budur ki, insan ehtiram göstərməkdə həddi*

# 156

İmam Əli əleyhis-salam *(məxluqa itaət və tabeçilik barəsində)* buyurmuşdur:

Allaha itaətsizlik olan məsələdə məxluqa tabe olmaq rəva deyil *(Yaxud günaha səbəb olan yerdə ibadət və bəndəlik düz deyil, məsələn, qəsb edilmiş torpaqda və ya zülm ilə alınmış yerdə namaz qılmaq olmaz).*

# 157

İmam Əli əleyhis-salam *(başqasının haqqına toxunmaq barəsində)* buyurmuşdur:

Öz haqqı barəsində səhlənkarlıq edən kəs məzəmmət edilməz. Məzəmmət və qınaq o kəs üçündür ki, başqasının haqqına toxunub. *(Çünki başqasının haqqına əl uzadan kəs zülm edib və zülm çirkinliklərin ən pisidir və zalım məzəmmətə layiqdir.)*

# 158

İmam Əli əleyhis-salam *(xudpəsəndliyin ziyanı barəsində)* buyurmuşdur:

Xudpəsəndlik *(insanı)* daha artıq əldə etməkdən saxlayır. *(Çünki xudpəsənd bütün məqamların son dərəcəsini əldə etdiyini zənn edir və onun bu gümanı onu daha yüksək məqam qazanmaqdan saxlayır.)*

# 159

İmam Əli əleyhis-salam *(dünyaya və onun əhlinə ürək bağlamamaq barəsində)* buyurmuşdur:

---

*aşmamalıdır və ya ləyaqəti olmayan şəxsi böyük bilməməlidir; necə ki, özünün imam Həsən əleyhis-salama vəsiyyətində buyurub:* « **احْمِلْ نَفْسَكَ مِنْ أَخِيكَ عِنْدَ صَرْمِهِ عَلَى الصِّلَةِ** » *«Özünü, (din) qardaşın (dostun) ayrılan zaman (onunla əlaqələri bərpa edərək) ona birləşməyə vadar et......* **وَ إِيّاكَ أَنْ تَضَعَ ذالِك فِى غَيْرِ مَوْضِعِهِ أَوْ أَنْ تَفْعَلَهُ بِغَيْرِ أَهْلِهِ** *deyilənləri öz yerindən başqa yerlərdə işlətməkdən çəkin. Yaxud onları nalayiq şəxslər barəsində etmə.» Bunların geniş izah və şərhi üçün beşinci cilddə otuz birinci məktubun axırına müraciət edin. İbn Əbil Hədidin nüsxəsində «**عَبَدَهُ**» «ona bəndəlik edib» əvəzinə «**عَبَّدَهُ**» «onu öz bəndəsi və qulu edib» yazılıb. Çünki onun haqqını əda etmək üçün əvəz və mükafat nəzərdə tutmayıb, bəlkə ona yaxşılıq və xeyirxahlıq etmək istəyib.*

İş *(ölümlə başlayan axirət)* yaxındır *(azuqə tədarükü üçün çalış)* və *(dünyada olan)* birgəlik azdır *(tezliklə ayrılacaqsınız. Buna görə də ona ürək bağlamağa dəyməz).*

# 160

İmam Əli əleyhis-salam *(gözüaçıqların və bəsirət sahiblərinin tərifində)* buyurmuşdur:

Həqiqətən iki gözü olan üçün səhər açılıb. *(Bəsirət sahibi olan ağıllı üçün haqq din və düz yol aydındır və o, qəlbləri kor olan kəslər kimi şəkk və tərəddüddə deyil.)*

# 161

İmam Əli əleyhis-salam *(itaətsizlik etməmək barəsində)* buyurmuşdur:

Günah etməmək tövbə*(nin qəbul edilməsini)* istəməkdən daha asandır.[1] (Qeyd)

# 162

İmam Əli əleyhis-salam *(özünü cilovlamaq barəsində)* buyurmuşdur:

Nə çox bir dəfə yemək ki, dəfələrlə yeməyə mane olur. (Qeyd)[2]

# 163

İmam Əli əleyhis-salam *(nadanlığın məzəmmətində)* buyurmuşdur:

İnsanlar bilmədikləri şeyin düşmənidirlər. (Qeyd)[1]

---

[1] *Çünki günah etməməkdə çətinlik və əziyyət yoxdur. Amma tövbə, bəndənin qəlbinin haqqa yaxınlaşması və tövbənin qəbul olunmasına layiq olmağı tələb edir.*

[2] *Çox vaxt insan zərərli bir şey yeyir və ya yeməkdə ifrata varır və nəticədə xəstələnir və uzun müddət bir çox yeməklərdən qalır. Bu kəlam o adam barəsində məsəldir ki, az mənfəətin arxasınca gedir və çox xeyirdən məhrum olur, halbuki əgər özünü saxlasaydı daha çox mənfəət əldə edərdi.*

[1] *Çünki nadanlar bildikləri şeyi elm, ondan qalan şeyləri isə səhv sanarlar, necə ki, Qurani-Kərimin Yunus surəsinin 39-cu ayəsində buyurulur:* «**كَذَّبُواْ بِمَا لَمْ يُحِيطُواْ**» *«Qavraya bilmədikləri şeyi inkar edirlər.»*

## 164

İmam Əli əleyhis-salam *(məsləhətləşmə və məşvərət etmək barəsində)* buyurmuşdur:

Fikir yollarına üz tutan *(ağıllı insanlardan nəzəri kömək istəyən)* kəs xəta və səhv yerləri tanıyar *(və zərər-ziyanı olan şeydən uzaq olar)*.

## 165

İmam Əli əleyhis-salam *(Allaha görə iş görməyin xeyri barəsində)* buyurmuşdur:

*(Öz)* qəzəb nizəsini Allaha *(Onun razılığını əldə etməyə)* görə itiləyən *(başqalarını pis işlərdən çəkindirən)* kəs, ən çətin və ağır batil və nahaqları öldürməyə və məhv etməyə qadir olar *(Allah ona, batil və nahaq qüdrətli olsa belə, onları məğlub etməkdə kömək edər)*.

## 166

İmam Əli əleyhis-salam *(işə girişmək barəsində)* buyurmuşdur:

Bir işdən qorxduğun zaman özünü onun içinə at. Çünki çəkinib ehtiyatlanmağın çətinliyi qorxduğun şeyin özündən daha böyükdür. (Qeyd)[1]

## 167

İmam Əli əleyhis-salam *(başçılıq barəsində)* buyurmuşdur:

Başçılıq və rəisliyin aləti könül genişliyidir *(çətinliklərə tab gətirmək, işlərdə səbr etmək, dada çatmaq və bu kimi şeylərdir)*.

---

[1] *Bəla və çətinliyin içində olmaq onun qorxusu içində qalmaqdan daha yaxşıdır. Bu kəlam dünya işləri barəsindədir ki, onları eşitmək görməkdən daha mühümdür. Amma Quran ayələrindən, hədislərdən və İmam əleyhis-salamın bu kitabda olan kəlamlarından məlum olduğu kimi axirət işləri, onun əksinədir və onları görmək eşitməkdən daha mühümdür.*

## 168

İmam Əli əleyhis-salam *(pis əməllərin qarşısını almaq barəsində)* buyurmuşdur:

Pis əməl sahibini yaxşı əməl sahibini mükafatlandırmaqla *(onu əziz tutub ona yaxşılıq və bəxşiş etməklə)* incit. *(Çünki pis əməl sahiblərinə, yaxşı əməlliləri əziz tutub onlara yaxşılıq etməkdən ağır əziyyət yoxdur.)*

## 169

İmam Əli əleyhis-salam *(bədxah olmamaq barəsində)* buyurmuşdur:

Pisliyi *(kin-küdurəti)* başqasının qəlbindən, onu öz qəlbindən qopartmaqla *(kənar etməklə)* biç *(uzaqlaşdır)*. *(Çünki hər kim başqaları barəsində pis fikirləşsə, onun barəsində də pis fikirləşərlər; hər kəs qəlbində başqalarına qarşı kin saxlasa, başqaları da qəlblərində ona qarşı kin saxlayarlar.)*

## 170

İmam Əli əleyhis-salam *(tərslik və inadkarlığın məzəmmətində)* buyurmuşdur:

Tərslik *(sağlam)* fikri uzaqlaşdırır *(insanı doğru yoldan saxlayır və o, fikir və düşüncənin xeyirini əldən çıxarır)*.

## 171

İmam Əli əleyhis-salam *(tamahın məzəmmətində)* buyurmuşdur:

Tamahkarlıq əbədi köləlikdir. *(Tamahkar həmişə qul və əsirdir və tamahına göz yummayınca azad olaraq qurtulmaz.)*

## 172

İmam Əli əleyhis-salam *(uzaqgörənlik barəsində)* buyurmuşdur:

*(Hər hansı bir işdə)* səhlənkarlıq etməyin nəticəsi peşmançılıq, ehtiyat və uzaqgörənliyin bəhrəsi isə salamatlıqdır *(zərər-ziyandan qurtulmaqdır)*.

# 173

İmam Əli əleyhis-salam *(yersiz susmağın və yersiz danışmağın məzəmmətində)* buyurmuşdur:

Cəhalət və nadanlıqla danışmaqda xeyir olmadığı kimi hikmət və elmlə *(danışmaq lazım olan zaman)* susmaqda da xeyir yoxdur.

# 174

İmam Əli əleyhis-salam *(düz və doğru yolun bir olması barəsində)* buyurmuşdur:

*(İki nəfərin)* bir yola bir-birinə zidd iki çağırışının biri mütləq azğınlıqdır. (Qeyd)[1]

# 175

İmam Əli əleyhis-salam *(özünün haqq yolda sabitqədəm olması barəsində)* buyurmuşdur:

Haqq *(müqəddəs İslam dininin kök və şaxələri mənə)* göstəriləndən *(onları biləndən)* bəri onun barəsində şəkk və tərəddüdə düşməmişəm.

# 176

İmam Əli əleyhis-salam *(özünün Bəzi sifətləri barəsində)* buyurmuşdur:

---

[1] *Çünki əgər onların hər ikisi haqq və düz olsaydı, onda iki cür olmazdı. Qurani-Kərimin Yunus surəsinin 32-ci ayəsində buyurur:* « فَمَاذَا بَعْدَ الْحَقِّ إِلاَّ الضَّلاَلُ» *«Haqq və düzlük aşkar olandan sonra azğınlıqdan başqa nə var?!»*

*(Heç vaxt)* yalan deməmişəm və mənə yalan deyilməyib(Qeyd)[1] yolumu azmamışam və heç kəs mənim vasitəmlə yolunu azmayıb.

[1] *Həzrət Peyğəmbərdən yalan eşitməmişəm. Çünki həm Peyğəmbər, həm də imam yalandan uzaq və pakdırlar.*

# 177

İmam Əli əleyhis-salam *(zülmün ziyanı barəsində)* buyurmuşdur:

Zalım sabah *(qiyamət günü qəm-kədərinin çoxluğundan)* əlini çeynəyəcək. (Qeyd)[1]

# 178

İmam Əli əleyhis-salam *(ölüm barəsində)* buyurmuşdur:

Köç etmək *(dünyadan getmək)* yaxındır. *(Buna görə də ağıllı o adamdır ki, azuqə götürüb ölüm çatan zaman hazır olsun.)*

# 179

İmam Əli əleyhis-salam *(haqq yolunun çətinlikləri barəsində)* buyurmuşdur:

Üzünü haqqa göstərən *(ona kömək və yardım edən)* kəs xalqın nadanları yanında məhv olar. (Qeyd)[2]

# 180

İmam Əli əleyhis-salam *(səbrliliyə təşviq edərək)* buyurmuşdur:

Səbrliliyin nicat vermədiyi kəsi dözümsüzlük məhv edər. *(Çünki o, səbrliliyin savabını əldən verərək dözümsüzlüyün cəzasına düçar olar.)*

# 181

İmam Əli əleyhis-salam *(xəlifələrdən şikayətlənərək)* buyurmuşdur:

---

[1] *Necə ki, Qurani-Kərimin Furqan surəsinin 27-ci ayəsində buyurur:* «وَيَوْمَ يَعَضُّ الظَّالِمُ عَلَى يَدَيْهِ» *«O gün zalım əllərini çeynəyəcək.»*

[2] *Nadanların əlindən çox əziyyət çəkər. «Nəhcül-Bəlağə»nin bəzi nüsxələrində* «عِنْدَ جَهَلَةِ النّاس» *«xalqın nadanları yanında» ibarəsi yoxdur. Belə olan halda, İmam əleyhis-salamın kəlamının mənası belə olur: «Haqdan üz döndərən və uzaqlaşan kəs həlak və məhv olar.» Çünki birindən uzaqlaşan üzünü ondan döndərər.*

Əcəba, xilafət *(Həzrət Peyğəmbərlə)* yoldaşlıq və birgəliklə çatır *(ki, Əbu Bəkr Ömərə «əlini ver sənə beyət edim» deyəndə, Ömər Əbu Bəkrə «sən çətinlik və rahatlıqlarda Allahın Peyğəmbəri ilə yoldaş və birgə olmusan, əlini ver mən sənə beyət edim» demişdi)*, amma *(o Həzrətlə)* yoldaş və qohumluğa görə çatmır?! *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Bu barədə o Həzrətdən belə bir şer də nəql olunub ki:

**فَإِنْ كُنْتَ بِالشُّورى مَلَكْتَ أُمُورَهُمْ        فَكَيْفَ بِهذا وَ الْمُشيرُونَ غُيَّبُ**
**وَ إِنْ كُنْتَ بِالْقُرْبى حَجَجْتَ خَصِيمَهُمْ        فَغَيْرُكَ أَوْلى بِالنَّبِيِّ وَ أَقْرَبُ**

Yəni: «Əgər sən *(Əbu Bəkr)* şura və ümmətin ümumi nəzəri ilə xalqın işlərinin idarəçiliyini ələ almısansa, bəs nəzər və düşüncə sahibləri *(Bəni-Haşim, xüsusilə İmam əleyhis-salam həmin şura və icmada)* iştirak etməyə-etməyə ona necə nail olmusan? Yox əgər *(Peyğəmbərə)* qohumluğa əsaslanıb onların *(xilafət barəsində)* mübahisə edənlərinə dəlil gətirib onlara qalib gəlmisənsə *(Əbu Bəkr Səqifədə Ənsarla mübahisə edərək dəlil gətirib ki, biz Peyğəmbərin qohum və yaxınlarıyıq), onda başqası (İmam əleyhis-salam)* Peyğəmbərə daha yaxın və bu işə daha layiqdir. *(Çünki əgər Peyğəmbər sənin qızını alıbsa, İmam əleyhis-salam onun kürəkəni və əmisi oğludur.)*»

# 182

İmam Əli əleyhis-salam *(öyüd-nəsihət verərək)* buyurmuşdur:

İnsan dünyada ölümlərin *(ölüm amillərinin)* ox atdığı hədəf, bəla və dərdlərin ona tərəf tələsdikləri qarət edilmiş qənimətdir. Hər içməyində boğaz tutulması, hər loxmasında kədərlər var *(hər bir ləzzət və kefi qəm-qüssə ilədir)*. Bəndə bir nemətə ancaq digər bir nemətdən ayrılmaqla çatar; həyatının *(yeni)* bir gününə ancaq *(onun üçün təqdir edilmiş)* öz *(ömür)* müddətinin digər bir günündən ayrılmaqla üz tutar. Buna görə də biz ölümün yardımçılarıyıq *(ki, hər gün ona yaxınlaşırıq və çəkdiyimiz hər bir nəfəslə ona tərəf bir addım atmış oluruq)* və canlarımız məhv olmaq və ölümlərə hədəfdir. Belə isə əbədiliyə necə ümidvar ola bilərik, halbuki gecə ilə gündüz nəyə şərafət və böyüklük veribsə tez ona tərəf dönərək

qurduqlarını viran, topladıqlarını isə darmadağın edib?! (Qeyd)[1]

# 183

İmam Əli əleyhis-salam *(mal toplamaq üçün çalışmaq barəsində)* buyurmuşdur:

Ey Adəm övladı! Öz azuqə və ruzindən artıq qazandığın şeydə *(var-dövlətdə)* başqası *(varislər və ya digərləri)* üçün xəzinədarsan *(ki,onu onlara verəcəksən və onun sənə heç bir xeyri olmayacaq).*

# 184

İmam Əli əleyhis-salam *(bir işə məcbur etməyin ziyanı barəsində)* buyurmuşdur:

Həqiqətən qəlblərin istəmək, üz tutmaq və üz döndərmək xüsusiyyətləri var. Buna görə də *(meylsizlik və istək olmayan yol ilə deyil)* istək və üz tutmaq yolu ilə onlara tərəf gəlin *(onları həmin hallarda olanda işə vadar edin).* Çünki qəlb (bir işi görməyə) məcbur ediləndə korlaşır *(yorğunlaşıb acizləşərək onu düz yerinə yetirmir).*

# 185

İmam Əli əleyhis-salam *(qəzəbi udmağa həvəsləndirərək)* buyumuşdur:

Qəzəblənib üzümü turşudan zaman qəzəbimi nə vaxt boğum? İntiqam almaq və cəzalandırmağa gücüm çatmayanda və «mənə, *(əgər güclənənə kimi)* səbr etsəydin *(yaxşı olardı)*» deyiləndə, yoxsa intiqam almaq qüdrətim olanda və mənə «əgər bağışlasaydın *(yaxşı olardı)*» deyiləndə? *(Hər halda, insanın qüdrətli və zəif olmasından asılı olmayaraq öz qəzəbini boğması təqdirəlayiqdir.)*

---

[1] *Bəli, bu həyata ürək bağlamağa dəyməz. Çünki hər gecə və gündüz bir dəstənin ölməsinin, məqam və böyüklüklərinin əldən çıxmasının və sərvət və var-dövlətlərinin dağılmasının şahidiyik.*

# 186

İmam Əli əleyhis-salam zibillikdə olan murdarın yanından keçən zaman *(dünya malına ürək bağlamamaq barəsində)* buyurmuşdur:

Budur xəsislərin xəsislik etdikləri şeyin nəticəsi! *(Seyyid Rəzi deyir:)* Digər bir rəvayətdə o Həzrətin belə buyurduğu deyilir: Bu, sizin dünən onun üçün çalışaraq rəğbət göstərdiyiniz şeydir.

# 187

İmam Əli əleyhis-salam *(əldən çıxmış şey barəsində)* buyurmuşdur:

Malının sənə öyüd verəni əlindən çıxmayıb. *(Əlindən çıxmış şeyin ziyanının qəmini çəkmə. Çünki o sənə təcrübə öyrədir və təcrübə həmişə işinə yarayacaq.)*

# 188

İmam Əli əleyhis-salam *(elm və bilikdən təngə gəlməmək, yorulmamaq barəsində)* buyurmuşdur:

Bədən və cisimlər *(bir növ yemək yeməkdən və bir cür iş görməkdən)* təngə gələrək yorulduğu kimi, bu qəlblər də *(tərkib hissəsi bir-biri ilə eyni olduğu üçün bir mövzu ətrafında düşünərək fikirləşməkdən)* bezərək yorulur. Buna görə də həmin qəlblər *(onların yorğunluqlarını çıxarmaq)* üçün *(ləzzət alaraq rahatlandıqları)* yeni və maraqlı hikmət və elmlər (*din başçıları və alimlərin müxtəlif sözləri kimi şeylər)* axtarın *(ki, hikmət kəsb edilməsi və elm əldə edilməsində çalışasınız və yorulmayasınız)*.

# 189

İmam Əli əleyhis-salam Xəvaricin «hökm ancaq Allaha məxsusdur» sözlərini eşidəndə *(onların bu sözdən məqsədlərinin səhv olması barəsində)* buyurmuşdur:

O, haqq və düz sözdür ki, onlar ondan batil və səhv nəticə alırlar. *(Bu cümlənin şərhi xütbələr fəslində qırxıncı kəlamda keçdi.)*

## 190

İmam Əli əleyhis-salam fitnəkar adamlar barəsində buyurmuşdur:

Onlar bir yerə toplaşanda irəliləyir, dağılışanda isə tanınmırlar *(ki, fitnə-fəsadlarına görə cəzalandırılsınlar. Seyyid Rəzi-rəhiməhullah-deyir:)* Deyirlər ki, İmam əleyhis-salam elə deyil belə buyurmuşdur: Onlar bir yerə toplaşanda zərərlidirlər *(çünki həmin zaman işlər dayanır)* və dağılışanda xeyirlidirlər. Sonra dedilər: Bir yerə toplaşmalarının ziyanını bildik, bəs dağılışmalarının xeyiri nədir? Buyurdu: Sənət və peşəsi olanlar öz iş-sənətinə qayıdırlar və xalq onlardan faydalanır, bənnanın öz tikintisinə, toxucunun öz iş yerinə və çörəkçinin öz çörəkxanasına qayıtması kimi.

## 191

İmam Əli əleyhis-salamın yanına bir cinayətkar gətirdilər və onunla birlikdə fitnəkar adamlar da var idi. O Həzrət *(onların məzəmmətində belə)* buyurdu:

Ancaq çirkin və rüçvayçı işlərin yanında görünən üzlər heç açıq və şad olmasın!

## 192

İmam Əli əleyhis-salam *(əcəl çatmayınca ömrün sona çatmaması barəsində)* buyurmuşdur:

Hər bir kəsin yanında onu qoruyan iki mələk var. (İlahi) təqdir gələndə *(onun əcəli çatanda)* həmin iki mələk onunla təqdirin arasını boşaldır. Ömür müddəti *(ölüm müqabilində)* möhkəm qalxandır. *(Buna görə də ömür sona çatmayınca şəxs ölmür.)*

## 193

İmam Əli əleyhis-salam Təlhə və Zübeyr *(Osman öldürüldükdən sonra)* o Həzrətə «biz sənə bu işdə *(xilafətdə)* şərik olmaq şərti ilə beyət edir, əhd-peyman bağlayırıq» deyəndə *(onların istəklərinin rədd edilməsi barəsində)* buyurmuşdur:

Xeyr! *(Birdən artıq imam və rəhbər olmaz.)* Amma siz kömək və yardım etməkdə şərik olun *(yardıma ehtiyac olanda kömək edin)* və acizlik və çətinlikdə kömək olun. *(Əgər hansısa bir işdə aciz qalınması və çətinlik çəkilməsini görsəniz onun aradan qaldırılması və düzəldilməsinə kömək edin.)*

## 194

İmam Əli əleyhis-salam *(pərhizkarlığa təşviq edərək)* buyurmuşdur:

Ey insanlar! Danışdığınızı eşidən və gizlətdiyinizi bilən Allahdan qorxun. Sizi qaçsanız da haqlayacaq, dayansanız belə tutacaq və əgər yadınızdan çıxarsanız belə *(ömrün keçməsi, zəiflik, acizlik, dərdlər və xəstəliklərlə)* yad edəcək ölümü *(ibadət və bəndəliklə)* qabaqlayın *(özünüzü onun vəhşət və qorxusundan qurtarın)*.

## 195

İmam Əli əleyhis-salam *(yaxşılıq etməyə təşviq edərək)* buyurmuşdur:

Sənin yaxşılığının müqabilində təşəkkür etməyən kəs, səni yaxşılıq etmək həvəsindən salmasın. Çünki sənə həmin yaxşılığına görə o kəs *(Allah)* təşəkkür edəcək ki, həmin yaxşılıqdan bəhrələnməyib. Və sən həmin təşəkkür edənin təşəkküründən *(Allahın sənə verəcəyi mükafatdan)*, o nankorun zay etdiyindən çox şey əldə edəcəksən. Allah yaxşılıq edənləri sevir.

## 196

İmam Əli əleyhis-salam *(elmin mədhində)* buyurmuşdur:

Elm və bilik qabından *(sinə və qəlbdən)* başqa hər bir qab içinə qoyulan şeylə daralır *(dolur)*. O isə *(ona elm doldurulduqca)* genişlənir *(və digər bir elmi qəbul etmək üçün tutuma malik olur)*.

# 197

İmam Əli əleyhis-salam *(səbrliliyin xeyri barəsində)* buyurmuşdur:

Səbrli şəxsin səbrliliyindən *(qazandığı)* ilk xeyir və əvəz budur ki, xalq *(vuruşma və dava zamanı)* nadan və səbrsizin müqabilində onun yardımçısı olur.

# 198

İmam Əli əleyhis-salam *(səbrliliyə təşviq edərək)* buyurmuşdur:

Əgər səbrli deyilsənsə də, özünü səbrliliyə vadar et. Çünki az olur ki, insan özünü bir dəstəyə bənzətsin və onlardan olmasın. *(Ona görə ki, insan özünü təbiəti olmayan xislətə vadar edəndə həmin xislət onun üçün adətə çevrilir və adət, ikinci - təbiətdir. İmam əleyhis-salamın bu kəlamı əxlaq və sifətlərin dəyişilməsinin mümkünlüyünə dəlalət edir.)*

# 199

İmam Əli əleyhis-salam *(öyüd-nəsihət verərək)* buyurmuşdur:

Öz hesabını aparan kəs qazanıb. Ondan qafil olmuş kəs isə ziyana düşüb. *(Allahdan)* qorxan *(qiyamət gününün əzab və cəzasından)* amanda olar. Hər kim *(dünyadan)* ibrət götürsə *(axirət işində)* gözüaçıq olar. Gözüaçıq olan kəs *(pis ilə yaxşını)* başa düşər, dərk edər. Başa düşən kəs isə *(Allahı tanımaqda)* alim olar.

# 200

İmam Əli əleyhis-salam *(Məhəmməd Əhli-Beyti əleyhimus-salamın haqq dövlətinin zühuru barəsində)* buyurmuşdur:

Dünya pisxasiyyətli və dişləyən dəvənin öz balasına tərəf qayıtması kimi bizə *(Məhəmməd Əhli-Beytinə)* qayıdaraq mehribanlıq edəcək. *(O Həzrət)* bunun arxasınca bunu *(Qəsəs surəsinin 5-ci ayəsini)* oxudu: « وَنُرِيدُ أَن نَّمُنَّ عَلَى الَّذِينَ اسْتُضْعِفُوا فِي الْأَرْضِ وَنَجْعَلَهُمْ أَئِمَّةً وَنَجْعَلَهُمُ الْوَارِثِينَ» «Yer üzündə zəif hesab olunanlara minnət qoyub *(onlara qüdrət və əzəmət verib)* onları imam və varislər *(din və dünya başçıları)* etmək istəyirik.»

# 201

İmam Əli əleyhis-salam *(pərhizkarlığın necəliyi barəsində)* buyurmuşdur:

Allahdan o kəsin qorxmağı kimi qorxun ki, *(işlərdə)* kəmərini möhkəm bağlayaraq *(hazır dayanaraq)* özünü *(hər hansı bir şeyə bağlılıqdan)* təcrid edib, səy və təlaş göstərərək özünü çevikləşdirib, ömrünün verdiyi möhlətdə *(yaxşı işlər görməyə)* tələsib, qorxudan *(fürsəti əldən vermək qorxusundan)* əliitilik edib və qərar tutacağı və sonda gedəcəyi yer *(ya cənnət səadəti və xoşbəxtliyi, ya da cəhənnəm bədbəxtliyi)* barəsində fikirləşib.

# 202

İmam Əli əleyhis-salam *(öyüd-nəsihət verərək)* buyurmuşdur:

Bəxşiş abırların qoruyucusudur. *(Xalq bəxşiş edən kəsdən razı olaraq onun abrını qoruyur.)* Səbrlilik nadan və səbrsizin ağızına vurulan qıfıldır. *(Səbrlilik nadanı boş-boş danışmaqdan saxlayar və pisliyi qaytarar.) (Günahdan keçib)* güzəşt etmək zəfər və qələbənin zəkatıdır. *(Hər bir kəsin düşmənə qalib gəlməsinin zəkatı ona güzəşt etməsidir.)* Vəfasızlıq etmiş kəsdən uzaqlaşmaq sənin *(ondan)* çıxdığın əvəzdir. *(Vəfasız dostdan qəlbini qıraraq uzaqlaş ki, onun vəfasızlığının əvəzini çıxmış olasan.)* Məsləhətləşmək *(və düz yolu axtarmaq)* elə, hidayət və yolu tapmaqdır. Öz nəzər və fikri ilə kifayətlənən *(və başqalarından*

*məsləhət almayan)* kəs özünü təhlükə və həlakətə atıb. Səbrlilik dövranın çətinliklərini uzaqlaşdırır. Dözümsüzlük zəmanənin yardımçılarındandır. *(Çünki zəmanə qocaltmağa və yox etməyə hazırdır və dözümsüzlük də həmin işi görür.)* Ən böyük sərvət və varlılıq, arzuya malik olmamaqdır. Nə çox ağıl ki, ona hakim olan nəfsi istəklərə əsirdir. *(Nəfsi istəklər insanların çoxlarının ağıllarına hakimdir.)* Təcrübəni qorumaq bir növ müvəffəqiyyət və yaxşı işə nail olmaqdır. *(İnsanlarla)* dostluq, bəhrələnilən qohumluqdur. *(Səndən)* qəlbi sınmış və incimiş kəsdən xatircəm olma *(öz sirrini ona demə və onun əhd-peymanına ürək qızdırma).*

# 203

İmam Əli əleyhis-salam *(xudpəsəndliyin ziyanı barəsində)* buyurmuşdur:

İnsanın özünü bəyənməsi onun ağlının paxıllarından biridir. *(Çünki ağıl gözəl xislətləri çoxaltmağı tələb edir. Özünü bəyənmək və xüdpəsəndlik isə onun qarşısını alır. Buna görə də sanki o, ağla paxıllıq edərək fəzilətli və gözəl sifətlərin çoxalmasına mane olur.)*

# 204

İmam Əli əleyhis-salam *(dünya çətinliklərinə etinasızlıq barəsində)* buyurmuşdur:

Tikanlara *(çətinliklərə)* göz yum *(etinasız ol)*, yoxsa heç vaxt şad olmayacaqsan *(çətinliklər səni əldən salacaq)*.

# 205

İmam Əli əleyhis-salam *(gözəl əxlaqın xeyri barəsində)* buyurmuşdur:

Ağacının çubuğu yumşaq olanın *(əxlaq və xasiyyəti gözəl olanın)* budaqları *(dostları)* çox olar.

# 206

İmam Əli əleyhis-salam *(müxalifət etməyin ziyanı barəsində)* buyurmuşdur:

*(Yersiz)* müxalifət və dava *(düzgün)* nəzər və fikri viran edir *(işə salmır. Yəni, uyuşmayan və müvafiq olmayan kəsin fikri zidd olar və düz gəlməz)*.

# 207

İmam Əli əleyhis-salam *(məğrurluq barəsində)* buyurmuşdur:

Kim bir nailiyyət qazandısa məğrurluq etdi *(gözəl əxlaqa malik olub Allahı nəzərə alaraq təvazökarlıq edəndən başqa)*!

# 208

İmam Əli əleyhis-salam *(halların dəyişilməsi barəsində)* buyurmuşdur:

İnsanların gövhərləri *(onların eyb və hünərləri)* halların dəyişməsində *(ucalıq və alçaqlıqda, varlılıq və yoxsulluqda, xəstəlik və sağlamlıqda)* bilinir, başa düşülür.

# 209

İmam Əli əleyhis-salam *(paxıllıq barəsində)* buyurmuşdur:

Dostun paxıllığı dostluğun xəstəliyindəndir. *(Ona görədir ki, o, dostluğunda düz deyil. Çünki həqiqi dost o kəsdir ki, dostu üçün özü üçün istədiyi şeyi istəyir. Bu sifət paxıllıq etməklə ziddiyyət təşkil edir.)*

# 210

İmam Əli əleyhis-salam *(hərisliyin və tamahın ziyanı barəsində)* buyurmuşdur:

Ağılların torpağa düşdüyü *(büdrədiyi)* yerlərin çoxu tamah və hərisliyin şüaları altındadır. *(Tamah insanı ağıl və şərafət zirvəsindən endirib alçaqlıq və xarlıq quyusuna salar.)*

# 211

İmam Əli əleyhis-salam *(pis gümanda olmaq barəsində)* buyurmuşdur:

İnanılmış şəxs barəsində pis güman və zənn ilə hökm etmək ədalət və insafdan deyil. (Qeyd)[1]

## 212

İmam Əli əleyhis-salam *(zülmün məzəmmətində)* buyurmuşdur:

Bəndələrə zülm etmək qiyamət günü üçün pis azuqədir.

## 213

İmam Əli əleyhis-salam *(göz yummağa həvəsləndirərək)* buyurmuşudr:

Alicənab və möhtərəm şəxsin ən yaxşı işlərindən biri onun bildiyi şeylərə *(başqalarının çirkinliklərinə)* göz yummasıdır *(özünü onlardan xəbərsiz kimi göstərməsidir. Çünki alicənab adam heç kəsin abır-həyasını tökməz və özünü çirkinliklərin çoxundan xəbərsiz kimi göstərər)*.

## 214

İmam Əli əleyhis-salam *(həyalılığın faydası barəsində)* buyurmuşdur:

Həya hər kimə öz libasını geyindirsə (hər kim həyalı olsa), xalq onun eybini görməz. *(Onun eybi olmaz ki, camaat onu görsün. Yaxud əgər eybi olsa da həya nəticəsində xalqın gözündən gizlin qalar.)*

## 215

İmam Əli əleyhis-salam *(Bəzi gözəl sifətlərə təşviq edərək)* buyurmuşdur:

Çox susmaqla vüqar və əzəmət yaranır. *(Çünki susmaq ağıl və dərrakənin əlamətidir.)* İnsaflılıq nəticəsində (insana)

---

[1] *Çünki belə bir şəxsə qarşı pis gümanda olmaq günahdır. Qurani-Kərimin Hucurat surəsinin 12-ci ayəsində buyurulur:* « **يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اجْتَنِبُوا كَثِيرًا مِّنَ الظَّنِّ إِنَّ بَعْضَ الظَّنِّ إِثْمٌ**» *«Ey iman gətirənlər! (Bir-biriniz barəsində) pis gümanların çoxundan çəkinin ki, pis gümanların bəziləri günahdır.»*

birləşənlər və dostlar çoxalarlar. *(Hər kim insaflı olsa camaat ona birləşər və onunla birgə olar.)* Yaxşılıq etməklə məqamlar böyüyər. *(Çünki hər bir kəs, yaxşılıq edənə hörmət gözü ilə baxır.)* Təvazökarlıqla nemət təkmilləşər. *(Allah hər kimə nemət versə və o, xalqa qarşı təvazökarlıq etsə, nemətin şükrünü yerinə yetirmiş olur və buna görə də daha artıq nemətə layiq olur. Yaxud əgər insan birinə nemət versə və onunla təvazökarlıq etsə, neməti tamamlamış olur.)* Əziyyət və çətinliklərə *(xalqın əziyyət və çətinliklərinə)* dözməklə böyüklük vacib olur. (Qeyd)[1] Yaxşı və bəyənilən rəftarla düşmən məğlub olar. (Qeyd)[2] Səfeh və ağlı az olan adamla münasibətdə həlim və səbrli olanın yardımçıları çoxalar. (Qeyd)[3]

# 216

İmam Əli əleyhis-salam *(sağlamlığın əhəmiyyəti barəsində)* buyurmuşdur:

Paxılların, bədənlərin *(xalqın cisimlərinin)* sağlamlığından qafil qalmaları təəccüblüdür. *(Yəni, təəccüblüdür ki, paxıllar başqalarının mal və məqamına paxıllıq edirlər, amma onların ən böyük nemətlərdən olan sağlamlıqlarına paxıllıq etmirlər.)*

# 217

İmam Əli əleyhis-salam *(hərisliyin ziyanı barəsində)* buyurmuşdur:

Həris *(əsir kimi)* zillət və xarlıq zəncirindədir. *(Çünki hamı onu kiçik və xar sayır və ona əhəmiyyət vermir.)*

# 218

---

[1] *Çünki əgər insan çətinlik və əziyyətlərdən təngə gəlməsə böyüklük və yüksək məqam qazanar və başçılığa layiq olar.*

[2] *Çünki xalq ona üz tutaraq düşməni tək qoyar. Yaxud düşmən bəyənilən rəftarla məğlub olar.*

[3] *Çünki xalq həlimlik və səbrliliyinə görə ona kömək edər. Bu məna 197-ci kəlamda da deyilmişdi.*

İmam Əli əleyhis-salamdan imanın mənasını soruşdular və o Həzrət *(imanın həqiqi mənasının açıqlamasında belə)* buyurdu:

İman qəlb ilə tanımaq *(etiqad bəsləyərək inanmaq),* dil ilə iqrar etmək və *(əl, ayaq, göz, qulaq, dil və bu kimi)* üzvlərlə əməl etməkdir.

# 219

İmam Əli əleyhis-salam *(bəzi nalayiq sifətlərin ziyanı barəsində)* buyurmuşdur:

Dünya *(malı əldə edə bilmədiyi)* üçün kədərlənən kəs, Allahın qəzavü-qədərinə qəzəblənib. *(Çünki insanın dünyadan olan pay və qismətinə razı olmaması, onun üçün təqdir edilmiş şeyə razı olmaması deməkdir.)* Ona üz tutmuş müsibətdən *(başqasının yanında)* gileylənən kəs, Rəbbindən şikayətlənib. *(Bu, imanın zəif və süst olmasının nişanəsidir. Çünki o, səbr və dözümlülüyü əldən verib.)* Kim varlı şəxsin yanına gedib sərvətinə görə ona təvazökarlıq göstərsə, dininin üçdə ikisi əlindən gedib. (Qeyd)[1] Quran oxuyub ölümündən sonra oda düşən kəs, Allahın ayələrinə istehza edənlərdəndir(Qeyd)[2]. Qəlbi dünya məhəbbətinə məftun olan kəs dünyadan üç şeyə bağlı olar: ondan ayrılmayan qəm-qəssəyə *(çünki tapmayanda bir kədərlənər, tapanda isə onu artıraraq qorumaq üçün qəm-qüssə yeyər)*; ondan əl çəkməyən *(və həmişə onun qəlbini qorxulu çəkişmədə saxlayan)* hərisliyə; çatmayacağı ümid və arzuya.

# 220

İmam Əli əleyhis-salam *(qənaət və gözəl xasiyyətə təşviq edərək)* buyurmuşdur:

---

*[1] Çünki mal və sərvətə əhəmiyyət vermək Allaha yəqinlikdə və inamda zəiflik və süstlükdür. Həmçinin Allahdan başqası üçün əməli şəkildə əyilməkdir. Deməli, imanın dil ilə iqrardan başqa bir cəhəti qalmır.*

*[2] Çünki əgər Quranı etiqad və inamla oxuyursa gərək onun mənalarına əməl də etsin. Qurana əməl etmək isə cənnətə getməyi tələb edir. Buna görə də əgər Quran oxuyan kəs cəhənnəmə getsə, bu onun, oxuduğu mənalara etiqadının olmamasına dəlildir.*

Qənaətlə şahlıq etmək olar, xoşxasiyyətliliklə naz-nemət içində olmaq.

## 221

İmam Əli əleyhis-salamdan Allah-təalanın *(Nəhl surəsinin 97-ci ayəsində olan)* «**فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً**» «Yaxşı işlər görən saleh əməlli bəndəyə gözəl həyat nəsib edəcəyik» kəlamının mənasını soruşdular və o Həzrət *(onun təfsirində belə)* buyurdu:

Həmin gözəl həyat qane olmaqdır. *(Qaneçilik hakim olan həyat xoş və gözəldir. Hərisin həyatı isə, onun çox sərvətə malik olmasına baxmayaraq, acı və usandırıcıdır.)*

## 222

İmam Əli əleyhis-salam *(şərik olmağın xeyri barəsində)* buyurmuşdur:

*(Alverdə)* ruzisi bol olanla şərik olun. Çünki onunla şəriklik varlılığa daha münasib və qazanca üz tutulmasına daha layiqdir. *(Çünki ruzisi az olan insan ruzisi bol olanla şərik olmaq nəticəsində mənfəət əldə edir.)*

## 223

İmam Əli əleyhis-salam Allah-təalanın *(Nəhl surəsinin 90-cı ayəsindəki)* «**إِنَّ اللّٰهَ يَأْمُرُ بِالْعَدْلِ وَالْاِحْسَانِ**» «Allah ədalətli olmağı və yaxşılıq etməyi əmr edir» kəlamı *(ayədəki ədalət və yaxşılığın mənası)* barəsində buyurmuşdur:

Ədalət və insaf zülm etməməkdir. Yaxşılıq etmək isə comərdlik və bəxşişdir. *(Bu kəlam, həmin kəlmələrin daha aydın ibarələrlə hərfi tərifidir.)*

## 224

İmam Əli əleyhis-salam *(başqalarına əl tutmağın xeyri barəsində)* buyurmuşdur:

Qısa əl ilə *(öz mal və sərvətindən hətta az olsa da Allah yolunda)* bağışlayan kəs *(Allah tərəfindən)* uzun əl ilə bəxşiş tapar. *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Bu kəlamın mənası budur ki, Allah-təala öz mal və sərvətindən hətta az olsa belə, xeyir yollarda xərcləyən şəxsin mükafat və əvəzini böyük və çox edir. (Qeyd)[1] Burada iki əldən məqsəd iki nemətdir *(biri bəndənin verdiyi, digəri isə Allahın bağışladığı nemət)*. Beləliklə, İmam əleyhis-salam bəndənin neməti ilə Allahın nemətini «qısa» və «uzun»luqla bir-birindən ayırıb; bəndənin nemətini qısa, Allahın nemətini isə uzun adlandırıb. Çünki Allahın nemətləri həmişə məxluqun nemətlərindən daha çox və artıqdır. Ona görə ki, Allahın nemətləri bütün nemətlərin özəl və təməlidir və hər bir nemət onlara qayıdır, onlardan yaranır və meydana çıxır.

# 225

İmam Əli əleyhis-salam oğlu İmam Həsən əleyhis-salama *(düşmənlə vuruşmaq barəsində)* buyurmuşdur:

Gərək (heç kəsi) mübarizəyə *(sıradan qabağa çıxmağa)* çağırmayasan. Amma səni ona çağırsalar *(müdafiə məqsədi ilə)* qəbul et və qarşıya çıx. Çünki çağıran zülmkardır. *(Çünki o, həddini aşaraq inadkarlıq göstərib, ədalət və düzlükdən əl götürüb və bu iş zülmkarlıq və düşmənçilikdir.)* Zülmkar isə torpağa sərilmişdir.[2] (Qeyd)

---

[1] *Necə ki, Qurani-Kərimin Bəqərə surəsinin 261-ci ayəsində buyurulur:* « **مَّثَلُ الَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُمْ فِي سَبِيلِ اللّهِ كَمَثَلِ حَبَّةٍ أَنبَتَتْ سَبْعَ سَنَابِلَ فِي كُلِّ سُنبُلَةٍ مِّئَةُ حَبَّةٍ وَاللّهُ يُضَاعِفُ لِمَن يَشَاء وَاللّهُ وَاسِعٌ عَلِيمٌ** » *«Mallarını Allah yolunda (fəqir və yoxsullara) verənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır (bir dən yeddi yüz dən olacaq). Allah (bu miqdarı) istədiyi şəxs üçün qat-qat artırır. Allahın lütfü genişdir. O, hər şeyi biləndir!»*

[2] *Onun elə dünyadaca öz zülmkarlığının cəzasına çataraq torpağa sərilib öldürüləcəyi güman edilir. İbn Əbil Hədid burada belə yazır: Heç vaxt İmam əleyhis-salamın kimisə mübarizəyə çağırmasını*

# 226

İmam Əli əleyhis-salam *(qadının bəzi gözəl xasiyyətləri barəsində)* buyurmuşdur:

Qadınların ən yaxşı xasiyyətləri kişilərin ən pis xasiyyətləridir: təkəbbürlülük, qorxaqlıq və xəsislik. Beləliklə, əgər qadın təkəbbürlü olsa *(ərindən başqa heç kəsə)* baş əyməz; xəsis və simic olsa özünün və ərinin malını qoruyar; əgər qorxaq olsa qarşısına çıxan *(və adının pisliyi və ərinin qəzəbinə səbəb olan)* hər bir şeydən qorxar *(və ondan uzaqlaşar).*

# 227

İmam Əli əleyhis-salama dedilər ki, ağıllı adamı bizə vəsf et. O Həzrət *(ağıllı adamın nişanəsi barəsində belə)* buyurdu:

Ağıllı, hər bir şeyi öz yerinə qoyan kəsdir. *(Münasib olan sözü deyir və layiq olan işi yerinə yetirir.)* Dedilər ki, nadanı da bizim üçün vəsf et. Buyurdu: Anlatdım. *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Yəni, nadan heç bir şeyi öz yerinə qoymayan kəsdir. Deməli, *(İmam əleyhis-salamın)* onun sifətini bəyan etməməsi onun üçün sifətdir. Çünki onun sifəti ağıllının sifətlərinin əksidir.

# 228

İmam Əli əleyhis-salam *(dünyanın məzəmmətində)* buyurmuşdur:

Allaha and olsun ki, sizin bu dünyanız mənim gözümdə cüzam xəstəliyinə tutulmuş şəxsin əlində olan ətsiz donuz sümüyündən də aşağı və dəyərsizdir. (Qeyd)[1]

---

*eşitməmişəm, əksinə, ya o Həzrətin özünü çağırıblar, ya da bir mübariz tələb ediblər və o Həzrət düşmənə tərəf gedərək onu məhv edib.*

[1] *Cüzam insanın ət və üzvlərinin tökülməsinə səbəb olan bir xəstəlikdir və o, xəstəliklərin ən pisidir. Bu kəlam o Həzrətin dünyaya ən son dərəcədə nifrət etməsinə bir dəlildir. Kim o Həzrətin – Həzrət*

## 229

İmam Əli əleyhis-salam *(ibadətin növləri barəsində)* buyurmuşdur:

Bir dəstə adam Allaha *(savab və mükafata)* rəğbət üçün ibadət edir. Bu, *(alverin xeyir-ziyanını nəzərdə saxlayan)* tacirlərin ibadətidir. Bir dəstə isə Allaha qorxudan ibadət edir. Bu da qul və kölələrin ibadətidir *(ki, onlar ağalarının göstərişlərini qorxudan yerinə yetirirlər)*. Digər bir dəstə isə Allaha şükr etmək üçün ibadət edir və bu, azad insanların ibadətidir *(ki, onlar agahlıq və niyyət paklığı ilə Allaha ibadət edirlər və Onu ibadət və bəndəlik etməyə layiq bilməkdən başqa, digər bir məqsədləri yoxdur)*.

## 230

İmam Əli əleyhis-salam *(qadının məzəmmətində)* buyurmuşdur:

Qadının hər şeyi *(bütün hal və sifətləri)* pisdir və onda olan ən pis şey isə budur ki, ondan *(kişi üçün onunla olmaqdan)* başqa bir çarə yoxdur. (Qeyd)[1]

## 231

İmam Əli əleyhis-salam *(süstlüyün və söz gəzdirməyin ziyanı barəsində)* buyurmuşdur:

---

*Peyğəmbərlə olduğu vaxtlardakı, guşənişinlik etdiyi zamanlardakı və zahirdə xilafətə çatdığı dövrdəki – hallarına nəzər salıb düşünsə, bu sözün sirrini dərk edər.*

[1] *Bu ifadə əslində atalar sözüdür və ondan məqsəd başqa şeydir. Belə ki, İmam əleyhis-salam burada ailə qurmağın çətinliklərini və onun ağır məsuliyyətlərini bəyan etmək məqamındadır. Fars dilində də belə bir atalar sözü var ki: «arvad-uşaq başdan ayağa dərdi-sərdir, dərdi-sərsiz isə yaşamaq mümkün deyil.»*

Kim *(işlərdə)* süstlük etsə, payları əldən çıxarar. Kim söz gəzdirənin *(ara vuranın)* sözünə qulaq assa, dostu *(öz dostunu)* itirər.

## 232

İmam Əli əleyhis-salam *(qəsbi mal və zülm ilə əldə edilən var-dövlətin ziyanı barəsində)* buyurmuşdur:

*(Kimə məxsus olmasından asılı olmayaraq hər hansı bir)* evdə olan qəsbi daş həmin evin viran olmasına girovdur. *(Girov borcun ödənilməsini zəruriləşdirdiyi kimi, qəsbi daş da həmin tikilinin xarab və viran olmasını zəruriləşdirir. Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

Bu kəlam Həzrət Peyğəmbərdən *(səlləllahu əleyhi və alih)* *(də)* nəql edilib. Bu iki kəlamın bir-birinə bənzəməsi təəccüblü deyil. Çünki bu iki su bir quyudan çəkilib və bir vedrədən tökülüb. *(Peyğəmbərin - səlləllahu əleyhi və alih – buyurduqları Allah tərəfindəndir və İmam əleyhis-salam da o Həzrətin buyurduğunu bəyan edir.)*

## 233

İmam Əli əleyhis-salam *(zülmün ziyanı barəsində)* buyurmuşdur:

Məzlumun zalım üzərindəki günü *(qiyamət gününün intiqamı)* zalımın məzlum üzərindəki günündən *(dünyada ağalıq etdiyi gündən)* daha ağır və çətindir. (Qeyd)[1]

## 234

İmam Əli əleyhis-salam *(pərhizkarlıq barəsində)* buyurmuşdur:

Allahdan müəyyən şəkildə qorx, hətta az olsa belə! *(İşini Allahla birdəfəlik sona çatdırma ki, həmişəlik çətinliyə düçar olmaq həddinə çatsın.)* Özünlə Allah arasında pərdə saxla, hətta nazik olsa belə! *(Allahın əmr və göstərişlərinə riayət edərək aradakı*

---

[1] *Çünki zalımın dünyadakı zülm etdiyi müddət bir neçə gündən artıq deyil və sonu bəllidir. Amma onun cəzası qiyamətdə əbədi atəşdir.*

*pərdəni tamamilə götürmə və barışığa yer saxla ki, peşman olanda qayıtmağa yolun olsun.)*

# 235

İmam Əli əleyhis-salam *(bir suala bir neçə cavab verməyin ziyanı barəsində)* buyurmuşdur:

*(Bir suala verilən)* cavab çox olan zaman düzlük *(cavabın düzlüyü)* gizli qalar *(sual soruşan şəkk və tərəddüdə düçar olar və sualının cavabının hansı olduğunu bilməz)*.

# 236

İmam Əli əleyhis-salam *(şükr etməyin xeyri barəsində)* buyurmuşdur:

Həqiqətən Allah-təalanın hər bir nemətdə şükr haqqı vardır. Buna görə də hər kim onu yerinə yetirsə, Allah ona həmin nemətdən daha çox verər. Kim o haqqı yerinə yetirməkdə səhlənkarlıq etsə, Allah həmin neməti məhv olmaq və əldən çıxmaq təhlükəsinə atar. (Qeyd)[1]

# 237

İmam Əli əleyhis-salam *(imkan barəsində)* buyurmuşdur:

İmkan və qüdrət *(bir şeyi əldə etmək imkanı)* çoxalan zaman *(həmin şeyə olan)* istək və meyl azalar. (Qeyd)[2]

---

[1] *Qeyd etmək lazımdır ki, Allahın hər bir nemət barəsindəki şükr haqqı həmin nemətə uyğun şəkildədir. Məsələn, Allahın dövlət və məqam verdiyi kəs, gərək zəif və acizlərlə birgə olaraq onlara qarşı təvazökar olsun; Allahın izzətli və möhtərəm etdiyi kəs gərək özünü həqir və xar saysın; mal və sərvət verdiyi kəs gərək ondan yoxsul və ehtiyaclılara, eləcə də qohumlarına versin; elm və bilik əta etdiyi kəs gərək onu münasib adamlara öyrətsin.*

[2] *Çünki bir şeyi əldə etmək imkanı az olan kəsin meyl və rəğbəti həmişə həmin şeydə olur və onu əldən çıxarmaqdan qorxur. Amma bir şey həmişə əlində olan kəsin, həmin şeyə meyl və rəğbəti az olur. Ona görə ki, istədiyi vaxt onu əldə edəcəyinə arxayındır.*

## 238

İmam Əli əleyhis-salam *(şükr etməyə həvəsləndirərək)* buyurmuşdur:

*(Naşükrlük və nankorluq nəticəsində)* nemətlərin uzaqlaşmasından qorxun ki, hər qaçan geri dönmür. *(Buna görə də gərək elə iş görülsün ki, qayıtması qeyri-mümkün olan qaçan, heç qaçmasın.)*

## 239

İmam Əli əleyhis-salam *(comərd barəsində)* buyurmuşdur:

Comərd *(dost)*, qohumdan da mehribandır. *(Çünki onun mehribançılığı təbiidir. Qohumun mehribançılığı isə bəzən süni və rəsmiyyət xarakterlidir.)*

## 240

İmam Əli əleyhis-salam *(yaxşı işə təşviq edərək)* buyurmuşdur:

Sənin barəndə yaxşı gümanda olanın zənnini doğrult. *(Səndən gözlədiyi yaxşılığı yerinə yetir. Çünki əgər onun zənnini puça çıxarsan başqaları sənin barəndə yaxşı gümanda olmayacaqlar və bu, çox pisdir.)*

## 241

İmam Əli əleyhis-salam *(çətin və ağır işlər barəsində)* buyurmuşdur:

Əməl və işlərin ən yaxşısı öz nəfsini onun yerinə yetirilməsinə məcbur etdiyin işdir. (Qeyd)[1]

## 242

İmam Əli əleyhis-salam *(Allahı tanımaq barəsində)* buyurmuşdur:

Eyb və nöqsan sifətlərdən uzaq və pak olan Allahı insanın qətiyyətli olduğu istəklərin *(qərarların)* pozulması və düyünlərin *(fikir və işlərin düyünlərinin)* açılması ilə tanıdım. (Qeyd)[2]

## 243

İmam Əli əleyhis-salam *(dünyanın acılıq və şirinlikləri barəsində)* buyurmuşdur:

---

[1] *Çünki savab və əvəz, çəkilən əziyyətin miqdarında verilir. Buna görə də Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur: «* اَفْضَلُ الْأَعْمالِ أَحْمَزُها*» «(Saleh) əməllərin ən yaxşısı onların ən çətinidir.»*

[2] *Deməli, istək və qərarların pozulması insanın ixtiyar cilovunu Öz əlində saxlayan bir sahib və yaradanının olmasına dəlildir. İnsanın iradəsinin bəzən gerçəkləşməsinin səbəbi isə budur ki, o, qərara gəlməkdən birdəfəlik əl çəkməsin.*

Dünyanın acılığı *(onda özünü əziyyətə qatlaşdırmaq)* axirət şirinliyidir *(xoşbəxtliyidir)*. Dünyanın şirinliyi *(ləzzətlərə vurğunluq)* isə axirət acılığıdır.[1] (Qeyd)

## 244

İmam Əli əleyhis-salam *(bəzi şəriət hökmlərinin fəlsəfəsi barəsində)* buyurmuşdur:

Allah imanı *(bəndələrinin qəlblərini)* şirkdən təmizləmək üçün, namazı təkəbbür və məğrurluqdan paklaşmaq üçün, zəkatı *(yoxsullara)* ruzi vasitəsi olması üçün, orucu insanların *(Allaha olan)* sədaqət və səmimiyyətlərini sınamaq üçün, həcci *(Məkkəyə getməyi)* dinin güclənməsi üçün *(–çünki müxtəlif tayfaların bir yerə toplaşması nəticəsində İslamın əzəmət və böyüklüyü üzə çıxır)*, cihadı İslamın izzəti *(və kafirlərin məğlubiyyəti)* üçün, əmr be mərufu *(bəyənilən işlərə əmr etməyi)* adi xalq kütləsini islah etmək *(və onları səadət və xoşbəxtliyə sövq etmək)* üçün, nəhy əz münkəri *(nalayiq işlərdən çəkindirməyi)* ağlı az olanların *(itaətsizlik və günahlarının)* qarşısını almaq üçün, qohumluq tellərini birləşdirməyi *(qohum-əqraba ilə münasibət və əlaqədə olmağı, onların)* saylarının çoxalması üçün *(çünki qohum-əqrabanın bir-biri ilə birləşməsi nəticəsində onların köməkçi və yardımçıları artır)*, qisası *(birini öldürəni öldürməyi və ya yaralayanı yaralamağı)* qanların qorunması üçün, şəri cəza növlərinin icrasını bərqərar etməyi *(məsələn- şərab içən, orucunu yeyən və ya zina edən şəxs üçün müəyyənləşdirilmiş cəzaları icra etməyi)* haram və qadağan edilmiş şeylərə əhəmiyyət verilməsi üçün, şərab içilməməsini ağılları *(fəsad və pislikdən)* qorumaq üçün, oğurluqdan uzaqlığı *(camaatın malına əl uzatmaqdan)* paklaşmağı gerçəkləşdirmək üçün, zina etməməyi soy və nəsillərin düzgün qalması üçün *(çünki zina soyları bir-birinə qarışdırır və*

---

[1] *Əzab və cəzasıdır. Çünki axirət üçün zəhmətə qatlaşmaq onun üçün iş görülməsinə səbəb olur ki, insan nəticədə həmin diyarın ləzzət, sevinc, savab və mükafatını əldə edir. Amma dünya ləzzət və şadlıqlarına vurğunluq axirətdən qafil olmağa və onun üçün iş görülməsini tərk etməyə səbəb olur və bu, əzab və cəza ilə nəticələnir.*

*aləmdə olan quruluşların pozulmasına səbəb olur)*, livatı *(kişinin kişi ilə yaxınlıq etməsini)* tərk etməyi nəsil və övladların çoxalması üçün, şahidlikləri, inkar edilən şeylər üçün kömək istəməyə görə *(ki, inkar etmək nəticəsində heç kəsin haqqı zay olmasın)*, yalan danışmamağı düzlüyün böyüklüyünü aşkar etmək üçün *(ki, xalqın rahatlığının ona bağlı olması bəlli olsun)*, salamı *(insanların bir-birini salamlamalarını)* qorxulu yerlərdən xatircəmlik üçün *(çünki «salamun ələykum»dan məqsəd budur ki, mənimlə sizin aranızda dava-dalaş deyil sülh və barışıq bərqərardır)*, imamət və rəhbərliyi xalqın *(işlərinin)* nizam-intizamı və rahatlığı üçün[1] (Qeyd)və *(imama)* itaət və tabeçiliyi imamətin *(onun məqamının)* böyük hesab edilməsi üçün *(çünki imamətin xeyir və bəhrəsi ancaq xalqın ona tabe olması zamanı mümkündür)* vacib edib.

# 245

İmam Əli əleyhis-salam *(zalıma and verdirməyin yolu barəsində)* buyurmuşdur:

*(Yalançı)* zalımın and içməsini istədiyiniz zaman onu *(əgər həmin işdə yalan deyirsə)* «Allahın qüdrət və qüvvəsindən bizar olmasına» and verdirin. Çünki əgər bu ifadə ilə yalandan and içsə cəzaya *(yalanının cəzasına)* tez çatar. Əgər «Ondan başqa heç bir tanrı olmayan Allaha *(and içirəm ki, yalan demirəm deyib)*» and içsə *(onun cəzalandırılmasında)* tələsilməz. Ona görə ki, eyb və nöqsan sifətlərdən uzaq və pak olan Allahın yeganəliyini iqrar edib *(və bu, yalan danışmaqla ziddiyyət təşkil etmir)*.[2] (Qeyd)

---

[1] *Çünki qüdrətli imam və rəhbər zalımı zülmdən çəkindirir və məzlumun haqqını zalımdan alır və işlər qaydaya düşür.*

[2] *Şərhçi Bəhrani (rəhiməhullah) burada belə yazır: Nəql edirlər ki, bir nəfər söz gəzdirən Mənsurun yanına gələrək Həzrət İmam Sadiq əleyhis-salamdan dedi-qoduçuluq etməyə başladı. Mənsur o Həzrəti çağıraraq dedi: Filankəs səndən belə-belə sözlər deyib. Həzrət buyurdu: Bu mənim sözlərim deyil. Söz gəzdirən təslim olmayıb dedi: Bu sözləri mütləq və mütləq o Həzrət deyib. İmam Sadiq əleyhis-salam onu yalan dediyi təqdirdə Allahın qüdrət və qüvvəsindən bizar olmasına*

# 246

İmam Əli əleyhis-salam *(maldan paylamağa təşviq edərək)* buyurmuşdur:

Ey Adəm övladı! Özün özünün canişin və qəyyumun ol və mal və var-dövlətindən səndən *(ölümündən)* sonra vermələrini istədiyini *(ölümündən qabaq)* özün ver. *(Çünki sən özünə hamıdan çox canıyanansan.)*

# 247

İmam Əli əleyhis-salam *(əsəbiliyin məzəmmətində)* buyurmuşdur:

Tündxasiyyətlilik və əsəbilik dəliliyin bir növüdür. Çünki tünd xasiyyətli və əsəbi şəxs *(əsəbləşdikdən sonra özünə gələndə)* peşman olur *(necə ki, dəli sağalandan sonra etdiklərinə peşman olur)*. Buna görə də əgər peşman olmasa dəliliyi öz yerində qalmaqdadır.

# 248

İmam Əli əleyhis-salam *(həsəd aparmamağın xeyri barəsində)* buyurmuşdur:

Bədənin sağlamlığı həsədin azlığındadır. *(Çünki qəm-kədər xəstəlik gətirir. Paxıl və həsəd aparan adam qəm-qüssəyə çox düçar olar və nəticədə sağlamlıqdan bəhrəsiz qalar.)*

# 249

İmam Əli əleyhis-salam *(səhabələrinin ən yaxşılarından olmuş)* Kumeyl ibn Ziyad Nəxəiyə *(qəlbləri ələ almağın faydası barəsində)* buyurmuşdur:

Ey Kumeyl! Qohum-əqrabanı gündüz gözəl xasiyyətlər əldə etməyin arxasınca getməyə, gecə isə yuxuda olan kəsin hacət və istəyinin dalınca getməyə vadar et *(Gecələr istək*

---

*and verdirdi. Sonra söz gəzdirən and içdi və sözü sona çatmamışdı ki, iflicə–bədənin yarısının qurumasına–düçar oldu və ayaqlarını ət parçası kimi yerlə sürüdü.*

*sahibləri yuxuda olsalar da, onlar həmin şəxslərin istəklərini yerinə yetirməyə getsinlər.)* Eşitmə qüdrəti səs və fəryadları əhatə edənə and olsun ki, hər kim bir qəlbi sevindirərək şad etsə, Allah həmin sevinc və şadlıq müqabilində o şəxs üçün bir lütf və mehribançılıq *(yaxşı iş görmək nəticəsində insana üz tutan mənəvi şadlıq)* yaradar ki, ona kədər üz verəndə həmin mehribançılıq hündürdən axan su kimi həmin kədərə tərəf axsın və yad dəvə qovulub uzaqlaşdırılan *(dəvəçi öz dəvə sürüsündən və ya onların su içdikləri yerdən yad dəvəni qovan)* kimi müsibəti ondan uzaqlaşdırsın.

# 250

İmam Əli əleyhis-salam *(Allah yolunda bəxşiş etməyə təşviq edərək)* buyurmuşdur:

Əliniz aşağı olan zaman *(ehtiyacı olanlara)* sədəqə verməklə Allahla ticarət edin. *(Bacardığınız və imkan olan qədər Allah yolunda xərcləyin ki, sədəqə bəla, çətinlik və gözlənilməz hadisələrin qarşısını aldığı kimi həm də varlılıq vasitəsidir.)*

# 251

İmam Əli əleyhis-salam *(peyman və dostluqda vəfasızlıq edənlər barəsində)* buyurmuşdur:

Vəfasızlara vəfa etmək Allaha vəfasızlıqdır. Vəfasızlara vəfasızlıq etmək isə Allaha vəfa etməkdir. *(Çünki öz əhd-peyman və dostluğuna vəfa etməyən kəs Allahın göstərişinə əməl etməyib.)*

# 252

İmam Əli əleyhis-salam *(bəndələrin imtahan edilmələri barəsində)* buyurmuşdur:

Nə çox adam ki, ona edilən ehsan və yaxşılıqla *(Allahın ona verdiyi nemətlərlə)* əzab və cəzaya yaxınlaşıb *(Allah ona yaxşılıq etdikcə, o, itaətsizliyini artıraraq nankorluq edib)*. Nə çox adam ki, *(pisliklərinin)* gizli qalması ilə aldanıb. *(Çünki hər nə qədər çirkin iş görübsə rüsvay olmayıb.)* Nə çox adam ki, onun barəsindəki xoş sözlər *(xalqın onun haqqında yaxşı danışması)* nəticəsində fitnə və çətinliyə düşüb. *(Çünki məğrurluq onu Allahın nemətlərinə və həmin nemətlərdən biri olan xalqın onun barəsində xoş sözlər danışmasına görə şükr etməkdən saxlayır və o, əzab və çətinliyə düçar olur.)* Allah heç kəsi ona *(dünyada)* möhlət vermək kimi *(başqa bir şeylə)* imtahan etməyib. *(Çünki həyat və yaşamaq neməti bəndənin imtahan edildiyi ən böyük nemətdir. Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

Bu kəlam bundan öncə *(eyni ilə yüz on ikinci kəlamda)* keçdi. Amma onun burada bir daha bəyan edilməsi gözəl və

mənfəətli bir təkrardır. *(Bəlkə də onun burada bir daha bəyan edilməsinin xeyri yuxarıda «vəfasızlara vəfasızlıq etmək Allaha vəfa etməkdir» buyurulan kəlama görədir. Bu, Allahın, bəndələrini onun vasitəsi ilə imtahan edərək sınadığı işlərdən biridir.)*

# *Bu fəsildə o Həzrət əleyhis-salamın, (bu kitabda) mənasının dərki çətin və izah və təfsirə ehtiyacı olan seçilmiş kəlamlarının bəzilərini bəyan edəcəyik*

## 1

İmam Əli əleyhis-salamın *(Həzrət Sahibəzzamanın–Allah onun mübarək zühurunu tezləşdirsin–əzəmət və böyüklüyündən xəbər verdiyi)* hədisində deyilir:

Onun vaxtı çatanda alicənab başçı və dinin rəhbəri *(gizlin qalmadan və nigarançılıqdan çıxıb öz səltənət və xilafət məqamında)* yerini tutacaq. Sonra *(möminlər, dünyanın müxtəlif yerlərindən)* bulud parçaları payız fəslində bir yerə toplaşıb bir-birlərinə birləşdikləri kimi o Həzrətin yanında bir yerə toplaşacaqlar. *(Bu kəlam aşkar şəkildə İmami-Zaman əleyhis-salamın sağ olmasına, düşmənlərdən gizlin olmasına, yer üzünü seyr etməsinə və Allah istəyən zaman üzə çıxacağına dəlalət edir. Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

*(Əsas mətndə işlədilmiş)* «يَعْسُوبُ الدِّينِ» «yəsubuddin» kəlməsinin mənası «alicənab başçı»dır. *(O Həzrətin işlətdiyi «ضَرَبَ بِذَنَبِهِ» «zərəbə bizənəbihi» kəlməsinin mənası budur ki, İmami-Zaman nigarançılıqdan sonra öz yerini tutacaqdır. Çünki «يَعْسُوب» «yəsub» lüğətdə «bal arılarının şahı» mənasındadır ki, günün çox hissəsini iki qanadı ilə uçur, quyruğunu yerə qoyduqdan sonra isə hərəkət və uçuşu dayandırıb öz yerində durur.)* «قَزَع» «Qəzə» (istər sulu, istər də) susuz və yağışsız (nazik) bulud parçalarıdır. *(Lüğət yazan alimlər də onun mənasını deyilən kimi yazıblar. Həzrət Sahibəzzaman əleyhis-salamın əshabı ona görə payızın bulud parçalarına oxşadılıb ki, payız qışın əvvəlidir və dağınıq buludlar həmin vaxt bir-birlərinə tez birləşirlər.)*

# 2

İmam Əli əleyhis-salamın *(Əmirəl-möminin əleyhis-salamın səhabələrinin əzəmətli, xas və yaxşılarından olmuş Səsəə ibn Sauhan Əbdini tariflədiyi)* hədisində deyilir:

Bu xütbə oxuyan mahir və zirəkdir. *(Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

*(Əsas mətndəki «**شَحْشَح**» «şəhşəh» kəlməsindən)* məqsəd xütbə oxumaqda mahir, zirək və usta olan və dolğun söz söyləməkdə bacarığı olan şəxsdir. Danışıq və hərəkəti iti olan hər bir şəxsə «**شَحْشَح**» «şəhşəh» deyirlər.

«**شَحْشَح**» «şəhşəh» bundan başqa yerdə bəxşiş etməyən xəsis və simic mənasında işlədilib. (Qeyd)[1]

# 3

İmam Əli əleyhis-salamın *(çəkişmə və dava-dalaşın ziyanı barəsindəki)* hədisində deyilir:

Çəkişmə və dava-dalaşda çətinlik və məhv olma vardır. *(Çünki əgər şəxs çalışaraq onda israrlı olsa günaha düçar olar, ona göz yumub əl çəksə isə məğlub olar və zülmə məruz qalar. Hər iki halda əziyyətə və çətinliyə düşər. Belə olan şəxs pərhizkarlıqdan qalar, necə ki, iki yüz doxsanıncı kəlamda bu nöqtəyə təkid edilib. Buna görə də gərək insan elə iş görsün ki, çəkişmə və düşmənçilik qarşıya çıxmasın. Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

İmam əleyhis-salamın *(əsas mətndəki)* «**قُحَم**» «quhəm» kəlməsindən məqsədi «məhv olmaqlıqlar»dır. Çünki çəkişmə çox vaxt insanları çətinliklərə və məhvə düçar edir. «**قُحْمَةُ الْأَعْرابِ**» «Quhmətul-ərab», yəni, «ərəb çölçülərinin çətinlikləri» də ondan götürülüb. Məqsəd budur ki, onlar qəhətlik və quraqlığa düçar olurlar. Belə ki, bu, onların var-yoxlarını aradan aparır, heyvanlarından ətsiz quru sümükdən başqa bir şey qoymur və var-yoxlarının məhv olmasının mənası da elə budur. «**قُحْمَةُ الْأَعْرابِ**» «Quhmətul-

---

[1] *İbn Əbil Hədid burada belə yazır: Səsəəyə bu iftixar və baş ucalığı bəsdir ki, Əli əleyhis-salam kimi bir şəxsiyyət, onun dilinin mahirliyi, ustalığı, fəsahəti və nitq qabiliyyətini tərifləyib.*

ərab»ın *(mənası)* barəsində başqa cür də deyilib və o budur ki, qəhətlik və quraqlıq onları abad şəhərlərə getməyə məcbur edir. Yəni, çöllərin quruması (və onda ot və suyun olmaması) onları möhtac edir və şəhərə gəlməyə vadar edir.

## 4

İmam Əli əleyhis-salamın *(qız üçün ər seçmək barəsindəki)* hədisində deyilir:

Qadınlar *(qızlar)* həddi buluğa çatan zaman *(onların ərə getmək və öz hüquqlarını ələ almaq vaxtları çatanda)* ata qohumları *(onu ərə verməyə ana qohumlarından)* daha layiqdirlər. *(Seyyid Rəzi-rəziyəllahu ənhu-deyir:)*

*(Əsas mətndə olan «نَصُّ الْحَقائِقِ» «nəssul-həqaiq» kəlməsinin yerinə)* «نَصُّ الْحِقاقِ» «nəssul-hiqaq» da rəvayət edilib. «نَصّ» «nəss» hər bir şeyin son həddi və axırıdır. Məsələn, yol getməkdə «نَصّ» «nəss» heyvanın getməyə qadir olduğu hərəkətin son həddidir. Sən o vaxt «نَصَصْتُ الرَّجُلَ عَنْ الْأَمرِ» «nəsəstur-rəculə ənil-əmr», yəni, «filan şey barəsində filan kişidən sualımı sona çatdırdım» deyirsən ki, həmin şey barəsindəki suallarını onda olanları əldə edənə kimi verib sona çatdırmış olasan. Buna görə də Həzrətin «نَصُّ الْحِقاقِ» «nəssul-hiqaq»dan *(bu cümlədən)* məqsədi, qızların, uşaqlığın sonu olan və uşağın böyüklük həddinə çatdığı «həddi-buluğ»a yetişmələridir. Həzrətin *(نَصُّ الْحِقاقِ «nəssul-hiqaq»)* kəlamı, bu mənada ən dolğun və heyrətləndirici metaforalardandır. Buyurur ki, qızlar həmin həddə *(ərə getmək vaxtına)* çatan zaman onu ərə vermək istəsələr qızın ata qohumları–əgər qardaşlar və əmilər kimi ona məhrəm olsalar–onu ərə verməyə anadan daha layiqdirlər. «حِقاق» «hiqaq» (*kəlməsi*) ananın, qızı barəsində qızın ata qohumları ilə çəkişməsi mənasında olan «مُحاقَّة» «muhaqqə»dən götürülüb. «مُحاقَّة» «muhaqqə» onların hər birinin digəri ilə, qızı ərə verməyə daha layiq olması barəsində çəkişmə aparması və qalmaqalıdır. « جادَلْتُهُ جِدالاً» «cadəltuhu cidalən» kimi olan «حاقَقْتُهُ حِقاقاً» «haqəqtuhu

hiqaqən», yəni, onunla çəkişdim və dava etdim, ibarəsi də ondan götürülüb. Deyiblər ki: «نَصُّ الْحِقاقِ» «nəssul-hiqaq» əqlin həddi buluğa, kamillik həddinə çatmasıdır. Çünki İmam əleyhis-salam *(bu kəlamda)* o sonun və zamanın çatmasını nəzərdə tutub ki, onda haqq və hökmlər *(qıza)* vacib olur. «نَصُّ الْحَقائِقِ» «Nəssul-həqaiq» rəvayət edən kəs, «حَقائِق» «həqaiq»i «حَقِيقَة» «həqiqə»nin cəmi hesab edib.

Bu deyilənlər Əbu Ubəyd Qasim ibn Səlamın(Qeyd)[1] bəyan etdiyi məna idi. Mənim fikrimcə isə burada « نَصُّ الْحِقاقِ» «nəssul-hiqaq»dan məqsəd, qızın, ərə getməsi və öz hüquqlarını ələ alması rəva olan həddə çatmasıdır. Çünki o, dəvə barəsində işlədilən «حِقاق» «hiqaq»-a oxşayır və o, «حِقّ» «hiqq» və «حِقَّة» «hiqqə»-nin cəmidir. Bunların mənası üç yaşı tamam olmuş və dörd yaşına keçmiş dəvədir və o, həmin vaxt minilmək və yaxşı sürülməsi mümkün olan həddinə çatır. «حَقائِق» «həqaiq» də «حِقَّة» «hiqqə»nin cəmidir və hər iki rəvayətin (*«نَصُّ الْحَقائِقِ» «nəssul həqaiq» və «نَصُّ الحِقاقِ» «nəssul-hiqaq»-in*) mənası birdir. *(Bizim dediyimiz)* bu *(məna)*, ərəbin məslək və yoluna, deyilmiş birinci mənadan daha çox oxşayır.

## 5

İmam Əli əleyhis-salamın *(iman barəsindəki)* hədisində deyilir:

İman qəlbdə ağ nöqtə kimi yaranır, zahir olur. İman artdıqca həmin ağ nöqtə də artır. *(Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

*(Əsas mətndəki)* «لُمْظَة»«lumzə», nöqtə və ya onun kimi ağ bir şeydir. Aşağı dodağında ağ xal olan ata deyilən « فَرَسٌ

[1] *Lüğət, hədis, ədəbiyyat və fiqh elmlərində, eləcə də rəvayətinin düzlüyündə və elminin çoxluğunda çox məşhur və tanınmış şəxsiyyətlərdən olmuş və 222, yaxud 223, ya da 224-cü hicri ilində Məkkədə həcc əməllərini yerinə yetirib qurtardıqdan sonra vəfat etmişdir.*

أَلْمَظ» «fərəsun əlməz» *(ifadəsi)* də bu mənadan götürülüb. (Qeyd)[1]

## 6

İmam Əli əleyhis-salamın *(borcun zəkatı barəsindəki)* hədisində deyilir:

Əgər birinin alacağı varsa və həmin borcu *(borcludan)* alıb-almayacağını bilmirsə, onu alanda üzərindən keçmiş il üçün onun zəkatını *(verilməsi layiq olan kəsə)* verməsi vacibdir. (Qeyd)[2] *(Seyyid Rəzi əleyhirrəhmə deyir:)*

---

[1] *İbn Əbil Hədid burada belə yazır: Əbu Ubəyd deyir: İmanın azalması və çoxalmasını inkar edən və düz bilməyən şəxsin əleyhinə bu hədisdə dəlil və sübut vardır. Məgər görmürsənmi ki, bu hədisdə «iman artdıqca həmin ağ nöqtə də artır» deyilir? Amma «Məcməul-bəhreyn» kitabının müəllifi Tureyhi (rəhiməhullah) «لَمَظ» «ləməz» kəlməsinin izahında bu hədisi nəql etdikdən sonra belə yazır: «الْإيمانُ يَبْدُو لُمْظَةً» «iman, qəlbdə ağ nöqtə kimi üzə çıxır» cümləsində, «iman» kəlməsinin təqdirində «əlamət» kəlməsi vardır və o «عَلامَةُ الاِيمانِ» şəklindədir. Yəni imanın əlamət və nişanəsi ilk dəfə iman gətirən şəxsin qəlbində ağ nöqtə kimi zahir olur, yaranır. Sonra, dil ilə iqrar etdikdən sonra o nöqtə artır, çoxalır. Həmçinin bədən üzvləri ilə saleh əməl və gözəl işlər görəndə həmin nöqtə daha da çoxalır. Eləcə də «məsələn dünyaya və onun malına ürək bağlamayanda da həmin nöqtə çoxalır.» Buna görə də naçar qalıb izafət tərkibinin təyin edilən tərəfi, yəni, «əlamət və nişanə» kəlməsini təqdirdə nəzərdə tuturuq. Çünki iman bütün əmr və qadağalarda Allahı və Onun peyğəmbərini təsdiq etməkdir və bunda artma və çoxalma təsəvvür edilməzdir.*

[2] *Bu kəlamın zahiri müctəhidlərin fitvalarına ziddir. Onlar deyirlər ki: borcun zəkatı, nəinki onu alıb-almayacağı barəsində gümanda olanda, hətta borcu alacağını biləndə belə borc verən kəsə vacib deyil. Bəziləri deyiblər ki: Bu o vaxt belə olur ki, borcun alınmasında olan gecikdirmə borc verən tərəfdən olmuş olsun. Yəni, o özü onu almasın və alıb-almamaqda tərəddüddə olsun ki, əgər alsa keçən ilin zəkatını vermək ona vacib olacaq. Bu nəzər məşhur nəzərə, hətta müasir alimlərin yekdil nəzərinə ziddir, necə ki, mərhum Şeyx Məhəmmədhəsən (rəhiməhullah) «Cəvahirul-kəlam» kitabında buyurub və mərhum Hacı Ağarza Həmədani (qüddisə sirruh) «Misbahul-fəqih» kitabında onun dediklərini təsdiqləyib.*

*(Əsas mətndəki)* «الدَّيْنُ الظَّنُونُ» «əd-dəyn əz-zənun» borc sahibinin borcludan alıb-almayacağını bilmədiyi borcdur. Belə ki, borc yiyəsi onun barəsində zənn və gümandadır. Bəzən onun çatacağına ümid bəsləyir, bəzən də naümiddir. Bu, *(məqsədə dəlalət edən)* ən fəsahətli və dolğun kəlamlardandır. Həmçinin sənin axtardığın, amma tapıb-tapmayacağını bilmədiyin hər bir şey «الظَّنُون» «əz-zənun»dur. *(Cahiliyyət dövrünün məşhur şairlərindən olmuş və ərəblərin, onun şerlərinə mahnı qoşub oxuduğu)* Əşanın sözü də bu mənadadır ki:

ما يُجْعَلُ الْجُدُّ الظَّنُونُ الَّذى    جُنِّبَ صَوْبَ اللَّجِبِ الْماطِرِ
مِثْلَ الْفُراتِيِّ إذا ماطَما    يَقْذِفُ بِالْبُوصِيِّ وَ الْماهِرِ

«Suyunun olub-olmaması barəsində zənn və güman edilən və səs–küylü axar yağışın gəlməsindən uzaq olan quyunu, Fəratın tüğyan edən zamanda *(suyun çoxluğu və dalğaların təlatümü nəticəsində)* gəmi və mahir üzgüçünü diz çökdürən suyuna tay tutmaq olmaz.» *(Bu cümlə simic və xəsis adamla comərd və əliaçığın bərabər olmaması barəsində bir məsələdir. Şerin mətnində olan)* «جُدّ» «cudd» *(kəlməsi)* çöl və səhrada olan köhnə quyu mənasındadır. «الظَّنُون» «Əz-zənun» isə suyunun olub-olmaması bilinməyən bir quyudur.

## 7

İmam Əli əleyhis-salam, müharibəyə göndərdiyi qoşunu ötürərkən *(onlara öyüd-nəsihət verib belə)* buyurmuşdur:

Bacardıqca qadınlardan uzaq olun. *(Seyyid Rəzi–rəhiməhullah–deyir:)*

Bu kəlamın mənası budur ki, *(müharibə zamanı)* qadınları yadınıza salmaqdan və onlara ürək bağlamaqdan çəkinin və özünüzü onlarla yaxınlıq etməkdən saxlayın. Çünki bu, qeyrət və kişilik gücünü süstləşdirir, qəti qərarlara xələl gətirərək onlarda boşluq yaradır, insanı düşmən müqabilində məğlub edir və müharibəyə gedərək onda səy və təlaş göstərməkdən uzaqlaşdırır. Bir şeydən çəkinən şəxs (barəsində «أَعْذَبَ عَنْهُ» «əzəbə ənhu», yəni,) «ondan uzaqlaşıb və özünü ondan saxlayıb» deyilir. Özünü yemək-

içməkdən saxlayan kəsə «عاذِب» «azib» və «عَذُوب» «əzub» deyilir.

## 8

İmam Əli əleyhis-salamın *(23-cü xütbədə paxıllıq etməmək və həsəd aparmamaq barəsindəki)* hədisində deyilir:

Qələbə axtaran mahir qumarbaz kimi olsun ki, qələbəni əvvəlcə öz qumar oxlarından gözləyir. (Qeyd)[1] *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

*(Əsas mətndə olan)* «ياسِرُون» «yasirun», alıb kəsdikləri dəvənin üstündə qumar oxları ilə qumar oynayan kəslərdir. «فالِج» «falic», qələbə axtaran və mahir mənasındadır. *(Bu barədə belə)* deyirlər: «فَلَجَ عَلَيْهِمْ وَ فَلَجَهُمْ» «fələcə ələyhim və fələcəhum», yəni, dostlarına qalib gəldi və onlardan uddu. *(Döyüş meydanında)* hərif çağıraraq rəcəz oxuyan şəxs belə deyir: «لَمّا رَأَيْتُ فالِجاً قَدْ فَلَجا» «ləmma rəəytu falicən qəd fələca» yəni, «o zaman ki, qələbə çalanı qalib gələndə gördüm.»

## 9

İmam Əli əleyhis-salamın *(Həzrət Peyğəmbərin - səlləllahu əleyhi və alih - şücaət və cəsurluğu barəsindəki və oxşarı doqquzuncu məktubda keçmiş)* hədisində deyilir:

Biz qorxu və vahimə qızaranda (döyüş çətinləşəndə) özümüzü Allahın elçisi *(səlləllahu əleyhi və alih)* vasitəsi ilə qoruyurduq və bizlərdən heç kəs düşmənə o Həzrətdən yaxın deyildi. *(Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

Bu sözün mənası budur ki, düşməndən qorxu artanda və müharibənin sancmaqları ağırlaşanda müsəlmanlar Həzrət Peyğəmbər *(səlləllahu əleyhi və alih)* vuruşan tərəfə qaçırdılar

---

[1] *Buna görə də dünya nemətindən bəhrəsi az olan kəs başqalarına paxıllıq edib həsəd aparmamalı, əksinə, həmişə uduş gözləyən mahir qumarbaz kimi bəxtin ona üz tutması üçün qəm-kədərə tutulmamalı və çalışmalıdır.*

və Allah-təala o Həzrətin bərəkətindən onlara yardım göndərirdi. Onlar da həmin Həzrət vasitəsi ilə qorxduqları şeydən xatircəm olub rahatlanırdılar.

Həzrətin «إِذَا احْمَرَّ الْبَأْسُ» «qorxu və vahimə qızaran zaman» ibarəsi, döyüşün ağırlığını məcazi dillə anlatmaqdır. Bu barədə bir neçə fikir deyilib. Onların ən yaxşısı budur ki, Həzrət, müharibənin qızışmasını istilik və qırmızılığı öz əməl və rəngində toplayan oda bənzədib *(ki, həm yandırıcıdır həm də şöləli)*. Bu nəzəri Həzrət Peyğəmbərin *(səlləllahu əleyhi və alih) (Taif ilə Məkkə arasındakı yerin adı ilə adlandırılan)* Hüneyn müharibəsində müsəlmanların qılınc çalmalarını görən zaman buyurduğu söz də təsdiqləyir. O, *(Qeys qəbilələrindən olan)* Həvazən döyüşü idi *(ki, Həzrət onda buyurdu)*: «الْآنَ حَمِیَ الْوَطِیسُ» «indi müharibənin təndiri qızışdı». *(Əsas mətndəki)* «وَطِیس» «vətis» *(kəlməsi)* od yandırılan yer mənasındadır. Həzrət Peyğəmbər *(səlləllahu əleyhi və alih)* onların döyüşlərinin qızışmasını odun alışaraq şölələnməsinə bənzədib.

## *Bu fəsl sona çatdı və biz özümüzün bu bölümün əvvəlindəki üsulumuza*
### *(o Həzrətin buyurduğu kəlmələrin təfsiri deyil, İmam əleyhis-salamın sözlərinin bəyan edilməsi olan məqsədimizə) qayıdırıq*

## 253

Müaviyənin qoşununun *(İraqın qədim şəhərlərindən olan)* Ənbara hücum edərək qarətçilik və soyğunçuluq etməsi xəbəri İmam Əli əleyhis-salama çatanda, o Həzrət təkcə piyada *(Kufədən)* çıxaraq *(Kufə yaxınlığındakı)* Nuxəyləyə kimi gəldi. Camaat *(onun arxasınca gəlib)* xidmətinə yetişərək belə dedi: Ey Əmirəl-möminin! Sənin yerinə biz onlara bəsik. Sonra Həzrət *(onların məzəmmətində belə)* buyurdu:

Allaha and olsun ki, siz mənə özünüz *(sizə gələn ziyanlar)* üçün bəs deyilsiniz, başqaları üçün necə bəs ola bilərsiniz? Əgər məndən əvvəlki rəiyyətlər hakimlərinin zülmündən şikayətlənirdilərsə, bu gün mən öz rəiyyətimin zülmündən şikayətlənirəm. Sanki mən tabe, onlar rəhbərdirlər, yaxud mən əmri yerinə yetirən, onlar isə əmr verəndirlər! *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

İmam əleyhis-salam bu sözü – bizim, bir hissəsini xütbələr fəslində *(iyirmi yeddinci xütbədə)* bəyan etdiyimiz uzun bir söhbətdə –deyəndə, səhabələrindən iki nəfər qabağa çıxdı və onların biri dedi: Mənim özümdən və qardaşımdan başqa heç kəsə gücüm çatmır. Ey Əmirəl-möminin! Bizə istədiyin şeyi əmr et, yerinə yetirək. İmam əleyhis-salam buyurdu: Mənim istədiklərim sizinlə hara kimi qabağa gedər və siz iki nəfərin əlindən nə gələr?

## 254

Deyirlər ki, Haris ibn Hut *(və ya Xut)* İmam Əli əleyhis-salamın yanına gələrək deyib: Elə bilirsən mən Cəməl əhlinin *(Təlhə, Zübeyr, Aişə və onların tərəfdarlarının)* azğınlıqda olmasını güman edirəm?

İmam Əli əleyhis-salam *(onun məzəmmətində)* buyurub:

Ey Haris! Sən öz altına baxdın *(onların batil və səhv sözlərini qəbul etdin)*, amma üstünə və yuxarı baxmadın *(mənim haqq və doğru sözlərim barəsində isə düşünmədin)*, beləliklə, çaş-baş və avara qaldın! Sən haqqı tanımadığın üçün onun əhlini də tanımadın, batili tanımadığın üçün onun davamçılarını və arxasınca gedənlərini də tanımadın. Haris dedi: Mən Səd ibn Malik *(Səd ibn Əbi Vəqqas)* və Abdullah ibn Ömər *(ibn Xəttab)* ilə kənara çəkilib bir guşəyə gedirəm. Sonra İmam əleyhis-salam buyurdu: Səd ilə Abdullah ibn Ömər haqqa kömək etmədilər və batili tərk etmədilər. (Qeyd)[1]

---

[1] *Çünki onların batildən uzaqlaşmaları, ona kömək etməmək məqsədi ilə deyil, haqq barəsində şəkk və tərəddüddə olmalarına görə idi. Buna görə də sən onlara tabe olmamalısan. Şərhçi Bəhrani (rəhiməhullah) burada belə yazır: Osman öldürülən kimi Səd ibn Əbi Vəqqas bir neçə qoyun alaraq səhraya getdi, ölüncə həmin qoyunlarla yaşadı və Əli əleyhis-salama beyət etmədi. Abdullah ibn Ömər Əmirəl-mömininə beyət etdi və ondan sonra Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) zövcəsi olmuş bacısı Həfsəyə sığınaraq Cəməl müharibəsində iştirak etmədi və dedi: İbadət və bəndəlik mənim at minmək və müharibə etmək qüdrətimi alıb. Nə Əli ilə varam, nə də onun düşmənləri ilə. Mühəddis Hacı Şeyx Abbas Qumi (əleyhirrəhmə) «Səfinətu biharil-ənvar»kitabında nəql edir ki: Həccac Məkkəyə daxil olub İbn Zübeyri dar ağacından asanda Abdullah ibn Ömər axşam vaxtı onun yanına gəlib dedi: Əlini ver, Əbdülməlik üçün sənə beyət edim. Çünki Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurub ki:* «مَنْ ماتَ وَ لَمْ يَعْرِفْ إمامَ زَمانِهِ ماتَ مِيْتَةً جاهِلِيَّةً» *«hər kim öz zamanının imamını tanımadan ölsə, cahiliyyət dövründəki kimi ölüb.» Sonra Həccac ayağını uzadıb dedi: Ayağımı götür və beyət et, çünki əlim məşğuldur. İbn Ömər dedi: Məni ələ salırsan? Həccac dedi: Ey Ədiyy qəbiləsinin axmağı! Əli əleyhis-salamla beyət etmədin, amma bu gün bu sözləri danışırsan. Məgər Əli sənin zəmanənin imamı deyildi? Allaha*

# 255

İmam Əli əleyhis-salam *(padşahın həmsöhbəti barəsində)* buyurmuşdur:

Padşahın həmsöhbəti şir minmiş kəs kimidir. Xalq onun məqam və yerinin arzusundadır, o isə öz yerindən daha yaxşı xəbərdardır *(ki, nə qədər təhlükəlidir)*.

# 256

İmam Əli əleyhis-salam *(yaxşılıq barəsində)* buyurmuşdur:

Başqalarının övladlarına yaxşılıq və mehribançılıq edin ki, sizin övladlarınızın hörmətini saxlasınlar.

# 257

İmam Əli əleyhis-salam *(böyüklərin sözləri barəsində)* buyurmuşdur:

Elm və bəsirət sahiblərinin sözü əgər düz olsa *(dünya və axirət dərdləri üçün)* dərman, səhv olsa isə dərddir *(fitnə-fəsada səbəb olar. Buna görə də hikmət sahibi və alim çalışmalıdır ki, səhv söz deməsin. Çünki deyiblər ki: «زَلَّةُ الْعالِمِ زَلَّةُ الْعالَمِ» «alimin büdrəməsi aləmin büdrəməsidir.»)*

# 258

Bir kişi İmam Əli əleyhis-salamdan imanın *(mənasının)* nə olmasını ona başa salmasını istədi. O Həzrət *(sözün hürkəkliyi barəsində belə)* buyurdu:

Hamı eşitsin deyə sabah mənim yanıma gəl və mən sənə xəbər verim ki, əgər sən mənim sözlərimi unutsan başqası onu əzbərləsin. Çünki söz hürkək ov kimidir. Biri *(öz hafizəsi ilə)* onu oğurlayır, başqa birisi isə *(kütbeyinliyinə görə)* onu əldən çıxarır. *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

---

*and olsun ki, mənim yanıma Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) buyurduğu kəlama görə deyil, İbn Zübeyrin asıldığı bu ağacın qorxusundan gəlmisən.*

Biz o Həzrətin həmin kişinin cavabında buyurduqlarını bu fəslin keçən hissəsində *(otuzuncu kəlamda)* bəyan etmişik və o, «iman dörd dirək *(sütun)* üzərində möhkəmlənib» *(cümləsi ilə başlayan)* kəlamıdır.

# 259

İmam Əli əleyhis-salam *(gəlib çatmamış şey üçün qəmlənməmək barəsində)* buyurmuşdur:

Ey Adəm övladı! Bu gün sabah *(onun ruzisi)* üçün kədərlənmə. Çünki əgər sabah sənin ömründən olsa, Allah sənin ondakı ruzini yetirəcək. *(Buna görə də yaxşı olar ki, insan özünü gəlib çatmamış günlərə görə əldən salmasın və hər gün həmin gün üçün çalışsın.)*

# 260

İmam Əli əleyhis-salam *(dostluq və düşmənçilik barəsində)* buyurmuşdur:

Dostunu sev, amma həddi aşmaq miqdarında yox *(onu bütün sirlərdən xəbərdar etmə).* Ola bilər ki, o, bir gün sənin düşmənin olsun *(və peşman olasan).* Həmçinin düşməninlə orta səviyyədə düşmənçilik et *(aradakı pərdələri tam götürmə).* Ola bilər ki, günlərin bir günü o, sənin dostun olsun *(və onda sən xəcalətli və başıaşağı olarsan).*

# 261

İmam Əli əleyhis-salam *(dünya və axirət üçün çalışmaq barəsində)* buyurmuşdur:

İnsanlar dünyada iki dəstədirlər: Biri dünyada dünya üçün işləyir və dünya onu özünə məşğul edərək axirətindən *(axirət işlərindən)* saxlayıb. O, varislərinin yoxsulluğa düçar olmalarından qorxur *(onlar üçün mal və sərvət toplayır ki, birinə möhtac olmasınlar)*, öz yoxsulluğu barəsində isə xatircəmdir.

(Qeyd)[1] Beləliklə, öz həyatını başqasının xeyrinə sona çatdırır. Digəri isə dünyada axirət üçün işləyir, dünyadan onun üçün olan *(təqdir edilmiş)* şey işləmədən ona çatır. Beləliklə, o, hər iki pay və mənfəəti toplayıb və hər iki dünyanı əldə edib. Həmçinin Allahın yanında da hörmətli olub və Allahdan istədiyi hər bir hacət və istəyi rəva olar. *(Çünki onun Allah yanında hörmətli olması istəklərinin rəva olmasına səbəb olur.)*

# 262

Nəql edilib ki, Ömər ibn Xəttabın xilafəti zamanında onun yanında *(Allahın əzəmətli Məkkə şəhərindəki evi)* Kəbənin zinəti və bu zinətin çoxluğu barəsində söhbət düşür və bir dəstə belə deyir: Əgər onları götürüb müsəlmanların qoşununa xərcləsən savab və mükafatı çox olar, Kəbə zinəti nə edir? Ömər də onları götürmək qərarına gəlir. Bu barədə Əmirəl-möminin Əli əleyhis-salamdan sual soruşur. O Həzrət *(Kəbənin zinətlərinə toxunmamaq barəsində belə)* buyurur:

Quran Peyğəmbərə *(səlləllahu əleyhi və alih)* nazil oldu və mallar dörd qisim idi: *(Birincisi:)* Müsəlmanların *(öləndən sonrakı)* malları ki, onları hesab əsasında varislər arasında böldü və payladı. *(İkincisi:)* Qənimət *(qələbə nəticəsində düşməndən əldə edilən şey)* ki, onu, ona layiq olan kimsələr arasında böldü. *(Üçüncüsü:)* Xums *(qazanc və alverin beşdə biri)* ki, Allah onu müəyyənləşdirdiyi yerdə yerləşdirdi *(və onun kimlərə çatmalı olmasını buyurdu)*. *(Dördüncüsü:)* Sədəqələr *(zəkat və bəxşişlər)* ki, Allah onu *(da)* öz yerinə qoydu *(ondan kimlərin istifadə etməsini müəyyənləşdirdi)*. Kəbənin zinəti həmin vaxt da onda idi və Allah onu öz vəziyyətində saxladı *(onları xərcləmək və sərf etmək barəsində bir göstəriş vermədi)*. *(Allah)* onu unutqanlıq səbəbindən tərk etmədi və onun yeri Allaha gizli

---

[1] *Qiyamət gününün çətinliyindən qurtulmaq üçün bir iş görmür və həmin günün yoxsulluğunun fikrində deyil. Yaxud məna belədir ki: Övladları üçün mal və sərvət toplamaq istiqamətində özünün sıxıntılara düçar olmasından qorxusu yoxdur.*

və qaranlıq deyildi. Buna görə də *(bütün mallar barəsində hökm verdiyi, Kəbənin zinəti barəsində isə heç nə buyurmadığı üçün sən də)* onu Allah və Peyğəmbər qoyduğu kimi öz yerinə qoy. Ömər dedi: Əgər sən olmasaydın, biz *(Allahın hökmünü bilmədiyimiz üçün)* rüsvay olardıq. O, zinətləri öz yerinə qoydu *(onları heç yerə sərf etmədi)*.

# 263

Rəvayət edilib ki, İmam Əli əleyhis-salamın yanına Allahın malından *(beytülmaldan)* oğurluq etmiş iki kişini gətirirlər. Onlardan biri qul və kölə və beytülmalın əmlakı, digəri isə camaatdan birinin qulu idi. Buna görə də o Həzrət *(beytul-maldan oğurluq etmiş hansı şəxsin əlinin kəsilməsi barəsində)* buyurdu:

Beytülmala məxsus olan bu qula gəldikdə, ona *(şəri)* hədd və cəza icra edilmir *(onun əlini kəsmək lazım deyil, çünki)* beytülmalın bir hissəsi digər hissəsini yeyib. (Qeyd)[1] Amma o biri barəsində *(şəri)* hədd icra edilir. *(İmam)* sonra onun əlini kəsdi. (Qeyd)[2]

# 264

İmam Əli əleyhis-salam *(öz çətinlikləri barəsində)* buyurmuşdur:

---

[1] *Mühəqqiq Hillinin «Şəraiul-İslam» kitabında dediyi kimi, əgər onun əli kəsilsə ziyan, ziyan üstündən olar.*

[2] *İbn Meysəm (əleyhirrəhmə) burada belə yazır: İmam onun əlini ona görə kəsib ki, o, qapısı bağlı olan beytulmaldan oğurluq edib və oğurluğu müəyyən edilmiş miqdarda, yəni, qızıl dirhəmin dörddə biri qədər olub. Belə olan halda, əlin kəsilməsi vacib olur. Onun beytulmaldan payı da olmayıb. Amma əgər beytulmaldan payı olsa, oğurladığının ağırlığı payına düşən miqdardan çox olmuş olsa və həmin artıqlıq əlin kəsilməsi üçün müəyyən edilmiş miqdara çatsa, oğrunun əli kəsilir. Lakin əgər oğurluğu payından çox olmasa əli kəsilmir.*

Əgər ayaqlarım bu sürüşkənliklərdə möhkəm qalsa *(xilafətim sabitləşsə və daxili müharibələrdən qurtulsam)* bir sıra şeyləri dəyişdirəcəyəm *(müxaliflərin bidətlərini aradan apararaq hökmləri, Allahın Peyğəmbərinin – səlləllahu əleyhi və alih – göstərişlərinə uyğun şəkildə həyata keçirəcəyəm)*.

## 265

İmam Əli əleyhis-salam *(təqdir edilmiş şeylərlə razılaşmağın gərəkliyi barəsində)* buyurmuşdur:

Tam yəqinlik və inamla bilin ki, Allah bəndəyə, o nə qədər çox zirək, çox çalışqan və hiylə-kələkdə çox bacarıqlı olsa da, ilahi elmdə onun üçün təqdir edilib müəyyənləşdirilmiş şeydən artıq nəsib etməyib. Həmçinin bəndənin zəif və aciz olmasına görə, onunla, ilahi elmdə onun üçün təqdir edilmiş şeyin ona çatması arasında fasilə və ayrılıq salmayıb. Bu sirdən agah olan və onu həyata keçirən kəs *(dünya və axirətdə)* qazanc əldə etmək rahatlığı baxımından insanların ən üstünüdür. Ona göz yumaraq onda şəkk edən ziyana düçar olmaq baxımından insanların ən giriftarıdır. Nə çox nemətə çatan ki, nemətə görə yavaş-yavaş əzab və cəzaya yaxınlaşıb. Nə çox çətinliyə düçar olan ki, giriftarçılığına görə ona ehsan və yaxşılıq edilib. Buna görə də ey *(bu sözləri)* eşidən kəs! Çox şükr et və az tələs, ruzindən sənə çatanla kifayətlən və razı ol *(ki, insana, çatması labüd olan miqdardan artıq verilmir)*. (Qeyd)[1]

## 266

İmam Əli əleyhis-salam *(ibadətə təşviq edərək)* buyurmuşdur:

---

[1] *Bu məsələ və deyilən mətləb dua etməyə və ruzi əldə etmək üçün səy və təlaş göstərilməsinə əmr etməklə ziddiyyət təşkil etmir. Çünki ruzinin əldə edilməsi üçün olan dua və səy, bəzən ruzinin təqdir edilmiş miqdarından çox olmasına səbəb olur.*

*(Dünyanın yox olacağına dair)* elminizi *(axirətə göz yumub dünyaya ürək bağlamaq üçün)* nadanlıq *(la əvəz)* etməyin, *(ölüm barəsindəki)* yəqinliyinizi şəkkə çevirməyin. *(Buna görə də)* əgər *(dünyanın yox olacağını)* bilirsinizsə *(axirət üçün)* iş görün, *(ölümə)* yəqin edəndə *(azuqə götürərək)* irəli durun.

# 267

İmam Əli əleyhis-salam *(tamah və arzudan uzaq olmaq barəsində)* buyurmuşdur:

Tamah *(insanı)* suyun üstünə apararaq geri qaytarmayandır *(insanı suyun yanına aparar və onu sudan doydurmadan geri qaytarar. Kim ona düçar olsa məhv olar və ondan qurtula bilməz)* və o, *(öz əhd-peymanına)* vəfa etməyən zamindir. Nə çox su içən ki, sudan doymamış çeçiyir. *(Nə çox tamahkar və həris ki, mətləbini əldə etmək yolunda ona çatmamış və bəhrələnməmiş məhv olur.)* Rəğbət göstərilən şeyin dəyəri hər nə qədər böyük olsa onu əldə etməmək və tapmamağın kədəri də bir o qədər çox olar. Arzular bəsirət gözlərini kor edir. *(Təqdir edilmiş)* pay və qismət, ona tərəf getməyən şəxsə tərəf gəlir. *(İnsan onu əldə etmək üçün çalışmasa və onu arzulamasa da təqdir edilmiş pay və qismət ona çatacaqdır.)*

# 268

İmam Əli əleyhis-salam *(zahirin yaxşı, batinin isə pis olması barəsində)* buyurmuşdur:

Allahım, zahirimin gözlərin müqabilində *(xalqın gözlərinin qarşısında)* yaxşı, batinimin isə gizlətdiklərim şeylərdə Sənin yanında çirkin olmasından, özümü camaatın yanında Sənin məndən də *(yaxşı)* xəbərdar olduğun şeylərlə riyakarcasına qorumağımdan, beləliklə, xalqa zahirdə yaxşı görünüb pis əməllərimi Sənə tərəf gətirməyimdən və nəticədə bəndələrinə yaxınlaşaraq Sənin razılıqlarından *(və mərhəmətindən)* uzaqlaşmağımdan Sənə pənah gətirirəm.

# 269

İmam Əli əleyhis-salam *(Həzrət Sahibəzzamanın zühurunu xəbər verərək)* buyurmuşdur:

Əlbəttə! Aydın gündüzdən yaranan qaranlıq gecənin qalan hissəsində *(qüdrəti ilə)* gecələdiyimiz Allaha and olsun ki, filan-bəhmən olmayıb. (Qeyd)[1]

## 270

İmam Əli əleyhis-salam *(əzmkarlıq göstərərək çalışmağın mədhində)* buyurmuşdur:

Davam etdirdiyin az iş *(onun xeyir verməsi)*, bezib yorulduğun *(və naticədə tərk edilən)* çox işdən ümidvericidir.

## 271

İmam Əli əleyhis-salam *(vacibi əməllərə təşviq edərək)* buyurmuşdur:

Müstəhəbbi əməllər vacibata ziyan vuranda *(xələl gətirəndə)* həmin müstəhəbbiləri tərk edin. (Qeyd)[2]

## 272

İmam Əli əleyhis-salam *(itaətə rəğbət göstərmək barəsində)* buyurmuşdur:

Səfərin *(axirət səfərinin)* uzaqlığı yadında olan kəs hazırlıq görər *(təqva və pərhizkarlığı öz şüarı edər)*.

## 273

İmam Əli əleyhis-salam (ağla tabe olmaq barəsində) buyurmuşdur:

---

[1] *Belə deyil ki, Allah insanların həmişə zülmət, zəlalət və müxaliflərin azğınlıqlarında qalmalarını istəsin. Əksinə, haqq dövlətin zamanında və İmami-Zamanın (əccələllahu fərəcəh) zuhurunda xalq, İslam həqiqətləri ilə tanış olaraq zülmətlərdən qurtulacaqdır. Bu gecənin səhəri var və bu səhərin açılması yaxındır.*

[2] *Bunun dəlili 38-ci və 109-cu kəlamın şərhində deyilib.*

Görmək *(qəlbin xəbərdar və agah olması)* gözlə deyil. Çünki bəzən gözlər öz sahibinə yalan deyir. Amma ağıl ondan öyüd-nəsihət istəyənə xəyanət etmir *(onu səhvə düçar etmir)*. (Qeyd)[1]

# 274

İmam Əli əleyhis-salam *(öyüd-nəsihətə qulaq asıb tabe olmaq barəsində)* buyurmuşdur:

Sizinlə moizə və nəsihət *(onlara qulaq asıb tabe olmaq)* arasında qəflət və xəbərsizlik pərdəsi vardır. (Qeyd)[2]

---

[1] *Həqiqətləri dərk etmək üçün hisslərə deyil, ağla arxalanmaq lazımdır. Çünki nə çox hiss edilən və aşkar şey ki, naməlumdur. Amma çox əqli və nəzəri şeylər var ki, nurlu qəlblərdə bütün aşkar şeylərdən də aydındır. Buna görə də filosoflar deyiblər ki: Barəsində yəqinlik olan şeylər hiss olunanlar deyil, ağıl ilə dərk edilənlərdir. Çünki hissin hökmü səhv və xəta etmək ehtimalına məhkumdur və hisslər çox yalan deyir və bizləri səhv inanclara sövq edir, necə ki, böyüyü kiçik və kiçiyi böyük, hərəkətdə olanı dayanmış və dayananı hərəkətdə olan sanırıq. Amma ağıl hər nəyə yol tapsa və həmin şey onun yanında tam aşkar və aydın olsa, onda səhv və xəta ehtimalı yoxdur. Buna görə də nadanların dedikləri «hissdən və göz ilə görməkdən böyük dəlil yoxdur» cümləsi batil və səhvdir.*

[2] *Əgər şəhvətə tabe olmamaqla həmin pərdəni yırtıb işin sonu barəsində fikirləşsəniz öyüd-nəsihətdən nəticə çıxarar, faydalanarsınız.*

## 275

İmam Əli əleyhis-salam *(ifrat və səhlənkarlıq barəsində)* buyurmuşdur:

Nadanınız *(işi nadanlıq ucbatından)* çox edir, aliminiz isə *(işi öz vaxtından)* təxirə salır. (Qeyd)[1]

## 276

İmam Əli əleyhis-salam *(elmin bəhanə yollarını bağlaması barəsində)* buyurmuşdur: Elm və *(dinin hökmlərini)* bilmək *(«Allah kərimdir, rəhimlidir, bizim əziyyət çəkməyimizə və bəndəlik etməyimizə ehtiyacı yoxdur» deyən)* bəhanə axtaranların yolunu bağlayır. *(Buna görə də din, kitab və Peyğəmbərlə tanış olan şəxsin bəhanəsi qəbul deyil.)*

## 277

İmam Əli əleyhis-salam *(işi vaxtında yerinə yetirməyən şəxsin məzəmmətində)* buyurmuşdur:

Kimi tələsdirirlərsə *(ölümü tez çatırsa)* möhlət istəyir *(ki, ibadət və bəndəlik etsin)*, kimə möhlət verirlərsə və tələsdirmirlərsə *(ömrü uzundursa, ölümün)* təxirə düşməsi ilə *(«vaxtım var və gələcəkdə yerinə yetirərəm», deyib)* bəhanə axtarır *(bu günün işini sabaha saxlayır)*.

## 278

İmam Əli əleyhis-salam *(şadlığa ürək bağlamamaq barəsində)* buyurmuşdur:

Ruzigar xalqın «xoş halına» dediyi hər bir şey üçün bir pis gün gizlədib. *(Zəmanə insanda gördüyü nemətə paxıllıq edər və*

---

[1] *Bu kəlam «Nəhcül-Bəlağə»nin bəzi nüsxələrində «جاهِلُكُمْ مُزْدادٌ مُسَوِّفٌ» şəklində, «عالِمُكُمْ» «aliminiz» kəlməsi olmadan nəql edilib ki, onda onun mənası belə olur: «Nadanınız (günahını bağışlayacaqlar fikri ilə günah etməkdə) ifrata varır və (tövbə edərək Allaha tərəf qayıtmağı) təxirə salır.»*

*onu, onun əlindən alar. Buna görə də ağıllı adam dünyanın şadlıqlarına ürək bağlamaz və rahat oturmaz.)*

# 279

İmam Əli əleyhis-salamdan qəzavü-qədər *(onun necəliyi)* barəsində sual soruşdular. O Həzrət *(onun barəsində düşünməkdən çəkindirərək belə)* buyurdu:

O, qaranlıq bir yoldur, onunla getməyin *(ki, şübhələr nəticəsində onların həllində aciz və sərgərdan qalar, yolunuzu azarsınız)*; dərin bir dənizdir, ona daxil olmayın *(ki, müxtəlif düşüncələrdə qərq olarsınız)*; Allahın sirridir, özünüzü onda *(onu aydınlaşdırmaq üçün)* əziyyətə salmayın *(ki, xeyir görməz və bir yerə çatmazsınız)*.

# 280

İmam Əli əleyhis-salam *(itaətsizliyin ziyanı barəsində)* buyurmuşdur: Allah bir bəndəni *(günahı nəticəsində)* alçaldanda elm və biliyi ona qadağan edər. (Qeyd)[1]

# 281

İmam Əli əleyhis-salam *(gözəl xasiyyətlərə həvəsləndirərək)* buyurmuşdur:

Keçmiş zamanlarda mənim Allah yolunda *(Əbuzər Qəffari və ya Osman ibn Məzun adlı)* bir qardaş və dindaşım var idi ki, dünyanın onun gözündə kiçik olması, onu mənim gözümdə böyüdürdü. Qarnı ona hakim deyildi. Beləliklə, tapmadığı şeyi arzulamır, tapanda isə onu çox işlətmirdi. Günün çoxunu sakit idi *(danışmırdı)*, danışanda isə danışanlara qalib gəlir *(başqasının danışmasına yer qoymurdu)* və soruşanların susuzluqlarını *(elm suyundan olan moizə və öyüd-nəshətlə)* yatırdardı. *(Allaha itaət və bəndəlik, xalqla səbrlilik nəticəsində)*

---

[1] *Onu səadət və xoşbəxtliyə səbəb olan dini elm və ilahi hökmlərdən bəhrələnməyə müvəffəq etməz. Bu kəlam nadanlığın ən pis bədbəxtçilik olmasına dəlildir.*

zəifləmiş, əldən düşmüşdü və onu zəif sanırdılar. Amma *(hər hansı bir işdə)* səy və təlaş etmək zamanı çatanda qəzəbli aslan və çox zəhərli səhra ilanı *(kimi)* idi. *(İşi mütləq yerinə yetirir və ya düşməni məğlub edirdi; biri ilə mübahisə edəndə səbrsizlik etməzdi. Vaxtından qabaq)* qazının yanına gedənə kimi dəlil-sübut gətirməzdi *(dəlilini qazının yanına getdikdən sonra açıqlayardı. Bu, insanın nəzər və düşüncəsinin düzlüyünə bir dəlildir)*; bənzərində bəhanə yeri tapdığı işlərdə, şəxsin üzr və bəhanəsini eşitməyincə heç kəsi məzəmmət etməzdi *(və bu üsul, ədalət və insafın zərurətlərindəndir)*; sağalmayınca *(düçar olduğu)* xəstəlikdən *(heç kəsə)* şikayətlənməzdi *(sağalandan sonra da şikayətlənmək üçün deyil, başına gələnlərdən xəbərdar etmək məqsədi ilə deyərdi)*. Dediyini edərdi və etməyəcəyini deməzdi *(çünki düzlük və doğruluğu öz şüarı etmişdi)*. Əgər sözdə ona qalib gəlirdilərsə də, sükutda məğlub edə bilmirdilər onu. *(Yersiz danışıq və söhbətlərdə sakit idi.)* Danışmaqdansa qulaq asmağa həris idi *(faydalanmağı söyləməkdən üstün tutardı)*. Əgər qəflətən *(düşünülmədən)* ona iki iş üz tutsaydı, onların hansının nəfsi istəyə daha yaxın olmasına baxar və onunla müxalifət edərdi. Odur ki, siz də bu sifət və xislətlərə yiyələnin və onlara rəğbət göstərin. Əgər onların hamısına gücünüz çatmırsa, bilin ki, azı əldə etmək çoxu tərk etməkdən daha yaxşıdır. *(Buna görə heç olmasa həmin xüsusiyyətlərin bəzilərinə də olsa yiyələnin.)*

# 282

İmam Əli əleyhis-salam *(günahı tərk etmək barəsində)* buyurmuşdur:

Əgər Allah *(insanları peyğəmbərlər vasitəsi ilə)* Ona qarşı günah və itaətsizlik etməkdən çəkindirməsəydi də, nemətlərinə şükr üçün Ona qarşı günah işlətməmək vacib olardı. *(Çünki ağıl baxımından həm söz, həm də əməllə nemətə görə şükr etmək vacibdir. Buna görə də itaət və şükrün zərurət və tələblərindən olan günahın tərk edilməsi də vacib olacaqdır.)*

## 283

İmam Əli əleyhis-salam *(öz səhabə və yoldaşlarının münafiq simalarından olmuş)* Əşəs ibn Qeysə övladının ölümünə görə baş sağlığı verib onu səbr və dözümlülüyə təşviq edərkən *(dözümsüzlük etməmək barəsində)* buyurmuşdur:

Ey Əşəs! Əgər oğluna *(onun ölümünə)* görə kədərlənsən, *(onunla)* bağlılığına görə qəmlənməyə haqlısan *(sənin övladının ölümünə görə kədərlənməyin yersiz deyil)*. Amma səbr etsən Allah yanında hər bir müsibət və kədərin canişini *(əvəz və mükafatı)* vardır. Ey Əşəs! Əgər səbr etsən sənin barəndə qəza-qədər cari olacaq və sən savab və mükafat alacaqsan, amma dözümsüzlük etsən sənin barəndə ilahi hökm cari olacaq və sən həmin halda günahkarsan. Ey Əşəs! Oğlun *(dünyaya gələn zaman)* səni şad etdi, halbuki o, *(sənin üçün)* bəla və çətinlik idi və *(ölümü ilə)* səni kədərləndirdi, halbuki *(sənin üçün)* mükafat və mərhəmət vardır. *(Buna görə də onun müsibətində səbrli olmağın daha münasibdir.)*

## 284

İmam Əli əleyhis-salam Allahın Peyğəmbərini *(səlləllahu əleyhi və alih)* dəfn edən zaman o Həzrətin qəbrinin üstündə *(onun vəfatının böyük itki olması barəsində)* buyurmuşdur:

Səbr gözəldir, amma səndən *(ayrılmaqdan)* başqa şey üçün, dözümsüzlük pisdir, lakin sənin *(ölümün)* üçün yox! (Qeyd)[1] Sənə görə *(sənin vəfatın səbəbindən)* yaranmış qəm-kədər böyükdür; səndən qabaqkı və səndən sonrakı kədər *(sən Həzrətin qəminə nisbətdə)* asan və kiçikdir.

---

[1] *Çünki o Həzrət dinin əsası və onun rəhbəri idi. Buna görə də onun müsibətində dözümsüzlük etmək pis deyil. Ona görə ki, bu dözümsüzlük həmişə o Həzrətin sifət və davranışlarının yada salınmasına səbəb olur. Bu müsibətdə səbrli olmaq yaxşı deyil. Çünki bu, ondan qafil olmağa və onu yaddan çıxarmağa səbəb olur.*

## 285

İmam Əli əleyhis-salam *(axmaqla yoldaşlıq etməyin ziyanı barəsində)* buyurmuşdur:

Axmaqla yoldaşlıq etmə. Çünki o *(öz ağılsızlığı ucbatından)* işini sənin nəzərində bəzəyib gözəlləşdirir və sənin də onun kimi olmağını *(onun axmaqlıqlarına tabe olmağını)* istəyir.

## 286

İmam Əli əleyhis-salamdan şərqlə qərb arasındakı məsafənin nə qədər olmasını soruşdular. O Həzrət *(onların arasındakı məsafənin müəyyənləşdirilməsi barəsində belə)* buyurdu:

Günəşin bir günlük hərəkət və fırlanması miqdarında! (Qeyd)[1]

## 287

İmam Əli əleyhis-salam *(dost və düşmən barəsində)* buyurmuşdur:

Dostların da üçdür, düşmənlərin də: dostların sənin öz dostun, dostunun dostu və düşmənininin düşmənidir. Düşmənlərin isə sənin öz düşmənin, dostunun düşməni və düşmənininin dostudur.

## 288

İmam Əli əleyhis-salam gördü ki, bir kişi düşməninə ziyan vurmaq üçün elə bir işdə səy və təlaş edir ki, özünə ziyan vurur. *(Ziyan vurmağın məzəmmətində)* buyurdu:

Sən tərkinə minmiş şəxsi öldürmək üçün özünə nizə batıran kəs kimisən(Qeyd)[2].

## 289

İmam Əli əleyhis-salam *(öyüd-nəsihət qəbul etməmək barəsində)* buyurmuşdur:

---

[1] *Bu cür cavaba qane edici cavab deyirlər. Yəni, cavab, sual soruşanı məmnun edir. Bu ona görədir ki, soruşanın anlama qabiliyyəti soruşulan məsələnin həqiqətini dərk etmək səviyyəsinə çatmır.*

[2] *Həmin kəs öz sinəsinə nizə sancır ki, nizə arxadan çıxıb tərkinə minmiş şəxsin sinəsinə çatsın və onu öldürsün. Başqası üçün ziyanı ilk növbədə özünə dəyən pislik planlaşdıran kəs, ya çox xəbis və nanəcibdir, ya da ağılsız və nadan.*

*(Ruzigar və öyüd verənlərdən götürülməli)* ibrət və öyüdlər nə qədər də çoxdur, öyüd qəbul etmək isə nə qədər də az!

## 290

İmam Əli əleyhis-salam *(dava-dalaşın məzəmmətində)* buyurmuşdur:

Çəkişmə və dava-dalaş istiqamətində çalışaraq israrlı olan kəs günah edib. Onda səhlənkarlıq və təmkinlilik göstərən isə zülmə məruz qalar. *(Başqası ilə)* dava-dalaş edən kəs *(dava-dalaş əsnasında günahdan uzaq olub)* pərhizkar ola bilməz. *(Çünki dava-dalaşda təqva və pərhizkarlığın zərurətlərindən olan ədalətlilik və həddi aşmamaq çətindir.)*

## 291

İmam Əli əleyhis-salam *(tövbə etməyə həvəsləndirərək)* buyurmuşdur:

O günah ki, ondan sonra iki rəkət namaz qılmaq və Allahdan onu *(o günahı)* bağışlamasını istəmək miqdarında fürsət tapdım *(qəflətən ölmədim)*, məni kədərləndirmədi. (Qeyd)[1]

## 292

İmam Əli əleyhis-salamdan soruşurlar ki: Allah bu qədər çox məxluqla *(qiyamət günü)* necə hesab aparacaq və sorğu-

---

[1] *Çünki insan günah etdikdən sonra pak, düz və doğru niyyətlə Allahın bağışlamasına ümidvar olsa, əməlindən peşman olub onu bir daha etməmək qərarına gəlsə və günahın kəffarəsi olan namaza durub Allahdan bağışlanmasını istəsə, həmin günaha görə cəzalandırılmaz. Buna görə də həmin günah onu kədərləndirməz. Qeyd etmək lazımdır ki, İmam əleyhis-salamın bu kəlamı başqasına öyrətmək, namazın günahın kəffarəsi olmasını, insanın günahdan uzaq olmasının zəruriliyini və tövbədən qabaq baş verə bilən qəfil ölümdən qorxmasını başa salmaq üçündür, yoxsa o Həzrətin özü hər bir günahdan pak və uzaqdır.*

sual edəcəkdir? O Həzrət *(Allahın hər şeyə qadir olması barəsində belə)* buyurdu:

Bu qədər çoxluqla onlara ruzi verdiyi kimi! Soruşdular: Onlar Onu görməyə-görməyə onlarla necə sorğu-sual aparacaq? Buyurdu: Onlar Onu görməyə-görməyə onlara ruzi verdiyi kimi! (Qeyd)[1]

## 293

İmam Əli əleyhis-salam *(xəbər göndərmək barəsində)* buyurmuşdur:

Sənin qasidin *(başqası üçün)* sənin ağlını bəyan edir. *(Buna görə də gərək zirək və bilikli olsun ki, sənin məqsədini şirin kəlmə və dolğun sözlərlə tərəf müqabilə başa sala bilsin.)* Həmçinin sənin məktubun sənin tərəfindən danışan ən yetərli şeydir. *(O, sənin dilin kimidir. Artıq-əskik danışaraq çətinliklərə düçar olmaq və məhvə gətirib çıxarmaq ehtimalı olan elçi kimi deyil.)*

## 294

İmam Əli əleyhis-salam *(dua etməyə həvəsləndirərək)* buyurmuşdur:

Dərd-qəmin çətinliyə salmış olduğu giriftar kəs, duaya bəla və dərddən amanda olmayan sağlam şəxsdən daha möhtac deyil. *(Əksinə, onların hər ikisi Allaha dua edib Ondan kömək istəməyə möhtacdırlar. Biri sağalmasını, digəri isə sağlamlığının davamlı olmasını istəməyə möhtacdır.)*

## 295

İmam Əli əleyhis-salam *(dünyapərəstlərin məzəmmətində)* buyurmuşdur:

İnsanlar dünyanın oğullarıdır və kişini anasını sevməyə görə məzəmmət etməzlər. *(Bu o sözə oxşayır ki: «pis əməl və*

---

[1] *Buna görə də təəccüblənməyə yer yoxdur. Çünki Allahın, bəndələrin Onu görməmələrinə baxmayaraq, onların hamısına ruzi verməsini gördüyün kimi, onlardan sorğu-sual etməyə də qadirdir.*

*çirkin işlər filankəsin təbiətinə çevrildiyi üçün onu məzəmmət etməzlər.»)*

# 296

İmam Əli əleyhis-salam *(ehtiyaclılara əl tutmaq barəsində)* buyurmuşdur:

Yoxsul və fəqir Allahın elçisidir. *(Çünki Allahın onu ruzidən az bəhrələndirməsi buna oxşayır ki, varlı və imkanlı bəndəsini öz elçisi ilə sınamaq üçün yoxsulu onun yanına göndərib.)* Buna görə də onu *(yoxsulu)* məhrum edən *(ona kömək etməyən)* Allahı məhrum edib *(Onun, varlıların yoxsullara kömək etmələrinin zəruriliyi göstərişinə əməl etməyib.)* Ona *(yoxsula)* bir şey verən isə Allaha verib *(Onun göstərişinə əməl edib)*.

# 297

İmam Əli əleyhis-salam *(zina barəsində)* buyurmuşdur:

Qeyrətli şəxs heç vaxt zina etməz. *(O, kiminsə onun yaxınları ilə zina etməsini qəbul etmədiyi kimi, qeyrəti, onun özünün də ona haram olan qadınla yaxınlıq etməsinə icazə vermir.)*

# 298

İmam Əli əleyhis-salam *(ömrün başa çatması barəsində)* buyurmuşdur:

*(İnsanı hər bir hadisədən)* qorumaq üçün əcəl *(ömrün sona çatma müddəti)* kifayətdir. *(Əcəl çatmayınca heç kəsin ölməməsi buna bənzəyir ki, əcəl onun qoruyucusudur.)*

# 299

İmam Əli əleyhis-salam *(mal və sərvətə bağlılıq barəsində)* buyurmuşdur:

İnsan övlad ölümündə yatar *(səbr edər)*, mal və sərvətinin oğurlanmasında isə yatmaz *(dözümsüzlük edərək çalışar)*! (*Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Bu kəlamın mənası budur ki, insan övladlarının öldürülməsinə səbr edir, sərvətinin oğurlanmasına isə səbr

etmir. *(Çünki ölümdən sonra övladın qayıtması mümkün deyil, var-dövlətin qayıtması isə mümkündür.)*

# 300

İmam Əli əleyhis-salam *(dostluq barəsində)* buyurmuşdur:

Ataların dostluğu *(dostluqlarının əsəri)* oğullar arasında qohumluqdur *(qohumluq kimidir. Çünki oğullar ataları arasında olan dostluq və düşmənçiliyi irs aparırlar və onların bir-birlərinə kömək etmələrinin kökü dostluqdur və qohumluq onun amillərindəndir)*. Və *(buna görə də)* qohumluq dostluğa, dostluğun qohumluğa ehtiyaclı olmasından daha möhtacdır. *(İbn Əbil Hədid burada belə yazır: Birindən soruşurlar ki: «Qardaşını çox istəyirsən, yoxsa dostunu? Deyir: Əgər dost olsa qardaşımı.»)*

# 301

İmam Əli əleyhis-salam *(möminin zirəkliyi barəsində)* buyurmuşdur:

Möminlərin gümanlarından çəkinin *(ona əhəmiyyət verin)*. Çünki Allah haqq və düzlüyü onların dillərində qoyub. (Qeyd)[1]

# 302

İmam Əli əleyhis-salam *(Allaha təvəkkül etmək barəsində)* buyurmuşdur:

Bəndənin eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın *(qüdrət)* əlində olan şeyə arxayınçılıq və inamı öz əlində olan şeyə inamından çox olmayınca, onun imanı doğru deyil. (Qeyd)[2]

# 303

İmam Əli əleyhis-salam Bəsrəyə gələndə *(Həzrət Peyğəmbərin səhabələrindən olmuş və rical alimlərinin məzəmmət etdikləri)* Ənəs ibn Maliki Təlhə və Zübeyrin yanına göndərdi ki, *(o Həzrətin yanında)* Allahın Peyğəmbərindən *(səlləllahu əleyhi və alih)* onların barəsində eşitdiyi sözü *(«Siz Təlhə və Zübeyr Əli ilə müharibə edəcəksiniz və ona qarşı zalımsınız» hədisini)* onların yadına salsın. Ənəs isə bu barədə şəhadət verməkdən boyun qaçırdı və o Həzrətin yanına gələndə dedi: Peyğəmbərin o sözü mənim yadımdan çıxıb. Həzrət *(ona qarğış edərək)* buyurdu:

---

[1] *Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur: «* **إِتَّقُوا فِراسَةَ الْمُؤْمِنِ فَإِنَّهُ يَنْظُرُ بِنُورِ اللهِ** *» «Möminin zirəkliyindən və onun zahirdən batini dərk etməsindən çəkinin və onun dediklərini doğru sanın. Çünki o, Allahın nuru ilə baxır və Onun dilinə cari etdiyi şeylə danışır.*

[2] *Bəndənin, öz ruzisində və qismətində Allahın əta və bəxşişlərinə olan etimadı, əlində olan mal və sərvətə arxalanmasından çox olmalıdır. Çünki əlində olan əldən çıxa, yox ola bilər, Allahın yanında olanlar isə həmişə qalan və bərqərardır.*

Əgər yalan deyirsənsə, Allah sənə elə bir parlaq ağlıq vursun ki, əmmamə və çalma onu örtməsin *(sənin üzünə elə ağ ləkələr salsın ki, əmmamə onu xalqın gözündən gizlədə bilməsin. Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Həmin ağlıqdan məqsəd qoturluqdur ki, ondan sonra Ənəsin hər iki üzündə zahir oldu və o, *(xəcalətindən el arasında)* ancaq rübənd ilə görünürdü.

# 304

İmam Əli əleyhis-salam *(vacibata əhəmiyyət vermək barəsində)* buyurmuşdur:

Qəlblərin üz tutma və üz döndərmələri *(hazırlıq və əzginlikləri)* vardır. Buna görə də üz tutma zamanı onları *(vacibatdan əlavə)* müstəhəbbiləri də yerinə yetirməyə vadar edin. Üz döndərəndə isə vacibatın yerinə yetirilməsi ilə kifayətlənin. *(Çünki vacibatı heç bir halda, hətta insanın qəlbi özünü Allah dərgahında lazımı səviyyədə hiss etməsə belə tərk etmək olmaz.)*

# 305

İmam Əli əleyhis-salam *(Quranı oxumağa və dərk etməyə təşviq edərək)* buyurmuşdur:

Sizdən qabaq olanların xəbəri *(keçmişlərin əhvalatları)*, sizdən sonra olacaq şeylərin *(qəbr, Bərzəx və qiyamətin necəliyi)* xəbəri və sizin aranızda olanların *(vacib, haram müstəhəb, məkruh və mübah şeylərin)* hökmü Qurandadır.

# 306

İmam Əli əleyhis-salam *(şərin geri qaytarılması barəsində)* buyurmuşdur: Daşı gəldiyi yerə qaytarın. *(Pisliyi, həddi aşmamaq və dinin hökmlərinə zidd olmaması şərti ilə öz misli ilə*

*cəzalandırın, əvəz çıxın.)* Çünki şər və pisliyi şərdən başqa bir şey aradan aparmaz. (Qeyd)[1]

[1] *Bu o yerdədir ki, güzəşt etmək və dözümlülük göstərmək xeyir vermək əvəzinə ziyanı daha da artırsın. Bundan başqa yerdə isə mütləq səbrli olmaq lazımdır, necə ki, İmam əleyhis-salam bir çox yerlərdə ona əmr və təşviq edib.*

# 307

İmam Əli əleyhis-salam *(səhabələrinin xaslarından, şiələrinin ləyaqətlilərindən və o Həzrətə tabe olanlardan olmuş)* katibi Ubeydullah ibn Əbu Rafeyə *(xəttin gözəlliyi barəsində)* buyurmuşdur:

Mürəkkəbqabını *(onda olan rəngi toz-torpaq və çirkdən)* təmizlə, qələminin ucunu uzun et *(ki, mürəkkəb ondan kağız üzərinə yaxşı axsın)*, sətirlərin arasını geniş götür və hərfləri bir-birinə yaxın yaz ki, bu üsul xəttin gözəlliyi üçün daha uyğun və münasibdir.

# 308

İmam Əli əleyhis-salam *(öz məqamı barəsində)* buyurmuşdur:

Mən möminlərin başçısı və rəhbəriyəm, mal və sərvət isə pis əməllilərin rəhbəridir. *(Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

Bu kəlamın mənası budur ki, bal arısı öz başçısına tabe olduğu kimi möminlər də mənə tabedirlər, pis əməllilər isə var-dövlətə.

# 309

Yəhudilərdən biri İmam Əli əleyhis-salama dedi: Siz *(müsəlmanlar)* peyğəmbərinizi torpağa tapşırmamış onun barəsində ixtilaf və ziddiyyətə düşdünüz. Həzrət *(yəhudilərin məzəmmətində)* ona belə buyurdu:

Biz onun barəsində deyil, ondan olan şey barəsində (*onun ümmətində canişinlik məsələsinə görə)* ixtilafa düşdük. *(Onun peyğəmbərliyi, Allahın birliyi və buyurduqları barəsində fikir ayrılığımız yox idi.)* Amma sizin ayağınızın dəniz suyundan olan yaşlığı qurumamış *(Allah siz yəhudiləri fironçulardan nicat verərək dənizi sizin üçün yaranda və siz oradan keçəndə, fironçuları isə suda batıranda, bütün bu tovhid nişanələrini görməyinizə baxmayaraq, dənizin sahilinə çatıb orada bütlərə pərəstiş edən bir dəstəni görən kimi nadanlıq və itaətsizlik səbəbindən)* öz peyğəmbərinizə *(Həzrət*

*Musa əleyhis-salama)* dediniz: « اجْعَل لَّنَا إِلَـهًا كَمَا لَهُمْ آلِهَةٌ قَالَ إِنَّكُمْ قَوْمٌ تَجْهَلُونَ» *(Əraf-138)* «Bizim üçün onlarınkı kimi *(görünən)* bir tanrı düzəlt. Musa dedi: Siz doğrudan da çox nadan bir tayfasınız *(və azğınlığa qərq olubsunuz ki, bu qədər tovhid nişanə və əlaməti görməyinizə baxmayaraq, yenə də bu cür yaramaz sözlər danışırsınız.).*»

## 310

İmam Əli əleyhis-salama dedilər ki: *(Döyüşlərdə)* igidlərə nə ilə qalib gəldin *(onları necə xar etdin və ya öldürdün)*? O Həzrət *(öz heybəti və camaatın ondan qorxması barəsində belə)* buyurdu:

*(Döyüşdə)* qarşılaşdığım hər bir kəs mənə öz ziyanına *(onu öldürməyimə)* kömək edirdi. *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Həzrət bu sözü ilə özünün heybət və qorxusunun qəlblərdə yer almasına *(ki, igidlər ona görə özlərini itirərək məğlub olurdular)* işarə edib.

## 311

İmam Əli əleyhis-salam oğlu Məhəmməd ibn Hənəfiyyəyə *(fəqirlik və yoxsulluğun məzəmmətində)* buyurmuşdur:

Ey oğlum! Sənin üçün yoxsulluqdan qorxuram *(ki, məbada yoxsulluq ucbatından camaata tamah əli açaraq Allahın verdiyinə razı olmayasan)*. Buna görə də ondan *(onun şərindən)* Allaha pənah apar ki, yoxsulluq dində məğlubiyyət və nöqsan yeridir. *(Çünki yoxsulluq insanı xəyanətə, yalan danışmağa, alçaqlığa və haqqa kömək göstərməməyə vadar edə bilər və bunlar dində nöqsandır.)* Həmçinin ağlın sərgərdanlıq yeridir *(çünki səbrsiz yoxsul düz yolu itirər və görəcəyi iş barəsində ağlı çaş-baş, düşüncəsi sərgərdan qalar).* O həm də düşmənçiliyə səbəb olar. (Qeyd)[1]

---

[1] *Çünki xalq belə yoxsulla düşmənçilik edir və ondan uzaqlaşır. Yaxud xəyanət və yalançılıq kimi xoşagəlməz əməllərinə görə Allah onunla*

# 312

İmam Əli əleyhis-salam *(sınaq və imtahan etmək məqsədi ilə)* o Həzrətdən çətin və ağır bir sual soruşmuş şəxsə *(bilən şəxsdən sual soruşmaq üsulu barəsində)* buyurmuşdur:

Çətinliyə salmaq üçün deyil, başa düşmək və öyrənmək üçün soruş. Çünki elm öyrənən nadan, alimə oxşayır *(çünki elm əldə etməyə hazırlaşıb və düz yola ayaq basıb)*. Azğınlığa qədəm basan *(başqasına qalib gəlmək və üstünlük əldə etmək istəyən)* alim isə nadana bənzəyir *(çünki o da nadan kimi layiq olmadığı şeyi tələb edir)*.

# 313

İmam Əli əleyhis-salam Abdullah ibn Abbas o Həzrətə nəzəri ilə uyğun olmayan məsləhət verən zaman *(insanın öz imamına tabe olması barəsində)* buyurmuşdur:

Sən gərək *(məsləhət yolu ilə)* məni istiqamətləndirəsən və mən öz nəzər və düşüncəm ilə ona baxam. Amma əgər *(sənin məsləhətinin səhv olmasını bilib)* sənə tabe olmasam, sən mənə tabe ol. (Qeyd)[1]

# 314

---

*düşmən olur, yəni, rəhm və mərhəmətindən məhrum edir. Yaxud da həsəd və paxıllıq səbəbindən o, xalqın düşməni olur və dost və ya yad olmasından asılı olmayaraq hamıya qəzəblənir. Hədislərdə yoxsulluq və varlılıq həm təriflənib, həm də pislənib və onların heç biri digəri ilə ziddiyyət təşkil etmir. Çünki onların yerləri müxtəlifdir.*

[1] *Çünki mən hər bir işin xeyir və ziyanını başqalarından daha yaxşı bilirəm və fikir və düşüncəm səhvə düçar olmur. Deyirlər ki: Həzrət zahiri xilafətdə olanda İbn Abbas belə məsləhət gördü ki, İmam əleyhis-salam ürəkləri ələ almaq üçün Şam hökumətini Müaviyəyə, Bəsrəni Təlhəyə və Kufəni Zübeyrə həvalə etsin. O Həzrət isə razı olmadı və buyurdu: Dini başqasının dünyasına görə məhv etməkdən Allaha pənah aparıram. Bundan sonra isə yuxarıdakı kəlamı xatırlatdı.*

Nəql edilib ki, İmam Əli əleyhis-salam Siffeyndən *(müharibədən)* qayıdıb Kufəyə gələn zaman *(ərəb qəbilələrindən biri olan)* Şəbamiyyinin yanından keçəndə arvadların Siffeyn *(müharibəsinin)* ölülərinə ağlamalarını eşitdi. Öz qəbiləsinin böyüklərindən olan Hərb ibn Şərhəbil Şəbamı Həzrətin yanına gəldi. İmam Əli əleyhis-salam *(arvadların müharibə zamanı şivən qoparmalarının məzəmmətində)* ona belə buyurdu:

Arvadlarınız eşitdiyim bu ağlamaqları ilə sizə ağalıq edirlər? Onların bu nalə və fəryadlarının qarşısını almırsınız? *(Gərək bunun qarşısını alasınız. Çünki belə bir vəziyyətdə onların ağlayaraq nalə etmələri kişilərin müharibədən qorxmalarına səbəb və onların döyüşə getmələrinə mane olur.)*

Hərb istədi ki, minikdə olan o Həzrətin yanı ilə piyada getsin. İmam əleyhis-salam *(cah-cəlal sevməyin ziyanı barəsində)* ona buyurdu: Qayıt! Sənin kimisinin mənim kimisi ilə piyada gəlməyi hakim üçün bəla və çətinlik, mömin üçün isə zillət və xarlıqdır. *(Hakim üçün ona görə bəla və çətinlikdir ki, bu iş ona ilahi əzab və cəzaya səbəb olan qürur və təkəbbürlülük gətirir. Mömininin də bir miniyin yanı ilə piyada getməsi xarlıqdır. Çətinlik və bəlaya, eləcə də xarlığa səbəb olan hər bir şeyi tərk etmək isə vacibdir.)*

# 315

İmam Əli əleyhis-salam Nəhrəvan müharibəsində Xəvaricin ölülərinin yanından keçən zaman *(onların məzəmmətində belə)* buyurdu:

Çəkin cəzanızı ki, sizi aldadan kəs ziyan vurdu sizə! Dedilər: Ey Əmirəl-möminin, kim aldatdı onları? Buyurdu: Azdıran şeytan və pisliyə əmr edən nəfslər. Pisliyə əmr edən nəfs onları arzularla aldatdı, onlara itaətsizlik yolunu açdı və *(müharibədə)* qələbə qazanmağı vəd etdi onlara. Beləliklə, onları çətinliklə oda atdı *(əbədi əzaba düçar etdi)*.

# 316

İmam Əli əleyhis-salam *(günahlardan uzaq olmağa həvəsləndirərək)* buyurmuşdur:

Xəlvətlərdə *(də)* Allaha qarşı günah etməkdən çəkin. Çünki şahid, hökm edənin özüdür. *(Əgər gizlində günah edilsə və şahid olmasa Allah həm şahiddir, həm də hökm edən. Hökm edən özü şahid olanda isə onun başqalarının şahidliyinə ehtiyacı olmur.)*

# 317

Məhəmməd ibn Əbu Bəkrin *(Allah ondan razı olsun) (Misirdə Müaviyənin qoşununun əli ilə)* öldürülməsi xəbəri İmam Əli əleyhis-salama çatanda *(o Həzrət onun üçün təəssüflənmək və kədərlənmək barəsində belə)* buyurdu:

Bizim onun üçün olan kədərimiz onların ona görə *(onun öldürülməsinə görə)* olan sevincləri miqdarındadır. *(Onun barəsində bizim kədərimizin və onların sevinclərinin çoxluğu bərabərdir.)* Amma *(bizimlə onlar arasındakı fərq budur ki,)* onlar bir düşməni azaltdılar, biz isə bir dostu əldən verdik.

# 318

İmam Əli əleyhis-salam *(bəhanəni qəbul etmək barəsində)* buyurmuşdur:

Allahın Adəm övladının üzr və bəhanəsini qəbul etdiyi yaş həddi altmış yaşdır. (Qeyd)[1]

# 319

İmam Əli əleyhis-salam *(Allahdan başqasının yolunda qələbə qazanmağın məzəmmətində)* buyurmuşdur:

Günahın qalib gəldiyi kəs zəfər çalmayıb. *(Allah itaətindən ayrı yerdə qələbə qazanmış kəs, nəfsi istəyə və şeytana tabedir və*

---

[1] *Əgər insan altmış yaşından qabaq nəfsi istəklərin ona qalib gəlməsi və cismani qüvvələrin ağılına hakim olması barəsində bəhanə gətirsə üzrlü sayılar. Amma altmış yaşından, qüvvələrini əldən verdikdən və əcələ yaxınlaşandan sonra yenə də nəfsi istəklərə tabe olsa üzrü qəbul edilməz.*

*əslində günah ona qalib gəlib.)* Pisliklə *(günahla)* qabağa gedən kəs *(əslində)* məğlub olub. *(Çünki o, ən pis düşmən olan nəfsi istəyə məğlub olub və düşmənlərin ən pisinin əlində əsir olan kəs qələbə qazanmayıb.)*

# 320

İmam Əli əleyhis-salam *(zəkat verməyə təşviq edərək)* buyurmuşdur:

Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah varlıların mallarında yoxsulların ruzilərini vacib edib. Buna görə də varlı ondan *(onun öz haqqını)* əsirgəməsə yoxsul ac qalmaz. Ehtiyacsızlığı mütləq olan Allah *(Qiyamət günü)* onları bu işə görə sorğu-sual edəcəkdir.

# 321

İmam Əli əleyhis-salam *(bəhanə gətirməməyin tərifində)* buyurmuşdur:

Üzr və bəhanə gətirməyə ehtiyacsızlıq, onun *(üzr və bəhanənin)* düzgün və yerində olmasından daha şərafətlidir. (Qeyd)[1]

# 322

İmam Əli əleyhis-salam *(günahdan uzaq olmaq barəsində)* buyurmuşdur:

Sizin, eyb və nöqsan sifətlərdən uzaq və pak olan Allah üçün yerinə yetirməli olduğunuz ən az şey, Ona qarşı günah işlədərkən *(qəzəbinə səbəb olmamaq üçün)* Onun nemətlərindən kömək istəməməyinizdir. (Qeyd)[2]

# 323

İmam Əli əleyhis-salam *(bəndəlikdə səhlənkarlıq edənlərin məzəmmətində)* buyurmuşdur:

Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah, acizlər *(itaətdə acizlər kimi başısoyuqluq edənlər)* səhlənkarlıq edən zaman itaəti zirək və gözüaçıqların *(yaxşı işlər görən ağıllıların)* qənimət və mənfəəti edib. *(Onların səhlənkarlıqları müqabilində ağıllıların çalışqanlığı mənfəət və qazancdır.)*

---

[1] *Bəhanə gətirməyə ehtiyacının olmaması çərçivəsində davranmağın, onu gətirməyə məcbur olmağından daha yaxşıdır, hətta düz desən və bəhanən yerində qəbul olunsa belə. Çünki bəhanə və üzr gətirmək bir növ zillət və xarlıqdır.*

[2] *Çünki Onun nemət verdiyi hər bir kəsə vacibdir ki, onları itaət və bəndəlik yolunda sərf etsin və bununla da şükr etmiş olsun və nəticədə ona verilən nemət artırılsın. Əgər bu himmətə malik olmasa, ən azı, gərək onları günah və itaətsizlik yolunda deyil, halal olan və icazə verilmiş yerlərdə sərf etsin.*

## 324

İmam Əli əleyhis-salam *(padşahlar barəsində)* buyurmuşdur:

Padşahlar Allahın yer üzərindəki gözətçiləridirlər *(ki, insanların bir-birlərinə ziyan vurmalarının və pislik etmələrinin qarşısını alırlar)*. (Qeyd)[1]

## 325

İmam Əli əleyhis-salam möminin vəsfində buyurmuşdur:

Möminin sevinci üzündə, kədəri isə qəlbindədir. Sinəsi hər şeydən genişdir *(çətinliklər zamanı səbri qədərsizdir)*; nəfsi hər şeydən xardır *(təvazökarlığı çoxdur)*; itaətsizlikdən zəhləsi gedir, riya və gözəgirənliyə nifrət edir. *(İşin sonu barəsindəki)* kədəri uzun, *(layiqli işlərdəki)* səy və təlaşı yüksəkdir. *(Fikir və düşüncə nəticəsində)* dinməzliyi çox, vaxtı *(itaət və bəndəliyə)* məşğul, *(Allahın nemətlərinə)* şükr edən və *(bəla və çətinliklərdə)* çox səbrlidir. Öz fikir və düşüncəsində *(bəndəlik və işin sonu barəsində təfəkkürə)* qərq olub, öz istəyində *(başqasından bir şey istəməkdə)* simiclik edir *(ehtiyacını heç kəsə bildirmir)*, xasiyyəti yumşaq, təbiəti mülayimdir *(təkəbbürlü, məğrur və başqalarını incidən deyil)*. O, quldan xar *(hamıya qarşı çox təvazökar)* olmasına baxmayaraq, nəfsi möhkəm daşdan da bərkdir *(din yolunda şücaətlidir)*.

## 326

İmam Əli əleyhis-salam *(başqalarının malında gözü olmamaq barəsində)* buyurmuşdur:

---

[1] *Əsas mətndəki «السُّلْطانُ» «əs-sultan» kəlməsində olan «əlif-lam» artikli cinsiyyət artiklidir ki, bütün padşahlara şamil olur. Onun xəbərini ona görə «وَزَعَة» «vəzəət» gətirib ki, o, «وازِع» «vaze»nin cəmidir və hakim və gözətçi mənasındadır.*

Ən böyük zənginlik xalqın əlində olan şeylərdə *(var-dövlətdə)* gözü olmamaqdır. *(Çünki başqalarının malında gözü olmayan kəs varlılar kimi rifah və asayişdədir.)*

# 327

İmam Əli əleyhis-salam *(vədə vəfa etmək barəsində)* buyurmuşdur:

Bir şey istənilən şəxs, vədə verməyincə azaddır *(istəsə edər, istəməsə etməz)*. (Qeyd)[1]

# 328

İmam Əli əleyhis-salam *(arzu barəsində)* buyurmuşdur:

Əgər bəndə *(bəsirət gözü ilə)* ömrün müddətinə və onun rəftarına *(onu yoxluq və faniliyə çəkməsinə)* baxsa, arzuya və onun aldatmalarına nifrət bəsləyər *(ondan uzaqlaşar və fikrini onunla məşğul etməz)*.

# 329

İmam Əli əleyhis-salam *(var-dövlət barəsində)* buyurmuşdur:

Hər bir kəsin malında iki şəriki var: biri irs aparan, digəri isə hadisələr *(bəla və müsibətlər. Buna görə də ağıllı adam elə bir iş görər ki, onun payı o iki şərikindən az olmasın)*.

# 330

İmam Əli əleyhis-salam *(Allahdan istəmək barəsində)* buyurmuşdur:

İtaət və bəndəliyi olmadan *(Allahdan)* bir şey istəyən, kamanının yayı olmayan ox atan kimidir *(ki, oxu hədəfə çatmaz)*. (Qeyd)[2]

---

[1] *Vədə verəndən sonra isə azad deyil və gərək vədinə vəfa etsin, istənilən şeyi yerinə yetirsin. Bu kəlamla bundan qabaqkı kəlam «Nəhcül-Bəlağə»nin nüsxələrinin çoxunda yoxdur. Biz onların hər ikisini İbn Əbil Hədidin nüsxəsindən nəql etdik.*

[2] *Deməli, əməli olmadan Allahı çağıran adamın istəyi rəva olmaz. Çünki əməli olmayan və vacib əməlləri yerinə yetirməyən kəs fasiqdir və Allah, fasiqin duasını qəbul etməz.*

## 331

İmam Əli əleyhis-salam *(elm barəsində)* buyurmuşdur:

Elm iki növdür: biri fitri *(nişanələri əməldə aşkar)* olan elm, digəri isə *(öyrənmək və mütaliə ilə olan)* eşidilmə elm. Eşidilmə elm fitri olmayınca fayda verməz *(insanı elmin həqiqətlərinə çatdıraraq xoşbəxt etməz)*.

## 332

İmam Əli əleyhis-salam *(fikir barəsində)* buyurmuşdur:

Düzgün fikir dövlət, üstünlük və sərvətə bağlıdır. Onların gəlməsi ilə gəlir və onların getməsi ilə gedir. (Qeyd)[1]

## 333

İmam Əli əleyhis-salam *(yoxsulluq və varlılıq barəsində)* buyurmuşdur:

Yoxsulluğun zinəti abır-ismətdir. Varlılığın zinəti isə şükrdür. (Qeyd)[2]

## 334

İmam Əli əleyhis-salam *(zalım barəsində)* buyurmuşdur:

Ədalət *(qiyamət)* günü zalıma məzluma zülm edilmiş gündən daha ağırdır. *(Bu məsələnin şərhi 233-cü kəlamda keçdi.)*

## 335

İmam Əli əleyhis-salam *(bəyənilən işlərə təşviq edib nalayiq işlərdən çəkindirərək)* buyurmuşdur:

Sözlər qorunub *(mələklər onları əməl səhifələrinə qeyd edirlər)*; (Qeyd)[1] gizli sirlər aşkar olub(Qeyd)[2] və *(Muddəsir surəsinin 38-*

---

[1] *Bəxt ilə dövlət hər kimə yar olsa, hər nə fikirləşsə düz gələr və düşüncə oxları istədiyi hədəfə dəyər. Amma onlar insandan üz döndərsələr fikirləşdiyi hər bir şey səhv çıxar və insanların ən ağıllısı olsa belə, istədiyinin əks nəticəsini verər.*

[2] *Günah etməyən və xalqa əl açmayan yoxsulu hamı tərifləyər və o, payını tez tapar. Xalq şükr edən varlının xeyirxahı olar və bu, Allahın nemətinin artmasına səbəb olar.*

*ci ayəsində buyurulur:)* «كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ رَهِينَةٌ» «Hər kəs öz əməlinin girovudur *(onun cəzasına çatacaq)*.» İnsanlar – Allahın qoruduğu *(eyb və nöqsandan saxlayıb zinətləndirdiyi)* kimsədən başqa – *(inkişafda)* naqis və *(ağıldan)* eyblidirlər. *(Çünki)* sual soruşanları insanı çətinliyə salıb incitmək istəyir, cavab verənləri *(heç bir cavabda geri qalmamaq üçün)* çətinliyi qəbul edir. Onların fikiri daha düz olanını da sevinc və qəzəb tez gözəl fikrindən döndərir. (Qeyd)[3] Ağlı onlardan möhkəm olan kəsə də gözucu bir baxış tez ziyan vurar *(ağılın hökmünə zidd davranaraq hörmətini itirər)* və bir kəlmə onu bir haldan digər hala salar *(deyilən bir söz nəticəsində qəzəblənərək xoşagəlməz iş görər)*.

# 336

İmam Əli əleyhis-salam *(dünyadan uzaq olmağa həvəsləndirərək)* buyurmuşdur:

Ey camaat! Allahdan qorxun *(dünyaya və onun malına ürək bağlamayın)*. Nə çox adam ki, çatmayacağı şeyi arzulayır, yaşamayacağı binanı tikir, tezliklə tərk edəcəyi sərvəti toplayır və bəlkə də onu əyriliklə *(əyri yol ilə)* toplayıb və haqqın qarşısını alıb, *(yəni,)* ona haram yol ilə çatıb və ona görə günahların yükü altına girib. Beləliklə, *(qiyamətdə)* onun ağır yükü ilə qayıdacaq və *(hesab və araşdırma zamanı)* Rəbbinin hüzuruna həsrət və kədərlə gələcək. O, *(belə bir şəxs Qurani-Kərimin Həcc surəsinin 11-ci ayəsində buyurulduğu kimi)* «خَسِرَ الدُّنْيَا وَالْآخِرَةَ ذَلِكَ هُوَ الْخُسْرَانُ الْمُبِينُ» «Həm dünyada, həm

---

[1] *Necə ki, Qurani-Kərimin Qaf surəsinin 18-ci ayəsində buyurulur:* «مَا يَلْفِظُ مِن قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ» *«Dediyi hər sözün (və ya sözü deyənin) yanında («rəqib» və «ətid», yəni,) hazır durub gözləyən (iki mələk) vardır (ki, onlar xeyir və şər əməlləri yazmağa məmurdurlar).»*

[2] *Necə ki, Qurani-Kərimin Tariq surəsinin 9-cu ayəsində buyurulur:* «يَوْمَ تُبْلَى السَّرَائِرُ» *«bütün sirlərin aşkar olacağı o qiyamət günü...»*

[3] *Kimdənsə və ya nədənsə sevinəndə, yaxud qəzəblənəndə gözəl fikrini işlətməz; sevincinə səbəb olan şeyin eybinə göz yumar və qəzəbləndiyi şeydə eyb tutar.*

də axirətdə ziyana uğrayıb. (Qeyd)[1] Bu *(hamıya)* aşkar olan bir ziyandır.»

[1] *Onun dünya ziyanı budur ki, ondan bəhrələnməmiş ölüm onu oğurlayıb. Axirət ziyanı isə onun dünyada əbədi xoşbəxtliyə səbəb olan bir iş görməməsidir.*

## 337

İmam Əli əleyhis-salam *(günahdan kənar qalanlar barəsində)* buyurmuşdur:

Günahlara *(onun edilməsinə)* əli çatmamaq paklıqdandır *(paklığa səbəb olan amillərdəndir)*. (Qeyd)[1]

## 338

İmam Əli əleyhis-salam *(abır barəsində)* buyurmuşdur:

Abrın donmuş haldadır *(qorunur)*. Ağız açmaq və istəmək onun damcılarıdır *(onu tökür)*. Onu kimin yanında tökməyinə diqqət et. *(Alçaq adamlardan bir şey istəmə. Çünki onlar istəyini yerinə yetirməsələr xəcalət çəkəcəksən, amma yerinə yetirsələr sənin həmişə qarşılarında əyilməyini istəyəcəklər.)*

## 339

İmam Əli əleyhis-salam *(yaltaqlıq barəsində)* buyurmuşdur:

*(Birini)* layiq olduğundan artıq tərifləmək yaltaqlıqdır *(və ikiüzlülük nişanəsidir)*. Layiq olduğundan az tərifləmək isə acizlik *(danışmaqda bacarıqsızlıq)* və ya *(ona)* paxıllıqdır. *(Deməli, ədalət və bərabərlik hər bir kəsi layiq olduğu qədər tərifləməyimiz və məqam və dərəcəsini həmin miqdarda üzə çıxarmağımızdır.)*

## 340

İmam Əli əleyhis-salam *(günah barəsində)* buyurmuşdur:

*(Allah yanında)* ən ağır günah insanın yüngül və kiçik hesab etdiyi günahdır. (Qeyd)[2]

---

[1] *Çünki insanın əli günaha çatmasa, o, ondan amanda qalmaq məcburiyyətində qalar və yavaş-yavaş günah etməmək onun adətinə çevrilərək ruhuna nüfuz edər. Burada paklıq və ismətdən məqsəd elə həmin adət və vərdişdir.*

[2] *Çünki günah hətta kiçik olsa belə, ona etinasızlıq cəzadan qorxmamaq və tövbə etməməyə səbəb olur. Nəticədə insanın vərdişinə çevrilərək*

# 341

İmam Əli əleyhis-salam *(bəzi xislətlərin xeyir və ziyanı barəsində)* buyurmuşdur:

Kim öz eybinə *(çatışmazlıqları və pisliklərinə)* baxsa, başqasının eybini görməz. *(Çünki öz pisliklərini düzəltməklə məşğul olar və başqasında eyb axtarmağa növbə çatmaz.)* Allahın verdiyi ruziyə razı olan kəs, əlindən çıxan şey üçün kədərlənməz. *(Çünki insanın bir şey tapması və onun şəxsin əlində qalması, onun ruzisinin həmin şey olmasının nişanəsidir. Bir şeyi axtarıb tapmırsa, yaxud tapır və sonra əldən çıxarırsa, deməli, o, onun ruzisi deyilmiş. Buna görə də bir şeyi əldə etməmək üçün və ya tapandan sonra əldən çıxarmağa görə kədərlənmək təqdir edilmiş ruziyə razı olmamağa dəlildir.)* Kim zülm qılıncını *(qınından)* çəksə *(çox zülm etsə)* həmin qılıncla öldürülər *(axirətdən əlavə dünyada da məhvə düçar olar)*. Kim *(alət və vasitəsiz, çətin)* işlərdə çalışsa və əziyyət çəksə *(qəza-qədərdən asılaraq)* həlak olar. Özünü çətinlik və əziyyət burulğanlarına atan *(zəif olmasına baxmayaraq, böyük işlərə girişən)* kəs boğular *(məhv olar)*. Kim pis yerlərə daxil olsa, xalq onun barəsində pis gümanda olar *(hətta pis iş görməsə belə)*. Çox danışan kəs çox səhv edər *(çünki danışanda fikirləşməz)*. Çox səhv edən kəsin həyası az olar *(çünki çirkin iş onun peşəsi olar)*. Kimin həyası az olsa onun pərhizkarlıq və günahdan uzaqlığı *(da)* az olar. *(Çünki həyası olmayan kəs heç bir nalayiq işi görməkdən çəkinməz.)* Pərhizkarlığı az olanın qəlbi ölər *(Allahın rəhmindən uzaq olar. Çünki qəlbin yaşaması günahdan çəkinməkdən asılı, ona bağlıdır)*. Qəlbi ölmüş şəxs oda daxil olar. *(Çünki əbədi cənnət və Allahın rəhmi qəlbi ölənlər üçün deyil.)* Kim xalqın eyb və nöqsanlarına baxıb onları bəyənməsə və sonra onları özünə rəva bilsə *(özü etsə)*, deməli, o, elə axmaq və qanmazın özüdür. *(Çünki o, düz və doğru bildiyi şeyin əksinə gedib və bu, qanmazlıq və axmaqlıqdır.)* Qaneçilik *(öz payına razı olmaq və ya qənaət)* tükənməz sərvətdir. Ölümü çox yada salan kəs dünyadan aza razı olar. *(Çünki ölümdən qafil olmaq insanda*

---

*onun ruhuna nüfuz edir və o, heç bir günahdan – hətta hər nə qədər böyük olsa belə, çəkinmir.*

*dünyaya hərislik gətirir.)* Kim danışığının əmələ əsaslanmasını *(dediyini etməli olduğunu)* bilsə, barəsində qərara gəldiyi və əhəmiyyət verdiyi şeydən  başqa az danışar.

## 342

İmam Əli əleyhis-salam *(zalım barəsində)* buyurmuşdur:

Zalım insanın üç nişanəsi var: *(birincisi:)* günah və itaətsizliklə özündən üstün olana *(Allaha)* zülm edər; *(ikincisi:)* zor və üstünlüyü ilə əli altında olana zülm edər; *(üçüncüsü:)* zalımların dəstəsinə *(söz, əməl və mal xərcləməklə)* kömək edər.

## 343

İmam Əli əleyhis-salam *(rahatlıq və çətinlik barəsində)* buyurmuşdur:

Çətinlik və sıxıntının ən son həddə çatmasında rahatlıq, bəla və müsibət halqalarının daralmasında dinclik vardır. (Qeyd)[1]

## 344

İmam Əli əleyhis-salam səhabələrinin birinə *(arvad-uşaq barəsində)* buyurmuşdur:

İşinin çoxunu arvad-uşağına həsr etmə. Çünki əgər onlar Allahın dostu olsalar, Allah Öz dostlarını puç etməz *(və onlara yardım etməkdə başqasına möhtac deyil)*. Amma əgər Allahın düşməni olsalar, Allahın düşmənləri üçün kədərlənərək iş görməyin nəyə gərəkdir?! *(Onun düşmənlərinin vəziyyətini yaxşılaşdırmaq üçün çalışma. Çünki onlara kömək etmək əzab və cəzaya səbəb olur.)*

## 345

İmam Əli əleyhis-salam *(eyb axtarmaq barəsində)* buyurmuşdur:

Ən böyük eyb və qəbahət özündə olan sifəti *(başqasında)* nöqsan tutmaqdır.

---

[1] *Çünki insan çətinlikdən təngə gələndə xalis niyyət ilə Allaha pənah apararaq çətinliyinin aradan qaldırılmasını istəyər və Allah, rəhmini ona şamil edərək istəyini rəva edər.*

## 346

İmam Əli əleyhis-salamın hüzurunda bir kişi oğlu olmuş digər bir kişini təbrik edərək belə dedi: Süvari *(yaxud zəkalı və zirək)* övladın mübarək olsun sənə! *(Bu cümlə cahiliyyət dövründə ərəblərin şüarı idi. Onlar bu cümlə ilə təbriklərində uşağın süvarilik və xoşbəxtliyini proqnozlaşdırırdılar.)* Sonra İmam əleyhis-salam belə buyurdu:

*(Uşağın olmasını təbrik edəndə)* elə demə, de ki: Onu əta edən Allaha şükr olsun, sənə əta edilmiş övlad mübarək olsun, bu övlad tam kamala çatsın və onun yaxşı əməllərindən bəhrələnəsən.

## 347

İmam Əli əleyhis-salamın işçilərindən biri böyük bir ev tikmişdi. Buna görə də İmam əleyhis-salam *(sərvətin aşkar olması barəsində belə)* buyurdu:

Dirhəmlər *(gümüş pullar)* başlarını üzə çıxartdılar *(gizlətdiyin şeylər faş oldu)*. Ev sənin varlılığını vəsf edir *(sənin varlılığının nişanəsidir).*

## 348

İmam Əli əleyhis-salama dedilər: Əgər birinin evinin qapısını üzünə bağlasalar və onu orada *(azuqəsiz)* qoysalar, ruzisi haradan gələr? O Həzrət ruzi barəsində buyurdu:

Əcəl və ölümü gələn yerdən! *(Ölümü haradan gəlirsə Allah-təala ruzini də oradan göndərməyə qadirdir. Buna görə də qapının bağlı olması ölümün gəlməsinə mane olmadığı kimi, ruzinin də gəlməsinə mane olmur.)*

## 349

İmam Əli əleyhis-salam adamları ölmüş bir tayfaya baş sağlığı verib səbr etmələrini tövsiyə edərək *(ölüm barəsində belə)* buyurdu:

Onun bu ölümü nə sizdən başlayıb, nə də sizinlə qurtarır *(ki, acı olsun. Əksinə, onda hamı bərabərdir)*. Sizin bu yoldaşınız *(həyatı zamanı)* səfərə çıxırdı *(sizdən ayrılırdı)*. Buna görə də belə hesab edin ki, o öz səfərlərinin birinə gedib və sizin yanınıza qayıdacaq. Əgər qayıtmasa, *(elə belə də olacaq)* siz onun yanına gedəcəksiniz. *(Buna görə də ondan ayrılmağa görə qəmlənmək yersizdir.)*

# 350

İmam Əli əleyhis-salam *(şükr və səbr etməyə həvəsləndirərək)* buyurmuşdur:

Ey insanlar! Allah gərək sizi *(Onun)* əzab və cəzasından qorxan gördüyü kimi, nemət və bəxşişlərindən də qorxan görsün. *(Gərək həmişə Allahın nemətlərinə şükr etməkdə diqqətli olasınız və naşükrlük etməyəsiniz ki, əzab və cəzaya düçar olmayasınız.)* Həqiqətən əlində sərvəti artan və onu əzabın tədricən gəlməsi *(gəlmə səbəbi)* bilməyən *(və naşükrlük edən)* kəs qorxuludan xatircəm və arxayın *(qafil)* olub. Həmçinin yoxsullaşan və onu sınaq və imtahan *(öz sınağı)* bilməyən *(və səbrliliyi əldən verən)* kəs, ümid bəslənilərək arzulanan *(səbrli şəxs üçün nəzərdə tutulmuş)* mükafatı zay edib.

# 351

İmam Əli əleyhis-salam *(nəfsin istəklərindən uzaq olmaq barəsində)* buyurmuşdur:

Ey nəfsin istəyinin əsirləri, dayanın *(ona tabe olmayın)*! Çünki dünyaya ürək bağlayanı müsibət və qəm-qüssənin dişlərinin səsindən *(qəzəb və sərtlikdən yaranan ağır dərdləri eşitməkdən)* başqa bir şey qorxutmur *(necə ki, insan birinə qarşı qəzəblənəndə dişlərini bir-birinə sürtür)*. Ey insanlar! Nəfslərinizi ədəbləndirmək və islah etməklə özünüz məşğul olun *(bəyənilənləri öz şüarınız edin)* və onları *(nalayiq)* xislət və vərdişlərə cürət etməkdən qaytarın *(ki, qiyamət cəzasından qurtulasınız)*.

## 352

İmam Əli əleyhis-salam *(pis güman barəsində)* buyurmuşdur:

Birindən *(birinin ağzından)* çıxan söz barəsində nə qədər ki, yaxşı ehtimal verə bilirsən, pis güman etməməlisən. *(Nə qədər ki, mümkündür, ona qarşı pis gümanda olma. Həmçinin birindən gördüyün işi bacardıqca yaxşı san. Amma bəzi yerlərdə uzaqgörənliyi əldən vermək olmaz. 110-cu kəlamda nikbinlik və bədbinliyin yerləri müəyyənləşdirilib.)*

## 353

İmam Əli əleyhis-salam *(salavat göndərməyə təşviq edərək)* buyurmuşdur:

Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahdan hacət və istəyin olanda, öz istəyini Allahın Peyğəmbərinə *(səlləllahu əleyhi və alih)* salavat göndərməklə başla və sonra öz hacətini istə. Çünki Allah Ondan istənilən iki hacətdən birini *(Peyğəmbərə rəhmət və salam göndərməsi istəyini)* qəbul edib digərini *(sənin öz hacətini)* qəbul etməməkdən çox-çox səxavətlidir.

## 354

İmam Əli əleyhis-salam *(qalmaqal və çəkişmə barəsində)* buyurmuşdur:

Abrına simiclik edən *(abırını qorumağı sevən)* kəs, gərək *(başqası ilə bir şey barəsində)* mübahisə etməyi kənara qoysun. *(Çünki mübahisə etmək, xüsusilə eyb axtaranlarla çəkişmək insanın abrını aparır və qəlblərdə ona qarşı kin yaradır.)*

## 355

İmam Əli əleyhis-salam *(tələskənlik və süstlüyün məzəmmətində)* buyurmuşdur:

*(Hər hansı bir işə)* imkan yaranandan qabaq *(onda)* tələsmək və münasib vaxt və fürsət yaranandan sonra süstlük etmək axmaqlıq və qanmazlıqdandır. *(Çünki tələsmək ifrat, süstlük isə səhlənkarlıqdır və ağıllı adam onların hər ikisindən uzaq olar.)*

# 356

İmam Əli əleyhis-salam *(faydasız sual barəsində)* buyurmuşdur:

Olmayacaq şey *(məsələn, haqqında bəhs edilən fərzi məsələlər)* barəsində sual soruşma. Çünki *(şəri hökmlər və həyati işlər kimi)* mövcud şeylərdə sənin üçün məşğuliyyət və iş var *(ki, gərək onlarla məşğul olasan)*.

# 357

İmam Əli əleyhis-salam *(bəzi bəyənilən sifətlərə yiyələnməyə təşviq edərək)* buyurmuşdur:

Fikir saf və aydın güzgüdür *(ki, işin sonu onda görünür)*. *(Ruzigardan)* ibrət götürmək qorxudan öyüdverəndir. Başqasından bəyənmədiyin şeydən *(çirkinlikdən)* uzaq olmağın ədəb və zinəti sənə bəsdir.

# 358

İmam Əli əleyhis-salam *(əməl ilə birgə olan elm barəsində)* buyurmuşdur:

Elm əmələ bağlıdır. Buna görə də kim bildisə əməl etdi *(əks halda, yəni, əgər zahirdə bilən kimi görünüb əməl etmirsə, deməli, əslində bilmir)*. Elm əməli çağırır *(özünə tərəf dəvət edir)*. Əgər onu *(onun dəvət və çağırışını)* qəbul etsə həmin elmdən xeyir görülür. Əks halda isə elm əməldən uzaqlaşır *(həmin elmdən xeyir görülmür, necə ki, nadanlıqdan xeyir əldə edilmir. Deməli, bu elm xeyir verməməkdə nadanlıqla bərabərdir)*.

# 359

İmam Əli əleyhis-salam *(dünyadan uzaq olmaq barəsində)* buyurmuşdur:

Ey insanlar! Dünya malı məhvedici vəba gətirən doğranmış quru otdur. Buna görə də köçmək və qalmamaq onda qərar tapmaqdan daha xeyirli olan otlaqdan uzaq olun. *(Çünki onda qalmaq və ona ürək bağlamaq bədbəxtliyə səbəb olur.)* Onun az *(bu yolu sona çatdıracaq)* ruzi və xörəyi, onun sərvətindən daha pakdır. *(Çünki onun dünyada zəhməti, axirətdə isə hesabatı daha azdır.)* Onda *(hərislik və tamahkarlıq ucbatından)* çoxlu sərvət toplayanın *(axirətdə)* kasıb və yoxsul olması hökm edilib. *(Çünki o, dünyada giriftar olub və azuqə götürə bilməyib.)* Həmçinin ondan *(qənaət etmək və qane olmaqla)* ehtiyacsız olan *(sərvət toplamayan)* kəsin *(qiyamət günündə)* rahat olmasına kömək edilib. Dünya, onun zinət və bəzəyinin heyrətləndirdiyi kəsin iki gözünü də anadangəlmə kor edib. *(Sanki onda görmə əsər-əlaməti yoxdur.)* Onunla dostluğu öz peşəsi edən kəs, fikir və zehnini kədərlərlə doldurar və həmin kədərlər onun qəlbində iztiraba səbəb olar. Bir iradə və istək onu *(dünya malı əldə etmək üçün)* məşğul və giriftar edər, digər bir iradə və istək isə onu qəmləndirər. O, nəfəs yolu *(boğazı)* tutulana *(ölənə)* kimi həmişə qəm-qüssə və düşgünlüklərin çəkişməsindədir. Beləliklə, qəlbinin iki damarı qırılmış *(həlak olmuş)* halda onu səhraya atarlar *(qəbristanlıqda torpağa tapşırarlar)*. Allaha onun məhv olması, qardaş və dostlarına isə onu *(qəbrə)* atmaq yüngül və asandır. Mömin dünyaya ibrət gözü ilə baxır, naçarlıqdan məcbur olub qarnının ehtiyacı miqdarında qida və ruzi əldə edir və *(dünya barəsindəki söhbəti)* qəzəb və nifrətlə dinləyir. *(İnsanın dünyadakı vəziyyəti isə belədir:)* Əgər «filankəs varlı və imkanlı oldu» deyilsə *(bir müddətdən sonra)* «kasıb və yoxsul oldu» deyilər; əgər varlığına sevinsələr *(digər bir gün)* yoxluğuna kədərlənərlər. Budur insanın dünyadakı vəziyyəti və hələ *(dünyapərəstlərin əzabın ağırlığı və çətinlik və giriftarlığın əbədiliyi səbəbindən Allahın rəhmi və asudəlikdən)* naümid olacaqları gün *(qiyamət)* gəlməyib.

**360**

İmam Əli əleyhis-salam *(Allahın savab və cəzası barəsində)* buyurmuşdur:

Eyb və nöqsan sifətlərdən uzaq və pak olan Allah, *(itaətə möhtac olduğu və ya itaətsizlikdən qorxduğu üçün deyil)* bəndələrini Öz əzabından saxlayıb onları cənnətə göndərmək üçün bəndəlik və itaətə savab və günaha cəza müəyyənləşdirib.

# 361

İmam Əli əleyhis-salam *(fitnəkarların və fitnəkarlıq zamanının məzəmmətində)* buyurmuşdur:

İnsanlar üçün elə bir dövran gələcək ki, onda Qurandan nişanədən *(mənaları və həqiqətləri barəsində düşünmədən yazıb oxumaqdan)*, İslamdan isə addan *(onun hökmlərinə əməl etmədən şəhadətləri deməkdən)* başqa bir şey qalmayacaq. Həmin zamanda onların məscidləri bina *(zinət və gözəlliyi)* baxımından abad, hidayət baxımından isə *(onlarda pərhizkar və hidayət edən olmadığı üçün)* virandır və onların sakin və abadlaşdıranları *(məsciddə toplaşanlar)* yer üzünün ən pisləridirlər. *(Çünki)* onlardan fitnə xaric olar və onlarda itaətsizlik və günah yerləşər. Həmin fitnədən kənarlaşan hər bir kəsi ona qaytararlar və ondan arxada qalanı ona tərəf aparарlar. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah buyurur: Öz haqqıma and içmişəm ki, həmin insanlar üçün səbrli və ağıllıların onda *(ondan qurtulmaqda)* sərgərdan qaldığı bir fitnə göndərim. Həqiqətən *(O, dediyini)* edəndir. Biz Allahdan *(fitnəkarlar kimi əbədi cəzaya düçar olmamağımız üçün)* qəflət və xəbərsizlik günahından keçməsini istəyirik.

# 362

Nəql edilib ki, İmam Əli əleyhis-salam çox az vaxtlar istisna olmaqla həmişə minbərə çıxanda xütbədən qabaq *(pərhizkarlıq barəsində belə)* buyurardı:

Ey insanlar! Allahdan qorxun. Heç kəs boş yerə yaradılmayıb ki, oynasın; özbaşına buraxılmayıb ki, yersiz

və bihudə iş görsün. Onun özünü bəzəyərək gözəl göstərən dünyası pis baxışın ona çirkin kimi göstərdiyi axirətin əvəzi və yerini tutan deyil. Həmçinin ən yüksək əzm və çalışqanlıqla dünyadan istədiyini əldə edən aldanmış kəs, axirətdən ən az payını və nəsibini əldə etmiş digəri kimi deyil. (Qeyd)[1]

# 363

İmam Əli əleyhis-salam *(bəyənilən və xoşagələn xislətlər barəsində)* buyurmuşdur:

*(İnsanı dünya və axirət səadətinə qovuşduran)* İslamdan uca heç bir şərəf və böyüklük yoxdur. Pərhizkarlıqdan *(Allahdan qorxmaq və Ona itaət etməkdən)* üstün izzət, çəkinməkdən *(günahdan və haram olması şübhəli şeylərdən özünü saxlamaqdan)* gözəl və möhkəm sığınacaq və tövbədən səmərəli və nicatverici şəfaətçi yoxdur. (Qeyd)[2] Qənaətdən zəngin xəzinə yoxdur və verilmiş ruziyə razı olmaq kimi heç bir sərvət yoxsulluğun qarşısını almır. Ona çatmış şeylə kifayətlənən kəs rahatlığa qovuşub və dinclikdə oturaq salıb. Dünyaya meyl və rəğbət ən ağır çətinliyin açarı və giriftarçılığın miniyidir. Hərislik, təkəbbür və həsəd insanı günahlara düşməyə çağırır. Şər və pislik bütün çirkinlikləri bir yerə toplayır *(əhatə edir)*.

---

[1] *Çünki yer üzünün padşahlığını əldə etmiş şəxs, axirət üçün kiçik və az mənfəətli bir iş görmüş kəslə bir və bərabər deyil. Ona görə ki, birincinin qələbə və nailiyyəti bütün saysız-hesabsız çətinlik və qəm-qüssəsinə baxmayaraq sona çataraq yox olur. Digərinin nailiyyəti isə həmişəlikdir və ona heç bir qəm-qüssə yol tapa bilmir.*

[2] *Çünki tövbənin icazəyə ehtiyacı yoxdur, halbuki peyğəmbərlər, övliyalar və möminlər günahkarlar üçün şəfaət etmək icazəsi əldə edincəyə qədər ağız aça bilməzlər. Qurani-Kərimin Şura surəsinin 25-ci ayəsində buyurulur:* **«وَهُوَ الَّذِي يَقْبَلُ التَّوْبَةَ عَنْ عِبَادِهِ وَيَعْفُو عَنِ السَّيِّئَاتِ»** *«Bəndələrinin tövbəsini qəbul edən və günahlardan (onların günahlarından) keçən Odur.» Bəqərə surəsinin 255-ci ayəsində isə belə buyurulur:* **«مَن ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ»** *«Onun izni olmadan (qiyamətdə) Onun hüzurunda (günahkara) kim şəfaət edə bilər?»*

## 364

İmam Əli əleyhis-salam *(Həzrət Peyğəmbərin–səlləllahu əleyhi və alih–səhabələrinin yaxşılarından olmuş)* Cabir ibn Abdullah Ənsariyə *(din və dünyanın dayağı barəsində)* buyurmuşdur:

Ey Cabir! Din və dünyanın möhkəmlik və bərqərarlığı dörd kəsin vasitəsi ilədir: öz elmini işlədən *(onun əsasında davranan və onu xalqa öyrədən)* alim, öyrənməyi eyb və ar bilməyən nadan, *(başqası barəsində)* öz yaxşılıq və ehsanında simiclik etməyən varlı, öz axirətini dünyaya satmayan yoxsul. Buna görə də alim öz elmini işlətməyəndə nadan öyrənməyi ar biləcək, varlı öz yaxşılıq və ehsanında xəsislik edəndə yoxsul axirətini dünyasına satacaq *(nalayiq işlər görəcək)*.

Ey Cabir! Allah hər kimin nemətlərini *(hər kimə əta etdiyi mal, sərvət, böyüklük və bu kimi lütfləri)* artırsa, xalqın ona olan ehtiyacları *(istəkləri)* da artar. Buna görə də kim Allaha görə həmin nemətlərdə vacib olan şeyi yerinə yetirsə, Allah onları davamlı və həmişəlik edər. Amma kim onlarda vacib olanları Allaha görə yerinə yetirməsə Allah onları məhv və yox edər.

## 365

İbn Cərir Təbəri özünün tarix kitabında nəql edib ki, *(İmam Əli əleyhis-salamın səhabələrinin yaxşılarından və)* İbn Əşəs ilə Həccaca qarşı müharibə etmək üçün üsyana qalxanlardan olmuş Əbdürrəhman ibn Əbi Leyla Fəqih camaatı cihada *(Həccac ilə müharibəyə)* həvəsləndirərkən belə deyirmiş: Biz *(Siffeyn müharibəsində)* Şam əhli ilə qarşılaşdığımız gün Əlinin – Allah saleh və xeyirxahlar içində onun dərəcəsini ucaltsın və ona şəhidlər və doğruçuların savabını əta etsin – *(əmr be məruf və nəhy əz münkər barəsində)* belə buyurduğunu eşitdim ki:

Ey möminlər! Kim zülm və sitəm edilməsini və xalqın xoşagəlməz və nalayiq işlərə dəvət edilməsini görsə və onu

qəlbi ilə inkar etsə, *(qiyamət gününün sorğu-sualından)* qurtulub və *(günahdan)* uzaq olub. *(Bu, insan əl və dili ilə həmin şeyi inkar və rədd edə bilməyəndə və ya qorxu və zərər yetirilməsindən amanda olmayan zaman üçündür. Ümumiyyətlə onun hökmü yerlərinin müxtəlifliyi ilə dəyişir.)* Kim onu dili ilə inkar etsə savab qazanıb və onun mükafatı qəlbi ilə inkar edəndən çoxdur. Allahın sözünün *(din, tovhid və itaətin)* uca, zalımların sözlərinin *(şirk, küfr, azğınlıq və günahın)* alçaq və xar olması üçün onu qılıncı *(vuruşma)* ilə inkar edən kəs isə hidayət və nicat yoluna çatıb, *(Allahın bəyəndiyi)* düz yolda dayanıb və *(Allah və Peyğəmbərə)* yəqinlik və inam onun qəlbində nurlanıb *(aşkar olub)*.

# 366

İmam Əli əleyhis-salam özünün bu məzmunda *(əmr be məruf və nəhy əz münkər barəsində)* olan digər bir kəlamında da buyurmuşdur:

Onlardan *(inkar edənlərdən)* bəziləri pislikləri öz əl, dil və qəlbi ilə inkar edir. Beləliklə, o, gözəl xislətləri sona çatdırıb, kamala yetirib. Bəziləri əli ilə deyil, dil və qəlbi ilə inkar edir. O, iki gözəl xislətdən yapışıb, birini *(əl ilə inkar etməyi isə)* zay edib. Bəzisi isə əl və dili ilə deyil qəlbi ilə inkar edib. O, üç xislətin ən şərəfli ikisini zay edib və bir xislətdən *(qəlb ilə inkar etməkdən)* yapışıb. (Qeyd)[1] Bəziləri isə nalayiq işləri dil, qəlb və əli ilə inkar etmir. O, dirilərin ölüsüdür. (Qeyd)[2] Bütün yaxşı əməllər və Allah yolunda cihad etmək, əmr be məruf və nəhy əz munkərin müqabilində geniş dəryaya ağız suyu atmaq kimidir. *(Çünki İslamın vücudu əmr be məruf və nəhy əz münkər ilədir.)* Əmr be

---

[1] *Çünki əl və dil ilə inkar olmadan ancaq qəlbdə inkar etməyin xaricdə heç bir xeyri yoxdur. Buna görə də o, iki xisləti bundan şərəfli və üstün adlandırıb.*

[2] *Çünki əgər onun imkanı yoxdursa heç olmasa gərək qəlbi ilə inkar etsin. Belə olmasa o, Allaha iman gətirməsində də doğruçu deyil. Çünki Allahı sevən kəs Allahın düşməni olan günahkarı düşmən bilməlidir.*

məruf və nəhy əz münkər əcəli yaxınlaşdırmır və ruzini azaltmır(Qeyd)[1]. Əmr be məruf və nəhy əz münkərin ən gözəli, zalım padşahın yanında *(onu zülmdən saxlayan, xeyir və yaxşılığa sövq edən)* bir haqq və düz sözdür *(haqq söz deməkdir).*

# 367

Əbu Cuhəyfədən(Qeyd)[2] nəql edilib ki: Əmirəl-möminin Əli əleyhis-salamdan *(əmr be məruf və nəhy əz münkər barəsində)* belə buyurmasını eşitdim:

Məğlub olacağınız *(bədbəxtçilik və ilahi rəhmdən uzaqda qalmağınız nəticəsində sizdən alınacaq)* ilk şey əllərinizlə cihaddır *(vuruşmaqdır ki, kafir və müşriklərlə müharibə etməyəcək, fasiq, zalım və günahkarlar barəsində Allahın müəyyən etdiyi cəza növlərini icra etməyəcək və onları məzəmmət edərək ədəbləndirməyəcəksiniz).* Ondan sonra *(itirəcəyiniz şey)* dillərinizlə olan cihaddır *(ki, günah və çirkin əməlləri eşidib görəcəksiniz, amma görməmiş və eşitməmiş sayacaqsınız).* Ondan sonra isə qəlblərinizlə olan cihaddır *(ki, zalım və pis əməl sahiblərinə xeyir yetirəcək, onlarla dostluq edəcək və onlara ehtiram göstərəcəksiniz).* (Qeyd)[3] Buna görə də qəlbi ilə bəyənilən işi tanımayan və nalayiq əməli inkar etməyən kəs *(yaxşı əməl sahiblərini sevməyən və pis əməllilləri düşmən hesab etməyən – bu, əmr be məruf və nəhy əz münkər məsələsində vacib olan işin ən aşağı həddidir –)* tərsinə çevriləcək

---

[1] *Çünki əcəl öz vaxtında çatar və ruzi, əmr be məruf və nəhy əz münkər edilib edilməməsindən asılı olmayaraq azalıb çoxalmır. Buna görə də canının qorxusundan və ya xalqın qəzəbi nəticəsində ruzisinin azalması təhlükəsindən bütün xoşbəxtliklərin təməli olan bu böyük ibadəti əldən çıxaran şəxs, səhv fikirdədir.*

[2] *Bu, Vəhəb ibn Abdullah Suainin künyəsidir. O, İmam Əli əleyhis-salamın səhabələrinin yaxşılarından, dostlarından və inanılmışlarından olub. Həzrət onu «Vəhəbul-xeyr» adlandırırdı və onu Kufədə beytülmala məmur təyin etmişdi.*

[3] *Yoxsul pərhizkar və yaxşılara isə etinasızlıq göstərəcək, onlardan uzaqlaşacaqsınız. Həmin zaman dinin işi sona çatmış olacaq. Çünki əl və dil ilə cihad etmək mümkün olmasa da qəlb ilə cihad etməyə, hətta üzdə aşkar edə bilməsə də, hamının gücü çata bilər. İndi əgər onu da tərk etsələr, bu, əxlaqın dəyişməsi və dünya və axirətdə azğınlıq və bədbəxtlik nişanəsidir.*

və başı aşağı, ayağı isə yuxarı olacaqdır *(dünyada rahatlığı olmayacaq və sərgərdan qalacaq, axirətdə isə səadətini əldən verərək əbədi cəzaya düçar olacaqdır).*

## 368

İmam Əli əleyhis-salam *(haqq və batil barəsində)* buyurmuşdur:

Haqq *(zahirdə)* çətin və ağır, amma *(batində)* şirin, batil isə *(zahirdə)* yüngül və asan, lakin *(batində)* vəbagətiricidir *(məhvedicidir)*.

## 369

İmam Əli əleyhis-salam *(insanların aqibəti barəsində)* buyurmuşdur:

Bu ümmətin ən yaxşısı üçün belə Allahın əzab və cəzasından arxayın və xatircəm olma. Çünki eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah *(Əraf surəsinin 99-cu ayəsində)* buyurub ki: «**فَلا يَأْمَنُ مَكْرَ اللّٰهِ إِلاَّ الْقَوْمُ الْخَاسِرُونَ**» «Allahın cəzasından ziyana uğramış tayfadan başqa heç kəs xatircəm olmaz.» Bu ümmətin ən pisi üçün belə Allahın rəhm və mərhəmətindən naümid olma. Çünki eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah *(Yusuf surəsinin 87-ci ayəsində)* buyurub ki: «**إِنَّهُ لا يَيْأَسُ مِن رَّوْحِ اللّٰهِ إِلاَّ الْقَوْمُ الْكَافِرُونَ**» «Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər.» *(Buna görə də hamının işinin sonunun necə olacağını Allah bildiyi üçün heç kəs zahiri vəziyyətə arxayınlaşıb onun aqibətindən xatircəm və ya naümid olmamalıdır.)*

## 370

İmam Əli əleyhis-salam *(xəsislik və simicliyin məzəmmətində)* buyurmuşdur:

Xəsislik pislik və çirkinliklər toplusudur. O, *(insanın,)* vasitəsi ilə hər bir pisliyə çəkildiyi cilovdur. *(Çünki xəsislik insanı həsəd, hərislik, qohumlarla əlaqələri kəsmək, zəif və yoxsullara zülm etmək və bu kimi günahlara çəkir.)*

## 371

İmam Əli əleyhis-salam *(ruzi barəsində)* buyurmuşdur:

Ruzi iki növdür: sənin axtardığın ruzi və səni axtaran ruzi ki, sən ona tərəf getməsən də o, sənə tərəf gələcəkdir. Buna görə də ilinin qəm-qüssəsini gününün qəm-qüssəsinə yükləmə. Sənə hər gün həmin günün öz ruzisi bəsdir. Belə olan halda, əgər *(ruzisinin qəm-qüssəsini çəkdiyin)* il sənin ömründən olsa, Allah-təala yeniləşən hər sabahda sənə ayırdığı ruzini tez sənə çatdıracaq. Amma əgər *(həmin)* il sənin ömründən olmasa, sənin olmayan şeyin qəmini çəkməklə nə işin var? Heç bir axtaran sənin ruzində səndən qabağa düşə bilməz və heç bir güclü onda sənə qalib gələ bilməz *(və onu sənin əlindən ala bilməz)*. Sənin üçün təqdir edilmiş şey heç vaxt gecikməyəcəkdir *(öz vaxtında çatacaqdır. Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Bu kəlam *(hər bir kəsin təqdir edilmiş ruzisinin gəlib çatması cümləsi)* bu fəsildə bundan öncə *(iki yüz əlli doqquzuncu kəlamda)* keçdi. Amma burada daha aydın və geniş izahlı olduğu üçün kitabın əvvəlində qoyulmuş qaydaya əsasən onu bir daha, ikinci dəfə bəyan etdik.

## 372

İmam Əli əleyhis-salam *(dünyanın uyuşmazlığı barəsində)* buyurmuşdur:

Nə çox gündüzə üz tutan ki, ona arxa çevirə bilməz *(əcəl ona axşama çıxmağa imkan verməz)*. Nə çox gecənin əvvəlində *(vəziyyətinin yaxşılığına)* qibtə edilən ki, gecənin axırında ona ağlayanlar ayağa qalxdılar. *(Bəli, gecənin əvvəlində taxt-tacı var idi, səhər tezdən isə torpağın altına getdi. Buna görə də ağıllı adam dünyaya və onun malına ürək bağlamaz və öz dinini və əbədi xoşbəxtliyini ona satmaz.)*

## 373

İmam Əli əleyhis-salam *(söz barəsində)* buyurmuşdur:

Nə qədər ki, danışmamısan, söz sənin əsirindir. Elə ki dilə gətirdin sən onun əsirisən. *(Əvvəlcə sən ona hakim idin, indi isə o sənə hakimdir və istəsə sənə xeyir gətirər, istəsə ziyan.)* Buna görə də qızıl və gümüşü xəzinədə saxladığın kimi dilini də *(ağız xəzinəsində)* saxla. Çünki ola bilər ki, bir kəlmə, neməti əldən çıxarsın və qarşıya əzab və çətinlik gətirsin. *(Buna görə də gərək çox danışılmasın və düşünmədən bir söz deyilməsin.)*

# 374

İmam Əli əleyhis-salam *(yenə də söz barəsində)* buyurmuşdur:

Bilmədiyini demə. *(Çünki o, ya yalandır, ya da yalan ehtimalı olan bir şey. Nadanlıq və cahillik üzərində olan hər bir sözdən isə çəkinmək vacibdir.)* Hətta bildiyin hər şeyi də demə. *(Çünki sənin özünə və ya başqasına ziyanı ola bilər, birinin sirrini açmaq kimi.)* Çünki eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah, sənin bütün bədən üzvlərinə bir sıra hökmlər vacib edib və qiyamət günü onlarla sənə qarşı dəlil gətirəcək. *(Məsələn buyuracaq ki, sənə dili haqq söz danışmaq üçün verdim, sən isə itaət etmədiyin üçün əzab və cəzaya layiqsən.)*

# 375

İmam Əli əleyhis-salam *(günahdan uzaq olmağa həvəsləndirərək)* buyurmuşdur:

Allahın səni Ona qarşı günah işlətməkdə görməsi, Ona itaətdə isə tapmamasından qorx ki, ziyana uğrayanlardan olarsan. Güclənəndə, Allahın itaətində güclən. Zəifləyəndə, Allaha qarşı günah etməkdə zəiflə. (Qeyd)[1]

# 376

---

[1] *Yoxsa belə olmasın ki, namazı zəiflikdən oturub qılasan, amma pislik edən zaman cəld ayağa qalxasan. Buna görə də namazını bacardıqca ayaq üstə durub qıl, pislik etmək istəyəndə isə otur və özünü cilovla.*

İmam Əli əleyhis-salam *(öyüd verərək)* buyurmuşdur:

Gözünlə dünyanın etdiklərini *(yalan və vəfasızlığını)* görə-görə ona arxalanmaq, ürək bağlamaq nadanlıqdır. Savabına əmin olduğun zaman *(nəticəsinin cənnət və əbədi rahatlıq olmasını biləndə)* gözəl əməldə *(itaət və bəndəlikdə)* səhlənkarlıq etmək ziyana uğramaqdır. Sınamamış, hər bir kəsə etimad etmək acizlik və uğursuzluqdur *(işdə uğursuzluğa səbəb olar. Çünki həmin şəxs kimə etimad etməsini bilmir və inama layiq adam axtara bilmir)*.

# 377

İmam Əli əleyhis-salam *(dünyanın məzəmmətində)* buyurmuşdur:

Allaha qarşı ancaq dünyada günah edilməsi və Onun yanında olan şeyə *(səadət və xoşbəxtliyə)* ancaq dünyadan uzaqlaşmaqla nail olunması, dünyanın Allah yanında həqirliyinin nişanələrindəndir.

# 378

İmam Əli əleyhis-salam *(gözəl əmələ həvəsləndirərək)* buyurmuşdur:

Əməlinin ağırlaşdırdığı *(ibadət etməyən və yaxşı işlər görməyən tənbəl)* kəsi soy və kökü qoçaqlaşdırmaz. (Qeyd)[1]

*(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Digər bir rəvayətdə isə belədir: Öz məqam və dərəcəsini itirən kəsə atalarının məqam və dərəcəsi fayda verməz. (Qeyd)[2]

---

[1] *Ata-anasının və ya babalarının birinin böyüklük və xoşbəxtliyi onun böyüklük və xoşbəxtliyinə səbəb olmaz. Bu kəlam eyni ilə iyirmi ikinci kəlamda keçdi, ancaq bu fərqlə ki, orada kəlamın axırı «لَمْ يُسْرَعْ بِهِ حَسَبُهُ» «məqam və dərəcəsi qoçaqlaşdırmaz» şəklində nəql edilib.*

[2] *«Nəhcul-Bəlağə»nin əksər nüsxələrində bu kəlam gətirilməyib. Biz onu İbn Əbil Hədidin və Şeyx Məhəmməd Əbduhun nüsxələrindən nəql etdik.*

# 379

İmam Əli əleyhis-salam *(işdə çalışmaq barəsində)* buyurmuşdur:

Bir şeyi axtaran kəs onu və ya onun bir hissəsini tapacaqdır. (Qeyd)[1]

# 380

İmam Əli əleyhis-salam *(həqiqi yaxşılıq və pislik barəsində)* buyurmuşdur:

Arxasında od olan *(ilahi əzaba səbəb olan)* xeyir və yaxşılıq *(dünya mənfəəti, əslində)* xeyir və yaxşılıq deyil. Arxasında cənnət olan çətinlik və pislik *(dünyada çəkilən əziyyətlər, əslində)* çətinlik və pislik deyil. Cənnətdən aşağı hər bir nemət kiçik və əhəmiyyətsizdir. Oddan aşağı hər bir bəla və çətinlik rahatlıq və asayişdir. *(Çünki o nemətə nemət demək olar ki, onun arxasında cəza olmasın. Həmçinin o çətinliyi çətinlik hesab etmək olar ki, onun arxasınca əbədi rahatlıq olmasın.)*

# 381

İmam Əli əleyhis-salam *(çətinliklər və nemətlər barəsində)* buyurmuşdur:

Bilin ki, bəla və çətinliklərdən biri yoxsulluqdur. Yoxsulluqdan daha çətini bədənin xəstə olmasıdır. Bədənin xəstə olmasından daha ağırı isə qəlbin xəstəliyidir. *(Çünki o, axirət xoşbəxtliklərinin əldən çıxmasına səbəb olur.)* Bilin ki, nemətlərdən biri var-dövlətin çoxluğudur. Var-dövlətin çoxluğundan daha yaxşı, sağlamlıqdır. Sağlamlıqdan daha yaxşı isə qəlbin pərhizkarlığıdır. *(Çünki o, əbədi xoşbəxtliklərin əldə edilməsinə səbəb olur.)*

# 382

---

[1] *Çünki istəmək əldə etmək üçün hazırlıqdır. Əgər istedad və hazırlıq kamil olsa onun hamısını əldə edəcək. Kamil olmasa isə istənilən şeyin çatışmayan hissəsi istedadın azlığı miqdarında olacaqdır.*

İmam Əli əleyhis-salam *(möminin vaxtı barəsində)* buyurmuşdur:

Möminin üç saatı var *(gecə-gündüz saatlarını üç hissəyə bölməlidir):* Rəbbi ilə razü-niyaz etdiyi saat *(vaxtının səkkiz saatını Allahın işlərinə sərf etməlidir)*; öz məişətini *(yaşayış ehtiyacını)* təmin etdiyi saat *(gecə-gündüzünün səkkiz saatını ticarət, müəyyən peşə və ya digər işlərə sərf etməlidir)*; özü ilə halal və gözəl şeylər arasında ləzzət almaq üçün ayırdığı saat. (Qeyd)[1] Ağıllı adama *(əməli ağıla əsasən)* bu üç şeydən başqası üçün səfər etmək rəva deyil: məişətini düzəltmək *(ticarət, alver və iş)* üçün, yaxud məad işində addımlamaq(Qeyd)[2] üçün ya da *(ab-havanı dəyişmək və sağlamlıq üçün edilən səfərlər kimi)* haram olmayan şeylərdən ləzzət almağa görə.

# 383

İmam Əli əleyhis-salam *(dünya və onun malı barəsində)* buyurmuşdur:

Dünyaya *(onun malına)* rəğbət və meyl göstərmə *(ona ürək bağlama)* ki, Allah sənə onun çirkinliklərini göstərsin. *(Çünki vurğun eybləri görmür və onun görən gözü kor olur. Öz işindən)* xəbərsiz olma ki, səndən xəbərsiz deyildirlər. *(Allah sənə və sənin işlərinə baxır.)*

# 384

İmam Əli əleyhis-salam *(danışmaq barəsində)* buyurmuşdur:

Danışın ki, tanınasınız. Çünki insan dilinin altında gizlənib. *(Ağıllılar və alimlər danışmayınca məqamları məlum olmaz.*

---

[1] *Onun səkkiz saatını yatmaq, yemək və canına qulluqda keçirməlidir. Qeyd etmək lazımdır ki, hər bir hissəni bir şeyə ayırmağın mənası, onları bir-birinin ardınca yerinə yetirmək deyil. Bəlkə məqsəd budur ki, mömin hər gecə-gündüzdə vaxtının üçdə birini həmin işlərə sərf etməlidir.*

[2] *Əzəmətli Məkkə və digər müqəddəs yerlərin ziyarətinə getmək və ya Allah yolunda cihad və kafir və münafiqlərdən müdafiə kimi işlər (nəzərdə tutulur).*

*Cahil və nadanın danışmaması daha yaxşıdır. Çünki dilin bağlılığı qəbahət və rüsvayçılıqları gizli saxlayır.)*

# 385

İmam Əli əleyhis-salam *(müşk barəsində)* buyurmuşdur:

Müşk gözəl ətirlidir. Onun qabı yüngül, iyi isə gözəldir.

# 386

İmam Əli əleyhis-salam *(təvazökarlıq barəsində)* buyurmuşdur:

Öyünməyini kənara qoy, kibr və lovğalanmağı başından çıxart *(hamıya qarşı təvazökar ol)* və qəbrini yadına sal *(ki, nalayiq işlərdən çəkinəsən)*.

# 387

İmam Əli əleyhis-salam *(dünya malı üçün çalışmaq barəsində)* buyurmuşdur:

Dünyadan *(onun malından halal yol ilə)* sənə tərəf gələni götür və səndən üz çevirəndən *(əlin çatmayandan)* sən də üz çevir. Əgər sən *(bu işi)* etməsən *(əlin çatmayan şeylərin arxasınca getsən)*, onda axtarış və istəyində ifrata varma *(haram və günahdan uzaq ol və özünü və ailəni çox çətinliyə salma)*.

# 388

İmam Əli əleyhis-salam *(gözəl söz barəsində)* buyurmuşdur:

Nə çox söz ki, *(qəlblərə)* təsiri hücum etmək və sıçramaqdan daha çoxdur. *(Ola bilər ki, ağıllı adam qılınc və döyməklə görülə bilməyən işi sözlə görsün.)*

# 389

İmam Əli əleyhis-salam *(qənaətə həvəsləndirərək)* buyurmuşdur:

*(Ruzidən)* hər nə ilə kifayətlənmək *(yaşayışı keçirmək)* mümkündürsə o bəsdir. (Qeyd)[1]

## 390

İmam Əli əleyhis-salam *(zülmə tabe olmamaq və alçalmamaq barəsində)* buyurmuşdur:

*(Mərd üçün)* ölüm alçalmaq və həqirlikdən üstün və daha yaxşıdır. Aza razı olmaq *(varlılara)* yaxınlaşmaq və yaltaqlıq etməkdən daha yaxşıdır. Oturduğu yerdə bir şey verilməyən *(səy və təlaş etməyib bir şey əldə etməyən)* kəsə durduğu yerdə də verilməz. (Qeyd)[2] Ruzigar iki gündür: bir gün sənin şadlıq və kam almağın üçün, bir gün isə çətinlik və nakamlığın üçün. Buna görə də şadlıq günündə itaətsizlik etmə *(naşükür olma)* və çətinlik olan günündə səbrli ol *(dözümsüzlük etmə və özünü alçaltma)*.

## 391

İmam Əli əleyhis-salam *(ata ilə övladın bir-birlərinin boyunlarında olan haqqı barəsində)* buyurmuşdur:

Övladın atanın, eləcə də atanın övladın boynunda haqqı var. Atanın övladın boynunda olan haqqı budur ki, o, eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allaha itaətsizlikdən başqa hər bir şeydə ataya tabe olmalı, itaət etməlidir. Övladın atanın boynunda olan haqqı isə budur ki, ona yaxşı ad qoysun *(məsumlar əleyhimus-salamın özlərinin və ya övlad və ailə üzvlərinin birinin adını qoysun övladına)*, onu ədəbli və gözəl əxlaqlı tərbiyə etsin və ona Quran öyrətsin.

## 392

---

[1] *Yaxşısı budur ki, insan, artığın ətrafına fırlanmasın, özünü çox zəhmətə salmasın və vaxtını əbədi səadət əldə etmək üçün Allah yolunda və xalqa xidmətə sərf etsin.*

[2] *O, çox çalışmaqla da bir şey əldə etməyəcək. Buna görə də axtarış və istəməkdə də ifrata varmamaq və haram işə mürtəkib olmamaq lazımdır. Çünki təqdir olunmuş şey gəlib çatacaqdır.*

İmam Əli əleyhis-salam *(təsiri olan və olmayan şeylər barəsində)* buyurmuşdur:

Göz dəyməsi, ovsun, cadu, ağzını xeyirliyə açmaq *(məsələn xəstənin kimdənsə «ey sağlam» müraciətini eşitməsi və eşitdiyi kimi olacağına inanması)* haqdır *(onların hər biri öz təsirini göstərir)*. Ağzını pisliyə açmaq və xəstəliyin birindən digərinə keçməsi düz deyil *(təsirsizdir)*. Gözəl iy, bal, minik minmək və yaşıllığa baxmaq qəm və kədərləri aradan aparan ovsunlardır və xəstələr onların vasitəsi ilə sağalarlar. (Qeyd)[1]

# 393

İmam Əli əleyhis-salam *(xalqla eyniləşmək, uyuşmaq barəsində)* buyurmuşdur:

Xasiyyət və əxlaq cəhətindən xalqa yaxınlaşmaq *(yaşayış tərzində onlar kimi olmaq)* onların kinlərindən amanda olmaqdır *(amanda olmağa səbəb olar. Çünki kim dinə zidd olmayan işlərdə xalqla uyuşsa, onlar kimi olsa onu sevərlər və qəlblərində ona qarşı kin saxlamazlar).*

# 394

İmam Əli əleyhis-salam onunla danışanlardan biri, özündən böyük söz söyləyərkən *(yersiz söz barəsində)* buyurmuşdur:

Qanad çıxarmamış uçdun və körpə ikən nərildədin. *(Xülasə, bizim yanımızda belə sözlər danışmaq sənə yaraşmaz. Yaxud sənin kimisinin belə bir söz deməsi layiq deyil. Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

Burada *(əsas mətndəki)* «الشَّكِيرُ» «əş-şəkir»dən məqsəd quşun güclənərək möhkəmlənəndən qabaq çıxartdığı ilk

---

[1] *Bu kəlam və 385, 386 və 391-ci kəlamlar «Nəhcül-Bəlağə»nin nüsxələrinin çoxunda yoxdur və biz onları İbn Əbil Hədidin nüsxəsindən nəql etdik.*

qanadıdır. «السَّقْبُ» «əs-səqb» isə böyüyənə kimi nərildəməyən dəvə balası mənasındadır.

# 395

İmam Əli əleyhis-salam *(hər işlə məşğul olmağın ziyanı barəsində)* buyurmuşdur:

Kim müxtəlif işlərlə məşğul olsa *(müxtəlif işlər görmək istəsə)* çarə qılmaq bacarıqları onu tərk edərlər *(o, qıldığı çarələrdən heç bir nəticə əldə etməz və müvəffəqiyyət qazanmaz).*

# 396

İmam Əli əleyhis-salamdan «لا حَوْلَ وَ لا قُوَّةَ إلاّ بِاللهِ» «Allahdan başqa heç bir qüdrət və qüvvə yoxdur» kəlamının mənasını soruşarkən o Həzrət buyurmuşdur:

Biz Allahla birgə bir şeyə malik deyilik *(Onunla şərik deyilik)* və O, bizi malik etməyincə heç bir şeyə *(əndam, güc, ağıl və sairə)* malik olmuruq. Buna görə də bizi bir şeyə malik edəndə – ki, Onun Özü bizdən daha qabaq malikdir – boynumuza vəzifə qoyur *(nəyəsə əmr edir və ya nədənsə çəkindirir).* Həmin şeyi *(bir şeyə gücün çatmasını)* bizdən alanda isə, o barədəki vəzifəni boynumuzdan götürür *(həmin şey barəsində bizdən sorğu-sual etməyəcək).*

# 397

İmam Əli əleyhis-salam Əmmar ibn Yasirin *(rəhiməhullah)* Müğeyrə ibn Şöbənin sözlərinə cavab verməsini eşidəndə *(dini dünya üçün vasitə etmiş şəxsə etina etməmək barəsində)* ona buyurmuşdur:

Ey Əmmar! Müğeyrəni öz ixtiyarında qoy *(onun sözlərinə etina etmə).* Çünki o, dindən dünyanı ona yaxınlaşdıran *(dünyasına xeyri olan və yarayan)* şeydən başqa bir şey götürməyib, öyrənməyib; qəsdən *(bilərəkdən)* özünü

şübhələrə atıb ki, onları *(haqqa və doğruya oxşayan əyrilikləri)* öz səhv və büdrəmələrinə bəhanə gətirsin(Qeyd)[1].

# 398

İmam Əli əleyhis-salam *(Allaha təvəkkül etmək və arxalanmaq barəsində)* buyurmuşdur:

Varlıların Allah yanında olan savabı əldə etmək üçün yoxsullara qarşı təvazökar olmaları necə də gözəldir. Onlardan gözəl isə yoxsulların Allaha arxalanaraq varlılara etinasızlıqları və əyilməmələridir. (Qeyd)[2]

# 399

İmam Əli əleyhis-salam *(ağlın xeyri barəsində)* buyurmuşdur:

Allah ağlı insanda ancaq ona görə əmanət qoyub *(ona bağışlayıb)* ki, insana günlərin birində onun vasitəsi ilə *(onun gördüyü tədbirlərlə dünya fitnə-fəsadlarından və ya itaət və bəndəliklə axirət çətinliklərindən)* nicat versin.

# 400

İmam Əli əleyhis-salam *(haqqın batil üzərində qələbəsi barəsində)* buyurmuşdur:

Kim haqq ilə əlbəyaxa olsa *(vuruşaraq onu aradan aparmaq istəsə)*, haqq onu yerə vurar *(məhv edər. Çünki Allah haqqın yardımçısıdır və heç kəsin Onunla əlbəyaxa olmaq qüdrəti yoxdur)*.

---

[1] *Qısası, onun dinə etiqadı yoxdur. Buna görə də bu cür şübhələr barəsində mübahisə etməsinin səbəbi küfr və nifaqının faş olmaması və dünya işlərinin qaydasında qalmasıdır.*

[2] *Çünki bu iş Allaha yəqinliyin və inamın kamilliyinin ən böyük dəlilidir. Ona görə ki, onlar varlıların qarşısında başlarını uca tutmaqla Allahdan başqasına ümidi, eləcə də Ondan başqasından olan qorxunu aradan aparır və ümidsizlikdə möhkəm səbrli olurlar. Bunların heç biri varlının təvazökarlığında yoxdur.*

# 401

İmam Əli əleyhis-salam *(fikirləşmək barəsində)* buyurmuşdur:

Qəlb gözün səhifəsidir. *(Gərək gözün gördüyü şey qəlbin səhifəsinə yazılsın, barəsində fikirləşərək düşünülsün, haqq və ya batil, xeyir və şər olması aydınlaşdırılsın.)*

# 402

İmam Əli əleyhis-salam *(pərhizkarlığın mədhində)* buyurmuşdur: Pərhizkarlıq xasiyyətlərin başçısıdır. *(Hər bir gözəl xasiyyət ona bağlıdır və pərhizkarlıq, onların hamısını əhatə edir.)*

## 403

İmam Əli əleyhis-salam *(müəllimə ehtiram göstərməyə təşviq edərək)* buyurmuşdur:

Dilinin itiliyini səni danışdırana *(sənə danışmaq öyrədənə)*, eləcə də natiqlik bacarığını səni *(natiqlikdə)* düz yola istiqamətləndirənə yönəltmə. (Qeyd)[1]

## 404

İmam Əli əleyhis-salam *(çirkinliklərdən uzaq olmaq barəsində)* buyurmuşdur:

Sənin ədəb və gözəlliyin üçün başqasında pis saydığın şeydən (çirkin işlərdən) uzaqlaşmağın kifayətdir.

## 405

İmam Əli əleyhis-salam *(səbrlilik barəsində)* buyurmuşdur:

Kim *(müsibət və qəm-qüssə baş verəndə dünyanın bəzək-düzəyinə bağlı olmayan)* azad insanlar kimi səbr etsə, səbrlidir *(və öz savabını alacaqdır)*. Əgər *(həmin hadisədə dözümsüzlük edərək)* səbr etməsə, təcrübəsiz nadanların unutması kimi yaddan çıxaracaqdır. *(Həmin nadanlar hadisələrlə qarşılaşanda dözümsüzlük edərlər və sonra bir çarə olmamasını görüb susarlar. Onların bu susmağında savab yoxdur və əksinə, dözümsüzlüklərinə görə cəzalandırılacaqlar.)*

## 406

Digər bir rəvayətdə deyilir ki, İmam Əli əleyhis-salam başsağlığı və ürək-dirək verdiyi Əşəs ibn Qeysə *(yenə də səbrlilik barəsində)* buyurmuşdur:

---

[1] *Bəlkə də məqsəd budur ki: dilinin itiliyini və natiqlik bacarığını səni danışdıran və Həzrət Peyğəmbər vasitəsi ilə düz yola hidayət edən Allahın dininin ziyanına işlətmə. Çünki düşmənin qarşısını alması üçün əlinə qılınc verilmiş şəxsin həmin qılıncla qılınc verəni öldürməsi çox çirkin bir işdir.*

Əgər böyüklər və alicənablar kimi səbrlilik etsən, bu, *(eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın yanında)* gözəl və bəyənilən bir işdir. Amma səbrsizlik etsən, *(həmin müsibəti)* heyvanlar *(çəkdikləri əziyyətləri)* unutduqları kimi yaddan çıxaracaqsan. *(Axır ki, naçarlıqdan səbrli olacaqsan, amma bu dəfə savabsız.)*

## 407

İmam Əli əleyhis-salam dünyanın vəsfi və necəliyi barəsində buyurmuşdur:

Dünya *(öz zinət və bəzəyi ilə)* aldadır, *(bəla və çətinlikləri ilə)* ziyan vurur və *(sürətlə, tez)* keçir *(onlardan ayrılır). (Dünya həqir və alçaq olduğu üçün)* eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah onu Öz dostlarının savabı, düşmənlərinin isə cəzası etməyə razı olmadı. Dünya əhli o karvan kimidir ki, *(bir az istirahət edib yorğunluqlarını almaq üçün)* düşdüyü əsnada birdən karvanbaşıları *(karvanın qabağında gedən başçıları)* haray salar *(ki: yola düşün, bura istirahət yeri deyil)* və sonra onlar yola düşərlər.

## 408

İmam Əli əleyhis-salam oğlu *(imam)* Həsən əleyhis-salama *(varislərə mal-sərvət saxlamağın ziyanı barəsində)* buyurmuşdur:

Oğulcanım! Özündən sonra dünyadan *(dünyanın mal və sərvətindən)* heç nə qoyma. Çünki onu iki şəxsdən biri üçün qoyursan: ya Allahın itaət və bəndəliyi yolunda sərf edən kəs üçün ki, belə olan surətdə o, sənin bədbəxt olmağına və ziyana uğramağına səbəb olan şeylə xoşbəxt olur. Ya da Allaha qarşı günah və itaətsizlik edən kəs üçün ki, belə olan halda, o, sənin onun üçün topladığın şeyə görə bədbəxt olur və sən onun günah etməsinə köməkçi və yardımçı olmusan. Bu iki haldan heç biri sənin, özün üçün seçib götürməyinə layiq və münasib deyil. *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Bu kəlam başqa cür də rəvayət edilib və o belədir:

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: dünyadan *(dünya malından)* sənin əllərində olanların səndən qabaq sahibi olub. Səndən sonra da digər bir sahibə çatacaq. Sən *(onu)* iki nəfərdən biri üçün toplayırsan: *(Ya)* o kəs *(üçün)* ki, sənin topladıqların barəsindəAllaha itaət edəcək və beləliklə, sənin, səbəbindən bədbəxt olduğun şeylə xoşbəxt olacaq. Ya da o kəs *(üçün)* ki, onu Allaha itaətsizlikdə işlədəcək və beləliklə, sənin topladığın şeylə bədbəxt olacaq. Bu ikisindən heç birini özün üçün seçməyin və eləcə də onun üçün öz çiyinlərinə yük *(günah)* götürməyin layiq deyil. Buna görə də keçən *(ölən)* üçün Allahın bağışlamasına, qalan üçün isə Allahın ruzisinə ümidvar ol. *(Nə gedənə təəssüflən, nə də qalanın dərdini çək.)*

# 409

İmam Əli əleyhis-salam o Həzrətin hüzurunda « أَسْتَغْفِرُ اللهَ» «əstəğfirullah» *(Allahdan bağışlanmaq istəyirəm)* deyən şəxsə *(istiğfar edib günahların bağışlanmasını istəməyin şərtləri barəsində)* buyurmuşdur:

Anan vayına otursun! İstiğfarın *(həqiqi mənasının)* nə olmasını bilirsən *(ki, onu düşünmədən dilinə gətirirsən)*? İstiğfar, yüksək məqamlı dəstənin *(möminlərin)* dərəcə və məqamıdır. O, altı mənası *(şərti)* olan bir addır. *(Əgər altı şərtin hamısı bir yerdə toplanmış olsa istiğfar kamil, əks halda isə naqisdir.)*

Birincisi keçmiş günahdan peşman olmaq; ikincisi ona qayıtmağı həmişəlik olaraq tərk etmək qərarına gəlmək; üçüncüsü, boynunda ziyan və günah olmayan paklıqla Allaha qovuşmağın *(mükafat əldə etməyin)* üçün xalqın haqlarını əda etmək; dördüncüsü sənə *(namaz, oruc və həcc kimi)* vacib olmuş, eləcə də əldən çıxardığın *(yerinə yetirmədiyin)* hər bir şeyin haqqını *(qəzasını)* yerinə yetirmək; beşincisi səy göstərib *(bədənində)* haramdan yaranmış əti hüzn və kədərlə o qədər əridəsən ki, dəri sümüyə yapışsın və onların arasında təzə ət bitsin; altıncısı budur ki, günahın

şirinliyini bədəninə daddırdığın kimi ibadət və bəndəliyin əziyyətini də ona daddırasan. Belə olan halda, *(deyilən şərtlər bir yerə toplanan zaman)* «أَسْتَغْفِرُ اللهَ» «əstəğfirullah» *(Allahdan bağışlanmaq istəyirəm)* deyərsən.

# 410

İmam Əli əleyhis-salam *(səbrliliyin xeyiri barəsində)* buyurmuşdur:

Səbrlilik qəbilədir *(qəbilə və qohumlar insanı düşmənin şərindən qoruduğu kimi, səbr də insanı qoruyur. Yaxud də məqsəd budur ki, səbrliliyə görə xalq həmin şəxslə dostlaşar və onun yardımçısı olar, sanki o, qəbilə sahibi olub).*

# 411

İmam Əli əleyhis-salam *(insanın acizliyi barəsində)* buyurmuşdur:

Yazıq və aciz Adəm övladı: əcəli gizlidir *(nə vaxt öləcəyini bilmir)*, xəstəlik və dərdləri naməlumdur *(həmişə acı hadisələr və xəstəliklərə düçar olmaq təhlükəsindədir)*, əməli saxlanılır *(əməl dəftərində yazılır və əgər özünün yadından çıxsa da unudulmaz)*. Ağcaqanad onu incidir, suyun boğazda qalması onu öldürür və tər onu iyləndirir. *(Bütün bunlarla yanaşı belə bir kəsə lovğalıq və məğrurluq edərək öyünmək yaraşırmı?!)*

# 412

Nəql edilib ki, İmam Əli əleyhis-salam öz səhabələrinin arasında oturmuşdu və onların yanından gözəl bir qadın keçdi. Səhabələri ona baxdılar. O Həzrət əleyhis-salam *(qadınlara baxmaqdan çəkindirərək belə)* buyurdu:

Bu erkəklərin gözləri *(kefli və sərxoş dəvə kimi)* şəhvətə bərəlir və bu cür baxışlar onlarda şəhvət və ehtirasların həyacana gəlməsi və oyanmasına səbəb olur. Buna görə də sizlərdən biri ona xoş gələn qadına baxanda gərək öz arvadı ilə yaxınlıq etsin. Çünki o da *(digər)* qadınlar kimi bir

qadındır. *(Qadınlar hamısı ləzzət vermək baxımından birdirlər.)* Sonra xəvaricdən biri dedi: Allah onu kafir Öldürsün, necə də alim edib onu?! Səhabələr sıçrayıb həmin şəxsi öldürmək istədilər. İmam əleyhis-salam buyurdu: Möhlət verin ona *(işiniz olmasın)*. Söyüşün yerinə *(öldürmək deyil)* ya gərək o da söyülsün, ya da günahından keçilsin.

# 413

İmam Əli əleyhis-salam *(ağlın mənfəəti barəsində)* buyurmuşdur:

Ağlından sənə bu *(mənfəət)* bəsdir ki, o sənin üçün azğınlıq yollarını nicat yollarından seçir. *(Çünki bu xeyir və mənfəət bütün xeyirləri əhatə edir.)*

# 414

İmam Əli əleyhis-salam *(yaxşı və xeyir işi kiçik saymamaq barəsində)* buyurmuşdur:

Yaxşı iş görün və onun azını kiçik hesab etməyin. Çünki onun kiçiyi *(Allahın yanında)* böyük, azı *(azının savabı)* çoxdur. Gərək sizlərdən heç kəs «başqası yaxşı iş görməyə məndən daha layiqdir» deməsin. Allaha and olsun ki, başqası daha layiq olar. *(Çünki)* yaxşı ilə pisin hər birinin öz adamı var və siz onlardan hər hansı birini tərk etsəniz, adamı onu sizin yerinizə yerinə yetirəcək *(və onu yerinə yetirən daha layiqdir)*.

# 415

İmam Əli əleyhis-salam *(səadətə çatmaq barəsində)* buyurmuşdur:

Kim öz gizlinini düzəltsə *(düşüncəsini paklaşdırsa)* Allah onun aşkarını düzəldər *(gözəlləşdirər)*. Kim dini üçün iş görsə, Allah onun dünya işini təmin edər *(çətinliklərdən qurtarar onu)*. Kim özü ilə Allah arasında olan şeyi gözəlləşdirsə *(Allahdan başqasından gözünü çəksə)* Allah onunla xalq arasında olanları gözəlləşdirər *(xalqı ona qarşı mehribanlaşdırar)*.

# 416

İmam Əli əleyhis-salam *(səbr və ağıl barəsində)* buyurmuşdur:

Səbr *(eybləri)* örtən pərdədir. Ağıl *(pis işlərə əmr edən nəfsi)* kəsən qılıncdır. Belə isə xasiyyətinin eyblərini səbrliliklə ört və nəfsini və şəhvətini ağıl ilə öldür.

# 417

İmam Əli əleyhis-salam *(ehtiyacı olanlara əl tutmağa həvəsləndirərək)* buyurmuşdur:

Allahın bəzi bəndələri var ki, O, *(digər)* bəndələrinin xeyri üçün onlara nemətlər ayırır. Onlar nə qədər ki, *(həmin nemətlərdən ehtiyaclılara və əl altında olanlara)* bağışlayırlar, Allah həmin nemətləri onların əllərində saxlayır. Həmin nemətləri əsirgəyəndə *(heç kəsə bir şey verməyəndə)* isə onları onlardan alıb başqalarına həvalə edir *(ki, möhtacların yolunda sərf etsinlər)*.

# 418

İmam Əli əleyhis-salam *(sağlamlıq və varlılıq barəsində)* buyurmuşdur:

Bəndənin iki şeyə arxalanması yaraşmaz: sağlamlıq və varlılıq. *(Çünki)* onu sağlam gördüyün əsnada birdən xəstələnər; varlı gördüyün əsnada birdən yoxsullaşar.

# 419

İmam Əli əleyhis-salam *(ehtiyaclılıqdan gileylənmək barəsində)* buyurmuşdur:

Kim ehtiyacından möminin yanında gileylənsə, sanki gileyini Allaha deyib. *(Çünki mömin Allahın dostudur.)* Amma kim həmin ehtiyacından kafirə gileylənsə, sanki Allahdan gileylənib. *(Çünki kafir Allahın düşmənidir.)*

# 420

İmam Əli əleyhis-salam bayramların birində *(orucluq bayramında)* buyurmuşdur:

Bu gün o adamın bayramıdır ki, Allah onun orucunu qəbul edib və namazını mükafatlandırıb *(təzə paltar geyinən, amma Allahın yanında abrı olmayan kəsin yox)*. Allaha itaətsizlik və günah edilməyən hər bir gün bayram *(şadlıq və şənlik)* günüdür.

# 421

İmam Əli əleyhis-salam *(haram malın ziyanı barəsində)* buyurmuşdur:

Qiyamət gününün ən böyük peşmançılığı o şəxsin peşmançılıq və əfsusudur ki, var-dövlətini haram yolla qazanıb və digər bir şəxs onu irs apararaq Allahın itaət və bəndəliyində sərf edib. Beləliklə, həmin şəxs cənnətə, haram var-dövləti qazanan isə oda daxil olar.

# 422

İmam Əli əleyhis-salam *(çox çalışmağın ziyanı barəsində)* buyurmuşdur:

İnsanların alış-verişdə ən çox ziyana uğrayanı və səy və təlaşda ən ümidsizi o kəsdir ki, bədənini öz arzularına çatmaq üçün köhnəldib *(özünü qocaldaraq ömrünü başa çatdırıb)*, amma qəza-qədərlər istəyində ona yardım etməyiblər *(o, öz arzularına çatmayıb)*. Beləliklə, o, həsrət və əfsusla dünyadan gedər və *(çox çalışmalarında qazandığı)* günahları ilə axirətə daxil olar.

# 423

İmam Əli əleyhis-salam *(ruzi barəsində)* buyurmuşdur:

Ruzi iki cürdür: biri səni axtarar, digərini isə sən axtararsan. Buna görə də kim dünyanı istəsə *(ruzi üçün özünü çətinliyə salsa)* ölüm onu axtarar, arxasınca düşər ki, dünyadan çıxarsın. Amma kim axirəti istəsə *(itaət və bəndəliklə məşğul olaraq ruzi üçün ehtiyacından artıq çalışmasa)*

dünya onu axtarar ki, o, öz ruzisini ondan tam şəkildə alsın. *(Xülasə, axirət istəyəni ruzi özü axtarar, dünyatələb isə ruzini özü axtarar.)*

# 424

İmam Əli əleyhis-salam *(Allahın dostlarının bəzi xislətləri barəsində)* buyurmuşdur:

Allahın dostları camaat dünyanın zahirinə *(zinət və bəzəyinə)* baxanda onun batininə *(yox olacağına)* baxanlar, camaat onun bu günü ilə məşğul olanda *(dünya malı əldə etmək fikrində olanda)* onun sonu ilə məşğul olanlardır *(ölüm səfəri üçün azuqə toplayanlardır)*. Beləliklə, onlar dünyanın onları öldürməsindən qorxduqları şeyi öldürərlər *(ilahi əzab və cəzaya səbəb olan şeydən çəkinərlər),* onun onları tərk edəcəyini bildikləri şeyini tərk edərlər *(onlardan ayrılacağını bildikləri üçün onun malına ürək bağlamazlar),* dünyadan başqalarının çox bəhrələnmələrinin *(axirət bəhrələrinə nisbətdə)* az olmasını və dünyanı əldə etmələrinin *(əbədi səadəti)* itirmək olduğunu *(əbədi səadəti əldən çıxarmağa səbəb olmasını)* görərlər. Onlar camaatın barışdığı şeylə düşmən, camaatın düşmən olduğu şeylə isə barışıqdadırlar *(nəfsi istəklərdən çəkinərək onun müqabilində müqavimət göstərərlər)*. Kitab onların vasitəsi ilə tanındı *(xalq Quranın hökmlərini dərk etdi)* və onlar da həmin kitabla tanıdılar; kitab onların vasitəsi ilə öz yerində qaldı *(dəyişdirilmək və azalıb-çoxalmaqdan qorundu)* və onlar həmin kitabla qaldılar *(malik olduqları bütün şeyləri ondan götürdülər)*. Öz ümid və arzularından *(eyb və nöqsan sifətlərindən pak və uzaq Allahın savabından)* üstün ümid, qorxularından (ilahi cəzadan) üstün qorxu görmürlər.

# 425

İmam Əli əleyhis-salam *(ölümü yada salmaq barəsində)* buyurmuşdur:

Ləzzət və şadlıqların kəsilməsini və günahların qalmasını yada salın. *(Ölümün fikrində olun. Çünki onun çatması ilə bir neçə günlük ləzzətlər aradan gedəcək və günahların cəzası həmişəlik olaraq qalacaqdır.)*

# 426

İmam Əli əleyhis-salam *(insanları sınayaraq imtahan etmək barəsində)* buyurmuşdur:

*(İnsanları)* sına ki, *(onları)* düşmən biləsən. *(Çünki zahirdə insanların çoxu pis deyildirlər. Amma sınayanda pislikləri üzə çıxır. Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Bəziləri bu kəlamı Peyğəmbərdən *(səlləllahu əleyhi və alih)* nəql ediblər. Amma bu kəlamın Əmirəl-möminin əleyhis-salamdan olması nəzərinin dəlili, Sələbin bu bəyanıdır: İbn Ərabi bizə nəql etdi ki, Məmun dedi: Əgər Əli əleyhis-salam «sına ki, düşmən biləsən» buyurmuş olmasaydı mən deyərdim ki, «insanları düşmən bil ki, onları sınayasan».(Qeyd)[1]

# 427

İmam Əli əleyhis-salam *(şükr etmək, dua və tövbə barəsində)* buyurmuşdur:

Ola bilməz ki, Allah bəndənin üzünə şükr qapısını açsın *(şükr etməyə əmr etsin)*, amma artım qapısını onun üzünə bağlasın *(neməti artırmasın)*; dua və istəmək qapısını açsın *(Ondan istənilməsinə əmr etsin)*, amma rəva olmaq qapısını

---

[1] *Məmunun bu sözündən məqsəd budur ki, biri ilə dostluq etmək eybləri örtür və onun vəziyyətini onu düşmən hesab etdikdən sonra olduğu kimi dərk edə bilərsən. Amma pak insanlara birini sınamamış onu düşmən bilmək yaraşmaz. Buna görə də Məmunun sözü dünyataləblərin işinə daha çox yarayar. Qeyd etmək lazımdır ki, əsas mətndəki «أُخْبُرْ» «uxbur» kəlməsi felin əmr formasıdır, «خَبَرَ الشَّيْءَ يَخْبُرُ» «xəbərəş-şəyə yəxburu»dan götürülüb və mənası «bir şeyi sınayıb bilmək»dir. «تَقْلِهْ» «təqlih» kəlməsi isə felin əmrdən sonra gəlmiş indiki-gələcək zaman formasıdır. Onun axırındakı «هاء» «ha» hərfi durğu üçündür.Onun əsli «رَمى يَرمِى» «rəma yərmi»vəznində olan «قَلاهُ يَقْلِى» «qəlahu yəqli»dir və mənası «düşmən bilmək»dir.*

üzünə bağlasın *(onun istəyini qəbul etməsin)*; tövbə qapısını açsın, amma bağışlamaq qapısını onun üzünə bağlasın *(günahlarını bağışlamasın)*.

## 428

İmam Əli əleyhis-salam *(comərdlik barəsində)* buyurmuşdur:

İnsanların comərdliyə ən layiqlisi comərdlərin onda kök atdığı *(ata-babaları yaxşı və comərdlərdən olmuş)* kəsdir. (Qeyd)[1]

---

[1] *Bu kəlam «Nəhcül-Bəlağə»nin nüsxələrində yoxdur və biz onu İbn Əbil Hədidin nüsxəsindən nəql etdik.*

# 429

İmam Əli əleyhis-salamdan soruşdular ki, ədalətlilik üstündür, yoxsa səxavətlilik? O Həzrət *(ədalətin səxavətdən üstün olması barəsində belə)* buyurdu:

Ədalət işləri öz yerinə qoyur, səxavət isə onları öz yerindən çıxardır. *(Çünki səxavətli şəxs lazım olandan artıq bağışlayır.)* Ədalət hamını saxlayır, səxavət isə ancaq bəxşiş edilmiş şəxsə xeyir verir. Buna görə də ədalət daha şərəfli və daha üstündür.

# 430

İmam Əli əleyhis-salam *(nadanlığın məzəmmətində)* buyurmuşdur:

İnsanlar bilmədikləri şeyin düşmənidirlər. *(Çünki nadanlar bildikləri şeyi elm, ondan qalan şeyləri isə səhv sanarlar, necə ki, Qurani-Kərimin Yunus surəsinin 39-cu ayəsində buyurulur*: « **بَلْ كَذَّبُواْ بِمَا لَمْ يُحِيطُواْ** » *«Qavraya bilmədikləri şeyi inkar edirlər.»)*

# 431

İmam Əli əleyhis-salam *(pərhizkarlıq və zahidlik barəsində)* buyurmuşdur:

Zahidlik və pərhizkarlığın hamısı Quranın iki kəlməsində xülasə edilib. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah (*Hədid surəsinin 23-cü ayəsində)* buyurmuşdur: «**لِكَيْلَا تَأْسَوْا عَلَى مَا فَاتَكُمْ وَلَا تَفْرَحُوا بِمَا آتَاكُمْ**» «ki, heç vaxt əlinizdən çıxana kədərlənməyəsiniz və sizə verilənə sevinməyəsiniz.» Keçmişə heyfslənməyən və gələcəyə sevinməyən kəs, zahidliyi onun iki tərəfindən *(keçmişə və gələcəyə etinasızlıqla)* əldə edib.

# 432

İmam Əli əleyhis-salam *(hökmdarlar barəsində)* buyurmuşdur:

Hökumətlər kişilərin *(sınaq)* meydanlarıdır. *(Yarış atları müsabiqə meydanında tanındığı kimi insanların yaxşı və ya pis olmaları da onlar hakimiyyətə gələndə üzə çıxır.)*

# 433

İmam Əli əleyhis-salam *(işdə süstlük barəsində)* buyurmuşdur:

Yuxu gündüzün qərarlarını necə də çox pozur və məhv edir. *(Bu kəlamın şərhi xütbələr fəslində 211-ci kəlamın şərhində deyildi.)*

# 434

İmam Əli əleyhis-salam *(yaşayış yeri barəsində)* buyurmuşdur:

Sənin üçün şəhərin biri digərindən daha münasib deyil. Şəhərlərin ən yaxşısı səni çiyinlərinə alan *(əhalisi səni istəyən və yaşayışında rifah və asayişdə olduğun)* şəhərdir.

# 435

Əştərin *(Allah onu bağışlasın)* ölüm xəbəri İmam Əli əleyhis-salama çatanda *(o Həzrət onun böyüklüyü və cəsurluğu barəsində belə)* buyurmuşdur:

Malik getdi, amma nə idi Malik! Allaha and olsun ki, əgər dağ idisə, ayrı qalmış və əzəmətli bir dağ idi; əgər daş idisə, elə möhkəm daş idi ki, *(böyüklük və möhkəmliyindən)* heç bir dırnaqlı heyvan ondan yuxarı qalxa bilmir və heç bir quş onun üzərindən uçmurdu. *(O, tək və misilsiz idi, heç kəs ona qalib gələ bilməzdi. Seyyid Rəzi əleyhirrəhmə deyir:)*

*(Əsas mətndəki)* «فِنْد» «find» kəlməsi digər dağlardan ayrı olan dağ mənasındadır.

# 436

İmam Əli əleyhis-salam *(işdə əzmkarlıq göstərərək onu davam etdirməyin mədhində)* buyurmuşdur:

Davam etdirilən az iş yorğunluq gətirən çox işdən daha yaxşıdır. *(Bu kəlam elə 270-ci kəlamdır, amma kəlmələrində olan bir az fərqlə ki, onun şərhi orada deyildi.)*

# 437

İmam Əli əleyhis-salam *(sifətlərin inkişaf etməsi barəsində)* buyurmuşdur:

Birində *(yaxşı və pisliyindən asılı olmayaraq)* təəccüblü bir sifət və xislət olsa, onun bənzərlərini gözləyin. *(Əgər həmin sifət yaxşı idisə daha yaxşı, pis idisə daha pis olacaq.)*

# 438

İmam Əli əleyhis-salam söhbət əsnasında *(şair)* Fərəzdəqin atası Qalib ibn Səsəəyə dedi:

Çoxsaylı dəvələrini neylədin? Qalib dedi: Haqlar *(xalqın onda olan haqları)* onları dağıtdı *(sədəqə, zəkat, qohum-əqrabaya kömək və borcun ödənilməsi kimi xeyirli yollarda işlədildi)*. O Həzrət əleyhis-salam *(xalqın haqqını ödəməyin mədhində)* buyurdu: Bu dağılmaq o dəvələrin dağılma yollarının ən tərifə layiqidir.

# 439

İmam Əli əleyhis-salam *(dinin hökmlərini bilməməyin ziyanı barəsində)* buyurmuşdur:

Dinin hökmlərini bilmədən alver edən kəs ribaya *(borcda harama və ilahi cəzaya səbəb olan faiz alıb verməyə)* batar *(düçar olar)*.

# 440

İmam Əli əleyhis-salam *(naşükrlüyün ziyanı barəsində)* buyurmuşdur:

Kim kiçik müsibət və kədərləri böyük saysa, Allah onu onların daha böyüyünə düçar edər. (Qeyd)[1]

---

[1] *Çünki kiçik müsibəti böyük saymaq ilahi qəza-qədərə razı olmamağa dəlalət edir ki, bunun özü insanın bəla və kədərin daha çoxuna layiq olmasına səbəb olur. Amma insan qarşıya çıxan bəla və çətinlikdə Allaha şükr etsə, onu dəf etməyə hazırlaşar.*

## 441

İmam Əli əleyhis-salam *(şərəf və heysiyyət barəsində)* buyurmuşdur:

Kimin nəfsi möhtərəm və uca olsa *(kim özünü şərəfli bilsə)*, şəhvətləri onun yanında xar olar *(zillət və xarlığa düşməmək üçün onlara tabe olmaz)*.

## 442

İmam Əli əleyhis-salam *(zarafatın ziyanı barəsində)* buyurmuşdur:

Növündən asılı olmayaraq zarafat etmiş hər bir şəxs mütləq ağlının bir hissəsini müəyyən şəkildə itirəcəkdir. *(Zarafat ağlın yüngülləşməsinə səbəb* olur.)

## 443

İmam Əli əleyhis-salam *(qarşılıqlı ünsiyyətdə olmaq barəsində)* buyurmuşdur:

Sənin, sənə rəğbəti olan kəsə etinasızlığın pay və qismətin azlığıdır *(azalmasına səbəb olur)*. Sənə etinasız olan kəsə rəğbət göstərməyin isə nəfsin zilləti və xarlığıdır *(xarlığına səbəb* olur*)*.

## 444

İmam Əli əleyhis-salam *(Abdullah ibn Zübeyrin məzəmmətində)* buyurmuşdur:

Zübeyr onun nəhs oğlu Abdullah böyüyənə kimi həmişə biz əhli-beytdən *(qohumlarımızdan)* idi. (Qeyd)[1]

---

[1]*Abdullah bizimlə qohumluq əlaqələrini qırdı. Çünki o, Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) səhabələrindən olmasına baxmayaraq o Həzrətdən* sonra *zındıq* oldu, *yəni, mərhum Maməqaninin «Tənqihul-məqal» kitabında* dediyi kimi zahirdə özünü *imanlı kimi göstərməsinə baxmayaraq batində kafir oldu. Mərhum Məclisinin «Biharul-ənvar» kitabında deyilir ki: Abdullah ibn Zübeyr Bəni Haşimlə düşmənçilik edir, Əli əleyhis-salamı lənətləyir və*

## 445

İmam Əli əleyhis-salam *(öyünmək və məğrurluğun məzəmmətində)* buyurmuşdur:

Adəm övladının fəxr etmək və öyünməklə nə işi ki, əvvəli nütfə, axırı isə iylənmiş leşdir; nə özünə ruzi verir, nə də öz ölümünü dəf edir.

## 446

İmam Əli əleyhis-salam *(həqiqi zənginlik və yoxsulluq barəsində)* buyurmuşdur:

Zənginlik və yoxsulluq *(qiyamət günü)* vəziyyət məlum olandan və əməllər Allaha göstəriləndən sonradır. *(Həqiqi varlı o kəsdir ki, qiyamət günü ilahi savab və əbədi cənnət onun nəsibi olsun. Həmçinin həqiqi yoxsul o kəsdir ki, həmin gün Allahın cəza və əzabına düçar olsun.)*

## 447

İmam Əli əleyhis-salamdan şairlərin ən böyüyünün kim olmasını soruşublar. O Həzrət *(İmrəul Qeys barəsində)* buyurmuşdur:

Şairlər bir dəstə mərc atlarında çapmayıblar ki, onların kamilliklərinin sonu girov qamışın götürülməsində bilinsin. *(Şairlərin şerlərinin hamısı bir səpkidə deyil və ona görə onların birini digərindən üstün tutmaq olmaz.)* Əgər kiməsə üstünlük vermək labüd və zəruri olsa, onda «azğın şah» üstündür. *(Seyyid Rəzi-rəhiməhullah-deyir:)* Həzrətin «الْمَلِكُ الضِّلِّيلُ» «əl-məlikuz-zəlil», yəni, azğın şah ifadəsindən məqsədi İmrəul Qeysdir. *(Onu şah adlandırmasının səbəbi şerlərinin gözəlliyidir. Azğın adlandırılmasının səbəbi isə onun kafir və fasiq olmasıdır.)*

---

*söyürdü. Sünni və şiə müəlliflərin öz kitablarında nəql etdikləri bu kəlam «Nəhcül-Bəlağə»nin nüsxələrində yoxdur və biz onu İbn Əbil Hədidin nüsxəsindən nəql etdik.*

## 448

İmam Əli əleyhis-salam *(dünyadan uzaq olmağa həvəsləndirərək)* buyurmuşdur:

Bir azad kişi yoxdurmu ki, ağızda qalmış bu artığı *(alçaq dünyanı)* öz əhlinin *(kafir və münafiqlərin)* ixtiyarına buraxsın? Sizin canlarınızın qiyməti və dəyəri ancaq cənnətdir. Buna görə də onları həmin qiymətdən başqa heç nəyə satmayın.

## 449

İmam Əli əleyhis-salam *(elm və dünya istəyən barəsində)* buyurmuşdur:

İki yeyən doymaz: elm axtarışı və arzusunda olan *(ki, hər nə qədər məsələlər aşkar olsa yenə də digər bir məchulu məlum etmək istəyər)* və dünya istəyən *(ki, hər nə qədər dünya malı əldə etsə yenə də digər şeylər əldə etmək arzusunda olar)*.

## 450

İmam Əli əleyhis-salam *(imanın bəzi nişanələri barəsində)* buyurmuşdur:

İmanın nişanəsi budur ki, sənə ziyan vuracaq yerdə doğru danışmağı sənə xeyir gətirəcək yerdə yalan danışmaqdan üstün tutasan və danışığın biliyindən artıq olmasın. (Qeyd)[1] Həmçinin başqası barəsində danışmaqda Allahdan qorxasan. (Qeyd)[2]

---

[1] *Bildiyini deyəsən, bilmədiyin şeydə isə susasan. «Nəhcül-Bəlağə»nin bəzi nüsxələrində «عَنْ عِلْمِكَ» əvəzinə «عَنْ عَمَلِكَ» yəni, «danışığın biliyindən artıq olmasın» yerinə «danışığın əməlindən artıq olmasın» yazılıb. Yəni, yerinə yetirdiyindən artıq danışmayasan.*

[2] *Heç kəs barəsində pis danışmayasan, eşitməyəsən və bilmədən şahidlik etməyəsən. Bəlkə də məqsəd budur ki: Başqasından söz nəql edəndə Allahdan qorxasan. Yəni, onu azaldıb çoxaltmadan deyəsən və ona yalan qoşmayasan.*

# 451

İmam Əli əleyhis-salam *(tədbir tökmək və uzaqgörənliyə arxalanmamaq barəsində)* buyurmuşdur:

İlahi qəzavü-qədər hesablamaları *(bəndənin özü üçün cızdığı planları)* elə qabaqlayır ki, *(bəzən)* bəla və məhv tədbir tökmək və uzaqgörənlikdə olur. *(Buna görə də insan təvəkküldən əl götürməməli, öz tədbir və fikirlərinə arxalanmamalıdır. Seyyid Rəzi əleyhir-rəhmə deyir:)* Bu məna bundan qabaq (on altıncı kəlamda) kəlmələri bu kəlmələrdən bir qədər fərqli olan bir rəvayətdə keçdi.

# 452

İmam Əli əleyhis-salam *(səbrlilik və tələsməmək barəsində)* buyurmuşdur:

Səbr və tələsməmək bir qarından olan ekizlərdirlər ki, onları himmət və möhkəm iradə doğur. *(Səbrlilik və tələsməmək bir dərəcə və mərtəbədədirlər. Yüksək himmətə malik olan şəxs tez qəzəblənməyib səbr göstərdiyi kimi işlərdə tələskənlik də etmir və işin sonunu fikirləşir.)*

# 453

İmam Əli əleyhis-salam *(qeybət etməyin məzəmmətində)* buyurmuşdur:

Qeybət etmək və *(birinin)* arxasınca danışmaq aciz şəxsin cəhdidir *(aciz şəxsin öz düşmənindən intiqam ala bildiyi və ya həsəd apardığı şəxsin dalınca pis danışmaq üçün istifadə etdiyi yeganə vasitədir)*.

# 454

İmam Əli əleyhis-salam *(bəndələrin imtahan edilmələri barəsində)* buyurmuşdur:

Nə çox adam ki, barəsindəki gözəl sözlər səbəbindən *(xalqın onun barəsində olan xoş sözlərinə görə)* fitnə və çətinliyə düşüb. (Qeyd)[1]

# 455

İmam Əli əleyhis-salam *(dünya barəsində)* buyurmuşdur:

Dünya özü üçün deyil, başqası üçün yaradılıb. *(Dünya axirət üçün bir yoldur ki, insan savab əldə etmək üçün gərək onda bəndəlik etsin; həmişəlik deyil ki, onda ancaq vaxtı yaxşı keçirməklə məşğul olsun!)*

---

[1] *Bu cümlənin şərhi 112-ci kəlamda keçdi.*

# 456

İmam Əli əleyhis-salam *(Bəni Üməyyə dövlətinin dağılması barəsində)* buyurmuşdur:

Bəni-Üməyyə üçün bir möhlət zamanı və bir fürsət meydanı vardır ki, onda *(səltənət və şahlıq atını)* çaparlar. Aralarında xilafət və şahlıq üstündə dava-dalaş düşəndən sonra goreşənlər *(alçaq və nanəciblər)* aldatmaq yolu ilə onlara hakim olarlar(Qeyd)[1]. *(Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

*(Əsas mətndə passiv növün feli sifəti olan)* «أَلْمُرْوَدُ» «əl-murvəd» kəlməsinin kökü «الْإِرْوادُ» «əl-irvad»dır və mənası möhlət və fürsət verməkdir. O, «مُفْعَل» «mufəl» vəznindədir. Bu ən dolğun və heyrətləndirici sözlərdəndir. Sanki o Həzrət əleyhis-salam onlara verilmiş zaman möhlətini, onların axırına kimi çapdıqları və sona çatandan sonra işlərinin nizam-intizamı pozulan meydana bənzədib.

# 457

İmam Əli əleyhis-salam Ənsarın mədhində buyurmuşdur:

Allaha and olsun ki, onlar var-dövlətləri, səxavətli əlləri və iti dilləri ilə İslamı süddən ayrılmış *(və ya bir yaşı olan)* at balası bəslənən kimi bəsləyərək yetişdirdilər. (Qeyd)[2]

---

[1] *İbn Əbil Hədid burada belə yazır: Bu kəlam o Həzrətin qeybdən verdiyi tam aşkar bir xəbərdir. Bəni Üməyyənin hakimiyyətinin kökünün kəsilməsi Əbu Müslimin əli ilə olub. İşin əvvəlində o, camaatın ən aciz və yoxsulu olub.*

[2] *İslam üçün lazım olan hər bir işi gördülər. İslam yolunda fədakarlıq etməkdə heç nədən çəkinmədilər. Allahın, gizlində olan İslam dinini onların vasitəsi ilə aşkar etməsində heç bir şəkk-şübhə yoxdur. Əgər onlar olmasaydılar Mühacirlər Qureyşlə müharibə etməkdə və Allahın Peyğəmbərini (səlləllahu əleyhi və alih) himayə edərək qorumaqda aciz qalardılar.*

## 458

İmam Əli əleyhis-salam *(gözün açıq olması barəsində)* buyurmuşdur:

Göz düz bağırsağın bağıdır. (Qeyd)[1] *(Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

Bu kəlam heyranedici metaforalardandır. Sanki Həzrət düz bağırsağı qaba, gözü isə bağa oxaşadıb ki, bağ açılanda qab öz vəziyyətində qalmır *(içində olanlar çölə tökülür)*. Daha məşhur nəzərə əsasən bu kəlam Həzrət Peyğəmbərin *(səlləllahu əleyhi və alih)* kəlamlarındandır. Bir dəstə isə onu Əmirəl-möminin əleyhis-salamdan nəql edib. Bu məsələni Mübərrəd «əl-Müqtəzəb» kitabının «əl-ləfz bil-huruf» fəslində bəyan edib. Biz bu metafora barəsində özümüzün «Məcazatil-asaril-nəbəviyyə» adlı kitabımızda söhbət etmişik.

## 459

İmam Əli əleyhis-salam *(Ömər ibn Xəttab barəsindəki)* bir kəlamında buyurmuşdur:

*(Əbu Bəkrdən sonra)* bir vali xalqa hakim oldu *(Ömər xilafət məqamında oturdu)*. Beləliklə, *(xilafət işini)* bərpa etdi və müqavimət göstərdi *(hamıya hakim oldu)*, nəhayət, *(dəvə istirahət*

---

[1] *Nə qədər ki, göz açıqdır və insan yatmayıb tuluğun bağı bağlı olanda ondan su axmadığı kimi, insan da mədə yelinin çıxmasının qarşısını alır. Amma göz yuxuya getdikdən sonra onun xaric olması ehtimalı var. Bəlkə də buna görə deyiblər ki: Yuxu dəstəmazın pozulmasına səbəb olur. Bəlkə də məqsəd budur ki, əgər insan yeməli şeylərə göz yummasa gördüyü hər bir şeydən yeməyə meyl göstərər və yeməyində ifrata varar. Nəticədə köpmə və qarınağrısına düşər. Həmçinin ola bilər məqsəd bu olsun ki, əgər insan özündən sonraya və öz gələcəyinə baxsa çətinlik və pis hadisələrdən qurtula bilər. Deməli, göz insanın gələcəyinin bağıdır və əgər insan onu bağlayaraq gələcək və sonraya baxmasa məhv və bəlaya düçar ola bilər.*

*edəndə boynunun qabağını yerə qoyub sakitləşdiyi kimi)* din qərar tutdu. (Qeyd)[1]

## 460

İmam Əli əleyhis-salam *(qarşıya çıxacaq xoşagəlməz hadisələr barəsində)* buyurmuşdur:

İnsanlar üçün elə bir tikanlı *(və çətin)* zaman gələcək ki, onda varlı əllərində olanlarla möhkəm sancacaq *(mal və sərvətində xəsislik edərək onu Allah yolunda verməyəcək)*, halbuki bu işə əmr olunmayıb. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah *(Qurani-Kərimin Bəqərə surəsinin 237-ci ayəsində)* buyurub: «وَلاَ تَنسَوُاْ الْفَضْلَ بَيْنَكُمْ» «Bir-birinizə yaxşılıq etməyi unutmayın *(bir-birinizə yardım edin)*!» Həmin zamanda pis əməl sahibləri qalxaraq öyünər, yaxşı əməl sahibləri isə xar və zəlil olarlar. Və acizlər və biçarələrlə alver edərlər *(onlara baha satarlar, onlardan alanda isə ucuz alarlar)*. Halbuki Allahın Peyğəmbəri *(səllallahu əleyhi və alih)* acizlərə *(yemək)* satmağı *(və ya onlarla alver etməyi)* qadağan edib. *(Çünki onlara kömək olunmalıdır, yaxud onlarla, aciz olmayanlarla aparılan alver kimi alver edilməlidir. Yəni, onlara kömək edilməsə də, heç olmasa alverdə onları aciz görüb aldatmaq olmaz və hamı ilə çəki və qiymətdə necə alver edilirsə onlarla da elə alver edilməlidir.)*

## 461

İmam Əli əleyhis-salam *(öz dost və düşməni barəsində)* buyurmuşdur:

Mənə görə iki nəfər həlak və məhv olacaqdır: *(Biri məni sevməkdə)* ifrata varan dost və *(digəri mənə)* yalan yapışdıran böhtançı *(ki, mənə, məndə olmayan şeyi nisbət verər. Seyyid Rəzi əleyhir-rəhmə deyir:)* Bu kəlam o Həzrət əleyhis-salamın bu *(yüz on üçüncü)* kəlamı kimidir ki: Mənim yolumda iki nəfər həlak

---

[1] *Məqsəd budur ki, müsəlmanlar çoxlu fitnə və qalmaqaldan sonra onun hökmünü qəbul etdilər və ona tabe oldular.*

oldu: ifrata varan dost və düşmənçiliyində həddini aşan düşmən. *(Bu kəlamın şərhi öz yerində bəyan edilib.)*

# 462

İmam Əli əleyhis-salamdan tovhid və ədalət *(onların mənaları)* barəsində soruşdular. O Həzrət buyurdu:

Tovhid və Allahı tək bilmək Onu fikir və xəyala gətirməməyindir. *(Çünki zehn və xəyala gələn şey sənin kimi məxluqdur.)* Ədalət Onu *(Ona layiq olmayan şeylərdə)* ittiham etməməyindir. *(Çünki nalayiq iş görməyin səbəbi ya nadanlıq və cəhalətdir, ya da ehtiyac və naçarlıq ki, Allah bunların hər ikisindən uzaq və pakdır.)*

# 463

İmam Əli əleyhis-salam *(yersiz susmağın və yersiz danışmağın məzəmmətində)* buyurmuşdur:

Cəhalət və nadanlıqla danışmaqda xeyir olmadığı kimi hikmət və elmlə *(danışmaq lazım olan zaman)* susmaqda da xeyir yoxdur.

# 464

İmam Əli əleyhis-salam *(Allahdan)* yağış yağmasını istədiyi duada belə buyurmuşdur:

Allahım, bizə itaətsiz bərk buludlarla *(yük çəkməyən itaətsiz dəvələr kimi olan yağışsız buludlarla)* deyil, itaətkar ram buludlarla *(ram olub yük çəkən dəvələr kimi olan yağışlı buludlarla)* su ver. *(Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

Bu kəlam fəsahət və dolğunluğu heyrətləndirici olan kəlamlardandır. Belə ki, İmam əleyhis-salam gurultulu və vahiməli səsli, eləcə də parıltılı, işıqlı, küləkli ildırımlı və alovlu buludları *(belində olan palan və yükləri yerə atmaq üçün)* yüklə birlikdə sıçrayan və minənləri *(yerə yıxmaq üçün)* silkələyən itaətsiz dəvələrə, bu qorxulu şeylərə malik olmayan buludları isə südləri sağılanda itaətkarlıq edən və belinə minəndə xoş davranan ram dəvələrə oxşadıb.

## 465

İmam Əli əleyhis-salama dedilər ki: Ey Əmirəl-möminin, əgər *(saqqalının)* ağ tüklərini dəyişdirsəydin *(onları rəngləsəydin)* yaxşı olardı. Həzrət *(rəng barəsində belə)* buyurdu:

Rəng zinət və gözəllikdir. *(Amma)* biz əzada və qəm-qüssədə olan bir tayfayıq. *(Seyyid Rəzi əleyhir-rəhmə deyir:)*

Həzrətin *(«biz əzada və qəm-qüssədə olan bir tayfayıq» deməkdən)* məqsədi Allahın Peyğəmbərinin *(səlləllahu əleyhi və alih)* vəfatıdır. *(Rəng barəsində on yeddinci kəlamın şərhində də danışılıb.)*

## 466

İmam Əli əleyhis-salam *(iffətliliyin mədhində)* buyurmuşdur:

Allah yolunda şəhid olmuş mücahidin savabı *(haram və nalayiq işlər görmək)* qüdrət və imkanı olan, amma iffət-ismət göstərən kəsdən çox deyil. *(Haram və nalayiq işlərdən çəkinən)* iffətli şəxsin mələklərdən biri olması daha yaxındır. *(Bu kəlam «Nəhcül-Bəlağə»nin nüsxələrinin çoxunda yoxdur. Biz onu İbn Əbil Hədidin nüsxəsindən nəql etdik.)*

## 467

İmam Əli əleyhis-salam *(qənaətin faydası barəsində)* buyurmuşdur:

Qənaət tükənməz sərvətdir. *(Çünki qənaət və əldə olana qane olmaq ehtiyacı uzaqlaşdırır. Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

Bu kəlam Peyğəmbərdən *(səlləllahu əleyhi və alih) (də)* nəql edilmişdir.

## 468

İmam Əli əleyhis-salam Ziyad ibn Əbihi Abdullah ibn Abbasın yerinə Fars vilayəti və onun ətraf bölgələrinə vali təyin edən zaman aralarında olan uzun bir söhbətdə onu *(rəiyyətdən)* vergiləri qabaqcadan almaqdan çəkindirərək buyurmuşdur:

*(Rəiyyətlə)* ədalətli və insaflı ol və yolu azmaqdan və zülmdən qorx. Çünki yolu azmaq *(insafsızlıq)* didərginliyə *(onların didərgin düşmələrinə)* səbəb olur və zülm, qılınca *(rəiyyətlə vali arasında çəkişmə və dava-dalaş yaranmasına)* gətirib çıxarır *(yaxud zülm, valinin rəiyyətin əli ilə öldürülməsinə səbəb olur).*

# 469

İmam Əli əleyhis-salam *(günah barəsində)* buyurmuşdur:

*(Allah yanında)* ən ağır günah, insanın yüngül və kiçik hesab etdiyi günahdır. (Qeyd)[1]

# 470

İmam Əli əleyhis-salam *(nadanı öyrətməyə təşviq edərək)* buyurmuşdur:

Allah alimlərdən öyrətmələri barəsində əhd-peyman almayınca nadanlardan öyrənmələri barəsində əhd-peyman almadı. *(Nadanlara öyrənməyi o vaxt vacib etdi ki, ondan qabaq alimlərə öyrətməyi və elmlərini gizlətməməyi vacib etmişdi.)*

# 471

İmam Əli əleyhis-salam *(dostu əziyyətə salmağın məzəmmətində)* buyurmuşdur:

Qardaşların *(dostların)* ən pisi insanın ona görə zəhmətə düşdüyü *(dostluğu çətinlik və əziyyətə səbəb olan)* kəsdir. *(Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

Çünki «**تَكْلِيف**» «təklif», yəni, taqətdən artıq olan şey məşəqqətə səbəb olur və məşəqqət insanı zəhmətə salan qardaş və dostun bais olduğu şər və pislikdir. Buna görə də o, qardaşların ən pisidir.

# 472

İmam Əli əleyhis-salam *(dostu itirmək barəsində)* buyurmuşdur:

---

[1] *Çünki günah hətta kiçik olsa belə, ona etinasızlıq cəzadan qorxmamaq və tövbə etməməyə səbəb olur. Nəticədə insanın vərdişinə çevrilərək onun ruhuna nüfuz edir və o, heç bir günahdan, hətta hər nə qədər böyük olsa belə, qorxmur. Bu mətləb eyni ilə 340-cı kəlamda keçdi, bir fərqlə ki, burada işlənmiş «**مَا اسْتَخَفَّ**» «məs-təxəffə» felinin yerinə orada «**مَا اسْتَهَانَ**» «məs-təhanə» felindən istifadə edilib.*

Mömin öz qardaşını *(dostunu)* qəzəbləndirən *(və ya utandıran)* zaman ondan ayrılıb. *(Qəzəbləndirmək və ya xəcalətli etmək ayrılığa səbəb olur. Seyyid Rəzi-rəhiməhullah-deyir:)*

*(Ərəb dilində)* birini qəzəbləndirən zaman «حَشَمَهُ» «həşəməhu» və «أَحْشَمَهُ» «əhşəməhu» deyilir. Bəziləri onun, «xəcalətli etmək, utandırmaq» (mənasında) olmasını deyiblər. «إِحْتَشَمَهُ» «ihtəşəməhu» (yəni,) «onun qəzəblənməsini və ya xəcalətli olmasını istədi». Və bu, (elə) onun ayrılığını güman etməkdir.

* * *

İndi işimiz sona çatdı və biz Əmirəl-möminin Əli əleyhis-salamın kəlamlarından seçdiklərimizdən əl götürüb eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allaha, bizə o Həzrətin kəlamlarının pərakəndə olanlarını bir yerə toplamaq və uzaq olanlarını yaxınlaşdırmaq imkanı və şəraiti yaradaraq minnnət qoyduğu üçün şükr edirik. İstəyirik, kitabın əvvəlində vədələşdiyimiz kimi əldən çıxanları geri almaq və əldə edilənləri bir-birinə birləşdirmək üçün hər fəslin sonuna bir neçə ağ səhifə artıraq ki, bəlkə bizə qaranlıq olan söz aşkar olsun və ayrılıqdan sonra bizə çatsın. İşimizdə müvəffəqiyyət qazanılması üçün lazım olan hər bir şey ancaq və ancaq Allahın kömək və yardımı ilə mümkün olub. Ona təvəkkül edir və arxalanırıq; O, bizə bəsdir və O, ən gözəl vəkil və yardımçıdır.

***Bu kitab hicrətin dörd yüzüncü ilinin Rəcəb ayında sona çatdı. Allah peyğəmbərlərin sonuncusu və yolların ən yaxşısının bələdçisi, bizim ağa və sərvərimiz Məhəmmədə, onun (hər bir eyb və nöqsandan) pak olan əhli-beytinə və elm və bilik ulduzları olan səhabələrinə salam çatdırsın.***